AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

*Elçin QARAYEV*

# AZƏRBAYCANIN İRƏVAN BÖLGƏSİNİN TARİXİNDƏN

## (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında)

**Bakı – Mütərcim – 2016**

*Monoqrafiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının 2.02.2015-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (2 saylı protokol)*

**Elmi redaktorlar:**

***C.M.Mustafayev,*** *tarix üzrə elmlər doktoru*
***H.N.Həsənov,*** *tarix üzrə fəlsəfə doktoru,*
*Elm üzrə Dövlət mükafatı laureatı*

**Rəyçilər:**

***V.U.Umudlu,*** *tarix üzrə fəlsəfə doktoru,*
*Elm üzrə Dövlət mükafatı laureatı*
***R.Y.Niftəliyev,*** *tarix üzrə fəlsəfə doktoru*
***F.Ə.Tağıyev,*** *tarix üzrə fəlsəfə doktoru*

**Elçin Teymur oğlu Qarayev.**
**AZƏRBAYCANIN İRƏVAN BÖLGƏSİNİN TARİXİNDƏN**
**(XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında).**
– Bakı: Mütərcim, 2016. – 544 səh.

Monoqrafiya XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında Azərbaycanın İrəvan bölgəsinin tarixinə həsr olunmuşdur. Tədqiqat işində ilkin mənbələr və arxiv sənədləri əsasında İrəvan bölgəsinin siyasi-iqtisadi tarixi, tarixi coğrafiyası, əhali və mədəniyyəti haqqında ətraflı məlumat verilmişdir. Burada bölgənin ərazisi və siyasi sərhədləri müəyyənləşdirilmiş, əhalinin etnik, dini, say və sosial tərkibi işıqlandırılmışdır.

Monoqrafiya tarixçi alimlər, şərqşünaslar, müəllimlər, ali məktəb tələbələləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Q $\frac{0505040000}{026}$ 189-16

**© E.T.Qarayev, 2016**

# GİRİŞ

Azərbaycanın ayrı-ayrı bölgələrinin tarixinin tədqiqi vətən tarix elminin ən vacib vəzifələrindən biridir. Qeyd etmək lazımdır ki, Sovet hakimiyyəti illərində (1920-1991) Azərbaycan sovet tarixçiləri vətənimizin tarixinin öyrənilməsində xeyli uğurlar qazanmış, bu sahədə cild-cild əsərlər nəşr olunmuşdu. Lakin obyektiv səbəblərdən tariximizin bəzi məqamları birtərəfli, ideoloji tələblərə uyğun araşdırılmış, saxtalaşdırılmış və əsl tarixi həqiqət xalqımıza təhrif olunmuş formada çatdırılmışdır. Bu baxımdan Azərbaycan tarixinin faktlara söykənən obyektiv, hərtərəfli surətdə tədqiqata böyük ehtiyac vardır.

Xüsusilə, Azərbaycanın ayrı-ayrı bölgələrinin tarixinin öyrənilməsi tariximizin bir çox qaranlıq məqamlarının işıqlandırılması baxımından çox əhəmiyyətlidir. Belə bölgələrdən biri Azərbaycanın qədim və ayrılmaz tərkib hissəsi olan İrəvan bölgəsidir. Bu bölgənin tarixi Azərbaycan tarixşünaslığında çox az öyrənilmiş sahələrdən biridir. Bunun bir çox obyektiv səbəbləri vardır. Belə ki, Rusiya tərəfindən işğal edildikdən sonra çarizmin yeritdiyi siyasət nəticəsində bu bölgə Azərbaycandan qopardılaraq tədricən "erməniləşdirilmiş" və tarixi saxtalaşdırmalara məruz qalmışdır. İstər rus qafqazşünaslarının əsərlərində, istərsə də sovet tarix elmində hökm sürən konsepsiyaya görə, İrəvan bölgəsi ermənilərin uydurduqları "Böyük Ermənistan"ın tərkib hissəsi olduğu göstərilmişdi. Ona görə də, erməni, eləcə də dünya tarixşünaslığında İrəvan əsasən əzəli Ermənistan ərazisi kimi qeyd olunmuş və onun tarixi hərtərəfli təhrif edilmişdir. Azərbaycan sovet tarixşünaslığında isə bu haqda susulmuş, tariximizi obyektiv tədqiq edənlərə millətçi damğası vurulmuş və Azərbaycanın bu əzəli ərazisi sosializmin "beynəlmiləl" və "qardaşlıq" prinsipinə əsasən ermənilərə "güzəşt edilmişdi".

Lakin XX yüzilliyin 90-cı illərin əvvəllərində Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra tariximizin obyektiv şəkildə öyrənilməsi üçün böyük imkanlar yarandı. Bu baxımdan son dövrlərdə tarixçilərimiz Azərbaycanın tərkib hissəsi olan İrəvan bölgəsinin tarixinə dair sanballı elmi əsərlər yazılmağa başlamışlar.

Təqdim olunmuş "Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında)" adlı monoqrafiya Azərbaycanın tərkib hissəsi olan İrəvan bölgəsinin tarixinin araşdırılmasına həsr edilmişdir. İrəvan bölgəsinin zəngin, çox mürəkkəb və ziddiyyətlərlə dolu bu dövr tarixinin araşdırılması son dərəcə əhəmiyyətli və aktual məsələlərdən biridir. Bəhs etdiyimiz dövr İrəvan bölgəsinin tarixinin ayrıca mövzu kimi öyrənilməsi və tədqiq edilməsi zəruliliyi bu günkü Azərbaycan dövlətinin düşdüyü hərbi-siyasi vəziyyətlə də əlaqədar olaraq çox əhəmiyyətlidir. Bu tarixi dövrün digər əsas xüsusiyyəti onunla bağlıdır ki, Rusiyanın köməyi ilə Azərbaycanın bu qədim ərazilərində məskunlaşan ermənilər nəinki burada öz dövlətlərini yaratmğa nail olmuş, eyni zamanda onun tarixini hərtərəfli saxtalaşdırmışlar. Bu azmış kimi onlar bizə qarşı yeni-yeni torpaq iddiaları sürməkdə davam edirlər.

Monoqrafiya İrəvan bölgəsinin siyasi-iqtisadi tarixini, tarixi coğrafiyasını, əhalinin etnik, say və dini tərkibini və mədəni həyatını qərəzsiz, obyektiv tədqiqinə həsr edilmişdir. Qeyd etmək lazımdır ki, son dövrlərdə İrəvan xanlığının siyasi – iqtisadi və mədəni həyatına dair bir sıra əsərlər meydana çıxsa da, bəhs etdiyimiz tarixi dövr indiyədək xüsusi tədqiqat obyekti olmamışdır. Xüsusilə, bölgənin tarixi coğrafiyası və əhalinin etnik və say tərkibinin öyrənilməsi Azərbaycan tarixşünaslığında yeni istiqamətlərdən biridir. İndiyə qədər ayrı-ayrı əsərlərdə İrəvanın tarixi coğrafiyasına və əhali məsələsinə ümumi şəkildə toxunulsa da, bu problem kompleks şəkildə tədqiqat obyektinə çevrilməmişdir. Bəhs etdiyimiz dövrdə siyasi vəziyyətlə əlaqədar olaraq bölgənin sərhədləri daim dəyişikliyə məruz qalmış və bir sıra ərazilər ondan qoparılmışdı. Ona görə də, bir çox ərazilərin İrəvan bölgəsinə məxsusluğu mübahisəli xarakter daşıyırdı. Bununla əlaqədar olaraq,

ayrı-ayrı dövrlərdə tərtib olunmuş xəritələrdə onun bəzi əraziləri öz əksini tapmamışdı. Bu da istər-istəməz əhalinin say tərkibinə ciddi təsir göstərmişdi.

Monoqrafiyada arxiv sənədləri və digər ilkin mənbələr əsasında erməni müəlliflərinin İrəvan bölgəsinin əzəli Ermənistan ərazisi olması, əhalinin etnik tərkibi baxımından ermənilərin üstünlük təşkil etməsi barədə uydurduqları yalanları ifşa etmək və nəhayət bu xalqın İrəvan ərazisinə gəlmə olduqlarını sübut etməkdir. Məhz bu baxımdan monoqrafiya Azərbaycan tarixinin ağ səhifələrinin doldurulması baxımından elmi-praktiki əhəmiyyətə malikdir.

Monoqrafiyanın yazılmasında müxtəlif səpkili qaynaqlardan – yerli, Osmanlı, erməni, rus, gürcü mənbələrindən və bəzi səyyah məlumatlarından istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, haqqında bəhs etdiyimiz dövr çərçivəsində İrəvan bölgəsinin bu və ya digər məsələlərinə toxunarkən, problemin həllinə kömək məqsədilə müqayisə üçün XVII yüzilliyə aid bəzi qaynaqlar da elmi dövrəyyə cəlb olunmuşdu.

XVIII yüzilliyin birinci yarısına aid İrəvan bölgəsi haqqında məlumat verən qiymətli mənbələrdən biri anonim tarixçi tərəfindən yazılmış “Təzkirət-əl-mülk” əsəridir. Bu mənbənin Azərbaycan Milli Elmi Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində saxlanılan və Ə.Rəhmani tərəfinfən tərcümə edilmiş nüsxəsindən istifadə edilmişdir (61). Əsər Səfəvilər dövlətinin böyük bir hissəsini ələ keçirmiş əfqan-gilzayilərin başçısı Əşrəfin sifarişi ilə naməlum müəllif tərəfindən 1725-1729-cu illər arasında tərtib edilmişdi. Səfəvilərin dövlət quruluşuna aid yazılmış bu əsər çox dəyərli mənbədir. Mənbədə Azərbaycan bəylərbəyliklərindən olan, İrəvan bölgəsinin də daxil olduğu Çuxursəd bəylərbəyliyi haqqında da məlumat verilmişdi. Burada ona tabe olan inzibati-ərazilər, ayrı-ayrı ərazilərin hərbi qüvvələri və gəlirləri haqqında məlumata rast gəlmək olar.

XVIII yüzilliyin birinci yarısına aid İrəvan bölgəsinin mahalları, əhalisi, vergi və mükəlləfiyyətləri haqqında fikir yürütməyə imkan verən mənbələrdən biri “İrəvan əyalətinin icmal dəftəri”dir

(38). Qeyd etmək lazımdır ki, 1724-cü ilin payızında İrəvanı ələ keçirən Osmanlı dövləti bölgəni öz qanun-qaydasına tabe etmək və gəlir mənbələrini müəyyənləşdirmək üçün 1728-ci ildə siyahıya-alınma keçirdi. Siyahıyaalınmada İrəvan bölgəsinin inzibati-ərazi quruluşu, əhalinin sayı, etnik, dini və sosial tərkibi, məşğuliyyəti, kənd və şəhərləri haqqında məlumat toplanılmışdı. Bu məlumatlar əsasında qarşıya qoyduğumuz problemləri araşdıra bilərik. Lakin siyahıyaalınma keçirilən dövrün real mənzərəsini əks etdirən bu mənbəyə tənqidi yanaşmaq lazımdır.

Əsərin yazılmasında yerli mənbələrin də xüsusi yeri vardır. Belə mənbələrdən Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində saxlanılan «İrəvanlı Hüseynəli xanın məktubları» əsərini xüsusi qeyd etmək lazımdır (48). Bu məktubların məzmunundan bəhs etməzdən əvvəl onları toplayan müəllif haqqında qısaca məlumat verək: «Məktub»ların müəllifi Məhəmməd Müslüm (Qüdsi) İrəvanda anadan olmuş və təhsilini davam etdirmək üçün bir müddət İsfahanda yaşamışdı. Təhsilini başa vurduqdan sonra öz vətəninə qayıdan Məhəmməd Müslüm 1781-ci ildə Hüseynəli xan (1759-1783) tərəfindən xan divanxanasının mirzəsi təyin edilmiş və ona mühüm sənədlərin mühafizəsi tapşırılmışdı. Bir müddət bu vəzifədə çalışan Məhəmməd Müslüm Məhəmməd xanın (1784-1805) dövründə vəzir təyin olunmuşdu. O, vəzir vəzifəsini yerinə yetirməklə bərabər, müxtəlif illərdə yazılmış köhnə məktubların bir yerə toplanması və qaydaya salınması göstərişini də almışdı. Lakin Məhəmməd Müslümün vaxtı olmadığından məktubların üzünün köçürülməsini bir münşiyə tapşırılmışdı. Beləliklə, yeni vəzirin səyi nəticəsində həmin məktublar bir yerə toplanmış və dövrümüzə «İrəvanlı Hüseynəli xanın məktubları» adı altında gəlib çatmışdır.

Əsərin «İrəvanlı Hüseynəli xanın məktubları» adlanmasına baxmayaraq, bu sənədlər arasında onun oğlanları Qulaməli xana və Məhəmməd xana məxsus xeyli məktublar da vardır. Burada İrəvan hakimlərinin Osmanlı sultanına, paşalarına, Kartli-Kaxetiya çarı II İrakliyə, Xoy xanı Əhməd xan Dünbüliyə, Qarabağlı İbrahimxəlil xana yazmış olduqları məktublar və xanlığın daxili işləri ilə bağlı

verdikləri əmr və göstərişləri toplanmışdır. Məktublardan İrəvan xanlığının siyasi, iqtisadi, ticarət əlaqələrindən, idarəçilik sistemindən, torpaq mülkiyyət formalarından, vergi və əhali haqqında məlumat əldə edə bilmişik. Qeyd etmək lazımdır ki, bu sənədlərin İrəvan xanlığı ilə bağlı bəzi məqamların işıqlandırılmasında əhəmiyyəti misilsizdir.

Tanınmış səyyah və coğrafiyaşünas Hacı Zeynəlabdin Şirvanlının «Bustan-üs-səyahət» adlı səyahətnaməsinin də bu monoqrafiyanın yazılmasında böyük əhəmiyyəti vardır. Əslən şamaxılı olan H.Z.Şirvanlı ömrünün 40 ilini səyahətdə keçirmişdi. O, Azərbaycan, Orta Asiya, İran, İraq, Əfqanıstan, Fələstin, Osmanlı dövləti və s. ölkələrdə olmuş və gördükləri haqqında qeydlər aparmışdır. Bu qeydlər əsasında səyyah bir neçə əsər yazmışdır. Onlardan biri də «Bustan-üs-səyahət» adlı səyahətnamədir (65). H.Z.Şirvanlı bu əsəri 1832-ci ildə yazmış və əsər onun ölümündən sonra-1896-cı ildə Tehranda nəşr olunmuşdur. Səyahətnamənin IV fəslində Azərbaycanın 30-a qədər şəhər, kənd və s. yaşayış məntəqəsi təsvir edilmiş, əlifba sırası ilə onların təsviri izahı verilmişdir. Onun İrəvan haqqında verdiyi məlumatı xüsusilə əhəmiyyətlidir. 1826-cı ildə İrəvanda olan səyyah səyahətnaməsində buranın Azərbaycan ərazisi olduğunu, əhalinin türkcə danışdığını və burada çox az xristian əhalisinin yaşadığını xüsusi qeyd etmişdir. Bu faktın özü də erməni müəlliflərinin İrəvanda erməni əhalisinin güya ki, çoxluq təşkil etməsi haqqında boşboğazlığına tutarlı cavabdır.

İrəvan xanlığının tarixi ilə bağlı bir çox məsələlər Qarabağ xanlığı tarixindən bəhs edən müəlliflərin əsərlərində də öz əksini tapmışdı. Salnamə xarakterli bu əsərlər Nazim Axundov tərəfindən toplanaraq 2 kitabda «Qarabağnamələr» adı ilə 1989-cu və 1991-ci illərdə nəşr edilmişdir. Bu nəşrlərdə toplanmış Mirzə Adıgözəl bəyin, Mirzə Camal Cavanşirin, Əhməd bəy Cavanşirin, Mirzə Yusif Qarabağinin, Mir-Mehdi Xəzaninin əsərlərində (51; 43; 26; 44; 37) Ağa Məhəmməd şah Qacarın yürüşləri ərəfəsində Cənubi Qafqazdakı siyasi vəziyyət, İrəvan xanı da daxil olmaqla bəzi xanların ona qarşı ittifaq yaratmasından, İrəvan xanlığının şah qoşunlarına müqaviməti, birinci və ikinci Rusiya-Qacar müharibələri

dövründə İrəvan xanlığının hərbi-siyasi vəziyyətindən bəhs edən xeyli faktlar toplanmışdır. Bu mənbələrdə diqqəti cəlb edən əsas məsələlərdən biri, Pənahəli xanın dövründə vaxtilə İrəvan xanlığının Göycə mahalına daxil olan və Tərtər çayına qədər uzanan şərq torpaqlarının Qarabağ xanlığı tərəfindən işğal edilməsidir. Bu faktın İrəvan xanlığının siyasi sərhədlərinin dəqiqləşdirilməsində böyük əhəmiyyəti vardır.

Mövzunun tədqiqində A.Bakıxanovun məşhur «Gülüstani-İrəm» əsərindən də istifadə olunmuşdur (95). Qeyd etmək lazımdır ki, Azərbaycan tarixinin sistemli şəkildə tədqiq edilməsinə ilk dəfə cəhd göstərən A.Bakıxanov (1794-1847) olmuşdur. O, XIX yüzilliyin əvvəllərində baş vermiş siyasi hadisələrin və hər iki Rusiya-Qacar müharibələrinin canlı şahidi və iştirakçısı olduğu üçün onun əsəri Azərbaycan tarixşünaslığında haqlı olaraq ilkin qaynaq kimi dəyərləndirilir. «Gülüstani-İrəm» əsəri Azərbaycan və Dağıstan tarixinin qədim dövrlərindən 1813-cü ilədək, yəni Gülüstan müqaviləsinin bağlandığı zamanadək olan bir dövrünü əhatə edir. Monoqrafiyanın yazılmasında bu əsərin beşinci fəslindən geniş istifadə edilmişdir. Bu bölmədə birinci və ikinci İrəvan yürüşləri, bu yürüşlərdə irəvanlıların rus qoşunlarını məğlub etməsi, əhalinin durumu ilə bağlı hadisələr haqqında verilmiş məlumatlar xususilə əhəmiyyətlidir. Onun İrəvan əmirlərinin və əhalisinin əksəriyyətinin Azərbaycan türklərindən olan Qacarlara məxsusluğunu göstərməsi önəmli bir faktdır.

Tədqiqatımız zamanı A.Bakıxanovun 1983-cü ildə nəşr olunmuş, müxtəlif illərdə yazdığı əsər, qeyd və məktublarından da istifadə olunmuşdu (94). Toplanmış bu sənədlərdə xanlıqların idarəçilik sistemi, əhalinin sosial təbəqələri haqqında verilən məlumatların mövzumuz üçün böyük əhəmiyyəti vardır.

Monaqrafiyanın yazılmasında Osmanlı arxiv sənədlərindən və mənbələrindən də istifadə olunmuşdur. Osmanlı arxiv sənədlərinin bir hissəsi «Osmanlı dövləti ilə Azərbaycan türk xanları arasında münasibətlərə dair arxiv bilgiləri» adı ilə iki cilddə nəşr edilmişdir (72; 73). Bu arxiv sənədlərinin əhəmiyyəti ilk növbədə ondadır ki, bu sənədlərdə İrəvan xanlığı Azərbaycan xanlıqlarından biri kimi

dəyərləndirilmişdi. Sənədlərdə İrəvan xanlarının Osmanlı sarayı ilə yazışmaları, sultan fərmanları, Rusiya, Kartli-Kaxetiya və Qacar təcavüzü ilə bağlı Osmanlı paşalarının rəsmi məktubları öz əksini tapmışdır. Osmanlı sənədləri İrəvan tarixi ilə bağlı bəzi siyasi hadisələrə Osmanlı dövlətinin münasibətinin öyrənilməsi baxımından da çox əhəmiyyətlidir.

1724-cü ildə Osmanlı qoşunlarının İrəvana hücumunu əks etdirən mənbələrdən Mustafa ağa Kamaninin "İrəvan fəthnaməsi" adlı tarixi əsərini (74) də qeyd etmək lazımdır. Hadisələri öz gözü ilə görmüş müəllif İrəvanın osmanlılar tərəfindən tutulması ilə bağlı ətraflı məlumat vermişdi.

Mövzunun yazılmasında erməni mənbələrindən də istifadə olunmuşdu. Erməni xalqının çoxsaylı ideoloqlarından olan bu müəlliflərin əsərlərində İrəvan bölgəsinin tarixi saxtalaşdırılmış, bu ərazinin Şərqi Ermənistan ərazisi olduğu iddia edilmiş, təsvir edilmiş hadisələrdə əhalinin əksəriyyətini təşkil edən Azərbaycan türkləri kölgədə qalmış və ermənilərin fəaliyyəti həddindən artıq şişirdilmişdi. Bu mənbələrin ən qüsurlu cəhətlərindən biri də yer adlarının-toponimlərin erməniləşdirilməsidir. Odur ki, gələcəkdə İrəvan bölgəsində dövlət yaratmaq üçün ideya zəmini hazırlayan erməni müəlliflərinin əsərlərinə ehtiyatlı yanaşmaq və onları digər mənbələrlə müqayisə etmək zərurətini bir an belə unutmamışıq.

İrəvan bölgəsi haqqında məlumat verən erməni mənbələrindən Z.Kənəkirlinin "Xronika" əsərini xüsusi qeyd etmək lazımdır (225). Əsər İrəvan bölgəsi haqqında zəngin məlumatlarla diqqəti cəlb edir. Mənbədə Qaraqoyunlu dövlətindən başlayaraq 1699-cu ilə qədər bir dövrü əhatə edən hadisələr işıqlandırılmışdır. Müəllifin XVII yüzilliyin sonlarında İrəvan bölgəsinin siyasi-iqtisadi həyatı və inzibati-ərazi quruluşu haqqında verdiyi məlumatları daha maraqlıdır.

Erməni mənbələrindən biri də "1722-1736-ci illərin erməni anonim xronikası" adlandırılmış əsərdir (87). "Xronika"da hadisələr əfqan tayfalarının İranı işğal etməsi və şah I Sultan Hüseynin (1694-1722) hakimiyyətinin devrilməsinin təsviri ilə başlayır. Sonrakı məlumatlar Osmanlı-Səfəvi müharibələrindən bəhs edir. Burada

Osmanlı qoşunları tərəfindən Azərbaycanın müxtəlif şəhərlərinin, o cümlədən İrəvanın işğal edilməsi və Nadir şahın fəaliyyəti haqqında məlumatlar verilir. Bu mənbənin mövzumuzla bağlılığını şərtləndirən cəhət bir də ondan ibarətdir ki, burada bildirilir ki, hərbi əməliyyatlar nəticəsində İrəvan əhalisi böyük itkilərə məruz qalmış, onların bir hissəsi müharibələrdə öldürülmüş, bir hissəsi də qonşu əyalətlərə köçmüşdü. Bu da İrəvan bölgəsinin əhalisinin say tərkibinə mənfi təsir göstərmişdi. Lakin müəllif saxtakarlığa yol vermiş, Osmanlı qoşununa qarşı yalnız ermənilərin və qaraçıların mübarizə apardığını göstərməyə çalışmış, bölgə əhalisinin böyük əksəriyyətini təşkil edən Azərbaycan türkləri haqqında məlumat verməmişdir. Əsərin qüsurlu cəhətlərindən biri də, İrəvan bölgəsində olan yer adlarının erməniləşdirilməsidir.

İrəvan bölgəsinin siyasi tarixini özündə əks etdirən erməni mənbələrdən biri də A.Şamaxılının "Təhmasibqulu xanın yürüşləri və onun şah seçilməsi" əsəridir (497). Mənbə XVIII yüzilliyin 20-30-cu illərində Azərbaycanda baş vermiş hadisələri yığcam şəkildə özündə əks etdirmişdi. Müəllifin 1735-ci ildə Nadir xanın İrəvan bölgəsini Osmanlı qoşunlarından geri alarkən, buradan Xorasana köçürdüyü ailələrin sayını göstərməsi xeyli maraq doğuran faktlardan biridir.

XVIII yüzilliyin birinci yarısına aid erməni mənbələrindən Abram Kretatsinin "İranlı Nadir şah və baş vermiş hadisələr haqqında tarix" əsərini (238) xüsusi qeyd etmək olar. Üçmüəzzin kilsəsinin katolikosu olmuş müəllifin göstərilən əsərində XVIII yüzilliyin 30-40-cı illərin əvvəllərində baş vermiş hadisələr işıqlandırılmışdı. Burada Osmanlı-Səfəvi müharibələri, Nadirin şah seçilməsi, onun apardığı müharibələrin və ağır vergi siyasətinin acı nəticələri, İrəvan bölgəsinin inzibati-ərazi quruluşu kimi süjetlər öz əksini tapmışdır. A.Kretatsi də İrəvan bölgəsini "Ararat əyaləti" adlandırmış, çay və yer adlarını erməniləşdirmişdi.

İrəvan bölgəsinə aid üç cilddən ibarət arxiv sənədlərinin xeyli hissəsi «Erməni-rus münasibətləri» adı ilə müxtəlif illərdə nəşr olunmuşdur (88; 89; 90). Külliyyatlarda Rusiya Dövlət Hərbi Tarix Arxivi (RDHTA), Rusiya İmperiyası Xarici Siyasət Arxivi

(RİXSA) və Matenadarandan toplanmış zəngin məlumatlar vardır. Burada rus zabitlərinin İrəvan xanlığı haqqında kəşfiyyat məlumatları, irəvanlılara xəyanət edən ermənilərin məktubları toplanmışdı. Bu sənədlərdə İrəvan xanlığının qonşu xanlıqlar və dövlətlərlə siyasi münasibətləri, əhali haqqında məlumatlar öz əksini tapmışdır. Lakin toplunun adından göründüyü kimi, müəlliflər bu arxiv sənədlərinin hamısını ermənilərin adına çıxmışdılar. Halbuki onların çox böyük əksəriyyətinin ermənilərə heç bir dəxli yoxdur. Sənədlərin çoxu Rusiya-Azərbaycan münasibətlərinə aiddir.

«Şərqi Ermənistanın Rusiyaya birləşdirilməsi» adlı digər sənədlər toplusunda isə 1801-1813 cü illərdə baş vermiş hadisələrlə bağlı arxiv sənədləri toplanmışdır (398). Topluda RDHTA, Gürcüstan DTA və Ermənistandakı Matenadarandan götürülmüş sənədlər nəşr olunmuşdu. Sənədlər içərisində İrəvan xanlığının Rusiya, Qacar və Osmanlı dövlətləri ilə siyasi münasibətlərinə aid arxiv materialları da vardır. Toplunun adından da göründüyü kimi, çap edilmiş sənədlərdə yalnız İrəvan xanlığından söhbət getdiyi haldı, ermənilər bu xanlığı heç bir əsası olmadan Şərqi Ermənistan kimi qələmə vermişdılər.

Q.Ezovun 1898-ci ildə nəşr etdirdiyi "Böyük Pyotrun erməni xalqı ilə əlaqəsi" adlı sənədlər külliyyatında (501) İrəvan bölgəsinin XVIII yüzilliyin əvvəlləri tarixinə aid məlumatlar da öz əksini tapmışdı. Bu sənədlərin də böyük əksəriyyətinin ermənilərlə heç bir əlaqəsi yoxdur. Müəllif külliyyatda istifadə etdiyi sənədləri saxtalaşdırmış, alban kilsə xadimlərinin və alban məliklərinin Rusiya dövləti ilə münasibətlərini erməni xalqının Rusiya ilə əlaqəsi kimi qələmə vermişdir.

Mövzunun tədqiqində S.İrəvanlının 1958-ci ildə Moskvada nəşr olunmuş «Cambr» adlı əsərindən də istifadə edilmişdi (187). 1763-1780-ci illərdə erməni katolikosu olmuş S.İrəvanlının bu əsəri əsasən Üçmüəzzinin tarixinə, onun təsərrüfat həyatına, mülkiyyət məsələlərinə həsr edilsə də, burada bütövlükdə İrəvan bölgəsinin siyasi və iqtisadi həyatı haqqında xeyli faktlar toplanmışdır. Məhz bu baxımdan həmin mənbə İrəvan xanlığının XVIII yüzilliyin 60-80-ci illərini öyrənmək üçün böyük əhəmiyyət kəsb edir.

Nəşr olunmuş erməni mənbələrindən biri də Yeqor Xubovun «Ermənistanda unudulmaz hadisələrin təsviri» əsəridir (494). Əsər 1811-ci ildə Sankt – Peterburqda çap olunmuşdur. Erməni katolikosu Simonun bacısı oğlu olan Y.Xubov birinci İrəvan yürüşünün canlı şahidi idi. O, Məhəmməd xanın şah qoşununa qarşı mübarizədə kömək almaq məqsədilə rus komandanlığı ilə aparılan danışıqlarda nümayəndə heyətinin tərkibində iştirak etmişdi. Çoxsaylı mal-mülk sahibi, o cümlədən geniş bağ sahəsi olan Y.Xubov sonralar ruslar tərəfinə keçmişdi. 1779-cu ilin sentyabrında Hüseynəli xanla II İrakli arasında baş vermiş döyüş və onun acı nəticələri ilə bağlı hadisələrin təsviri ilə başlayan bu əsəri qısa olsa da, 1796-cı ildə qraf V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana hücumu, Ağa Məhəmməd şah Qacarın İrəvan və Naxçıvan xanlarını cəzalandırması, İrəvan hakimi Məhəmməd xanın xanlığın müstəqilliyini qorumaq naminə Rusiya və Qacar dövlətləri arasında manevrlər etməsi, İrəvanda hakimiyyət dəyişikliyi kimi məsələlər burada ətraflı təsvir edilmişdir. Lakin erməni ənənəsinə sadiq qalan Y.Xubov heç bir əsası olmadan İrəvan xanlığı ətrafında cərəyan edən hadisələri Ermənistanda baş verən olaylar adlandırmışdı. Əsərin adı ilə məzmununun uyğun gəlməməsi erməni saxtakarlığını ifşa etmək üçün də əla faktdır.

Erməni mənbələrindən biri də «A.Araratlının həyatı» adlı əsərdir (86). Memuar xarakterli bu əsərdə XVIII yüzilliyin 70-90-cı illərində İrəvan xanlığının tarixi ilə bağlı maraqlı faktlar öz əksini tapmışdır. Əsərdə 1779-cu ildə Kartli-Kaxetiya çarı II İraklinin İrəvana üçüncü yürüşü, bu yürüşün acı nəticələri öz əksini tapmışdır. Daha sonra mənbədə 1785-ci ildə dağıstanlıların Kartli-Kaxetiyaya yürüş zamanı onların İrəvana hücumları, Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza yürüşü, bu yürüşə qarşı İrəvan hakimi Məhəmməd xanın gördüyü tədbirlər haqqında xeyli məlumatlar vardır.

İrəvan bölgəsi ilə bağlı bəzi sənədlərdən ibarət toplu "XIX əsrdə Ermənistanda kəndli hərəkatı" adı ilə 1948-ci ildə nəşr olunmuşdu (237). Bu topluda XIX yüzilliyin 30-50-ci illərdə İrəvan

bölgəsində baş vermiş hakimiyyətə və yerli bəylərə qarşı kəndli hərəkatı haqqında xeyli arxiv materialı toplanmışdı.

Monoqrafiyanın yazılmasında Rusiya qaynaqlardan da istifadə olunmuşdur. İrəvan bölgəsinin siyasi tarixini öyrənmək üçün Rusiya Dövlət Hərbi Tarix Arxivindən (RHTA), Rusiya İmperiyasının Xarici Siyasət Arxivindən (RİXSA), Rusiya Elmlər Akademiyasının Arxivindən gətirilmiş və hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində saxlanılan sənədlərdən istifadə olunmuşdur (2; 3; 4; 5; 6;7; 8; 9; 10; 11; 12; 13; 14; 15; 16). Bu arxiv sənədləri XVIII yüzilliyin 40-ci illərin sonlarından xanlıq işğal olunana qədər keçən bir dövrü özündə əks etdirir və İrəvan xanlığının Rusiya, Qacar və Osmanlı dövlətləri, Kartli-Kaxetiya çarlığı, Xoy, Qarabağ, Naxçıvan xanlıqları ilə siyasi və iqtisadi münasibətləri öz əksini tapmışdır. Bu qiymətli sənədlərə rus komandanlığının yüksək rütbəli zabitlərinin və ermənilərin İrəvanla bağlı müxtəlif illərdə mərkəzə göndərdikləri məlumatları, Osmanlı paşalarının İrəvan hakimlərinə yazdıqları məktubları, Kartli-Kaxetiya çarı II İraklinin məktubları aiddir.

Azərbaycan Respublikası DTA-nın 24-cü fondunda saxlanılan 1 saylı sənəddə baş komandan general-adyutant Paskeviçin general adyutant Spyaginə məktubunu əldə etmişik (18). Həmin məktubda İrəvan qalasının işğalı ilə bağlı bəzi məqamlar öz əksini tapmışdır.

Monoqrafiyanın yazılmasında arxiv materialları ilə bərabər müxtəlif illərdə çap olunmuş qaynaqlardan da istifadə olunmuşdur. Belə qaynaqlardan ən zəngini XIX yüzilliyin ikinci yarısında A. Berjenin redaktorluğu ilə toplanan 12 clddən ibarət sənədlər toplusu-"Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" adlı topludur. Monoqrafiyanın yazılmasında həmin toplunun on bir cildindən istifadə olunmuşdu. QAKA külli miqdarda rəsmi və qeyri-rəsmi sənədlərdən ibarətdir. "Aktlar"da toplanılmış sənədlərin hər biri ayrı-ayrılıqda qiymətli məlumat mənbəyidir. Bu sənədlər bizə İrəvan bölgəsinin XVIII yüzilliyin ikinci yarısından XIX yüzilliyin ortalarına qədər siyasi-iqtisadi tarixi, inzibati-ərazi quruluşu, torpaq

mülkiyyəti formaları, vergi və mükəlləfiyyət növləri, əhalisinin sayı, etnik, dini və sosial tərkibi haqqında zəngin materiallar verir.

A.V.Suvorovun müxtəlif vaxtlarda çar sarayına göndərdiy məktublarının (171) da mövzunun tədqiqində əhəmiyyəti vardı. II Yekaterina hökuməti tərəfindən 1780-ci ildə Qafqazda rus qoşunlarının baş komandanı təyin olunan A.V.Suvorov bu bölgəni işğal etmək üçün ilk növbədə məlumat toplamalı və hücum planı hazırlamalı idi. O, əldə etdiyi məlumatları məktub şəklində mərkəzə göndərirdi. Bu məktublarda İrəvan xanlığının sərhədləri, əhalisi haqqında məlumatlar toplanmışdı. Lakin İrəvan haqqında məlumatlar Suvorova əsasən ermənilər tərəfindən verildiyindən məktublarda xanlığın əhalisinin etnik tərkibi haqqında saxtakarlığa yol verilmişdi. Belə ki, sənədlərdə xanlıq əhalisinin əksəriyyətinin ermənilər təşkil etdiyi göstərilmiş, hətta Azərbaycan türklərinin yaşadığı Pəmbək sultanlığının ermənilərdən ibarət olduğu qeyd edilmişdi.

Mövzunun tədqiqində 1770-1773-cü illərdə Qafqazda səyahətdə olmuş İ.P.Güldenşteynin səyahətnaməsindən (154) də istifadə olunmuşdu. Onun İrəvan bölgəsi, habelə onun əhalisi haqqında verdiyi məlumat xüsusilə maraq doğurur. Səyahətnamənin əhəmiyyəti ondan ibarətdir ki, müəllif burada İrəvan bölgəsinin əhalisinin Azərbaycan türklərindən ibarət olduğunu göstərmişdi.

İrəvan xanlığının siyasi tarixinin və tarixi coğrafiyasının öyrənilməsində çar Rusiyası dövründə nəşr olunan «Qafqaz məcmuəsi» adlı toplular seriyasının I, XXI, XXII, XXIV, XXVIII və XXX cildlərindən (219; 220; 221; 222; 223; 224) istifadə edilmişdi. Topluda Gülüstan müqaviləindən sonra İrəvan xanlığının Rusiya ilə münasibətləri, ayrı-ayrı rus zabitlərinin şəxsi gündəlikləri və Qafqazdakı rus ordusu qərargahının 1826-1828-ci illər müharibəsi ilə əlaqədar küllü miqdarda sənədləri toplanmışdı. Bu sənədlərdə İrəvan xanlığının siyasi – iqtisadi vəziyyəti, tarixi coğrafiyası və əhalisi haqqındakı məlumatlar böyük əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, bu materialların bəzisi ilk dəfə olaraq bizim tərəfimizdən bu monoqrafiyada elmi dövriyyəyə gətirilmişdir.

XIX yüzilliyin 50-ci illərində Tiflisdə nəşr olunmuş «Qafqaz təqvimləri»ndə işin tədqiqi ilə başlı xeyli material cəmləşmişdi (216; 217; 218). Bu "Təqvimlər"də İrəvan şəhəri və bölgəsinin bəzi mahallarının siyasi-iqtisadi tarixi və əhalisi haqqında məlumatlar vardı.

İrəvan bölgəsinə aid bəzi məlumatlar «Sbornik materialov dlya opisaniya mestnostey i plemyon Kavkaza» adlı topluda tapmaq olur. Monaqrafiyanın yazılmasında Çox cildli toplunun I, IV və IX cildlərindən istifadə edilmişdir (472; 473; 474). Jurnalda İrəvanın siyasi tarixi, iqtisadi vəziyyəti, xanların şəcərəsi, əhalinin sayı, köçürülməsi və mədəniyyəti haqqında xeyli material əldə edə bilmişik.

1887-ci ildə Tiflisdə çap olunmuş çoxcildlik «Svod materialov…» toplusunda da İrəvan xanlığı və Rusiya işğalı dövrünə aid bəzi məlumatlar toplanmışdır (476; 477; 478). Bu toplu İrəvanın müstəqil xanlıq və Rusiya işğalı dövründə dövlət quruluşu, inzibati-ərazi bölgüsü, əhalinin say, etnik, sosial və dini tərkibi, vergi və suvarma sistemləri haqqında əhəmiyyətli məlumatları ilə diqqəti cəlb edir.

İrəvan xanlığı haqqında bəzi məsələlər «Kavkazskiy vestnik» (212; 213; 214; 215) «Oteçestvennıye zapiski» (263), «Russkaya starina» (469) jurnalların materiallarında da əksini tapmışdır.

İ.Şopenin «Rusiya imperiyasına birləşdiyi dövrdə Erməni vilayətinin tarixi abidələrinin vəziyyəti» əsərini (499) İrəvan bölgəsinin siyasi-iqtisadi tarixi, mədəniyyətini öyrənmək üçün ən mühüm mənbələrdən biri hesab etmək olar. Geniş statistik məlumata söykənən bu əsər işğaldan sonra çar orqanları tərəfindən həyata keçirilmiş siyahıyaalınma nəticəsində tərtib edilmişdi. Belə ki, İrəvan xanlığının işğalını həyata keçirən rus qoşunlarının baş komandanı Paskeviçin təşəbbüsü ilə bu bölgəni Rusiyanın xammal bazarına çevirmək, gəlir mənbələrini dərindən öyrənmək üçün 1829-cu ilin aprelindən burada siyahıyaalınma həyata keçirilməyə başlanmış və bu iş 1832-ci ilin mayında tamamlanmışdır. Əsərdə bölgənin «Erməni vilayəti» adlandırılması Rusiyanın işğaldan sonra Cənubi Qafqazda apardığı inzibati-ərazi dəyişikliyi ilə bağlı idi.

Burada İrəvan bölgəsinin siyasi tarixi, coğrafiyası, iqlimi, iqtisadiyyatı, kənd təsərrüfatı, sənətkarlığı, məişəti, adətləri, suvarma sistemi, bitkiləri, yerli çəki və ölçü vahidləri, vergilər, inzibati-ərazi bölgüsü, əhalinin sayı, etnik və dini tərkibi və s. haqqında zəngin statistik məlumatlar toplanmışdır. Lakin işğaldan sonra həyata keçirilən bu siyahıyaalınmaya tənqidi yanaşmaq və onu dövrün digər mənbələri ilə müqayisə etmək lazımdır. Çünki işğal prosesində İrəvan xanlığının ərazisi və əhalinin əksəriyyətini təşkil edən Azərbaycan türkləri çoxlu itkiyə məruz qalmış, erməni əhalisi əksinə rusların köçürmə siyasəti nəticəsində süni şəkildə çoxaldılmışdı. Digər tərəfdən, İrəvan bölgəsinin siyasi tarixinə toxunan müəllif erməni mənbələrinin təsirinə düşmüş və onun tarixini ermənilərlə bağlamışdı.

Tədqiq etdiyimiz mövzu ilə bağlı Azərbaycanda olmuş ayrı-ayrı rus məmurlarının xatirələri də sanballı faktlar verir. Bunlardan biri 1783-1787-ci illərdə Kartli-Kaxetiya sarayında Rusiyanın nümayəndəsi olmuş rus səyyahı və diplomatı S.D.Burnaşovun «İrandakı Azərbaycan əyalətinin təsviri və onun siyasi vəziyyəti» adlı əsəridir (105). Bu əsərin əhəmiyyəti ilk növbədə ondan ibarətdir ki, müəllif İrəvan da daxil olmaqla bütün xanlıqların yerləşdiyi ərazini «Adrebijan», yəni Azərbaycan adlandırır. Bu faktın özü İrəvan xanlığının Şərqi Ermənistan adlandıran erməni müəlliflərinə tutarlı bir cavabdır. Əsərdə İrəvan xanlığının qonşu xanlıqlar ilə siyasi münasibətləri, hərbi qüvvələri, sərhədləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi, sayı haqqında qısa da olsa məlumat verilmişdir. S.D.Burnaşovun bu əsərində maraq doğuran məlumatlardan biri də Makunu İrəvan xanlığının tərkib hissəsi kimi təqdim etməsidir.

Bundan əlavə, S.D.Burnaşovun müxtəlif illərdə P.S.Potyomkinə yazdığı məktubları «1783-1787-ci illərdə Gürcüstanda olmuş S.D.Burnaşovun tərcümeyi-halı və fəaliyyəti üçün yeni materiallar» adı altında Sankt-Peterburqda nəşr edilmişdir (106). Əsərdə Azərbaycan xanları, eləcə də İrəvan xanlığı haqqında kəşfiyyat xarakterli məlumat vardır.

1816-1817-ci illərdə Rusiya dövlətinin A.P.Yermolovun başçılığı ilə Tehrana göndərdiyi nümayəndə heyətinin tərkibində məsləhətçi kimi iştirak etmiş A.Y.Sokolovun verdiyi məlumatlar da çox dəyərlidir (485; 486). A.Y.Sokolovun əsərlərində XIX yüzilliyin əvvəllərində Pəmbək hadisələri, keçmiş Axalkələki hakimi Şərif paşanın başladığı üsyan, Qacar dövlətinin Cənubi Qafqazla bağlı planları, əhali barəsində məsələlər, Hüseynqulu xanın şəxsiyyəti haqqında xeyli məlumat toplanılmışdır.

Ermənilərin İrəvan xanlığına köçürülməsinin təşkilatçılarından biri olan yazıçı və diplomat A.S.Qriboyedovun «Gündəlik» və məktublarının da mövzumuz üçün böyük əhəmiyyəti vardır. Bu sənədlərin əksəriyyəti əvvəlcə 1889-cu ildə və sonra isə təkrarən 1988-ci ildə Sankt-Peterburqda nəşr olunmuşdu (159; 160). Sənədlərdə Hüseynqulu xanın şəxsiyyət və fəaliyyəti, İrəvan qalası, ermənilərin köçürülməsi haqqında maraqlı məlumatlara rast gəlmək olar. A.S.Qriboyedov hadisələrin canlı şahidi olduğundan bu məlumatların İrəvan xanlığının tarixinin öyrənilməsində əhəmiyyəti misilsizdir.

Rusiya işğalından sonra İrəvan bölgəsində olmuş rus məmurlarından N.Nefedyevin və F.Korfun yol qeyidləri (256; 235) də mövzunun tədqiqində xüsusi əhəmiyyəti olan mənbələrdəndir. XIX yüzilliyin 30-cu illərin axırlarında İrəvan bölgəsində olmuş hər iki müəllif İrəvan şəhəri, qalaları, iqtisadiyyatı və əhalisi, iqlimi haqqında maraqlı məlumat vermişdilər.

“XIX əsrin 20-60-cı illərində Rusiya çarizminin Azərbaycanda müstəmləkəçilik siyasəti” adlı ikicildlik sənədlər külliyyatında (233; 234) çarizmin həyata keçirdiyi müstəmləkəçilik siyasəti ilə bağlı külli miqdarda sənədlər toplanmışdı. Bu sənədlərdə Azərbaycanda, eyni zamanda onun tərkib hissəsi olan İrəvan bölgəsində həyata keçirilən inzibati-ərazi, məhkəmə və iqtisadi islshatlar öz əksini tapmışdı.

Mövzunun tədqiqində işğaldan sonra Rusiya hakim dairələrinin Cənubi Qafqazda, o cümlədən Şimali Azərbaycanda keçirdiyi inzibati-ərazi, məhkəmə və təhsil islahatları ilə bağlı “Rusiya imperiyası qanunlarının tam külliyyatı”ndan (369; 370; 369; 372;

373) və “Xalq Maarif Nazirliyinin jurnalı”ndan (189; 190) da istifadə edilmişdi.

Mövzunun tədqiqində müxtəlif səyyah məlumatları və xatirələrindən də istifadə edilmişdi. İngilis səyyahı C.Hanveyin səyahətnaməsi Azərbaycan, habelə onun İrəvan bölgəsinin XVIII yüzilliyin birinci yarısına aid tarixi mənbələrdəndir. C.Hanvey 1743-cü ildə ticarət məqsədilə Rusiya ərazisindən keçərək Əfşarlar dövləti ərazisinə səyahət etmişdi. Səyahət müddətində səyyah gördükləri və eşitdiklərini qələmə almış və İngiltərəyə qayıtdıqdan sonra onun bu gündəliyi 1753-cü ildə Londonda nəşr etdirmişdir. Sonralar onun bu səyahətnaməsi müxtəlif dillərə tərcümə olunmuşdu. Monoqrafiyada bu əsərin Azərbaycan MEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində saxlanılan, L.M.Kiryakov tərəfindən ingilis dilindən rus dilinə tərcümə edilmiş nüsxəsindən istifadə edilmişdir (493). Səyahətnamənin İrəvan bölgəsi haqqında, Osmanlı qoşunlarının 1724-cü ildə İrəvan şəhərinə hücumları, Nadirin onlarla döyüş səhnəsi qarşıya qoyduğumuz problemin həllində müəyyən qədər rolu vardır.

**Tarixşünaslıq.** Qeyd etmək lazımdır ki, Azərbaycanın bu əzəli torpağının tarixi ilə yad tarixçilər məşğul olduğundan onun tarixi birtərəfli öyrənilmiş, saxtakarlıqlara məruz qalmış, problemin ayrı-ayrı məsələlərinə ümumiyyətlə toxunulmamışdı. Digər tərəfdən, mövzu ilə bağlı mənbələrin məhdudluğu və naqisliyi onun tədqiqini xeyli çətinləşdirmişdi. Lakin qeyd etmək lazımdır ki, mövzunun tədqiqi ilə bağlı ilk əsərlər hələ XIX yüzilliyin 30-cu illərin əvvəllərindən yazılmağa başlamışdı.

İndiyəqək İrəvan bölgəsi tarixi ilə bağlı olan əsərləri bir neçə qrupa bölmək olar. **Birinci qrupa** oktyabr çevrilişinə qədərki ayrı-ayrı toplu və jurnallarda nəşr edilmiş əsərlər daxildir. Qeyd etmək lazımdır ki, XIX yüzilliyin əvvəllərində Rusiyanın Cənubi Qafqazda geniş işğallara başlaması ilə rus hakim dairələrinin bu diyarı siyasi və iqtisadi baxımdan öyrənilməsinə maraq artmışdı. Bununla əlaqədar olaraq rus qafqazşünaslığı adlandırılan bir məktəb yarandı. Lakin rus qafqazşünasları heç də Azərbaycan tarixini, o cümlədən İrəvan bölgəsinin tarixini tədqiq etməyi qarşılarına

məqsəd qoymamışdılar. Onların əsərləri əsasən rus qoşunlarının hərbi yürüşlərinə, müstəmləkəçilik siyasətinə həsr edilmiş və bu siyasəti Rusiyanın mənafeyi baxımından şərh etməyə çalışmışdılar. Lakin bu əsərlərdə Qafqaz xalqlarının siyasi – iqtisadi tarixi, mədəniyyəti, ticarəti, dövlət quruluşu, coğrafiyası, etnoqrafiyası, əhalinin sayı, etnik və sosial tərkibi və s. haqqında məlumatlar toplanmışdı.

İrəvan bölgəsinə aid zəngin məlumat işğaldan sonra, 1836-ci ildə nəşr edilmiş «Obozreniye rossiyskix vladeniy za Kavqazom» adlı topluda öz əksini tapmışdır (258; 259; 260). Bu topluda ayrı-ayrı rusdilli müəlliflər Azərbaycanın müxtəlif bölgələri, o cümlədən İrəvan bölgəsinin müstəqil xanlıq və işğaldan sonrakı dövrü haqqında təbii-coğrafi şəraiti, iqlimi, çayları, meşələri, dağları, bitki örtüyü, yolları, iqtisadi vəziyyəti, kənd təsərrüfatı, ticarəti, sərhədləri, inzibati-ərazi bölgüsü, əhalinin etnik və dini tərkibi, şəhər və kəndi haqqında qısa statistik, etnoqrafik məlumatlar toplanmışdır.

İrəvan xanlığının tarixinə aid zəngin faktlar rus qafqazşünaslarının əsərlərində də mövcuddur. Bu qafqazşünasların bəzisi rus qoşunlarının bölgəyə hərbi yürüşlərində iştirak etmiş və hadisələrin canlı şahidi olmuşdular. Ona görə də onların yazdıqları əsərləri mənbə xarakterli hesab etmək olar. Əsərlər ayrı-ayrı hadisələrin təsvir edilməsində zəngin mənbələrdən istifadə edildiyinə görə əhəmiyyətlidir. Belə müəlliflərdən S.B.Bronevski (1763-1830) 1796-cı ildə V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana yürüşünün iştirakçısı olmuş və 1802-1808-ci illərdə Qafqazda hərbi xidmətini davam etdirmişdi. O, Cənubi Qafqazda olduğu müddətdə bu bölgənin tarixi, etnoqrafiyası və coğrafiyası ilə bağlı məlumat toplanmış, 1823-cü ildə özünün iki cildlik əsərini nəşr etdirmişdi. Mövzunun tədqiqində onun əsərinin birinci cildindən istifadə olunmuşdur (104). Bu kitabda İrəvan xanlığı daxil olmaqla Azərbaycan xanlıqlarının tarixi, dövlət quruluşu, əhalisi, əhalinin sosial tərkibi haqqında məlumat verilmişdir.

Rusiyalı qafqazşünaslar arasında Azərbaycan xanlıqları və xüsusilə, İrəvan xanlığı haqqında məlumat verən müəlliflərdən biri də P.Q.Butkovdur (1775-1857). O da 1796-cı ildə rus qoşunlarının Azərbaycana yürüşlərinin iştirakçısı olmuşdu. Uzun müddət Qaf-

qazda hərbi xidmətə keçmiş P.Q.Butkov burada müxtəlif diplomatik və hərbi sənədlərlə tanış olmuş, sonralar bu sənədlər əsasında özünün üçcildlik əsərini yazmışdı (107). Onun əsəri də mənbə xarakterli əsərlərdəndir. Əsər I Pyotrun başçılığı ilə rus qoşunlarının Xəzərsahili ərazilərə yürüşündən başlayaraq 1803-cü ilədək olan bir dövrü əhatə edir. Burada Azərbaycan tarixinə dair zəngin məlumat toplanmışdır. Əsərdə İrəvan xanlığının siyasi tarixi, ayrı-ayrı xanlıqlar, dövlətlər arasında olan siyasi münasibətləri, əhalisi və əhalinin emiqrasiyası məsələləri öz əksini tapmışdır.

Rusiyanın Qafqazda, o cümlədən Azərbaycanda işğalçılıq siyasətini ətraflı təsvir edən müəlliflərdən biri, rus hərb tarixçisi N.F.Dubrovin olmuşdur. O, bir neçə maraqlı əsərin müəllifidir. Müəllifin zəngin arxiv materialları, habelə digər müxtəlif sənədlər əsasında yazdığı əsərləri (178; 179; 180; 181; 182; 183; 184; 185) xronoloji baxımdan 1782-1826-cı illəri əhatə edir. Bu əsərlərdə Rusiyanın Qafqazda apardığı işğalçılıq siyasətini təsvir etməklə bərabər, İrəvan xanlığının siyasi-iqtisadi tarixi, təbii-coğrafi vəziyyəti, təbii sərvətləri, əhalinin sayı, etnik və dini tərkibi, məişəti, adət-ənənəsi haqqında məlumatlar toplanmışdır. N.F.Dubrovin əsərində İrəvan xanlığının əhalisinin etnik cəhətdən Azərbaycan türklərinin çoxluq təşkil etməsi faktını göstərməsi mövzunun tədqiqində xüsusi əhəmiyyət kəsb edir.

Mövzunun tədqiqində V.A.Pottonun əsərlərindən (374; 375; 376) də istifadə olunmuşdu. Bu əsərlərdə 1801-1829-illərdə Rusiyanın Qafqazda, o cümlədən Şimali Azərbaycanda apardığı işğalçılıq siyasətindən ətraflı bəhs edilsə də, İrəvan xanlığınında baş vermiş hərbi-siyasi hadisələr, İrəvan əhalisinin rus işğalçılarına qarşı qəhrəmancasına mübarizəsi, Gülüstan müqaviləsindən sonra Rusiya çarlığı ilə Qacar dövləti arasında sərhədin müəyyən edilməsində İrəvan xanlığının rolu və yeri, xanlığın əhalisi haqqında qiymətli məlumatlar öz əksini tapmışdı.

Monoqrafiyanın yazılmasında İrəvan xanlığının Rusiya tərəfindən işğalını başa çatdırmış İ.F.Paskeviçin tərcümeyi-halına həsr edilmiş əsərlərdən də (82; 97; 500) istifadə edilmişdir. Bu əsərlərdə İ.F.Paskeviçin hərbi fəaliyyəti ilə bərabər rus qoşunlarının İrəvan

xanlığına hücumu, Hüseynqulu xanın və onun qardaşı Həsən xanın başçılığı ilə irəvanlıların qəhrəmanlıq mübarizəsindən, İrəvanın işğal olunması təsvir edilmişdir.

Rus qafqazşünaslarından S.N.Qlinkanın (153), N.N.Şavrovun (496) əsərlərində ermənilərin Azərbaycanın ayrı-ayrı yerlərinə, o cümlədən keçmiş İrəvan xanlığının ərazisinə köçürülməsindən bəhs edilmişdir. İrəvan xanlığında erməni əhalisinin cüzi olması, işğaldan sonra ermənilərin rus hakim dairələri tərəfindən İran və Osmanlı ərazilrindən kütləvi şəkildə buraya köçürülməsi, köçürülmə nəticəsində əhalinin etnik tərkibində dəyişikliklərin ətraflı təsvir edilməsi bu əsərləri mövzumuz üçün daha da əhəmiyyətli etmişdir.

A.L.Gizettinin 1901-ci ildə Tiflisdə nəşr etdirdiyi əsərində (153) 1801-1855-ci illərdə rus qoşun birləşmələrinin Qafqaz müharibələrində verdiyi canlı itkilərin siyahısı verilmişdir.

Rus qafqazşünaslarından V.N.İvanenkonun (200), M.Vladıkinin (111), S.A.Yegiazarovun (186), V.L.Veliçkonun (109) əsərlərində İrəvan bölgəsinin inzibati-ərazi və idarə sistemi, iqtisadi həyatı, əhalinin say, etnik və sosial tərkibi, İrəvan şəhərundə fəaliyyət göstərən sənətkarlıq təşkilatları və s. haqqında məlumatlara rast gəlmək olar.

S.Esadzenin 1907 və 1908-ci illərdə nəşr etdiyi əsərlərində (502; 503) Rusiyanın Qafqazda həyata keçirdiyi işğalçılıq siyasəti ön plana çəkilsə də, burada Azərbaycan xanlıqlarının, həmçinin İrəvan bölgəsinin hərbi-siyasi vəziyyətinə, inzibati-ərazi quruluşuna və aqrar məsələlərə də yer verilmişdir.

Slujevinin (480), P.İ.Kovalevskinin (230; 231) əsərlərində də İrəvan xanlığı ilə bağlı məlumatlar vardır.

Tədqiqata cəlb edilmiş tarixi əsərlərin **ikinci qrupuna** Azərbaycan Xalq Cumhuriyyətində məsul vəzifələrdə işləmiş ziyalıların əsərləri daxildir. Bu əsərlər həm də Azərbaycan tarixinə aid ümümiləşdirilmiş əsərlərdir. Qeyd etmək lazımdır ki, bu əsərlər sovet dövründə nəşr edilməsinə baxmayaraq, sovet ideologiyasından kənar, milli ruhda yazılmışdır. Vətən tarixini öyrənmək baxımından cəsarətlə yazılmış bu əsərlər mövzumuz üçün bir neçə səbəbdən əhəmiyyətlidir. **Əvvəla**, xanlıqlar dövrü tarixindən bəhs edən müəll-

iflər İrəvan xanlığını Azərbaycan ərazisi kimi öyrənirlər. **İkincisi**, bu əsərlərdə əhalinin sayı haqqında konkret rəqəm, əhalinin etnik tərkibində Azərbaycan türklərinin çoxluq təşkil etməsi və ermənilərin buraya köçürülməsi faktı ətraflı təsvir edilmişdi. **Üçüncüsü** isə İrəvan xanlığında yaşayan ayrı-ayrı Azərbaycan türk tayfalarının adları göstərilmişdi.

Bu qrupa daxil olan əsərlərdən M.Vəlilinin (Baharlı) 1921-ci ildə Bakıda nəşr olunmuş «Azərbaycan (coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizat)» adlı əsərini (69) qeyd etmək olar. Əsərdə Azərbaycanın coğrafi vəziyyəti, etnoqrafiyası, iqtisadiyyatı ətraflı işıqlandırılmışdır. Müəllifin əsərindəki xanlıqlar dövründə torpaqdan istifadə, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyət, əhalinin sayı, etnik və dini tərkibi haqqında verdiyi məlumatları mövzunun tədqiqində xüsusi əhəmiyyəti vardır. Onun İrəvan xanlığının əhalisinin sayı haqqında göstərdiyi konkret rəqəm bu əsərin qiymətini daha da artırır.

Mövzunun tədqiqində R.İsmayılovun 1923-cü ildə Bakıda nəşr olunmuş «Azərbaycan tarixi» (41) əsərindən də istifadə olunmuşdur. Əsərdə qədim dövrlərdən AXC-in yaranmasına qədər Azərbaycanın coğrafi vəziyyəti, siyasi və iqtisadi tarixindən bəhs edilir. R.İsmayılovun Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan xanlığının siyasi tarixi, əhalisi, vergi və mükəlləfiyyəti haqqında verdiyi məlumat bizim üçün daha əhəmiyyətlidir.

Mövzu ilə bağlı C.Zeynaloğlunun 1924-cü ildə İstanbulda nəşr olunmuş «Müxtəsər Azərbaycan tarixi» (71) əsərini qeyd etmək olar. Burada Azərbaycan xanlıqlarının, eyni zamanda İrəvan xanlığının siyasi tarixi, ticarəti, pul, ölçü və uzunluq vahidləri, əhalisi, vergi və mükəlləfiyyətləri haqqında məlumatlar toplanmışdır.

Məşhur şərqşünas alim Ə.Hubaydulinin 1928-ci ildə nəşr olunmuş əsəri (162) də sovet ideologiyasından fərqli bir ruhda yazılmışdı. Əsərdə xanlıqlar dövrünün sosial-iqtisadi vəziyyəti, əhalinin sosial tərkibi, torpaq mülkiyyəti formaları məsələlərinə toxunulmuşdur.

Bizi maraqlandıran mövzu üzrə əsərlərin üçüncü qrupunu sovet tarixşünaslığına aid müxtəlif əsərlər təşkil edir. Qeyd etmək lazımdır ki, çar Rusiyası dövründə köçürmələr nəticəsində keçmiş İrəvan xanlığı ərazisində etnik baxımdan çoxluğa nail olan ermənilər, çarizmin faktiki varisi Sovet dövründə Moskvanın köməyi ilə xüsusi respublika yaratmağa nail oldular. Məlum şəraitdən istifadə edən ermənilər keçmişi unutdurmaq üçün bu bölgəni Şərqi Ermənistan ərazisi kimi təqdim edərək, onun tarixini saxtalaşdırmağa başladılar. Onlar uzun illər heç bir tarixi mənbəyə əsaslanmadan İrəvan xanlığının ərazisini, yer adlarını, əhalinin etnik və say tərkibini, qəhrəmanlıq mübarizəsini açıq-açığına təhrif etmiş, bütün hadisələri erməni xalqının adına çıxmışlar. Buna «xalqlar dostluğu», «beynəlmiləlçilik» kimi yalançı şüarlarla pərdələnən sovet tarixçilərinin əsərlərində də rast gəlmək mümkündür.

Sovet tarixşünaslığında Azərbaycanın xanlıqlar dövrü tarixinin bir sıra problemləri şərqşünas alim İ.P.Petruşevskinin tədqiqatlarında işıqlandırılmışdır. Onun ayrı-ayrı əsərləri (295; 296; 297; 298; 299) Azərbaycan, o, cümlədən onun üzvi bir parçası olan İrəvan tarixinin müxtəlif məsələlərinə-siyasi-iqtisadi, torpaq mülkiyyəti formaları, əhalinin sosial-silki tərkibinə, vergi və mükəlləfiyyət formalarına həsr edilmişdir. Lakin müəllif erməni konsepsiyasından kənara çıxmayaraq bəzi əsərlərdə İrəvan bölgəsinin tarixini Ermənistan tarixi kimi qələmə almış, onun ərazisində baş verən hadisələri erməni xalqının adına çıxmışdır. Əslində müəllifin qeyd etdiyi ərazi Azərbaycanın qədim ərazisi olan İrəvan bölgəsinin ərazisidən başqa bir şey deyildir. Belə ki, bu tədqiqatçının İrəvan xanlığı ərazisini erməni dövləti kimi qələmə verməsinə baxmayaraq, onun əsərlərinin məzmununa baxdıqda görmək olar ki, ermənilərlə bağlı bütün hadisələr Eçmiədzin kilsəsindən kənara çıxmır və qarşıya qoyulan bütün məsələlər bu kilsə və ona məxsus mülkiyyətlə bağlıdır. Lakin buna baxmayaraq İ.P.Petruşevskinin əsərlərinin İrəvan bölgəsi tarixinin öyrənilməsində xüsusi yeri vardır.

Azərbaycanın XVIII yüzilliyin tarixinə aid sanballı əsər yazan müəlliflərdən biri də V.N.Leviatovdur. Onun «XVIII əsr Azərbay-

can tarixinin oçerkləri» (239) adlı əsəri bizi maraqlandıran bu mövzunun tədqiqində mühüm yeri tutur. Əsərdə konkret İrəvan xanlığından bəhs edilməmişdir. Lakin müəllifin xanlıqların dövlət quruluşu, inzibati-ərazi bölgüsü, sosial-iqtisadi vəziyyəti, əhalinin sosial tərkibi, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətləri haqqında verdiyi ümumi məlumatları cəsarətlə İrəvan xanlığına da şamil etmək olar.

M.R.Arunova və K.Z.Əşrəfyanın birlikdə yazdıqları “Nadir şah Əfşarın dövləti” əsəri də mövzumuzla bağlı nəşrlərdəndir (91). Monoqrafiyada görkəmli Azərbaycan sərkərdəsi Nadirin şah seçilməsi və onun hakimiyyəti dövründə baş vermiş hadisələrdən bəhs edilmişdi. Burada işıqlandırılan Nadir şahın iqtisadi və vergi siyasəti bizi maraqlandıran elmi problemin araşdırılmasında çox əhəmiyyətlidir.

Rus sovet tarixçisi O.P.Markova əsərində (247) XVIII yüzilliyin 50-90-ci illərdə Cənubi Qafqazda iri dövlətlərin mənafelərinin toqquşduğu bir vaxtda İrəvan xanlığının Kartli-Kaxetiya çarlığı, Rusiya, İran və Osmanlı dövlətləri ilə siyasi münasibətlərinə də müəyyən yer vermişdir. Qeyd etmək lazımdır ki, əsərdə İrəvan xanlığı ilə bağlı hadisələrə müəllifin nisbətən obyektiv münasibəti diqqəti cəlb edir. Lakin O.Markova da İrəvan xanlığının ərazisini Ermənistan torpağı olduğunu qəbul edir. Məsələn, o, İ.Eminin fəaliyyətini erməni ənənəsinə uyğun olaraq Ermənistanın azad edilməsi kimi dəyərləndirir.

Sovet tarixçilərindən A.Ş.Milmanın XIX-XX yüzilliyin əvvəllərində Azərbaycanın siyasi quruluşundan bəhs etdiyi monoqrafiyasından (253) da mövzumuzun tədqiqində istifadə olunmuşdur. Əsərdə əsas tədqiqat obyekti kimi işğaldan sonra rus müstəmləkə idarəetmə mexanizminin forma və üsulları, inzibati idarələrin və məhkəmələrin fəaliyyəti təsvir olunmuşdu. Əsərin birinci fəslində XVIII yüzilliyin ikinci yarısında Azərbaycan xanlıqlarının siyasi quruluşu da öz əksini tapmışdı. Təəssüf ki, Azərbaycan ərazisində yaranan xanlıqların adını çəkən A.Milman ermənipərəst ənənəyə yuğun olaraq İrəvan xanlığını bu siyahıya daxil etmir. Buna bax-

mayaraq, monoqrafiyada təsvir edilən Azərbaycanın siyasi-hüquqi vəziyyəti ilə bağlı məsələləri İrəvan bölgəsinə də şamil etmək olar.

H.İbrahimbəylinin 1969-cu ildə Moskvada nəşr olunmuş əsərində (199) isə XIX yüzilliyin birinci otuzilliyində Azərbaycan xanlıqlarının Rusiya dövləti tərəfindən işğalı tədqiq edilmişdir. Əsərdə həm birinci, həm də ikinci Rusiya-Qacar, Rusiya-Osmanlı müharibələri dövründə Azərbaycan ərazisinin işğalı öz əksini tapmışdı. Burada qısa da olsa İrəvan xanlığı ərazisində gedən döyüşlərə də toxunulmuşdu. Lakin müəllif bir çox sovet tədqiqatçıları kimi İrəvan xanlığını Azərbaycan xanlıqlarından ayırır və bu xanlığı Ermənistan dövləti kimi təqdim edir.

Mövzunun tədqiqində erməni müəlliflərinin əsərlərindən də istifadə olunmuşdur. İlk dəfə İrəvan xanlığının tarixini tədqiq etməyə cəhd edən erməni müəlliflərindən V.R.Qriqoryanı xüsusi qeyd etmək lazımdır. Onun 1958-ci ildə erməni dilində nəşr etdirdiyi əsəri (161) xüsusi əhəmiyyətə malikdir. Ermənistanın mərkəzi arxivi olan Matenadaranda saxlanılan sənədlər əsasında yazılmış bu əsər İrəvan xanlığının 1780-1800-cü illər tarixini əhatə edir. Monoqrafiyada İrəvan xanlığının siyasi, sosial-iqtisadi vəziyyəti, dövlət quruluşu, inzibati-ərazi bölgüsü, təbii sərvətləri, vergi və mükəlləfiyyətləri, əhalinin etnik tərkibi haqqında müəyyən məlumatlar verilmişdir. Lakin əsərdə İrəvan xanlığının tarixi kifayət qədər saxtalaşdırmışdı. Monoqrafiyada İrəvan xanlığının Şərqi Ermənistan və yaxud Ararat ölkəsi kimi təqdim edilməsi, yer adlarının erməniləşdirilməsi, etnik cəhətdən ermənilərin üstünlük təşkil etməsi və s. məsələlər haqqında verdiyi məlumatlar müəllifin erməni ənənəsinə sadiqliyini göstərir.

Erməni müəlliflərindən olan A.R.İoannesyanın (203; 204) əsərlərində XVIII yüzilliyin 60-80-ci illərində Rusiyanın Cənubi Qafqaz siyasətinə özlərinin casusluq fəaliyyəti ilə kömək edən ayrı-ayrı erməni xadimlərinin – İ.Lazarevin, arxiyepiskop İ.Arqutinskinin, İ.Eminin və başqalarının xidmətlərini erməni azadlıq hərəkatı kimi təqdim edərək, onların İrəvan xanlığı ərazisində Erməni dövləti yaratmaq planlarından bəhs etmişdir. Lakin bu əsərlərdə İrəvan xanlığının siyasi, iqtisadi tarixi, əhalisi haqqında məlumata

da rast gəlmək olar. A.R.İoannesyanın əsərdə İ.Arqutinskinin məktubuna əsasən, İrəvan xanlığında erməni əhalisinin çox az olması fikrini təsdiq etməsi obyektiv tarixi reallığı əks etdirən faktdır. Digər tərəfdən, müəllifin əsərlərdə təqdim etdiyi arxiv sənədləri mövzumuz üçün çox əhəmiyyətlidir.

Mövzumuzla bağlı bəzi məsələlərə dair məlumata V.Rştuninin "1870-ci ildə Ermənistanda kəndli islahatı" monoqrafiyasında (470) da rast gəlmək olar. Bu əsərdə adətən Rusiyanın 1870-ci ildə İrəvan quberniyasında həyata keçirdiyi islahatlardan bəhs edilsə də, burada işğaldan sonra çarizmin həyata keçirdiyi müstəmləkəçilik siyasəti və bu siyasətə qarşı kəndlilərin mübarizəsi məsələləri də öz əksini tapmışdı.

V.A.Parsamyanın 1972-ci ildə nəşr olunan monoqrafiyası da diqqəti cəlb edən əsərlərdəndir (292). Mövzunun tədqiqində əsərin I-IV fəsillərindən istifadə olunmuşdu. 1801-1850-ci illəri əhatə edən bu fəsillərdə bölgənin siyasi-iqtisadi tarixi, inzibati-ərazi quruluşu, aqrar münasibətləri, əhalinin say, etnik və sosial tərkibi haqqında məsələlər öz əksini tapmışdı. Lakin monoqrafiyanın adından da göründüyü kimi, müəllif bu bölgənin tarixini erməni xalqının tarixi kimi qələmə verərək, oxucunu buna inandırmaq və həqiqətdən yayındırmaq istəyir. O, bu bölgəni erməni dövləti kimi təqdim etməyə çalışsa da, əsərində bütün yer adları Azərbaycan türkcəsində, hakimiyyətdə olan xanların Azərbaycan türkləri, əhalinin əksəriyyəti isə Azərbaycan türklərinin olması açıq göstərmişdir. Digər tərəfdən, ermənilərin İrəvan xanlığına və Azərbaycanın digər ərazilərinə köçürülməklə etnik cəhətdən çoxluğa nail olması faktının müəllifin etiraf etməsi mövzumuz üçün daha qiymətlidir.

İrəvan bölgəsi tarixinin təhrif edilməsi T.X.Akopyanın "İrəvan tarixinin xülasəsi" monoqrafiyasından (80) da yan keçməmişdi. Əsərdə bəhs etdiyimiz dövr çərçivəsində İrəvan şəhərinin siyasi-iqtisadi, ictimai və mədəni tarixinə və əhali məsələlərinə də toxunulmuşdu. Lakin burada dolaşıq məsələlər çoxdur. Belə ki, "Çuxursəd" bəylərbəyliyini xanlıq adlandıran müəllif qeyd edir ki, XVI-XVIII yüzilliklərdə bu inzibati vahid adətən İrəvan xanlığı olmuşdu. Bildiyimiz kimi İrəvanın da daxil olduğu xanlıq dövrü Azərbay-

canda XVIII yüzilliyin 40-cı illərin sonlarından başlayır. Əhali məsələsinə gəldikdə isə T.Akopyan da İrəvan bölgəsində ermənilərin çoxluq təşkil etdiyini yazmışdı.

B.M.Arutunyan əsərində (92) əsasən XVII-XVIII yüzilliklərdə Eçmiədzin kilsəsinin tarixinə toxunsa da, burada torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətlər haqqında məlumata rast gəlmək mümkündür.

S.P.Ağayanın yazdığı monoqrafiya (79) Azərbaycanda həyata keçirilmiş 1870-ci il islahatına həsr edilmişdi. Lakin əsərdə təsvir edilən islahataqədər Azərbaycanda, o cümlədən İrəvan bölgəsində sosial-iqtisadi və siyasi vəziyyət problemimizlə bağlı məsələlərdəndir.

İrəvan xanlığının tarixinin saxtalaşdırılması 1956-cı ildə nəşr olunmuş «SSRİ tarixinin qısa xülasəsi» adlı ümumiləşdirici əsərdə də öz əksini tapmışdır (290). Əsərin bir bölməsi «Ermənistan» kimi təqdim olunur və əslində burada İrəvan xanlığından bəhs edilir. Bu bölmənin müəllifləri olan A.R.İoannesyan və P.T.Arutunyan burada İrəvan xanlığını Şərqi Ermənistan kimi qələmə verərək, onun siyasi, sosial-iqtisadi vəziyyəti, vergi və mükəlləfiyyətləri, mədəniyyəti məsələlərini təsvir etməyə çalışmışlar. Lakin bu bölmədə İrəvan xanlığı erməni dövləti kimi təqdim edilsə də, diqqət etdikdə görmək olar ki, burada xanlığın tarixindən çox Eçmiədzin kilsəsinin tarixinə toxunulmuş, ayrı-ayrı erməni xadimlərinin casusluq və mədəni fəaliyyətindən bəhs edilmişdir.

İrəvan bölgəsi tarixinin təhrif edilməsi 1980-ci ildə İrəvanda nəşr olunmuş «Erməni xalqının tarixi» adlı ümumiləşdirici əsərdən də yan keçməmişdir (208). Bu əsərin ikinci və üçüncü bölməsində İrəvan bölgəsinin bizim mövzumuz ilə bağlı hissəsindən bəhs edilir. Burada da İrəvan xanlığı Şərqi Ermənistan ərazisi kimi göstərilir, qısa da olsa onun siyasi, sosial-iqtisadi və əhali məsələlərinə toxunulur. Erməni müəlliflərinin digər əsərlərində olduğu kimi burada da xan başda olmaqla idarə orqanlarının və əhalinin əksəriyyətini təşkil edən Azərbaycan türklərinin fəaliyyəti kölgədə qalır və Rusiya dövlətinə cəsusluq edən ayrı-ayrı erməni xadimlərinin fəaliyyəti isə həddən artıq şişirdirilir.

Qeyd etmək lazımdır ki, bütün erməni müəlliflərinin İrəvan bölgəsini Ermənistan dövləti kimi qələmə almalarına baxmayaraq, onlar bu xanlığın tarixinin bütövlükdə tədqiq olunmasından qaçmışdılar. Onların əsərlərinə diqqət etdikdə görmək olar ki, İrəvan bölgəsinin tarixi XVIII yüzilliyin 80-ci illərindən və əsasən də XIX yüzilliyin əvvəllərindən təsvir edilir. Rusiya tərəfindən işğal olunduğu dövrdən bu günə qədər İrəvan bölgəsini Ermənistan dövləti hesab edən erməni müəllifləri bu diyarın tarixini ətraflı tədqiq etməkdən çəkinmiş və bu məsələdə birtərəfli xətt götürmüşdülər. Bu, bir daha sübut edir ki, İrəvan bölgə tarixinin hərtərəfli tədqiqi əsl sahibinin – Azərbaycan tədqiqatçısının işidir.

Mövzumuzla bağlı bəzi məsələlərə gürcü sovet tarixçilərinin əsərlərində və dərsliklərində də rast gəlmək mümkündür. Məsələn, 1946-cı və 1962-ci illərdə nəşr edilmiş «Gürcüstan tarixi» adlı dərsliklərdə (209; 210) də İrəvan xanlığının siyasi vəziyyəti ilə bağlı bəzi məqamlar öz əksini tapmışdı. Hər iki nəşrdə İrəvan xanlığı ilə bağlı hadisələr təkrarlanır, lakin birinci nəşrdə İrəvan müsəlman, yəni Azərbaycan xanlığı, ikinci nəşrdə isə Ermənistan kimi qeyd olunur.

Gürcü sovet tarixçilərindən G.Kikodzenin «II İrakli» əsərində də İrəvan xanlığı ilə bağlı bəzi məsələlərə toxunulmuşdur (226). Əsərdə Kartli-Kaxetiya çarı II İraklinin həyat və fəaliyyətindən bəhs edilsə də, onun İrəvan xanlığı ilə əlaqələrinə də müəyyən qədər yer verilmişdi. Lakin əsərin müsbət cəhəti müəllifin İrəvan xanlığını Azərbaycan xanlığı kimi dəyərləndirməsidir.

Q.Q.Payçadze də özünün «Georgievski traktatı» adlı əsərində (291) İrəvan xanlığı ilə bağlı bəzi məqamlara toxunmuşdur. Əsərdə 1783-cü ildə Rusiya ilə Kartli-Kaxetiya arasında bağlanmış müqavilədən bəhs edilsə də, burada İrəvan xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətlərinə də müəyyən yer ayrılmışdır. Monoqrafiyada maraqlı məqamlardan biri də müəllifin İrəvan xanlığına ziddiyyətli münasibətidir. O, İrəvanın müstəqil xanlıq kimi, 1604-cü ildə I şah Abbas tərəfindən "Şərqi Ermənistan" ərazisində yarandığını göstərmişdi. Digər tərəfdən, müəllif İrəvan xanlığının erməni dövləti olmadığını göstərmiş və qeyd etmişdir ki, «beləliklə, İrəvan

xanlığı dövlət idarəçiliyi aparatına görə erməni dövləti deyildir» (291, 57). Müəllifin gəldiyi bu nəticə mövzumuz üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan sovet tarixşünaslığında isə İrəvan bölgəsi ilə bağlı məsələlərə münasibət bir qədər fərqlənir. 1920-1930-cu illərdə xalqımıza qarşı repressiyaların güclənməsi, inzibati amirlik sisteminin tarixşünaslığa da sirayət etməsi tariximizin obyektiv tədqiqinə mane olmuşdu. Tədqiqatçılarımız millətçi damğasından ehtiyat edərək tariximizin bir çox problemlərin dəyəndirilməsi, əsasən də ərazi məsələsində sadəcə susmuşdular. Məhz bu baxımdan İrəvan bölgəsinin tarixinə "biganə" yanaşılmış və bir növ Azərbaycanın bu qədim torpaqları ermənilərə sanki «güzəşt» edilmişdi.

Azərbaycan xanlıqları ilə bağlı məsələlər 1958 və 1961-ci illərdə nəşr edilmiş üçcildlik "Azərbaycan tarixi"nin birinci və ikinci cildlərində öz əksini tapmışdı (20; 21). Bu ümumiləşdirici əsərlərdə Azərbaycan xanlıqlarının yaranmasının şərtləri, ictimai-iqtisadi və siyasi quruluşu, Rusiya tərəfindən işğalından bəhs edilir. Məhz burada qoyulan məsələləri İrəvan xanlığının tarixinə də şamil etmək olar.

XVIII yüzilliyin Azərbaycan tarixinin görkəmli tədqiqatçısı H.V.Abdullayevin əsərlərində (75; 76) Azərbaycan xanlıqlarının sosial-iqtisadi və siyasi vəziyyəti, inzibati ərazi bölgüsü, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətlər və s. məsələlərə geniş yer verilmişdir. Bu əsərlərdə XVIII yüzilliyin 60-cı illərin axırlarında Quba xanlığı ilə İrəvan xanlığı arasında olan siyasi münasibətlərin işıqlandırılması da bizim mövzumuzun tədqiqində çox müsbət rol oynamışdır.

İrəvan bölgəsi tarixinin bu və ya digər məsələlərinə toxunarkən Azərbaycan tədqiqatçılarından Ə.Sumbatzadənin, F.Əliyevin, H.Dəlilinin, S.Məmmədovun, C.Mustafayevin əsərlərindən (490; 31; 32; 83; 27; 28; 243; 244; 254) də istifadə edilmişdi.

Azərbaycan Sovet Ensiklopediyasında da İrəvan bölgəsi haqqında bəzi məlumatlar öz əksini tapmışdı (19). Lakin burada İrəvan bölgəsi ilə bağlı məsələlərə çox "ehtiyatlı" yanaşılmış və çox ziddiyyətli məlumat verilmişdi. ASE-nin İrəvanla bağlı məlumatı

iki hissədən ibarətdir. Birinci hissədə İrəvan xanlığı Cənubi Qafqazda (Azərbaycanda yox – E.Q.) yaranan dövlət kimi qeyd olunmuş, onun erməni ənənəsinə uyğun "Ararat" düzənliyində, "Sevan" gölü hövzəsində yarandığı xüsusilə vurğulanmışdır. Bunun ardınca hakimiyyətdə əslən azərbaycanlı olan hakimlər və onların fəaliyyəti haqqında məlumat verilmişdi. İkinci hissədə isə Ermənistan tarixi ilə bağlı məlumatlar öz əksini tapmışdı. Burada da İrəvan xanlığı erməni dövləti kimi göstərilmiş, İrəvanda baş verən hadisələr ermənilərin azadlıq mübarizəsi kimi qeyd olunmuşdu.

Mövzumuzla bağlı əsərlərin **dördüncü qrupuna** XX yüzilliyin 90-cı illərin əvvəllərində Azərbaycan Respublikası öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra yazılan əsərlər daxildir. Müstəqillik əldə edildikdən sonra xalqımız öz tarixinə sahib çıxmış və tədqiqatçılarımız bu sahədə xeyli uğur qazanmışlar. Məhz bu səbəbdən, sovet dövründə zor gücünə Azərbaycan xanlıqlarının tarixindən ayrı öyrənilən İrəvan bölgəsinin tarixinə dair əsərlər yazılmağa başlandı.

Müstəqillik dövründə İrəvan xanlığının bilavasitə tarixinə həsr edilmiş ilk cəhd kimi M.İsmayılovun F.Əliyevlə yazdıqları "İrəvan xanlığı" məqaləsini hesab etmək olar (40). Məqalədə yaranmasından süqutuna qədər yığcam olaraq İrəvan xanlığının siyasi, iqtisadi tarixi, etnik tərkibi və s. məsələlər işıqlandırılmışdır.

Azərbaycan xanlıqlar dövrünün görkəmli tədqiqatçılarından biri F.Əliyevin U.Həsənovla birlikdə yazdıqları «İrəvan xanlığı» monoqrafiyası (35) isə sonralar İrəvan xanlığı tarixi haqqında yazılacaq əsərlər üçün bir örnəkdir. Əsərdə İrəvan xanlığının siyasi, ictimai-iqtisadi vəziyyəti, inzibati-ərazi bölgüsü, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətlər kimi məsələlər öz əksini tapmışdı. Lakin ilk cəhd olduğu üçün arxiv materiallarının azlığından monoqrafiyada çatışmayan cəhətlər az deyil. Əsərdə İrəvan xanlığı ilə Kartli-Kaxetiya çarlığı, Rusiya, Qacar, Osmanlı dölətləri ilə siyasi münasibətlərdə bir çox məsələlər diqqətdən kənarda qalmış, hadisələrə çox müxtəsər toxunulmuş, hakimiyyətdə olan İrəvan hakimlərinin hamısı haqqında məlumat verilməmişdi.

Bu qrupa daxil olan əsərlərdən biri də «Naxçıvan xanlığı» monoqrafiyasıdır (34). F.Əliyevin və M.Əliyevin birlikdə yazdıqları bu əsərdə Naxçıvan xanlığının tarixinə toxunulsa da, burada İrəvan xanlığının Naxçıvan, Qarabağ, Xoy xanlıqları ilə siyasi münasibətləri, Ağa Məhəmmd şah Qacarın yürüşləri dövründə Naxçıvan və İrəvan xanlıqlarının siyasi durumu kimi məsələlərə toxunulmuşdu.

M.Süleymanovun əsəri isə İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən bəhs edir (63). Əsərdə İrəvan xanlığının siyasi tarixi, onun Rusiya, Kartli-Kaxetiya çarlığı, Qacar, Osmanlı dövlətləri ilə münasibətləri, dövlət quruluşu, inzibati-ərazi bölgüsü, əhali haqqında məsələlər öz əksini tapmışdı. Lakin bu əsərin qüsuru ondan ibarətdir ki, müəllif təsvir etdiyi hadisələrin sitatını göstərməmişdi.

N.Mustafayevanın Cənubi Azərbaycan xanlıqlarına həsr olunmuş əsərində mövzumuzun ayrı-ayrı məsələlərinə toxunulmuşdur (53). Daha çox Cənubi Azərbaycan xanlıqlarının siyasi, sosial-iqtisadi vəziyyətindən bəhs edən müəllif əsərdə Xoy xanlığı ilə İrəvan xanlığının siyasi münasibətlərini, Ağa Məhəmməd şah Qacarın yürüşlərini, birinci və ikinci İrəvan yürüşlərini, xanlığın rus qoşunları tərəfindən işğalını qısa da olsa təsvir etmişdir.

V.Umudlunun əsəri (67) XIX yüzilliyin əvvəllərində Azərbaycan xanlıqlarının rus işğalçılarına qarşı mübarizəsi və işğalın gedişinə həsr edilmişdi. Monoqrafiyada İrəvan xanlığının siyasi vəziyyəti, birinci və ikinci Rusiya-Qacar müharibələri dövründə İrəvan uğrundu müharibə və bu xanlığın işğalı məsələləri də təsvir edilmişdir.

AMEA A.A.Bakıxanov adına Tarix İnstitunun 2009-cu ildə nəşr etdirdiyi "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" adlı monoqrafiyası (39) mövzumuz üçün əhəmiyyətli əsərlərdəndir. Əsər İrəvan xanlığının siyasi-iqtisadi və mədəni tarixinə, əhali məsələlərinə həsr edilmişdir.

Son dövrlərdə Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi münasibətlərindən bəhs edən xeyli əsərlər meydana gəlmişdi. Bu problemin araşdırılmasında Azərbaycan xanlıqlar dövrü tari-

xinin görkəmli tədqiqatçısı T.T.Mustafazadənin Türkiyə arxivlərindən əldə etdiyi, elmi ictimayyətə məlum olmayan zəngin sənədlər əsasında yazdığı monoqrafiyası xüsusi əhəmiyyətə malikdir (55). XVIII-XIX yüzilliyin əvvəllərini əhatə edən monoqrafiyada Osmanlı dövlətinin Azərbaycan xanlıqları, xüsüsən də İrəvan xanlığı ilə bağlı siyasi münasibətlərə toxunulmuşdu. Əsərdə İrəvan xanlığının siyasi vəziyyəti, Osmanlı, Rusiya və Qacar dövlətlərinin Cənubi Qafqazda yeritdikləri siyasətində İrəvan xanlığının yeri və rolu haqqında xeyli faktlar toplanmışdır.

T.T.Mustafazadənin dördcildlik «Ümumi tarix» adlı ümumiləşmiş əsərinin üçüncü cildində (54) Azərbaycan xanlıqlarının siyasi, sosial-iqtisadi vəziyyətinə də toxunmuşdur. Əsərdə İrəvan xanlığının digər xanlıqlarla, İran, Rusiya və Osmanlı dövlətləri ilə siyasi münasibətləri qısaca da olsa öz əksini tapmışdır.

Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələrinə G.Nəcəflinin əsərində də toxunulmuşdur (57). Osmanlı mənbələri əsasında yazılmış əsərdə İrəvan xanlığının siyasi vəziyyəti, xanlığın Kartli-Kaxetiya, Osmanlı Türkiyəsi, Rusiya, Qacar dövlətləri ilə münasibətlərinə dair maraqlı faktlar aşkar edilmişdir.

F.Ağamalının əsərinin də (1) mövzumuz üçün xüsusi əhəmiyyəti vardır. Əsərdə ayrıca İrəvan xanlığından bəhs edilməsə də, burada ümumi Azərbaycan xanlıqlarının sosial-iqtisadi, xanlıqların dövlət quruluşu, inzibati-ərazi bölgüsü, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətlər, şəhər və kənd həyatı, əhalinin sosial tərkibi haqqında məsələlər işıqlandırılmışdır.

Son dövrlərdə Azərbaycan tarixşünaslığında tarixi coğrafiya məsələsinə diqqət artmışdır. V.Piriyevin və T.İsmayılın əsərlərində (58; 205) ümumi Azərbaycanın tarixi coğrafiyasınadan bəhs edilərkən İrəvan bölgəsinə də qısaca toxunulmuşdur. Lakin qeyd edilən əsərlər İrəvan bölgəsinin tarixi coğrafiyasını tam əks etdirmir və bu məsələnin bəzi tərəfləri qaranlıq qalır.

Mövzumuz üçün N.R.Gözəlovanın İrəvan xanlığının siyasi və etnodemoqrafik vəziyyətinə dair yazdığı məqalələrinin (150, 134-141; 151, 61-72) də xüsusi yeri vardır. Onun ingilisdilli müəlliflərin

əsərlərində işıqlandırılan məlumatlar əsasında İrəvan xanlığının etnik tərkibinə həsr etdiyi məqaləsi xüsusilə əhəmiyyətlidir.

Mövzunun tədqiqində son dövrlərdə nəşr olunmuş yeddicildlik Azərbaycan tarixinin üçüncü və dördüncü cildlərindən də istifadə olunmuşdu (22; 23). Bu ümumiləşmiş əsərlərdə Azərbaycanın siyasi, ictimai-iqtisadi vəziyyəti ilə bərabər İrəvan bölgəsi haqqında da məlumat verilmişdir.

Beləliklə, Vətən tarixində İrəvan bölgəsinin tarixi ilə bağlı bəzi məsələlər öz əksini tapmasına baxmayaraq, bu bölgənin tarixi tam öyrənilməmiş və bir çox məqamlar qaranlıq qalmışdır. Monoqrafiyada ilk dəfə olaraq XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarına qədər İrəvan bölgəsi tarixinin kompleks şəkildə tədqiqinə cəhd göstərilmişdir.

# I FƏSİL

# İRƏVAN BÖLGƏSİNDƏ SİYASİ VƏZİYYƏT
## (XVII yüzilliyin sonu-XVIII yüzilliyin ortalarında)

XVI yüzilliyin əvvəllərindən fasilələrlə bir əsrdən çox davam edən Osmanlı – Səfəvi müharibəsi 1639-cu ildə sülh müqaviləsi ilə başa çatdı. Hərbi əməliyyatlar nəticəsində əldən-ələ keçən İrəvan bu sülh müqaviləsinə əsasən Səfəvilər dövlətinə qaytarıldı və o, bu dövlətin inzibati-ərazi bölgüsünə daxil olan Çuxursəd bəylərbəyliyinin əsas mərkəzi əyaləti oldu (61, 21; 298, 117; 29, 241-242; 467, 88). Azərbaycanın şimal-qərbində yerləşən İrəvan bölgəsi Osmanlı Türkiyəsi ilə həmsərhəd olduğundan Səfəvi şahları bu əraziyə xüsusi diqqət yetirir, özlərinə yaxın, nüfuzlu əyanları bu bölgəyə hakim təyin edirdilər. Bəylərbəyilərin iqamətgahı İrəvan şəhərində yerləşirdi.

Sülh müqaviləsinin bağlanması Azərbaycanda, o cümlədən İrəvan bölgəsində dağılmış təsərrüfatın bərpa edilməsinə və canlanmasına səbəb oldu. Bu proses əsrin sonlarına qədər davam etdi. XVII yüzilliyin sonu – XVIII yüzilliyin əvvəllərində isə Səfəvilər imperiyasında uzun sürən dərin iqtisadi və siyasi böhran başladı. Şah I Sultan Hüseynin (1694-1722) başçılıq etdiyi mərkəzi hakimiyyət zəiflədi, dövlət məmurlarının və iri əyalət hakimlərinin özbaşnalığı artdı. Onlar mərkəzdən gələn qanun-qaydalara məhəl qoymur, hakimiyyətləri altında olan yerlərdə özbaşnalıq edir, sadə xalqı qarət edirdilər. Ona görə də, bütün imperiyanı oğurluq və quldurluq bürümüşdü (493, 6; 42, 20; 99, 112; 242, 3-14; 91, 35-36; 199, 74-80).

1699-1702-ci illərdə şahın keçirdiyi islahatlar da imperiyanı tənəzzüldən xilas edə bilmədi. Əksinə bu islahatlar xalqın vəziyyətini daha da çətinləşdirdi (166, 18-20; 239, 63-65).

Səfəvilər imperiyasında baş vermiş həmin böhran İrəvan bölgəsində də özünü göstərmişdi. Qeyd etmək lazımdır ki, bu bölgədə iqtisadi böhranın ilk əlamətləri daha əvvəl özünü büruzə vermişdi. Hələ XVII yüzilliyin 70-ci illərin əvvəllərindən İrəvanda tez-tez baş verən məhsulsuzluq, qıtlıq, aclıq, xəstəlik və təbii fəlakətlərin vurduğu dəhşətli ziyanlar belə əlamətlərdən idi. Bu hadisələr də mənbələrdə öz əksini ətraflı tapmışdı. İlk belə vəziyyət (aclıq) 1673-cü il yanvarın əvvəllərindən iyul ayına qədər davam etmiş, İrəvan da daxil olmaqla Təbrizdən Gəncəyə qədər böyük bir ərazini qıtlıq bürümüşdü. Nəticədə aclıq əhalini dəhşətli vəziyyətə salmış, məhsulun qiyməti hədsiz dərəcədə artmışdı. Z.Əylisli "Gündəliyi"ndə yazırdı ki, "1 litr (bax çəki və ölçü vahidləri haqqında səh.441-442-E.Q) unun qiyməti 400 dian, düyü 400 dian, ət 200 dinana idi. Çox vaxt bu məhsulların özü tapılmırdı. Əhali aclıqdan ot yeyirdi. Tez-tez unüyüdən dəyirmanlar, hətta müqəddəs yerlər hücumlara məruz qalırdı" (167, 94).

1677-ci ildə İrəvan bölgəsi daha bir fəlakətlə üzləşdi. 1677-ci ilin may ayında ev quşlarında kütləvi xəstəlik baş verdi. Quş ətini və yumurtasını yeyənlər 40 gündən sonra özləri ölürdülər. Bu fəlakətdən qurtarmaq üçün yerli əhali kütləvi surətdə quşları qıraraq, torpağa basdırırdı (167, 109).

Bu fəlakət qurtarmamış İrəvan yeni bir fəlakətə məruz qaldı. 1679-cu il iyunun 4-də İrəvanda dəhşətli zəlzələ baş verdi. Dağıntının miqyası geniş və kədərli idi. Zəlzələ nəticəsində İrəvan qalası, bəylərbəyinin evi, məscid və minarələr və hamamlar yerlə – yeksan olmuşdu. Qayalar zəlzələnin gücündən uçaraq suvarma arxlarının yolunu kəsmiş, çoxlu kənd dağıntıya məruz qalmışdı. Minlərlə insan bu zəlzələnin qurbanı olmuşdu. O ailə yox idi ki, zəlzələdən zərər çəkməsin. Hətta ailələrdən 5, 8, 9 nəfər uçulmuş evlərin altında qalan olmuşdu. Hesablamalara görə, bütün əyalətdə zəlzələ qurbanların sayı 7.600 nəfərə çatmışdı (167, 117-118; 219, 197).

Çuxursəd bəylərbəyi Zal xan (1679-1688) bu dəhşətli zəlzələ haqqında şaha xəbər göndərərək kömək istəmişdi. Zəlzələnin nəticələrini aradan qaldırmaq üçün Azərbaycanın müxtəlif yerlərindən

İrəvana kömək gəlmişdi. İlk olaraq Gəncədən 800 nəfər göndərilmiş, Naxçıvan hakimi Məhəmmədrza xan öz qoşunu ilə köməyə tələsmişdi. Şahın əmri ilə Təbriz hakimi Mirzə İbrahim də İrəvana gəlmişdi. O, Bərdə, Maku, Loru, Sədərək, Car və digər qonşu hakimləri köməyə çağırdı. Bundan əlavə, əyalətin sağ qalmış əhalisi də bu işə cəlb olundu. Beləliklə, zəlzələnin törətdiyi dağıntıları aradan qaldırılması istiqamətində böyük işlər görülməyə başlandı. İrəvan qalası üç sıra divarla möhkəmləndirilmiş, Zəngi çayının üstündəki körpü yenidən bərpa olunmuşdu. İrəvanı su ilə təmin edən arxlar təmizlənərək işlək halına gətirildi. Lakin zəlzələnin nəticələri tam aradan qaldırılmadı. Belə ki, köməyə gələn xanlar, bəylər və sadə camaat İrəvanda yalnız qışa qədər qala bilmişdi. Havalar soyuyan vaxt isə şahın göstərişi ilə hərə öz yerinə qayıtdı (167, 118; 225, 198).

Zəlzələnin nəticələri aradan qalxmamış 1681-ci ildə İrəvanda yenidən aclıq başladı. Aclıq qonşu əyalətləri bürüsə də, İrəvanda özünü daha kəskin surətdə göstərmişdi. Z.Əylisli yazırdı ki, "1681-ci ildə İrəvanı aclıq bürüdü. Bir somar (bax.441) buğdanın qiyməti 1200 diana qalxmışdı. Arpa buğdadan daha çox bahalaşdı, bir somar arpa 12 Təbriz tüməninə bərabər olmuşdu. Düyünün qiyməti 2000 dian idi. İnsanlar qatıq və pendirlə keçinirdi. Çoxlu zavallı insan aclığını təmin etmək üçün otla dolanırdı. Əhali çörəyi keşişçilərin vasitəsilə əldə edirdi. Belə aclıq yalnız İrəvan şəhərini deyil, Kallantdan (?) Tokata qədər yeri əhatə etmişdi. Lakin aclıq heç bir yerdə İrəvandakı qədər özünü büruzə verməmişdi. Əldə edilən çörəyin isə yalnız adı vardı, bu çörək deyildi, torpaq idi" (167, 126-127).

XVII yüzilliyin axırlarından başlayan iqtisadi böhran ölkəni siyasi böhrana da sürükləyirdi. Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsinin əhalisi də hakimlərin öz vəzifələrindən sui-istifadə etməsindən əziyyət çəkirdi. Bu dövrdə bəylərbəyi vəzifəsini icra edən Fərzəli xanın (1694-1700) və onun yaxın adamlarının özbaşnalığı üzündən bölgədə böhranlı vəziyyət yaranmışdı. Bu yeni hakim İrəvanın həyatında böyük rol oynamış

məşhur Əmirgünə xan Qacarın (1605-1625) nəvəsi idi. Lakin babasından fərqli olaraq Fərzəli xan, acgöz, xəsis, qarətçi, rüşvətxor, pula satılan hakim idi. O, məhkəmə işlərində ədalətsiz qərarlar çıxarırdı. Əgər bir nəfər şikayət etsəydi, Fərzəli xan həmin şəxsi istintaqsız cərmələyirdi. Cərmənin miqdarı bir sikkə olsa da, iyirimi sikkə alırdı (225, 225; 187, 227).

Onun özbaşnalığı bölgədə hərc-mərcliyin artmasına səbəb olmuşdu. Quldurluq və oğurluğun sayı artdı. Quldurlar və oğrular açıq-açığına kəndlərə, örüş yerlərinə soxularaq mal-qaranı aparır, taxıl ehtiyatını oğurlayırdılar. Bu cür hallar cəzasız qalır, heç bir tədbir görülmürdü. Belə ki, hər hansı quldur və oğru həbs edildisə də, cərimə ödəməklə həbsdən azad olunurdu. Onlar yenidən hərəkətlərini davam etdirirdilər (225, 225).

Əyalət hakimlərinin özbaşnalığı o dərəcədə artmışdı ki, onlar hətta camaatın ailələrinə sataşmaqdan belə çəkinmirdilər. Bəylərbəyilər şah I Sultan Hüseynin (1694-1722) eyş-işrət məclisini sevdiyini bildiklərindən yerlərdə gözəl qızları toplayaraq mərkəzə göndərir, bu işdən də qazanc güdürdülər. Z.Kənəkirlinin sözlərinə görə, Orta Asiyadan gələrək şahın qulluğuna keçən 7 min özbək döyüşçüsü üçün dövlətin ayrı-ayrı bölgələrindən 7 min gözəl qız toplanması elan edildi. İrəvan bəylərbəyi Fərzəli xan bütün əyalətdən 500 qız toplamış, valideyinlərindən pul alaraq onların çoxunu buraxmış, cəmi 40 qız saxlamışdı (225, 223-224; 298, 294).

Görünür, Fərzəli xanın özbaşnalığı xalqın narazılığına səbəb olduğuna görə, şah onu İrəvandan geri çağırmışdı. İrəvanda böhranlı vəziyyətin yaranmasını bəylərbəylərin mərkəzi hakimiyyət tərəfindən tez-tez dəyişməsi ilə də izah etmək mümkündür. Belə ki, Fərzəli xandan sonra Zöhrab xan (1700-1705) (ikinci dəfə – E. Q.), Əbdülməhəmməd xan (1705-1709), Mehrəli xan (1709-1719) Çuxursəd bəylərbəyi təyin olunmuşdular (472, 5; 49, 15). Lakin mənbələrdə bu hakimlərin hakimiyyət dövrü haqqında məlumatlara rast gəlmədik.

Yalnız mənbələrin birində adı çəkilən hakimlərdən Mehrəli xanın dövründə (1709-1719) İrəvan bölgəsində baş verən bəzi

hadisələr haqqında məlumat əldə edə bilmişik. Belə ki, 1710-cu ildə Mehrəli xanın Bəyazid paşası ilə münaqişəsi olmuşdu. Mənbədə bunun səbəbi göstərilməsə də, çox güman ki, bu münaqişə Osmanlı dövlətindən bəzi elatların İrəvanın ərazisinə qeyri-qanuni müdaxiləsi ilə əlaqədar idi. Onlar arasında münaqişə o qədər ciddi olmuşdu ki, bu məsələ dövlət səviyyəsində həll olunmuşdu. Osmanlı dövləti şah sarayına xüsusi nümayəndə heyəti göndərmiş, Mehrəli xan paytaxta çağırılmışdı (501, 253, 255).

Lakin Səfəvi dövlətinin böhranlı vəziyyətindən istifadə edən bəzi qüvvələrin Osmanlı ərazisindən müdaxilələri davam edirdi. 1718-ci ildə Osmanlı ərazisindən kürd dəstələri tez-tez İrəvanın sərhəd məntəqələrinə qarətçi yürüşlər edərək, xalqı soyub talayırdı (501, 326).

1719-cu ildə Mehrəli xanı **Allahqulu xan (1719-1724)** əvəz etdi (187, 266; 472, 5; 49, 15). O, Səfəvi şahı tərəfindən İrəvana təyin olunmuş sonuncu hakimlərdən idi. Bu hakimin dövründə irəvanlılar Hacı Davudun başçılığı ilə üsyançı dəstələrinə və Osmanlı qoşunlarının hərbi müdaxiləsinə qarşı mübarizə aparmaq məcburiyyətində qalmışdılar. Belə ki, Səfəvilər imperiyasında baş vermiş böhranın məntiqi nəticəsi olaraq, Azərbaycanın hər tərəfini üsyanlar bürümüşdü. Bu üsyanların ən böyüyü Hacı Davudun başçılığı ilə olmuş Şirvan üsyanı idi. Dağıstan feodalları ilə birlikdə hərəkət edən Hacı Davud öz dəstəsi ilə Şabran, Xudat, Bakı və Dərbənd şəhərlərinə hücumlardan sonra 1721-ci ilin avqustunda zəmanənin ən böyük ticarət mərkəzi olan Şamaxı şəhərini ələ keçirmişdi (493, 79; 152, 108; 166, 28; 95, 102; 83, 33-34; 45, 45-48).

Şamaxının tutulması xəbəri tezliklə bütün ölkəyə yayılmışdı. Bundan təşvişə düşən İrəvan və Gəncə hakimləri şaha müraciət edərək ondan kömək istəmişdilər. Lakin bu dövrdə şahın özünə kömək lazım idi. Üsyan etmiş əfqan tayfaları öz hücumları ilə Səfəvi dövlətinin paytaxtı İsfahanı qorxu altında saxlayırdılar (166, 28-29).

Şahdan heç bir kömək almayan hakimlər öz qüvvələri ilə üsyançıları cəzalandırmaq qərarına gəldilər. İrəvan hakimi Allah-

qulu xan mahallardan qoşun toplayaraq Gəncə hakimi Uğurlu xanla birləşdi. 1721-ci ilin payızında onların birləşmiş 40.000 nəfərlik qoşunu Şirvana doğru hərəkət edərək Bərdə şəhəri yaxınlığında, Kür çayı sahilində düşərgə salır. Lakin üsyançılar cəld tərpənərək birləşmiş qoşuna hücum etdilər. Qəflətən yaxalanmış İrəvan və Gəncə qoşunları fasiləsiz hücumlara tab gətirməyərək döyüş meydanından qaçmalı oldu. Onlardan bir çoxu İrəvana, digərləri isə Gəncəyə qaçdı. Allahqulu xanın özü Gəncə qalasına sığınaraq, bir müddət burada qaldı. O, yalnız İrəvandan nümayəndə gəldikdən sonra geri qayıda bilmişdi (93, 74; 166, 28-29).

XVII yüzilliyin sonu-XVIII yüzilliyin əvvəllərində Səfəvilər imperiyasında başlayan iqtisadi və siyasi böhran onun beynəlxalq vəziyyətinə də mənfi təsir göstərmişdi. Belə ki, bu dövlətin zəifləməsindən istifadə edən qonşu Rusiya və Osmanlı imperiyalarının burada baş verən hadisələrə açıq müdaxiləsi başladı. Qeyd etmək lazımdır ki, XVIII yüzilliyin birinci rübündə Azərbaycan hər iki imperiyanın siyasətində əsas yerlərdən birini tuturdu (251, 17; 77, 21; 255, 18-38). Onlar Səfəvi imperiyasında baş verən hadisələri diqqətlə izləyir və hər hansı hadisədən öz məqsədləri üçün istifadə etməyə can atırdılar. Nəticədə, XVIII yüzilliyin 20-ci illərin əvvəllərindən başlayaraq Rusiya, azacıq sonra isə Osmanlı imperiyası Azərbaycanda hərbi əməliyyatlara başladı. 1722-1723-cü illərdə I Pyotrun başçılığı ilə rus qoşunlarının Xəzərsahili ərazilərə yürüşü nəticəsində Dərbənddən Gilana qədər yerlər Rusiya tərəfindən işğal olundu (107, c.1, 58-62; 108, 219-225; 239, 86-87; 83, 38-54; 45, 52-60; 46, 45-99).

Rusiyanın Xəzərsahili əraziləri işğal etməsi Osmanlı sarayını narahat etməyə bilməzdi. 1722-ci ilin payızında sultan tərəfindən Osmanlı imperiyasının Asiya əyalətlərinin paşalarına Ərzurumda yığılşmaq və buradan Azərbaycana yürüşə başlamaq əmri verildi (83, 55-56; 77, 35). Osmanlı qoşunlarının Azərbaycanda hərbi əməliyyata başlaması Rusiya-Osmanlı dövlətləri arasında ziddiyyəti daha da kəskinləşdirdi. İşğal etdiyi ərazilərə türkləri buraxmamağa çalışan I Pyotr Osmanlı dövləti ilə danışıqlara girmək məcburuy-

yətində qaldı. Bu danışıqlar nəticəsində 1724-cü il iyulun 12-də İstanbulda Rusiya ilə Osmanlı imperiyaları arasında müqavilə başlandı. “İstanbul müqaviləsi”nə görə, Xəzərsahili əyalətlərin Rusiyanın tərkibinə keçməsi təsdiq olundu. Azərbaycanın digər əraziləri isə Osmanlı dövlətinə “güzəşt” edildi (5, 419, 185-189; 107, c.1, 58-62).

1724-cü il İstanbul müqaviləsi Osmanlı dövlətinin Azərbaycanda fəaliyyətini daha da genişləndirdi. Osmanlı qoşunları Azərbaycana irimiqyaslı yürüşə başladı. İlk hücuma məruz qalan bölgələrdən biri də İrəvan oldu. Azərbaycanın mərkəzi bölgələrinə gedən yol buradan keçdiyindən İrəvanda möhkəmlənmək Osmanlı sarayı üçün daha vacib məsələlərdən biri idi.

Osmanlı qoşunlarının baş komandanı təyin olunan Diyarbəkr hakimi Arif Əhməd paşa 1724-cü il iyunun 24-də 30 minlik qoşunla Araz çayını keçərək İrəvan əyalətinə daxil oldu. Lakin qoşunun hərbi təchizatını kifayət hesab etməyən Osmanlı komandanlığı dörd gün Arpaçay çayı sahilində düşərgə salaraq, Ərzurumdan 10 ədəd topun gəlməsini gözlədi (74, 45; 493, 106; 87, 12).

Bu vaxt ərzində Osmanlı komandanlığı boş oturmadı. Baş komandan Arif Əhməd paşa ağsaqqal bir şəxslə İrəvan bəylərbəyinə, əyanlarına və din xadimlərinə öz yürüşü haqqında məktub yolladı. Məktubda İrəvan qalasının könüllü təslim edilməsi tələb olunurdu. Əvəzində Osmanlı komandanlığı irəvanlıların həyat və əmlaklarına toxunmayacağına söz verirdi (74, 46; 87, 12).

Eyni zamanda Osmanlı komandanlığı kəşfiyyat məqsədi ilə Yavuz Həsənin və Qoç Əlinin başçılığı ilə 1800 nəfərdən ibarət hərbi qüvvəni irəli göndərmişdi. İrəvan hakimi Allahqulu xan (1719-1724) yolda ikən bu dəstənin qarşısını kəsmək qərarına gəldi. Lakin İrəvan şəhəri yaxınlığında osmanlıların ön dəstəsi ilə toqquşmada onun qoşunu məğlubiyyətə uğradı. Tərəflər arasında xeyli ölən və yaralanan oldu. Məğlub edilmiş Allahqulu xan qalan qoşunla İrəvan qalasına sığındı və bir daha nizami Osmanlı qoşunu ilə açıq döyüşə girməyə cəhd etmədi (87, 8).

İrəvan qoşunu geri çəkildikdən sonra osmanlıların bu ön dəstəsi irəli hərəkət edərək Gərni yaşayış məntəqəsini mühasirəyə aldı. Osmanlı qoşununa güclü müqavimət göstərməsinə baxmayaraq, İrəvan hakimindən heç bir kömək almayan Gərni əhalisi təslim oldu. Burada kiçik qarnizon yerləşdirildi (87, 8-10).

İrəvanlılardan heç bir cavab almayan Arif Əhməd paşa əsas qoşunla İrəvan qalasına doğru hərəkət etdi. Lakin bu nizami qoşun da irəvanlıların güclü müqavimətinə rast gəldi. Belə ki, 1724-cü il iyulun 7-də şəhər ətrafında irəvanlılar Osmanlı qoşununa hücum etdi. Tərəflər arasında iki saat davam edən döyüşdə Osmanlı qoşunu qalib gəldi (74, 47; 492, 12).

Bu hadisədən sonra irəli hərəkət edən Osmanlı qoşunu həmin gün İrəvan qalasını mühasirəyə aldı. Mühasirə qoşunlarının düzülüşü belə idi: qalanın qərb tərəfində sərəsgər Arif Əhməd paşa öz dəstəsi ilə mövqe tutmuşdu. Ondan sol tərəfdə Anadolu və Qars bəylərbəyliyinin başçılığı ilə qoşun hissələri, sağ tərəfdə yeniçərlər, cənub tərəfdə, Zəngi çayının arxasında isə Qarahisar hakiminin başçılığı ilə sipahi dəstələri (süvari dəstəsi – E. Q.) yerləşmişdi (492, 12).

Qeyd etmək lazımdır ki, Osmanlı qoşunlarının hücumunu eşidən irəvanlılar müəyyən müdafiə tədbirləri görə bilmişdilər. Allahqulu xanın göstərişinə əsasən, ətraf kəndlərin əhalisi qalaya köçürülmüş, ərzaq tədarükü görülmüşdü. Bundan əlavə, Osmanlı qoşunlarını hər cür ərzaqdan məhrum etmək üçün İrəvan mahallarına daxil olan 300 kəndin əhalisi qonşu əyalətlərə sığınmışdı (492, 16; 87, 10-11).

İrəvan qalasının möhkəmliyini və irəvanlıların döyüş əzmini görən Arif Əhməd paşa ilk növbədə qalanın könüllü təslim olunması üçün danışıqlara başladı. O, bəylərbəyinin yanına aman məktubu ilə xüsusi nümayəndə heyəti göndərdi. Öz növbəsində İrəvan hakimi Allahqulu xan vaxt qazanmaq və şahdan kömək almaq niyyəti ilə öz yaxın adamlarını Osmanlı düşərgəsinə göndərmək məcburuyyətində qaldı. İrəvanın məşhur əyanlarından Məhəmməd Mehdi bəydən, İmanqulu bəydən, Məhəmməd Zaman bəydən,

Məhəmməd Rza bəydən və Əbdülkərim bəydən ibarət nümayəndə heyəti Arif Əhməd paşanın qəbulunda oldular. Danışıqlar zamanı İrəvan elçiləri şah II Təhmasibin (1722-1732) razılığı olmadan qalanın təslim olunmasının qeyri-mümkünlüyünü bildirdilər. Çünki şahın yanında kiminsə oğlu, kiminsə qardaşı, kiminsə də arvadı girov idi. Onlar şahdan xəbər gəlincə möhlət verilməsini xahiş etdilər. Lakin paşa bu şərtlə razılaşmadı. Buna görə də danışıqlar heç bir nəticə vermədi. Beləliklə, danışıqlar iki həftə davam etdi (74, 49; 492, 11; 87, 12).

İrəvan hakimi başda olmaqla irəvanlıların könüllü təslim olmayacağını görən Arif Əhməd paşa iyulun 7-də qalaya hücum əmrini verdi. Qala güclü bombardman edilir. Qeyd etmək lazımdır ki, İrəvan qalasının mühasirəsi üçün Ərzurumdan 14 böyük top və bu topları idarə etmək üçün 32 topçu mütəxəssis gətirilmişdi. Zəngi çayının əks tərəfində quraşdırılan bu toplardan qala güclü bombardmana məruz qaldı (492, 11; 87, 13).

Lakin Allahqulu xan başda olmaqla İrəvan qalasına sığınan yerli əhali və qoşun hissələri Osmanlı qoşununa güclü müqavimət göstərirdi. Onlar da öz növbəsində osmanlılara top atəşi ilə cavab verirdilər (87, 13).

İrəvanlıların güclü müqaviməti mühasirənin uzanmasına səbəb olmuşdu. Osmanlı ordusu ayrı-ayrı vaxtlarda dörd dəfə İrəvan qalasına irimiqyaslı hücum etmişdi. İlk üç hücumda İrəvan qalası güclü bombardmana məruz qalmış, hətta bombardman nəticəsində qala divarlarında çatlar əmələ gəlmişdi. Bu çatlardan qalaya girməyə çalışan Osmanlı qoşunu güclü müqavimətlə rastlaşdı. Tüfəng, qumbara, hətta daşlarla silahlanmış irəvanlılar Allahqulu xanın başçılığı ilə nəinki hücumun qarşısını aldılar, eyni zamanda osmanlılar xeyli itki verdi. Burada dözülməz hava şəraiti də öz işini görmüşdü. Hər iki tərəfdən çoxlu ölən və yaralanan var idi. İş o yerə çatmışdı ki, insan, heyvan cəsədlərinin çürüməsindən hər tərəfi müxtəlif xəstəliklər bürümüşdü. Buna görə də, paşa ölüləri dəfn etmək üçün üç günlük barışıq xahiş etmişdi (493, 107-108; 74, 52-53; 87, 14).

Köməksiz qalmış qala sakinlərinin vəziyyəti də heç də yaxşı deyildi. İrəvanlıların qəhrəmanlıqla mübarizə aparmalarına baxmayaraq, mühasirənin uzanması onların qüvvələrini xeyli tükəndirmişdi. Bir tərəfdən döyüşlərdə ölənlərin sayının artması, digər tərəfdən ərzaq çatışmazlığı irəvanlıların sıralarını gündən-günə seyrəldirdi. Aclıq qala sakinlərini tamamilə əldən salmışdı. Qaladan hər gün onlarla adam qaçırdı (74, 51; 493, 108). Digər tərəfdən, irəvanlıların silah və sursatları da detdikcə tükənirdi. Toplar üçün mərmi, güllə və hətta güllə düzəltmək üçün qurğuşun belə çatışmırdı (493, 108).

Bununla belə irəvanlılar təslim olmaq niyyətində deyildi. İrəvan hakimi Allahqulu xan şah II Təhmasibdən kömək almaq ümidində idi. O, mühasirə başlanandan kömək almaq məqsədilə gizli surətdə şahın yanına adamlar göndərirdi. Xanın niyyətini hiss edən və irəvanlılara kənardan hər cür köməyin onlar üçün təhlükəli olacağını başa düşən Osmanlı komandanlığı isə bunun qarşısını almaq üçün hər vasitəyə əl atırdı. Bütün yollar nəzarətə götürülmüşdü. Bunun nəticəsində qaladan çıxmağa çalışan bir neçə nəfər həbs edilmişdi. Digər tərəfdən, irəvanlılar xəyanətlə də üzləşirdilər. Belə ki, bəylərbəyi hələ qalaya hücumdan əvvəl Osmanlı komandanlığı tərəfindən ona göndərilmiş aman məktubunu şahın adına yazdığı məktubla birlikdə bir nəfər şəxsilə şah II Təhmasibin yanına göndərmişdi. Lakin həmin şəxs hər iki məktubu Osmanlı komandanlığına təslim etmişdi (74, 50-51).

Buna baxmayaraq, şah II Təhmasib irəvanlılara kömək məqsədilə Mustafa xanın başçılığı ilə Naxçıvan istiqamətinə qoşun göndərdi. İrəvan hadisələrinin canlı şahidi M.Kəmani guya bu qoşunların sayının 30.000 nəfərə yaxın olduğunu bildirirdi. Onun yazdığına görə, bu məlumatı İrəvan qalasına daxil olmağa çalışan, osmanlılar tərəfindən ələ keçirilmiş casus xəbər vermişdi (74, 51). Qeyd etmək lazımdır ki, müəllifin həmin qoşunla bağlı verdiyi bu məlumat inandırıcı görünmür. Çünki əfqanlar tərəfindən sıxışdırılan Səfəvi şahının hərbi qüvvə cəhətdən ciddi problemləri var idi. Əslində şahın göstərişi ilə Mustafa xan azsaylı qoşunla Naxçıvan

hakimi Mənsur xanla birləşərək irəvanlılara kömək etməli idi. Bu birləşmiş qoşunun sayı cəmisi 8 minə qədər çatırdı. Bu xəbəri eşidən Arif Əhməd paşa irəvanlılaraköməyə gələn bu qoşuna zərbə endirməyi qərara aldı. Bu məqsədlə Osmanlı komandanlığı xüsusi müşavirə çağırdı. Müşavirədə Bəyazid hakimi Mahmud paşanın və Ələşkert hakimi Xəlil bəyin başçılığı ilə bir dəstə qoşunun Naxçıvan tərəfə göndərilməsi qərara alındı. 1724-cü il sentyabrın 10-da Ordubad yaxınlığında tərəflər arasında bir saaat davam edən döyüş baş verdi. Döyüşdə şah qoşunu məğlub oldu. Məğlub olmuş xanlar Naxçıvandan geri çəkilmək məcburiyyətində qaldılar. Bu döyüşdə İrəvan hakiminin qardaşı Hüseynqulu bəy ələ keçirilərək Osmanlı komandanlığına təslim edilmişdi (74, 51-53, 58, 61).

Lakin ruhdan düşməyən İrəvan hakimi Allahqulu xan qonşu əyalətlərdən kömək almaq üçün yeni bir cəhd etdi. O, yaxın adamlarından ibarət bir heyəti xüsusi məktubla Gəncəyə göndərdi. Məktubda xan gəncəlilərdən 2-3 min nəfərlik hərbi qüvvə xahiş etmişdi. Onun planına görə, bu qüvvələr bir tərəfdən, qala müdafiəçiləri isə digər tərəfdən Osmanlı qoşununa hücum etməli idi. Lakin bu heyət Qoç Əlinin adamları tərəfindən ələ keçirilmiş və məktub tapılaraq Osmanlı baş komandanına verilmişdi (74, 54).

İtkilərə baxmayaraq tezliklə Osmanlı qoşununa əlavə kömək gəldi. Kütahiyə paşasının qoşunları Arif Əhməd paşanın qoşunları ilə birləşdi. Bundan ruhlanan paşa sentyabrın 10-da dördüncü dəfə İrəvan qalasına hər tərəfdən irimiqyaslı hücum əmrini verdi. Lakin bu hücum da Osmanlı qoşunlarının tam məğlubiyyəti ilə nəticələndi. Xeyli itki verən osmanlılar geri çəkilmək məcburiyyətində qaldılar (493, 107-108).

Uğursuz hücumlar Osmanlı qoşununu ağır vəziyyətə salmışdı. Onlar döyüş baslayandan bəri 20.000 nəfərə yaxın adam itirmişdilər (493, 108; 492, 12).

Lakin sentyabrın sonlarında Ərzurum hakimi Sarı Mustafa paşanın başçılığı ilə buraya əlavə qoşun hissələrinin gəlməsi Osmanlı qoşununun vəziyyətini xeyli yaxşılaşdırdı. (493, 108; 87, 14).

Osmanlı qoşununa əlavə köməyin gəlməsi İrəvan hakimini ciddi təşvişə saldı. O, sonuncu dəfə şahdan kömək almaq üçün cəhd etdi. İrəvan əyanlarından Seyfiqulu bəy və Eçmiədzin katolikosu şahın yanına göndərildi. Lakin günlərini eyş-işrətlə keçirən şah onları qəbul etmədi. Geri qayıdan elçilər vəziyyətin ümidsiz olduğunu, xalqın mənasız qırğına verildiyini İrəvan hakiminə bildirdilər. Digər tərəfdən, osmanlılar tərəfindən qardaşının həbs edildiyini eşidən Allahqulu xan təslim olmaq qərarına gəldi (74, 55; 493, 108-109).

Vəziyyətin ümidsiz olduğunu görən Allahqulu xan oktyabrın 1-də danışıq aparmaq üçün Osmanlı düşərgəsinə nümayəndə heyəti göndərdi. Bu heyətin başında şeyxülislam Hüseyn Əfəndi dururdu. Heyətə İrəvan əyanlarından Məcnun bəy, Məhəmmədmehdi bəy və Məhəmmədzaman bəy daxil idi. Danışıqlarda İrəvan tərəfi on beş gün möhlət istədi. Onların tərəddüdünün əsas səbəbi şah sarayında olan girovların taleyi idi. Lakin Arif Əhməd paşa qalanın təslimi üçün onlara cəmi yeddi gün vaxt verdi (74, 60-61).

Səkkizinci günü nümayəndə heyəti qalanın təslimi üçün Osmanlı düşərgəsinə gəldi. Əldə olunmuş razılığa əsasən Osmanlı baş komandanlığı təslim olacağı təqdirdə qala müdafiəçilərinə aman verirdi. Razılığa əsasən başda Allahqulu xan olmaqla yerli qoşun hissələri bütün əmlakı ilə birlikdə Qarabağ sərhəddinə qədər yola salınacaq, saray əhli və qala camaatı isə İrəvan şəhərinə köçürülməli idi. Paşa onların özlərinə və əmlakına toxunmayacağına söz verirdi. Qala, qala artilleriyası, silah-sursatı ilə birlikdə osmanlılara təhvil verilməli idi. Beləliklə, haqqında razılığa gəlmiş bütün maddələr yerinə yetirildi. Qarahisar paşası dəstəsi ilə yerli qoşun hissələrini sərhədə qədər yola saldı və Allahqulu xan şah II Təhmasibin Əhərdə yerləşən qərargahına getdi (74, 63-68; 493, 108-109; 87, 15-17; 492, 12-13).

İrəvan qalasının mühasirəsi iyulun əvvəllərində başlamış, oktyabrın 1-ə qədər davam etmişdi. Qalanın işğalı nəticəsində 79 top, qalanın açarları və XVII yüzilliyin əvvəllərində İrəvan qalası osmanlılardan geri alınarkən şah I Abbasın (1587-1629) qala

qapısından asdığı qılınc qənimət kimi Osmanlı qoşunlarının əlinə keçdi. Azərbaycan tarixinin qiymətli raritetləri olan bu əşyalar İstanbula göndərildi. İrəvanın ələ keçirilməsi İstanbul sarayında böyük sevinclə qarşılandı. Üç gün təntənəli mərasimlər keçirildi. Mərasimlər zamanı xeyli yüksək dövlət xadimləri mükafatlarla təltif olunmuşdular (74, 68-70; 492, 12-13).

Beləliklə, İrəvan qalasının süqutu bütün əyalətin taleyini həll etdi. Belə ki, bu tarixi hadisədən sonra İrəvan əyalətidə 11 il davam edən Osmanlı üsul-idarəsi yarandı. Burada keçirilən inzibati-ərazi islahatına görə, İrəvan Osmanlı dövlətinin sancaqlarından birinə çevrildi. O, bir şəhər, on yeddi nahiyəyə bölündü (38, 9). Sultanın fərmanı ilə **Rəcəb paşa (1724-1728)** İrəvan hakimi təyin olundu (472, 5; 182, 177).

Lakin Rəcəb paşa burada çox qalmadı. Ondan sonra İrəvanda tez-tez hakimiyyət dəyişikliyi baş verdi. Bir-birinin ardınca **İbrahim paşa, Mustafa paşa (1728-1734) və Əli paşa (1734-cü il – bir neçə ay)** İrəvanı idarə etmişdilər (470, 5). Bu hakimlər arasında Əli paşanın taleyi məlum olmuşdu. O, hakimiyyətdə olarkən qəflətən xəstələnmiş, 1734-cü il noyabrın 1-də səhər tezdən vəfat etmişdi. Sultanın fərmanı ilə onun yerinə xəzinədar işləyən **Hacı Hüseyn paşa (1734-1735)** İrəvana hakim təyin olunmuşdu (238, 8).

Osmanlı qoşunlarının İrəvan yürüşü bölgədə böyük dağıntılara və insan təlafatına səbəb olmuşdu. Osmanlı üsul-idarəsinə keçdikdən sonra vaxtilə buradan qaçmış əhalinin bir hissəsi geri qayıtmağa başladı (492, 16). İrəvan bölgəsinin torpaqları qaliblər tərəfindən bölüşdürüldü. Həmin torpaqların bir hissəsi dövlət torpaqlarına çevrildi, digər hissəsi isə hərbiçilərə və dövlət adamlarına paylandı (38, 23-24). Təəssüf ki, Osmanlı tərkibinə keçikdən sonra burada baş verən hadisələr haqqında hələlik müfəssəl məlumat əldə edə bilməmişik.

XVIII yüzilliyin 20-ci illərin axırları-30-cu illərin əvvəllərində Təhmasibqulu xanın (Nadir şah – E. Q.) tarix səhnəsinə çıxması ilə Azərbaycan torpaqları, o cümlədən onun üzvi tərkib hissəsi olan İrəvan bölgəsi yenidən Səfəvilər dövlətinə qaytarıldı. Belə ki, şah II Təhmasibin (1722-1732) fərmanı ilə baş komandan

təyin olunan Nadir xan öz bacarığı və xalqın köməyi ilə Səfəvilər dövlətinin sərhədlərini bərpa etmək uğrunda əfqan, Rusiya və Osmanlı müdaxiləşilərinə qarşı mübarizəyə başladı (468, 46; 242, 44-45; 77, 53; 83, 97).

Güclü qoşun yarada bilmiş bu bacarıqlı və istedadlı sərkərdə işğal olunmuş Azərbaycan torpaqlarını osmanlılardan geri ala-ala şimala doğru hərəkət etdi. 1734-cü ilin yayında Şimali Azərbaycana və Dağıstana hücum edən Nadir xanın qoşunu həmin ilin oktyabr ayında Gəncə şəhərini mühasirəyə almağa başladı (87, 52; 498, 125; 493, 135-139). Nadir xanın qoşunlarının güclü hücumuna baxmayaraq Gəncənin osmanlı qarnizonu inadla müdafiə olunurdu. Buna səbəb Osmanlı qarnizonunun mərkəzdən kömək almaq ümidi idi. Həqiqətən bu zaman Qarsda Abdulla paşanın başçılığı ilə toplanmış Osmanlı qoşunu Gəncə qarnizonuna köməyə tələsirdi. Bunun pis nəticə verəcəyini başa düşən Nadir xan Gəncənin də mühasirəsində azsaylı qoşun hissəsi saxlayaraq İrəvan istiqamətində hərəkətə başladı. 1735-ci il iyunun 8-də İrəvan yaxınlığında Üçmiəzzin kilsəsinin şimal-qərbində Osmanlı qoşunu ilə Nadir xanın qoşunu arasında döyüş baş verdi. 5 saata qədər baş verən döyüşdə Osmanlı qoşunu məğlub olaraq geri çəkildi (238, 20-22; 493, 144-145; 242, 107-108).

Bu döyüşdən sonra Nadir xan İrəvan qalasını geri qaytarmaq fikirinə düşdü. O, qalaya hücumdan əvvəl **Məhəmmədqulu xanı (1735 – 736)** İrəvan hakimi təyin etdi (238, 24, 33; 472, 5). Bəzi məlumata görə, yeni hakimin atası da vaxtilə İrəvan bəylərbəyi olmuşdu (89, 69). Hakim təyin olunan Məhəmmədqulu xan Baba xan, Sərdar xan və Naxçıvan xanı ilə birlikdə İrəvan qalasını almağa göndərildi. Qala bu dörd xan tərəfindən sıx mühasirəyə alındı. Hacı Hüseyn paşa başda olmaqla qala qarnizonu onlara güclü müqavimət göstərdi. Yalnız mərkəzdən kömək almaq ümidini itirdikdən sonra paşa, A.Kretaçiyə görə, sentyabrın 22-də, L.Lokkarta görə isə oktyabrın 3-də təslim olmaq qərarına gəldi. Qalada yerləşən Osmanlı qoşun hissələrinə Qars şəhərinə geri çəkilməyə icazə verildi (238, 27; 242, 109; 493, 147).

Osmanlılarla müharibə İrəvan bölgəsinə böyük dağıntılar gətirmişdi. Müharibə fəlakərinə məruz qalmış İrəvan Nadir xanın burada həyata keçirdiyi tədbirlərdən sonra daha da acınacaqlı vəziyyətə düşdü. Onun əmrinə əsasən, bu bölgədən 300 ailə Xorasana köçürüldü. Hətta xəzinədən hər ailə üçün ev əşyalarını daşımaq üçün iki baş yük heyvanı, üç baş iribuynuzlu mal-qara, üç xalça, üç litrlik mis qab, hər bir ailə üzvünə 3 litr un və taxıl, bir tümən pul verilmişdi (497, 14; 493, 146). Bundan sonra yerli Azərbaycan türklərinə şəhərdə qalması və yaxud şəhərdən könülü çıxıb getməsi haqda müraciət edildi. Maddi vəziyyətindən asılı olaraq həm müsəlman, həm də xristian varlılarından 10, 20, 40 və 50 tümən məbləğində vergi alındı (87, 249). Nadirin göstərişinə əsasən bu dəfə də, "Üçmiəzzin kilsəsinə toxunulmadı. Onun tərəfindən katolikos A.Kretatsiyə mehribanlıq göstərilmişdi (238, 249).

Qoşununun bir hissəsini İrəvan şəhərində saxlayan Nadir xan yenidən Gəncəyə qayıdaraq mühasirəni davam etdirdi. Köməksiz qalmış Gəncə qarnizonu məğlub edildi (498, 127). Gəncə qarnizonu təslim olduqdan sonra Osmanlı qoşunları Azərbaycanı tamamilə tərk etdi.

Azərbaycan ərazisi Osmanlı dövlətindən geri alındıqdan sonra Nadir qoşunu ilə Muğan düzünə çəkilir. 1736-cı ildə Səfəvilər sülaləsinin son nümayəndəsi şah III Abbasın (1732-1736) qəfil vəfatından istifadə edən sərkərdə həmin ilin martında özünü şah elan etdi (493, 150-154; 242, 118-125; 298, 319-320; 239, 106-108; 91, 63; 83, 122-125). Nadirin culusu mərasimində ayrı-ayrı bölgələrdən gəlmiş nümayəndələrlə yanaşı, İrəvandan gəlmiş xan, şeyxülislam, katolikos, bəylər, mirzələr, ağalar, kələntərlər, kəndxudalar, məliklər və s. iştirak etmişdilər (238, 32).

Nadir şah seçildikdən sonra Səfəvi imperiyasının inzibati-ərazi bölgüsünü ləğv etmişdir. Onun yaratdığı möhtəşəm dövlət dörd iri vilayətə – Azərbaycan, İran İraqı, Xorasan və Fars vilayətlərinə bölündü (91, 126). Səfəvilərin Azərbaycanda mövcud olan ayrı-ayrı bəylərbəylikləri Azərbaycan vilayəti adı altında birləşdirildi. Onun başçısı Nadir şahın qardaşı İbrahim xan təyin olunmuşdur (238, 70; 242, 127; 44, 109-110).

Nadir şahın gördüyü ilk tədbirlərindən biri də Azərbaycanın müxtəlif bölgələrinə və şəhərlərinə hakimlərin təyin edilməsi oldu. O, ilk növbədə bölgələrdə Səfəvilər dövlətindən qalmış yerli hakimləri işdən kənarlaşdıraraq, özünə yaxın və inandığı şəxsləri hakim təyin edirdi. Yuxarıda göstərildiyi kimi, İrəvan qalasının geri alınması ərəfəsində Məhəmmədqulu xan bölgənin hakimi təyin edilmişdi. O, qısa hakimiyyəti dövründə İrəvan bölgəsini ədalətlə idarə etmiş və yerli əhalinin rəğbətini qazana bilmişdi (238, 40).

Lakin şah seçildikdən sonra Nadir nədənsə Məhəmmədqulu xanı yenidən geri qaytarmış, əvəzində Muğana gəlmiş Pir Mahmud xanı İrəvan bölgəsinin xanı təyin etmişdi. A.Kretatsi yazırdı: «...ilk əvvəl İrəvan xanı və bəylərbəyi təyin olunmuş Pir Mahmud xan Heratdan gəlib çıxdı, lakin (şah) onu hal-hazırda yanında saxlayır. Onun əvəzinə Muğandan (İrəvana) göndərilən naib Məhəmməd Rza bəy bu günə qədər Pir Mahmud xanın əvəzinə İrəvan əyalətini idarə edir" (238, 47).

Fəaliyyətinin birinci dövründə ölkəni xarici müdaxiləçilərdən təmizləyən Nadir şah seçildikdən sonra apardığı saysız-hesabsız müharibələri və ağır vergi siyasəti ilə xalqın vəziyyətini daha da ağırlaşdırdı. Taxıl çatışmazlığı və əkin sahələrinin boş qalması nəticəsində ölkəni aclıq bürümüşdü. Ölkədə yaranmış acınacaqlı vəziyyəti A.Kretatsi belə təsvir edirdi: «Təkcə Muğanda deyil, hər yerdə-Təbrizdə, Tuzaxda (Tovuz), Gəncədə, Qazaxda, Loruda, Gürcüstanda, Sevan (Göyçə – E. Q.) gölünün sahillərində, Saxnuzorda, Qafanda, Naxçıvanda, İrəvanda çörək tapılmırdı. Bu vilayətlərdə buğdanın satış qiyməti bir şahıya satılır və bəzən bu qiymətə də tapmaq olmurdu» (238, 82).

XVIII yüzilliyin 40-cı illərin əvvəllərində xalqın vəziyyəti daha da ağırlaşdı. Apardığı müharibələr nəticəsində ordu və maddi itkiyə məruz qalan Nadir şah 1743-cü ildə köhnə borcların və vergilərin alınması haqqında fərman verdi və eyni zamanda yeni vergi və cərimələr təyin etdi (240, 64-65; 91, 99). Şahın bu fərmanından istifadə edən vergiyığanlar və əyalət başçıları varlanmaq məqsədi ilə vergini ikiqat artırmaqla qazanc əldə edirdilər. Vergilər isə əhalidən amansızlıqla alınırdı (240, 65).

Olduqca ağır vəziyyətə düşmüş, vergiləri vermək imkanı olmayan xalq öz narazılığını müxtəlif vasitələrlə bildirirdi. Sadə xalq vergi verməkdən boyun qaçırır, evlərini tərk edərək əlçatmaz yerlərə sığınır, silahlı üsyan qaldırır və yaxud üsyançı dəstələrə qoşulurdu. Məsələn, 1743-cü ilin axırları-1744-cü ilin əvvəllərində Qars şəhərində yerləşən II Sam Mirzə özünü Səfəvilər taxt-tacının varisi olduğunu elan edəndə, Azərbaycanın digər bölgələrindən, o cümlədən İrəvandan minlərlə sadə adam, imtiyazlı təbəqənin nümayəndələri və hətta qoşun hissələri onun tərəfinə keçmişdi. Nadir şah bu axının qarşısını almaq üçün İrəvandan Qarsa qədər cəza dəstələri yerləşdirmişdı (91, 175-176).

Bundan əlavə, irəvanlılar özləri də hakimiyyətə qarşı üsyan da qaldırmışdı. Lakin əvvəllər İrəvan hakimi Pirmahmud xan bu üsyanları yatırmağa müvəffəq olurdu (35, 24).

1746-1747-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində Əfşarlar dövlətinə qarşı üsyanlar daha da gücləndi. Hətta sadə xalqdan əlavə, nüfuzlu şəxslər də bu üsyanlarda fəal iştirak edirdi. Həmin dövrdə Azərbaycanda olmuş Rusiya səfiri M.M.Qolitsın yazırdı: «…hazırda buranın bir çox vilayətlərində və yerlərdə təhlükəli vəziyyət yaranmış, böyük çaxnaşma başlanmışdı. Artıq Gəncə, İrəvan, Naxçıvan, və Tiflisdə çoxlu vergilər və cərimələr üzündən demək olar ki, kiçikdən böyüyə kimi bütün əhali, hətta həmin şəhərlərin vəzifəli şəxsləri üsyan edib öz var-dövlətləri, mal-qaraları ilə dağlara çəkilmişdilər» (35, 25). Azərbaycan bölgəsi nəzarətdən çıxmışdı, əhali karvanları soyur və qarətlə məşğul olurdu. Rəşt şəhərindəki Rusiya konsulu Kopıtovski M.M.Qolitsına ünvanladığı 1747-ci il 24 may tarixli məlumatında bildirirdi: «İrəvan, Gəncə, Tiflis, Şamaxı şəhərləri üsyan qaldırıb, əvvəlcə Tiflis, Gəncə, Şamaxı, sonra isə İrəvan şahdan ayrılıb. Şamaxılılar dağıstanlılarla, tiflislilər Gəncə əhalisi ilə birlikdə karvanları soyur və qarətlə məşğul olurdular. İrəvanlılar isə qalanı möhkəmləndirməklə məşğuldurlar» (8, 45-46).

Nadir şah bu üsyanların qarşısını almaq üçün əmisi oğlu Əmiraslan xanı 20 min nəfərlik qoşunla şimali Azərbaycana göndərdi. Bərdə yaxınlığında gəncəlilərlə baş verən döyüşdə şah qoşu-

nu məğlub edilmişdir. Araz çayına doğru çəkilən Əmiraslan xan Təbrizə məktub yazaraq əlavə kömək istəyir. Təbrizdən 21 top, 24 zəmburəngə malik qoşun alan Əmiraslan xan növbəti dəfə İrəvana döğru hərəkət edir. Lakin İrəvan qalasına sığınan irəvanlılar onun qoşununa güclü müqavimət göstərdilər. Uğursuzluğa düçar olmuş Əmiraslan xan İrəvanın 10 verstliyində düşərigə salaraq, vəziyyətlə əlaqədar şaha məlumat göndərib, onun əmrini gözləməyə başlamışdır (8, 46).

Nadir şahın 1747-ci ilin iyulun 19-dan 20-ə keçən gecə sui-qəsd nəticəsində öldürülməsi (242, 312-313; 91, 254) ölkəni bürümüş üsyanların yatırılmasına mane oldu. Şahın öldürülməsi ilə ölkədə güclü qarışıqlıq yaranır, hər tərəfdə taxt-taca iddialar irəli sürülməyə başlayır. Bu mübarizədə müvvəqqəti olaraq Nadir şahın qardaşı oğlu Əliqulu xan Adil şah adı ilə hakimiyyətə gətirildi (51, 33; 43, 114; 95, 152; 242, 315-316; 83, 218; 27, 20). Lakin yeni şah müstəqil xanlıqların yaranmasının qarşısını ala bilmədi. Müstəqil olmağa çalışan Azərbaycan xanları taxt-tac iddiaçılarına qarşı mübarizə şəraitində öz kiçik feodal dövlətlərini yaradırdılar.

Tax-taca iddia edilənlərdən biri də yalançı şahzadə III Sam Mirzə idi. Onun fəaliyyətinin bir hissəsi İrəvanla bağlı olduğundan bu şəxs haqqında ətraflı dayanmaq istərdik. Belə ki, hələ Nadir şahın ölümündən bir qədər əvvəl Ərdəbildə o, özünü şah elan etmişdi. Şahın ölümündən sonra III Sam Mirzə Astaraya gedərək oranın hakimi və onun qardaşı ilə ittifaq bağlamış və hakimi özünə vəzir təyin etmişdi. Bakı hakimi də onun tərəfinə keçmişdi. Onların köməyi ilə 12-15 min nəfərlik qoşun toplayan yalançı şahzadə Təbrizə gəlmiş, yerli əhalini öz tərəfinə çəkərək burada möhkəmlənmişdi (240, 101; 83, 218; 245, 55-56).

Təbrizdə möhkəmlənən Sam Mirzə Rəşt şəhərinə hücum etmişdi. Lakin o, burada möhkəmlənə bilmədi. O, Adil şahın göndərdiyi cəza dəstəsinin yaxınlaşdığını eşidərək əvvəlcə Ərdəbilə, sonra isə Təbrizə geri çəkildi (240, 101-102).

Azərbaycanın ayrı-ayrı bölgələrindən dəstək qazanmağa çalışan yalançı şahzadə yerlərə müraciətlər göndərərək əhalini hakimiyyətinin tanınılmasına çağırırdı. Azərbaycan xanları onun müraciət-

lərinə biganə qalsa da, sadə xalqın bir hissəsi onun çağırışlarını müsbət qarşıladı. Hətta İrəvan, Gəncə, Şamaxı, Tiflis, Muğan, Astara və Ərdəbil əhalisi 40 min nəfərədək qoşun toplamış və onun adına pul da kəsilməyə başlamışdı (9, 46-47; 83, 219: 245, 55).

Digər tərəfdən, yalançı şahın Əfşar hakimiyyətinə qarşı baş vermiş üsyanlara kömək göstərmək qərarı əhali arasında onun nüfuzunun artmasına şərait yaratmışdı. O, həmçinin üsyan etmiş irəvanlılara kömək etmək qərarına gəlmişdi. Lakin İrəvanda düşərgə salan Əmiraslan xan onun bu planının qarşısını aldı. Belə ki, o, yalançı şahzadəyə məktub yazaraq onun hakimiyyətini tanımadığını bildirmiş və Təbrizə qoşun yeritmişdi. Öz növbəsində yalançı şahzadə 20.000 nəfərlik qoşunla Əmiraslan xana qarşı hərəkət etmişdir. Mərənd şəhəri yaxınlığında tərəflər arasında baş verən döyüşdə Əmiraslan xan Sam Mirzənin qoşununu darmadağın edir. Tezliklə, Sam Mirzə ələ keçirilərək Təbrizdə edam edilir (240, 103; 83, 219; 245, 57-58).

Sam Mirzəyə qalib gələn Əmiraslan xan Təbrizdə möhkəmlərək müstəqil Azərbaycan dövləti yaratmaq niyyətində idi (83, 221). Tezliklə o, Azərbaycan xanlarını özünə tabe etmək üçün fəaliyyətə başlayır. Əmiraslan xan Ərdəbil və Qaradağ xanlıqlarını özünə tabe etsə də, Şəki xanı Hacı Çələbi ilə döyüşdə məğlubiyyətə uğrayır. Dövrün güclü Azərbaycan xanlarından biri olan Şəki xanı ilə döyüşdə məğlub olan Əmiraslan xan İrəvana çəkilir. İrəvana gələn Əmiraslan xan burada davam edən üsyanı yatırmağı qərara aldı. O, əfşar sərkərdələrindən olan Mirmehdi xanı qoşunla İrəvana göndərir. Lakin Əmiraslan xanın siyasətindən narazı olan Mirmehdi xan irəvanlılarla razılığa gələrək onlarla birləşir və üsyanın rəhbəri olur. Əmiraslan xanın onlara aman verməyəcəyini başa düşən yerli əhali ona ciddi müqavimət göstərdi. Bu müqavimət qarşısında Əmiraslan xan geri çəkilməyə məcbur oldu. Tezliklə, Əmiraslan xana qarşı Azərbaycanın müxtəlif bölgələrinin güclü ittifaqı yarandı. İrəvanlılar da bu ittifaqa qoşulmuşdular. İrəvanlılara rəhbərlik edən Mirmehdi xan, Muğan xanı Həsənəli xan, Əmiraslan xan tərəfindən talana məruz qalmış kürdlər, əfşarlar qüvvələrini birləşdirərək 30.000 nəfərə yaxın qoşunla Əmiraslan xana qarşı çıxdılar.

Birləşmiş qoşunlar Urmiya şəhərinə hücum edərək xanın burada yerləşən bütün xəzinəsini ələ keçirmiş və onu öz aralarında bölüşdürmüşdülər (89, 203-204).

Bu hadisədən çox keçməmiş, doğma qardaşı Adil şahı taxtdan salaraq hakimiyyətə gələn İbrahim Mirzə Əmiraslan xanı məğlub edərək onu öldürür (27, 108; 28, 40).

Beləliklə, İrəvan üsyançılarını öz tərəfinə çəkərək, üsyana rəhbərliyi ələ ala bilən Mirmehdi xan Əfşar (1747-1752) hakimiyyəti ələ keçirərək müstəqil İrəvan xanlığının əsasını qoyur.

İrəvan xanlığı yarandığı gündən müstəqil bir dövlət kimi qonşu dövlətlərlə, Azərbaycanın bəzi digər xanlıqları ilə siyasi münasibətlər qurmuş və varlığını qorumaq üçün həmişə mübarizə aparmışdı. Qeyd etmək lazımdır ki, Azərbaycanın şimal – qərb qurtaracağında yaranmış İrəvan xanlığı əlverişli strateji mövqedə yerləşdiyindən ilk gündən taxt-tac iddiaçılarının, Kartli-Kaxetiya çarlığının, Qarabağ xanlığının müdaxiləsinə məruz qalmış və Rusiya, Osmanlı və Qacar kimi dövlətlərin mənafeyinin toqquşduğu bir bölgə olmuşdu. Ona görə də, xanlıq tez-tez qonşu dövlətlərin hücumlarına məruz qalırdı.

Azərbaycanın digər xanlıqlarında olduğu kimi, İrəvan xanlığının da siyasi tarixi ara müharibələri ilə zəngin olmuşdu. İrəvanı müstəqil xanlığa çevirən Mirmehdi xan xanlığın ərazisini genişləndirmək üçün qonşu xanlıqlara yürüşlər təşkil edirdi. O, 1748-ci ilin əvvllərində Urmiya xanlığına hücum edir. Gələcəkdə taxt-tac iddiaçılarından biri olan, lakin həmin dövrdə hələlik bir o qədər qüvvəsi olmayan Urmiya xanı Fətəli xan Əfşar irəvanlılarla döyüşdə məğlubiyyətə uğrayır. Nəticədə, Fətəli xan Mirmehdi xana güzəştə getməyə məcbur olmuşdu (27, 111; 28, 42).

Lakin yenicə yaranmış İrəvan xanlığı çox tezliklə qonşu dövlətlər arasında gedən çox ciddi mübarizə meydanına çevrildi. XVIII yüzilliyin 40-cı illərin axırlarında şah taxt-tacı uğrunda mübarizə qızışdığından Cənubi Qafqazda da mürəkkəb vəziyyət yaranmışdı. Bundan yüksək şəkildə yararlanmağa çalışan Kartli-Kaxetiya çarları II Teymuraz və oğlu II İrakli, digər tərəfdən isə Qarabağ xanı Pənahəli xan arasında bölgədə nüfuz dairəsi uğrunda mübarizə

gedirdi. Xüsusilə İrəvan, Gəncə, Naxçıvan xanlıqları tez-tez Kartli-Kaxetiya çarlığının hücumlarına məruz qalırdı (43, 161; 247, 129). İrəvanı özünə tabe etmək niyyətində olan çar Teymuraz və oğlu İrakli bunun üçün hər cür vasitələrdən istifadə edirdilər. Xanlığın ərazisində yaşayan ermənilər bu işdə onların ən yaxın köməkçiləri idi. Ermənilər (çox vaxt bunlara qonşu xanlıqlardan olan ermənilər də qoşulurdu – E. Q.) xanlıqda qarışıqlıq salmaqla, yalan vədlərlə hər iki tərəf arasındakı münasibətləri gərginləşdirdi. Onlar Kartli-Kaxetiya sarayı ilə gizli danışıqlar aparırdılar. P.Butkov yazır ki, «İrəvan və Gəncədən olan ermənilər 1749-cu ilin avqustun əvvəllərində çarın yanına gələrək çar Teymuraza tabe olacaqlarını və beş min rubl məbləğində vergi verəcəklərini vəd etdilər» (89, 241; 107, c.1, 237-238).

Lakin ermənilərin xəyanəti İrəvan xanının nəzərindən qaçmadı. Buna görə də, Mirmehdi xan Kartli-Kaxetiya sarayı ilə gizli əlaqə saxlayan erməniləri cəzalandırmaq haqqında qərar vermişdi. Onun bu tədbiri Kartli-Kaxetiya sarayının narazılığına gətirib çıxardı. İrəvanın daxili işlərinə qarışmağa bəhanə axtaran çar Teymuraz ermənilərin müraciətindən istifadə edərək, 1749-cu ilin sentyabrında 25 minlik qoşunla İrəvana yürüş etdi. Sentyabrın 29-da çar qoşunu bir kəndi zəbt edə bildi. Müqavimət göstərmək iqtidarında olmayan Mirmehdi xan ermənilərə divan tutmağı dayandırır və Teymurazla sülh bağlayır. Noyabrın 22-də çar qoşunları xanlığı tərk edərək geri qayıdır (89, 241).

Kartli-Kaxetiya çarlarının tez-tez qonşu Azərbaycan xanlıqlarının daxili işlərinə qarışması qüdrətli xanların nəinki narazılığına səbəb olmuş, eyni zamanda onların xarici siyasətinə uyğun deyildi. Belə xanlardan biri qonşu Azərbaycan xanlarını özünə tabe etmək istəyən Qarabağ xanı idi. Qarabağlı Pənahəli xan (1747-1763) xarici siyasətində Gəncə, İrəvan, Naxçıvan və xüsusilə Ərdəbil xanlıqlarını ələ keçirmək, həmin xanların hakimlərini özünə tabe etmək qərarına gəlmişdi (43, 115).

Qarabağ xanı onun planlarına mane olan çarları zərərsizləşdirmək üçün 1749-cu ildə gəncəli Şahverdi xan, şəkili Hacı Çələbi xan, qəbələli Ağamalı xan, muğanlı Səfərəli xan və şamaxılı

Məhəmmədəli xanla ittifaq bağlayaraq Kartli-Kaxetiyaya hücum etdi (86, 239). Lakin Mirmehdi xanın bu yürüş haqqında çarlara vaxtında xəbər göndərməsi bu hücumun qarşısının alınmasına səbəb oldu (107, c.1, səh.236-237; 71, 75).

İrəvan hakimini buna məcbur edən onun həmin vaxt Pənahəli xanla düşmənçiliyi idi. Belə ki, Qarabağ qoşunu qarət məqsədilə tez-tez İrəvan xanlığına hücumlar edirdi. Kartli-Kaxetiya ərazisinə hücum etməzdən əvvəl Pənahəli xanın oğlu və qardaşının komandanlığı altında 4.000 nəfərlik Qarabağ qoşunu İrəvan xanlığına yürüş təşkil etmişdi. İrəvan şəhərinə və Üçmüəzzin kilsəsinə qədər irəliləyən Qarabağ qoşunu bu yürüşdə çoxlu əsir və mal-qara ələ keçirmişdi. Lakin onlar bu yürüşü müvəffəqiyyətlə axıra çatdıra bilmədilər. Belə ki, bu hücumun qarşısında davam gətirə bilməyən Mirmehdi xan II İraklinin yanına elçi göndərərək ondan kömək istəmişdi. II İraklinin köməkliyi nəticəsində Qarabağ qoşunu məğlubiyyətə uğradı. Baş verən döyüşdə başda Pənahəli xanın oğlu və qardaşı olmaqla çoxlu qarabağlı öldürüldü, qənimətlər isə geri qaytarıldı (89, 239; 107, c.1, səh.387-388).

Qeyd etmək lazımdır ki, qarabağlıların qarət məqsədi ilə İrəvan ərazisinə yürüşü əvvəllər də olmuşdu. Mirzə Camal Cavanşir "Qarabağ tarixi" əsərində maraqlı bir məqama toxunaraq yazırdı ki, "Nadir şah öldürüldükdən sonra üzə çıxan Pənahəli xan bacarıqlı cavanları başına toplayıb Şirvan, Şəki, Gəncə, İrəvan və Qarabağ vilayətlərini qarət etməyə başladı. Bütün cavanları mal və dövlət sahibi etdi" (43, 111). Pənahəlinin belə addımları hər iki xanlıq arasında əvvəldən gərginliyin yaranmasına səbəb olmuşdu.

Pənahəli xanın bu səhv addımı İrəvan xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında olan münasibətləri sıxlaşdırmışdı. Lakin İrəvan xanlığında yaranmış sakitlik çox uzun sürmədi. Bu dəfə xanlıq taxt-tac iddiaçılarının mübarizə meydanına çevrildi. Belə ki, İbrahim Mirzə Əmiraslan xanı məğlub etdikdən sonra Təbrizə gəldi və 1748-ci ilin noyabrın 24-də burada özünü şah elan etdi (95, 153). Bir müddət burada qalan şah geri çəkilərkən Əfşar sərkərdələrindən biri olan Məhəmməd xanı oraya hakim təyin etdi (228, 113; 502, 13; 226, 33; 27, 109; 55, 152). Lakin İbrahim Mirzə Məşhəd şəhəri

yaxınlığında Nadir şahın nəvəsi Şahrux Mirzə ilə apardığı müharibədə öldürüldü (95, 153).

Şahın ölümündən sonra yaranan qarışıqlıqdan istifadə edən Təbriz hakimi Məhəmməd xan Əfşar müstəqil siyasət yeritməyə başladı. O, Kartli-Kaxetiya çarlığı və qonşu Azərbaycan xanlıqlarını özünə tabe etmək üçün fəaliyyətini genişləndirdi. Çar Teymuraz ona tabe olmaqdan boyun qaçırdığına görə Məhəmməd xan Kartli-Kaxetiyaya hücum etmək fikirinə düşdü. Bunun üçün ona əvvəlcə İrəvan xanlığına hücum etmək lazım gəlirdi. 1750-ci ilin yayında Məhəmməd xanın komandanlığı altında 30 minlik Təbriz qoşunu İrəvan xanlığına daxil oldu. İrəvan ərazisinə hücuma keçən çoxsaylı qoşun soyğunçuluqla məşğul olmağa başladı. Qarətçi hücumun qarşısında aciz qalmış Mirmehdi xan yenə kömək üçün Kartli-Kaxetiya sarayına müraciət etməli oldu (502, 13; 226, 33). Belə fürsətdən yararlanmağa can atan çar Teymuraz və oğlu İrakli çoxsaylı qoşunla İrəvana gəlir. Tərəflər arasında baş verən döyüşdə məğlub olan Məhəmməd xan Gərnibasar mahalında yerləşən, qədim qalalardan olan Qvirop (Xorvirab) qalasına sığınır. Bu qalada onun ailəsi və xəzinəsi yerləşirdi. İrəvanlıların köməyi ilə İrakli Məhəmməd xanı təqib edərək qalanı ələ keçirir və xanın ailəsi əsir alınır. Qalada olan xanın xəzinəsi isə müsadirə edilir (499, 162; 228, 47; 502, 13; 226, 33).

Bu hərbi yardım müqabilində Mirmehdi xan Kartli-Kaxetiya çarlığına hər il 4.000 tümən məbləğində vergi verməli oldu. Razılığa əsasən İrəvan şəhərində çarın nümayəndəsi də “oturmalı” idi (499, 162; 502, 13).

İrəvan xanlığı bu təhlükədən azad olsa da çox keçmir ki, yeni təhlükə ilə üzləşir. Bu dəfə İrəvanda hakimiyyət dəyişikliyi baş verir. Belə ki, Azərbaycanda və İranda baş vermiş hadisələr zamanı taxt-tac iddiaçılarından olan urmiyalı Fətəli xan Əfşar hərbi cəhətdən güclənir və tezliklə qonşu Azərbaycan xanlarını bir mərkəz ətrafında birləşdirmə siyasətinə başlayır. O, tezliklə Təbrizi özünə tabe edir (43, 117; 27, 109; 28, 41). Bundan sonra Fətəli xan keçmiş rəqibi Mirmehdi xandan qisas almaq niyyətinə düşmüşdür. O,

niyyətini həyata keçirmək üçün Nadir şahın sabiq sərkərdəsi Azad xanı öz tərəfinə cəlb edir (27, 109; 28, 41).

Fətəli xan Əfşar ilk növbədə Azərbaycan xanlarına fərmanlar göndərərək onlardan tabe olmalarını tələb etmişdir. Lakin onun fərmanları xanlar tərəfindən rədd edilir. Onun göndərdiyi elçilər İrəvan xanlığından da əliboş qayıtmışdı. Bir tərəfdən bu, digər tərəfdən irəvanlıların yuxarıda bəhs edilən Urmiya səfəri Fətəli xanın buraya qoşun göndərməsinə səbəb oldu. Onun göstərişi ilə Azad xan 1751-ci ilin sonlarında öz sərkərdəsi Musa xanın başçılığı ilə bir dəstə qoşununu İrəvana göndərdi. İrəvan qalası mühasirəyə alınır (499, 163; 502, 15; 226, 36). İrəvanlılar Mirmehdi xanın başçılığı ilə qalaya sığınaraq güclü müdafiə olunurdular. Ermənilər isə əllərinə düşən bu imkandan istifadə edərək yenidən Kartli – Kaxetiya çarı Teymuraza müraciət etdilər (107, c.1, səh.238). İrəvanda öz təsirini itirmək istəməyən çar Teymuraz bu müraciətdən istifadə edərək oğlu İraklinin başçılığı ilə oraya beşminlik qoşun göndərdi (228, 48). Mənbənin verdiyi məlumata görə, gürcü qoşunlarının tərkibində Qazax və Borçalı mahallarından olan Azərbaycan türklərinin süvari dəstələri də fəaliyyət göstərirdi (52, 237). Yerli əhalinin güclü müqaviməti və digər tərəfdən İraklinin komandanlığı altında vaxtında yetişən kömək Musa xanı İrəvan qalasının mühasirəsindən əl çəkməyə məcbur etdi.

Musa xanın geri çəkildiyini eşidən Azad xan on səkkiz minlik qoşunla Araz çayını keçərək Gərniçayın kənarında mövqe tutur. Bəzi məlumatlarda Azad xanın 12 topu, 200 zənburağı (dəvə üstünə qoyulmuş kiçik çaplı qədim top – E. Q.) olan 40.000 qoşuna (499, 163; 225, 48), digərlərində isə 30 minlik qoşuna malik olduğu qeyd olunurdu (164, 47; 107, c.1, 238). Bu xəbəri eşidən İrakli Azad xandan ehtiyat edərək öz qoşunu ilə Qırxbulaq yüksəkliyinə çəkilməli olur (502, 16; 228, 36).

Çox keçmir ki, tərəflər arasında döyüş başlayır. Baş verən döyüşdə Azad xanın qoşunu məğlubiyyətə uğrayaraq geri çəkilir. II İrakli isə Kartli-Kaxetiyaya qayıdır. Bu xəbəri eşidən Fətəli xan ehtiyat qüvvələrini Azad xanın köməyinə göndərmişdir. Əlavə kömək alan Azad xan Kartli-Kaxetiyaya hücum edir. Döyüş nəticəsin-

də II İraklinin qoşunu məğlubiyyətə uğrayır. O, özü isə itaət əlaməti olaraq Fətəli xana girovlar vermişdi. Girovların tərkibinə II İraklinin bacısı, Zal bəy və Aslan bəy adlı iki gürcü knyazı olmaqla 200 nəfər döyüşçü daxil idi (107, c.1, səh.238-239; 27, 111-112; 28, 43).

Bu hadisədən sonra İrəvanda hakimiyyət dəyişikliyi baş verdi. İrəvanda mövqe tutan Azad xan Mirmehdi xanı hakimiyyətdən uzaqlaşdıraraq öz yaxın adamı Xəlil xan Özbəyi (1752-1755) buraya hakim təyin etdi (187, 207; 472, 5; 49, 15).

İrəvan taxt-tacına sahib olan Xəlil xan Özbək ilk növbədə Kartli-Kaxetiya çarlığına qarşı mübarizə aparmışdı. Bu dövrdə II İrakli Azərbaycan xanlarının bir-birinə qarşı düşmənçiliyindən istifadə edərək, onları özünə tabe etmək istəyirdi. Xüsusilə o, Şəki xanı Hacı Çələbinin günü-gündən artan qüdrəti və şöhrətindən narahat olurdu. Azərbaycanın bəzi xanları da Hacı Çələbinin güclənməsini istəmirdilər. Bunu görən II İrakli Azərbaycanın narazı xanlarını – gəncəli Şahverdi xanı, qarabağlı Pənahəli xanı, qaradağlı Kazım xanı, irəvanlı Xəlil xanı, naxçıvanlı Heydərqulu xanı məşvərət bəhanəsi ilə Gəncə yaxınlığına dəvət edir. Buraya toplaşan Azərbaycan xanları xəyanətkarcasına II İrakli tərəfindən həbs olunur. Bu hadisə 1752-ci il martın 21-də baş vermişdi (95, 156; 51, 42; 41, 78; 239, 123-124).

II İraklinin xəyanətindən xəbər tutan Hacı Çələbi onu təqib edərək Qızılqaya adlı yerdə gürcü qoşunlarını məğlub etmiş və həbs edilən xanlar azad olunmuşdu (35, 57-58; 36, 15; 51, 43; 95, 156; 239, 123). Mənbə və bəzi tarixi ədəbiyyatda bu hadisədə İrəvan hakimi yanlış olaraq Hüseynəli xan göstərilmişdi. Əslində həmin dövrdə İrəvanda hakimiyyət başında Xəlil xan dururdu. “İrəvan xanlığı” əsərinin müəllifləri düzgün olaraq baş vermiş hadisədə Xəlil xanın iştirak etdiyi qənaətinə gəlmişdilər (35, 58).

Xəlil xanın hakimiyyəti illərində İrəvan xanlığı dağıstanlıların da güclü hücumuna məruz qalmışdı. 1754-1755-ci illərdə Avar xanı Nusal xanın başçılığı altında Dağıstan qoşunları Kartli-Kaxetiya ərazisinə yürüş təşkil edərək, oradan İrəvan xanlığı ərazisinə hücum etdilər (86, 10; 290, 720; 226, 37-38). Bu hücum zamanı Göyçə,

Dərəçiçək, Qırxbulaq və Abaran mahallarının kəndlərinə böyük ziyan dəymişdi (499, 161).

Dağıstan qoşunlarının bu dağıdıcı yürüşü Xəlil xanın nüfuzunu xalq arasında xeyli aşağı salmışdı. Digər tərəfdən, Xəlil xanın himayədarı Azad xanın taxt-tac uğrunda Kərim xan Zəndlə apardığı mübarizəsindən istifadə edən irəvanlılar 1755-ci ildə ona qarşı üsyan qaldırdılar. Üsyana xalq arasında böyük nüfuza malik Həsənəli xan Qacar başçılıq edirdi. Üsyan nəticəsində Xəlil xan hakimiyyətdən uzaqlaşdırılır, onun yerinə Həsənəli xan Qacar (1755-1759) hakimiyyəti ələ keçirdi (186, 207-208). Onun hakimiyyətə gəlişi XIX yüzilliyin əvvəllərinə qədər İrəvanda hakimiyyətdə olan yerli Qacarlar sülaləsinin (1755-1805) əsasını qoymuşdu. Həsənəli xan çox az müddətdə hakimiyyətdə olmuşdu. Təəssüf ki, onun hakimiyyəti dövründə İrəvan xanlığında baş verən hadisələr barədə məlumat əldə edə bilmədik. Yalnız bir məlumata görə o, xanlıq taxtında əyləşərkən kor olmuşdu. Vaxtilə Nadir şah tərəfindən onun gözləri çıxartdırılmışdı (187, 305). Hər halda onun hakimiyyətə gəlişi ilə xanlığın həyatında yeni bir dövrün başlanğıcı qoymuşdur. Həsənəli xan İrəvan xanlığının taxt-tacına sahib olan yerli Qacarlar sülaləsinin banisi kimi tarixə düşmüşdür.

# II FƏSİL

# XVIII YÜZİLLİYİN 60-90-CI İLLƏRİNDƏ İRƏVAN BÖLGƏSİNDƏ SİYASİ VƏZİYYƏT

## 2.1. İrəvan xanlığı Hüseynəli xanın (1759-1783) hakimiyyəti dövründə

Dörd ilə qədər hakimiyyətdə olan Həsənəli xan 1759-cu ilin əvvəllərində vəfat etdi. Onun vəfatından sonra qardaşı Hüseynəli xan (1759-1783) İrəvanda hakimiyyətə gəldi (188, 306). Tarixi ədəbiyyatda onun hakimiyyətə gəlişi vaxtı haqqında müxtəlif məlumatlar var. Bəzi məlumata görə bu hadisə 1762-cü ildə, digər məlumata görə isə 1764-cü ildə baş vermişdir (472, 5; 161, 32; 49, 16; 54, 141). Lakin erməni mənbələrinə əsasən, Hüseynəli xan daha əvvəl hakimiyyətə gəlmişdir. Məsələn, S.İrəvanlı «Cambr» əsərində yazır ki, «Həsənəli xandan sonra bizim dövrümüzə qədər müstəqil hakim olan qardaşı Hüseynəli xan İrəvanda hakimiyyətə gəldi. Onun dövründə – 1759-cu ildə katolikos taxtını Akop Şamaxılı tutmuşdu» (187, 306). O, daha sonra yazır ki, 1759-cu ildə katolikos Akop Şamaxılı Hüseynəli xan İrəvanlıya 14 maddədən ibarət ərizə yazmışdı (185, 208). Hüseynəli xandan bəhs edən başqa bir erməni mənbəsində belə qeyd olunur: «1759-cu ilin iyununda Hüseynəli xan Pənahəli xanın (Qarabağ xanı – E. Q.) yanına getməyə hazırlaşarkən «Müqəddəs Taxt»dan (Üçmüəzzindən – E. Q.) 100 tümən tələb etmişdi. Lakin biz yalvaranda ki, buna gücümüz çatmaz, güzəşt edərək 50 tümən aldı» (92, 12). Bu məlumatlardan belə nəticəyə gəlmək olar ki, Hüseynəli xan 1759-cu ilin yayında hakimiyyətə gəlmişdi.

Əgər İrəvan xanlığının yaranması Mirmehdi xan Əfşarın adı ilə bağlıdırsa, xanlığın güclənməsində Hüseynəli xanın əvəzsiz xidmətləri olmuşdu. Görkəmli dövlət xadimi olan Hüseynəli xan daxili siyasətdə xanlığın iqtisadi cəhətdən möhkəmlənməsinə diqqət edirdisə, xarici siyasətdə İrəvanın tam müstəqilliyinə nail olmaq və qonşu dövlətlərlə sülh şəraitində yaşamaq siyasəti yeridirdi.

Hüseynəli xanın hakimiyyətinin ilk dövrlərində İrəvan xanlığı ciddi xarici təhlükə ilə üzləşmişdi. Belə ki, XVIII yüzilliyin 50-ci illərin axırları-60-cı illərin əvvəllərində urmiyalı Fətəli xan Əfşarla, Şiraz hakimi Kərim xan Zənd arasında taxt-tac uğrunda mübarizə daha da gücləndı. Əvvəllər qələbələr qazanan Fətəli xan Azərbaycanın cənub xanlarını özünə tabe edərək şimala üz tutur (51, 44-46; 43, 117; 95, 158). 1760-cı ilin mayında onun İrəvana yürüş edəcəyi barədə xəbər yayılır. Bu xəbər yerli əhalini bərk təşvişə salmışdı. Hüseynəli xan təhlükənin qarşısını almaq üçün müdafiə tədbirlərinə əl atmağa məcbur oldu. Onun göstərişi ilə ətraf kəndlərin əhalisi İrəvan qalasına köçürülür. Bir neçə ay irəvanlılar qorxu içərisində yaşayırlar. Lakin Fətəli xanın İrəvana hücumu baş tutmadı (203, 57). Fətəli xanın yürüşünə mane olan səbəb Kərim xan Zəndin Azərbaycanın cənubuna hücum etmək xəbəri olmuşdu (43, 119; 95, 159; 54, 130-131). Bu hücum baş tutmasa da, o, irəvanlılara baha başa gəlmişdi. Onlar bir neçə ay evlərindən və təsərrüfatdan didərgin düşməyə məcbur olmuşdular.

Bu təhlükə yenicə sovuşmuşdu ki, dağıstanlıların İrəvan xanlığı ərazisinə hücum etməsi xəbəri yayılır. 1760-cı ilin avqustunda Dağıstan qoşunları İrəvan yaxınlığında yerləşən Kənəkir kəndində peyda oldu. Hüseynəli xan onlara qarşı qoşun göndərir və baş vermiş döyüşdə Dağıstan qoşunu məğlub olaraq geri çəkildi. Lakin əlavə kömək alan dağıstanlılar geri qayıdaraq Üçmüəzzinə qədər irəliləyirlər. Onlar burada çox qalmayaraq qəflətən Göyçə gölü istiqamətində geri çəkilir və qısa müddətdən sonra yenidən yürüşlərini davam etdirərək Araz çayına qədər gəlib çatırlar. Dağıstan qoşunu çoxlu əsir və qənimət ələ keçirərək geri qayıdır. Onlar geri qayıdarkən Kartli-Kaxetiya qoşunları qəflətən onlara

hücum edir. Döyüş nəticəsində dağıstanlılar məğlub olur və nəticədə əsirlər İrəvana qaytarılırlar (249, 57-58).

Bu hadisə Kartli-Kaxetiya çarlığının İrəvan xanlığı üzərində təsirini daha da möhkəmləndirmişdi. Şiraz hakimi Kərim xan Zəndlə II İraklinin münasibətlərinin normallaşması bu təsiri daha da qüvvətləndirdi. Belə ki, taxt-tac uğrunda Kərim xan Zənd (1759-1779) Fətəli xan Əfşara qalib gəldikdən sonra Azad xanı təqib etməyə başladı. Təqibdən yayınan Azad xan Qazax sultanlığına qaçdı. Burada mövqe tutan Azad xan II İraklidən kömək almaq niyyətində idi. Lakin o, 1760-cı ildə II İrakli tərəfindən ələ keçirilərək Kərim xan Zəndə təhvil verildi. Bu xidmət müqabilində Kərim xan Zənd bir müddət Kartli-Kaxetiyanın İrəvan xanlığından təzminat almasına göz yumdu (499, 347; 78, 90; 226, 40; 247, 132).

İrəvan xanlığının Kartli-Kaxetiyaya təzminat verməsində erməni əhalisinin xəyanətkarlığı da az rol oynamamışdı. Xanlığın ərazisində yerləşən Üçmüəzzin kilsəsinın katolikosları II İrakli ilə daima əlaqə saxlyaraq müxtəlif vasitələrlə onu İrəvana dəvət edirdilər. Onlar gürcü çarının əli ilə İrəvanda hakimiyyətə gəlmək istəyirdilər. Bundan əlavə, erməni katolikosları kömək almaq məqsədi ilə gizli surətdə II Yekaterina Rusiyasına müraciət etmişdilər (247, 129; 204, 15). Beynəlxalq və daxili vəziyyətin gərgin olduğu bu illərdə İrəvan xanlığı Kartli-Kaxetiyaya hər il 1000-4000 tümən məbləğində təzminat verməyə məcbur olmuşdu (80, 54).

Lakin bu asılılıq çox davam etməmişdi. Hüseynəli xan hakimiyyətini möhkəmləndirən kimi, qarşısına İrəvan xanlığını Kartli-Kaxetiya çarlığının asılılığından qurtarmaq məqsədi qoymuşdu. Ümumiyyətlə, Hüseynəli xanın hakimiyyət illəri Kartli-Kaxetiya çarlığına qarşı mübarizə ilə zəngin olmuşdu. Yuxarıda qeyd edildiyi kimi, İrəvan xanlığı hər il Kartli-Kaxetiya çarlığına təzminat verirdi. Lakin II İrakli hər dəfə bu verginin miqdarını çoxaltmağa çalışırdı. Hüseynəli xan isə Kartli-Kaxetiya çarının bu istəyinə qarşı açıq etiraz edərək, təzminat verməkdən boyun qacırırdı. Bu da tərəflər arasında yaranmış gərginliyi daha da gücləndirirdi (187, 387).

Hüseynəli xanın bu hərəkəti İrəvanda nüfuzunu itirmək istəməyən II İraklinin bərk təşvişə salmışdı. Kartli-Kaxetiya çarı 1765-ci ildə çoxsaylı qoşunla İrəvana hücum etdi. Hüseynəli xan çarın çoxsaylı qoşunla yaxınlaşdığını eşidərək müdafiə tədbirləri görməyə başladı. İlk növbədə, o, İrəvan qalasının hərbi gücünü artırmaq üçün ətraf kəndlərin əhalisini buraya toplamış, qalanın ətrafındakı xəndəyi dərinləşdirərək su ilə doldutdurmuşdu. Qalaya sığınmağa imkanı olmayan əhalinin digər hissəsi isə əlçatmaz yerlərdə gizlənmişdi. Lakin öz gücünə inanmayan Hüseynəli xan II İrakli ilə sülh danışıqlarına başlamağa məcbur oldu. Bu məqsədlə xan yaxın adamları ilə birlikdə katolikos Simonu sülh xahişi ilə II İraklinin yanına göndərmişdi (187, 111). Həmin dövrdə sülh bağlamaq çara da çox vacib idi. Çünki II İrakliyə verilən məlumata görə, şahzadə Paatın başçılığı ilə bir qrup Kartli feodalları ona qarşı qiyam qaldırmışdı (290, 722; 245, 132). Nəticədə, tərəflər arasında sülh bağlanmış və II İrakli yenidən İrəvan üzərinə təzminat qoyaraq geri qayıtmışdı (187, 111, 387).

Bu təhlükədən yenicə qurtarmış İrəvan xanlığı tezliklə carbalakənlilərin hücumuna məruz qaldı. Buna səbəb Gəncə xanlığı ətrafında baş verən hadisələr olmuşdu. Belə ki, Gəncə xanı Məhəmmədhəsən xanın (1760-1780) apardığı xarici siyasətinin nəticəsində XVIII yüzilliyin 60-cı illərin ortalarında ona qarşı Qarabağ, Şamaxı xanlıqlarının, Kartli-Kaxetiya çarlığının ittifaqı yaranmışdı. Belə bir vaxtda şəmşəddinlilər də üsyan qaldırmışdı. Hətta II İrakli Məhəmmədhəsən xana qarşı tərkibində qazaxlı azərbaycanlıların olduğu qoşun da göndərmişdi. Məhəmmədhəsən xan belə böhranlı vaxtda kömək üçün carlılara müraciət etdi. Vəd edilmiş yüksək hədiyyə müqabilində carlılar onun müraciətinə müsbət cavab verdilər. Lakin 1766-cı ilin yayında 2 minlik Car qoşunu Gəncəyə gələndə Məhəmmədhəsən xan artıq rəqibləri ilə barışmışdı (203, 170).

Təhlükəli qonaqlardan qurtulmaq üçün Gəncə xanı carlıların qoşun başçılarına cənub istiqamətində yürüş etməyi məsləhət gördü. Carlılar bununla razılaşaraq İrəvan xanlığı istiqamətində yürüşə başladılar. Məhəmmədhəsən xan bu haqda Hüseynəli xana xəbər də

göndərmişdi. Bu xəbər İrəvan əhalisini bərk təşfişə salmışdı. Hüseynəli xan yenidən müdafiə tədbirlərinə əl atır. Onun əmri ilə ətraf kəndlərin əhalisi qalaya köçürülür, qalanın müdafiəsi gücləndirilirdi (203, 171).

Lakin xoşbəxt bir təsadüf İrəvan xanlığını dağıntılardan xilas edmişdi. Belə ki, xanlıqda yaşayan kolanılılar Hüseynəli xanın siyasətindən narazı olduqlarından Qarabağ xanlığına sığınmağı qərara almışdılar. Bütün əmlakları ilə Qarabağa hərəkət edən kolanılılar Göyçə sahillərində carlılarla qarşılaşırlar. 1766-cı ilin iyulun axırlarında gölün cənub sahilində tərəflər arasında döyüş baş verdi. Kolanılıların mərdliklə döyüşmələrinə baxmayaraq, vuruşma carlıların qələbəsi ilə başa çatmışdı. Bu döyüşdə carlılar 800-ə qədər əsir almış, onların əlinə 8 min baş xırdabuynuzlu, 2 min baş iribuynuzlu mal-qara, 6 yüz at keçmiş, onlar həm də 12 min tümənlik qızıl və gümüş, çoxlu ev əşyaları qənimət əldə etmişdilər (203, 172).

Lakin carlıların qoşunu qələbəni sona qədər bayram edə bilmədi. Belə ki, qələbəni bayram edən carlıların arxayınlaşmasından istifadə edən kolanılılardan iki nəfər əsirlikdən qaçaraq şəmşəddinlilərdən kömək istəmişdilər. Bu xəbəri eşidən şəmşəddinlilərin ağsaqqalı Allahverdi sultan qoşun toplayaraq səhər tezdən carlılara hücum edir. Qəflətən yaxalanmış carlı döyüşçüləri əsir və qənimətləri buraxaraq döyüş meydanından qaçmışdılar (203, 173). Beləliklə, İrəvan xanlığı bu yürüşdən də yaxa qurtara bilmişdi.

Hüseynəli xan İrəvanı Kartli-Kaxetiya çarlığının asıllığından qurtarmağa çalışırdı. Odur ki, onların arasında bağlanmış sülh müqaviləsinin ömrü cəmi üç il çəkdi. Hüseynəli xan yenidən II İrakliyə vergi verməkdən imtina etdi. İrəvan hakimini buna sövq edən beynəlxalq vəziyyətin onun üçün əlverişli olması idi. Belə ki, 1768-1774-cü illərdə Qara dəniz sahilləri uğrunda Rusiya-Osmanlı müharibəsi başlamışdı (290, 349-363). Bu müharibənin gedişində Cənubi Qafqaz uğrunda Rusiya-Osmanlı rəqabətinin yeni dalğası başladı. Rusiya bu bölgənin xristian əhalisi, ilk növbədə də Kartli-Kaxetiya çarlığı vasitəsilə Azərbaycan xanlarına təsir göstərmək istəyirdi. Hətta 1769-cu il avqustun 26-da Totlebenin başçılığı ilə bir dəstə

rus qoşunu Kartli-Kaxetiyaya daxil olmuşdu (245, 139). Bu da Azərbaycan xanlarının narazılığına səbəb olmuşdu.

Osmanlı dövləti də öz növbəsində nümayəndələrini müxtəlif hədiyyə və vədlərlə Cənubi Qafqaza göndərərək, Azərbaycan xanlarını, o cümlədən İrəvan xanlığını rus-gürcü birliyinə qarşı mübarizəyə çağırırdı. Qeyd etmək lazımdır ki, XVIII yüzilliyin ikinci yarısında Azərbaycan xanlarının Osmanlı dövləti ilə münasibətləri haqqında T.Mustafazadənin və G.Nəcəflinin əsərlərində ətraflı təsvir edilmişdi (55; 57). Lakin biz yalnız İrəvan xanlığı ilə bağlı hadisələrə toxunacağıq.

İrəvan xanlığı hərbi əməliyyatların baş verdiyi əraziyə yaxın olduğundan hər iki dövlət burada möhkəmlənmək marağında idi. Hüseynəli xan isə onların bu rəqabətindən istifadə etmək qərarına gəlmişdi. Belə ki, müharibənin gedişində Osmanlı dövlətinin bölgədə fəallığı daha da artmışdı. Sultan bölgənin müsəlman hökmdarlarını – İsfahan hakimi Kərim xan Zəndi, Qubalı Fətəli xan başda olmaqla Azərbaycan və Dağıstan feodallarını Rusiya və Kartli-Kaxetiya çarına qarşı birləşərək mübarizə aparmağa çağırırdı. Osmanlı dövləti Hüseynəli xana da çox ümid bəsləyirdi. Çar II İrakli 1770-ci ilin oktyabrın 5-də qraf N.İ.Paninə yazdığı məktubda Osmanlı dövlətinin və İrəvan xanlığının siyasətini belə dəyərləndirirdi: «Ləzgilərdən (dağıstanlılardan – E. Q.) və bizi əhatə edən digər xalqlardan başqa İrəvan xanını da bizə düşmən etmişdilər. O, (Hüseynəli xan – E. Q.) bizə verdiyi anda məhəl qoymayaraq, bizim himayəmizdən çıxaraq türklərə qoşulmuşdu. Qarsa gələn sərəsgər sultandan həm ərzaq və digər maddi yardımla birlikdə bizə qarşı çoxlu qoşun tələb edirdi. Eyni zamanda Kərim xanı, Qubalı Fətəli xanın qüvvələrini bizə qarşı çıxmağa cəhd edirdi. Türklər İrəvan xanının səyindən istifadə edərək, onun vasitəsilə digər xanları böyük hədiyyələrlə öz tərəfinə çəkmək istəyirdilər» (158, 244). Beləliklə, İrəvanda möhkəmlənmək üçün Osmanlı elçiləri tez-tez buraya gəlir, sultandan xana məktub və hədiyyələr gətirirdilər. Sultan Hüseynəli xana kürk üçün samur dərisi, cavahir, qızılla bəzədilmiş qılınc kimi hədiyyələr və iki min

qızıl əşrəfi göndərmişdi. Eyni zamanda Hüseynəli xan da Kartli-Kaxetiyaya qarşı sultandan hərbi kömək gözləyirdi. O, Osmanlı paşaları ilə və xüsusən də Qars paşası ilə də əlaqə saxlayırdı (48, 41, 43-44).

Hüseynəli xan bölgənin ən güclü hakimlərindən olan qubalı Fətəli xanla da sıx əlaqə saxlayırdı. Rus arxiv sənədlərində göstərilir ki, 1769-cu ilin fevralında Hüseyn xanın adamları hədiyyələrlə Fətəli xanın sarayında olmuş, onu İrəvanı öz himayəsinə almağa çağırmışdılar. Lakin Fətəli xan şəkili Hüseyn xanla müharibə apardığından bu plan baş tutmamışdı (75, 59)

Sultandan hərbi kömək alacağına ümid edən Hüseynəli xan Kartli-Kaxetiyaya vergi verməyi dayandırdı. Xanın bu hərəkəti II İraklinin 1769-cu ildə yenidən İrəvana hücumuna səbəb oldu (187, 111). Qalaya sığınan Hüseynəli xan bu dəfə II İrakliyə güclü müqavimət göstərmişdi. Bu yürüşdən Kartli-Kaxetiya çarı əliboş qayıtdı.

Lakin Hüseynəli xan Osmanlı dövlətindən gözlədiyi hərbi köməyi ala bilmədi. Çünki bu dövrdə rus qoşunu ilə müharibə aparan osmanlıların vəziyyəti ağır idi. Məhz ona görə də, o, II İraklinin yenidən İrəvana hücum edəcəyindən ehtiyat edərək Kartli-Kaxetiya çarı ilə sülh bağlamağa məcbur oldu. 1771-ci ilin mayın 23-də rus zabiti kapitan Yazıkov qraf N.İ.Paninə yazmış olduğu məktubda İrəvan xanının atdığı addımı belə şərh edirdi: «İrəvan xanı öz adamını çarın yanına göndərərək ondan sülh xahiş edir. Elə ki, bizim qoşunlar (rus qoşunu – E. Q.) Gürcüstana daxil oldu, İrəvan xanı çar İraklidən üz döndərərək sultana məktub göndərdi. Məktubda o, sultandan Gürcüstana hücum etmək üçün qoşun və pul xahiş edirdi. Lakin sultan bu köməyi etmədikdə, o, qorxudan yenidən çar İraklinin təbəəliyinə keçir. Ona söz verir ki, keçən ilki vergini ödəyəcəkdir» (158, 301-302). Beləliklə, 1771-ci ilin yayında İrəvan xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında sülh bağlanır. İrəvan xanlığının Kartli-Kaxetiya çarlığına ödəyəcəyi təzminatın miqdarı 30.000 rubl həcmində müəyyən edilir (293, 187).

Əlacsızlıqdan II İrakliyə yenidən təzminat vermək məcburiyyətində qalan Hüseynəli xan bu vəziyyətlə barışmaq fikirində deyildi. O, vəziyyətdən çıxmaq üçün bölgədə baş verən hadisələrdən yararlanmağa çalışır, Kartli-Kaxetiya çarlığının təsirindən çıxmaq üçün yollar axtarırdı. Tezliklə, onun bu istəyi baş tutdu. Belə ki, XVIII yüzilliyin 70-ci illərin ortalarında Kartli-Kaxetiya çarlığının qonşu dövlətlərlə münasibətləri pisləşdi. Bunun bir neçə səbəbi vardı. Belə ki, Rusiya-Osmanlı müharibəsinin gedişində II İraklinin ruspərəst siyasəti İsfahan hakimi Kərim xan Zəndlə onun arasında düşmənçiliyə səbəb oldu. Hətta Kərim xan Zənd Kartli-Kaxetiyaya yürüş etmək niyyətində idi. Lakin onun ölümü bu yürüşün baş tutmasına imkan vermədi (247, 143, 154-156; 78, 116-117).

İkinci ən mühüm amil bölgədə qubalı Fətəli xanın güclənməsi, Azərbaycan xanlıqlarını bir mərkəz ətrafında birləşdirmək siyasəti, II İrakli ilə rəqbəti, bu mübarizədə İrəvan və Gəncə xanlıqları ilə yaxınlaşması idi. Digər ən mühüm amil Osmanlı dövləti ilə bağlı idi. Müharibədə məğlub olmasına baxmayaraq, sultan gizli surətdə öz nümayəndələrini bölgəyə göndərərək, Azərbaycan xanlarını rus-gürcü birliyinə mübarizəyə çağırmaqda davam edirdi (57, 37-38; 55, 167-168). İrəvan xanlığı ilə həmsərhəd olan Osmanlı dövləti anlayırdı ki, burada Kartli-Kaxetiya çarlığının möhkəmlənməsilə, osmanlılara qarşı mübarizə aparmaq üçün rus-gürcü bloku əlverişli meydan əldə edə bilər. Azərbaycan xanlarına göndərilən məktublarda sultanı narahat edən məsələlərdən biri də, İrəvan xanlığını hər hansı təhlükədən qorumaq idi. Məhz Osmanlı siyasəti nəticəsində şəkili Məhəmmədhəsən xan, ərdəbilli Nəzərəli xan, xoylu Əhməd xan sultana yazdıqları məktublarda Kartli-Kaxetiya çarı İrəvana hücum edəcəyi halda ona qarşı ittifaqa girəcəklərinə söz verirdilər (55, 168).

İrəvan xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında münasibətlərin gərginləşməsində II İraklinin apardığı siyasətin də böyük rolu olmuşdu. Belə ki, II İrakli çarlığın bərbad halda olan iqtisadi vəziyyətini düzəltmək, xəzinəni doldurmaq üçün hər dəfə İrəvan

hakiminə təzyiq göstərərək təzminatı artırmağa çalışırdı (249, 419). P.Butkov yazır ki, Hüseynəli xan II İrakliyə ildə 30.000 rubl məbləğində təzminat verməyi öhtəsinə götürsə də, sonralar bu təzminatın miqdarı 40-50 min rubla çatdırıldı (107, c.2, səh, 75).

Bölgədə baş verən hadisələrin İrəvan xanlığı üçün əlverişli olduğunu düzgün qiymətləndirən Hüseynəli xan 1776-cı ildə yenidən Kartli-Kaxetiya çarlığına təzminat verməyi dayandırdı. Onlar arasında yenidən düşmənçilik yarandı (213, 67; 187, 387). İlk illərdə beynəlxalq vəziyyətin onun üçün əlverişli olmadığını dərk edən II İrakli müvəqqəti olaraq gözləmə mövqeyində qaldı.

Lakin II İrakli çox gözləməli olmadı. 1779-cu ildə Kərim xan Zənd vəfat etdikdən sonra Mərkəzi İranda qarışıqlıq yarandı. Digər tərəfdən, Qarabağ xanı İbrahimxəlil xanla birləşən II İrakli 1779-cu ildə iki dəfə qubalı Fətəli xanın qoşunlarını məğlub edə bildi (211, 432). Qubalı Fətəli xanı müəyyən müddətə zərərsizləşdirməyə bacaran II İrakli onun müttəfiqi İrəvan xanlığına yürüş etmək qərarına gəldi. İlk əvvəl İrəvan xanından təzminat tələb etdi. Lakin Hüseynəli xan rədd cavabı verdi (86, 22). Xanın vergi verməkdən imtina etdiyini görən II İrakli oğlu Levonla birlikdə 1779-cu il sentyabrın 5-də 20 minlik qoşunla, bəzi məlumata görə isə 12 minlik qoşunla İrəvan xanlığına yürüşə başladı (218, 68; 90, 156). Onun qoşununun tərkibində dağıstanlılardan ibarət 5 min nəfər muzdlu döyüşçü də vardı (107, c.2, səh.73). Erməni tarixçisi T.X.Akopyan II İraklinin qoşununun sayının 40 min nəfərə çatdığını və onun çoxsaylı xalqlardan ibarət olduğunu qeyd edirdi (80, 54).

Hüseynəli xan bu dəfə də II İrakliyə müqavimət göstərmək qərarına gəlmişdi. O, müdafiəni gücləndirmək məqsədilə İrəvana yaxın kəndlərin əhalisini yenə də qalaya köçürtdürmüşdü. Əhalinin müəyyən hissəsi isə Qars və Bəyazid paşalıqlarına qaçmışdı (215, 68-69; 86, 22). Müdafiəni möhkəmləndirdikdən sonra Hüseynəli xan əvvəlcə Kartli-Kaxetiya qoşunlarına hələ sərhəddə ikən müqavimət göstərmək qərarına gəldi. Lakin çoxsaylı qoşunun qarşısında tab gətirə bilməyən İrəvan qoşunu qalaya çəkilərək mübarizəni davam etdirdi. Kartli-Kaxetiya qoşunları sentyabrın 10-

da Uşaqan kəndinə gələrək altı gün burada dincəlir. Sonra isə II İrakli öz qoşunu ilə İrəvan qalası yaxınlığında yerləşən Parakər kəndində düşərgə saldı. İrəvan qalası mühasirəyə alındı. Hüseynəli xanın başçılığı ilə irəvanlıların II İraklinin qoşununa güclü müqavimət göstərməsi mühasirənin xeyli uzanmasına səbəb oldu (215, 69; 86, 22; 494, 3).

Hüseynəli xan qalanın müdafiəsinə şəxsən özü başçılıq edirdi. Xanlıq ərazisində yaşayan ermənilərin II İrakliyə rəğbətini bilən İrəvan hakimi onların xəyanətinin qarşısını almaqda xüsusi sayıqlıq göstərirdi. Məhz onun fəallığı nəticəsində qala uzunmüddətli mühasirəyə davam gətirə bildi. Mühasirənin uzanması, qala müdafiəçilərinin güclü müqaviməti, qışın yaxınlaşması II İraklinin planını pozmuşdu. Digər tərəfdən, Çıldır hakiminin təzyiqləri də irəvanlıların işinə yaramışdı. Belə ki, Kartli-Kaxetiya qoşunları İrəvan qalasını mühasirəyə alan zaman Hüseynəli xan Çıldır valisi Süleyman paşadan hərbi yardım istəmişdi. Süleyman paşa II İraklini Tiflisə hücum etməklə hədələyərək, İrəvanın mühasirəsindən əl çəkməyə məcbur etmişdi (72, 74-75; 55, 189-190). Kartli-Kaxetiya feodallarının çara qarşı qiyam da bu işdə böyük rol oynamışdı. Ona qarşı qiyam qalxması barədə xəbər II İraklini bərk narahat etmişdi. Beləliklə, II İrakli oğlu Levonun başçılığı ilə İrəvanda bir dəstə qoşun saxlayaraq noyabrın 3-də geri qayıtdı (215, 69). Lakin məqsədinə nail olmayan Levon da sonradan İrəvanı tərk etmişdi (90, 156; 86, 22; 207, 393).

Bu yürüşdə II İrakli Hüseynəli xanı özünə tabe edə bilməsə də, onun qoşunu xanlığı güclü dağıntıya məruz qoymuşdu. İki aya qədər İrəvanda qalan Kartli-Kaxetiya qoşunu xanlığın ərazisindəki çoxlu kəndi dağıtmış, yandırmış və əhalinin əmlakını tamamilə qarət etmişdi. Minlərlə əhali və mal-qara ələ keçirilərək Kartli-Kaxetiyaya aparmışdı. Hətta çara rəğbət bəsləyən ermənilərin baş kilsəsi Üçmüəzzin belə qarətdən xilas ola bilmədi. P.Butkov yazır ki, "II İraklinin qoşununun tərkibində olan dağıstanlılar Eçmiədzin (Üçmüəzzin – E. Q.) kilsəsinə hücum edərək onun 250 min rubl

məbləğində əmlakını ələ keşirdilər (107, c.2, səh, 74; 215, 69-71; 86, 22-23; 494, 3; 499, 163; 226, 56; 80, 56).

Yürüş zamanı aparılan əsirlərin sayı haqqında qaynaqlarda müxtəlif məlumatlar vardı. Bir arxiv sənədində göstərilir ki, "İrəvan xanı təzminat vermədiyinə görə çar İrakli 12.000 nəfərlik qoşunla İrəvana gələrək şəhər ətrafını tutmuş, 15.000 evdən hər iki cinsdən olan yerli əhalini əsir edərək Tiflisə göndərmişdi" (90, 156). A.Suvorov isə məktublarının birində 2300 ailənin əsir aparıldığını göstərmişdi (171, 141). Hər ailənin tərkibini təxminən beş nəfərdən hesablasaq, aparılan əsirlərin sayı 11500 nəfər edər. Bu əsirlərin aqibəti acınacaqlı olmuş, bəzisi yollarda ölmüş və bəziləri isə qul vəziyyətinə salınmışdı. A.Araratlı əsərində əsirlərin vəziyyətini belə təsvir edirdi: «İrakli tərəfindən alınmış əsirlərin əksəriyyəti çox acınacaqlı vəziyyətdə idi. Onların paltar və ayaqqabısı yox idi. Bütün bunlar onlardan alınmış, yaxud qarət olunmuşdu. Çoxları yollarda aclıqdan ölmüşdü. Tiflisə gətirilmiş bir çoxları isə quldurlardan qorunmaq üçün əlçatmaz yerlərə səpələnmişdilər. Bir hissəsi isə gürcü knyaz və zadəganlar arasında paylanmışdı» (86, 23). Əsir aparılanların hamısı xanlığın müsəlman əhalisi idi (48, 90-91).

Bu yürüş İrəvan hakimi kimi Hüseynqulu xanı çətin sınaq qarşısında qoydu. Belə ki, mühasirədən sonra irəvanlılar dəhşətli mənzərə ilə üzləşdilər. Kəndlərin dağılması, əhalinin əmlakının qarət olunması və əkin sahələrinin baxımsız qalması əhali arasında aclığa səbəb olmuşdu. Mənbədə göstərilir ki, "iki il ərzində bir lider (çəki vahidi-10 funt) çörək 15 piastra (Osmanlı pul vahidi – E. Q.) satılmışdı. Bahalığa baxmayaraq, çox vaxt çörəyi də tapmaq olmurdu. Çoxları aclıqdan ölürdü" (86, 23; 215, 70-71).

Kartli-Kaxetiya qoşunu xanlığın ərazisini tərk etdikdən sonra xan bu hadisədə xəyanətkar mövqe tutduqlarına görə, Üçmüəzzin kilsəsini və bəzi erməni əsilzadələrini cəzalandırmaq qərarına gəldi. Hadisənin şahidi olan Yeqor Xubov xatirələrində xanın ermənilərə qəzəbini belə təsvir etmişdi: «İrəvan qalasında qalanların (ermə-nilərin – E. Q.) aqibəti acınacaqlı olmuşdu. Onlardan otuz nəfərini

Hüseynəli xan ciddi cəzalandırdı. Onların mal-dövləti müsadirə olundu və bir nəfər erməni satqınlıqda günahlandırılıb edam edildi. Patrisi (katolikos – E. Q.) Simon qohumunun ölümünü görüb xeyli qəhərləndi. O, bu bədbəxtlərin günahından keçməyi xahiş etdi. Xan onun xahişinə əməl edib, cəzanı cərimə ilə əvəz etdi. Cərimənin böyük hissəsini patriarx özü ödəmişdi. Hətta patriarxın özü də xəyanətkarlıqda şübhəli bilinmişdi (494, 4). Dövrün arxiv sənədinə görə, Hüseynəli xanın əmri ilə Üçmüəzzin kilsə rahiblərindən altı nəfər öldürülmüşdü (90, 156). Bu mənbənin verdiyi məlumatı P.Butkov da təsdiq edir. O yazırdı: "Eyni zamanda xanlığın ərazisi II İrakli tərəfindən güclü dağıntıya məruz qaldığından İrəvan xanı Eçmiədzin (Üçmüəzzin – E. Q.) kilsəsini cəzalandırmaq fikrinə düşür. Lakin bütün əmlaklar gizlədildiyinə görə, xan oraya hücum edərək altı rahibi öldürür" (107, c.2, səh.74).

Kartli-Kaxetiya qoşunlarının hücumu zamanı xanlığın ərazisinin güclü dağıntıya məruz qalmasından istifadə edən qiyamçı qüvvələr də fəallaşmış, quldurluq və özbaşnalıq daha da çoxalmışdı. Qiyamçı qüvvələri dəf etmək və xanlıqda qayda-qanun yaratmaq üçün Hüseynəli xan ilk növbədə II İrakli ilə sülh bağlamağı qərara aldı. Xan ilk növbədə çar qoşunları tərəfindən əsir aparılmış irəvanlıların geri qaytarılması üçün tədbirlər görməyə başladı. O, əsirlərin geri qaytarılması üçün 1780-ci ilin mayında Tiflisə qiymətli hədiyyələrlə nümayəndə heyəti göndərdi (5, 451). Xan məktublarında II İrakliyə göndərdiyi müxtəlif hədiyyələr haqqında ətraflı məlumat vermişdi. Bu hədiyyələr arasında cürbəcür bahalı parçaları, zireh geyimləri, mal-qaranı, dəvəni və s. qeyd etmək olar (48, 91-96). Lakin Kartli-Kaxetiya çarı elçiləri yaxşı qarşılasa da, xanın xahişlərini yerinə yetirməyə tələsmirdi. Elçilərin əliboş geri qayıtdığını görən xan ruhdan düşməyərək gürcü qızı olan xanımının başçılığı ilə Tiflisə yeni nümayəndə heyəti göndərdi. II İrakli ilə görüşən xanım Hüseynəli xana məktub göndərərək, məqsədə çatmaq üçün çar yanında nüfuzu olan erməni katolikosunu bu işə cəlb etməyi xahiş etmişdi. Lakin katolikosun vasitəçiliyi də çarı yola gətirə bilməmişdi (161, 71).

İlk cəhdlərinin uğursuzluğa düçar olmasına baxmayaraq, Hüseynəli xan məqsədinə nail olmaq üçün Tiflisə yeni-yeni nümayəndə heyətləri göndərməkdə davam edirdi. O, II İraklinin yanına oğlu Məhəmmədin də daxil olduğu üçüncü nümayəndə heyəti yolladı. Bu heyətin göndərilməsinə bəhanə II İraklinin oğlu Levonun faciəli ölümü idi. Vəziyyətdən istifadə etməyə çalışan bu nümayəndə heyəti də sülh müqaviləsi bağlamağa nail ola bilmədi (161, 70). Lakin II İrakli Hüseynəli xanın oğlunu mehribanlıqla qarşılamış və ona İrəvan qoşunlarına sərkərdəlik vəzifəsi tapşırmışdı (48, 88-89). Buna baxmayaraq, bu heyət də məqsədə nail ola bilmədi.

Ruhdan düşməyən İrəvan hakimi əsirlərin geri qaytarılması üçün II İrakliyə məktublar göndərməkdə davam edirdi. Hüseynəli xan başa düşürdü ki, dağıntıları aradan qaldırmaqda və təsərrüfatın dirçəldilməsində aparılan əsirlərin böyük rolu ola bilərdi. O, Tiflis sarayına göndərilən məktubların birində bu haqda açıq yazırdı: "...xahiş edirəm ki, mərhəmət edib, iltifat göstərərək bizə ciddi kömək göstərib, yardım etmək məqsədilə sizin ölkənizdə sakin edilən irəvanlı xanəvarları (ailələri) öz başınıza sədəqə edərək hədiyyə və peşkəş kimi bizə bağışlayasınız. Onlar öz vətənlərinə qayıdaraq əkinçilik, kasıbkarlıqla məşğul olub sizin ömrünüzə və dövlətinizə dua etsinlər. Onların qaytarılması…vilayətin abadlaşmasına…səbəb olacaqdır» (48, 89).

II İraklini yola gətirə bilməyən Hüseynəli xan kömək üçün Osmanlı sultanına müraciət etdi. Sultan isə şərq paşalarına İrəvan xanına hər cür kömək etməyi tapşırmışdı. Bundan sonra Kartli-Kaxetiya çarı ilə sülh müqaviləsinin bağlanmasında Ahalsıx və Çıldır hakimləri böyük rol oynadılar. Hüseynəli xan Ahalsıx hakimi Süleyman paşaya məktub göndərərək əsirlərin acınacaqlı vəziyyətdə olduğunu bildirmiş və onların geri qaytarılmasında vasitəçi olmağa xahiş etmişdi. Buna razılıq verən Ahalsıx paşasının adamları tezliklə İrəvana gəldilər (48, 91; 161, 69).

Çıldır hakimi Süleyman paşa da sülh işində fəal rol oynamışdı. Hüseynəli xandan sonra hakimiyyətə gəlmiş oğlu Qulaməli xan sultana göndərdiyi məktubda bunu xüsusi qeyd etmişdi. O, yazırdı:

“Keçmiş illərdə... əzəmətli vəziriniz, Çıldır vilayətinin hakimi Süleyman paşanın səyi və təşəbbüsü ilə Gürcüstanla sərhədlər barəsində xüsusi müqavilə bağlanmışdı” (48, 73).

Osmanlı dövlətinin təzyiqləri və digər tərəfdən İrəvan xanlığında öz nüfuzunu itirmək qorxusu II İraklini mövqeyini dəyişməyə məcbur etdi. Xoylu Əhməd xanla qarabağlı İbrahimxəlil xan arasında baş verən münaqişə də bu işdə böyük rol oynamışdı. İbrahimxəlil xanın müttəfiqi olan II İrakli Əhməd xana qarşı mübarizədə Hüseynəli xandan maddi və hərbi kömək alacağını düşünərək oğlu Levonun vəziri Georgi bəyin başçılığı ilə İrəvana nümayəndə heyəti göndərdi. Georgi bəy iki dəfə İrəvanda olmuşdu. Razılığa əsasən, 1781-ci ilin noyabrında Hüseynəli xan oğlu Qu-laməli xanın başçılığı ilə dördüncü nümayəndə heyətini Tiflisə göndərdi. Kartli-Kaxetiya çarının səlahiyyətli nümayəndəsi İvane Muxran bəy də İrəvana gəldi (161, 71-72). Nəticədə bağlanmış müqavilənin şərtlərinə görə, Hüseynəli xan II İrakliyə ildə 3.000 tümən məbləğində təzminat verməyi öhdəsinə götürmüşdü (107, c.2, səh.75; 291, 97). Bundan başqa, İrəvan xanı lazım olduqda qoşunu ilə II İrakliyə kömək etməli, xanların varisləri hakimiyyətə gələrkən gürcü çarı tərəfindən təsdiq edilməli idi. Əvəzində II İrakli İrəvan xanlığını xarici və daxili düşmənlərdən qorumağa söz verirdi (161, 72). Müqaviləyə əsasən sağ qalan əsirlərin bir hissəsi geri qaytarıldı (48, 75).

Kartli-Kaxetiya qoşunlarına qarşı mübarizə, sülh danışıqla-rının uzanması İrəvan xanlığının daxili vəziyyətini daha da ağırlaş-dırmışdı. İrəvan xanının ağır şərtlərlə müqavilə bağlamasının əsas səbəbi də bu idi. Belə ki, vəziyyətdən istifadə edən bir çox elatlar qiyam qaldıraraq, xanlıqda qarışıqlıq yaratmağa çalışırdılar. Hü-seynəli xan II İrakliyə yazdığı məktubların birində ölkədəki vəziyyəti belə qeyd edirdi: «Baş verən hadisələr, qiyam, vaxtaşırı hücumlar İrəvan ölkəsi əhalisini var-yoxdan çıxarmışdı. Bizim xanlıq sülaləsinə qarşı keçmişdən ürəklərində kin bəsləyən, düşmən olan müxtəlif qiyamçılar sakitlik, səssizlik ətəyindən əl çəkərək əyalətdəki kəndlərə od vururdular» (48, 97-98).

Bu üsyanın əsas iştirakçıları kolanılılar və vedililər idi. Kolanılıların bu işdə fəallığı xüsusilə seçilirdi. Yuxarıda göstərildiyi kimi, Hüseynəli xanın hakimiyyətinin ilk dövrlərində kolanılılar ona qarşı qiyam qaldıraraq, Qarabağ xanlığının himayəsinə keçmək istəmişdilər. Xan hakimiyyətinə qarşı düşmən münasibət sonralar da davam etmişdi. Onların başçılarından biri Novruzəli bəy Hüseynəli xanın II İrakliyə qarşı mübarizəsindən istifadə edərək tez-tez hakimyyətə qarşı çıxırdı. Lakin Hüseynəli xan onu daima təqib edirdi. Təqibdən yayınan Novruzəli bəy kömək üçün Tiflis sarayına pənah aparmışdı. İrəvan xanlığını öz təsirində saxlamaq üçün belə qüvvələri daima dəstəkləyən II İrakli Novruzəli bəyi öz himayəsinə götürərək onu nümayəndə heyəti ilə birlikdə İrəvana göndərmişdi. Kartli-Kaxetiya çarı ilə yenicə sülh bağlamış Hüseynəli xan əlacsız qalaraq onun günahından keçmiş və ona öz elinə getməyə icazə vermişdi. Bir neçə gün İrəvanda qaldıqdan sonra öz obasına qayıdan Novruzəli bəy xanlığın ağır vəziyyətindən istifadə edərək yenidən qiyam qaldırdı. O, niyyətini həyata keçirmək üçün özünə müttəfiq də tapa bildi. Belə ki, Novruzəli bəy xan hakimiyyətinə düşmən olan vedili Əlisultan Şadılını öz tərəfinə çəkərək, onunla ittifaq bağladı. Tezliklə, Hüseynəli xandan narazı olan digər qüvvələrdə qiyamçılara qoşuldu. Qiyamçılar müvəffəqiyyət qazanmaq üçün Qarabağ hakimi İbrahimxəlil xanla əlaqəyə girdilər. Onlar Qarabağ hakiminin yanına nümayəndə göndərərək yardım istəmiş və ona tabe olduqlarını bildirmişdilər. Qiyamçı qüvvələr kəndlərə hücumlar edərək qarətlə məşğul olurdular. Hüseynəli xan qiyamı yatırmaq üçün öz sərkərdələrindən birini qoşunla onlara qarşı göndərdi. Bu xəbəri eşidən qiyamçılar xan qoşununa müqavimət göstərmək üçün ailələri ilə birlikdə əlçatmaz yerlərə çəkildilər. Lakin xan qoşununun yaxınlaşdığını eşidən Novruzəli bəy və Əlisultan Şadılı müqavimət göstərməyə cəsarət etməyərək, öz ellərini buraxaraq, şəmşəddinli Əlisultanın yanına qaçdılar (48, 86).

Qiyamçıların başçılarının qaçdığını görən xanın adamları onların mənsub olduqları el və tayfaları dağlardan endirmək, onların evlərinə qayıtmaları üçün danıqlar aparmağa başladılar. Əhaliyə

qorxmadan öz evlərinə qayıtmağa icazə verildi. Çoxlu danışıq, söz-söhbətdən sonra əhali dağlardan enməyə və itaət etməyə razılıq verdi. Onlarla razılığa gəldiklərinə əmin olan xan adamları əhalini öz yerlərinə qayıtmağa nəzarət etmək məqsədilə orada 40 nəfərlik dəstə saxlayaraq, qalan qoşunla geri qayıtdılar. Lakin əsas qoşun hissələri getdikdən sonra qiyamçılar Qarabağdan aldıqları köməklə birlikdə orada saxlanılan dəstəyə hücum edərək onların hamısını qılıncdan keçirdilər və əmlaklarını qarət etdilər. Bu xəyanətkar hərəkəti eşidən Hüseynəli xan dərhal oraya yenidən qoşun göndərdi. Nizami qoşun qəti hücuma keçərək qiyamçıları məğlub etdi. Qalib gəlmiş xanın qoşunu qiyamçıların əmlakını və mal-qarasını qarət etdi (48, 87). Qeyd etmək lazımdır ki, bu qiyamın yatırılmasında II İraklinin də köməyi olmuşdu. O, qiyamın qarşısını almaq üçün sərkərdələrindən birini İrəvana göndərmişdi (48, 97-98). Oeyd edək ki, bu qiyam 1782-ci ilin baharında və yayında olmuşdu.

Müdaxilələr nəticəsində güclü dağıntıya məruz qalmış xanlıq təsərrüfatını bərpa etməklə məşğul olan Hüseynəli xan tezliklə qonşu Naxcıvan xanlığında baş verən siyasi hadisələrə qoşuldu. Qeyd etmək lazımdır ki, XVIII yüzilliyin 80-ci illərin əvvəllərində bir tərəfdən xoylu Əhməd xan Dünbülü, digər tərəfdən isə qarabağlı İbrahimxəlil xan, Kartli-Kaxetiya çarı II İrakli və İrəvan hakimi Hüseynəli xan arasında Naxçıvan xanlığında möhkəmlənmək uğrunda mübarizə başlamışdı. Müttəfiqlərin səyi nəticəsində kən-gərli tayfasından olan Abbasqulu xan hakimiyyətə gəlmişdi (34, 49).

Lakin bununla razılaşmayan Xoy hakimi Əhməd xan Naxcı-van xanlığının daxili işlərinə qarışmaq üçün fürsət axtarırdı. Bu məqsədlə Əhməd xan naxçıvanlı Abbasqulu xandan torpaq iddiası edərək, həmin xanlığın tərkibinə daxil olan Nazik və Şükürlü kəndlərini ona güzəştə getməyi tələb etdi. Onun bu tələbi Abbas-qulu xan tərəfindən rədd edildi. Rədd cavabı alan Əhməd xan qoşunlarını Naxçıvan xanlığının sərhədlərinə yeritdi. Güclü Xoy qoşunlarına müqavimət göstərmək iqtidarında olmayan Abbasqulu xan Naxçıvanı tərk edərək Zəngəzura çəkildi. Lakin Əhməd xan

Naxçıvanda çox qala bilmədi. İrəvanlı Hüseynəli xan Əhməd xana məktub yazaraq Naxçıvandan çıxmağı tələb etmiş, əks-təqdirdə ona qarşı hərbi əməliyyata başlayacağı ilə hədələmişdi (3, 220). Bunun ardınca İrəvan hakimi Naxçıvana qoşun yeritmişdi. Hüseynəli xanın bu addımının İbrahimxəlil xan və II İrakli tərəfindən müdafiə edildiyini başa düşən Əhməd xan Naxçıvanı tərk etdi. Lakin İrəvan qoşunu da burada çox qala bilmədi. Abbasqulu xanın yenidən Naxçıvana qayıtması irəvanlıların buranı tərk etməsinə səbəb oldu (3, 220).

Hakimiyyətə yenidən qayıdan Abbasqulu xanın siyasəti də yerli əhalinin narazılığına səbəb olmuşdu. Onun hətta öz qohumları ilə münasibətləri çox kəskin idi. Tezliklə, Abbasqulu xan yenidən Naxçıvanı tərk etmək məcburiyyətində qaldı. Hüseynəli xan Naxçıvan dövlət başçılarına, əyanlarına göndərdiyi məktubunda «…Abbasqulu xanın qohum-əqrəbələrinin ona olan pis münasibətləri ilə əlaqədar olaraq öz ana vətəni Naxçıvanı tərk etməyə məcbur olduğunu» yazmışdı (48, 11).

Naxçıvanda olan qarışıqlıqdan istifadə edən Əhməd xan İsfahan hakimindən hərbi kömək alaraq, onun sərkərdəsi Gülşirəli xanın başçılığı altında Naxçıvana qoşun göndərdi. Bu qoşunların köməyi ilə Abbasqulu xanın əmisi oğlu Cəfərqulu xan Naxçıvanda hakimiyyətə gətirildi (3, 220).

Hakimiyyətdən uzaqlaşdırılan Abbasqulu xan isə İrəvana gəlmişdi və dost-tanışları ilə məsləhətləşdikdən sonra Tiflis sarayına pənah aparmışdı. O, hakmiyyəti geri qaytarmaq üçün II İraklidən hərbi yardım istəyirdi. Kartli-Kaxetiya çarı isə onun vəziyyətini həll etmək üçün öz nümayəndələrini xüsusi məktubla Hüseynəli xanın yanına göndərdi. Məktubda o, Hüseynəli xana nümayəndələrlə məsləhətləşib Abbasqulu xanın məsələsini həll etməyi tapşırmışdı (48, 11-13). Lakin bölgədə qüvvələr nisbətinin dəyişməsi, ilk növbədə də Hüseynəli xanın ölümü İrəvanı bu mübarizədən kənarda qoydu.

Yuxarıda gətirilən materiallardan belə nəticə çıxarmaq olar ki, İrəvan hakimi Hüseynəli xan xarici siyasətində Azərbaycan

xanlıqlarının əksəriyyəti ilə əsasən dostluq münasibətləri saxlamağa çalışırdı. Onun yazdığı məktublardan görünür ki, xan ömrünün sonlarına yaxın xoylu Əhməd xanla, qarabağlı İbrahimxəlil xanla münasibətlərini nizama sala bilmişdi. Naxçıvanda baş vermiş hadisələrdə mənafelərinin toqquşmasına, II İrakli ilə Əhməd xan Dünbülünün düşmənçiliyinə baxmayaraq, Hüseynəli xanla Xoy xanı arasında səmimi münasibətlər yaranmışdı. Xanlar yazdıqları məktublarında dostluqdan bəhs edir və bir-birinə hədiyyələr göndərirdilər. Hətta Hüseynəli xan böyük oğlu Qulaməlini Əhməd xanın qızı ilə evləndirməklə onunla qohum olmaq niyyətində idi (48, 13-21). Görünür, bu nikahla Hüseynəli xan güclü Xoy xanının hərbi qüvvəsindən yararlanmaq istəyirdı. Lakin Hüseynəli xanın qəfl ölümü bu niyyətin həyata keçməsinə mane oldu.

İrəvan xanlığının Qarabağ xanlığı ilə münasibətləri çox zaman dəyişkən olmuşdu. Yuxarıda Hüseynəli xandan əvvəlki dövrləri izlədikdə görürük ki, Qarabağ xanları daim İrəvan xanlığını ələ keçirməyə çalışmışdılar. Qarabağ xanlığının banisi Pənahəli xan İrəvanın çətin vəziyyətindən istifadə edərək Göyçə gölündən şərqdə yerləşən, Tərtər çayına qədər torpaqları ələ keçirib öz xanlığına qatmışdı. «Qarabağnamə» müəlliflərinin əksəriyyəti iddia edir ki, İbrahimxəlil xan başqa ərazilərlə birlikdə İrəvanı da öz təsirinə almışdı. Guya burada kimi istəsə işdən götürmək, yenisini təyin etmək onun əmri ilə icra edilirdi (51, 48; 43, 120-121; 44, 24; 37, 126). Lakin Qarabağ xanları xanlıq daxilində baş verən hadisələrdən yararlanaraq İrəvanda möhkəmlənməyə çalışsalar da, heç zaman buna nail ola bilməmişdilər. Bunun əsas səbəblərindən biri bölgə uğrunda güclü Qarabağ xanlığı ilə mübarizə aparan, Rusiya dövlətinə arxalanan Kartli-Kaxetiya çarının İrəvanda təsirinin böyük olması idi. İkincisi, Rusiya və Osmanlı dövlətləri arasındakı münasibətlər də bu cür vəziyyətin yaranmasında böyük rol oynamışdı. Bu münasibətlərdə xüsusilə İrəvan xanlığı uğrunda mübarizə əsas yeri tuturdu. Digər tərəfdən, bacarıqlı dövlət xadimi Hüseynəli xan bölgədə baş verən hadisələri düzgün qiymətləndirir, İbrahimxəlil xanla dostluq münasibətləri saxlayırdı. İrəvan hakiminin onun

hakimiyyətinə qarşı çıxan qiyamçıların kömək üçün Qarabağ xanına müraciət etməsinə baxmayaraq, həmsərhəd olduğu bu xanlıqla normal qonşuluq münasibətlərini qorumağa çalışırdı. Onun İbrahimxəlil xana göndərdiyi məktubda dostluqdan və səmimiyyətdən söhbət getdiyinin şahidi oluruq (48, 78-79).

Beləliklə, Kartli-Kaxetiya qoşunlarının İrəvan xanlığına yürüşün acı nəticələrini aradan qaldıran Hüseynəli xan xarici siyasətdə də müəyyən uğurlara nail oldu. Belə ki, o, ömrünün sonlarına yaxın qonşu Azərbaycan xanları ilə dostluq münasibətləri yarada bilmişdi.

**Georgievski müqaviləsi və İrəvan uğrunda mübarizə.** XVIII yüzilliyin 80-ci illərinin əvvəllərində Cənubi Qafqazda vəziyyət daha da mürəkkəbləşdi. Belə ki, II İrakli güclü müttəfiq olmadan Azərbaycanın bir sıra torpaqlarını, xüsusilə, İrəvan xanlığının öz çarlığına birləşdirməyin qeyri-mümkün olduğunu başa düşürdü. Apardığı siyasətlə bölgə dövlətlərinin-Osmanlı imperiyasının, Azərbaycan xanlıqlarının, Dağıstan siyasi qurumlarının nifrətini qazanmış Kartli-Kaxetiya çarı bu birlikdən qorxaraq Rusiyanın himayəsinə keçməyə çalışırdı. Belə plan hələ XVIII yüzilliyin 50-ci illərin sonları – 60-cı illərin əvvəllərində II İraklinin atası çar Teymurazın hakimiyyəti illərində mövcud olmuşdu. Lakin onun qəfil ölümü bu işi yarımçıq qoymuşdu (107, c.1, səh.241; 249, 130-131).

Kartli-Kaxetiya çarı məqsədini həyata keçirmək üçün Rusiya hökmdarı II Yekaterinaya xüsusi layihə ilə müraciət etmişdi. Cənubi Qafqazda öz mövqeyini möhkəmləndirməyə cəhd edən Rusiya II İraklinin müraciətini məmuniyyətlə qəbul etdi. Nəticədə 1783-cü il iyulun 24-də Georgievskdə bağlanmış müqaviləyə görə, Kartli-Kaxetiya çarlığı Rusiya dövlətinin təbəəliyinə keçdi (107, c.2, səh, 11; 229, 67-70; 182, 9; 78, 277-286; 209, 436; 247, 168-171; 291, 118-128). Bunun ardınca S.D.Burnaşovun başçılığı ilə iki rus batalyonu Tiflisə daxil oldu (502, 22).

Georgievski müqaviləsi bölgədə çox böyük səs-küyə səbəb oldu və qonşu dövlətləri bərk təşvişə saldı. Bu hadisə Kartli-

Kaxetiya çarlığının həmin dövlətlərlə onsuz da yaxşı olmayan münasibətlərini daha da kəskinləşdirdi. Müqavilədə Azərbaycan xanlarının narazılığına səbəb maddələrin birində II İraklinin adının təmtəraqlı və şişirdilmiş formada göstərilməsi idi. Burada Kartli-Kaxetiya çarının adı belə qeyd olunur: «…, Qazaxın mtavarı (hakim knyaz – E. Q.), Borçalının mtavarı, Şəmşəddilin mtavarı, Qaxın mtavarı, Şamaxının mtavarı, Şirvanın mtavarı, Gəncə və İrəvanın padşahı» (209, 437). (Qeyd – Bildiyimiz kimi, Kartli-Kaxetiya çarı Şirvanda və onun mərkəzi Şamaxıda heç bir zaman nüfuz sahibi olmamışdı. Digər tərəfdən, beynəlxalq vəziyyətlə və ara müharibələri ilə əlaqədar olaraq Gəncə və İrəvan xanlıqları müxtəlif dövrlərdə Kartli-Kaxetiya çarlığından nominal asılı olmuşdu. Lakin bu asıllıq yalnız vergi verməklə məhdudlaşırdı – E. Q.). P.Butkov yazır ki, «Rus qoşunları Gürcüstana (Kartli-Kaxetiyaya – E. Q.) daxil olduqdan sonra onun (II İrakli – E. Q.) vəziyyəti pisləşdi; onun təbəəliyində olan elat və ya köçəri tatarlar (Azərbaycan türkləri-E, Q.) və başqa müsəlman əhalisi ona itaət etməkdən imtina etdi. O, Azərbaycanda əvvəlki nüfuzunu itirdi və oradan alınan hədiyyələrdən məhrum oldu. Gəncə tamamilə ondan uzaqlaşdı, xoylu Əhməd xanla qohum olan İrəvan xanı bac verməkdən imtina etdi…» (107, c.2, səh, 177-178).

Rusiya dövləti bu müqavilə ilə Azərbaycan xanlarına və Dağıstan hakimlərinə təsir göstərmək üçün Kartli-Kaxetiya kimi əlverişli strateji meydan əldə etdi. Georgievsk müqaviləsi bölgə uğrunda yeni Rusiya–Osmanlı rəqabətinin daha da gərginləşməsinə səbəb oldu. Müqavilədən dərhal sonra Rusiya öz planlarını həyata keçirmək üçün gerçək addımlar atmağa başladı. Bunun üçün bölgədə Rusiya siyasəti üçün əlverişli vəziyyət yaranmışdı. Belə ki, Kərim xan Zəndin ölümündən sonra Mərkəzi İranda hakimiyyəti ələ keçirən Əlimurad xan II Yekaterina hökuməti ilə əlaqə yaradaraq Qaradağ, Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarını Rusiyaya güzəştə getmək müqabilində onun hakimiyyətini tanınmasını xahiş edirdi (107, c.2, səh.148; 78, 150; 147, 69-73). Hərçənd ki, bu

dövrdə onun bu xanlıqlar üzərində real hakimiyyətindən söhbət belə gedə bilməzdi.

1783-cü il iyulun 30-da rus komandanlığı bir sıra Azərbaycan xanlarına və Dağıstan hakimlərinə Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsinə keçdiyini bildirən fərmanlar göndərərək, onlardan da belə hərəkət etmələri təklif etdi (14, 181). Fərmanları yerlərə çatdırmaq üçün sekund-mayor (XVIII yüzillikdə rus ordusunda kapitan rütbəsinə bərabər zabit rütbəsi – E. Q.), qraf Apraksin və poruçik (çar ordusunda zabit rütbəsi – E. Q.), knyaz Çelokayev Tiflisə göndərildi (161, 78-79).

İrəvan xanlığı uğrunda hər iki tərəf arasında mübarizə daha da şiddətləndi. Həm Rusiya, həm də Osmanlı dövləti Hüseynəli xanı öz tərəfinə çəkməyə çalışırdı. Eyni zamanda Kartli-Kaxetiya çarlığı ilə baş verən müharibədən sonra xanlığın dağılmış təsərrüfatını bərpa etmək, hakimiyyətinə qarşı qiyamları, narazılıqları yatırmaqla məşğul olan Hüseynəli xan da bu ziddiyyətlərdən yararlanmağa çalışırdı. O, bitərəf mövqe tutaraq hər iki tərəflə məktublaşır və dostluq münasibətləri saxlamağa çalışırdı. Bəzi türk müəllifləri əsərlərində Hüseynəli xanın siyasətini başqa cür izah etməyə çalışmışdılar. Belə ki, türk tədqiqatçısı M.A.Çakmaq yazırdı ki, «Osmanlı dövləti ilə yaxın münasibətdə olan İrəvan xanı Hüseynəli xan və başqa Azərbaycan xanları Osmanlı dövləti tərəfindən gələn hədiyyələri qəbul etməkdən çəkinirdilər» (56, 54). Başqa bir Türkiyə tədqiqatçısı etiraf edirdi ki, «…İrəvan ərazisinə göndərilmiş rus mühəndisləri İrəvan xanı Hüseynəli xan tərəfindən məmnuniyyətlə qəbul edilirdi» (57, 54).

Əslində Hüseynəli xanın məktublarının məzmunundan görmək olar ki, bu mürəkkəb tarixi şəraitdə İrəvan hakimi hər iki tərəflə mehriban münasibət saxlamağa çalışmış, xarici siyasətdə balanslaşdırma siyasəti yeritmişdi. Məsələn, Hüseynəli xanın II İrakliyə yazdığı məktublardan aydın olur ki, o, bayramlarda və yaxud adi günlərdə II İrakliyə hərbi geyimlər, müxtəlif növlü parçalar, cins atlar, dəvələr və s. kimi hədiyyələr göndərməkdə davam edirdi. Məktublarda dostluq və sədaqətdən danışılırdı (48,

91-92, 93-99). Hətta o, Əhməd xan Xoylu və Kartli-Kaxetiya çarı arasında olan münaqişələrə qarışmaz və Xoy hakiminə «... bu dövlətdə (İrəvan xanlığında – E. Q.) müəyyən işlərin həlli, bir sıra işlərin görülməsi əlahəzrət Valinin icazəsi və razılığı olmadan mümkün deyil. ...Sizin aranızda dostluq və sülh münasibətləri hələ də möhkəm əsaslar üzərində dayanmamışdı. Aranızda münaqişələr, ziddiyyətlər və düşmənçilik hələ də davam edir...bunlar valinin məndən inciməsinə və üz döndərməsinə səbəb ola bilər. O, bunu bəhanə edərək döstluq etməkdən çəkinər və bizim xeyrimizə olmayan işlərə əl atar» məzmunda məktub yazmaqla mövqeyini bildirmişdi (48, 31).

Rusiya nümayəndələri də İrəvan hakimi tərəfindən mehribanlıqla qarşılanırdı. Belə ki, 1782-ci il dekabrın sonlarında İrəvanın mövqeyini öyrənmək məqsədilə rus komandanlığının tapşırığı ilə doktor Y.Reyneks İrəvana göndərilmişdi. Qeyd etmək lazımdır ki, o, 1782-1784-cü illərdə knyaz Q.A.Potyomkinin Tiflis sarayındakı agenti olmuşdu (212, 86). Zahirdə bu missiyanın fəaliyyətinə ticarət donu geyindirilsə də, Y.Reyneksin missiyasının əsl məqsədi sırf casusluq-kəşfiyyat işi idi. O, siyasi məsələlərlə bağlı xanla danışıqlar aparmalı və İrəvanla bağlı müdafiə xətlərini müzakirə etməli idi. Hüseynəli xan bunu bilsə də, “doktor” Y.Reyneks İrəvanda atəşfəşanlıqla, təntənəli surətdə qarşılanmış və dörd gün xanın qonağı olmuşdu. İrəvan qalasında olan Reyneks onun planını çəkmiş, ticarət anbarlarına baxmış və lazım olan qeydlər aparmışdı. O, hətta Rusiyanın himayəsinə keçməyə hazır olması barədə xandan vədlər almışdı (90, 215-217).

Onun ardınca 1783-cü ilin oktyabrın sonları – noyabrın əvvəllərində qraf Apraksin İrəvana gəldi. Qraf Apraksin İrəvana gələndə Hüseynəli xan tərəfindən eyni təntənə ilə qarşılandı. O, Qafqazdakı rus qoşunlarının komandanı Q.A.Potyomkinin fərmanını, onun qohumu və köməkçisi P.S.Potyomkinin məktubunu qiymətli hədiyyələrlə birlikdə xana təqdim etdi. Məktubda Kartli-Kaxetiya çarlığının Rusiya himayəsinə keçdiyi bildirilir və Hüseynəli xana İrakliyə tabe olmaq, ona itaət etmək təklif edilirdi.

Rusiya ilə münasibətləri gərginləşdirmək istəməyən Hüseynəli xan 1783-cü il oktyabrın axırlarında Q.A.Potyomkinə son dərəcə ağılla və diplomatikcəsinə yazılmış bir məktub göndərmişdi. O, yazırdı: «…səmimilik....ruhunda yazılmış mehriban mübarək əmriniz …mayor qraf Apraksin vasitəsilə bizə çatdı…Fərmanda əzəmətli, cəlallı hökmdarımız İrakli xanla birləşmək, ona nökərçilik etmək, itaətkar olmaq və sair tələb olunur. …. Digər Azərbaycan xanlarından fərqli olaraq bizim ölkəmizin Gürcüstan ölkəsi ilə həmsərhəd olması bütün işlərdə həmin dövlətlə həmrəng olmağa, onun qüdrətli, səmimi badəsindən sərməst olmağa səbəb olmuşdu» (48, 115-116; 90, 265-266). II İrakliyə göndərdiyi digər məktubda İrəvan hakimi gileylənərək, ona tabe olduğunu bildirmiş, başqalarının (rus komandanlığının – E. Q.) bu işə qarışmasına etiraz etmişdi (48, 118-119).

İrəvan hakimi eyni zamanda Osmanlı dövləti ilə də sıx münasibət saxlayırdı. 1779-cu ildə Kartli-Kaxetiya qoşunları İrəvana müdaxilə edəndə Hüseynəli xan Osmanlı dövlətindən gözlədiyi hərbi köməyi ala bilməsə də, bölgədə bu dövlətin nüfuzu İrəvanı müəyyən müddətə işğaldan xilas etmişdi. Ümumuyyətlə, tarixi ədəbiyyat və mənbələrin təhlili göstərir ki, bu dövrdə Osmanlı dövləti Cənubi Qafqaz siyasətində Azərbaycan xanlarına, o cümlədən İrəvan xanlığına real hərbi kömək etməsə də, onlara maddi kömək və dəstək verməklə onları rus-gürcü ittifaqına qarşı birləşdirməyə, aralarında olan düşmənçiliklərə son qoymağa çalışmışdı.

Hüseynəli xanın sultana, Anadolu paşalarına yazdığı məktubların məzmunundan bəlli olur ki, həmin illərdə İrəvan xanlığı Osmanlı dövlətilə də sıx əlaqə saxlamışdı. Digər tərəfdən, sultan Hüseynəli xanı öz tərəfinə çəkmək üçün ona xüsusi fərmanla Anadolu vilayətlərinin **bəylərbəyi titulunu** bağışlamışdı (48, 119-120). Sultan eyni zamanda Anadolu hakimlərinə-Ərzurum, Qars, Çıldır, Bəyazid və Ahalsıq paşalarına fərmanlar göndərərək rus-gürcü qoşunlarının İrəvan xanlığına hücum edəcəyi təqdirdə Hüseynəli xana kömək göstərmələrini tapşırmışdı (72, 102-103;

247, 203; 55, 183; 57, 53). Mənbələrin təhlili belə bir fikrə dəlməyə imkan verir ki, hər iki tərəfə münasibətdə İrəvanın həyata keçirdiyi siyasətin yeganə məqsədi xanlığın varlığını, müstəqilliyini qoruyub saxlamaq idi.

Rusiyanın himayəsinə keçdikdən sonra Kartli-Kaxetiyanın İrəvan xanlığının daxili işlərinə qarışması nəinki Osmanlı dövlətini, həm də güclü Azərbaycan xanlarını-Quba hakimi Fətəli xanı, Qarabağ hakimi İbrahimxəlil xanı, Xoy hakimi Əhməd xan Dünbülünü ciddi narahat edirdi. Qubalı Fətəli xan əvvəllər də II İraklinin İrəvan xanlığının daxili işlərinə qarışmasına etiraz etmişdi. O, 1782-ci ildə II Yekaterina hökumətinə II İraklinin Azərbaycan xanlıqlarının və xüsusilə də İrəvan xanlığının daxili işlərinə qarışması və vergi alması barədə xüsusi məktub yazmaqla, öz narazılığını bildirmişdi (75, 178-182).

Rus-gürcü qoşunlarının İrəvan xanlığını işğal edəcəyindən qorxan bu xanlar Osmanlı sarayı ilə sıx əlaqə saxlayırdılar. Kartli-Kaxetiya çarlığının əsas rəqibi olan xoylu Əhməd xan II İraklinin güclənməsinin qarşısını almaq üçün daha da fəallaşdı. Onun siyasətini Osmanlı sultanı da dəstəkləyirdi. Osmanlı sultanı fərmanların birində rus-gürcü qüvvələri İrəvana müdaxilə edərsə, Azərbaycan xanlarını xoylu Əhməd xan Dünbülünün ətrafında sıx birləşərək, onlara qarşı mübarizə aparmağa çağırırdı (48, 73).

Azərbaycanda isə xanlar arasında ara müharibələri davam edirdi. Bölgədə qüvvələr nisbəti rus-gürcü birliyinin xeyrinə dəyişmişdi. Məhz buna görə, Hüseynəli xan xanlığı hər cür təhlükədən xilas etmək üçün çox ehtiyatlı hərəkət edirdi.

Bölgədə Rusiya-Osmanlı rəqabətinin qızışdığı bir zamanda Hüseynəli xan vəfat etdi. «İrəvan xanlığı» əsərinin müəllifləri Hüseynəli xanın üsyan nəticəsində öldürüldüyünü iddia edirlər. Əsərdə qeyd edilir ki, 1783-cü ilin noyabrın əvvəllərində İrəvanda baş vermiş üsyan nəticəsində Hüseynəli xan və qardaşı Məhəmmədhəsən xan öldürüldü (35, 69). Lakin heç bir mənbəyə əsaslanmayan müəlliflərin bu iddiasının əksinə olaraq istər yerli, istərsə də rus və Osmanlı sənədlərində Hüseynəli xanın öz əcəli ilə öldüyü

bildirilirdi. Mənbədə göstərilir ki, 1783-cü il noyabrın 9-da Hüseynəli xan qəflətən xəstələnərək vəfat etdi. Onun cənazəsi Bağdada aparılaraq orada dəfn edildi (Ola bilsin ki, xanın öz vəsiyyətinə görə – E. Q.) (90, 274; 4, 342). Bəzi sənəddə xanın oktyabrın 25-də gecə saat 5-də vəfat etdiyi göstərilir (48, 113-114; 4, 341). Əgər Hüseynəli xanın oktyabrın axırı-noyabrın əvvəllərində İrəvana gəlmiş qraf Apraksinlə görüşdüyünü nəzərə alsaq, onda onun noyabrın 9-da vəfat etdiyini qəbul edə bilərik.

Beləliklə, Hüseynəli xan hakimiyyətdə olduğu müddətdə İrəvan xanlığının müstəqilliyini qorumağa çalışmış, hər cür təzyiqlərə və müdaxilələrə qarşı mübarizə aparmışdı. O, bu yolda balanslaşdırma siyasəti yeridərək, bölgə uğrunda Rusiya-Osmanlı rəqbətindən də səmərəli istifadə edə bilmişdi.

## 2.2. İrəvan xanlığı Qulaməli xanın hakimiyyəti dövründə

Hüseynəli xanın qəflətən ölümü İrəvanda böyük çaxnaşma yaratmışdı. Onun dəfnindən istifadə edən bir dəstə şəxs hakimiyyəti ələ keçirməyə cəhd etdi. Qeyd etmək lazımdır ki, İrəvan hakiminin vəfatından sonra onun bir neçə oğlu qalmışdı. Osmanlı sənədində göstərilir ki, Hüseynəli xanın 15 yaşlı oğlu Qulaməli atasının dəfni ilə məşğul olarkən yerli əyanlardan Usmi bəy tərəfdarları ilə üsyan qaldıraraq İrəvan qalasını ələ keçirmişdi (72, 74). Lakin mərhum Hüseynəli xana sadiq olan qüvvələrin təzyiqi nəticəsində hakimiyyəti qeyri-qanuni zəbt etmək istəyən qüvvələr geri çəkilməyə məcbur olmuşdu. Həmin qüvvələrin II İrakliyə ayrı-ayrı vaxtlarda göndərdiyi iki məktub da bunu bir daha sübut edir. Bu məktublar varis məsələsində İrəvanın daxili işlərinə qarışmamaq üçün çara bir xəbərdarlıq idi. Birinci məktubda irəvanlılar mərhum xana sadiq olacaqlarını, onun övladlarından başqa birisinə itaət etməyəcəklərini, yalnız taxt-tacda onun varislərindən birinə sədaqətli olacaqlarına and içəcəklərini bildirmişdilər (48, 57-58). İkinci

məktub isə 158 nəfərin imzası ilə yazılmışdı. Bu məktubda isə İrəvan ağsaqqalları Qulaməli xanın namizədliyini dəstəklədiklərini göstərmişdi. Məktubda Hüseynəli xanın xəstəlikdən ölməsindən, İrəvanda baş verən qarışıqlıqdan bəhs edilir və II İrakliyə Qulaməlinin xan seçilməsinə dəstək verməsi xahiş olunurdu. Məktubun sonunda deyilirdi: «…ali həzrət, vəlinemətin daima kölgə salan qüdrətindən xahiş olunur ki, özünüzün cənnətməkan Hüseynəli xana bəslədiyiniz məhəbbət, mehribanlıqla əlaqədar olaraq bu vilayətin arzusuna müvafiq Çuxursəd, İrəvan hökmranlığı fərmanını mərhumun ali şöhrətli böyük oğlunun adına bəxşiş və ehsan edəsiniz. Eyni zamanda Çuxursəd, İrəvan əhalisi adına mərhumun oğluna tabe olması və itaət etməsi haqqında yenidən fərman verilməsi xahiş olunur» (48, 113-114; 4, 341; 250, 110).

Əslində II İrakliyə göndərilən bu məktublar formal xarakter daşıyırdı. Çünki hər iki məktubun məzmunundan görünür ki, xan ailəsinə sadiq olan qüvvələr yalnız onun varislərinə itaət edəcəyini qəti bildirmiş və Tiflis sarayına nümayəndə heyəti göndərməmişdən qabaq Qulaməlinin namizədliyini dəstəkləyərək hakimiyyətə gətirmişdilər. Yuxarıda göstərilən müqaviləyə əsasən Hüseynəli xandan sonra onun hakimiyyətə gələn hər hansı varisi II İrakli tərəfindən təsdiq edilməli idi. Lakin xana sadiq olan qüvvələrin II İrakliyə bu məqsədlə müraciət etməsi çox güman ki, Hüseynəli xanın vəfatından sonra İrəvanda qarışıqlıq düşməsindən və bundan istifadə edərək Kartli-Kaxetiya çarının müdaxiləsindən ehtiyat etmələri idi. İrəvan əhalisinin mərhum xanın böyük oğlu Qulaməlini dəstəklədiklərini görən II İrakli onların iradəsi ilə razılaşmağa məcbur olmuşdu. Məhz bu səbəbdən o, kürəkəni Baqrationu fərmanla, qiymətli hədiyyələrlə İrəvana göndərərək, Qulaməlini xan kimi tanıdığını bildirmişdi (4, 342; 472, 5; 499, 164; 35, 69).

Qulaməli xanın (1783-1784) səkkiz aylıq hakimiyyəti İrəvan xanlığının ən ziddiyyətli dövrlərindəndir. Onun hakimiyyəti dövründə xanlıqda öz mövqeyini möhkəmləndirmək üçün Osmanlı dövləti ilə Rusiya qüvvələri arasında gizli mübarizə gedirdi. Qulaməli xanın çox gənc və təcrübəsiz olmasından istifadə edən bu

iki dövlət İrəvan hakimini öz tərəfinə çəkməyə çalışırdı. Əgər Hüseynəli xan hər iki tərəf arasında bitərəf mövqe tuturdusa, Qulaməli xanın dövründə İrəvan xanlığı Osmanlı dövləti ilə daha da yaxınlaşdı. Bu dövrdə Cənubi Qafqazda Osmanlı təbliğatı daha da güclənmişdi. Xanın cavan və təcrübəsiz olmasını nəzərə alan bəzi Osmanlı paşaları II İraklinin İrəvanı ələ keçirəcəyindən narahat olaraq onunla sıx əlaqə saxlayırdılar. Atasının ölümü ilə əlaqədar olaraq başsalığına gəlmiş Ahalsıq, Ərzurum, Qars və Bəyazid paşalıqlarının nümayəndələri fürsətdən istifadə edərək Qulaməli xanla danışıqlar aparırdılar (3, 285).

Digər tərəfdən, Osmanlı sarayı müxtəlif hədiyyə və məktublarla öz emissarlarını Azərbaycana və Dağıstana göndərməkdə davam edirdi. 1783-cü ilin sonu-1784-cü ilin əvvəllərində Xəlil Əfəndinin başçılığı ilə bir Osmanlı nümayəndəliyi gizli olaraq Cənubi Qafqaza gəlmişdi (250, 147-148; 247, 203). Xəlil Əfəndi İrəvanda da olmuşdu. Onun Qulaməli xanla danışıqları müsbət nəticə vermişdi. Qulaməli xan Çıldır valisi Salman paşaya yazdığı məktubda osmanlılarla həmrəy olduğunu bildirərək, Azərbaycanda baş verən hadisələr barədə ona qiymətli məlumat göndərmişdi. Məktubdan görünür ki, sultan Qulaməli xanı öz tərəfinə çəkmək üçün onu **mir-e-miran (?)** vəzifəsi ilə təltif etmiş, eyni zamanda Osmanlı paşalarına zəruri vaxtlarda ona hərtərəfli yardım göstərmələri haqqında əmr verilmişdi (48, 68-69).

Beləliklə, Osmanlı təbliğatı nəticəsində Qulaməli xanın II İrakliyə münasibəti dəyişdi. Rusiyanın Tiflis sarayındakı nümayəndəsi S.D.Burnaşov P.S.Potyomkinə yazırdı ki, «İrəvan xanlığından gələn məlumata əsasən, Qulaməli xanın çara olan münasibəti birdən-birə dəyişmiş və indi o, türklərə meyl edir» (3, 15). Daha sonra o, 1784-cü il 9 fevral tarixli məktubunda həyacanla «Xanlar birləşib bir istiqamətdən, osmanlılar isə digər istiqamətdən İrakli üzərinə hücuma keçmək fikrindədirlər. İrakli isə əks tədbirlər görməlidir. Çünki İrəvan xanı cavan və təcrübəsiz olduğu üçün ondan hər şey gözləmək olar» qeyd edirdi (3, 17).

Osmanlıların səyi nəticəsində Qulaməli xan Kartli-Kaxetiya sarayı ilə olan bütün əlaqələri kəsmişdi. O, hətta xanlıqda baş verən qarışıqlığı, üsyanları bəhanə gətirərək onun Tiflisə gəlməsi barədə II İraklinin dəvətini rədd etmişdi (48, 60-61). Qulaməli xan artıq Kartli-Kaxetiya çarının fərmanlarına da məhəl qoymurdu. Məsələn, 1783-cü ilin noyabrında Cəfərqulu xan İsfahan hakimi Əlimurad xanın və Xoy xanı Əhməd xan Dünbülünün dəstəyi ilə əmisi oğlu Abbasqulu xanı Naxçıvanda taxtdan salaraq hakmiyyətə gəlmişdi (3, 220). II İrakli Qulaməli xana fərman göndərərək bu mübarizədə Abbasqulu xana hərbi yardım etməyi tapşırsa da, İrəvan hakimi onun fərmanına məhəl qoymamışdı (291, 173-175).

Lakin II İrakli İrəvanın onun tabeçiliyindən çıxması ilə heç cür barışa bilmirdi. Rusiyanın himayəsinə keçməklə bölgə dövlətlərinin təzyiqlərinə məruz qalan II İrakli açıq-açığına İrəvan xanlığının daxili işlərinə qarışa bilməsə də, müxalif qüvvələrdən istifadə etməklə, Qulaməli xana təzyiq göstərirdi. Belə ki, Qulaməli xanın apardığı daxili siyasət ona qarşı müxalif qüvvələrin fəallaşmasına səbəb oldu. Bunu anlayan xan və tərəfdarları İrəvanı II İraklinin fitnəsindən qorumaq və xanlıqda baş verən hər cür narazılıqların qarşısını almaq üçün xoylu Əhməd xan Dünbülü ilə əlaqə yaradaraq ondan kömək istəmişdilər. Yuxarıda qeyd edildiyi kimi, Qulaməli xanın hakimiyyətinin ilk günlərində Usmi xanın başçılığı ilə bir dəstə şəxs İrəvanda hakimiyyəti zəbt etmək niyyətinə düşmüşdü. Lakin bu, baş tutmasa da, xanlıqda narazılıq səngiməmişdi. Gənc xan xoylu Əhməd xana yazdığı məktubda bu haqda ətraflı bəhs etmiş və xanlıqda baş verən narazılıqları yatırmaq üçün ondan kömək istəmişdi. Məktubun məzmunu belədir: «Sizin hörmətli qulamınız vasitəsilə göndərdiyiniz məktubu aldıq… Dövləti ələ aldığım ilk günlərdən vilayətdə sakin olan bir sıra fəsad adamlar, bir dəstə üsyançı mənim cavanlığımdan istifadə edərək hərc-mərclik odunu şölələndirmişlər və bütün gücləri ilə bizim hökmranlığa son qoymağa çalışırdılar. Onlar siz böyük hökmdara xəbər çatana kimi təcili olaraq öz işlərini görmək və məqsədlərinə çatmaq niyyətində idilər. Allahtəalanın mərhəməti ilə onlar öz

niyyətlərinə nail ola bilmədilər. Darmadağın edilərək geri çəkilməyə məcbur oldular. İrsi nurani xanlıq hökmranlığına qarşı göstərilən səylər nəticə vermədi. Buna baxmayaraq, ölkədə əmin-amanlıq hələ də istənilən qədər bərpa edilməmiş və istiqlaliyyət sütunları lazımınca möhkəmləndirilməmişdir. O, səmimi, mehriban xandan bu səmimini özünün xanlıq övladlarından biri hesab etməsini, ölkəmizin əmin-amanlığının bərpasına kömək göstərməsini xahiş edirik. Qoy xainlərin ayağı altında tapdalanan bu ölkəyə sizin köməyiniz nəticəsində asayiş və sakitlik qaytarılsın. Bu səmimini yaddan çıxarmayacağınıza, kömək və yardım etməyinizə ümid edirik» (48, 62-63).

Qulaməli xan güclü Xoy xanı ilə daha da yaxınlaşmaq, onun hərbi gücündən istifadə etmək üçün «nikah diplomatiyası»ndan istifadə etməyi qərara almışdı. O, Əhməd xanın qızı ilə evlənməklə hakimiyyətini möhkəmləndirməyə çalışırdı. Yuxarıda göstərildiyi kimi, Hüseynəli xan da bu istəyi həyata keçirməyə çalışmışdı. Qulaməli xanın bu niyyətini anası da dəstəkləyirdi. Anası Əhməd xana yazdığı məktubda onunla qohum olmaq niyyətində olduğunu bildirmiş, xanlıqda baş verən narazılıqları yatırmaq üçün ondan kömək istəmişdi (48, 80-81).

İrəvan xanlığını öz təsirinə salmaq istəyində olduğundan Əhməd xanın özü üçün də bu qohumluq çox vacib idi. Lakin Qulaməli xanın tezliklə öldürülməsi bu planın həyata keçməsinə mane olmuşdu.

Qulaməli xanın öldürülməsi haqqında müxtəlif mülahizələr mövcuddur. P.Butkovun məlumatına görə, Qulaməli xan II İraklinin göstərişi ilə ov zamanı öz qardaşları tərəfindən öldürülmüşdü (107, c.2, səh.194). Digər məlumata görə isə Qulaməli xan ögey anasının saray fitnəsi zamanı sui-qəsd nəticəsində öldürülmüşdü (499, 164). «İrəvan xanlığı» əsərində Qulaməli xanın öldürülməsi belə təsvir edilir: «Qulaməli xanın II İrakliyə xidmət göstərməsi İrəvan zadəganlarını heç də təmin etmədi. Bu isə 1785-ci ildə II İraklinin təşkil etdiyi saray çevrilişi zamanı Qulaməli xanın qətli ilə nəticələndi» (35, 70-71). Əsərdə Qulaməli xanın siyasətinə düzgün

qiymət verilməmiş, ölüm tarixi isə səhvən 1785-ci ildə olduğu göstərilmişdi (35, 71). Osmanlı mənbələri isə bu hadisə haqqında ziddiyyətli xəbər verir. Bir mənbəyə görə, Qulaməli xan II İraklinin göstərişilə öldürülmüşdü (72, 102-103). Başqa Osmanlı mənbəyində isə Qulaməli xanın öldürülməsində II İraklinin əli olmadığı, xanın qətlinə onun ağılsız təbiəti, İrəvan əhalisi ilə pis rəftar etməsi səbəbi olduğu bildirilmişdi (72, 95-96).

Həqiqətən də, Qulaməli xan qısa hakimiyyəti dövründə apardığı siyasətlə xalqın əsl qəzəbinə gəlmişdi. Bir arxiv sənədində göstərilir ki, İrəvan əyanlarını qəzəbləndirən əsas amil Qulaməli xanın təcrübəsizliyindən istifadə edərək, onun ana qohumlarının və dayısı Şamdin ağanın xanlıqda əsas vəzifələri tutaraq dövlət işlərinə müdaxilə etmələri idi. Onların özbaşnalığı xalqın narazılığına səbəb olmuşdu (3, 284-285). Məhəmməd xan 1784-cü il iyunun 9-də II İrakliyə yazdığı məktubda xalqın narazılığının səbəbini belə göstərmişdi: «Qulaməli xan ağılsız və təkəbbürlü hərəkət edərək, rəhmsiz adamların məsləhəti ilə pis işlərə qoşulmaqla xalqın qəzəbinə səbəb olmuşdu. Bu səbəbə görə yaxşı adamların məsləhəti ilə iki qardaş ayın 8-də (iyun – E. Q.) öldürülmüşdü» (250, 184).

Lakin Qulaməli xanın ölümündə II İraklinin əlinin olmaması fikri ilə razılaşmaq olmaz. Yuxarıda göstərildiyi kimi, Osmanlı sarayına və xoylu Əhməd xana arxalanan Qulaməli xan öz siyasətində II İrakli ilə hesablaşmırdı. Buna baxmayaraq, uzun illər İrəvanda baş verən hadisələrə müdaxilə edən və təzminat alan Kartli-Kaxetiya çarının burada tərəfdarları az deyildi. Digər tərəfdən, Qulaməli xanın siyasətindən narazı olan qüvvələr Tiflis sarayı ilə əlaqə yaradaraq, II İraklini İrəvana dəvət etmək istəyirdilər. Arxiv sənədinə görə, xandan narazı olan yerli Azərbaycan türklərindən olan ayrımlar İrəvanı tərk edərək Şörəyelə getmişdilər. Onların başçısı Qaraman bəy digər ayrım başçıları ilə məsləhətləşərək II İraklinin yanına elçi göndərib, onu inandırmağa çalışırdı ki, «əgər siz əmr etsəniz İrəvanı ələ keçirə bilərik və hakimiyyəti istədiyiniz şəxsə verərik. Bunyadəli bəy və onun əmisi oğlu Qələndar bəy və qalada yaşayan əhalinin əksəriyyəti bizimlə həmrəydir. Qalanın

qapısının və açarının həvalə edildiyi şəxs bizim qohumumuzdur. O, deyir ki, əgər biz gecə ora gəlsək, qalanı təhvil verəcəkdir» (250, 195-196). Çox güman ki, II İrakli bu imkandan yararlanaraq müxalif qüvvələri sui-qəsdə təhrik etmişdi. Beləliklə, Qulaməli xan həm xarici, həm daxili qüvvələrin birgə səyi ilə 1784-cü il iyunun 8-də şənbə günü qaladan kənarda qoşuna baxış keçirərkən müxalif qüvvələrin hücumuna məruz qalmış, nəticədə kiçik qardaşı Məhəmmədhəsən və ona sadiq beş nəfərlə birlikdə öldürülmüşdü (250, 183-184, 190-203). Xanı və qardaşını şəxsən öldürənlər İrəvan əyanlarından Bünyadəli soltan və onun əmisi oğlu Qələndar bəy olmuşdu (250, 195).

Beləliklə, xarici düşmənlərin İrəvanda siyasi nüfuzu, nəzarəti itirmək istəməyən bir sıra güclərin və hakimiyyət uğrunda mübarizə aparan yerli qruplaşmaların fəaliyyətinin nəticəsi olan bu sui-qəsd İrəvanda siyasi-sosial durumu daha da kəskinləşdirdi. Daxili və xarici durumda gərginlik artmaqda davam etdi.

## 2.3. XVIII yüzilliyin 80-ci illərin ikinci yarısında İrəvan xanlığında siyasi vəziyyət

Sui-qəsddən dərhal sonra İrəvan əhalisinin əksəriyyəti Qulaməli xanın 12 yaşlı ögey qardaşı Məhəmmədi xan seçdi. Məhəmməd xan (1784-1805) İrəvan taxtında ən uzun müddət oturan hakimlərdən biri olmuşdu (472, 5; 499, 164; 107, c.2, səh.177). O, Hüseynəli xanın gürcü qızından olan oğlu idi. Eyni zamanda bu hakim İrəvan əhalisinin seçdiyi yerli Qacarlar sülaləsinin sonuncu nümayəndəsi olmuşdu. Onun hakimiyyət illərini iki dövrə bölmək olar. Birinci dövr 1784-cü ildən 1790-cı ilə qədər dövrü əhatə edir. Məhəmməd xan azyaşlı olduğuna görə, hakimiyyətinin ilk illərində anasından, ona sadiq olan nüfuzlu əyanlardan asılı qalmış, Xoy xanlığına və hətta Kartli-Kaxetiya çarlığına təzminat vermək məcburiyyətində qalmışdı.

İrəvan taxtına sahib olan Məhəmməd xan ilk gündən ona müxalif olan qüvvələrin təzyiqi ilə üzləşdi. Qulaməli xanın ölümündən sonra İrəvan əhalisi iki dəstəyə bölünərək bir–biri ilə mübarizə aparırdı. Birinci dəstə Məhəmməd xanın tərəfdarları idi. Bu dəstəni xoylu Əhməd xan dəstəkləyirdi. İkinci müxalif qüvvənin başında isə makulu Əhməd soltan dururdu. Qeyd etmək lazımdır ki, Əhməd soltan İrəvan taxt-tacını ələ keçirmək üçün çoxdan fürsət axtarırdı. Xalqın dəstəklədiyi Qulaməli xanın hakimiyyətə gəlməsi onun bu planını pozmuşdu. Lakin xanın öldürülməsi ilə Əhməd soltan yenidən taxt-taca sahib olmaq niyyətinə düşmüşdü. S.D.Burnaşov 1784-cü il iyulun 25-də yazdığı məktubların birində qeyd edirdi ki, Əhməd soltan İrəvanda ən nüfuzlu əyanlardan biridir və Arazın o tayında zəngin malikanələri vardı. O, planını həyata keçirmək üçün Kartli-Kaxetiya çarı ilə əlaqə saxlayırdı. Onun dəstəyini almaq üçün Əhməd soltan oğlunu məktubla Tiflisə göndərmişdi. Məktubda o, İrəvan xanının (Qulaməli xan – E. Q.) çara xəyanət etdiyini, onu eşitmədiyini və əmanət göndərmədiyini yazırdı. II İrakli isə Mirzə Gürgenə tapşırmışdı ki, Əhməd soltana bildirsin ki, çar onun İrəvan xanlığının hakimi olmasına kömək edəcəkdir (3, 16-17).

Həqiqətən də, hadisələrin gərgin olduğu bir vaxtda İrəvanda İraklinin tərəfdarları ilə Osmanlı dəstəyinə ümid edən əleyhdarları arasında əsl mübarizə gedirdi (247, 206). Bütün İrəvan əhalisi iki qismə bölünərək bir-biri ilə döyüşürdü. Baş verən döyüşlər nəticəsində hər iki tərəf bir-birinə məxsus olan kəndləri dağıdır və qarət edirdilər. Bu qarmaqarışıqlıqlara dözməyən, talanın qarşısında aciz qalan əhalinin bir hissəsi çıxış yolunu Osmanlı ərazisinə sığınmaqda görürdü. Baxımsız qalmış əkin sahələrinin bir hissəsi məhv olmuş, digər hissəsini isə qarətçilər talan etmişdilər (6, 961-962).

İrəvanda baş verən hadisələrdə Kartli-Kaxetiya çarının əli olduğunu bilən və bunun qarşısını almağa çalışan İrəvan ağsaqqalları və digər nüfuzlu şəxsləri ilk gündən Tiflis sarayı ilə əlaqəyə girmişdilər. Qulaməli xana qarşı sui-qəsddən bir neçə gün sonra

İrəvanın nüfuzlu şəxslərindən 98 nəfərin imzası ilə II İrakliyə məktub göndərilmişdi. 1784-ci il iyunun 9-12 arasında göndərilmiş məktubda Qulaməli xanın öldürülməsinin səbəbi göstərilməklə yanaşı qeyd edilirdi ki, «İrəvan əhalisi, həm əyanlar, həm də sadə xalq qardaşının yerinə onu (Məhəmməd xanı-E.Q) xan seçmişdilər. Əlihəzrətdən xahiş edirik ki, mərhəmət göstərərək onun hakimliyini təsdiq edən fərman göndərsin. Sonra bütün cəmiyyətə əmr edəsiniz ki, bu haqda xalq bilsin» (250, 183). Başqa bir sənəddə deyilir ki, Məhəmməd xanın tərəfdarları II İraklinin dəstəyini almaq üçün tələsik Hacı Həsənəli bəyi və məlik Abramı Tiflisə göndərmişdilər. Elçilər Tiflisə gələrək irəvanlıların adından çara sədaqətli olacaqlarına söz verib, Məhəmməd xanın hakimiyyətini dəstəkləməyi xahiş etmişdilər. II İrakli isə xanı təbrik etmək üçün Mirzə Gürgeni xüsusi məktub və xələtlə İrəvana göndərmişdi (250, 195-196).

Əslində II İrakli İrəvanda baş verən hadisələrdən istifadə edərək nüfuzunu möhkəmləndirmək qərarına gəlmişdi. Lakin onun planını Bəyazid hakimi İshaq paşa və xoylu Əhməd xan pozmuşdular. Belə ki, İrəvanda ara qarışan kimi İshaq paşa Xoy hakimi ilə əlaqəyə girərək, onu burada olan hadisələrə müdaxilə etməyə çağırmışdı. Nəticədə, Əhməd xan nümayəndəsi Mirzə Əbdülhəsəni, İshaq paşa isə xəzinədarı Rizvan ağanı Məhəmməd xanın adına yazılmış fərman və məktubla İrəvana göndərdilər. Onların səyi nəticəsində əhali arasında iğtişaş yatırılmış və dinclik yaranmışdı. II İrakli tərəfindən göndərilən Mirzə Gürgen 70-80 süvari ilə İrəvana daxil olanda artıq gec idi. Məhz bu səbəbdən çarın adamları Tiflisə geri qayıtmağa məcbu olmuşdular. Yalnız Mirzə Gürgen bir neçə nəfərlə İrəvanda qalmışdı (72, 95-96).

İrəvanda baş verən qarşıdurmada Məhəmməd xanın tərəfdarları qələbə çaldılar. Nəticədə, Osmanlı tərəfdarlarının köməyi ilə müxalif qüvvələr məğlub oldu. Planının bu dəfə də boşa çıxdığını görən makulu Əhməd soltan cəzalanacağından qorxaraq xoylu Əhməd xanın yanına qaçdı. Lakin Əhməd xan onu həbs etdirdi (11, 96).

İrəvanda tez-tez baş verən hakimiyyət dəyişiklikləri, xanların kiçik yaşlı və təcrübəsiz olması Osmanlı hökumətini hər dəfə bu-

raya fəal müdaxiləyə sövq edirdi. Anası gürcü qızı olan Məhəmməd xanın II İraklidən asılılığının güclənəcəyindən ehtiyat edən Osmanlı sultanı təcili tədbirlər görməyə başladı. Sultan Əbdülhəmid Məhəmməd xana fərman göndərərək, onu digər Azərbaycan xanları ilə birləşərək, gürcü-rus qüvvələrinə qarşı mübarizəyə çağırırdı. Bu fərmanda Osmanlı sultanı gələcək planlarından bəhs edərək yazırdı: «…biz arzu edirik ki, islam qanunlarına zərər dəyməsin, ən çox da sənin xanlığın yalançılardan və canilərdən xilas olsun. Xəbərdar edirik ki, Tiflis çarı (II İrakli – E. Q.) Rusiya ilə birləşərək, yalanla Azərbaycan xanları arasında olan birliyi parçalayaraq onları Rusiyaya tərəf əyməklə xaincəsinə məhv etmək istəyir. Allah bizi bundan qorusun. Biz gərək müvəffəqiyyətlə, qanunla birləşməyə cəhd edək. Nəticədə biz Azərbaycan xanlarını ayıltmaq üçün birinci vəzir – Çıldır valisi Salman paşaya və Bəyazid hakimi İshak paşaya onlarla fasiləsiz yazışma aparmağı əmr etmişik. Hamısına xəbər veririk ki, Rusiya və çar İrakliyə söz verəndə xüsusilə ehtiyatlı olsunlar. Çar İrakli Rusiyaya satılıb, sizə göndərilmiş bizim elçinin əmri ilə digər xanlar kimi hərəkət edin…Xəbərdar edirik ki, siz islam qanunları üçün çalışasınız və buna dözəsiniz. Belə vəziyyətdə siz ali bütün paşalara bildirməklə bizim hər cür köməyimizi gözləyə bilərsiniz və son dərəcə hücumdan qorunun. Ayıq olun ki, çar İrakli İrəvan hakimiyyətinə, İrəvan xanlığına və sizin dövlətə zərər yetirməsin. Bizim bütün hakimlərə sizə kömək lazım olduqda sərhəddə qoşun toplamağı əmr etmişik. Bizim ali işimizə qoşulmağa cəhd edin. Bizim arzumuz odur ki, İrakli heç yerə ziyan yetirməsin, bizimlə səmimiyyətlə birləşərək düşmənlə qarşılaşan zaman öldürün, qarət və darmadağın edin. Gözləyin ki, nə digər Azərbaycan xanlarına, nə də sizin xanlığa zərər dəyməsin…Arzu edirik ki, islam qanunlarının xeyrinə bütün Azərbaycan xanları xoylu Əhməd xanın ətrafında birləşsinlər» (6, 964).

Digər tərəfdən, sultan sərhəddə yerləşən Ahalsıq, Qars, Bəyazid və digər paşalıqlara İrəvanı müdafiə etmək üçün hazır olmaları haqqında fərmanlar göndərmişdi. Sultanın göstərişlərini yerinə yetirən paşalar İrəvan xanı ilə əlaqə saxlayır və onu öz

tərəflərinə çəkmək üçün müxtəlif vədlər verirdilər. Ahalsıq hakimi Süleyman paşa bu işdə xüsusilə fəal idi. O, İrəvanı rus-gürcü qüvvələrindən müdafiə etmək üçün Azərbaycan xanlarını birliyə çağırırdı. Onun İrəvan əhalisinə və şəxsən xanın özünə yazdığı məktubları bu baxımdan diqqətəlayiqdir. Süleyman paşa 1784-cü il iyulun 10-da İrəvan əyanlarına yazdığı məktubda xalqı «müqəddəs müharibə»yə təhrik etməklə bildirirdi ki, onlar lazım olduqda paşaların köməyinə ümid edə bilərlər. Məktubda yazılırdı: «Siz mənim hörmətli oğlumla (Məhəmməd xanla – E. Q.) birləşərək Azərbaycanın yeni sipəhsaları, qardaşımız Əhməd xanın sözü ilə hərəkət edin....Mənim qardaşlarım – İrəvan xalqı yerli türklərdir; əgər dininizi sədaqətlə müdafiə etdiyinizə görə, İrəvan qalasında hər hansı şəxs sizə qarşı pis niyyətə düşərsə, sizə kömək üçün biz birləşərik. Sultan mənə, Qars, Van və Bəyazid paşalarına İrəvan təhlükədə olduğu vaxt onlara kömək etməyi əmr edibdir» (250, 198-199). Süleyman paşanın şəxsən Məhəmməd xana göndərdiyi digər məktubunda ona və başqa Azərbaycan xanlarına göndərilən pul və hədiyyələrdən bəhs edilirdi. O, yazırdı: «Sizi doğma oğlum hesab edərək həmişə əmin-amanlığınız üçün çalışmışam. Əlahəzrət hökmdarın fərmanı və vəzir Həsənin məktubu əsasında Qapıçı paşa (İbrahim əfəndi – E. Q.) və Solakzadə Məhəmməd-sal bəyin vasitəsilə sizə və Azərbaycanın digər xanlarına pul və hədiyyələr göndərilmişdir. Onları bu yaxınlarda alacaqsınız. Əgər siz bizim dövlətə sadiqsinizsə və bizimlə dostluq münasibətində olmaq istəyirsinizsə, o zaman Ali Porta (Osmanlı dövləti – E. Q.) bundan xəbərdar olmalıdır. Siz nəinki bizim sadiq bəndəmiz olacaqsınız, sultanın da sizə hörməti artacaq, əgər sözlərimə inansanız, mənim də sizə qarşı məhəbbətim artacaq, iltifatlı oğlum və dostum bu məktubu gətirəni yubanmadan göndərin» (6, 686).

Qars paşası da Məhəmməd xana bu məzmunda məktub göndərmişdi. Məktubda deyilirdi: «Bizim şöhrətli hakimimiz sizə və Azərbaycanın digər xanlarına Qapıçı paşa və Solakzadə Məhəmməd-sal bəyin vasitəsilə pul və hədiyyə göndərmişdir. Tezliklə Ahalsıq hakimi Süleyman paşa vasitəsilə sizə çatdırılacaqdır. Alla-

hın köməyilə biz həmişə sizinlə dost olacağıq. Sizə nə xidmət lazımdırsa, əmr edin» (6, 686).

Osmanlı dövlətinin İrəvanda fəallaşması II İraklinin və onun havadarı olan Rusiyanın narahatlığına səbəb olmuşdu. İrəvanda baş verən hadisələri diqqətlə izləyən rus komandanlığı sultanın fərmanından və Ahalsıq paşasının fəaliyyətindən vaxtında xəbər tuta bilmişdi. İrəvan sarayında II İraklinin tərəfdarları az deyildi. Yeni xanın gürcü olan anası Tiflis sarayı ilə əlaqə saxlayaraq, İrəvanda olan hadisələri gizli surətdə oraya çatdırırdı. O, Mirzə Gürgeni gizlincə yanına çağırıraq sultanın fərmanını göstərmiş, Mirzə Gürgen isə fərmanı köçürərək Tiflisə göndərmişdi (6, 967-968).

Digər tərəfdən Mizə Gürgen İrəvanda baş verən hadisələr haqqında da çarı vaxtında məlumatlandırırdı. O, məktubunda II İrakliyə İrəvanda Osmanlı təsirinin gündən-günə artdığını xəbər vermişdi. Hətta Mirzə Gürgen II İrakliyə yalan və şişirdilmiş məlumat göndərməklə onu İrəvana hücuma təhrik edirdi. O, 1784-cü il iyulun 14-də Kartli-Kaxetiya çarına göndərdiyi məktubda həyəcanla yazırdı ki, guya «sultan qoşunla bura gəlib və Əhməd xanın adamını özü ilə gətirib ki, qalanı tutsun….Əgər dörd gün ərzində Həmzəçimənə gəlməsəniz, qala əlimizdən çıxacaq. Əgər bu iş sizə çətindirsə, oğlanlarınızdan birini göndərin; lakin yaxşı olar ki, özünüz gələsiniz, onlar bunu eşidib dağılışarlar» (3, 17; 250, 201-202). Bunu eşidən II İrakli oğlu Yulionun başçılığı ilə topla təchiz olunmuş 1500 nəfərlik qoşunu İrəvana göndərmək qərarına gəlmişdı. Lakin nəzərdə tutulan bu yürüş həyata keçmədi (3, 16). Çünki anası başda olmaqla sarayda olan II İrakli tərəfdarları Məhəmməd xanın adından 1784-cü ilin avqustunda Ahalsıx hakimi Süleyman paşaya yazdığı məktubda II İrakliyə xidmət edəcəklərini bildirmişdilər (247, 206).

Bunun ardınca İrəvan hakimi sultanın göndərdiyi hədiyyələri qəbul etməmişdi. Odur ki, sultan 1784-cü ilin payızında İbrahim əfəndinin başçılığı altında 60 nəfərdən ibarət yeni nümayəndə heyətini Cənubi Qafqaza göndərdi (247, 206; 35, 75-76; 148, 115-

116; 55, 187-188). İbrahim Əfəndi Cənubi Qafqaza gələrkən sultan fərmanı ilə yanaşı Azərbaycan xanlarına və Dağıstan hakimlərinə çoxlu pul və hədiyyələr gətirmişdi. Lakin İrəvan xanı bu hədiyyələri qəbul etməmişdi (6, 717).

Anası başda olmaqla Məhəmməd xanın azyaşlı olmasından istifadə edən bir qrup şəxsin Tiflis sarayı ilə sıx əlaqə saxlaması sultan tərəfdarlarının xoşuna gəlmirdi. Nəticədə, Ahalsıx hakimi Süleyman paşanın təhriki ilə Məhəmməd xana qarşı sui-qəsd hazırlanmışdı. S.D.Burnaşov 1785-ci ilin martın 17-də P.S.Potyomkinə yazdığı məlumatda göstərirdi ki, görkəmli İrəvan əyanlarından Usmi bəy və onun oğlu osmanlıların təhriki ilə xanı öldürmək qərarına gəlmişdilər. Lakin bu sui-qəsdin üstü vaxtında açılmışdı. Usmi bəy qaça bilsə də, Qars sərhəddində həbs edilərək oğlu ilə həbsxanaya salınmışdı (6, 730).

Tezliklə, İrəvan xanlığı Xoy xanlığının təsirinə düşdü. Qeyd etmək lazımdır ki, XVIII yüzilliyin 80-ci illərin əvvəllərində Əhməd xan xoylu (1763-1786) Urmiya, Təbriz, Qaradağ, Naxçıvan və İrəvan xanlıqlarını özünə tabe etmək üçün mübarizə aparırdı (27, 128-131; 55, 48-50). Əhməd xan zirək siyasətilə, xüsusilə sultan tərəfindən Azərbaycan sipəhsaları adlandırıldıqdan sonra, böyük hörmət, şöhrət və nüfuz qazana bilmişdi. O, çar İraklinin gizli düşməni idi (105, 25). Rus komandanlığı onun nüfuz sahibi olduğunu görərək Əhməd xanı öz tərəfinə çəkmək istəyirdi. Georgiyevsk müqaviləsindən sonra knyaz Apraksin vasitəsilə ona fərman və hədiyyələr göndərilmişdi. Əhməd xan rus–gürcü qüvvələrindən ehtiyat edərək əvvəl bu fərmana müsbət cavab vermişdi. Hətta 1784-cü ilin iyulunda knyaz Q.Potyomkin buna cavab olaraq xandan xahişnamə göndərməsini rica etmişdi. «Lakin Osmanlı dövlətinin bölgədə fəallaşması (İbrahim Əfəndinin başçılığı ilə nümayəndə heyəti – E. Q.), Azərbaycan xanlarını rus-gürcü qüvvələrinə qarşı birləşmək çağırışı bu planı pozdu. Sultan Əhməd xana sərəsgər rütbəsi verib, Azərbaycana rəhbərlik etməyi xahiş etmişdi. Osmanlı dövlətinin köməyinə arxalanan Əhməd xan Rusiya ilə danışıqları kəsmişir» (181, 40).

Həqiqətən, sultan güclü Xoy xanına böyük ümid bəsləyirdi. Sultan fərmanlarında Azərbaycan xanlarından rus-gürcü qüvvələrinin İrəvan qalasına yürüşünün qarşısını almaq üçün Əhməd xan Dünbülünün başçılığı ilə birgə mübarizəyə girişməyi tapşırmışdı (48, 72). Sultan Əbdülhəmid İrəvan xanına göndərdiyi məktubda yazırdı ki, «..yaşca böyük olan və ləyaqətli Xoy xanına sipəhsalar rütbəsi verib, bütün xanlara fərman verərək bildirmişik ki, bizim paşa və vəzirlərə İraklinin hərəkətləri barədə xəbər versinlər (35, 71).

Xoylu Əhməd xan Məhəmməd xanın hakimiyyətinin ilk günlərindən xanlığın daxili işlərinə müdaxilə etməyə başlamışdı. Əgər o, əvvəllər II İrakli və onun havadarı olan Rusiyadan ehtiyat edərək İrəvanın daxili işlərinə açıq-açığına qarışmaqdan çəkinirdisə, artıq bu işdə özünə arxa tapmışdı. Xoylu Əhməd xan bacarıqlı sərkərdə olmaqla bərabər, güclü qoşuna malik idi. Digər tərəfdən, o, Ahalsıx hakimi Süleyman paşa ilə qohum idi və paşa lazım olduqda hərbi cəhətdən ona kömək edirdi (107, c.2, səh.178). Bundan əlavə, Əhməd xan Qarabağ, Qaradağ və Naxçıvan xanları ilə müttəfiq idi (182, 175). O, həm də taxt-tac uğrunda mübarizə aparan Ağa Məhəmməd xan Qacarla dostluq edirdi (247, 208). Ən başlıcası isə Xoy hakimi Osmanlı dövlətinə arxalanırdı.

Başı qonşu xanlıqları özünə tabe etməyə qarışan Əhməd xan İrəvanda möhkəmlənmək arzusunu yalnız 1785-ci ildə reallaşdıra bildi. O, ilk növbədə «nikah diplomatiyası»ndan istifadə etməyi qərara aldı. Əhməd xanın mərhum Qulaməli xanla qohum olmaq cəhdi baş tutmasa da, Məhəmməd xanla bu niyyətini həyata keçirə bilmişdi. 1785-ci ilin yayında Əhməd xan özünün 30 yaşlı qızını 13 yaşlı Məhəmməd xana ərə verdi (3, 243; 107, c.2, səh, 177). Bu qohumluğu daha da möhkəmləndirmək üçün Əhməd xan Məhəmməd xanın bacısı ilə evləndi (27, 130).

Məhəmməd xanın azyaşlı olmasından istifadə edən Əhməd xan qızı vasitəsilə İrəvanda hakimiyyəti idarə etməyə başladı. Xoy hakimi İrəvanda mövqeyini daha da möhkəmləndirmək üçün gizli nümayəndəsini, hərəmağası Ağahüseyni də oraya göndərdi. Tezlik-

lə, hərəmağası İrəvan sarayında böyük nüfuz sahibi oldu. Hətta o, Məhəmməd xanın etimadını qazanaraq vəzir təyin edildi (3, 233-234; 6, 885).

Əhməd xanın adamının İrəvanda yüksək vəzifə tutması II İraklini narahat etməyə başladı. O, hiyləyə əl ataraq Ağahüseyni müxtəlif bəhanələrlə Tiflisə dəvət etdi (6, 885). Lakin onun bu niyyəti baş tutmadı. Vəzirliyi ələ keçirməklə böyük səlahiyyət qazanan Ağahüseyn Xoy hakiminin mənafeyinə uyğun siyasət yeritməyə başladı. Nəticədə, Əhməd xanın sağlığında qısa müddətə olsa da, İrəvan xanlığı ondan asılı vəziyyətə düşmüşdu. Tabeçilik rəmzi olaraq İrəvandan Xoya nəzərdə tutulan miqdarda peşkəş və hədiyyələr göndərilirdi (27, 130-131).

Rusiyanın Kartli-Kaxetiya sarayındakı nümayəndəsi S.D.Burnaşovun 1785-ci il avqustun 9-da mərkəzə göndərdiyi məlumatında yazılırdı ki, «İrəvan İraklidən daha çox 30 yaşlı qızını 13 yaşlı İrəvan xanına ərə verən Əhməd xanın hakimiyyəti altındadır. O, (Əhməd xanın qızı – E. Q.) hərəmağası Ağahüseynlə birlikdə İrəvan qalasına sahib olaraq bütün xanlığı idarə edir. Onlar Əhməd xanın təhriki ilə II İrakliyə bir daha vergi ödəmirlər» (3, 243). Bu vəziyyət Osmanlı sultanını da qane edirdi.

Ancaq vəzirin siyasəti yerli əyanları qane etmirdi. Belə ki, Ağahüseynin vəzir təyin edilərək hakimiyyəti ələ alması yerli əyanların narazılığına səbəb olmuşdu. Onun fəaliyyəti ilk əvvəl kürd tayfa başçılarından olan Şəmdin ağanın xoşuna gəlməmişdi. O, qoşun toplayaraq hakimiyyətə qarşı döyüşə hazırlaşsa da, ağsaqqalların işə qarışması baş verə biləcək qırğının qarşısını bir müddət ala bilmişdi (161, 123-124).

Lakin İrəvanda vəziyyət gərgin olaraq qalırdı. Tərəflər arasında baş qaldırmış mübarizə səngimək bilmirdi. Tez-tez suiqəsdlər və müxtəlif ixtişaşlar baş verirdi (6, 904). Tezliklə, Ağahüseynə qarşı yeni müxalif qüvvələr əmələ gəldi. Belə ki, vəzir Ağahüseyn nüfuzundan istifadə edərək bəzi əyanları vəzifələrindən kənarlaşdırmışdı. Vəzifədən qovulan Eyvaz bəy və Qasım bəy İrəvanı tərk edib, 2000 nəfərlik silahlı qüvvə toplayaraq vəzirə qarşı

qiyam qaldırdılar. Onlar Məhəmməd xandan Ağahüseyni tərəfdarları ilə birlikdə hakimiyyətdən uzaqlaşdırılmasını tələb edirdi. Bu tələb yerinə yetirilməyənə qədər qiyamçılar xana məxsus kəndlərə hücum edərək, əhalini talan etməyə başladı. Onların tələbinə baxmayaraq, vəzir Ağahüseyn təslim olmaq fikrində deyildi. O, qoşun toplayaraq müxalif qüvvələrə qarşı çıxdı. Tərəflər arasında bir neçə gün davam etmiş döyüş baş verdi (161, 124).

İrəvandakı qarışıqlığı öz xeyrinə həll etmək məqsədilə II İrakli hadisələrə müdaxilə etməyi qərara aldı. Yeni xanımın (Əhməd xanın qızı – E. Q.) sevimli hərəmağası Ağahüseyndən narazı qüvvələrdən istifadə etməyə çalışan II İrakli ona sadiq olanlarla gizli əlaqə saxlayaraq, vəziri hər hansı vasitə ilə hakimiyyətdən uzaqlaşdırmağı və qalanın Xoy hakiminin əlinə keçməsinə imkan verməməyi tapşırmışdı (3, 234). Lakin o, Xoy xanından ehtiyat edərək hadisələrə açıq-açığına müdaxilə edə bilmirdi.

Xoy hakiminin şəxsində İrəvanı özündən asılı vəziyyətə salan Osmanlı sultanı tərəfdarlarına şimaldan ola biləcək hər hansı hücumun qarşısını almaq üçün İrəvan qalasını hərbi cəhətdən möhkəmləndirməyə çalışırdı. Əhməd xan bu haqda İrəvana xüsusi fərman da göndərmişdi. Onun göstərişinə əsasən, İrəvan qalasının möhkəmləndirməsi, qala divarlarının təmiri, lazımi bina və qəsrlərin tikdirilməsi, qalanın müdafiəsinə lazım olan zəruri şeylərin əldə edilməsi ilə məşğul olmağa başlanılmışdı. Qalada müxtəlif toplar və digər hərbi sursatlar quraşdırılmışdı. Ərzaq anbarları 12 illik taxıl və digər azuqə ilə doldurulmuşdu. Qalanın bürcləri, divarları və keçidlərinin mühafizəsi, darvazaların müdafiəsi inanılmış, məharətli adamlara tapşırılmışdı. Qalaya əlavə hərbi dəstələr yerləşdirilmişdi (48, 69-70).

Xoylu Əhməd xanın planları daha əhatəli və geniş idi. Bəhs olunan dövrdə o, ayrı-ayrı Azərbaycan xanlarını özündən asılı vəziyyətə salmaqla bərabər, rus-gürcü qüvvələrinə qarşı dura biləcək yeganə qüvvə olaraq qalırdı. Lakin Əhməd xanın planları yarımçıq qaldı. Belə ki, Xoy xanı və onun oğlu 1786-cı ilin fevralında

doğma qardaşı Şahbaz xanın oğlanları tərəfindən sui-qəsd nəticəsində öldürüldü (247, 208; 27, 133).

Xoy xanlığında baş verən qarışıqlıqdan istifadə edən yerli müxalif qüvvələr daha da fəallaşdı. Əhməd xan Dünbülü öldürüldükdən sonra vəzir Ağahüseyn İrəvanda hakimiyyəti ələ keçirmək üçün Məhəmməd xanı öldürməyi qərara aldı. O, qarabağlı İbrahimxəlil xanla gizli əlaqəyə girərək, onun yardımı ilə İrəvan qalasını tutmaq niyyətində idi. Qarabağ qoşunları Şərur çayı sahilində dayanaraq vəzirin işarəsini gözləyirdi. Bu sui-qəsdə makulu Əli soltan da qoşulmuşdu. Lakin vəzirin xana qarşı olan bu sui-qəsdinin üstü açıldı. Nəticədə Ağahüseyn və onun yaxın tərəfdarları ələ keçirilərək edam olundular (3, 19-20).

Əslində vəzirin və tərəfdarlarının edamında bilavasitə II İraklinin əli olmuşdu. O, İrəvanda baş verən hadisələrdən istifadə edərək, tərəfləri barışdırmaq bəhanəsi ilə öz adamlarını İrəvana göndərmişdi. İrəvana gələn II İraklinin adamları qiyamçıların başçıları ilə əlaqə yaradaraq, guya danışıqlar aparmaq məqsədilə onları İrəvan qalasına dəvət etdilər. Qalada Kartli-Kaxetiya çarının göndərdiyi şəxslərin yardımı ilə vəzir Ağahüseynə qarşı sui-qəsd planı hazırlanırdı. Nəticədə, Ağahüseyn gecə keşikçilərinin əli ilə öldürüldü (161, 124). Bu hadisə 1786-cı ilin iyununda baş vermişdi (3, 20). Beləliklə, Məhəmməd xan bu təhlükədən xilas olsa da, İrəvan xanlığı yenidən II İrakliyə bac verməyə məcbur oldu.

Hadisələrin gərgin olduğu bir vaxtda İrəvan xanlığı dağıstanlılar tərəfindən hücum təhlükəsinə məruz qaldı. Yuxarıda qeyd edildiyi kimi, Osmanlı emissarları İrəvanı rus-gürcü birliyinin təcavüzündən qorumaq üçün Azərbaycan xanlarını və Dağıstan hakimlərini Kartli-Kaxetiyaya yürüşə sövq etmək istəyirdi. Onların səyi nəticəsində bəzi Dağıstan hakimləri, qarabağlı İbrahimxəlil xan və digər Azərbaycan xanları bu təhlükəyə qarşı birləşmişdilər. Plana görə, Avar hakimi Ümmə xanın başçılığı ilə Dağıstan hakimləri bir tərəfdən, İbrahimxəlil xan isə bəzi Azərbaycan xanları ilə başqa tərəfdən Kartli-Kaxetiyaya hücum etməli idilər. Hətta onlar İrəvan əhalisini öz ərazilərinə köçürmək niyyətində idi (12, 19-20). Kartli-

Kaxetiyaya yürüşün digər səbəbi İbrahixəlil xanla II İrakli arasında münasibətlərin pozulması idi. II İraklinin ruspərəst siyasəti, Gəncə və Naxçıvan xanlıqları üstündə onlar arasında baş verən münaqişələr tədricən düşmənçiliyə çevrilmişdi (82, 92-93; 54, 194-195). İbrahimxəlil xanın bu xanlıqlarda möhkəmlənmək cəhdi həm rus komandanlığının, həm də II İraklinin planlarına zidd idi. Lakin Qarabağ hakiminin Ümmə xanla qohumluğu II İraklinin açıq-açığına ona qarşı çıxmasına mane olurdu. Mirzə Camal Cavanşir yazır ki, «Gürcüstan valisinin…qədim ocaq, geniş torpaq və böyük dövlət sahibi olmasına baxmayaraq, o, İbrahimxəlil xanın məsləhətindən kənara çıxmırdı. Çünki Avar və Dağıstan hakimi mərhum Ümmə xan və o yerlərin başqa hakimləri İbrahimxəlil xana yaxın və qohum olduqları üçün ona itaət edirdilər. Gürcüstan valisi ilə mərhum İbrahimxəlil xanın arası pozulduğu zaman Ümmə xan və Dağıstan xanları İbrahimxəlil xanın göstərişi üzrə böyük qoşunla Gürcüstana gedib, çoxlu ziyanlar verirdilər» (43, 125).

Beləliklə, 1785-cı ilin sentyabrında Osmanlı sultanının təhriki ilə Avar hakimi Ümmə xan 11.000 nəfərlik qoşunla Kartli-Kaxetiyaya hücum etdi (178, 139). Sığnaq qalasını və Gümüşxananı zəbt edən Dağıstan qoşunları bir çox ətraf kəndləri qarət edə-edə əsirlərlə Ahalsıxa, Süleyman paşanın yanına gedərək, qışı orada qaldı. Onlar Osmanlı sultanından çoxlu xələt və ənam aldılar (43, 125).

Dağıstanlıların Kartli-Kaxetiyaya hücumu İrəvan xanlığına da öz təsirini göstərmişdi. Bu xəbəri eşidən yerli əhalinin bir hissəsi İrəvan qalasına sığınmış, sərhəd kəndlərinin əhalisi xanlığın içərilərinə köçmüş, digər hissəsi isə əlçatmaz yerlərdə sığınacaq tapmışdı. Məsələn, bu xəbəri eşidən pəmbəklilərin bir hissəsi İrəvanın içərilərinə, digər hissəsi isə Qars paşalığına köç etməyə başladı. Bu da Ahalsıx hakimi ilə İrəvan xanı arasında düşmənçiliyə səbəb oldu. Ahalsıx hakimi Süleyman paşa Dağıstan qoşununa arxalanaraq, Məhəmməd xana təzyiq göstərməyə başladı. O, İrəvan hakimini hədələyərək pəmbəklilərə məxsus əmlakın ona verilməsini tələb etdi. Lakin Məhəmməd xan onun tələbini nəinki yerinə

yetirmədi, hətta bütün qaçqınları əmlakları ilə birlikdə öz himayəsinə aldı (43, 145).

Tələbinin yerinə yetirilmədiyini görən Süleyman paşa İrəvan xanından 7.000 tümən, Üçmüəzzin kilsəsindən isə 4.000 tümən tələb etdi. Əks təqdirdə xanlığı qarət edəcəyi ilə hədələdi (35, 76). O, vergini almaq üçün Ümmə xanın tərəfinə keçmiş borçalılı Musa xanı İrəvana göndərdi. Lakin Musa xan Talın mahalına çatanda, qəflətən xəstələnərək vəfat etdi (161, 121).

Müqavimət göstərməyin İrəvan xanlığı üçün ağır nəticə verəcəyini anlayan Məhəmməd xan Ümmə xan və Süleyman paşa ilə əlaqə yaratmağı qərara aldı. P.S.Potyomkin 1786-cı il yanvarın 5-də yazdığı məlumatda bildirirdi ki, Dağıstan qoşunlarının yürüşünün xanlıq üçün ağır nəticə verəcəyini başa düşən Məhəmməd xan Ümmə xan və Süleyman paşa ilə əlaqə yaradaraq yaxın adamını məktub və qiymətli hədiyyələrlə Ahalsıxa göndərdi. Hətta qoşun başçılarına da hədiyyələr göndərilmişdi. Məktubda Məhəmməd xan Ümmə xandan xanlığa zərər yetirməməsini xahiş edir (161, 121).

İrəvan hakiminin bu tədbirləri müəyyən qədər müvəffəqiyyət qazandı və xanlığı güclü dağıntıdan xilas etdi. Belə ki, qışı Ahalsıxda istirahət edən Ümmə xan 1786-cı il aprelin 25-də 7.000 nəfərlik qoşunla Arpa çayını keçərək İrəvan xanlığına daxil oldu (6, 869). Onun qoşunundan 500 nəfər ayrılaraq sakinləri mağaralarda gizlənmiş Əştərək (Qəmərli – E. Q.) kəndinə gəlir. Dağıstan qoşunu kənddə qalmış 12 nəfəri ələ keçirərək onlardan birini öldürür, digərlərini isə əsir aparırlar. Onlar İrəvan şəhərinə yaxınlaşmadan qarşılarına çıxan kəndləri qarət edirdilər. Xoşbəxtlikdən Ümmə xanın qoşunu İrəvan ərazisində çox ləngimədi. Dağıstan qoşunu Abarandan keçib, Göyçə gölünün sahilini dolanmaqla Gəncə istiqamətində hərəkət edib, oradan Şuşaya gəlib çatdı (86, 31; 103, 169-170; 161, 127).

Dağıstan qoşunlarının genişmiqyaslı yürüşündən nisbətən asanlıqla qurtaran İrəvan tezliklə yeni təhlükə ilə üzləşdi. Bu dəfə Qarabağ qoşunları xanlığın ərazisinə hücum etdi. Hüseynəli xanın

(1759-1783) dövründə İrəvanla Qarabağ xanlığı arasında yaranmış dostluq münasibətləri yenidən pozuldu. Buna səbəb həmin vaxt İbrahimxəlil xanla II İrakli arasında münasibətlərin düşmənçiliyə çevrilməsi olmuşdu. İbrahimxəlil xanın qohumu olan Ümmə xanın başçılığı ilə dağıstanlıların Kartli-Kaxetiyaya hücumu onlar arasında olan vəziyyəti daha da kəskinləşdirmişdi. Bu münasibətlər istər-istəməz İrəvana da öz təsirini göstərdi. Belə ki, Xoy hakiminin qısamüddətli asılılığından çıxan Məhəmməd xan ana qohumlarının vasitəsilə II İraklinin təsirinə düşmüşdü. Bu da İbrahimxəlil xanın siyasətinə uyğun deyildi.

1786-cı ilin oktyabrında İbrahimxəlil xan İrəvana 3 min nəfərlik qoşun göndərərək, yerli əhalini Qarabağa köçürməyə cəhd etmişdi. Hücumdan xəbər tutan sərhəd kəndlərinin əhalisi əlçatmaz yerlərə çəkilərək onlara müqavimət göstərmişdi. Bu xəbəri eşidən Məhəmməd xan Qarabağ qoşununa qarşı silahlı qüvvə göndərdi. İrəvanlıların müqavimətini görən qarabağlılar geri çəkilməyə məcbur oldular (3, 242).

Bu müdaxilələrdən xilas olan İrəvan xanlığı tezliklə Naxçıvanda baş verən hadisələrə müdaxilə etməyə başladı. Belə ki, XVIII yüzilliyin 80-ci illərin əvvəllərindən Naxçıvan taxtı uğrunda Abbasqulu xanla Cəfərqulu xan arasında başlayan mübarizə davam edirdi. Hakimiyyətə qısa fasilələrlə gah Abbasqulu xan, gah da Cəfərqulu xan gəlirdi. Abbasqulu xan hakimiyyəti geri qaytarmaq üçün dəfələrlə həm İbrahimxəlil xana, həm də II İrakliyə, Cəfərqulu xan isə xoylu Əhməd xana müraciət etmişdilər. 1787-ci ilin əvvəllərində Cəfərqulu xan yenidən hakimiyyəti ələ keçirdikdən sonra Abbasqulu xan İbrahimxəlil xana bir daha müraciət etdi. Nəticədə, 1787-ci ilin may ayının əvvəllərində Qarabağ qoşunu Naxçıvanı ələ keçirərək, Abbasqulu xanı yenidən hakimiyyətə gətirdi (34, 56-60).

Qarabağ hakiminin bu addımı rus komandanlığının və onun əlaltısı olan II İraklinin xoşuna gəlmədi. II İrakli İbrahimxəlil xanın Naxçıvanda möhkəmlənməsinə yol verməк istəmirdi. Əvvəllər Abbasqulu xanın hakimiyyətini dəstəkləyən Kartli-Kaxetiya çarı bu

dəfə Cəfərqulu xanı hakimiyyətə gətirmək üçün 1000 nəfərlik qoşunu knyaz Baqrationun başçılığı ilə İrəvana göndərdi. Bu qoşunun əksəriyyəti Borçalı və Şəmşəddildən toplanmış azərbaycanlı türklərdən təşkil olunmuşdu. Bu dəstəyə irəvanlılar da qoşuldular. İrəvan xanlığı ilə Qarabağ xanlığı arasında düşmən münasibətləri yarandığından, Məhəmməd xan İbrahimxəlil xanın Naxçıvanda möhkəmlənməsini öz hakimiyyəti üçün təhlükə hesab edirdi. Buna görə də o, məmuniyyətlə bu yürüşə qoşuldu. Müəyyən hazırlıqdan sonra knyaz Baqration İrəvan qoşunu ilə birlikdə Naxçıvana doğru hərəkət etdi (161, 132).

Lakin Naxçıvan taxtında öz namizədini görmək istəyən hər iki tərəf gecikmişdi. Yürüşdən bir qədər əvvəl Cəfərqulu xanın qardaşı Kəlbəli xan (1787-1820) Abbasqulu xanı hakimiyyətdən devirərək, Naxçıvanda taxt-taca sahib olmuşdu (34, 60). Hakimiyyətə gələn Kəlbəli xan hər hansı hücumun qarşısını almaq üçün Naxçıvan qalasını daha da möhkəmləndirmişdi.

1787-ci il mayın 19-da Naxçıvana çatan knyaz Baqration həmin gün Naxçıvan qalasını mühasirəyə aldı. Qalaya sığınmış naxçıvanlılar Kəlbəli xanın rəhbərliyi ilə müttəfiq qoşununa güclü müqavimət göstərdilər. Mayın 20-də knyaz Baqration II İrakliyə göndərdiyi məktubda yazırdı ki, «Cəfərqulu xan Naxçıvanı asanlıqla alacağını söyləsə də, mən güclü müqavimətə rast gəldim, qalanı 2000 nəfər qoruyur» (34, 61). Nəticədə birləşmiş İrəvan və gürcü qoşunları Naxçıvan qalasını tuta bilmədi.

İbrahimxəlil xan da Abbasqulu xana yardımçı silahlı qüvvə göndərdi. Lakin cəmi 200 nəfərdən ibarət olan bu dəstə Sisyan ətrafında II İraklinin qoşununun tərkibində olan Şəmşəddil və Borçalıdan olan dəstələr tərəfindən məğlub edildi, 8 nəfər isə əsir götürüldü (161, 133; 35, 61). II İraklinin qoşunu irəvanlılarla birlikdə azsaylı Qarabağ dəstəsini məğlub etsə də, Naxçıvan qalasını ala bilmədi. Knyaz Baqrationun II İraklidən əlavə kömək istəyi də nəticəsiz qaldı. Güclü müqavimətə rast gələn müttəfiq qoşunları ətraf kəndləri qarət edərək onların sakinlərini, İbrahimxəlil xana məxsus 40 ailəni əsir götürüb, çoxlu mal-qara ələ keçirərək geri

döndülər (161, 135; 35, 61). Bu yürüşdə istər İbrahimxəlil xan, istərsə də II İrakli istəklərinə çata bilmədilər.

1787-ci ildə yeni Rusiya-Osmanlı müharibəsinin (1787-1791) başlaması ilə Cənubi Qafqazda siyasi vəziyyət daha da gərginləşdi (290, 363-387). Osmanlı sultanı öz nümayəndələrini bölgəyə göndərərək, rus-gürcü təhlükəsinə qarşı mübarizə aparmaq üçün bir-birinə düşmən olan Azərbaycan xanlarını barışdırmağa səy göstərdi. O, Qarabağ, Xoy, Təbriz və İrəvan xanlarına pul göndərərək onlara bir-birləri ilə mehriban olmağı məsləhət gördü. Bundan əlavə, Ərzurum, Ahalsıx, Bəyazid, Van, Diyarbəkr və Qars paşalarına Kartli-Kaxetiyaya qarşı birlikdə hərəkət etmələri əmr olunmuşdu (6, 771).

Müharibənin gedişində rus komandanlığından hərbi yardım alacağını düşünən II İrakli İrəvanı da ələ keçirmək fikrinə düşmüşdü. Onun bu niyyətindən xəbər tutan Məhəmməd xan Osmanlı dövləti ilə əlaqəyə girərək, yaxın adamı Zeynalabdin bəyi məktubla İstanbula göndərdi. O, məktubda II İraklinin məkrli planlarından söhbət açaraq, sultandan bu təhlükəyə qarşı hərbi kömək göstərməsini xahiş etmişdi (72, 122-125). Osmanlı sultanı xanın bu istəyinə 5 dekabr 1787-ci il fərmanı ilə müsbət cavab vermiş, elçi Zeynalabdin və onunla gələn adamlara 290 quruş xərclik də verilmişdi (57, 83).

Lakin çətin məqamda belə, Azərbaycan xanlıqları nəinki bir-biri ilə, hətta Osmanlı paşalıqları ilə də müharibə aparırdı. 1787-ci ilin yayında İrəvan xanlığı ilə Bəyazid paşalığı arasında baş verən müharibə belə hadisələrdən idi. Qeyd etmək lazımdır ki, İrəvan hakimləri Osmanlı sərhəd paşaları ilə daimi dostluq münasibəti yaratmağa çalışırdılar. Lakin bu münasibətlər heç də həmişə yaxşı olmamışdı. Belə ki, Hüseynəli xanın hakimiyyəti (1759-1783) dövründə Məkkə ziyarətindən qayıdan İrəvan hacıları Ərzurumda həbs edilmiş və əmlakları qarət olunmuşdular. Ərzurum hakimi hacıların hər birindən 200 tümən aldıqdan, onların atını, arabasını, paltarlarını və s. şeylərini müsadirə etdikdən sonra azadlığa buraxmışdı. Bu hadisə İrəvanla Ərzurum arasında olan münasibətləri

xeyli gərginləşdirmişdi. Hüseynəli xan Osmanlı sultanına məktub göndərərək Ərzurum hakimi Hacı Əli paşaya təsir göstərməsini, hacıların əmlaklarının geri qaytarılmasını xahiş etmişdi (48, 121-122).

Bundan əlavə, Bəyazid hakimi İshaq paşa tez-tez İrəvan xanlığına müdaxilə edərək sərhəddə yerləşən kəndlərin əhalisini öz paşalığına köçürür və İrəvan hakimlərinə düşmən olan müxalif qüvvələrə yardım edərək onları üsyana təhrik edirdı (48, 122-124). Lakin Hüseynəli xan bu hərəkətlərin qarşısını vaxtında alırdı. O, da cavab olaraq öz növbəsində Bəyazid paşalığına hücumlar təşkil edirdi (72, 90-91).

Bölgədə baş verən siyasi vəziyyətlə əlaqədar olaraq Osmanlı sultanının səyi nəticəsində İrəvan xanlığı ilə paşalıqların münasibətləri mehriban qonşuluğa çevrilmişdi. Lakin bu münasibətlər müvəqqəti idi. Bəyazid paşalığı ilə İrəvan xanlığı arasında baş verən münaqisə buna bariz nümunədir. Əslində müharibənin başlanmasının əsas təqsirkarı Bəyazid hakimi İshaq paşa olmuşdu. O, İrəvanın daxili işlərinə qarışaraq Məhəmməd xana qarşı çıxan qiyamçı qüvvələri dəstəkləyir və lazım gəldikdə onlara öz ərazisində sığınacaq verirdi (48, 128-131). Tezliklə, birbaşa hərbi əməliyyatların başlamasına bəhanə də tapıldı. İbrahimxəlil xanla İrəvan xanı arasında ədavəti aradan qaldırıb aralarını düzəltmək üçün Bəyazid sancağının mütəssərrüfü İshaq paşa İrəvanlı Məhəmməd xana məktub yazmışdı. Xanın mütəssərifə cavab məktubunda deyilirdi ki, "o, Tiflis xanı ilə dostdur və onunla razılıq olmadan İbrahimxəlil xanla yaxınlaşa bilməz» (55, 211). Xanın bu cavabı müharibənin başlanmasına bəhanə oldu. Tərəflər arasında hərbi münaqişə fasilələrlə iki ilə qədər davam etmişdi. 1787-ci ildə Bəyazid qoşunu bir neçə dəfə İrəvan ərazisinə hücum edərək, onun sərhəd kəndlərini qarət etmişdi. Lakin İrəvan hakimi əvvəllər buna göz yummuş və yalnız 1789-cu ilin yayında qəti tədbirlər görməyə başlamışdı. Hərəkətinin cəzasız qaldığını görən İshaq paşa İrəvana qarşı düşmən fəaliyyətini daha da genişləndirdi. O, xana müxalif olan qüvvələri öz paşalığında sığınacaq verməklə bərabər, 1789-cu ilin

yayında İrəvana hücum etmək məqsədilə 5-6 min nəfərlik silahlı qüvvə toplamışdı. Həmin xəbəri eşidən Məhəmməd xan sərhəddi möhkəmləndirmək və bu hücumun qarşısını almaq üçün oraya 500 nəfərlik dəstə göndərdi. Sərhəddə yerləşən bu dəstə yerli əhalinin köməyi ilə burada müəyyən qədər nizam-intizam yaratmağa nail oldu. Lakin İshaq paşa güclü qoşunla qəflətən sərhəddi qoruyan bu dəstəyə hücum edərək, onlardan üç yüz nəfərini öldürdü. Bunun ardınca onun qoşunu İrəvan kəndlərinin əkin sahələrinə od vurmuş, əhalinin əmlakını qarət etmişdi (48, 129-130).

Bu xəbər İrəvan qalasına çatdıqda Məhəmməd xan güclü qoşun toplayaraq İshaq paşaya qarşı çıxdı. İrəvan qoşununun hücumuna tab gətirə bilməyən bəyazidlilər geriyə Bəyazid qalasına çəkildilər. İshaq paşanın özü güclə döyüş meydanından qaçıb canını qurtara bilmişdi (48, 130). Döyüşdə qalib gələn İrəvan qoşunu 1789-cu il avqustun 12-də Bəyazidə hücum etdi. Lakin çox tezliklə İrəvan qoşunu əsl məqsəddən yayınaraq ətraf kəndləri qarət etməyə başladı. Bunu görən İshaq paşa qəflətən öz qoşunu ilə onlara arxadan hücum etdi. Tərəflər arasında baş verən qısamüddətli döyüş irəvanlıların tam məğlubiyyəti ilə başa çatdı. Onlardan çoxu geri çəkilərkən Araz çayında boğulmuş, qalanları isə döyüş meydanından qaçaraq xilas olmuşdular. Məğlubiyyətə baxmayaraq, Məhəmməd xan yenidən silahlı qüvvə toplamışdı. Hətta ona Naxçıvandan kömək də gəlmişdi. Silahlı qüvvələrin toplanmasını başa çatdıran İrəvan hakimi Araz çayının sağ sahilində mövqe tutmuş Bəyazid qoşununa qarşı hərəkət etdi. İrəvan qoşunu ilə bacara bilməyəcəklərini görən bəyazidlilər yenidən Bəyazid qalasına sığınaraq müqavimət göstərməyə başlayırlar. Lakin irəvanlılar qalanı mühasirəyə alsalar da, onu tuta bilmədilər. Bəyazidlilərin müqavimətini görən İrəvan qoşunu bir neçə kəndi talan etdikdən sonra çoxlu qənimətlə geri qayıtmışdır (161, 137).

Müharibənin uzanmasının xanlıq üçün pis nəticə verəcəyini başa düşən Məhəmməd xan sultana şikayət məktubu yazaraq, ondan İshaq paşanın düşmən hərəkətlərinin qarşısını almağı xahiş etdi. Bu dövrdə Rusiya ilə müharibə edən Osmanlı dövləti Azərbaycan

xanlarını özündən incik salmaq istəmirdi. Belə bir mürəkkəb vəziyyətdə İshaq paşanın İrəvana qarşı düşmən hərəkəti burada möhkəmlənmək istəyən Osmanlı sarayının siyasətinə uyğun gəlmirdi. İrəvan hakimindən məktub alan sultan təcili tədbir görmək qərarına gəldi. Münaqişə edən hər iki tərəfə fərman göndərildi. Fərmanda «keçmişlərin unudulması, narazılıqların aradan qaldırılması barədə əvvəlki hadisələri unudub səmimi qonşuluq münasibətlərinin bərpa edilməsi, dostluq, mehribançılıq göstərilməsi əmr olunmuşdu» (48, 132-133). Sultanın fərmanından sonra hər iki tərəf döyüşləri dayandırmışdı. 1789-cu ilin payızında Ərzurum hakimi Abdulla paşanın vasitəçiliyi ilə Məhəmməd xanla İshaq paşa razılığa gələrək barışmış və tərəflər arasında sülh müqaviləsi bağlanmışdı (48, 132-133).

İrəvan hakimi Bəyazid paşası ilə sülh müqaviləsi bağladıqdan sonra Xoy xanlığı ilə müharibəyə başlayır. Buna səbəb Məhəmməd xanla Bəyazid paşası arasında döyüşlər gedərkən, Xoy hakimi Hüseyn xanın İsaq paşaya gizli kömək etməsi olmuşdu. Xoy hakimini cəzalandırmağa bəhanə axtaran Məhəmməd xan vaxtilə anasının saxlamaq üçün Xoya göndərdiyi qiymətli əşyalarını geri qaytarmağı tələb etdi. Lakin Hüseyn xan bu tələbə məhəl qoymadı. Belə olduqda Məhəmməd xan Xoya hücum etmək üçün silahlı qüvvə toplamağa başladı. Naxçıvan hakimi Kəlbəli xan (1787-1820) bu əməliyyatda ona hərbi yardım göstərdi. Hazırlıq başa çatdıqdan sonra 1790-cı il mayın 10-da Məhəmməd xan və müttəfiqi Kəlbəli xan Xoy şəhərinə hücum etdilər. Açıq döyüşdə müttəfiqlərin təzyiqinə davam gətirə bilməyən Hüseyn xan Xoy qalasına sığındı. Müttəfiq qoşunları Xoy şəhərini ələ keçirərək iç qalanı mühasirəyə aldı. Xoyluların ciddi müqaviməti nəticəsində mühasirə uzandı. Mühasirənin uzandığını görən Məhəmməd xan və Kəlbəli xan Hüseyn xanla danışıqlara başladılar. Vəziyyətinin acınacaqlı olduğunu başa düşən Xoy hakimi müttəfiqlərin təklifini qəbul etmək məcburiyyətində qaldı. O, qiymətli əşyaların bir hissəsini geri qaytardı, digər hissəsinin geri qaytarılmasına qədər isə qardaşı Cəfərqulu bəyi girov təklif etdi. Bununla razılaşan müttə-

fiqlər Xoy hakimi ilə sülh müqaviləsi bağlayaraq geri qayıtdılar. Bir neçə həftədən sonra qalan bütün qiymətli əşyalar da onlara təhvil verildi. Bundan sonra Cəfərqulu bəy azadlığa buraxıldı. Tərəflər arasında baş verən bu hadisələr mayın 10-dan iyulun 7-dək davam etmişdi (161, 142-143).

Lakin tərəflər arasında bu sülh çox da uzun sürmədi. Xoy hakimi İrəvana cavab zərbəsi endirməyi qərara aldı. O, ilk növbədə hiylə işlədərək Məhəmməd xanla Kəlbəli xanın arasını vura bildi. Nəticədə Xoy hakimi Kəlbəli xanla barışdı (34, 62). Dünənki müttəfiqlər isə düşmənə çevrildilər.

Kəlbəli xanın xəyanətini görən Məhəmməd xan onu cəzalandırmağı qərara aldı. Yürüşə başlayan İrəvan qoşunu sərhədyanı Tiza (?) qalasını mühasirəyə alsa da, onu tuta bilmədi. Naxçıvanlıların güclü müqaviməti nəticəsində irəvanlılar böyük itkiyə məruz qaldılar. İlk hücumda müvəffəqiyyətsizliyə düçar olan Məhəmməd xan tezliklə Xoy hakiminin qardaşı Cəfərqulu bəyin və Kəlbəli xanın başçılığı ilə müttəfiq qoşunlarının İrəvana hücum etməsi xəbərini aldı. Bu xəbəri eşidən İrəvan qoşunu təcili geri çəkilərək İrəvan qalası yaxınlığında «Müxənnət təpə» adlanan yerdə düşərgə saldı. Üzücü yürüşdən sonra burada mövqe tutan silahlı qüvvələrin bir hissəsi düşərgəni tərk etdi (161, 144).

Xoy və Naxçıvanın birləşmiş qoşunlarının hücumu yerli əhali arasında təşvişə səbəb olmuşdu. Xan müdafiə tədbirləri görməyə başlamışdı. Onun əmri ilə əhalinin bir hissəsi İrəvan qalasına, digər hissəsi isə əlçatmaz yerlərə sığınmışdı (161, 144).

Müttəfiq qoşunları xanlığın ərazisinə daxil olaraq Şəruru ələ keçirmiş və yol üstündə olan kəndləri dağıdaraq üç gündən sonra İrəvan qalasına yaxınlaşmışdı. Onların yaxınlaşdığını görən Məhəmməd xan azsaylı qüvvə ilə açıq döyüşə girməyi qərara aldı. Bu, onun böyük səhvi idi. Döyüşə girən irəvanlılar məğlub olaraq qalaya geri çəkildilər. İrəvanlıları təqib edən müttəfiq qoşunu onlardan xeyli adam öldürməyə müvəffəq oldu. Onlar qalaya yaxınlaşaraq, İrəvanətrafı kəndlərdən olan Yeniköy kəndində düşərgə saldılar (161, 144).

Lakin İrəvan qalasını mühasirəyə alan Xoy və Naxçıvan qoşunu güclü müqavimətə rast gəldi. Buna baxmayaraq, tezliklə müttəfiqlər Hüseyn xandan əlavə hərbi kömək aldılar. Vəziyyətin çıxılmaz olduğunu görən Məhəmməd xan kömək üçün II İrakliyə və Ahalsıx paşasına müraciət etdi. Lakin o, gözlədiyi köməyi ala bilmədi (161, 145).

Mühasirənin uzanması müttəfiqləri də pis vəziyyətdə qoymuşdu. Orduda ərzaq çatışmazlığı hiss olunurdu. Digər tərəfdən, qoşun içərisində Kartli-Kaxetiyadan irəvanlılara kömək gəlməsi haqqında şayiələr yayılmışdı. Bu səbəblərə görə, 7 gün İrəvan qalası yanında qaldıqdan sonra müttəfiq qoşunları mühasirəni götürərək, 1790-cı il avqustun 29-da Üçmüəzzin istiqamətində geri çəkildi. Bu qoşun yol üstündəki bir neçə kəndi qarət edib yandıraraq kilsəyə gəlib çatmış, burada çoxlu mal-qara və digər qiymətli şeylər ələ keçirmişdi. Üçmüəzzin ətrafında çox ləngiməyən Xoy və Naxçıvan qoşunları Araz çayı istiqamətində hərəkət edərək, yol üstündəki yerləşən kəndləri qarət edə-edə vətənlərinə qayıtdılar (161, 145-147).

Xoy və Naxçıvan qoşunlarının bu yürüşü İrəvan xanlığında üçün böyük dağıntılara səbəb oldu. Xeyli kənd dağıdılmış, əhalisindən öldürülmüş və neçə-neçə yerlərindən didərgin düşmüşdü. Vəziyyətinin ağır olmasına baxmayaraq, Məhəmməd xan ona xəyanət etmiş Kəlbəli xanı cəzalandırmağı qərara aldı. O, yenidən silahlı qüvvə toplamağa başladı. Bu xəbəri eşidən II İrakli hər iki xanı barışdırmağa cəhd etsə də, onun bu cəhdi nəticəsiz qaldı. Beləliklə, Məhəmməd xan güclü qüvvə ilə Naxçıvana hücum etdi. İrəvan qoşunu tezliklə Naxçıvan qalasını mühasirəyə aldı. Lakin havaların vaxtından əvvəl soyuduğunu görən Məhəmməd xan burada ləngiməyin mənasızlığını başa düşüb geri qayıtmaq əmrini verdi (161, 148).

Məhəmməd xan xanlıqda dağıntıları aradan qaldırdığı vaxt, 1791-ci ilin sonlarında Ağa Məhəmməd xan Qacarın Təbriz yaxınlığına gəlməsi xəbərini aldı. Bu da bəzi xanlar arasında olan düşmən münasibətlərin aradan qalxmasına və Qacar təhlükəsinə qarşı onların birləşməsinə gətirib çıxardı.

## 2.4. İrəvan xanlığı Ağa Məhəmməd şah Qacarın yürüşləri dövründə

1779-cu ildə Kərim xan Zənd vəfat etdikdən sonra İranda taxt-tac uğrunda zəndlərlə Ağa Məhəmməd xan Qacar arasında gərgin mübarizə başladı. Azərbaycan türklərinin Qacarlar tayfasından olan Ağa Məhəmməd xan zəndlərin daxilində baş qaldıran münaqişədən istifadə edərək qısa dövr ərzində İranda hakimiyyəti ələ keçirdi (211, 215).

İranda hakimiyyətini möhkəmləndirən Ağa Məhəmməd xan Qacar Azərbaycan və Kartli-Kaxetiya çarlığına da iddia etməyə başladı. Artıq 1791-ci ildə bu Qacar xanı Azərbaycanın cənub xanlıqlarının əksəriyyətini özünə tabe edə bilmişdi (239, 158; 201, 111). Lakin onun Azərbaycanın şimal hissəsində yerləşən xanlıqları özünə tabe etmək cəhdi güclü müqavimətlə rastlaşdı. Bu zaman Ağa Məhəmməd xan Qacara münasibətdə Azərbaycanın şimal xanlıqları arasında iki cəbhə yaranmışdı. Birinci cəbhəyə Gəncə, Şəki, Quba, Bakı xanlıqları daxil idi ki, onlar hakimiyyətlərini itirməmək üçün Qacarın fərmanını müsbət qarşılamışdılar. Digər cəbhəyə Qacar hakimiyyətinə düşmən münasibətdə olan xanlıqlar daxil idi. Qarabağ xanı İbrahimxəlil xan həmin cəbhəyə başçılıq edirdi. Onu İrəvan, Lənkəran, Xoy, Urmiya xanları və Kartli-Kaxetiya çarı II İrakli müdafiə edirdilər (107, c.2, səh.320; 51, 50).

1791-ci ilin əvvəllərində Ağa Məhəmməd xan Qacar güclü qoşunla Azərbaycana doğru hərəkət etdi. O, Təbrizdən azacıq aralıda yerləşən Seyidabad adlı yerdə düşərgə salaraq, Azərbaycan xanlarına onların tabe olmaları barəsində fərmanlar göndərməyə başladı (107, c.2, səh.319). Bu fərmanlarda Azərbaycan xanlarından tabeçilik rəmzi olaraq övladını, qardaşını və ya arvadlarından birini girov vermələri tələb edilirdi. Ağa Məhəmməd xanın gücü qarşısında Azərbaycanın bəzi xanları tezliklə onun tələbini qəbul etmək məcburiyyətində qaldılar. Belə ki, Naxçıvan xanı qardaşını, Xoy xanı arvadını və qardaşını, Təbriz xanı 15 nüfuzlu əyanını, şahsevən

tayfasının başçısı qardaş və oğullarını, Ərdəbil xanı arvadlarından birini və qardaşını girov göndərmişdi. Bundan əlavə, Marağa və Urmiya xanları arvadları ilə, Sərabın Şəqaqi xanı Sədi xan isə qardaşları ilə birlikdə qoşunla Ağa Məhəmməd xanın görüşünə gəldilər. Ağa Məhəmməd xan Qacar hər bir xanın üzərinə illik xərac da təyin etmişdi (107, c.2, səh.319-320). Bu fərmanlardan biri də İrəvan hakimi Məhəmməd xana da göndərilmişdi. Lakin Qacar xanından ehtiyat edən İrəvan hakimi özü Qacarın yanına getməmiş, qardaşını hədiyyələrlə onun hüzuruna göndərmişdi (72, 134-135). Bu dəfə yalnız girov və hədiyyələr almaqla kifayətlənən Qacar hakimi Tehrana qayıtmışdır. O, Azərbaycanın tabe olmayan xanlarını cəzalandırılmasını başqa vaxta keçirmişdi. Sarayda hərbi rəislər arasında ona qarşı sui-qəsd hazırlandığını eşidən Ağa Məhəmməd xan yürüşü təxirə saldı. Digər tərəfdən, onun zəndlərlə mübarizəsi hələ də davam edirdi (53, 61; 201, 111).

Qacar təhlükəsi sovuşan kimi, Azərbaycan xanları yenidən bir-biri ilə ara müharibələrinə başlayırlar. Belə ki, 1791-ci ilin dekabrın əvvəllərində Qarabağ hakimi İbrahimxəlil xan Naxçıvan xanlığını özünə tabe etmək üçün qohumu Avar xanı Ümmə xanla ittifaqa girərək, 11 minlik qoşunla Naxçıvan qalasına yürüş etdi. Bu təhlükə qarşısında aciz qalan Kəlbəli xan kömək üçün İrəvan hakiminə müraciət edir. Qeyd etmək lazımdır ki, bundan bir qədər əvvəl bir-birinə düşmən olan İrəvan hakimi ilə Naxçıvan hakimi arasında sülh bərqərar olmuşdu. Kəlbəli xan Məhəmməd xanın bacısına nişanlanaraq bu sülhü daha da möhkəmləndirmişdi. Digər tərəfdən, Məhəmməd xan İbrahimxəlil xanın Naxçıvanda möhkəmlənməsini öz xanlığı üçün təhlükə hesab edirdi. Buna görə də o, Kəlbəli xanın yardım xahişinə müsbət cavab verərək, Naxçıvana qoşun göndərdi. Xoy hakimi də bu cür hərəkət edərək, Naxçıvan hakiminə hərbi qüvvə ilə kömək etdi, eyni zamanda ümumi təhlükə qarşısında Məhəmməd xanla da barışdı. Cəfərqulu xan hətta onun bacısı ilə evləndi (403, 19). İrəvan, Xoy və Naxçıvan xanlıqlarının birləşmiş qoşunları Naxçıvan qalasını mühasirəyə alan İbrahimxəlil xanın və Ümmə xanın qoşunlarını məğlub edərək onları xanlıqdan geri

çəkilməyə məcbur etdilər. Bu döyüşdə İbrahimxəlil xan 1000, Ömər xan isə 700 nəfər hərbçi itirmişdi (161, 150-151; 34, 63).

XVIII yüzilliyin 90-cı illərin ortalarına yaxın Azərbaycan xanlıqları üçün mürəkkəb bir vəziyyət yaranmışdı. Ağa Məhəmməd xan Qacar İranda bütün rəqiblərini məğlub etdikdən sonra yenidən Azərbaycan xanlarını hədələməyə başladı. Digər tərəfdən, şimaldan Rusiya Azərbaycan xanlarına təzyiqi artırmışdı. Qeyd etmək lazımdır ki, bu dövrdə Azərbaycan xanları Cənubi Qafqazda «incə, ehtiyatlı siyasət» yeridən Rusiya dövlətinə etibar etmirdilər. S.D.Burnaşov yazırdı ki, «Azərbaycanın bütün müstəqil xanlarının Rusiya barəsindəki ümumi fikirlərinin mahiyyəti eyni idi. Onlar hakimiyyətlərinin Rusiya tərəfindən qəsb olunacağından ehtiyat edirdilər və rusların Avropa idarəçilik qaydalarını onların (xanlıqların – E. Q.) hüdudlarına gətirəcəyindən çox narahat idilər. (Xanların) bu təhlükə qarşısındakı vahiməsi onları türklərlə danışıqlara sövq edirdi» (105, 2).

Həm şimaldan, həm də cənubdan təzyiqə məruz qalan Azərbaycanın şimal xanları öz xilaslarını Osmanlı dövlətində görürdülər. Bu işdə İrəvan hakimi Məhəmməd xan xüsusilə fəal idi. Qacarın yürüşünü xanlıq üçün daha təhlükəli hesab edən Məhəmməd xan İrəvan qalasının müdafiəsini möhkəmləndirməklə bərabər, Osmanlı sarayına da kömək üçün müraciət etdi. O, həm sultana, həm də Osmanlı paşalarına məktublar göndərərək kömək istəmişdi. Belə ki, 1794-cü il mayın 9-da Məhəmməd xan yaxın adamı Zeynal ağa vasitəsilə Osmanlı dövlətinə məktub göndərmişdi. Məktublarda xanı narahat edən əsas məsələlərdən biri də bu təhlükə ilə bərabər, Ağa Məhəmməd xanın qoşununun hücum edəcəyi təqdirdə sadə xalqın taleyi idi. Məhəmməd xan Osmanlı paşalarına məktub yazaraq onlardan xanlıqdan köçən əhaliyə sığınacaq vermələrini dönədönə xahiş etmişdi. O, Qars hakiminə göndərdiyi məktubda Qacar qoşununun İrəvanı mühasirəyə alacağı təqdirdə sadə xalqın Qarsa köçəcəyini bildirərək kömək istəmişdi (72, 134-135).

1795-ci il mayın 15-də Ərzurum valisi Yusif Ziya paşanın Məmiş ağanın vasitəsilə Osmanlı sultanına göndərdiyi məktubda

şahın hücum edəcəyi təqdirdə İrəvan əhalisinin Osmanlı ərazisinə axınının başlayacağı təhlükəsi haqqında xəbər verilmişdi. Məktubda Ağa Məhəmməd xanın İrəvana hücum edəcəyi təqdirdə qala darısqal olduğundan, təxminən 20-30 min irəvanlının əmlak və mal-qara ilə birlikdə Qars, Bəyazid, Ərzurum paşalıqlarına sığınacaqları bildirilmişdi (72, 145-146).

Lakin bəzi Azərbaycan xanları, o cümlədən İrəvan xanı ilə məktublaşmasına baxmayaraq Osmanlı dövləti ciddi tədbirlər görə bilmədi. Çünki sultan nə Rusiya, nə də Ağa Məhəmməd xanla münasibətləri gərginləşdirmək istəmirdi. «Şuşalı İbrahimxəlil xan və İrəvan xanı 1794-cü ildə Portanın (Osmanlı Türkiyəsinin – E. Q.) onları köməksiz qoymayacağına ümid edərək, Ağa Məhəmməd xana qarşı çıxdılar. Onlar qədimdən aralarında olan dostluq əlaqələrinə arxalanaraq Ağa Məhəmməd xanın hücumuna qarşı Portadan himayədarlıq üçün nümayəndələrini İstanbula göndərdilər. Lakin Porta onların tələblərinə məhəl qoymayaraq cavab verdi ki, onun İran xalqı ilə müqaviləsi vardır» (107, c.2, səh.332). Digər tərəfdən, hadisələri düzgün qiymətləndirən İstanbul sarayı Ağa Məhəmməd xanı bölgədə Rusiyaya qarşı duracaq real qüvvə hesab edirdi. Buna baxmayaraq, Osmanlı dövləti ona müraciət edən xanlara ümid verməkdən də çəkinməmişdi.

Azərbaycan xanlarını məktub və fərmanlarla özünə tabe edə bilməyəcəyini başa düşən Ağa Məhəmməd xan Qacar İrəvan, Xoy, Naxçıvan, Gəncə və Ərdəbil xanlarını öz hakimiyyətini tanımağa məcbur etmək üçün 1794-cü ildə sevimli sərkərdələrindən olan Süleyman xanı 20.000 nəfərlik qoşunla Təbrizə göndərdi (55, 236-237). Təbrizə gələn Süleyman xan İrəvan hakimini yanına dəvət etdi. O, Məhəmməd xanı Təbrizə gəlməyəcəyi təqdirdə İrəvan üzərinə yürüş edəcəyi ilə hədələmişdi. Həmin vaxt İrəvan hakimi iki od arasında qalmışdı. Digər tərəfdən, II İrakli də, Məhəmməd xanı İrəvan üzərinə yürüş edəcəyi ilə hədələyirdi. Qeyd etmək lazımdır ki, Məhəmməd xan son illərdə müstəqil siyasət yeridərək Kartli-Kaxetiya çarına bac verməkdən imtina etmişdi. 1794-cü ildə şahzadə Davidin başçılığı ilə bir dəstə gürcü qoşunu İrəvan sərhəddində

dayanaraq, Məhəmməd xandan bacı ödəməyi tələb etməyə başladı. O, əks təqdirdə İrəvana hücum edəcəyi ilə xanı qorxudurdu. Hətta şahzadə David katolikos Qukasa məktub göndərərək xanı yola gətirməyi tələb etmişdi (212, 90).

İki od arasında qalmış Məhəmməd xan İrəvan qalasını möhkəmləndirmək üçün müdafiə tədbirləri görməyə başladı. O, Qacar qoşunlarının hücumunu xanlıq üçün daha təhlükəli olduğunu hiss edərək, II İraklinin könlünü ələ almağı qərara aldı. Məhəmməd xan dərhal məktub və hədiyyələrlə Tiflisə nümayəndə heyəti göndərdi. II İrakli elçiləri qəbul etsə də, güzəştə getməyərək bacı tələb etdi. O, elçilərə «…xanın dəfələrlə şərtləri pozduğundan verilən vədlərə inanmadığını söyləyərək, belə demişdi: Siz verəcəklərinizi verin, mən isə sizi düşmənlərinizdən qoruyum» (161, 153). Əlacsız qalan və kömək almaq ümüdi ilə Məhəmməd xan verginin bir hissəsini göndərmiş, digər hissəsini göndərməyi söz vermişdi. Əvəzində o, İrəvanın müdafiəsi üçün çardan bir neçə yüz nəfərdən ibarət dəstə göndərməsini xahiş etmişdi. Lakin bu vaxt II İraklinin özünə kömək lazım idi (161, 153-154; 212, 90).

İrəvan hakiminin heç bir fərmana məhəl qoymadığını görən Süleyman xan Xoy hakimi ilə birlikdə Təbrizdən Naxçıvana gəldi. O, İrəvana adam göndərərək Məhəmməd xandan tələbləri yerinə yetirməyi, girov, bac və 500 nəfərdən ibarət silahlı qüvvə göndərməsini tələb etdi (158, 93). Bu xəbər İrəvan əhalisini bərk təşvişə salmışdı. Əhalinin bir hissəsi əmlakı ilə Osmanlı sərhəddinə doğru hərəkət etdi, digər hissəsi isə qalada və əlçatmaz yerlərə sığındı. Məhəmməd xan yenidən II İraklidən hərbi kömək istədi. O isə nəinki İrəvana kömək göndərmədi, əksinə bacın qalan hissəsini də tələb etdi. Belə olduqda İrəvan hakimi bu tələbi rədd etdi (161, 154).

Vəziyyətin çıxılmaz olduğunu görən Məhəmməd xan Ağa Məhəmməd xanın tələblərini bir hissəsini yerinə yetirmək məcburiyyətində qaldı. O, ilk növbədə kəndlərə adamlar göndərərək vergi yığdırmağa başladı. Hətta Üçmüəzzindən də müəyyən miqdarda vəsait tələb etdi. Hər şey toplandıqdan sonra yığılanlar İrəvanın bir neçə nüfuzlu nümayəndəsi ilə birlikdə Süleyman xanın yanına,

Naxçıvana yola salındı. Lakin Süleyman xan İrəvan hakiminin tək bac verməsi ilə qane olmadı. O, xandan digər şərtləri də yerinə yetirməyi tələb etdi. Məhəmməd xan isə onun bu tələbindən imtina etdi (161, 154). Vəziyyətin gərgin olduğu bir vaxtda, Ağa Məhəmməd xan yenidən yürüşü dayandıraraq, boyun əyməyən xanların cəzalandırılmasını gələn ilə saxladı.

Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza ilk yürüşü 1795-ci ilin yayında baş tutdu. O, 1795-ci ilin iyun ayında 85 minlik qoşunla üç istiqamətdə – İrəvan, Lənkaran-Muğan və Qarabağ istiqamətində şimala doğru yürüşə başladı (51, 50-51; 239, 167). Bu yürüş haqqında tarixi ədəbiyyatda (239, 167-176) ətraflı bəhs edildiyindən bu məsələnin üzərində dayanmağı lazım bilmirik. Bizim məqsədimiz Qacar qoşunlarının məhz İrəvan istiqamətində yürüşünü işıqlandırmaqdır.

Ağa Məhəmməd xan qardaşları Əliqulu xan və Cəfərqulu xanın başçılığı ilə 20.000 nəfərlik qoşunu İrəvan istiqamətdə göndərdi. Qacar hakiminin güclü qoşunla Cənubi Qafqaza yürüşü əhalini bərk qorxuya salmışdı. Əhali əmlakını götürərək təhlükəsiz yerlərə qaçırdı. "Əhali biləndə ki, Qacar qoşunları İrəvana doğru hərəkət edir, Qarabağdan, Naxçıvandan, İrəvandan və digər yerlərdən həm müsəlmanlar, həm də xristianlar əmlak və mal-qara ilə Gürcüstan (Kartli-Kaxetiya – E. Q.) ərazisinə qaçırdı. Onlar bu ərazidə sakit sığınacaq tapacaqlarına və Ağa Məhəmməd xanın çara (II İrakli – E. Q.) qalib gələ bilməyəcəyinə ümid edirdilər. Lakin qaçqınların aqibəti acınacaqlı oldu. Doğma şəhər və kəndlərindən qaçan xalq ərzaq çatışmazlığı ilə üzləşərək aclığa məruz qaldı. Onlar üç girvənkə çörəyə bir qoyun, bir lider (10 girvənkə) çörəyə isə bir at verməli olurdular. Digər tərəfdən, yerli gürcülər qaçqınlara hücum edərək onların əmlak və mal-qarasını əllərindən alırdılar. Müsibət o dərəcəyə çatmışdı ki, çoxları aclıqdan və soyuqdan ölməmək üçün varlı gürcülərin quluna çevrilmişdilər. Bir çoxları isə bu müsibətə dözməyərək çöllərdə olürdülər və onları dəfn etmək üçün alət belə tapılmırdı" (86, 89-90; 179, 7; 107, c.2, səh.337).

Lakin bütün bunlara baxmayaraq, İrəvan hakimi Məhəmməd xan Qacar qoşununa müqavimət göstərmək üçün ciddi hazırlıq görmüşdü. O, ilk növbədə İrəvan qalasının müdafiəsi üçün qalanı uzunmüddətli ərzaq ehtiyatı ilə təmin etməyə başladı. Xan kəndlərə adamlar göndərərək əhalidən yük arabaları toplayır və həmin arabalarla mahallardan taxıl daşıtdırıb anbarlara doldururdu. Bundan əlavə, qalada olan qoşun hissəsindən başqa, ətraf kəndlərdən qalaya 7.000 nəfərlik canlı qüvvə toplandı. Qalada darısqallıq olmasın deyə onlara ancaq özləri ilə həyat yoldaşlarını götürmək icazəsi verilmişdi. Onların uşaqları isə qohumlarının və yaxın adamlarının yanında qalmalı idi Lakin xanın bu tədbiri heç bir nəticə vermədi. Çünki ailələrindən və əmlaklarından nigaran qalan, məcburən bu işə cəlb olunan kəndlilərin yarısı tezliklə qaladan qaçdı. Bu da, Məhəmməd xanın vəziyyətini bir qədər çətinləşdirmişdi. O, kömək üçün Kartli-Kaxetiya çarına müraciət etsə də, II İraklinin özünün vəziyyəti acınacaqlı olduğundan çar İrəvana kömək edə bilmədi (86, 64-65; 179, 10-11).

1795-ci il iyulun ortalarında Əliqulu xanın qoşunu İrəvan qalasının yaxınlığında yerləşən Çarbağı adlanan yerdə düşərgə saldı. Sonra İrəvan qalası Qacar qoşunu tərəfindən mühasirəyə alındı. Rus tədqiqatçısı O.Markova əsərində İrəvanın Ağa Məhəmməd xanın qoşununa müqavimətsiz təslim olduğunu göstərmişdi (247, 288). Əslində isə Məhəmməd xan başda olmaqla qala sakinləri 35 gün şah qoşununa güclü müqavimət göstərmişdi. Əliqulu xan İrəvan hakiminə dəfələrlə tabe olmağı təklif etsə də, xan boyun əyməmişdi. O, qala sakinlərinin güclü müqavimətini görərək, qoşunun bir hissəsini qarət məqsədilə yaxın kəndlərə göndərdi. Kəndlərə hücum edən Qacar qoşunu əhalinin evini dağıdaraq, bütün məhsullara od vurub yandırdı. Lakin mühasirədə olan irəvanlılar güclü müqavimət göstərməkdə davam edirdi. Güclü müqavimətlə rastlaşan Əliqulu xan və Cəfərqulu xan bu haqda Qacar hakiminə məlumat verdilər. İrəvanın mühairəsinin uzandığını görən Ağa Məhəmməd xan oraya 1300 nəfərdən ibarət əlavə qüvvə göndərdi. Hətta onları topçularla təmin edərək, topçu Ağasadıq xanı İrəvana yola saldı. Əlavə olaraq,

onları top mərmiləri üçün qurğuşunla da təchiz etdi (158, 95; 161, 162).

Şuşa qalasının mühasirəsinin uzandığını görən Qacar hakimi Tiflisə hücum etməyə hazırlaşirdı (51, 52; 43, 123; 239, 121). O, Əliqulu xana məktub yazaraq İrəvan ətrafında 4000 nəfərlik qoşun saxlamağı, qoşunun qalanı ilə yanına gəlməsini əmr etdi. Şah məktubda bildirirdi ki, əgər Məhəmməd xan tabe olsa onu sərbəst buraxsın. O, Cəfərqulu xandan Məhəmməd xanı oğlunu və arvadını girov vermək üçün dilə tutmağı tələb edirdi (158, 96-97; 183, 34-35).

Güclü hücuma məruz qalan və heç bir yerdən kömək almayan qala müdafiəçilərinin vəziyyəti də get-gedə çətinləşirdi. Məhəmməd xan qorxurdu ki, Ağa Məhəmməd xan butun qüvvələrini İrəvan üzərinə toplaya bilər, bu halda şəhər əhalisini və qalaya sığınmış digər irəvanlıları onun qəzəbindən heç kəs qurtara bilməzdi. Müqavimətin mənasızlığını görən Məhəmməd xan təslim olmaq məcburiyyətində qaldı. O, 1795-ci il avqustun sonunda müqaviməti dayandıraraq, Ağa Məhəmməd xan Qacara tabe olduğunu bildirdi. İrəvan hakimi Ağa Məhəmməd xana bac verəcəyini, lazım olduqda qoşunla kömək edəcəyini vəd edərək, arvad və oğlanlarından birini ona girov göndərdi (192, 118; 179, 14).).

İrəvan hakiminin təslim olmasında gəncəli Cavad xanın da rolu olmuşdu. O, tərəfləri barışdırmaq üçün Məhəmməd xanın qohumu Yaqub xanı İrəvana göndərmişdi. Yaqub xan danışıqlarda vasitəçi olaraq onu yola gətirmişdi (161, 163). Lakin hər halda Qacar qoşunu İrəvan qalasına daxil ola bilmədi. Məhəmməd xan bu qoşuna etibar etmədiyindən ancaq girov verməklə kifayətlənmişdi. Hətta o, təhlükəsizliyi üçün 500 nəfər qoşunla qalanı tərk edərək Qacar qoşunundan kənar gəzirdi (179, 14). Lakin Əliqulu xan da İrəvanda ləngimədi. O, girovları götürərək avqustun 28-də Gəncədə olan Ağa Məhəmməd xanın yanına getdi (161, 164).

Əliqulu xanın başçılığı ilə Qacar qoşunlarının İrəvan xanlığına yürüşündə Üçmüəzzin kilsəsi də güclü itkiyə məruz qalmışdı. Katolikos Luka kilsəni qarətdən xilas etmək üçün Əliqulu xana 10.000 tümən ödəməli olmuşdu (107, c.2, səh.337).

Məlum olduğu kimi, Ağa Məhəmməd xan Qacar Şuşa şəhərinin mühasirəsindən əl çəkdikdən sonra Gəncədən keçərək Tiflisə hücum etmişdi. II İrakli müdafiəyə zəif hazırlaşmışdı. 1795-ci il sentyabrın 12-də Ağa Məhəmməd xan qoşunu ilə Tiflisə daxil oldu. Şəhər əhalisinin təxminən yarısı qırıldı, qalanı isə əsir alındı (51, 52; 110, 12-14; 107, c.2, səh.339-340).

Lakin Ağa Məhəmməd xan Tiflisdə çox qala bilmədi. Qoşunun ərzaqla təmini son dərəcə çətin olması, digər tərəfdən rus qoşununun Cənubi Qafqaza yürüşə hazırlaşması barədə məlumatların gəlməsinə görə xan səkkiz gündən sonra geri çəkilərək Muğan düzünə yollandı. Burada dincələn Qacar xanı eyni zamanda Azərbaycan xanlarını itaətə gətirmək üçün əlavə tədbirlər görməyə başladı (239, 172). O, ilk növbədə Məhəmməd xanı yanına dəvət etmək üçün Süleyman xanı İrəvana göndərdi. Məhəmməd xan isə Ağa Məhəmməd xana təslim olduğunu bildirsə də, itaətdən çıxmaq üçün fürsət axtarırdı. Dövrün sənədlərinin birində göstərilir ki, «İrəvan xanı Azərbaycanın digər hakimləri kimi zəifliyindən, məcburiyyət qarşısında şaha boyun əymişdi, lakin imkan olan kimi ona qarşı üsyan qaldırmaq niyyətində idi» (7, 140). Həqiqətən də, İrəvan hakimi Qacar qoşunundan sonra Tiflisə daxil olmuş rus qoşunundan və II İraklidən kömək almaq ümidində idi. Lakin Ağa Məhəmməd xandan ehtiyat etdiyi üçün məqsədini yazılı şəkildə bildirməkdən qorxurdu. Ona görə də, Məhəmməd xan planını həyata keçirmək üçün ermənilərdən istifadə etmək məcburiyyətində qalmışdı. «Lakin bu yardım baş tuta bilməzdi. Çünki ruslar türkləri narahat etməmək üçün İrəvan sərhəddinə girmək istəmirdilər. II İraklinin isə gücü yox idi» (161, 169).

Ümidinin boşa çıxdığını görən Məhəmməd xan Muğana, Ağa Məhəmməd xanın yanına getməyə məcbur oldu. O, bahalı hədiyyələrlə Muğan düzünə gəldi. Ağa Məhəmməd xan Qacar Məhəmməd xanı hörmətlə qəbul edərək, İrəvan xanlığına hər il 8 funt qızıl və 8.000 tümən məbləğində xərac təyin etdi (498, 165; 107, c.2, səh.336-337; 179, 13; 208, 270). Bundan sonra o, Məhəmməd xanı

öz vəzifəsinə təsdiq etdi. Əlavə olaraq, İrəvan hakimi geri qayıtdıqdan sonra ona 100 dəvə göndərməli idi (161, 169).

Ağa Məhəmməd xan Tiflisi işğal etdikdən sonra İrəvan və Gəncə xanlarının xeyrinə bir neçə göstəriş vermişdi. Onun əmrinə görə, Pəmbək və Borçalı sultanlıqları İrəvana tabe olmalı, Qazax və Şəmşəddil sultanlıqları isə Gəncə xanlığına itaət etməli idi. Məhəmməd xan vəziyyətdən istifadə edərək Pəmbək və Borçalı əhalisinə xəbər göndərərək tabe olmalarını tələb etmişdi (179, 34-43).

Tezliklə, Cənubi Qafqazda siyasi vəziyyət yenidən dəyişdi. Xorasanda Qacar hökumətinə qarşı üsyanın başlaması, qoşun arasında vəba xəstəliyinin güclənməsi, ən əsası isə V.Zubovun başçılığı ilə rus qoşunlarının Şimali Azərbaycana yürüşü Ağa Məhəmməd xanı Muğan düzünü tərk edərək, Tehrana qayıtmağa məcbur etdi (72, 190, 379).

Ağa Məhəmməd xanın Cənubi Qafqaza hücumu Rusiyanın nüfuzuna böyük zərbə endirmişdi. Bu məqsədlə Rusiya rəhbərliyi sarsılmış nüfuzunu bərpa etmək, çoxdan hazırladığı işğalçı planlarını həyata keçirmək üçün əllərinə düşən əlverişli fürsətdən istifadə etmək qərarına gəldi. Tarixi ədəbiyyatda 1796-cı il qraf V.A.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana yürüşü haqqında kifayət qədər əsərlər yazıldığından bu hadisə üzərində dayanmağı vacib hesab etmirik (239, 177-186; 252, 88-98, 55, 240-249; 246). Lakin bu yürüşdə Rusiya dövlətinin İrəvan xanlığı barədə işğalçılıq planlarını işıqlandırmaq işimizin əsas məqsədlərindən biridir. 1796-cı il fevralın 19-da imperatriçə II Yekaterina (1762-1796) general-poruçik V.A.Zubova Cənubi Qafqaza yürüş haqqında reskript (məktub – E. Q.) göndərdi (232, 110). Reskriptə görə V.A.Zubov Azərbaycan xanlarını müxtəlif vədlərlə öz tərəfinə çəkməli idi. Sənəddə İrəvanla da bağlı xüsusi göstəriş də vardı. İrəvan xanlığı Osmanlı Türkiyəsi ilə sərhəddə yerləşdiyindən bu ərazidə möhkəmlənmək Rusiyaya çox vacib idi. Lakin rus komandanlığı məqsədinə birbaşa deyil, dolayı yolla çatmaq niyyətində idi. Belə ki, II Yekaterina hökuməti Osmanlı dövlətindən ehtiyat edərək İrəvana açıq müdaxilə etməkdən çəkinirdi. Rusiya İrəvanda II

İraklinin əli ilə möhkəmlənmək istəyirdi. V.A.Zubova göndərilən reskriptdə yazılırdı ki, «Osmanlı Türkiyəsi ilə həmsərhəd olan və Arazın yuxarı hissəsində yerləşən İrəvan xanlığı çar İrakli tərəfindən təmizlənməli və onun qoşunu digər xanlarla birlikdə Ağa Məhəmməd xanın əleyhinə qalxmalıdır» (15, 190). Rusiya belə hesab edirdi ki, II İrakli uzun müddət İrəvanı təsirində saxladığına və bu xanlıqdan vergi aldığına görə, onun bu addımına Osmanlı dövləti adi hal kimi baxacaqdır.

Lakin II İrakli rus komandanlığının ümidini doğrultmadı. O da öz növbəsində Gəncə və İrəvanı yenidən özündən asılı vəziyyətə salmaq üçün rus qoşununun gücündən istifadə etmək istəyirdi. Kartli-Kaxeti çarı rus komandanlığına məktub yazaraq Gəncəni tutmağa qüvvəsinin olmadığını etiraf edirdi. Qraf V.Zubov isə ona bildirirdi ki, Gəncənin alınması rusların planında nəzərdə tutulmuşdu, lakin İrəvan xanlığının işğalı II İraklinin üzərinə düşür. Çünki rus qoşunlarının Osmanlı sərhədləri yaxınlığında görünməsi Rusiya dövləti üçün əlverişli deyildir (183, 170).

1796-cı ilin aprelin 15-də general-poruçik V.A.Zubovun başçılığı ilə 30 minlik rus qoşunu Dərbənd istiqamətində Azərbaycana yürüşə başladı. (260, 136; 236, 177). Bu yürüşdə rus qoşunu Dərbənd, Quba, Bakı, Şamaxı və Gəncə şəhərlərini ələ keçirmişdi (110, 343-374; 263, 127-314; 107, c.2, səh.372-415; 95, 175-177; 239, 177-188).

Rus qoşunlarının yürüşündən istifadə etmək istəyən bəzi Azərbaycan xanları gizlincə rus komandanlığı ilə məktublaşaraq, Ağa Məhəmməd xana qarşı kömək istəmişdilər. İrəvan hakimi Məhəmməd xan onlardan biri idi. O, zahirdə Ağa Məhəmməd xana tabe olduğunu bildirsə də, hakimiyyətini itirəcəyindən qorxaraq V.Zubovdan hərbi kömək almaq ümidində idi. O, bu məqsədlə rus komandanı ilə gizli məktublaşırdı. İrəvan hakimi Ağa Məhəmməd xanın şübhələnməsindən ehtiyat edərək, yenə də əlacsızlıqdan baş komandanla əlaqəni ermənilər vasitəsilə saxlayırdı. Bundan əlavə, Məhəmməd xan Tiflisdəki erməni arxiyepiskopu İosifdən istifadə etməklə II İraklini və general Korsakovu kömək üçün öz tərəfinə

çəkmək qərarına gəlmişdi. O, planını gerçəkləşdirmək üçün Üçmüəzzin erməni katolikosu Simonun bacısı oğlu Yeqor Xubovu 25 nəfərin müşayəti ilə Tiflisə göndərmişdi (494, 9).

Lakin bundan xəbər tutan Ağa Məhəmməd xan İrəvanın əldən çıxacağından narahat olaraq sərkərdələrindən Təvəkkül xanı və Cəfər xanı 400 nəfərlik hərbi qüvvə ilə İrəvana göndərdi. Kişik qüvvə ilə İrəvan şəhərinə gələn Təvəkkül xan Məhəmməd xanın hərəkətlərinə nəzarət etməyə başladı (107, c.2, səh.403-404).

Hakimiyyəti müvəqqəti məhdudlaşdırılan Məhəmməd xan isə boş dayanmamışdı. O, hərbi kömək almaq üçün gizli surətdə rus komandanlığına yenidən müraciət etdi. İrəvan hakimi V.A.Zubova məktub göndərərək, Təvəkkül xanı İrəvandan qovmaq üçün 1000 nəfərlik hərbi dəstə istədi. Lakin V.A.Zubov cavabında Məhəmməd xanı tələsməməyə, səbr etməyə çağırdı (35, 83). Ümidinin boşa çıxdığını görən Məhəmməd xan əlacsız qalaraq kömək üçün II İrakliyə müraciət etməyə məcbur oldu. Lakin bu müraciət də nəticəsiz qaldı (107, c.2, səh.427-428).

1796-cı il noyabrın 6-da II Yekaterinanın vəfatından sonra hakimiyyətə gələn I Pavel (1796-1801) rus qoşunlarını Cənubi Qafqazdan geri çağırdı (107, c.2, səh.418; 95, 177; 239, 188). Rus qoşunlarının Cənubi Qafqazı tərk etdiyinini eşidən Ağa Məhəmməd şah ikinci dəfə yürüşə hazırlaşmağa başladı. O, ilk növbədə V.A.Zubovla danışıqlar aparan bəzi xanları cəzalandırmağı qərara aldı. Ərdəbilə gələn Ağa Məhəmməd şah irəvanlı Məhəmməd xanın və naxçıvanlı Kəlbəli xanın onun hüzuruna gəlmələrini əmr etdi (53, 66). Ağa Məhəmməd şahın əmri xanlar üçün gözlənilməz oldu. Əvvəlcə hər iki xan Qacar hakiminin əmrinə tabe olmaq istəmədi. Lakin hər yerdən əli üzülən, əlacsız qalmış xanlar onun əmrinə tabe olmağı qərara aldılar. Onlar ailə üzvləri və bahalı hədiyyələrlə Ağa Məhəmməd şahın hüzuruna gəldilər. Şahın qəzəbinə tuş gəlmiş xanlar həbs edilərək, Tehrana göndərildilər (499, 164; 493, 10-11; 487, 49; 34, 65).

Məhəmməd xanın həbs edilməsi İrəvanda yerli əhalinin qiyam qaldırmasına səbəb oldu. Bunu eşidən Ağa Məhəmməd şah ögey

qardaşı Əliqulu xanı güclü qoşunla İrəvana göndərdi. Əliqulu xan qiyamı yatıraraq, hakimiyyəti müvəqqəti olaraq idarə etməyə başladı (494, 8-9; 107, c.2, səh.426). 1796-cı ilin axırlarından 1797-ci il iyunun axırlarına qədər İrəvan xanlığının idarəsi onun ixtiyarında qalmışdı.

Həbs edilməsinə baxmayaraq, Məhəmməd xan şahın yaxın adamlarının vasitəçiliyi ilə ölüm hökmündən canını qurtara bilmişdi. Ağa Məhəmməd şah İrəvan hakiminin Qacarlardan olmasını və sələflərinin şah hakimiyyətinə sədaqətlə qulluq etdiklərini nəzərə alaraq onun cəzasını cərimə ilə əvəz etmişdi. Ölüm təhlükəsindən qurtaran Məhəmməd xan xəyanətdə təqsirli bilinərək 50.000 tümən məbləğində cərimə ödəməli oldu. Əlacsız qalan İrəvan xanı bu məbləğin 20.000 tümənini nəqd vermiş, qalan hissəsini isə ödəmək üçün əmlakını satmalı olmuşdu (179, 43; 183, 207; 192, 118; 90, 531-532; 494, 10-11; 499, 164; 107, c.2, səh.42). Bundan əlavə, Məhəmməd xan şaha itaətini bildirmək üçün yaxın adamlarından bir neçəsini girov vermişdi (192, 118; 90, 531). Lakin cərimə ödənilsə də, Məhəmməd xan bir müddət həbsxanada qalmışdı. Ağa Məhəmməd şahın əmrinə əsasən ögey qardaşı Əliqulu xan İrəvanda hakimiyyəti idarə edirdi (107, c.2, səh.426). Naxçıvanlı Kəlbəli xanın vəziyyəti daha acınacaqlı olmuşdu. Şahın əmrinə əsasən onun gözləri çıxarılmışdı (494, 10; 487, 49; 499, 165; 34, 65).

1797-ci ilin mayında Ağa Məhəmməd şah Qacar ikinci dəfə Cənubi Qafqaza yürüşə başladı. Lakin bu yürüş müvəffəqiyyətsizliyə düçar oldu. Belə ki, şah Şuşa qalasını işğal etsə də, çox keçmədi ki, yaxın adamları tərəfindən sui-qəsd nəticəsində öldürüldü. Bu hadisə 1797-ci il iyunun 5-də baş vermişdi. Beləliklə, başsız qalan Qacar ordusu Azərbaycanı tərk etməyə məcbur olmuşdu (51, 58; 201, 114; 239, 190-192; 250, 100).

Beləliklə, ardı-arası kəsilməyən ara müharibələri və xarici müdaxilələr nəticəsində fəlakətə sürüklənən Quzey Azərbaycanda, həmçinin onun tərkib hissəsi olan İrəvan xanlığında daxili hərbi-siyasi vəziyyət daha da kəskinləşdi.

## 2.5. XVIII yüzilliyin axırlarında İrəvan xanlığının siyasi vəziyyəti

Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra onun yerinə qardaşı oğlu Fətəli şah (1797-1834) taxt-taca sahib oldu (201, 114-115). O, hakimiyyətə gələn kimi əmisi tərəfindən incidilmiş adamların könlünü ələ almaq üçün bir neçə dəyərli göstəriş vermişdi. Tehranda həbsdə olan xanları, o cümlədən İrəvan hakimi Məhəmməd xanı azadlığa buraxdı. Həbsdən azad olan Məhəmməd xan yenidən İrəvanda hakimiyyətə qayıtdı.

Qeyd etmək lazımdır ki, Məhəmməd xan həbsdə olarkən İrəvanda çox gərgin vəziyyət yaranmışdı. Belə ki, qardaşının ölüm xəbərini eşidən Əliqulu xan təhlükəsizlik tədbirlərinə əl ataraq, İrəvan qalasının qapılarını bağlamışdı. O, bununla kifayətlənməyə-rək yerli əhali ilə daha kobud rəftar etməyə başlamışdı. Çox güman ki, İrəvanda hakimiyyətinin sona yaxınlaşdığını hiss edən xan vəzifəsindən sui-istifadə edərək, çoxlu var-dövlət yığmaq məqsədilə irəvanlıları qarət etməyə başlamışdı. Əliqulu xan iyunun əvvəl-lərində qarət məqsədi ilə hətta Kartli-Kaxetiya ərazisinə qoşun gön-dərdi. Onun qoşunu çoxlu mal-qara ələ keçirsə də, bu qəniməti sona qədər əldə saxlaya bilmədi. Belə ki, şahzadə Aleksandr öz dəstəsilə onlara hücum edərək nəinki mal-qaranı geri qaytarmış, hətta Əliqulu xanın qoşunundan 200 nəfəri öldürmüşdü (158, 170). Bu hadisə və əhali ilə ədalətsiz rəftarı irəvanlıların səbrini tükəndirdi. Onlar silahlanaraq üsyan qaldırdı. Nəticədə xalqın təzyiqi ilə Əliqulu xan 1797-ci il iyunun axırlarında İrəvanı tərk etdi (107, c.2, səh.431; 161, 185).

Lakin bu təhlükədən qurtaran İrəvan əhalisi çox keçmədi ki, yeni təhlükə ilə üzləşdi. Əliqulu xan İrəvanı tərk etdikdən bir neçə gün sonra Maku sultanının oğlu Həsən xan vəziyyətdən istifadə edərək buraya hücum etdi. Qeyd etmək lazımdır ki, o, XVIII yüzilliyin 80-ci illərində İrəvanda hakimiyyət uğrunda mübarizə aparan Əhməd soltanın oğlu idi. Qəflətən İrəvan qalasına hücum

edən Həsən xan əvvəlcə dinc yolla qalanı ələ keçirmək üçün irəvanlılarla danışığa başladı. Lakin qala sakinləri onun tələbini rədd edərək Həsən xana ciddi müqavimət göstərdilər. Hətta qala müdafiəçiləri Qazaxda mövqe tutmuş II İraklinin oğlu Aleksandara məktub göndərərək ondan kömək istəmişdilər. Gürcü şahzadəsi Aleksandr bir neçə yüz nəfərlik dəstə ilə irəvanlılara kömək etmək istədi. Lakin Həsən xan onu qabaqlayaraq qalanı ələ keçirməyə nail oldu. Bu yürüşdə Həsən xana naxçıvanlılar, İrəvan hakiminə müxalif olan yerli muğanlılar və ayrumlar da kömək etmişdilər. Muğanlıların qala müdafiəçilərini döyüş meydanında tək qoyub qaçmaları qalanın təslim olmasına gətirib çıxarmışdı. İrəvana daxil olan Həsən xan taxt-taca yiyələndi. Cəmi üç ay hakimiyyətdə olmuş yeni hakim xalqla çox pis rəftar etmiş, onların üzərinə yeni-yeni vergilər təyin etmişdi. Lakin tezliklə Məhəmməd xanın əsirlikdən azad olub İrəvana qayıtması haqqında xəbər gəldi. Bu xəbəri eşidən Həsən xan 1797-ci il sentyabrın 15-də İrəvanı tərk edərək Makuya qayıdır (161, 186).

Beləliklə, Məhəmməd xan yenidən İrəvanda hakimiyyətini bərpa etdi. Lakin Fətəli şah Məhəmməd xanı azadlığa buraxsa da, ona bir o qədər də inanmırdı. Ona görə də, şah özünün iki nəfər inanılmış adamını İrəvana göndərdi. Onlar Məhəmməd xanın işlərinə nəzarət etməli idi. Eyni zamanda İrəvan xanlığı hər il şah xəzinəsinə 8.000 tümən bac ödəməli idi (494, 12-13).

İrəvanda yenidən hakimiyyətini bərpa edən Məhəmməd xan vəziyyətini nizama salan kimi fəal xarici siyasət yeritməyə başladı. O, şah hökumətinin itaətindən çıxmaq üçün özünə müttəfiqlər axtarışını genişləndirirdi. İrəvan hakimi kömək üçün ilk növbədə II İrakliyə müraciət edir. Lakin bu dövrdə Kartli-Kaxetiya çarının özünün vəziyyəti acınacaqlı idi. Ona görə də, Məhəmməd xanın müraciəti nəticəsiz qalmışdı (192, 119). Buna baxmayaraq İrəvan hakimi şaha qarşı mübarizədə özünə müttəfiq tapa bildi. Bu müttəfiqlərdən biri Fətəli şahın qəzəbinə gəlmiş Xoy hakimi Cəfərqulu xan, digəri isə Naxçıvan hakimi Kəlbəli xan idi. Ağa Məhəmməd şahın əmri ilə kor edilmiş Kəlbəli xan həbsdən azad

olunduqdan sonra, şahın əmrinə əsasən, İrəvan şəhərində yaşamalı idi. Kəlbəli xan İrəvanda məskunlaşdıqdan sonra mənsub olduğu kəngərli soyundan 200 ailə də Naxçıvandan oraya köçmüşdü (201, 162; 494, 49-50; 107, c.2, səh.514; 34, 67). İrəvanda məskən salan Kəlbəli xan qohumu Məhəmməd xanla birlikdə Fətəli şah Qacara tabe olmaqdan imtina etdi (494, 13-14; 184, 292; 34, 67).

Lakin bu dövrdə Azərbaycan xanları arasında münasibətlər ziddiyyətli idi. Bu gərgin münasibətlərin yaranmasında Xoy hakimi Cəfərqulu xanın böyük rolu olmuşdu. Qeyd etmək lazımdır ki, Fətəli şahın azad etdiyi xanlar arasında Xoy hakimi Cəfərqulu xan da vardı. O, əsirlikdə olarkən Təbriz xanının qardaşı Sadıq xan Xoya hücum edərək onu talan eləmişdi. Yenidən Xoyda hakimiyyəti ələ keçirən Cəfərqulu xan qisas almaq qərarına gəldi. O, özünə müttəfiqlər axtarır və bu işdə İrəvan hakimi ilə razılıq əldə etdi. Belə ki, əsirlikdən qayıdarkən Məhəmməd xan Xoya gəlmiş və burada xanlar arasında razılıq əldə olunmuşdu. Cəfərqulu xan qisas almaq üçün Məhəmməd xandan 500 nəfərlik hərbi qüvvə istəmişdi. İrəvan hakimi onun xahişini yerinə yetirərək, bu hərbi qüvvəni Xoya göndərmişdi. Birləşmiş Xoy və İrəvan qoşunu Sadıq xanın üzərinə hücum edərək onu məğlub etmişdi (161, 187).

Lakin çox keçmədi ki, Məhəmməd xanla Cəfərqulu xanın münasibəti pisləşdi. Xoyda öz mövqeyini möhkəmləndirən Cəfərqulu xan Sadıq xan Şəqaqi, Urmiya xanı Məhəmmədqulu xan və naxçıvanlılarla birləşərək Fətəli şahın əleyhinə qiyam qaldırdı. O, qonşu xanlıqlara hücum etməklə şaha itayətsizliyini bildirirdi. Həmin dövrdə zahirdə şaha itaətini bildirən İrəvan xanlığı da Xoy qoşunlarının yürüşünə məruz qaldı. Hücuma məruz qalmış Məhəmməd xan Cəfərqulu xana müqavimət göstərməyi qərara aldı. Bu müharibədə qazaxlılar İrəvan hakiminə hərbi kömək etdilər. Naxçıvan yaxınlığında baş verən döyüşdə irəvanlılar Cəfərqulu xanın tərəfinə keçmiş naxçıvanlılar tərəfindən məğlub edildilər. Məğlub olmuş Məhəmməd xan İrəvan qalasına çəkilərək orada möhkəmləndi. Lakin Cəfərqulu xan yürüşü davam etdirə bilmədi. Çünki Xoy xanının qiyamından xəbər tutan şah öz sərkərdələrindən

biri olan Süleyman xanı Təbrizə göndərmişdi. Cəfərqulu xanın tərəfinə keçmiş bəzi xanlar bu xəbəri eşidərək onu tərk etdilər. Tək qalan Xoy hakimi ailəsini götürərək Bəyazidə qaçdı. Onun tərəfdarları da bu cür hərəkət edərək Osmanlı ərazisinə köçdülər (161, 189-190).

1798-ci ilin iyunun əvvəllərində Fətəli şah sərkərdələri Süleyman xan və Hüseynqulu xanla birlikdə Xoya gəldi. O, Kartli-Kaxetiya çarlığına hücum etmək niyyətində idi. Fətəli şah iyunun 7-də XII Georgiyə məktub göndərərək tabe olmasını və girovlar verməsini tələb etdi. Əks təqdirdə Kartli-Kaxetiyanı dağıtmaqla hədələyirdi. Bu məktubun surəti general-leytenant Markova və Peterburqdakı Kartli-Kaxetiya səfiri Q.Çavçavadzeyə göndərildi. Lakin şahın şimal istiqamətində yürüşü baş tutmadı. Çünki qardaşının Şiraz və İsfahandan qoşun toplayaraq ona qarşı qiyam qaldırması xəbərini alan şah Xoyu tərk etməli oldu. Tezliklə, Süleyman xan da şahın yanına getdi. Fətəli şah Xoyu tərk etməmişdən əvvəl Cəfərqulu xanın qardaşı Hüseyni oraya hakim təyin etdi (161, 192).

Fətəli şahın geri çəkildiyini eşidən Cəfərqulu xan hakimiyyətini yenidən bərpa etmək üçün osmanlılardan və kürdlərdən hərbi kömək alaraq Xoya hücum etdi. Məhəmməd xan Hüseyn xana kömək etmək qərarına gəldi. İrəvan hakimi Xoya bir dəstə silahlı qüvvə göndərdi. Lakin uzun sürən mühasirədən sonra Xoya daxil olan Cəfərqulu xan qardaşı Hüseyn xanı öldürərək xanlıq taxtını yenidən ələ keçirməyə müvəffəq oldu (2, 127-130).

Tezliklə İrəvan hakimi də Fətəli şaha tabe olmaqdan imtina etdi. Onlar arasında münasibətlərin dəyişməsində şah hökuməti günahkar idi. Belə ki, bu dövrdə İrəvanda vəziyyət çox acınacaqlı idi. Bir tərəfdən müharibələr, digər tərəfdən vəba xəstəliyi nəticəsində xeyli insan qırılmışdı (161, 200). Belə bir vaxtda Fətəli şah İrəvana elçi göndərərək 10.000 tümən məbləğində bac verilməsini tələb etdi. İrəvanın bu məbləği verməyə imkanı yox idi. Məhəmməd xan əvvəlcə şahın bu tələbini yerinə yetirməyə razı olsa da, sonradan rus komandanlığından və Kartli-Kaxetiya çarından hərbi kömək almaq ümidi ilə bundan boyun qaçırdı. Eyni zamanda belə müraciət

Xoy hakimi Cəfərqulu xana da olmuşdu. Şahın hədə – qorxusu Məhəmməd xanı Cəfərqulu xanla barışmağa məcbur etdi. Barışmış rəqiblər bir daha şaha tabe olmayacaqlarını bildirdilər (192, 118; 90, 531)..

Xanların qiyamını eşidən Fətəli şah onları cəzalandırmaq qərarına gəldi. Şah 1800-cü il iyulun əvvəllərində oğlu Abbas Mirzənin və Süleyman xanın başçılığı ilə İrəvana 7-10 min nəfərlik qoşun göndərdi (179, 129; 182, 306). Başqa bir məlumata görə, Qacar qoşununun ümumi sayı 12.000 nəfərə çatırdı. Bu qoşun silahla pis təchiz olunmuş və onun dəvə üstündə gəzdirilən cəmi dörd yüngül topu vardı (264, 135-136; 179, 134-135; 302, 131-132).

Təbrizdən yola düşən şah qoşunu İrəvan xanlığı istiqamətində yürüşə başladı. Yürüşün əsas məqsədi xanları cəzalandırdıqdan sonra Kartli-Kaxetiya istiqamətində yürüşü davam etdirmək idi. Yürüşdən əvvəl bu çarlığı özünə tabe etmək üçün Qacar tərəfi Kartli-Kaxetiya sarayına xüsusi nümayəndə heyəti göndərdi. Çar XII Georginin qəbulunda olan heyət şahın fərmanını, Abbas Mirzənin və Süleyman xanın məktublarını ona çatdırdı. 1800-cü il iyunun 14-də Tiflisdə Rusiya nümayəndəsi Kovalenskinin iştirak etdiyi danışıqlarda XII Georgi Qacar dövlətinin nümayəndələrinə rədd cavabı vermişdi (114, 105-106; 179, 121-123). Sonralar Abbas Mirzəyə tabe olan Məhəmməd xan da XII Georgiyə məktub yazaraq onu şaha tabe olmağa çağırmışdı. Xan yazırdı ki, «indi İranla Qacar dövləti – E. Q.) Kartli-Kaxetiya arasında heç bir ayrılıq və ziddiyyət yoxdur. Məsləhət görürəm ki, qardaşın və oğlun vasitəsilə Baba xana (Fətəli şaha – E. Q.) hədiyyə göndərəsən. Əks halda qorxuram ki, çarlıqda elə talan olsun ki, özünüz peşman olasınız» (179, 125). Lakin xanın bu məktubu da cavabsız qalmışdı.

Şah qoşunlarının hücumuna əvvəlcə Xoy xanlığı məruz qaldı. Cəfərqulu xan məğlub olsa da şah qoşununa güclü müqavimət göstərdi (221, 50). Lakin Xoy hakimi düşdüyü bu çətin vəziyyətdən xilas ola bilmişdi. Belə ki, Cəfərqulu xanın müqavimətini görən Abbas Mirzə onunla danışıqlara başladı. Danışıqlar nəticəsində öz qızını Abbas Mirzəyə ərə verməyə razı olan Cəfərqulu xan Xoyda

taxt-tacını yenidən qoruyub saxlaya bilmişdi (72, 172-173, 363-364; 115, 107). Şahzadə ilə qohum olmasına baxmayaraq, Xoy hakimi sonralar da Qacar dövləti ilə düşmənçiliyini davam etdirmişdi. Xanlıqdan sıxışdırılan Cəfərqulu xan rus komandanlığı ilə əlaqə saxlayırdı. Sonralar Cəfərqulu xan tamamilə Rusiya himayəsinə keçmiş və onlara Qacar dövlətinin vəziyyəti barədə geniş məlumatlar verməklə böyük satqınlıq etmişdi (2, 102).

Xoy xanlığını özünə tabe etdikdən sonra şah qoşunu iyulun ortalarında Arazın sol sahilinə-İrəvan xanlığının ərazisinə yürüşə başladı. İrəvan xanlığı ərazisində mövqe tutan Abbas Mirzə 4000 nəfərdən ibarət ön dəstəni İrəvan qalasını almağa göndərdi. Abbas Mirzənin planını şahın yanına qaçmış II İraklinin oğlu Aleksandr Mirzənin 1800-cü il iyulun 30-da anasına yazdığı məktubda belə şərh edilmişdi: «İran qoşununun yarısı İrəvan qalası ətrafında dayanıb, digər hissəsi isə xanın karvansarasında yerləşib. Allah qoysa, o, (Abbas Mirzə – E. Q.) yeddi gündən sonra Göyçə gölünə doğru hərəkət edərək tezliklə Tiflisə çatacaq» (183, 295). Məktubda gürcü şahzadəsi İrəvanı mühasirəyə alan şah qoşununun sayı, onların pis silahlanması haqqında ətraflı məlumat vermişdi. Gizli yazılmış bu məktub ruslar tərəfindən ələ keçirilmişdi (302, 131-132).

Məhəmməd xan şah qoşununun hücumunu eşidərək müqavimət göstərmək üçün bir çox tədbirlər görmüşdü. O, İrəvan qalasını əlavə qoşunla gücləndirmiş və qalaya uzunmüddətli ərzaq ehtiyatı toplamışdı. Şah qoşununun yaxınlaşdığını eşidən ətraf kəndlərin əhalisi evlərini başlı-başına buraxaraq, qonşu dövlətlərə qaçmışdılar. Biçilmək ərəfəsində olan taxıl zəmiləri nəzarətsiz qalmışdı (179, 125-135).

İrəvanlılar qırx gün şah qoşununun hücumuna mərdliklə müqavimət göstərmişdilər. Mühasirənin uzanması, ərzaq çatışmazlığı şah qoşununu ağır vəziyyətə salmışdı. İş o yerə gəlib çatmışdı ki, ərzaq ehtiyatını təmin etmək üçün şah qoşunu başsız qalmış taxıl zəmilərini özləri biçir, dən döyür və un emal edirdilər (264, 136; 179, 135).

Uzunmüddətli mühasirə qala müdafiəçilərini də acınacaqlı vəziyyətə salmışdı. Ətraf kəndlərin dağılması və digər tərəfdən heç bir yerdən kömək ala bilməməsi Məhəmməd xanı şahzadə ilə danışıqlara girməyə məcbur etdi. Danışıqlar nəticəsində İrəvan hakimi şaha tabe olduğunu bildirərək tələb olunan təzminat və girovları vermişdi (35, 86). Bu yürüşdə Abbas Mirzə Üçmüəzzin kilsəsini də cəzalandırmışdı. Şahzadə sursat və vergidən əlavə, buradan 3.000 tümən məbləğində nəqd pul almışdı. Eyni zamanda şaha qarşı çıxdıqlarına görə bəzi din xadimləri cəzaya məruz qalmışdılar (107, c.2, səh.455). Lakin bu dəfə də, şah qoşunu yürüşü axıradək davam etdirə bilmədi. Fətəli şah Xorasanda baş vermiş qiyamı yatırmaq üçün 1800-cü ilin sentyabrında qoşunu İrəvandan geri çağırmışdı. O, yalnız İrəvan hakimindən girov almaqla kifayətlənmişdi.

Beləliklə, Fətəli şahın öz qoşunlarını geri çağırması ilə İrəvan xanlığı bu dəfə də təhlükədən qurtara bildi. Şah qoşunlarının bu yürüşü çoxlu insanın ölümünə, ya əhalinin bir hissəsinin xanlıqdan didərgin düşməsinə səbəb oldu. Təsərrüfata külli miqdarda ziyan dəydi. Lakin bütün bunlar irəvanlıların mübarizə əzmini qıra bilmədi. Belə ki, İrəvan xanı əlacsızlıqdan sonda girov və təzminat versə də, tezliklə şaha tabe olmaqdan boyun qaçırdı.

# III FƏSİL

# İRƏVAN XANLIĞI
# XIX YÜZİLLİYİN BİRİNCİ RÜBÜNDƏ

## 3.1. İrəvan xanlığının Şörəyel və Pəmbək uğrunda mübarizəsi

Şah qoşunu İrəvan xanlığını tərk edən kimi Məhəmməd xan yenidən müstəqil siyasət yeritməyə başladı. O, Kəlbəli xanla birləşərək vaxtilə İrəvan xanlığının tərkib hissəsi olan, sonradan siyasi vəziyyətlə əlaqədar Kartli-Kaxetiyadan asılı vəziyyətə düşmüş Şörəyel və Pəmbək sultanlıqlarını geri qaytarmağı qərara aldı. Onu bu işə vadar edən Rusiyanın Kartli-Kaxetiya çarlığını özünə birləşdirmək siyasəti olmuşdu.

1798-ci il yanvarın 11-də II İrakli vəfat etdikdən (178, 15; 179, 1) sonra hakimiyyətə oğlu XII Georgi gəlsə də, ailə daxilində hakimiyyət uğrunda kəskin mübarizə başlamışdı (178, 15-16). Ailədaxili mübarizədə çətin vəziyyətə düşən XII Georgi çıxış yolunu Kartli-Kaxetiyanı Rusiyaya birləşdirməkdə görürdü. Bu məqsədlə o, knyaz Qarsevan Çavçavadzenin başçılığı ilə Sankt-Peterburqa nümayəndə heyəti göndərdi. Bu müraciətdən istifadə edən çar I Pavel 1801-ci il yanvarın 18-də Kartli-Kaxetiyanın Rusiyaya birləşdirilməsi haqqında manifest imzaladı (398, 44; 503, 20-21). Bu manifestlə də rus qoşunlarının Cənubi Qafqaza hərbi müdaxiləsi rəsmiləşdi.

Manifestdən sonra rus qoşun kontingenti Tiflidə yerləşdirildi. Lakin hələ manifest imzalanmamışdan əvvəl, 1799-cu il noyabrın 26-da rus qoşunlarının ilk dəstəsi-17-ci leyb-qrenader alayı general-

mayor Lazarevin başçılığı ilə təntənəli surətdə Tiflisə daxil olmuşdu (469, 3; 503, 20).

Təbii ki, bu hadisə İrəvan hakiminin nəzərindən qaça bilməzdi. O, yaxşı bilirdi ki, Kartli-Kaxetiyanın Rusiyaya birləşdirilməsi İrəvan torpaqları üçün də təhlükəlidir. Rus qoşunlarının Tiflisə daxil olması müxtəlif dövrlərdə və müxtəlif səbəblər üzündən Kartli-Kaxetiyanın nüfuz dairəsinə düşmüş İrəvan ərazilərinin geri qaytarmaq üçün əla fürsət idi. Qeyd etmək lazımdır ki, 1779-cu ildə II İraklinin hücumndan sonra İrəvan xanlığının tərkib hissəsi olan Şörəyel sultanlığı Kartli-Kaxetiya çarlığının təsirinə düşmüşdü. Belə ki, bu mahaldan yığılan vergi Tiflis sarayına çatırdı. Həmin dövrdə Şörəyel sultanlığının əhalisi Azərbaycan türklərindən ibarət idi (107, c.2, səh.448). Lakin İrəvan xanları belə vəziyyətlə barışmaq istəmirdilər. P.İ.Kovalevski öz “Gündəliyi”ndə yazırdı ki, “vaxtilə İrəvan xanlığının tərkib hissəsi olan Şuragöl (Şörəyel – E. Q.) mahalı qonşular (Kartli-Kaxetiya çarlığı – E. Q.) arasında olan ziddiyyətlə əlaqədar olaraq əldən-ələ keçmişdi. Məhəmməd xan bu mahalın idarə edilməsinə aydınlıq gətirmək üçün II İrakliyə məktub göndərmiş, həmçinin digər şikayətlərlə burada olan sərhəd rəislərinə, hətta mənə müraciət edərək vasitəçi olmağı xahiş etmişdi» (192, 118; 90, 531).

Bütün bu müraciətlərin səmərəsizliyini görən Məhəmməd xan məsələni öz qüvvəsilə həll etmək qərarına gəldi. Nəticədə, 1800-cu ilin oktyabrında Məhəmməd xan Kəlbəli xanla birlikdə bir neçə minlik silahlı qüvvə ilə Şörəyelə hücum etdi. Bu vaxt Kartli-Kaxetiya çarı XII Georginin qaynatası Georgi Sisianov illik vergi yığmaq üçün 400 nəfərlik gürcü və ermənilərdən ibarət dəstə ilə Şörəyelə gəlmişdi. İrəvanlılar onlara hücum edərək bu dəstənin xeyli hissəsini qırdılar. Knyaz Georgi Sisianov döyüş meydanından qaçmaqla canını qurtara bildi. Onun dəstəsindən ölən və yaralananların sayı 200-ə çatırdı (405, 158; 107, c.2, səh.448). Bu yürüş nəticəsində İrəvan xanı Şörəyeldə öz hakimiyyətini yenidən bərpa etdi.

Tezliklə Məhəmməd xan Pəmbəkdə də baş verən hadisələrə müdaxilə etməli oldu. Bu dövrdə Pəmbək əhalisi üsyan qaldıraraq,

kömək üçün İrəvan hakiminə müraciət etmişdilər. Onların narazılığının bir neçə səbəbi vardı. **Əvvəla**, qeyd etmək lazımdır ki, Kartli-Kaxetiyanın Rusiyaya birləşdirilməsi haqqında çar I Pavelin manifesti 1801-ci il fevralın 16-da Tiflisdə xalq qarşısında oxunmuşdu. Bu manifestə görə, Pəmbək, Qazax, Borçalı və Şəmşəddil sultanlıqlarının da Kartli-Kaxetiyanın tərkibində Rusiyaya birləşdirilməsi bəyan edilirdi. Bu, yerli əhalinin ciddi narazılığına səbəb olmuşdu (183, 372). **İkincisi**, Kartli-Kaxetiya çarının buraya təyin etdiyi nümayəndələrin soyğunçu vergi siyasəti yerli əhalini cana gətirmişdi. Belə ki, Pəmbək ayrıca sultanlıq olsa da, Kartli-Kaxetiya çarlığına illik vergi verməli olurdu. Sultanlığın əhalisi, əsasən Azərbaycan türklərindən ibarət idi. Bu sultanlığı II Georginin qaynatası knyaz Georgi Sisianov idarə edirdi. Knyaz isə burada olmayanda, Pəmbəyin idarəsini kürəkəni knyaz Aslan Orbelianiyə həvalə etmişdi. A. Orbeliani isə vəzifəsindən sui-istifadə edərək yerli əhalidən əlavə vergi yığmaqla onları talayırdı. Bu da əhalinin narazılığına səbəb olmuşdu (304, 219; 413, 222; 180, 12). **Üçüncüsü**, Rusiya Kartli-Kaxetiya çarlığının əli ilə Pəmbəyi işğal edərək, burada hərbi baza yaratmaq istəyirdi. Pəmbəkdə möhkəmlənməklə rus qoşunu gələcəkdə İrəvan xanlığını işğal etmək üçün əlverişli mövqe əldə edirdi. Pəmbəklilər isə rus qoşununun sultanlığın ərazisində yerləşməsinə etiraz edərək həyəcan qaldırmışdılar. Bu həyəcanların güclənməsində general mayor Lazarevin də əli vardı. 1801-ci ilin iyununda rus qoşunlarının baş komandanı vəzifəsinə general-leytenant K.F.Knorrinq təyin edilmişdi. Hərbi işlərdə isə onun köməkçisi general-mayor Lazarev oldu (107, c.2, səh.455; 95, 183). Tezliklə, yeni baş komandan Tiflisə gəldi. Çar I Aleksandrın əmrinə əsasən o, Kartli-Kaxetiyanı Rusiyaya birləşdirilməsi üçün hazırlıq görməli idi. Tiflisə gələn yeni baş komandan nüfuzlu şəxslərin və çarlığa tabe olan ayrı-ayrı bölgələrin nümayəndələrinin fikrini öyrənmək üçün onları yanına dəvət etdi (111, 24-25). A.E.Sokolov yazır ki, "baş komandan (Knorrinq – E. Q.) mərkəzə yaxınlaşanda Pəmbək ağalarından başqa gürcü və ermənilər tərəfindən təntənəli surətdə qarşılandı. Bu vaxt general-

mayor Lazarev yerlərə sərəncam göndərərək bütün əhalini onu qarşılamağa dəvət etmişdi» (486, 117; 302, 119). Pəmbəklilər nəinki onun bu əmrinə itaət etməmiş, eyni zamanda Məhəmməd xanla əlaqə yaradaraq İrəvana köçmək istədiklərini bildirmişdilər. Pəmbəklilərin bu etinasız hərəkətindən istifadə edən knyaz A. Orbeliani rus komandanlığı ilə onların arasını vurmağa çalışırdı. O, general-mayor Lazarevə şikayət edərək pəmbəklilərin əmrə tabe olmadıqlarını və İrəvan hakimi ilə əlaqə saxlamaları haqqında xəbər vermişdi (304, 219; 486, 117-118).

Pəmbəyin Kartli-Kaxetiya ərazisi kimi Rusiyaya birləşdirilməsi İrəvan hakiminin də kəskin narazılığına səbəb olmuşdu. O, bu məqsədlə naxçıvanlı Kəlbəli xan və digər nüfuzlu əyanlarla birlikdə İrəvanda müşavirə keçirdi. Müşavirədə xristianların müsəlmanlar üzərində hakimiyyətinə yol verməmək üçün Pəmbəyi rus qoşunundan müdafiə etmək qərara alındı. Hətta qardaşlarına qarşı müxalifətdə olan II İraklinin oğlanları David və Vaxtanq da Məhəmməd xana müraciət edərək sultanlığı Rusiya işğalından qorumağı xahiş etmişdilər (410, 617-618; 398, 56; 179, 219).

Belə imkanı özü üçün əlverişli hesab edən Məhəmməd xan Pəmbək ağalarına müraciət edərək onun təbəəliyinə keçməyi tələb etdi. Xanın bu təklifinə pəmbəklilər müsbət cavab verdilər. Nəticədə, 400 nəfərdən ibarət İrəvan hərbi dəstəsi Pəmbəyə göndərildi. Tezliklə, 14 kəndin 6 min nəfərdən ibarət əhalisi İrəvan xanlığının ərazisinə köçürüldü (409, 599; 179, 218-219).

Pəmbəklilərin üsyanı Qafqazdakı rus qoşunlarının baş komandanlığını bərk təşvişə salmışdı. Ruslar bu hadisədə İrəvan hakiminin və onun qohumu olan naxçıvanlı Kəlbəli xanı günahlandırırdılar. Baş verən həyəcanları yatırmaq üçün K.F.Knorrinq general-mayor İ.P.Lazarevi Pəmbəyə göndərdi. 1801-ci il iyunun 30-da bir atıcı alayı, üç yüngül topla təchiz olunmuş 19-cu yeger alayı, 100 kazak və 1 topu olan 500-ə qədər gürcü dəstəsi İ.P.Lazarevin başçılığı ilə Tiflisdən Pəmbəyə doğru hərəkət edir. Pəmbək çayı sahilindəki Darbar kəndinə yaxın yerdə düşərgə salan erməniəsilli rus generalı Məhəmməd xanla danışıqlara başladı (408, 598; 409, 599).

Məhəmməd xan öz hərəkətinə haqq qazandırmaq və rus qoşununun Pəmbəyə girməsinin qarşısını almaq üçün ilk növbədə yaxın adamı Abbas xanı İ.P.Lazarevin yanına göndərdi. Söhbət zamanı elçi bildirdi ki, Pəmbək sultanlığı İrəvan xanlığına məxsusdur və bu barədə Ağa Məhəmməd şahın xüsusi fərmanı vardır. Daha sonra elçi xanın ruslara qarşı heç bir qərəzli niyyəti olmadığını, əksinə Rusiya himayəsinə keçmək fikrində olduğunu bildirərək, İ.P.Lazarevdən rus qoşunlarının Pəmbək ərazisinə girməməsini xahiş etdi (412, 600; 179, 219-220).

Lakin İrəvan hakiminin İ.P.Lazarevlə danışıqları heç bir nəticə vermədi. General elçiyə bildirdi ki, Gürcüstan əhalisinin təhlükəsizliyi üçün cavabdehdir və bu səbəbdən Pəmbəyə doğru hərəkət edir. O, xana xəbər göndərərək İrəvana köçən əhalinin geri qaytarılmasını tələb etdi. Rus qoşunu ilə açıq münaqişəyə girməkdən ehtiyat edən Məhəmməd xan Pəmbək qaçqınlarının geri qayıtmasına icazə verdi. İlk növbədə beş kəndin əhalisi geri qaytarıldı. Qalan əhalini geri qaytarmaq üçün knyaz Solomon Tarxanov xanın yanına göndərildi. S.Tarxanovla söhbətdə xan öz hərəkətinə haqq qazandıraraq, bir daha Pəmbəyin ona məxsus olmasını bildirmişdi. Lakin rus komandanlığı ilə münasibətləri pozmaq istəməyən İrəvan hakimi digər kəndlərin əhalisinin də geri qayıtmasına icazə vermişdi. Qaçqınların geri qayıtması ilə kifayətlənən İ.P.Lazarev mayor Çegişevin başçılığı ilə Tiflis atıcı alayını Pəmbək sultanlığının mərkəzi olan Qarakilsə kəndində yerləşdirərək geri qayıtdı (412, 599-601; 116, 604; 117, 605; 398, 75).

Bundan əlavə, Məhəmməd xan rus komandanlığının digər tələbini də yerinə yetirmək məcburiyyətində qaldı. Belə ki, şörəyelli bir Azərbaycan türkünü gürcü knyazı Solomon Məlikov incitdiyinə görə, xan İrəvanda ticarət edən gürcü tacirlərini həbs edərək onlardan 1200 rubl istəmişdi. Bunu eşidən Q.M.Lazarev xandan tacirlərin azad olunmasını tələb etmişdi. Əlacsız qalan Məhəmməd xan bu tələbi yerinə yetirməyə məcbur olmuşdu (487, 122).

Beləliklə, İrəvanın Pəmbək üzərində öz daimi hüquqlarını bərpa etmək cəhdi tam iflasa uğramışdı.

## 3.2. Birinci Rusiya-Qacar müharibəsi ərəfəsində İrəvan xanlığının xarici siyasəti

1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının rəsmi surətdə Rusiyaya birləşdirilməsi haqqında çar manifesti elan olundu. Manifestə görə Qafqazdakı rus qoşunlarının baş komandanı və mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Azərbaycanın Kartli-Kaxetiya çarlığının vassal asıllığında olan Borçalı, Qazax, Şəmşəddil sultanlıqları ilə bərabər, Pəmbək və Şörəyel də bu quberniyanın tərkibində qeyri-qanuni olaraq Rusiyanın tərkibinə daxil edildi (178, 19-27). Bunun ardınca imperator I Aleksandr digər Azərbaycan torpaqlarını qəsb etmək yolları haqqında K.F.Knorrinqə xüsusi təlimat göndərdi. On bir bənddən ibarət olan bu təlimatın 10-cu bəndində yazılırdı: “Qonşu hakimlər və xalqlarla əlaqə saxlayaraq Rusiyaya meyl edənlərin sayını artırmaq lazımdır, xüsusən də hələ üzərində Baba xanın (Fətəli şahın – E. Q.) hakimiyyəti təsdiq olunmamış, hazırkı şəraitdə özlərinin təhlükəsizliyi üçün Rusiyaya daha çox meyl göstərən İrəvan, Şəki, Şirvan, Bakı və başqa xanlıqları cəlb etmək lazımdır” (398, 65). Kartli-Kaxetiya çarlığı Rusiyaya birləşdirildikdən sonra general-leytenant K.F.Knorrinq böyük qüvvə ilə Tiflisə gəlmişdi.

Bu tarixi hadisə Qacar dövlətini bərk təşvişə salmışdı. Xorasan üsyanını yatıran Fətəli şah 1802-ci ilin əvvəllərində onun hakimiyyətini tanımaq istəməyən Azərbaycan xanlarına fərmanlar göndərərək tabe olmalarını tələb etdi. O, əvvəlcə ona müxalif olan Azərbaycanın xanlarını öz tərəfinə çəkmək və sonra onların qüvvələri ilə birlikdə Kartli-Kaxetiyaya hücum etmək niyyətində idi. Tehrana gələn şah ilk növbədə İrəvan hakiminə hədələyici fərman göndərdi. Fərmanda o, Məhəmməd xandan İrəvanda məskunlaşmış naxçıvanlıların geri qaytarılmasını tələb etdi. Fətəli şah İrəvana yürüş etmək üçün hətta qoşun da toplamış və mart ayında özü də İrəvana gəlmək niyyətində olmuşdu (107, c.2, səh.513-514).

Bu xəbərdən qorxuya düşən Məhəmməd xan İrəvan qalasının müdafiəsini gücləndirməyə başladı. Onun səyi nəticəsində qalanın hərbi qarnizonu artırılmış, anbarlar isə ərzaqla doldurulmuşdu (415, 618; 107, c.2, səh.514). Öz qüvvəsinə əmin olmayan Məhəmməd xan hərbi kömək almaq məqsədi ilə rus qoşunlarının baş komandanı general-leytenant Knorrinqə və general-mayor Lazarevə müraciət etdi. O, yaxın adamlarından biri olan Eyvaz xan Sultanın başçılığı ilə Tiflisə nümayəndə heyəti göndərdi. Nümayəndə heyəti general-mayor Lazarevin qəbulunda oldu. Elçi xanın Rusiya təbəəliyinə keçmək arzusunda olduğunu qeyd edərək, şah qoşununa qarşı mübarizə üçün 300 nəfərdən ibarət hərbi qüvvə istəmiş və əvəzində şahzadə Aleksandrı ruslara təhvil verəcəyini bildirmişdi. Xan bu qüvvələri saxlamaq üçün hər il 1.000 tümən məbləğində ərzaq ayıracağını öhdəsinə götürmüşdü. Lakin general-mayor Lazarev xanın elçisini əli boş geri qaytararaq, xanın istəyini baş komandana çatdıracağına söz vermişdi (486, 144; 415, 618; 179, 16-17).

Şah qoşunlarının İrəvana və oradan da Kartli-Kaxetiyaya hücum etmək niyyəti rus komandanlığını narahat etməyə bilməzdi. İrəvan hakiminə boş vədlər verən K.F.Knorrinq ehtiyat tədbirləri görməyə başladı. O, 1802-ci il martın 26-da çara raport göndərərək şah qoşunlarının İrəvana və oradan Kartli-Kaxetiyaya hücum edəcəyi haqqında məlumat vermişdi. Bunun ardınca K.F.Knorrinq 1802-ci il aprelin 18-də Məhəmməd xana məktub yazaraq, onu Rusiyanın təbəəliyinə keçməyi təklif etmişdi (398, 86-87).

Çar I Aleksandr da öz növbəsində 1802-ci il aprelin 25-də K.F.Knorrinqə beş bənddən ibarət xüsusi təlimat göndərdi. Təlimatın dörd bəndi İrəvana aid idi. Çar təlimatda rus komandanlığına nəyin bahasına olursa olsun şah qoşunlarının İrəvanda möhkəmlənməsinə yol verməməyi, Məhəmməd xanı rus təbəəliyinə keçməyə inandırmaq üçün yollar axtarmaqı, İrəvan qalasında rus qoşununu yerləşdirməyi tapşırmışdı (398, 88-89). Bunun ardınca rus komandanlığı Kartli-Kaxetiyada olan hərbi qüvvələrini daha da gücləndirməyə başladı. Qafqaz xəttində ərzaqla təchiz olunmuş 7 min nəfərlik qoşun səfərbərliyə alındı və İrəvan xanlığı ilə sərhəddə əlavə

qüvvələr yerləşdirildi. Bu xəbəri eşidən Fətəli şah İrəvana və Kartli-Kaxetiyaya nəzərdə tutulmuş yürüşü başqa bir vaxta keçirdi. P.Butkov yazırdı ki, «Baba xan (Fətəli şah – E. Q.) İrəvana və Kartli-Kaxetiyaya qoşun göndərmək niyyətindən əl çəkdi. Ona görə ki, Baba xanın anası həmişə onu Rusiya ilə müharibədən çəkindirərək, yalnız İranda hakimiyyətini möhkəmləndirməyi məsləhət görmüşdü» (107, c.2, səh.515).

Təhlükənin sovuşduğunu görən Məhəmməd xan rus komandanlığı ilə danışıqları kəsərək, onlardan hərbi kömək almaqdan əl çəkdi (398, 88-89; 180, 16-17). P.Butkov Məhəmməd xanın siyasətini belə şərh edirdi: «bununla bərabər, İrəvan xanı təhlükənin sovuşduğunu görərək, nəinki təbəəliyə daxil olmaq fikirindən yayınır, eyni zamanda Rusiyanın düşməni naxçıvanlı Kəlbəli xanla, şahzadə Aleksandrla (II İraklinin oğlu – E. Q.) birlikdə zahirdə ruslara dostluq münasibəti göstərir, batində isə imkan düşən kimi Gəncə xanı, Ahalsıx paşası və İmeretiya çarı ilə birlikdə rusları Kartli-Kaxetiyadan sıxışdırmaq, əgər buna nail olmadıqda imkan düşdükcə ziyan vurmaq üçün yürüşlərdə iştirak edirdi» (107, c.2, səh.515-516).

Qacar təhlükəsindən qurtaran Məhəmməd xan qaynı Kəlbəli xanla birlikdə Qars paşasına qarşı müharibəyə başlayır. Onlar arasında düşmənçilik Qars hakimi Məhəmməd paşanın günahı üzündən başlamışdı. 1802-ci il mayın 26-da Kəlbəli xanın polkovnik Karyaginə yazdığı məktubdan bəlli olur ki, Qars hakimi Məhəmməd paşa İrəvan və Naxçıvan xanlıqlarına düşmən olan qüvvələrlə birləşərək tez-tez bu xanlıqların sərhəd ərazilərinə qarət məqsədilə hücumlar təşkil edir, onların Qarsdan keçən karvanlarını soyur, tacirlərini döyür və mallarını əllərindən alırdı (310, 625-626). Kəlbəli xan mayın 27-də yazdığı digər məktubda isə Qars paşası ilə barışmaq üçün bir neçə təklif irəli sürmüşdü. Bu təklifdə Məhəmməd paşanın düşmənçilik əməlləri qabarıq göstərilmişdi. Bu təkliflər aşağıdakılardan ibarət idi: 1) İrəvan qarapapaqlarının geri qaytarılması; 2) ələ keçirilmiş Üçmüəzzin əşyalarının təhvil verilməsi; 3) orada sığınacaq tapmış əhalinin geri qaytarılması; 4)

qarət edilmiş tacirlərin mallarının geri qaytarılması; 5) yandırılmış və talan edilmiş 10 kənddə məxsus meşənin yenidən bərpa edilməsi (311, 626). Qeyd etmək lazımdır ki, məktub Kəlbəli xanın adından yazılsa da, burada İrəvanla bağlı hadisələrə toxunulmuşdu.

Məhəmməd paşanı cəzalandırmaq məqsədilə İrəvan qoşunu Kəlbəli xanın başçılığı ilə Qars ərazisinə daxil olaraq onun bir hissəsini tutdu. İrəvanlıların təzyiqinə davam gətirə bilməyən Məhəmməd paşa kömək üçün general-leytenant Knorrinqə müraciət etdi. Məhəmməd xanın bu addımı rus komandanlığını narahat etməyə bilməzdi. İrəvan hakimini cəzalandırmaq qərarına gələn K.F.Knorrinq Məhəmməd paşanın müraciətindən istifadə edərək, Osmanlı ərazisinə qoşun yeritdi. 1802-ci il aprel ayının əvvəllərində Osmanlı ərazisinə daxil olan rus qoşunu Məhəmməd paşanın dəstələri ilə birlikdə Kəlbəli xanın başçılıq etdiyi İrəvan qoşununu məğlub etdi (398, 84).

Məğlubiyyətə baxmayaraq, İrəvan hakimi geri çəkilmək niyyətində deyildi. İrəvanda toplanmış güclü silahlı qüvvə Kəlbəli xanın başçılığı ilə 1802-ci il mayın ortalarında Pəmbək və Qars istiqamətində yenidən yürüşə başladı. Bu hücumun qarşısını almaq üçün K.F.Knorrinqin əmrinə əsasən, Pəmbək ərazisində yerləşən rus qoşunlarının başçısı polkovnik Koryagin öz dəstəsini döyüş hazırlığına gətirdi. Mayın 17-də isə general-leytenant Knorrinq Qars paşasına məktub yazaraq ruslarla birlikdə yürüşdə iştirak etməyi təklif etdi (398, 94, 108; 107, c.2, səh, 517).

Rusiya komandanlığından belə bir məktub alan Qars hakimi bundan yararlanmağa qərara aldı. Nəticədə, 1802-ci il mayın 28-də rus qoşunu ilə Qars paşasının qüvvələri Arpa çayının sahilində, Qars paşalığına məxsus ərazidə İrəvan qoşunu ilə üz-üzə gəldi. Bu döyüşdə 12.000 süvaridən, 2.500 piyadadan ibarət İrəvan qoşunu və müttəfiq qoşunları – 583 nəfər, 3 topa malik rus, 6.000 süvari, 2.000 piyadadan və 3 topdan ibarət Osmanlı qoşunu iştirak etmişdi. Rus qoşununun tərkibində 202 nəfərdən ibarət pəmbəkli də vardı (428, 627; 121, 628). Üç saata qədər davam edən döyüşdə İrəvan qoşunu güclü müqavimət göstərsə də məğlub olaraq geri çəkildi. Döyüşdə

İrəvan qoşunundan 500, osmanlılardan isə 70-ə qədər əsgər ölmüş və yaralanmış, ruslardan isə itki olmamışdı (426, 627; 121, 628). Məğlub olan Kəlbəli xan geri çəkilərək Arpa çayının yuxarılarında düşərgə saldı. O, İrəvandan kömək almaqla yürüşü davam etdirmək niyyətində idi (427, 627).

Qars hakimi Məhəmməd paşa irəvanlıların məğlubiyyətindən daha çox yararlanmağa çalışırdı. O, mayın 31-də K.F.Knorrinqə yazdığı məktubda İrəvana hücum üçün əlverişli imkanın olduğunu bildirirdi. Qars paşası rus komandanlığından hərbi kömək istəyir və İrəvanı tutucağına söz verirdi (398, 98). O, iyunun 23-də yazdığı digər məktubunda isə bu planı həyata keçirmək üçün baş komandandan artilleriya ilə təchiz olunmuş 2 min nəfərdən ibarət hərbi qüvvəni polkovnik Koryaginin başçılığı ilə İrəvana göndərilməsini xahiş edir (398, 108; 107, c.2, səh.527). Paşa iyunun 28-də üçüncü dəfə göndərdiyi məktubda isə K.F.Knorrinqdən İrəvanın işğalı üçün 1000 nəfərdən ibarət hərbi qüvvə istəmişdi (312, 710). Lakin Məhəmməd paşanın niyyətini bəyənməyən və İrəvana dair öz planları olan rus komandanlığı onun məktublarını cavabsız qoymuşdu.

Tezliklə, İrəvan hakimi Məhəmməd xan rus komandanlığı ilə münasibətləri yenidən bərpa etmək məcburiyyətində qaldı. Belə ki, 1802-ci ilin yayında İrəvan xanlığı yenidən Qacar təhlükəsi ilə üzləşdi. Fətəli şahın yaxın sərkərdəsi Pirqulu xan iyul ayında Şuşaya və oradan da Naxçıvana gəldi. Naxçıvandan 60 verst aralıda düşərgə salan Pirqulu xan şahın adından İrəvan hakiminə məktub göndərdi. O, məktubda Məhəmməd xandan Naxçıvandan İrəvana köçmüş 200 kəngərli ailəsini geri qaytarmağı, əks halda bəzi məlumata görə 10.000 tümən, digər məlumata görə isə 8.000 tümən məbləğində bac verməyi tələb etmişdi (486, 144, 162; 107, c.2, səh.527). Bundan əlavə, İrəvan hakimi öz dəstəsi ilə şah qoşununa birləşərək Şuşaya getməli və burada Qarabağ, Şəki, Şamaxı xanlıqlarının qoşunları ilə birlikdə Kartli-Kaxetiyaya yürüş etməli idi. Yürüşdə gürcü şahzadəsi Aleksandrın da iştirakı nəzərdə tutulmuşdu. (486, 144, 163; 178, 45).

Fətəli şaha tabe olmaq istəməyən Məhəmməd xan kömək üçün rus komandanlığına müraciət etdi. O, 1802-ci ilin iyununda Məhəmmədzaman bəyin başçılığı ilə Tiflisə nümayəndə heyəti göndərdi. Heyətin məqsədi Qacar təhlükəsinə qarşı hərbi kömək istəmək və Qars paşalığı ilə olan münasibətlərə aydınlıq gətirmək idi. Baş komandanın qəbulunda olan elçi İrəvanla Qars arasında baş verən düşmənçiliyin səbəblərini izah etmək istəsə də, onun sözü kobudluqla kəsilmiş və heyət əliboş geri qayıtmışdı. Lakin rus komandanlığından hərbi kömək almaq ümidini itirməyən Məhəmməd xan Tiflisə Eyvaz xanın başçılığı ilə yeni nümayəndə heyəti göndərdi (398, 110). İrəvan hakiminin bu cəhd də boşa çıxdı.

Hərbi kömək almaq ümidinin boşa çıxdığını görən Məhəmməd xan Pirqulu xanın tələblərini yerinə yetirmək məcburiyyətində qaldı. O, Naxçıvandan İrəvana köçmüş 200 kəngərli ailəsini geri qaytarmağı və tələb olunan məbləği ödəməyi söz verdi (486, 154-162). Lakin rus komandanlığının Qacar təhlükəsinə qarşı müəyyən tədbirlər görməsi nəticəsində Pirqulu xan Azərbaycandan geri çağırıldı.

Təhlükənin sovuşduğunu görən Məhəmməd xan Qars paşalığına qarşı mübarizəni davam etdirdi. O, bu mübarizədə özünə müttəfiq də tapa bilmişdi. İrəvan hakimi Ahalsıxda qiyam nəticəsində hakimiyyətə gəlmiş Şərif paşadan istifadə etmək qərarına gəldi. Belə ki, 1801-ci ililin ortalarında Ahalsıxda baş vermiş qiyam nəticəsində Sabit paşa əmisi oğlu Şərif paşa tərəfindən hakimiyyətdən devrilmişdi (118, 700; 120, 701; 408, 700).

Rəqibini aradan götürən Şərif paşa qonşu paşalıqlara və Kartli-Kaxetiyaya hücumlar təşkil etməyə başlayır. Onun bu hərəkəti Qars paşalığı ilə düşmən olan İrəvan hakiminin siyasətinə uyğun gəlirdi. O, Şərif paşaya məktub yazaraq onu dəstəklədiyini və lazım gələrsə hərbi qüvvə ilə kömək göstərməyə hazır olduğunu bildirmişdi. Məhəmməd xandan bu məzmunda məktub alan Şərif paşa kömək almaq məqsədilə İrəvana gəldi (429, 892; 316, 893; 317, 902-903). Ahalsıqlı Şərif paşanı Məhəmməd xandan başqa naxçıvanlı Kəlbəli xan və Bəyazid paşası da dəstəkləyirdi. Şərif

paşa müttəfiqlərin köməyi nəticəsində türklərdən və dağıstanlılardan ibarət 12.000 nəfərlik silahlı qüvvə toplaya bildi (486, 122).

Şərif paşa və müttəfiqləri gürcü şahzadəsi Aleksandr Mirzə ilə də əlaqə saxlayırdılar. Müttəfiqlərin gürcü şahzadəsini bu hadisəyə cəlb etməsinin daha ciddi səbəbi vardı. Qars hakimi Məhəmməd paşa 1802-ci il iyunun 28-də rus qoşunlarının baş komandanı K.F.Knorrinqə yazdığı məktubda onların planını belə şərh edirdi: «… ahalsıqlı Şərif paşa İrəvan xanı ilə birləşərək Dağıstan qoşununu gətirib ki, Gürcüstanı ələ keçirsin, Tiflisi Aleksandr Mirzəyə təhvil versin" (398, 109). Hətta onlar bu planı həyata keçirmək üçün maliyyə mənbəyi də tapmışdılar. Erməni arxiyepiskopu David Eçmiədzin tax-tacına yiyələnmək üçün kilsənin xəzinəsini onlara vermişdi (331, 109). İrəvan hakimi ilə birləşən, dağıstanlılardan kömək alan Şərif paşa Kartli-Kaxetiya, Qars və Çıldır ərazilərinə tez-tez yürüşlər təşkil edirdi (118, 700; 307, 705).

Şərif paşanın qiyamının genişlənməsi sultanı bərk narahat edirdi. O, Ərzurum paşasına fərman göndərərək bu qiyamı yatırmağı əmr etdi. Fərmana görə, sultan tərəfindən sərəsgər rütbəsi alan Ərzurum paşası Qars və Çıldır əhalisi ilə birlikdə Şərif paşa qiyamını yatırmaq göstərişi almışdı (489, 705-706; 407, 707-708; 486, 177). Öz qüvvələrilə bu qiyamı yatıra bilməyəcəyini hiss edən paşalar kömək üçün rus komandanlığına müraciət etdilər. Ərzurum paşası yaxın adamı Səlim ağanı general-leytenant K.F.Knorrinqin yanına göndərərək, İrəvan hakimini düşmənçilik hərəkətlərindən çəkindirməyi xahiş etmişdi (398, 79-80; 307, 705).

Lakin paşalar öz qüvvələri ilə bu qiyamı yatırmağa nail oldular. 1802-ci il oktyabrın 17-də sabiq Ahalsıx hakimi Sabit paşanın yaxın adamı Səlim ağanın və Qars hakimi Məhəmməd paşanın qardaşı Qara bəyin başçılığı ilə 2 minlik qoşun Axalsıx qalasına hücum etdi. Qəflətən yaxalanmış Şərif paşa bu hücuma dözüş gətirə bilməyərək yaxın adamları ilə birlikdə qaladan qaçmaqla canını qurtara bildi (122, 703-704; 417, 704).

İrəvan hakimi Qars paşasını cəzalandırmaq üçün Ahalsıxda baş verən hadisədən istifadə etmək qərarına gəldi. O, müttəfiqi Şərif

paşanı yenidən hakimiyyətə gətirmək adı altında Kəlbəli xanın başçılığı ilə İrəvanda 10.000 nəfərlik silahlı qüvvə topladı. Bu yürüşü həyata keçirmək üçün Məhəmməd xan və Kəlbəli xan Bəyazid paşası ilə razılığa gəldilər (486, 175-176). Eyni zamanda İrəvan hakimi rus komandanlığından arxayın olmaq və dəstək almaq üçün 1802-ci il dekabrın 3-də Hacı bəyin başçılığı ilə Tiflisə nümayəndə heyəti göndərdi. General-mayor Lazarevin qəbulunda olan nümayəndə heyəti bu əməliyyatda Məhəmməd xanın yalnız Şərif paşanı yenidən hakimiyyətə gətirmək niyyətində olduğunu bildirərək, ondan İrəvan qoşunlarının Kartli-Kaxetiya ərazisindən maneəsiz keçməsinə icazə verilməsini xahiş etmişdi. Danışıqlarda elçi tərəf müqabilini Qars paşasının Rusiya dövlətinin də düşməni olduğunu inandırmağa çalışmışdı. Lakin general-mayor Lazarev elçi ilə kəskin danışmışdı. O, elçiyə hədə-qorxu gələrək cavab vermişdi ki, əgər İrəvan qoşunu Kartli-Kaxetiya sərhədinə yaxınlaşarsa rus qoşunu ilə üzləşəcəkdir. Bununla belə, general-mayor İrəvan hakiminə Qars paşası ilə barışmağı məsləhət görmüşdü (419, 622-623). Danışıqlarla istəyinə nail olmayan nümayəndə heyəti əliboş İrəvana qayıtdı.

Beləliklə, Rusiya komandanlığı ilə münasibətləri gərginləşdirməmək istəyi və bölgədə qüvvələr nisbətinin bu dövlətin xeyrinə dəyişməsi İrəvan hakiminin öz niyyətindən əl çəkməsinə səbəb oldu.

## 3.3. İrəvan xanlığı birinci Rusiya-Qacar müharibəsinin əvvəllərində

Kartli-Kaxetiya çarlığı Rusiyaya birləşdirildikdən sonra bölgəni narazılıqlar və həyəcanlar bürümüşdü. Bu qarışıqlığı yatırmaqda aciz qalan baş komandan K.F.Knorrinqin siyasəti çar I Aleksandrın da narazılığına səbəb olmuşdu. Buna görə də, çarın fərmanına əsasən 1802-ci il sentyabrın 8-də K.F.Knorrinqin yerinə P.D.Sisianov Qafqazdakı rus qoşunlarının baş komandan təyin

edildi. Şöhrətpərəst, qəddar, kobud, çox hiyləgər lakin bacarıqlı hərbçi olan P.D.Sisianov hələ 1796-cı ildə V.A. Zubovun başçılığı ilə rus qoşunlarının Quzey Azərbaycana yürüşündə iştirak etmişdi. Hətta o, 1796-1797-ci illərdə Bakının komendantı da olmuşdu (375, 42-45; 95, 184; 111, 26; 199, 60).

Onun Qafqazdakı rus qoşunlarına baş komandan təyin edilməsi ilə Rusiyanın Gənubi Qafqazı işğal etmək planlarının geniş şəkildə reallaşdırılmasına başlanıldı. Tarixi ədəbiyyatda Rusiya-Qacar müharibələri, bu muharibələrdə Azərbaycan xanlıqlarının vəziyyəti və rolu haqqında ətraflı məlumat verildiyindən, biz burada həmin müharibənin yalnız İrəvan xanlığı ilə bağlı hadisələrinə toxunacağıq. Qeyd etmək lazımdır ki, Azərbaycanın digər xanlıqlarından fərqli olaraq Rusiyanın İrəvan xanlığının daxili işinə müdaxiləsi daha əvvəl başlamışdı. XIX yüzilliyin əvvəllərindən rus komandanlığı Üçmüəzzin katolikosluğunun taxt-tacı uğrunda gedən mübarizəni bəhanə edərək Məhəmməd xana təzyiq göstərirdi. İrəvan xanlığına müdaxilədə rus komandanlığının əlində bəhanə olan bu hadisə üzərində bir qədər ətraflı dayanmaq istərdik. 1801-ci ilin martında Eçmiədzin katolikosu Arqutinski Tiflisdə vəfat etdi. Katolikos vəzifəsinin boş qalmasından istifadə edən arxiyepiskop Davıd İrəvan hakiminə çoxlu hədiyyə verərək, onun köməyi ilə 1801-ci il aprelin 28-də bu vəzifəyə seçildi. Onun namizədliyini dəstəkləyən Məhəmməd xan hətta Davidin təhlükəsizliyi üçün Eyvaz Sultanın rəhbərliyi altında Eçmiədzində bir dəstə silahlı qüvvə də yerləşdirmişdi (416, 622).

Lakin əksər erməni ruhaniləri və zadəganları buna etiraz edərək, İstanbulda yerləşən erməni kilsəsinin arxiyepiskopu Danili katolikos seçdilər. Vəzifəsini icra etmək üçün Danil Bəyazidə gəldi. Lakin İrəvan hakimi ilə normal qonşuluq münasibətində olan Bəyazid hakimi Mahmud paşa onu həbs edərək, Məhəmməd xana təhvil verdi. Xan onu Eçmiədzinə-Davıdın yanına göndərdi. Danil isə burada rəqibi tərəfindən dustaq edildi (123, 605; 494, 15-18; 499, 114-115; 178, 114).

Ermənilər Rusiyanın diqqətini İrəvan xanlığına cəlb etmək üçün Davıdlə Danil arasında katolikos vəzifəsi uğrunda baş verən mübarizədən məharətlə istifadə etməyə başladılar. Onlar çar I Aleksandrın diqqətini də bu məsələyə yönəldə bilmişdilər. Erməni xadimləri Davidi yalançı katolikos adlandıraraq kömək üçün Rusiyaya müraciət etdilər. İrəvan xanlığının daxili işlərinə qarışmaq üçün belə imkanın ələ düşməsindən istifadə edən Rusiya bu hadisədən yüksək səviyyədə yararlanmağa çalışdı. Rusiyanın Cənubi Qafqazdakı hərbi dairələri bu məsələni Danilin xeyrinə həll etmək üçün Məhəmməd xana təzyiq göstərməyə başladılar. Baş komandan K.F.Knorrinq Məhəmməd xana məktub yazaraq Danili katolikos vəzifəsinə təyin etmək üçün yardım göstərməsini tələb etmişdi. O, yazırdı ki, əgər xan Danili katolikos kimi tanısa, Rusiya hökumətinə sadiqliyini sübut etmiş olardı. Məhəmməd xan Rusiya ilə münasibətləri kəskinləşdirməmək üçün öz növbəsində baş komandana yazırdı ki, «o, Rusiyaya sadiqdir. Rusların ondan hər iki arxiyepiskopun patriarx (katolikos – E. Q.) vəzifəsinə təyin edilməsi üçün xahiş etmələri onu təəccübləndirir» (178, 115).

Hətta çar I Aleksandr (1801-1825) bu məsələ ilə bağlı 1802-ci il mayın 13-də Məhəmməd xana xüsusi fərman göndərmişdi. Fərmanda göstərilirdi ki, Danil erməni xalqının arzusu ilə seçildiyinə görə, Məhəmməd xan onun katolikos vəzifəsinə keçməsinə kömək etməlidir. Fərmanda Danilin katolikos təyin edilməsinə sultanın da razı olduğu göstərilmişdi (398, 93-94). Bundan əlavə, baş komandan general-leytenant K.F.Knorrinqin göstərişi ilə İ.Gençaurov 1802-ci il sentyabrın 21-də İrəvana gəlmişdi. Sentyabrın 28-də Məhəmməd xanın qəbulunda olan elçi onu Danilin namizədliyini dəstəkləməyi inandırmağa çalışsa da, xan Davıdın qanunla seçildiyini qeyd edərək, məhz onu dəstəklədiyini bildirmişdi (416, 621-622)

P.D.Sisianov rus qoşunlarının baş komandanı təyin edildikdən sonra bu məsələdə İrəvan xanlığına təzyiqi daha da gücləndirdi. Ona verilən təlimata görə, «baş komandan Danilin tərəfdarları ilə patriarx Davıdın tərəfdarları arasında olan rəqabəti bütün vəziy-

yətlərdə yerindəcə təhqiq" və həll etməli idi (178, 120). Vəzifəsinə yenicə başlayan P.D.Sisianov 1803-cü il fevralın 6-da Məhəmməd xana hədələyici məktub göndərdi. Məktubda yazılırdı ki, «mən bu şəhərə (Tiflisə – E. Q.) Gürcüstanın baş komandanı vəzifəsində gəldiyimi siz alihəzrətə bildirməyi özümə borc hesab edirəm, sizi möhkəm və səmimi dostluğa çağırıram. Əsasən, sizin xeyrinizə olan böyük Rusiyanın təbəəliyinə keçməlisiniz. Bunun üçün birinci sübutunuz, mənim sizə yolladığım, mərhəmətli Rusiya imperiyasının böyük kansleri qraf S.R.Voronsovun böyük Rusiya və böyük sultan tərəfindən təsdiq edilən bütün ermənilərin patriarxı (katolikos – E. Q.) Danil haqqında yazdığı fərmanını dəqiq icra etməlisiniz» (313, 609). Danil həbsdə olarkən P.D.Sisianov Məhəmməd xana təzyiqi daha da gücləndirdi. O, çara yazdığı məktubda bildirirdi ki, «mən o saat, öz adımdan İrəvan xanına əlavə bildiriş göndərərək tələb etdim ki, patriarx (katolikos – E. Q.) Danili azad etsin. Əlavə etdim ki, belə bir hərəkəti şifahi və məktubla deyil, işdə əməl etsin, əks halda inadına görə peşiman olacaqdır» (494, 18; 178, 120). Rusiya komandanlığı ilə münasibətləri gərginləşdirməmək üçün Məhəmməd xan Danilin azad buraxılması üçün Davidə xüsusi göstəriş verdi. Lakin Danil yenə də katolikos təyin olunmadı. O, bir müddət İrəvan xanının nəzarəti altında yaşadı (494, 19; 178, 120).

P.D.Sisianov 1803-cü il fevralın 9-da knyaz Tomas Orbelianinin başçılığı altında İrəvana xüsusi nümayəndə heyəti göndərdi. Heyət Məhəmməd xana və Kəlbəli xana Danilin katolikos vəzifəsinə təyin edilməsinə köməklik göstərməsi haqqında qraf S.R.Voronsovun və P.D.Sisianovun adından yazılmış xüsusi məktub gətirmişdi. Lakin təlimata əsasən, heyət İrəvan haqqında gizli məlumatlar da toplamalı idi. Bu heyətin tərkibinə daxil olan kapitan Çuykoya verilən təlimata görə, o, İrəvan qalasının möhkəm və zəif yerlərini, Kartli-Kaxetiyadan İrəvana gedən əlverişli yolları öyrənərək kağız üzərinə köçürməli idi (379, 609-610). Lakin göndərilən heyətin fəaliyyəti heç bir nəticə vermədi. Martın 7-də geri qayıdan heyət Məhəmməd xandan P.D.Sisianova məktub gətirmişdi.

Məktubda xan rus komandanlığının bütün tələblərini rədd edirdi (124, 610; 494, 19; 178, 121).

Məhəmməd xanın inadkarlığını görən P.D.Sisianov İrəvan xanlığına müdaxilə etmək üçün bu əlverişli imkandan istifadə etmək qərarına gəldi. O, 1803-cü ilin martında çara göndərdiyi məlumatda yazırdı ki, «Məhəmməd xan Əlahəzirət İmperatorun Danili erməni patriarxı kimi tanınması haqqında ali göstərişini yerinə yetirməkdən imtina edir. Onun cəzasız qalması silahla ələ keçirdiyimiz yerlərdə Əlahəzrətin nüfuzunu zəiflədir. Ona görə də mən, Məhəmməd xanı cəzalandırmaq, Danili erməni patriarxı (katolikosu – E. Q.) təyin etmək üçün İrəvana getməli və orada qarnizon yerləşdirməliyəm. Yerli erməni tacirləri bizi ərzaqla təmin etməyi vəd edirlər» (124, 610).

Rus komandanlığının niyyətindən xəbərdar olan Məhəmməd xan gec-tez rus qoşunu ilə üzləşəcəyini dərk edərək özünə müttəfiq axtarmağı qərara aldı. O, Osmanlı sarayına müraciət edərək, rus qoşununa qarşı mübarizə aparmaq üçün kömək istədi. Lakin Osmanlı dövləti xanın nümayəndələrinə rədd cavabı vermişdi (266, 874-875).

Sultandan kömək almaq ümidini itirən Məhəmməd xan rus komandanlığı ilə münasibətləri normallaşdırmağı qərara aldı. O, yaxın adamı Hacı Fərzəli bəyi məktubla P.D.Sisiyanovun yanına göndərdi. Lakin baş komandan bu məktuba heç bir cavab vermədi. İrəvan xanı ikinci dəfə rus komandanlığına məktub göndərdi. Bu məktubdan sonra 1803-cü il iyunun 4-də P.D.Sisianov Məhəmməd xana çox kəskin və hədələyici bir cavab yazdı. Həmin məktubun əsas məzmunu belədir: «Sizin yüksək məqamlı Hacı Fərzəli bəylə mənə çatdırılan məktubunuza ona görə cavab vermədim ki, o (məktub – E. Q.) mənim cavabıma layiq deyil. Ona görə ki, ədəbsiz kəlmələrlə dolu məktuba rus generalı, baş komandan sözlə cavab verməyə borclu deyil. Hacı Fərzəli bəy İrəvana geri göndərildiyi vaxt sizdən məzmunu bir qədər sülh axtarmağa və mehriban qonşuluğa meylli ikinci məktub aldım. Ona görə də, siz ali məqama aşağıdakılara cavab verməyi özümə borc hesab edirəm: … patriarx

(katolikos – E. Q.) Danili Eçmiədzin taxtında oturdub, Davidi isə Tiflisə mənim yanıma göndərin. Mənim sizinlə münasibətimin kəsilməsinin səbəbi bu olmuş, bu da İrəvan xanlığının xilasına və yaxud məhvinə səbəb olacaqdır. Bu məsələlər üçün sizin yanınızda olan iki nümayəndəmizin müvəffəqiyyətsizliklə geri qayıtması Rusiya imperiyasının şöhrətinə ədəbsizlik olduğundan, mən bunu müzakirə etmək üçün İrəvana nümayəndə göndərməyi lazım bilmirəm» (318, 611). P.D.Sisianovdan bu hədələyici məktubu alan İrəvan hakimi onunla müvəqqəti əlaqəni bir müddət kəsməli oldu.

Üçmüəzzində katolikos taxt-tacı uğrunda gedən mübarizədə Məhəmməd xanın tutduğu mövqe bir daha sübut edir ki, o, hər hansı kənar dövlətin xanlığın daxili işlərinə qarışmasına dözmək fikirində deyildi və xanlığı müstəqil idarə emək niyyətində möhkəm dayanmışdı.

İrəvan xanlığı ilə gərgin münasibətlərə baxmayaraq, Rusiya Azərbaycana növbəti hərbi yürüşə Azərbaycanın şimal-qərbi torpaqlarından-Car-Balakən istiqamətindən başladı. 1803-cü ilin mart-aprel aylarında general Qulyakovun başçılığı ilə rus qoşunları Car-Balakənə hücum edərək buranı işğal etdi. Bunun ardınca uzun sürən mübarizədən sonra 1804-cü ilin yanvarın 3-də Gəncə xanlığı rus qoşunları tərəfindən qəsb və talan edildi (178, 93-95; 23, 18-19).

Bu ərazilər işğal edildikdən sonra P.D.Sisianov İrəvan xanlığına hücum etməyi qərara aldı. O, öz planını həyata keçirmək üçün çar I Aleksandrdan əlavə kömək istədi. Baş komandan 1803-cü il martın 12-də imperatora yazdığı məlumatda, İrəvan xanlığının işğalını uğurla başa çatdırmaq üçün əlavə 3 alay və 100.000 rubl məbləğində pul lazım olduğunu bildirmişdi. Bu qüvvələrlə o, nəinki İrəvanı, həmçinin Naxçıvan və Şuşanı almağı və Kür-Araz boyu ərazilərin işğalını başa çatdırmağı vəd edirdi (124, 610; 178, 121; 67, 47). İrəvana yürüş etmək üçün 1804-cü ilin mayında rus qoşunu Tiflisdə cəmləşməyə başladı (398, 258).

Rus qoşunlarının bölgədə işğalçılıq yürüşünə başlaması Qacar şah hökumətini narahat etməyə başladı. Qacar dövləti tələm-tələsik əks addımlar atmağı qərara aldı. Fətəli şah Qacarın əmri ilə

Təbrizdə şahzadə Abbas Mirzənin və Süleyman xanın komandanlığı altında 20-30 minlik qoşun toplandı. Bu qoşunun bir hissəsi Abbas Mirzənin komandanlığı altında İrəvana, digər hissəsi isə Şuşaya yürüş etməli idi. Həmin ərazilər tutulduqdan sonra hər iki dəstə Gəncə xanlığı ərazisində cəmləşməli idi. Məhz buradan Tiflis üzərinə yürüşü nəzərdə tutulmuşdu. Şah Şəki və Şamaxı xanlarına hədiyyələr göndərərək, onlardan qoşunları ilə bu yürüşə qoşulmalarını tələb etmişdi. İrəvanlı Məhəmməd xan da belə bir göstəriş almışdı. Şahın göstərişi ilə İrəvan xanı hətta Təbrizə getməli idi. Əmrin icra olunmayacağı təqdirdə, şah Məhəmməd xandan bu əraziləri tərk edərək Məkkəyə ziyarətə getməyi tələb etmişdi. Əks halda Fətəli şah İrəvan və Naxçıvan xanlarını Qacarlar sarayında əlində olan oğlanlarını öldürməklə hədələmişdi (172, 611-612; 178, 297-298).

Abbas Mirzə İrəvan hakiminin könüllü təslim olmasına ümid edirdi. O, 1804-cü il aprelin 22-də Təbrizdən Bədir bəyin başçılığı altında 17 nəfər və gürcü şahzadəsi Aleksandr Mirzənin 3 nəfərdən ibarət nümayəndə heyətini İrəvana göndərdi. Elçilər şah hökumətinə tabe olmaq üçün xanı dilə tutmağa başladılar. Tərəflər arasında danışıqlardan məlum oldu ki, İrəvan xanı şaha sədaqətini sübut etmək üçün ilk növbədə 100.000 samar buğda toplayaraq, 4 minlik silahlı qüvvə ilə Gəncəyə hərəkət edərək, orada Abbas Mirzənin və Aleksandr Mirzənin qoşunları ilə birləşməli, İrəvanın 12 nüfuzlu əyan ailəsini girov verməli idi. Lakin şah hakimiyyətini özü üçün təhlükə hesab edən İrəvan hakimi bu tələbləri yerinə yetirməkdən boyun qaçırdı (179, 612).

Şaha rədd cavabı verən Məhəmməd xan aqibətinin acınacaqlı olacağını çox gözəl dərk edirdi. O, bu təhlükənin qarşısını almaq üçün Rusiya hökumətindən hərbi kömək almaq fikirinə düşdü. Məhəmməd xan bu niyyətlə P.D.Sisianova xəbər göndərərək ruslara xidmət etmək arzusunda olduğunu bildirmiş, bunun əvəzində şah qoşununun qarşısını almaq üçün hərbi kömək göstərilməsini xahiş etmişdi (95, 185; 178, 302). İrəvan hakiminin düşdüyü ağır vəziyyətdən istifadə edən P.D.Sisianov 1804-cü il mayın 10-da

Məhəmməd xana yazdığı məktubda bir neçə ağır tələb irəli sürmüşdü: "**birincisi,** xan hər şeydən əvvəl, Danili katolikos taxt-tacına bərpa etməli, yalançı katolikos David isə ruslara təhvil verilməlidir; **ikincisi**, İrəvan qalası rus qoşununa təslim edilməlidir; **üçüncüsü,** xan Rusiya imperatorunu özünün hökmdarı kimi qəbul etməli və sədaqətli olacağına and içməlidir; **dördüncüsü**, xan ildə 80 min rubl həcmində xərac verməli idi, xərac ildə iki müddətə, biri novruz bayramına qədər, digəri isə iyul ayından sonra ödənilməli idi. Əvəzində baş komandan, xanın sədaqətli olacağı halda əvvəlki vəzifəsində qalacağına; təhlükəsizliyi üçün öz vəzifəsinə imperator fərmanı ilə yenidən təsdiq ediləcəyinə; xanın ailəsini (girovları – E. Q.) İrandan geri almaq üçün hərtərəfli cəhd ediləcəyinə" söz verirdi (319, 613; 321, 614). Məhəmməd xan bu tələbləri qəbul edəcəyi halda, P.D.Sisianovun əmrilə general-mayor Leontev Pəmbəkdə yerləşən rus qoşununun başçısı mayor Montrezoru iki batalyonla və Danili katolikos taxtına oturtmaq haqqında çarın fərmanı ilə İrəvana göndərməli idi. Bu tələblər yerinə yetirildikdən sonra həm Məhəmməd xan, həm də onun qaynı naxçıvanlı Kəlbəli xan Rusiya təbəəliyini qəbul edə bilərdilər (321, 614). İki od arasında qalan Məhəmməd xan rus komandanlığının bu tələblərini qəbul etməyərək gözləmək qərarına gəldi.

İrəvana yürüş üçün rus qoşunlarının Tiflisdə cəmləşdiyi və Məhəmməd xanla danışıqların aparıldığı vaxt şahın baş vəziri Mirzə Məhəmməd Şəfi 1804-cü il mayın 23-də Yaqub bəy Gəraylını məktubla P.D.Sisianovun yanına göndərdi. Məktubda şah hökuməti baş komandandan rus qoşunlarının hansı məqsədlə Tiflisə gəlişini xəbər alır və Kartli-Kaxetiyanın ona məxsus olmasını iddia edirdi. P.D.Sisianova məsləhət görülürdü ki, rus qoşunu oranı tərk etsin, əks təqdirdə onlar silahla oradan qovulacaqdır (331, 807-808). Lakin baş komandan elçini söyüşlə qarşılayaraq şahın tələblərinə məhəl qoymadı. Əvəzində, baş vəzirə təhqiramiz məktub yazaraq bildirdi ki, «mən sizi Kür çayı və Göyçə gölündə… süngü və mərmi ilə qarşılamağa hazıram» (483, 808-809; 484, 809; 398, 267; 178, 298). P.D.Sisianovun belə təhqiramiz cavabı 1804-cü il iyunun 10-

da iki dövlət arasında diplomatik münasibətlərin kəsilməsinə səbəb oldu. Beləliklə, Qacar dövləti ilə Rusiya arasında uzunmüddətli müharibə başladı (23, 21).

**Birinci İrəvan yürüşü**. İki od arasında qalan İrəvan hakimi müstəqilliyini qorumaq üçün hər iki dövlət arasında manevr etməklə bərabər, İrəvan qalasını möhkəmləndirməyə başlamışdı. O, ənənəvi olaraq ətraf kəndlərin əhalisini qalaya köçürdü. Köçürülən hər bir şəxs özü ilə 2 litr barıt, 1 mer qurğuşun və lazımi miqdarda ərzaq götürməli idi. Məhəmməd xan onlardan arxayın olmaq üçün ehtiyat tədbirlərə əl ataraq, hər ailədən arvad və uşaqlardan ibarət girov götürmüşdü. O, elan etmişdi ki, əgər kimsə düşmən tərəfinə keçsə girovlar asılacaqdır. Xanın səyi nəticəsində qala qarnizonunun sayı 7000 nəfərə çatdırıldı (398, 267; 178, 298).

Məhəmməd xanın bütün bu tədbirlərinə baxmayaraq, xanlığın əhalisi vahimə içərisində idi. Əhalinin əksəriyyəti çıxış yolunu daha təhlükəsiz yerlərə sığınmaqda görürdü. Onların bəzisi əlçatmaz mağaralarda, bəziləri isə Osmanlı ərazilərində sığınacaq tapmışdılar. Bu təhlükədən canlarını qurtarmaq üçün iki min ailə Qarsa köçməyə başlamışdı (267, 614-615; 95, 185).

İrəvan xanlığını özünə tabe etmək üçün ilk öncə şah qoşunu yürüşə başladı. Şahzadə Abbas Mirzənin komandanlığı altında 20 minlik şah qoşununun bir hissəsi İrəvana hücum edərək, 1804-cü il iyunun 1-də qalanı mühasirəyə aldı. Digər hissəsi isə Mehdiqulu xanın komandanlığı altında gürcü şahzadələri Aleksandrın, Teymurazın və sabiq Ahalsıx hakimi Şərif paşanın iştirakı ilə Kartli-Kaxetiyaya doğru hərəkət etdi (494, 22; 178, 311).

Məhəmməd xan və qaynı Kəlbəli xan İrəvan qalasına sığınaraq şah qoşununa güclü müqavimət göstərməyə başladı. İrəvan hakimi Qacar qoşununa qarşı mübarizədə rus komandanlığından kömək alacağına böyük ümid bəsləyirdi və P.D.Sisianovla danışıqları davam etdirirdi. Danışıqlarda xüsusilə ermənilərdən çox istifadə edilirdi. Ermənilər isə xanı rus qoşununun tezliklə köməyə gələcəyi ilə aldadaraq, şah qoşununa müqavimət göstərməsini məsləhət görürdülər (494, 22-23).

Mühasirə isə uzanırdı. Qala sakinlərinin inadlı müqavimətini görən Qacar komandanlığı şəhər əhalisinin əmlakını talan etmək əmrini verdi. Şah qoşununun bu hərəkəti müdafiəçiləri daha da hiddətləndirdi. Əmlaklarının talan olunduğunu görən irəvanlılar iyunun 18-də qaladan çıxaraq şah qoşununun üzərinə hücum etdilər. Bir gün davam edən qanlı və amansız döyüşdə hər iki tərəfdən çoxlu adam həlak oldu. Lakin nizami qoşunun təzyiqlərinə davam gətirə bilməyən müdafiəçilər yenidən qalaya geri qayıtmalı oldular (494, 25).

Mühasirənin uzanması irəvanlıları həm də çox pis vəziyyətə salmışdı. Qalaya sığınmış xeyli sakin istidən və sıxlıqdan həlak olmuşdu. Şah qoşununun vəziyyəti də ürək açan deyildi. Ərzaq çatışmazlığı, hava şəraitinin isti və yağışlı olması qoşunu taqətdən salmışdı. İş o yerə çatmışdı ki, sərkərdələrin əmrinə əsasən, qoşun İrəvanın və Üçmüəzzin kilsəsinin imkanlı şəxslərini soymaqla tələbatlarını təmin edirdi (494, 25-26).

İrəvan qalasının şah qoşunları tərəfindən mühasirəyə alındığı bu ağır vaxtda P.D.Sisianovun komandanlığı altında rus qoşunu hücuma hazırlaşırdı. İndiyədək yazılan bəzi tarixi əsərlərdə «birinci İrəvan yürüşü» birtərəfli işıqlandırılaraq əsasən, Qacar qoşunu ilə rus qoşunu arasında gedən döyüş kimi qələmə verilmişdi (199, 74).

Qeyd etmək lazımdır ki, «birinci İrəvan yürüşü»nü iki mərhələyə bölmək olar və bu mərhələlər həm də bir-biri ilə üst-üstə düşür. Bütün yazılan əsərlərdə birinci mərhələ tamamilə unudulmuş və «birinci İrəvan yürüşü» yalnız rus qoşunlarının İrəvana hücumu ilə başladığı göstərilmişdi. Bizə görə hər iki mərhələni bu hərbi əməliyyata aid etmək olar. B**irinci mərhələ** Abbas Mirzənin başçılığı ilə şah qoşunlarının İrəvan xanlığına hücumu ilə başlamışdı. Qacar dövlətinə tabe olmaq istəməyən irəvanlılar xan başda olmaqla İrəvan qalasına sığınaraq şah qoşununa güclü müqavimət göstərmişdilər. Bu mərhələ artıq yuxarıda işıqlandırılmışdı. Bu hərbi kampaniyyanın **ikinci mərhələ** isə rus qoşunlarının hücumu ilə davam etmişdi. Mənbələrin təhlili göstərir ki: 1) hərbi əməliyyatların ilk günlərində İrəvan hakimi hər iki tərəf arasındakı qarşıdurmalar

və gedən döyüşlərdən yararlanaraq gözləmə mövqeyi tutmuşdu; 2) hər iki tərəf müxtəlif məzmunlu (hədə-qorxu, şirnikləndirici və s.) məktublar yazaraq İrəvan hakimini öz tərəfinə çəkməyə cəhd etmişdi; 3) Məhəmməd xan hər iki tərəfi narazı salmamaq üçün müəyyən müddət bitərəf mövqe tutmuşdu; 4) döyüşün gedişində İrəvan hakimi şah hökuməti ilə barışaraq, rus qoşununa qarşı vuruşsa da, Qacarlar hökumətinə etibar etməmiş, hətta şahzadə başda olmaqla şah qoşununu qalaya buraxmamışdı. Bu bir daha sübut edir ki, Məhəmməd xan daim öz dövlətinin müstəqilliyini qoruyub saxlamağa çalışmışdı.

1804-cü ilin mayında P.D.Sisianovun əmrinə əsasən Qafqaz qrenader (seçmə əsgər – E. Q.), muşketyor (iriçaplı tüfənglə silahlanmış əsgər – E. Q.) və 9-cu yeger (xüsusi nişançı dəstə – E. Q.) və Narva draqun (atlı qoşun hissələri – E. Q.) alayları Tiflisdə hazır vəziyyətə gətirildi (84, 258; 375, 137).

Əvvəlcə rus qoşunlarının ön dəstəsi olan Qafqaz qrenador alayı general-mayor Tuçkovun komandanlığı altında İrəvan xanlığının mahalı olan Şörəyelə hücum etdi. General-mayor Tuçkovun dəstəsinə Loridə yerləşən Tiflis qrenader batalyonu və Pəmbəkdə yerləşən muşketyor batalyonu qoşuldu. Bütünlüklə general-mayor Tuçkovun komandanlığı altında 8 topu olan 1800 nəfərlik piyada qoşunu və ona qoşulmuş general-mayor Leontevin kazak və gürcülərdən ibarət dəstəsi var idi (84, 258; 375, 138; 178, 311; 191, 98).

Rus qoşunlarının hücuma keçdiyini eşidən şörəyellilər evlərini başlı-başına buraxaraq xanlığın içərilərinə sığındılar. Heç bir müqavimətə rast gəlməyən rus qoşunlarının ön dəstəsi Şörəyeli ələ keçirərək, onun mərkəzi Gümrüyə yaxınlaşdı. Nasir Nəcmi yazırdı ki, «İrəvan xanının xəyanətindən bərk həyəcanlanmış və qəzəblənmiş Abbas Mirzə Qacar Dəvəllu tayfasından ləyaqətli sərkərdə Mehdiqulu xana tapşırıq vermişdi ki, altı min atlı dəstə ilə Qarsa doğru hərəkət edib, İrəvan valisinin köçürtdüyü irəvanlıları tezliklə İrəvana qaytarsın. Mehdiqulu xan sürətlə hərəkət edib köçürülmüş bütün irəvanlıları mal-qaraları ilə birlikdə öz himayəsi altına aldı…» (56, 30). Bu əməliyyatdan sonra 8 min nəfərlik şah

qoşununa rəhbərlik edən Mehdiqulu xan Gümrü yaxınlığında yerləşən Qarakilsə kəndində dayandı. Şah qoşunu burada Rusiya qüvvələri ilə üz-yzə gəldi. N.Nəcmi səhv olaraq Mehdiqulu xanın dəstəsinin guya İrəvan valisi Məhəmməd xana yardım etmək üçün tələsən P.D.Sisiyanovun 30 topa malik 20 min piyadadan, 6 min atlı dəstədən ibarət rus qoşununa rast gəldiyini yazır (56, 30). Əslində şah qoşunu general-mayor Tuçkovun başçılığı ilə rus qoşunlarının ön dəstəsinə rast gəlmişdi. Bir-biri ilə üz-üzə gələn tərəflər arasında qanlı döyüş başladı. Mehdiqulu xanın dəstəsi güclü müqavimət göstərsə də, rusların top atəşi qarşısında davam gətirə bilməyərək geri çəkildi. Döyüşdə qalib gələn general-mayor Tuçkovun dəstəsi iyunun 12-də Gümrüyə daxil oldu. Baş vermiş döyüşdə şah qoşunundan 100 nəfər həlak olmuş, 100 nəfər isə əsir düşmüşdü. Bundan əlavə, boş qalmış şah qoşunlarının düşərgəsindən çoxlu ərzaq və digər ehtiyatlar ələ keçirilmişdi (84, 260-261; 375, 138; 178, 311-312). İrəvandan Qarsa köçmək istəyən iki minə qədər ailə yolda ikən rus qoşunu tərəfindən geri qaytarılaraq Loridə yerləşdirildi (267, 614-615).

İyunun 14-də rus qoşunlarının əsas qüvvələri P.D.Sisianovun komandanlığı altında Gümrüdə general-mayor Tuçkovun dəstəsi ilə birləşdi. P.D.Sisianovun komandanlığı altında toplanmış rus qoşunlarının sayı belə idi: **piyada hərbi qüvvələri Q**afqaz qranader alayının 1100 nəfərdən ibarət 3 batalyonu, Tiflis muşketyor alayının 650 nəfərdən ibarət 2 batalyonu, Saratov muşketyor alayının 1200 nəfərdən ibarət 2 batalyonu, 9-cu yeger alayının 400 nəfərdən ibarət 2 batalyonu. Beləliklə, rus piyadalarının ümumi sayı 3350 nəfər təşkil edirdi. Rusiya tərəfinin **süvari** qüvvələri isə 300 nəfərdən ibarət üç eskadronluq Narva draqun alayından, 350 kazak və 370 gürcü atlısından ibarət idi. Beləliklə, S.D.Sisianovun 20 səhra topa malik 4370 əsgəri qüvvəsi var idi (84, 261). General-mayor Tuçkovun dəstəsi ilə birləşdikdən sonra rus qoşunlarının ümumi sayı 28 səhra topundan, 6170 əsgərdən ibarət oldu. Sonradan xoylu Cəfərqulu xanın 200 nəfərdən ibarət dəstəsi də rus qoşununa qoşulmuşdu (84, 268). Qeyd etmək lazımdır ki, H.İbrahimbəyli öz

əsərində əsassız olaraq Xoy hakiminin dəstəsini Azərbaycan könüllü qoşunları adlandıraraq, onun fəaliyyətini xeyli şişirtmişdi (199, 74).

P.D.Sisianov bu yürüşdə İrəvan ermənilərindən kömək alacağına böyük ümid bəsləyirdi. Ona görə də bu hadisələrdə ermənilərin xəyanətkar fəaliyyəti haqqında bir qədər ətraflı məlumat vermək yerinə düşərdi. Kartli-Kaxetiya çarlığı Rusiyaya birləşdirildikdən sonra İrəvan erməniləri açıqdan-açığa özlərini rusların tərəfdarları kimi göstərməyə başlamışdılar. Onların nümayəndələri gizli surətdə rus komandanlığı ilə əlaqə yaradaraq, İrəvanda baş verən hadisələr barəsində onları operativ şəkildə məlumatlandırırdılar. Mülkü müşavir Kovalenski çara göndərdiyi məlumatda ermənilər haqqında yazırdı: «Xanın (Məhəmməd xanın – E. Q.) yanındakı erməni məmurlarından biri, İrəvan ermənilərinin başçısı məlik Avram xanın və xalqın dərin hörmətini qazanmışdı. Şübhə yoxdur ki, mənim onunla yazışmamdan sonra məlum oldu ki, nəinki o, həmçinin bütün ermənilər Rusiyaya meyllidirlər» (192, 118-124). P.D.Sisianov da çara göndərdiyi məlumatında yazırdı ki, «yerli erməni tacirləri bizi ərzaqla təmin etməyi vəd edirlər» (124, 610). Lakin rus qoşunlarının başçısı ermənilərə çox bel bağlamaqda yanıldığını sonradan başa düşmüşdü. O, İrəvanda rus qoşununlarının məğlubiyyətinin əsas səbəbini ermənilərin yalan və ruyakar məlumatlarında görürdü. Məsələn, 1805-ci il avqustun 15-də erməni yüzbaşı Qabrielin Qarakilsədən rus baş komandanına göndərdiyi məktubunda İrəvanda baş verən hadisələr haqqında məlumat verərək yazırdı ki, Məhəmməd xan şah tərəfindən hakimiyyətdən devrildikdən sonra xan təyin olunan Mehdiqulu xanın ərzaq ehtiyatı yoxdur və qoşun onun sözünə baxmır. O, P.D.Sisianova məsləhət görürdü ki, nə qədər ki, onlar ərzaq ehtiyatı toplamayıblar, tezliklə bura qoşun göndərsin və İrəvanı işğal etsin. Daha sonra o, bildiridi ki, guya naxçıvanlı Kəlbəli xan Rusiya himayəsini qəbul edəcəyinə söz verib (174, 626). P.D.Sisianov 1805-ci il avqustun 26-da məlik Avrama və yüzbaşı Qabrielə göndərdiyi məktublarda erməniləri «yalançı», «riyakar», «müftəxor» və «xain» adlandıraraq yazırdı ki, «…iran

qəlbli riyakar ermənilər, indi o ümidlə gəlmisiniz ki, bizdən taxıl alasınız. …Gürcüstan müftəxorları yedizdirməyə borclu deyil. Siz İrəvanda qalan erməniləri müdafiə etməyi xahiş edirsiniz. Soruşuram, xəyanətkarlar himayə edilməyə layiqdilərmi?. Qoy onlar it kimi gəbərsinlər, onlar buna layiqdirlər!. Mən keçən il məğlubedilməz rus qoşunu ilə İrəvan qalasını mühasirəyə alanda, bu ləyaqətsizlər Narınqalanı tutub mənə təhvil verə bilərdilər. Lakin bunu etmədilər. Sən yüzbaşı hiyləgər Məhəmməd xanın birinci məsləhətçisisən, mənimlə onun arasında yalanla və xainliklə əlaqə saxlayırsan. Keçənilki kimi sənin sözünə necə inanım ki, rus qoşunu yaxınlaşan kimi İrəvan əhalisi təslim olacaq. Fikirləşirsən ki, siz 300 nəfər qorxaq ailənizlə 3 minlik şah qoşununa qarşı çıxacaqsınız? Yaxud yalan dəlillərlə məni yeni İrəvan xanına və hiyləgər Kəlbəli xana inanmağa məcbur eməklə, guya onlar sizinlə gizli danışığa gələrək Rusiya himayəsini qəbul etməklə məni qoşunla oraya yürüş etməyə məcbur edəsiniz? Lakin məndən bunu gözləməyin. İranlıların hiyləgərliyi mənə məlumdur və mən İrəvan qalasını nə vaxt işğal edəcəyimi yaxşı bilirəm» (384, 627-628). Bu sənəd bir daha ermənilərin necə xəyanətkar və riyakar olduqlarını sübut edir. Bundan əlavə, bu məktub bir daha sübut edir ki, ermənilər yalan məlumatlar verməklə də rus qoşunlarının diqqətini İrəvana cəlb etmək istəyirdilər.

Gümrüdə bir neçə gün qaldıqdan sonra rus qoşunu iyunun 15-də Üçmüəzzin kilsəsinə doğru hərəkət etdi. P.D.Sisianov kilsəni ələ keçirərək burada yerləşməklə Məhəmməd xanla danışıqlar aparmaq istəyirdi. Məhəmməd xan isə ruslardan kömək almaq ümidini itirməmişdi. O, Gümrüdə olarkən P.D.Sisianova son dəfə olaraq kömək üçün müraciət etdi. Lakin baş komandan xana təhqiredici məktub göndərərək, ondan İrəvan qalasının açarlarını təhvil verilməsini tələb etmiş, əks halda onu da Cavad xanın aqibətinin yaşayacağı ilə hədələmişdi (178, 313-314). İrəvan hakimi isə yaxın adamları vasitəsilə rus qoşununun sayca az olduğunu bildikdən sonra onlardan kömək almaq ümidini itirdi (494, 21).

Lakin Üçmüəzzin kilsəsi şah qoşununun əlində idi və burada şahın 400 nəfərlik dəstəsi yerləşdirilmişdi. Bundan xəbəri olmayan rus qoşunu iyunun 19-da kilsənin 8 verstliyində olan zaman Qacar qoşununun bu kiçik dəstəsi onları aldatmaq üçün hiyləyə əl atdı. Kilsə zəngləri aramsız çalınmağa başladı. Rus komandanlığı elə düşünürdü ki, bu, onları təntənəli surətdə qarşılamaq üçün bir işarədir. P.D.Sisianovun əmrinə əsasən, general-mayor Portnyaginin başçılığı ilə gürcü və kazaklardan ibarət ön dəstə oraya tələsdi. Lakin onlar kilsəyə yaxınlaşan vaxt bu dəstə tüfəng və falkonetlərdən (dəvə üstündə yerləşdirilmiş kiçik çaplı top – E. Q.) atəşə tutuldular. Qəflətən yaxalanmış general-mayor Portnyaginin dəstəsi döyüşə girmək məcburiyyətində qaldı. Lakin onların bu cəhdi heç bir nəticə vermədi. Əsas qüvvələrlə Üçmüəzzin kilsəsinə yaxınlaşan P.D.Sisianov qoşunun uzun və çətin yol gəldiyinə görə, həmin gün kilsə yaxınlığında düşərgə salaraq, onun işğalını ertəsi günə saxladı (84, 262; 168, 225; 178, 314-315).

1804-cü il iyunun 20-də səhər tezdən Abbas Mirzənin komandanlığı altında 12 minlik şah qoşunu rus qoşunları üzərinə hücuma keçdi. Beləliklə, **Üçmüəzzin kilsəsi uğrunda** döyüş başladı (bax xəritə 1). Şahzadənin qoşunu sayca çox olmasına baxmayaraq, həmin dövr üçün dəhşətli hesab olunan rus artilleriyasının güclü atəşləri qarşısında pərən-pərən oldu. Lakin beş gün davam edən döyüş nəticəsində rus qoşunu çox pis vəziyyətə düşdü. Rus artilleriyasından ehtiyat edən şah qoşunu qəfil və gözlənilməz hücum taktikası seçərək rus qoşununu ərzaq və susuz qoymuşdu. Onlar hücum edərək bir neçə alayın çadırını, yük və ərzaq arabalarını özləri ilə aparmışdılar. Üçmüəzzin kilsəsini tuta bilməyəcəyinə əmin olan P.D.Sisianov iyunun 26-da oranı tərk edərək İrəvan şəhərinə doğru hərəkət etdi. Kilsə uğrunda döyüş rus qoşununa çox baha başa gəldi. Bu döyüşdə onlardan 51 nəfər məhv edilmiş, 104 nəfər yaralanmış və şah qoşunu tərəfindən xeyli rus əsgəri və zabiti əsir kimi ələ keçirilmişdi (84, 262-264).

Bu vaxt Abbas Mirzə əsas qüvvələrlə İrəvandan 8 verst aralıda düşərgə salmışdı. P.D.Sisianov şah qoşunlarının yerləşdiyi

bu düşərgəyə zərbə endirməklə məqsədinə nail olmaq istəyirdi. Bunun üçün ilk əvvəl Zəngi çayı üzərində yerləşən Qəmərli kəndini ələ keçirmək lazım idi. Çünki çayın rahat keçilən yeganə dayaz yeri burada yerləşirdi. Polkovnik Çexanovskinin başçılığı ilə 9-cu yeger alayı kəndə hücum edərək çayın bu keçidini ələ keçirdi. Keçid ruslara 12 nəfərin öldürülməsi və 20 nəfərin yaralanması hesabına başa gəldi (84, 265; 168, 226-227; 375, 141; 494, 34-35).

Qəmərli kəndini ələ keçirən rus qoşunu iyunun 26-dan 30-a qədər burada müdafiə mövqeyində qaldı. Bu zaman kilsədə yerləşən şah qoşun dəstəsi rus qoşunlarının İrəvana doğru irəlilədiyini görərək buranı tərk etdi. Bir erməni keşişindən bu haqda məlumat alan P.D.Sisianov iki alayı oraya göndərərək, kilsəni döyüşsüz ələ keçirdi (84, 262-265; 375, 141; 178, 319-320).

Rus qoşunlarının İrəvan qalasına yaxınlaşdığını eşidən Məhəmməd xan və qaynı Kəlbəli xan bərk təşvişə düşərək, Abbas Mirzə ilə danışıqlara başladılar. Onlar vasitəçilik üçün sədrəzəm Mirzə Şəfiyə müraciət etdilər. Xanlar Abbas Mirzəyə hədiyyə göndərərək şah qoşununa müqavimət göstərdikləri üçün bağışlanmalarını və xanlığı rus qoşunundan müdafiə etməsini xahiş etdilər (56, 31; 330, 618).

Bu müraciətdən istifadə edən Abbas Mirzə qoşunu ilə İrəvan qalasına yaxın gələrək, ondan üç mil aralıda yenidən düşərgə saldı. O, İrəvan xanının qüvvələrindən istifadə edərək Qəmərlidə mövqe tutmuş rus qoşununu darmadağın etmək qərarına gəlmişdi. Hətta Qacar komandanlığı bu barədə plan da hazırlamışdı. Plana görə Abbas Mirzənin qoşunu rusları ön tərəfdən mühasirəyə alan zaman Məhəmməd xan öz döyüşçüləri ilə arxadan hücuma keçməli idi. O, bu planı həyata keçirməklə rus qoşununun təslim olacağına ümid bəsləyirdi.

Lakin bu plan baş tutmadı. Şahzadənin planından vaxtında xəbər tutan P.D.Sisianov əks tədbirlər görməyə başladı. Onun göstərişi ilə rus qoşunu iki dəstəyə bölündü. Birinci dəstə ön tərəfdən şah qoşununa qarşı hücuma keçməli, P.D.Sisianovun özünün başçılıq etdiyi ikinci dəstə isə gözləmə mövqeyi tutaraq arxadan

hücum etməli idi. İyunun 30-da səhər tezdən rus qoşunlarının ön dəstəsi Zəngi çayını keçərək şahzadənin düşərgəsinə hücuma başladı. Qacar qoşununun bir hissəsi yüksək dağ başında mövqe tutmuşdu. Rus qoşunu onları buradan sıxışdırıb çıxara bildi. Lakin onlar qələbəni bayram etməyə macal tapmamış İrəvan süvari dəstəsi arxadan rusların süvari dəstəsinə qarşı hücuma keçdi. Bu, ruslar üçün tam gözlənilməz oldu. Əvvəlcə İrəvan süvariləri P.D.Sisianovun dəstəsini mühasirəyə alaraq sıxışdırdı. Bir anlıq rus qoşunu içərisində çaşqınlıq yarandı. Lakin vaxtında kömək alan rus qoşunu İrəvan süvarilərinə cavab zərbəsi endirməklə onları geri çəkilməyə məcbur etdi. Məğlub olan İrəvan döyüşçüləri geri çəkilərək yenidən qalaya sığındılar. Abbas Mirzə isə düşərgəni tərk edərək Şərurda mövqe tutdu. Ələ keçirilən şahzadə düşərgəsi isə rus qoşunu tərəfindən tam qarət olundu (168, 227; 84, 265-266; 494, 38; 178, 320-321; 191, 99).

Qəmərli döyüşündə qələbə çalan rus qoşunu İrəvan qalasına doğru hərəkət etdi. Şah qoşununun məğlub olaraq geri çəkilməsi və rus qoşununun İrəvan qalasına yaxınlaşması Məhəmməd xanı çıxılmaz vəziyyətdə qoymuşdu. Meydanda tək qalan İrəvan xanı P.D.Sisianovla danışıqları yenidən bərpa etməyə məcbur oldu. O, iyulun 1-də baş komandana məktub göndərərək, çoxdan rus qoşununu qalada görmək istədiyini və onları təntənəli surətdə qarşılamağa vəziyyətin imkan vermədiyini bildirmişdi. Məhəmməd xan aman verilməsini və Rusiya dövlətinə sədaqətli olacağına and içirdi. Lakin P.D.Sisianov onun məktubuna əhəmiyyət verməyərək, qeyri-şərtsiz təslim olmasını bir daha tələb etdi (178, 322-323).

1804-cü il iyulun 2-də rus qoşunu səhər tezdən İrəvan qalasına yaxınlaşaraq onu mühasirəyə aldı. Qala ətrafındakı məscid və iki karvansara rus qoşunlarının qərargahına çevrildi (403, 11) (bax xəritə 2). Qala rus artilleriyası tərəfindən atəşə tutulmağa başladı. Məhəmməd xan qalanın bombardıman edilməsinin qarşısını almaq üçün iyulun 3-də P.D.Sisianova arxiyepiskop Danil vasitəsilə daha bir məktub göndərdi. O isə xana əvvəlki şərtləri qəbul etmək əsasında bombardmanı dayandıracağına söz verdi. Hətta artilleriya

atəşi müvəqqəti dayandırıldı. İyulun 4-də rus qoşununun düşərgəsinə gələn elçi baş komandana qalanın təhvil verilməsindən başqa, xanın bütün tələbləri yerinə yetirməyə hazır olduğunu bildirmişdi. Məhəmməd xanın bu cavabı P.D.Sisianovu qane etmədiyindən danışıqlar kəsildi (84, 226; 168, 228-229; 375, 143-144; 178, 326). Beləliklə, İrəvan hökmdarının danışıqlar yolu ilə rus qoşununun qalaya hücumunun qarşısını almaq cəhdi uğursuzluğa düçar oldu. Müvəqqəti dayandırılmış top atəşi iyulun 5-də yenidən davam etdirildi. Bütün günü qala bombardman edildi. Lakin qala sakinləri arasında ölən və yaralanların sayı getdikcə çoxalsa da, irəvanlılar təslim olmaq niyyətində deyildilər (84, 267; 178, 325).

Qalanın müdafiəsinə Məhəmməd xan və onun qaynı Kəlbəli xan rəhbərlik edirdilər. Onlar tərəfindən qala sakinləri ciddi nəzarət altında saxlanılırdı. Xanlar rus qoşununa rəğbət bəsləyən ermənilərin xəyanətinin qarşısını almaq üçün müəyyən tədbirlər görmüşdülər. Onlar qala divarlarında inandıqları yaxın adamlarının başçılığı ilə güclü nəzarətçi dəstələri yerləşdirilmişdilər. Hər gecə öz adamlarını tanımaq üçün nəzarətçilərə xüsusi parol təyin edilmişdi. Bu parollar tez-tez dəyişdirilirdi (494, 49).

Qalaya sığınmış irəvanlılar nəinki müdafiə olunur, eyni zamanda imkan düşdükcə əks-hücumlara keçirdilər. Belə ki, bir dəstə qala sakini xan bağında yerləşmiş rus qoşununun 9-cu yeger alayına qəflətən hücum etmişdi. Lakin daha yaxşı silahlanmış rus alayı bu hücumu dəf edərək, irəvanlıları geri çəkilməyə məcbur etmişdi. Bundan əlavə, qala sakinləri top atəşləri ilə də rus qoşunlarını tez-tez narahat edirdilər (178, 325).

Mühasirənin davam etdiyi bir vaxtda şah qoşununun yenidən hücuma keçməsi xəbəri gəldi. Abbas Mirzənin məğlub olaraq geri çəkildiyini eşidən Fətəli şah Qacar Xoy və Təbrizdən topladığı 15 minlik qoşunla onun köməyinə tələsdi. O, Gərni çayı sahilində düşərgə salmış şahzadənin qoşunu ilə birləşdi. Əlavə kömək alan Qacar komandanlığı rus qoşununa qəflətən hücum etmək niyyətində idi (494, 53; 84, 268; 375, 144; 178, 227-229).

Qacar qoşunu iyulun 15-də gecə saat 2-də üç istiqamətdə ruslar üzərinə hücuma keçdi. Lakin sabiq Xoy xanı Cəfərqulu xandan şah başda olmaqla şahzadəyə əlavə kömək gəlməsi xəbərini alan S.P.Sisiyanov vaxtında müdafiə tədbirləri görmüşdü (403, 14).

Şah qoşunlarının hücuma keçməsi xəbərini eşidən Məhəmməd xan İrəvan döyüşçüləri ilə qalanın şimal hissəsində yerləşən rus qoşununun düşərgəsinə həmlə etdi. İrəvanlıların bu hücumu rus qoşunu üçün gözlənilməz oldu. Qeyd etmək lazımdır ki, qalanın bu hissəsinin rus qoşunu üçün böyük əhəmiyyəti vardı. Burada onlara məxsus xəzinə və ərzaq anbarları yerləşirdi. «Əgər düşmən (irəvanlılar – E. Q.) oranı tutsaydı, Zəngi çayının sol sahilində yerləşən 9-cu yeger alayı ilə əlaqə kəsilərdi, bütün ərzaq anbarı və xəzinə düşmənin əlinə keçərdi» (168, 232). Təhlükənin qarşısını almaq üçün podpolkovnik Simonoviçin başçılığı ilə Qafqaz qrenader alayı irəvanlılarla döyüşə girdi. Tərəflər arasında dörd saat davam edən qanlı döyüş baş verdi. İrəvanlılar rus qoşununa qarşı mərdliklə vuruşurdular. Bunun şahidi olan P.D.Sisianov öz gündəliyində etiraf edirdi ki, «otuz nəfər irəvanlının qoruduğu daxmanı mühasirəyə alan podpolkovnik onları təslim olmağa çağırsa da, onlar ölməyi üstün tutdular» (168, 232). Nəhayət, daha yaxşı silahlanmış rus qoşunu irəvanlıları məğlub edərək onları geri çəkilməyə məcbur etdi. Bu əməliyyatda İrəvan qoşunu 400 nəfərə qədər itki vermişdi (168, 232; 375, 147; 373, 15).

İrəvanlılar məğlub olaraq geri çəkilsələr də, şah qoşunu ilə döyüş davam edirdi. Gecədən başlayan döyüş gündüz saat 1-də rus qoşununun qələbəsi ilə başa çatdı. Çoxlu itki verən Qacar qoşunu iki dəstəyə bölünərək geri çəkildi. Şahın başçılığı altında olan dəstə Qəmərlidə, Abbas Mirzənin dəstəsi isə Gərni çayı sahilində düşərgə saldı (375, 148; 178, 334; 191, 100). Bu döyüşdə rus qoşunundan 4 zabit, 58 sıravi əsgər məhv edilmiş, 7 nəfər itkin düşmüş, 9 zabit və 108 sıravi əsgər isə yaralanmışdı. Şah qoşunundan həlak olanların sayı isə min nəfərə çatırdı. Onlardan 3-ü xan və 250-si isə məmur idi. Bundan başqa, rus qoşunu 3 bayraq və 2 falkonet qənimət götürmüşdü (168, 233). Başqa bir mənbədə isə rus qoşunundan 3

zabit və 120 sıravi əsgərin öldüyü, 6 zabit və 200-ə qədər əsgərin yaralandığı göstərilir (84, 270; 373, 15).

Qacar qoşununun parçalanmasından istifadə edən rus komandanlığı onları ayrı-ayrılıqda məhv etmək qərarına gəlmişdi. P.D.Sisianovun planına əsasən, general-mayor Portnyagin kiçik bir dəstə ilə gecə qəflətən Abbas Mirzənin düşərgəsinə hücum edərək, onun qoşununu darmadağın etməli idi. Lakin bu plan baş tutmadı. İyulun 25-də gecə general-mayor Portnyagin bir dəstə rus qoşunu ilə şahzadənin düşərgəsinə doğru hərəkət edərək, gözətçi məntəqələrini keçərək düşərgəyə yaxınlaşdı. Lakin rus qoşunu tərəfinə keçmiş sabiq Xoy xanı Cəfərqulu xanın adamları ehtiyatsızlıqdan atəş açdığından şahzadənin qoşunu bu hücumdan vaxtında xəbər tuta bildi. Həyəcan siqnalı ilə şahın düşərgəsinə xəbər çatdırıldı. Nəticədə Portnyaginin dəstəsi mühasirəyə alındı. Tərəflər arasında döyüş başladı. Bu döyüşdə ruslar artilleriyaya çox ümid bəsləyirdilər. Lakin ilk hücumda topçular şah qoşunu tərəfindən öldürüldü. Bir saat davam edən döyüşdə general – mayor Portnyaginin dəstəsi böyük itki verərək geri qayıtdı. P.D.Sisianov gündəliyində bu döyüşdə rus qoşunundan 4 nəfərin öldürüldüyü, 100 nəfərin isə yaralandığını göstərmişdi (168, 234). Anonim gündəlikdə isə ruslardan 50 nəfərin məhv edildiyi, 100 nəfərin yaralandığı qeyd olunmuşdu (84, 271).

General-mayor Portnyaginin dəstəsinin məğlub olmasına baxmayaraq, İrəvan qalasının ruslar tərəfindən mühasirəsi davam edirdi. Mühasirənin uzanması rus qoşununu acınacaqlı vəziyyətə salmışdı. Onların ərzaq ehtiyatı tükənmişdi. Rus komandanlığı gürcü knyazı Çavcavadzenin Qazax sultanlığından göndərəcəyi taxıla böyük ümid bəsləyirdi. Lakin gözlənilən taxıl ehtiyatı gəlib çıxmadı (380, 810-811).

Aclığın rus qoşununu çətin vəziyyətə saldığını başa düşən şah qoşunu bütün yolları nəzarətə götürmüşdü. Mirzə Adıgözəl bəy yazırdı ki, "…Qızılbaşlar gediş-gəliş yollarını elə kəsmişdi ki, Rusiya qoşununun çarəsi hər tərəfdən üzülmüşdü» (51, 68).

İrəvan şəhərinin və Üçmüəzzin kilsəsinin ətrafında yerləşən kəndlərin taxıl zəmiləri isə şah qoşunu tərəfindən yandırılmışdı. Rus qoşununu ərzaqla təmin etməyə söz vermiş ermənilərə olan ümid də boşa çıxmışdı. Üçmüəzzin kilsəsində gizlədilmiş taxıl ehtiyatı da rus qoşununu aclıqdan xilas edə bilmədi (268, 619; 84, 274-275; 178, 338-339). Aclıq o dərəcəyə çatmışdı ki, rus qoşununun içində ciddi narazılıq başlamışdı. İş o yerə gəlib çatmışdı ki, knyaz İ.Orbelianinin başçılığı ilə 300 nəfərə qədər gürcü süvarisi rus qoşununu tərk edərək Tiflisə geri qayıtmağa səy göstərmişdi. Lakin yolda onlar Pirqulu xanın və Aleksandr Mirzənin başçılığı ilə 6 minlik şah qoşununun hücumuna məruz qaldılar. Onlardan İ.Orbeliani və Baqration başda olmaqla 150 nəfər əsir düşmüş, 22 nəfər qaça bilmiş, qalanları isə məhv edilmişdi. Əsir düşənlərdən 20 nəfəri zadəgan-əsilzadə idi. Onların hamısı Təbrizə göndərilmişdi (125, 811; 333, 813; 491, 815-816).

İsti hava şəraitinin tədricən kəskin soyuqlarla əvəz olunması da rus əsgərləri arasında tif xəstəliyinin yayılmasına səbəb olmuşdu. Bu xəstəlikdən də xeyli əsgər ölmüşdü (125, 811; 84, 274-275).

Belə bir şəraitdə rus komandanlığı ərzaq tədarükü üçün daha bir təşəbbüs göstərdi. Mayor Montrezor 110 əsgər və bir topla Tiflisə göndərildi. Bu əməliyyatda Məlik Əbunun oğlu Rüstəmin başçılıq etdiyi ermənilərdən ibarət dəstə də onlara qoşulmuşdu. Mayorun dəstəsi şah qoşununun təqibi altında iki gün yol getdikdən sonra avqustun 21-də Pəmbəkdə yerləşən Sarəli kəndinə çatdı. Burada rus dəstəsi Qarakilsə istiqamətində hərəkət edən Pirqulu xanın başçılığı altında 6 min nəfərlik şah qoşunu ilə üz-üzə gəldi. Döyüşdə mayor Montrezorun dəstəsi məğlub oldu. Ruslardan 15 nəfər yaralanaraq əsir düşmüş, mayor Montrezor başda olmaqla 94 nəfər öldürülmüş, cəmisi bir nəfər isə qaça bilmişdi. Onlara qoşulmuş ermənilər də təslim olmuşdular (374, 153-154; 51, 69). Mayor Montrezorun dəstəsinin məhv olması ilə rus komandanlığının Tiflisdən ərzaq gətirmək ümidi tamamilə boşa çıxdı.

Hər tərəfdən mühasirəyə alınmış və çıxılmaz vəziyyətdə qalan P.D.Sisianov xanlıqda özünə tərəfdarlar axtarmaq üçün cəhd gös-

tərdi. O, kürdlərin başçısi Hüseyn ağa ilə əlaqə yaradaraq onu öz tərəfinə çəkməyə çalışdı. İyulun 24-də yazdığı məktubda bu general şah qoşunu üzərində qələbə çaldığını bəyan edərək və guya İrəvan qalasının işğalının uzanmasını artıq qan tökmək istəməməsilə əlaqələndirərək, Hüseyn ağaya öz dəstəsi ilə ona qoşulmağı təklif edirdi. Lakin P.D.Sisyanovun bu kələyi baş tutmadı (325, 617).

Bütün cəhdləri boşa çıxan P.D.Sisianov yenidən Məhəmməd xanla danışıqları bərpa etdi. Avqustun 25-də İrəvan hakimi rus komandanlığından yeni bir məktub aldı. Məktub əvvəlkilərə nisbətən yumşaq bir tərzdə yazılmışdı. Məktubda P.D.Sisianov Məhəmməd xana xanlığın və özünün təhlükəsizliyi üçün bir daha təslim olmasını təklif edirdi (327, 617). Vəziyyətinin çətin olmasına baxmayaraq, rus komandanlığı sentyabrın 1-də Məhəmməd xan və Kəlbəli xan başda olmaqla bütün irəvanlılara yazılmış məktubda isə konkret tələblər irəli sürmüşdü. Həmin tələblər bunlardan ibarət idi: 1) İrəvan qalasında rus qoşunu yerləşdirilməli və iki alaya azuqə verilməli idi; 2) irəvanlılar rus imperatorunun təbəəliyinə keçmək üçün and içməli və sədaqətli olmalı idilər; 3) xanlıq hər il Rusiyaya 100.000 rubl məbləğində bac verməli idi; 4) hər iki xan (Məhəmməd xan və Kəlbəli xan – E. Q.) öz xanlıqlarında əvvəlki vəzifə və hüquqlarında saxlanmalı, ancaq ölüm hökmü ləğv edilməli, əvəzində qanunla cəza tətbiq edilməli idi; 5) bütün dinlər azad olmalı və heç kim sıxışdırılmamalı idi; 6) axund və digər bütün din xadimləri, şəhər və kənd camaatı mülklərində əvvəlki hüquq və imtiyazlarında qalmalı idilər; 7) Əsirlərin qaytarılmasında rus komandanlığı vasitəçi olmalı, bundan sonra hər iki xan öz ailələrini Fətəli şahdan azad edə bilərdilər. Onların özlərinin isə qalaya daxil olan rus qoşunları tərəfindən müdafiə olunacaqlarına söz verilirdi (325, 617).

Məhəmməd xanın P.D.Sisianova yazdığı cavab məktubları xüsusilə maraq doğurur. Diplomatik tərzdə yazılmış məktubların məzmunundan görünür ki, Məhəmməd xan ağıllı siyasət yürüdərək İrəvana qənim kəsilmiş hər iki tərəf (rus və Qacar) arasında olan düşmən münasibətlərdən yararlanmaqla, vəziyyətdən istifadə

etməyə çalışırdı. O, İrəvan döyüşündə şah qoşunları ilə birlikdə rus qoşununa qarşı çıxsa da, P.D.Sisianova yazdığı məktublarda həmin məsələdə məcburiyyət qarşısında qaldığını bildirirdi. Məktublardan görünür ki, İrəvan hökmdarı şah hökumətinə inanmamış və ondan ehtiyat etmişdi. Məsələn, məktubların birində xan yazırdı ki, «… İran (Qacar – E. Q.) dövlətinin tərəfini saxlamaq niyyətində deyiləm. Əlahəzrət, sədaqətlə xahiş edirəm ki, mənə vaxt verin və səbr edin. Baba xan (Fətəli şah – E. Q.) buradan getdikdən sonra nə əmr etsəniz yerinə yetirməkdən imtina etmərəm…» (327, 617). Başqa məktubda isə o, öz mövqeyini belə izah edirdi: «…7 ildir ki, mən özümü onun (Fətəli şahın – E. Q.) tələsindən qoruyuram, özümü təhlükəyə düçar etmədən, öz xanlığımda yaşayıram və ona tabe olmuram. Əlahəzrətə məlumdur ki, mən ona hərbi yolla necə müqavimət göstərirəm və mənim qalama hücumunu dəf edirəm. Nəhayət, əlahəzrət qoşunla bura gəlib. Bizim xalqlar inamına görə müxtəlif dinlərə qulluq edir və bu, onları narahat edib. Baxmayaraq ki, mən bilirəm sizdə bütün dinlər yol veriləndir və buna qarşı çıxmaq istəmirsiniz. Lakin bizim xalqı inandırmaq çətindir. Baba xanın vəziri Mirzə Şəfi burada şəhərdə olmuş, əhalini hiyləgərliklə öz tərəfinə çəkmişdi. Mənim qardaşım Cəfərqulu xan da bilir ki, o, necə hiyləgər adamdır. Məndən başqa hamı sizdən üz döndərib. Mən və mənim varislərim ali Rusiya dövlətinə sədaqətlə qulluq etmək niyyətindəyik… Baba xan Pirqulu xanı gözləyərək 10 gündən sonra buradan gedəcək. Öz istehkamınızda xüsusilə ehtiyatlı olun. Baba xan iki dəfə hücuma cəhd etdikdən sonra gedəcəkdir. O, indi mənə nəvaziş göstərməyə cəhd edir, həmçinin şahzadə üç dəfə məktub yazıb və digər əyanlar andla məni inandırmağa çalışırlar. Lakin onlar məni inandırmağa çalışsalar da inanmıram və Rusiya dövlətinə xəyanət etmərəm. Əlahəzrət, xahiş edirəm bilin ki, şah qoşunu qalaya daxil ola bilməz» (330, 618).

Sentyabrın 2-də P.D.Sisianov Məhəmməd xana yeni bir məktub yazaraq onun səmimiyyətinə şübhə etdiyini bildirmiş və qeyd etmişdi ki, «mən geri çəkildikdən sonra siz Baba xana təslim olacaqsınız» (331, 619). Məhəmməd xanın sentyabrın 4-də yazdığı

məktubda diplomatik bir tərzdə ailəsinin şah sarayında girov olduğundan rus komandanlığının şərtlərini qəbul edə bilməyəcəyini, hətta ruslara sədaqətli olduğunu, şah geri çəkildikdən sonra rus komandanlığının şərtlərini yerinə yetirəcəyini qeyd edərək, şah qoşununun hücuma hazırlaşdığını bildirmiş və bunun üçün rus qoşununun ehtiyatlı olmasını bir daha tövsiyyə etmişdi (332, 619).

Məhəmməd xanı öz tərəfinə çəkə bilməyən və əlacsız qalan P.D.Sisianov yaranmış vəziyyətdən çıxış yolu tapmaq üçün hərbi şura çağırmağa məcbur oldu. 1804-cü il avqustun 31-də yeddi nəfərdən ibarət hərbi şura çağırıldı. Burada iki məsələ – hücumu davam etdirmək, yaxud geri çəkilmək məsələləri müzakirə edildi. Səsvermə nəticəsində iki nəfər döyüşü davam etdirməyi, beş nəfər isə geri çəkilməyi təklif etdilər. Beləliklə, çoxluğun qərarı ilə geri çəkilmək haqqında əmr verildi (268, 619; 398, 254-256; 375, 155; 178, 343-344).

Sentyabrın 4-də İrəvan qalasının mühasirəsi götürüldü. Rus qoşunu ayın 5-də Üçmüəzzinə çəkildi. Səhərisi günü isə şah qoşunlarının təqibi altında Abaran düzünü keçərək, sentyabrın 14-də Qarakilsə kəndinə gəlib çatdı. Rus qoşunları burada iki gün dincəldikdən sonra şimal istiqamətində hərəkət edərək, təxminən bir aydan sonar-oktyabrın 4-də Tiflisə daxil oldu (84, 281).

Birinci İrəvan yürüşü rus qoşununa çox baha başa gəlmişdi. Döyüşlər nəticəsində ruslardan 2500-ə qədər əsgər öldürülmüş və əsir düşmüşdü (490, 815-816).

Rus qoşunu İrəvan xanlığını tərk etdikdən sonra Abbas Mirzə İrəvan qalasına gəldi. O, İrəvan qalasını ziyarət etdikdən sonra, Məhəmməd xanı və onun yaxın adamlarını düşərgə saldığı Söyüdlü kəndinə, səhərisi günü təşkil ediləcək ziyafətə dəvət etdi. Məhəmməd xan bir qədər tərəddüd etdikdən sonra ziyafətdə iştirak etmək qərarına gəldi. Ziyafətdə iştirak edən şah onu yenidən İrəvana hakim təyin etdi (494, 91).

Məclis başa çatdıqdan sonra Fətəli şah Üçmüəzzin kilsəsinə ziyarət etdi. Katolikos Davıd onu təmtəraqla qarşılamış və rəqibi

Danili şaha təslim etmişdi. Danil Təbriz şəhərinə göndərilmiş və burada bir müddət əsirlikdə qalmışdı (333, 613; 494, 92).

Birinci İrəvan yürüşündə də İrəvanın erməni əhalisi rus qoşununa daima köməklik göstərmişdi. Ona görə də təbiidir ki, ermənilər hər addambaşı şahın adamları tərəfindən təhqir və söyüşlərlə qarşılanırdı. Onlar ermənilərin var-yoxunu qarət edirdilər. Hətta Y.Xubovun imarəti və bağı talana məruz qalmışdı. Lakin Məhəmməd xan talanın çox dərinə getməsindən ehtiyat edərək, onun qarşısını ala bilmişdi (494, 92).

Beləliklə, birinci İrəvan yürüşündə həm irəvanlıların, həm də şah qoşunlarının birgə səyi nəticəsində rus qoşunları məğlubiyyətə uğradı. İrəvan hakimi Məhəmməd xan bu hadisələrdə xanlığının müstəqilliyini qoruyub saxlaya bildi.

**Şörəyelin Rusiya tərəfindən istilası:** Birinci İrəvan yürüşündə məğlub olmasına baxmayaraq, rus qoşunlarının baş komandanlığı bu xanlığı işğal etmək fikrindən əl çəkməmişdi. P.D.Sisianov İrəvan xanlığında baş verən siyasi hadisələri diqqətlə izləyərək, buraya yenidən müdaxilə etmək üçün əlverişli məqam gözləməyə başladı. İrəvan xanlığının tərkib hissəsi olan Şörəyel sultanlığının ruslar tərəfindən işğalı ilə belə bir imkan yarandı. Yuxarıda qeyd edildiyi kimi, Kartli-Kaxetiya çarlığının birləşdirilməsi haqqında çar manifestində bu sultanlığın da qeyri-qanuni olaraq Rusiyanın tərkibinə keçdiyi göstərilmişdi. Lakin həqiqətdə Şörəyel yenə də İrəvan xanlığının nüfuz dairəsində qalmaqda idı. Buna görə də, Rusiya komandanlığı strateji mövqeyinə görə bu sultanlığı işğal etmək üçün fürsət axtarırdı. Qacar dövləti və Osmanlı Türkiyəsi ilə müharibələr dövründə Şörəyel bufer zona kimi əlverişli əhəmiyyətə malik idi. Digər tərəfdən, Şörəyelin inkişaf etmiş və zəngin-varlı kənd təsərrüfatı rus qoşunlarını ərzaqla təmin edə bilərdi (191, 114).

Hələ İrəvana ilk hücum ərəfəsində P.D.Sisianov Şörəyel sultanlığının hakimi Budaq sultana Rusiya dövlətinin himayəsi altına keçməyi təklif etmişdi. Budaq sultan isə onun bu təklifinə məhəl qoymayaraq, İrəvan hakimi ilə əlaqə saxlayır və onun göstərişinə əsasən tez-tez Kartli-Kaxetiya ərazilərinə hücumlar təşkil edirdi.

Lakin tezliklə, Məhəmməd xanla onun arasında narazılıq yarandı. Müdaxilə nəticəsində dağıdılmış təsərrüfatı yenidən bərpa etmək üçün İrəvan hakimi sultandan ağır vergi tələb etmişdi. O, Budaq sultanı İrəvan qalasında həbs edərək, ondan 3.000 tümən istəmiş, əks təqdirdə şörəyellilәri İrəvana köçürəcəyi ilə hədələmişdi. İrəvan hakiminin sərt rəftarı şörəyellilərin bərk narazılıqına səbəb oldu. Bu narazılığın qarşısını almaq üçün Məhəmməd xan Nağı bəyin başçılığı ilə bir dəstə irəvanlını Şörəyelə göndərdi. Müqavimət göstərmək iqtidarında olmayan şörəyellilər Pəmbəkdə yerləşən rus qoşunlarının başçısı general Nesvetayevdən kömək istədilər. Generala müraciət edən Budaq sultanın oğlu Qara Məhəmməd ondan Şörəyeli himayəyə götürməyi xahiş edərək, rus qoşununu ərzaqla və atlarını yemlə təmin etməyə söz vermişdi. Bunun üçün şörəyellilər tərəfindən 800 samar miqdarında buğda tədarük edilmişdi (126, 573).

Belə imkanı əldən buraxmaq istəməyən P.D.Sisianov general-mayor Nesvetayevə Şörəyeli işğal etmək göstərişi verdi. 1805-ci il martın 27-də general-mayor Nesvetayev 250 nəfərdən ibarət dəstə ilə Şörəyelə doğru hərəkət etdi. Nağı bəy dəstəsi ilə geri çəkilməyə məcbur oldu. Martın 30-da sultanlığın mərkəzi müqavimətsiz rus qoşununa təslim oldu. İrəvanda həbsdə olan Budaq Sultanın əvəzinə hakim seçilən böyük oğlu Hamo bəyin başçılığı ilə şörəyellilər rusların təzyiqi ilə 1805-ci il martın 31-də Rusiya dövlətinin himayəsinə keçmək haqqında müqaviləni imzaladılar. Hətta Şörəyelin ağaları və kənd ağsaqqalları Rusiyaya sədaqətli olacaqları barədə and da içdilər. Müqavilə bağlandıqdan sonra mayor Noldenin başçılığı ilə 6-cı Saratov muşketyor alayı orada yerləşdirildi (126, 572-574). Şörəyelin ilhaqı Pəmbəkdən sonra İrəvan xanlığının torpaqlarının Rusiya tərəfindən işğalının ikinci mərhələsi oldu.

Şörəyelin itirilməsi ilə heç cür barışmaq istəməyən Məhəmməd xan Qasım bəyin və Məhəmmədəli bəyin başçılığı ilə üç minlik qoşunu oraya göndərdi. Böyük Talın kəndində mövqe tutan İrəvan qoşunu Şörəyelin mərkəzi Gümrüyə hücum etmək niyyətində idi. Bu xəbəri eşidən general-mayor Nesvetayev yüzbaşı Ağıyevin baş-

çılığı ilə bir kazak alayını 300 nəfər borçalı döyüşçüsü ilə birlikdə Böyük Talın kəndinə göndərdi. Burada tərəflar arasında döyüş baş verdi. Döyüş nəticəsində Böyük Talın və onun ətraf kəndləri rus qoşunu tərəfindən ələ keçirilərək yandırıldı. Məğlubiyyətə uğramış İrəvan qoşunu isə Üçmüəzzin istiqamətində geri çəkilməyə məcbur oldu. Onları təqib edən rus qoşunu xeyli əsir götürdü və daha irəli gedərək İrəvan qalasının 18 verstliyində dayandı. Lakin irəvanlıların böyük bir dəstə toplayaraq əks-hücuma keçmək niyyətində olduğunu eşidən general-mayor Nesvetayev rus qoşununa geri qayıtmaq əmri verdi (126, 573-574). Beləliklə, Şörəyel sultanlığı Rusiyanın hakimiyyəti altında qaldı.

Tezliklə Budaq sultan əsirlikdən geri qayıtdı. Rusiya komandanlığı əvvəllər onun sədaqətinə şübhə ilə yanaşaraq, sultanın hərəkətlərini nəzarətə götürdü. Hətta P.D.Sisianov general-mayor Nesvetayevə məktub yazaraq, Budaq sultanın digər oğlu Xəlil bəyi girov götürməyi tələb etmişdi (381, 576). Ona etibar edilmədiyini görən Budaq sultan P.D.Sisianovun qəbuluna gedərək sədaqətini bildirmişdi. Belə olduqda baş komandan onun Şörəyeldə qalmasına icazə vermiş və oğlunu isə ildə 600 rubl məvaciblə Tiflisdə girov saxlamışdı (381, 576).

## 3.4. İrəvan xanlığında yeni hakimiyyət dəyişikliyi

Məhəmməd xan rus qoşununa etibar etmədiyi kimi, Qacar hökumətinə də inanmırdı. O, xanlığın müstəqilliyini saxlamaq üçün bu iki dövlət arasında manevr etmək məcburiyyətində qalaraq, onlar arasında baş verən mübarizədən yararlanmağa çalışırdı. Lakin şah hökuməti Rusiyaya qarşı mübarizədə İrəvan xanlığının strateji əhəmiyyətini başa düşərək, müxtəlif vasitələrlə burada möhkəmlənmək istəyirdi. İrəvan hakiminin müstəqil və ikibaşlı siyasəti şahı da qane etmirdi. Məhz bu səbəbdən şah İrəvanda hakimiyyət dəyişikliyi etmək üçün fürsət axtarırdı. Bunu başa düşən Məhəmməd xan

Rusiya-Qacar münaqişəsini daha da kəskinləşdirmək istəyirdi. Ona görə də, o, Tiflisə elçi göndərərək rus komandanlığından hətta İrəvan qalasını tutmağı təklif etmişdi. Məhəmməd xan məktubunda rus qoşununa müqavimət göstərdiyinə görə üzr istəyərək, sədaqət rəmzi kimi girov verməyə hazır olduğunu da bildirmişdi (35, 105). Lakin İrəvan xanının bu planı da baş tutmadı.

1805-ci ildə Qarabağ-Gəncə istiqamətində məğlubiyyətə uğrayan şahzadə Abbas Mirzə qoşunları ilə İrəvana geri çəkildi. O, İrəvana daxil olarkən 15.000 nəfərlik qoşuna malik idi. Onun qoşununda çoxlu ölən və 400-ə yaxın yaralı var idi. Eyni zamanda şahzadə özü ilə xeyli Gəncə qaçqınlarını da gətirmişdi. Lakin o, sonradan qaçqınları geri qaytarmalı oldu (174, 626).

İrəvanda mövqe tutan Abbas Mirzə tezliklə Məhəmməd xanı həbs etdirdi. O, Məhəmməd xanı ələ keçirmək üçün hiyləyə əl atdı. İrəvan hökmdarının həbsini Y.Xubov öz əsərində belə təsvir edirdi: «Şahzadə (Abbas Mirzə – E. Q.) Yelizavetopoldan (Gəncə – E. Q.) İrəvana qayıdan zaman Məhəmməd xan tərəfindən böyük təntənə ilə qarşılandı.... İrəvan qalasına baxış keçirən şahın oğlu burada hərbi hazırlığı və qalanın möhkəmliyini görərək qorxdu. Lakin o, qorxu hissini gizlədirdi. Xan hər vasitəilə onu əzizləyən və alqışlayan şahzadənin məkrli niyyətini başa düşmədi. Üç gündən sonra şahzadə buranı tərk edərkən xan və yaxın adamları onu İrəvandan 15 verst aralı, Gərnibasar mahalının Ağbaş kəndində yerləşən düşərgəsinə qədər müşayiət etməli oldu. Bu vaxt şahzadə öz qoşununu İrəvana göndərdi. Onlar xanın evini mühasirəyə alaraq otaqlarını möhürlədilər və bütün ailə üzvlərini onun (şahzadənin- E.T.) hüzuruna gətirdilər. Xan arvad və cariyələrini həbsdə görəndə heyrətləndi. Lakin şahzadə bununla kifayətlənmədi. O, (xanın – E. Q.) 60-ə qədər əyanını cərimələyərək, hər birindən 30.000 rubl (3000 tümən – E. Q.) tələb etdi. Müqavimət göstərənlər təyin olunmuş məbləğ gələnə qədər işgəncəyə məruz qaldılar. Qısa vaxt ərzində 180.000 rubl (18.000 tümən – E. Q.) toplandı. Siyahı üzrə xəzinənin (xəzinədəki var-dövlətin – E. Q.) nə qədər olması və onun harada saxlanması barədə xanın yaxın adamları sorğu-suala tutuldu.

Onlar şahzadənin inanılmış adamları ilə xəzinəni axtarmaq və şahzadəyə çatdırmaq üçün İrəvana göndərildilər. Beləliklə, xanın əyanları bu yolla qarət olundular. Xan isə öz məiyyəti və bir neçə vali ilə İrana aparıldı. İrəvan qalasının sakinləri şəhərə köçürüldü. Pirqulu xan Qacar 1.200 nəfərlik qoşunla qalada yerləşərək şəhərin hakimi təyin olundu. İllik vergiləri yığmaq yerli əyanlara həvalə edildi. Bütün məbləğ onlar tərəfindən şah xəzinəsinə çatdırılırdı. Şahzadə bununla sakitləşərək bütün sərvət və əsirlərlə Qəzvin şəhərinə yola düşdü…» (494, 113).

Lakin Pirqulu xan Qacarın İrəvanda hakim təyin edilməsi dövrün digər mənbəyi ilə təsdiq olunmur. Şahidlərin verdiyi məlumata görə, 1805-ci ilin iyunun əvvəlində Abbas Mirzə 15 min nəfərlik qoşun, 400 yaralı və çoxlu meyidlə Gəncədən İrəvana gəlmişdi. O özü ilə Gəncə əhalisini də gətirmişdi, lakin Abbas Mirzə sonradan fikirini dəyişərək onları geri qaytarmağa məcbur olmuşdu. İyunun 13-də isə Mehdiqulu xan Qacar 3 min nəfərlik qoşunla İrəvana daxil olub Məhəmməd xanı və ailəsini həbs edərək şahzadəyə təslim etmişdi. Beləliklə, Mehdiqulu xan Qacar şahın fərmanı ilə İrəvan taxtında (1805 – il iyun-1806-cı il avqust) əyləşdi. Şahın etimad göstərdiyi naxçıvanlı kor Kəlbəli xan və gürcü şahzadəsi Aleksandr Mirzə Mehdiqulu xanın köməkçiləri təyin olundular. (432, 625; 270, 625; 174, 626).

Beləliklə, Məhəmməd xanın həbs edilməsilə İrəvanda hakimiyyətdə olan, xalq tərəfindən seçilmiş yerli Qacarlar sülaləsinə son qoyuldu. Məhəmməd xan bu sülalənin ən çox hakimiyyətdə olan nümayəndələrindən biri idi. Mənbələrdə onun şəxsiyyəti haqqında ziddiyyətli məlumatlara rast gəlmək mümkündür. Məhəmməd xana iradəcə zəif, cəsarətsiz, hiyləgər, ikiüzlü, ədalətli, mülayim və s. kimi keyfiyyətlər şamil edilir. O, çox kiçik yaşlarında-12 yaşında hakimiyyətə gətirilmişdi. Məhəmməd xan onun hakimiyyətinin ilk illərində nüfuzlu adamlardan asılı olmuş və hətta Kartli-Kaxetiya çarına tabe olaraq vergi vermişdi. Lakin sonradan bu asılılıqdan çıxaraq hakimiyyəti müstəqil idarə etmişdi. O, özünü bacarıqlı dövlət xadimi, hiyləgər siyasətçi kimi göstərə bilmişdi. Onun ha-

kimiyəti dövründə İrəvan xanlığının ərazisi genişlənmiş, vaxtilə itirilmiş torpaqlar geri qaytarılmışdı. Qonşu Azərbaycan xanları və Osmanlı paşaları ilə aparılan müharibələrdə Məhəmməd xan özünü həm də bacarıqlı sərkərdə kimi göstərmişdi. Yuxarıda da qeyd edildiyi kimi, Məhəmməd xan öz xanlığının müstəqilliyini qorumaq üçün iri dövlətlər arasında manevrlər etməyə bacaran dövlət xadimi idi. Hadisələrin gedişi göstərir ki, təhlükə baş verdikdə həm Rusiyaya, həm də Osmanlı dövlətinə kömək üçün müraciət edən Məhəmməd xan yalnız xanlığın təhlükəsizliyini qorumaq və xanlığın müstəqilliyini saxlamağı düşünürdü. Nasir Nəcmi yazırdı ki, «Bu vaxt Abbas Mirzəyə xəbər verdilər ki, İrəvan valisi Məhəmməd xan xəyanət edərək, Sisianovun həmləsindən bir neçə gün əvvəl rus qoşunlarını həmin şəhəri və başqa Qafqaz şəhərlərini almağa qaldırmışdı» (56, 29). Müəllif bu müharibədə Məhəmməd xanın fəaliyyətini şişirtsə də, lakin həqiqətən də o, rus komandanlığına kömək üçün müraciət etmişdi. Məhəmməd xanı buna məcbur edən səbəb isə şah qoşunlarının İrəvana hücumu idi. Hadisələrin gedişi göstərdi ki, xanın bu müraciəti iki böyük dövlət arasında gedən düşmənçilikdən yararlanmaq niyyətindən irəli gəlmişdi. Rus qoşunlarının başçısı P.D.Sisianov düzgün olaraq öz məktublarında Məhəmməd xanı hiyləgər adlandırmışdı. Hətta Rusiya-Qacar müharibəsində İrəvan hakimi Qacar dövləti ilə yaxınlaşsa da, bu hökumətə çox da bel bağlamamışdı. Onun müstəqil siyasət yeritmək niyyətində olduğunu başa düşən şah hökuməti İrəvanda hakimiyyət dəyişikliyi edərək, öz nümayəndəsini buraya hakim təyin etdi.

Lakin Məhəmməd xanın sonrakı taleyi naməlum qalmışdı. Y.Xubov əsərində Məhəmməd xanın və məiyyətinin Qəzvin qalasında ömürlük həbsdə qaldığını yazır (494, 113). Digər məlumata görə isə «Baba xan (Fətəli şah – E. Q.) hüzuruna tələb etdiyi irəvanlı Məhəmməd xanı yenidən azad buraxmış və Mehdiqulu xan onunla İrəvana gəlmişdi» (335, 421). Bu sənəddən görünür ki, Məhəmməd xan geri qayıtsa da, bir daha hakimiyyətə yiyələnə bilməmişdi. Beləliklə, İrəvan xanlığı Qacar dövlətindən çox ciddi şəkildə asılı vəziyyətə düşmüşdü.

Birinci İrəvan yürüşündən sonra bu istiqamətdə hərbi əməliyyatlar bir müddət səngidi. Lakin buna baxmayaraq, xanlıqda vəziyyət gərgin olaraq qalırdı. Qacar dövləti İrəvan xanlığını ələ keçirdikdən sonra şahın fərmanı ilə xan taxt-tacı **Mehdiqulu xan Qacara (1805-ci il iyun – 1806-ci il avqust)** tapşırılmışdı. Yeni İrəvan hakimi Qacar soyundan olmaqla bərabər Fətəli şahın qohumu və sevimli sərkərdələrindən biri idi. Lakin Mehdiqulu xan Fətəli şahın etimadını doğrultmadı. Onun apardığı daxili siyasət tezliklə irəvanlıların kəskin narazılığına səbəb oldu. Mehdiqulu xanın qoşunu ərzaq çatışmazlığı üzündən əsasən yerli əhalini qarət etməklə dolanırdı. Bundan əlavə, o, ərzaqsız olan qoşununun tələbatını ödəmək üçün əhalidən yeni-yeni vergilər tələb edirdi. Müharibə nəticəsində xanlığın kənd təsərrüfatı dağıldığından yerli əhali xanın bu ağır tələblərini yerinə yetirmək iqtidarında deyildi. Digər tərəfdən, Pəmbək və Şörəyeldə yerləşən rus qoşunu ilə münasibətlər gərgin olduğundan sərhəd kəndlərinin əhalisi evlərini buraxaraq xanlığın içəri mahallarına çəkilmişdi (398, 569-570).

Mehdiqulu xan isə bu məsələyə laqeyd yanaşır və evlərini məcburən tərk etmiş əhalinin taleyi ilə maraqlanmırdı. O, narazılıq edən yerli əhalinin bir çoxunu, İrəvana pənah gətirmiş 400 ailədən ibarət Pəmbək əhalisini cənuba köçürmək istəyirdi. Mehdiqulu xanın zülmünə dözməyən irəvanlılar ona qarşı üsyan qaldırdılar. Naxçıvanlı Kəlbəli xan yerli xalqın bu çıxışına rəğbətlə yanaşırdı. Lakin üsyan yatırıldı. İrəvanlıların tərəfini saxladığına görə, Kəlbəli xan da qaladan qovuldu və o, Naxçıvana qayıtdı. Xanın siyasətindən narazı olan Pəmbək əhalisi və Məlik Avramın, yüzbaşı Qabrielin başçılığı ilə 200 erməni ailəsi əmlakları ilə birlikdə Pəmbəyə qaçaraq, rus qoşunlarının himayəsinə sığındılar (174, 626; 120, 628; 175, 628-629).

Mehdiqulu xanın İrəvanda apardığı siyasətdən şah özü də narazı idi. Çünki o, öz siyasəti ilə xalqın rus qoşununa rəğbət bəsləməsinə səbəb olmuşdu. Digər tərəfdən, rus qoşunlarına qarşı müvəffəqiyyətsiz mübarizə Mehdiqulu xanı tamamilə nüfuzdan salmışdı. 1806-cı il iyulun 23-də Şörəyeldə rus qoşununa qarşı

döyüşdə Mehdiqulu xanın qoşununun məğlubiyyətə uğramasından hiddətlənən Fətəli şah qəti tədbirlər görməyə məcbur oldu. Avqustun əvvəllərində Mehdiqulu xan İrəvandan geri çağırıldı. Beləliklə, İrəvanada 1 il 1 ay hakimiyyətdə olmuş Mehdiqulu xan Tehrana qayıtdı.

Mehdiqulu xan İrəvanda hakimiyyətdən götürülərək, şahın digər qohumu marağalı Əhməd xan Müqəddəmə (o, qızını Fətəli şaha ərə vermişdi – E. Q.) ilə əvəz olundu. Yeni hakim ilk olaraq oğlunu 1000 nəfərlik qoşunla İrəvana göndərdi. Lakin Mehdiqulu xan onu İrəvana buraxmaq istəməmişdi. Bu xəbəri eşidən Əhməd xan şahın göstərişi ilə avqust ayının əvvəllərində 500 süvari və 4 topla Təbrizdən İrəvana doğru hərəkət etdi. Əlacsız qalan Mehdiqulu xanın şahın əmrinə tabe olmaqdan başqa çıxış yolu qalmadı. Beləliklə, 1806-cı ilin avqustunda **marağalı Əhməd xan (1806-cı il avqust – oktyabr)** İrəvan hakimliyinə başladı (13, 289; 331, 369).

Əhməd xan Marağalı İrəvanda cəmi üç aya yaxın hakimiyyətdə olmuşdu. Lakin o, qısa hakimiyyəti dövründə sələfinin zülm etdiyi yerli əhalinin rəğbətini qazana bilmişdi. Əhməd xan ilk növbədə əhalinin Mehdiqulu xan tərəfindən qarət olunmuş əmlakını geri qaytardı. Sərhəddə yerləşən kəndlərin əhalisinə geri qayıtmağa icazə verildi. O, Şörəyel və Pəmbəkdə yerləşən rus qoşunlarının başçıları ilə mehriban qonşuluq münasibətləri yaratmaq üçün danışıqlar aparacağını əhaliyə elan etdi (398, 369-370). Bu məsələ də Əhməd xan tərəfindən müvəffəqiyyətlə həll olundu.

Yeni hakim İrəvan qalasını möhkəmləndirməklə də məşğul idi. Onun göstərişinə əsasən, qalanın ətrafında yerləşən xəndək daha da dərinləşdirildi, şəhər əyanlarının mülklərinin yerləşdiyi, xəndəyin əks istiqamətində olan divarlardan da hündür yeni divar hördürdü. Qalada hər biri 500 tümən qiyməti olan daha iki ağır top yerləşdirildi. Ərzaq ehtiyatını çoxaltmaq üçün müxtəlif xanlıqlardan və Qars paşalığından xeyli ərzaq alındı. Ərzağın hər somarı 16 rubla başa gəlsə də, anbarlarda kifayət qədər ərzaq toplanmışdı (398, 380).

Marağalı Əhməd xan hətta Qars paşalığı ilə düşmən münasibətlərə son qoydu. O, dostluq münasibətləri yaratmaq üçün Qars paşasının yanına hədiyyələrlə birlikdə elçi göndərmişdi (398, 376).

Qısa hakimiyyəti dövründə gördüyü tədbirlərlə xalqın etimadını qazanan Əhməd xan tezliklə vəfat etdi. Buna səbəb, onun hakimiyyəti dövründə İrəvanda yayılan qızdırma xəstəliyi olmuşdu. Xəstəlik nəticəsində xeyli adam qırılmışdı. Qala qarnizonundan 500 nəfər bu xəstəliyə tutulduğundan Tehrana göndərilmişdi. Əhməd xan da həmin xəstəliyə düçar oldu. O, 1806-cı il oktyabrın 17-də vəfat etdi. Xanın cənazəsi Təbrizə aparıldı (335, 421; 336, 429; 398, 380). Beləliklə, İrəvanda hakimiyyətin yeni dəyişikliyi gündəmə gəldi.

**İrəvan xanlığı Hüseynqulu xanın dövründə**. Əhməd xan vəfat etdikdən sonra şah hökuməti Hüseynqulu xanı (1806-1827) İrəvana hakim təyin etdi (İrəvan xanlığının hərbi-siyasi, sosial-iqtisadi və mədəni həyatında böyük rol oynamış bu hakimin şəxsiyyəti haqqında aşağıda ətraflı bəhs ediləcəkdir – E.Q.). Yeni xan beynəlxalq vəziyyətin mürəkkəb olduğu bir vaxtda hakimiyyətə gəlmişdi. Qafqazda Qacar və Osmanlı dövlətləri ilə Rusiya arasında müharibələr davam edirdi. Qeyd etmək lazımdır ki, birinci İrəvan yürüşündə rus qoşunu məğlubiyyətə düçar olsa da, Azərbaycanın digər ərazilərində təşəbbüsü ələ ala bilmişdi. 1805-ci ilin may və dekabr aylarında Qarabağ, Şəki və Şamaxı xanlıqları Rusiyanın təbəəliyinə keçdi (51, 71-72; 43, 134-137; 95, 187; 199, 62). P.D.Sisianov Bakı xanlığını işğal etdikdən sonra İrəvana qoşun göndərmək niyyətində idi. Lakin 1806-cı il fevralın 8-də Bakı hökmdarı Hüseynqulu xanla danışıqlar zamanı onun layiq olduğu cəzaya çatdırılması nəticəsində bu planın həyata keçirilməsinə mane oldu (51, 72-73; 178, 477; 95, 187-188; 67, 65).

Bir müddət Qafqazdakı rus qoşunlarına general-mayor Nesvetayev komandanlıq etsə də, 1806-cı il iyunun 2-də bu vəzifəyə general-feldmarşal qraf Qudoviç təyin olundu (51, 73). Yeni baş komandanın dövründə rus qoşunlarının Azərbaycana təcavüzü daha da gücləndi. Qraf Qudoviçə verilmiş təlimata görə, rus qoşunları

Cənubi Qafqazda mövqelərini möhkəmləndirməklə kifayətlənməməli, Azərbaycan xanlıqlarının hamısını işğal etməli idi. 1806-cı ildə onun komandanlıqı ilə rus qoşunları tərəfindən Dərbənd, Bakı, Salyan, Muğan işğal olundu (201, 131; 199, 62).

Rusiyanın Cənubi Qafqazdakı işğalları Osmanlı Türkiyəsini narahat etməyə bilməzdi. Digər tərəfdən, Napoleon Fransası sultanı Rusiya ilə müharibəyə təhrik edirdi. Beləliklə, 1806-cı ilin dekabrında Osmanlı dövləti Rusiyaya müharibə elan etdi (23, 29).

Osmanlı Türkiyəsinin müharibəyə qoşulması şah qoşunlarının Cənubi Qafqaza yeni yürüşlərə ruhlandırdı. Baş komandan vəzifəsinin icrasına başlayan qraf Qudoviç iki cəbhədə müharibə aparmaqdan çəkinərək vəziyyəti yüngülləşdirmək üçün Qacar hökuməti ilə danışıqlara başladı. Danışıqlar aparmaq üçün tərcüməçi praporşik Baluyev şah sarayına göndərildi. Qraf Qudoviç Abbas Mirzənin, vəzir Mirzə Şəfinin və şahzadənin vəziri Mirzə Bozorgun adına yazılmış məktublarda Qacar dövlətilə bağlana biləcək sülhün şərtlərini açıqlayırdi. Məktubların məzmunu demək olar ki, eyni idi. Baş komandan hər üç məktubda guya şah qoşunlarının və Dağıstan hakimlərinin Kartli-Kaxetiyanı talan etdiyini, rus tacirlərinin bundan əziyyət çəkərək ziyana düşdüklərini bəhanə gətirərək, şah hökumətinə Rusiya ilə Qacar dövlətləri arasında sərhəddin Naxçıvan və İrəvan xanlıqları daxil olmaqla Kür və Araz çaylarından keçməsi şərtilə sülh bağlanmasını təklif edirdi (348, 456-457). Lakin şah sarayı Rusiya dövlətinin bu ağır şərtlərinin əsassız olduğunu, Cənubi Qafqazın onlara məxsusluğunu iddia edərək hər iki dövlət arasında sərhəddin çoxdan məlum olduğunu və bu sərhəddin Şimali Qafqazda Mozdok ərazisindən keçdiyini bildirmişdi. (349, 261; 350, 463).

Şərqdə Rusiyaya qarşı özünə müttəfiq axtaran Napoleon Fransası da bu danışıqlara mane oldu. Belə ki, 1807-ci il mayın 4-də Finkensteyndə bağlanmış müqaviləyə əsasən Napoleon Fransası rus qoşununa qarşı mübarizədə şaha kömək etməyi öhdəsinə götürürdü. Müqavilə bağlandıqdan sonra general Qardanın başçılığı ilə bir dəstə hərbi mühəndis Tehrana gəldi (201, 131-132). Şah rus

qoşununa qarşı mübarizədə İrəvan xanlığının strateji əhəmiyyətini başa düşərək qalanı möhkəmləndirmək üçün bu mühəndislərin bir hissəsini oraya göndərdi (130, 254).

Tezliklə, çarın əmrinə əsasən, qraf Qudoviç Türkiyənin şərq sərhədləri istiqamətində ilk hərbi əməliyyata başladı. Osmanlı qoşunu ilə rus qoşunu arasında iki dəfə ciddi toqquşma oldu. 1807-ci il may ayının əvvəllərində Ahalsıx qalası ətrafında baş verən birinci döyüşdə rus qoşunu biabırçı məğlubiyyətə uğrayaraq Tiflisə qayıtdı (398, 40, 73-74; 44, 54-55; 37, 181-182). İkinci dəfə tərəflər arasında döyüş 1807-ci il iyunun 18-də Gümrü istiqamətində Arpaçay çayı sahilində yerləşən Kiçik Qarakilsə kəndi yaxınlığında baş verdi. Döyüş rus qoşununun qələbəsi ilə başa çatdı. Bu döyüşdə Osmanlı qoşunu tərəfində Nağı bəyin başçılığı ilə 200 nəfərdən ibarət İrəvan dəstəsi də iştirak etmişdi (398, 232, 440-441; 51, 74; 44, 54-55; 37, 182). Buna baxmayaraq bu istiqamətdə də müharibə uzunmüddətli xarakter aldı.

## 3.5. İkinci İrəvan yürüşü

Osmanlı qoşununun bu məğlubiyyəti Rusiyanın Cənubi Qafqazdakı fəaliyyətini daha da genişləndirdi. Rus qoşununun hədəfə aldığı xanlıqlardan biri də İrəvan xanlığı idi. Qacar dövləti ilə aparılmış müvəffəqiyyətsiz danışıqlara baxmayaraq, Rusiya komandanlığı yazda İrəvan xanlığına yürüş etmək üçün 1808-ci ilin bütün qışını hərbi hazırlıq görməklə məşğul olmuşdu. Lakin yazda nəzərdə tutulmuş yürüş müəyyən səbəblərə görə bir qədər gecikdi. Nəhayət, 1808-ci ilin sentyabrın əvvəllərində rus qoşunu İrəvan sərhəddinə doğru hərəkət edərək Pəmbəkdə düşərgə saldı. Bu xəbərdə yerli əhali bərk təşvişə düşdü. Xanlığın əksər bölgəsində əhali kəndlərini başlı-başına buraxaraq qalalara, əlçatmaz dağlara və Araz çayının cənubuna çəkilirdi (341, 40; 398, 453-454).

Qraf Qudoviç Pəmbək və Şörəyeldə lazımi qədər silahlı qüvvə saxlayaraq, sentyabrın 25-də 6 minlik qoşun və 12 top ilə

İrəvan qalasına doğru hərəkət etdi (374, 412). Başqa bir məlumata görə, bu rus qoşunu 240 nəfərlik zabit heyətindən və 7506 sıravi əsgərdən ibarət olmuşdu (184, 20).

Rusiya komandanlığı şah qoşunlarının diqqətini İrəvandan yayındırmaq üçün Naxçıvana da hücum planı hazırlamışdı. Bu planı Qarabağda Tərtər çayı sahilində dayanmış general Nebolsin icra etməli idi. Onun sərəncamında 78 zabit və 3062 əsgər vardı. Bu qoşuna Şəki hakimi Cəfərqulu xanın dəstəsi də qoşulmuşdu (341, 240).

Rus qoşunlarının gec-tez xanlığa yenidən yürüş edəcəyini hiss edən irəvanlı Hüseynqulu xan müəyyən müdafiə tədbirləri görə bilmişdi. O, İrəvanda hakimiyyətə gələn kimi, qalanın müdafiəsini gücləndirərək, Zəngi çayından başlayan və qalanın ətrafını əhatə edən xəndəyi daha da dərinləşdirmiş və qala qarnizonunun tərkibini artırmışdı (434, 232; 398, 456). Fransız mühəndisləri buraya gəldikdən sonra İrəvan qalası Avropa qaydası ilə möhkəmləndirildi. Bunun şahidi olan qraf Qudoviç yazırdı: «İrəvan qalası Avropa hərbi qaydaları üzrə möhkəmləndirilib, onun iki divarı, xəndəyi və torpaqdan düzəldilmiş səddi vardı. Təpənin üstünə əvvəllər burada yerli hərbçilər tərəfindən tətbiq edilməyən karteçlə işləyən toplar qoyulmuşdu. İrəvanlılar fuqas bombalarından istifadə edirdilər ki, bu da fransız mühəndislərinin fəaliyyətinin bəhrəsidir» (130, 254; 35, 107-108). İrəvan qalasının hərbi cəhətdən möhkəmləndirilməsində fransız mühəndisləri ilə bərabər rus qoşunundan qaçaraq irəvanlılar tərəfinə keçmiş podpolkovnik Koçnev də fəal iştirak etmişdi (398, 463).

Bundan əlavə Hüseynqulu xan öz əmlakının təhlükəsizliyinin də qayğısına qalmışdı. Xan mülkiyyətinin böyük və qiymətli hissəsini Xoya göndərmiş, az bir hissəsini arvadı ilə birlikdə İrəvanda saxlamışdı (398, 462-463).

Hüseynqulu xan silahlı qüvvələrin sayını artırmaq və rus qoşunlarının hərəkətini izləmək üçün başqa o cümlədən hərbi xarakterli tədbirlər də görmüşdü. Onun göstərişi ilə 600 nəfərlik İrəvan süvari dəstəsi Abaran düzündə, 15 nəfərdən ibarət süvari dəstə isə Sudakənd kəndində keşik çəkirdi. Hüseynqulu xan kəndlərə adam-

lar göndərərək silahlı qüvvə toplamağa başlamışdı. Əli silah tutan yerli əhali orduya cəlb olunurdu. Onun 6 min nəfərlik silahlı süvari dəstəsi vardı. Xan maldarlıqla məşğul olan kürdləri də öz tərəfinə çəkməyə cəhd göstərdi. Lakin onların başçısı Hüseyn ağa əvvəl buna razılıq versə də, sonradan gözləmə mövqeyində qaldı. O, qalib gələn tərəfə qoşulmaq niyyətində idi (398, 453-454).

Bu vaxt şah qoşununun bir hissəsi İrəvan yaxınlığında Şorlu kəndində düşərgə salmışdı. Qacar komandanlığının diqqətini İrəvana yönəltmək üçün Hüseynqulu xan şahzadə ilə əlaqə yaradaraq rus qoşununun Pəmbəyə gəlməsi haqqında onu məlumatlandırmışdı. Bu məlumatı alan Abbas Mirzə 4 minlik süvari dəstə ilə Xoydan Naxçıvana gələrək burada mövqe tutdu (398, 453-454).

Sentyabrın 26-da rus qoşunu dağıdılmış Abaran kəndinə gəlib çatdı. Onların hərəkətini izləyən 500 nəfərlik İrəvan dəstəsi zəmiləri və bir neçə kəndi yandıraraq döyüşsüz geri çəkildi. Düşmən qüvvələrinin yaxınlaşdığını eşidən Hüseynqulu xan 5 min nəfərlik qoşunla onları sərhəddə qarşılamağı qərara aldı. Sentyabrın 29-da Əştərək kəndində irəvanlılarla rus qoşununun ön dəstəsi arasında döyüş baş verdi. Döyüşdə Hüseynqulu xan məğlub olaraq qoşunu ilə geri çəkildi. Ertəsi gün rus qoşunu Üçmüəzzinə döğru hərəkət edərək müqavimətsiz onu ələ keçirdi. Rus qoşununa rəğbət bəsləyən ermənilər onları təntənə ilə qarşıladılar (129, 243).

İlk döyüşdə məğlub olan Hüseynqulu xan İrəvan qalasına çəkilmişdi. Lakin o, burada çox ləngimədi. Rus qoşunları gələnə qədər qardaşı Həsən xanı qalaya komendant təyin edən xan, iki minlik İrəvan qoşununu və şahzadə tərəfindən burada saxlanmış şah qoşunundan bir dəstəni onun sərəncamında saxlayaraq, qalan qoşunla Gərni çayını keçərək Vedi dərəsinə çəkildi (129, 244).

İki gün Üçmüəzzində dincəldikdən sonra qraf Qudoviç yüksək rütbəli zabitləri, artilleriya hissələrini və ağır ərzaq arabalarını bir dəstə qarnizonla burada saxlayaraq, İrəvan qalasına doğru hərəkət etdi. Oktyabrın 3-də rus qoşunu Zəngi çayını keçərək İrəvan qalasını mühasirəyə aldı (377, 244).

Qraf Qudoviç ilk növbədə qalanı döyüşsüz təslim etmək üçün komendant Həsən xana və sakinlərə hədə-qorxu dolu məktublar,

bəyannamələr göndərməyə başladı. O, oktyabrın 4-də göndərdiyi bəyannamədə irəvanlıları müqavimətsiz təslim olmağa çağıraraq, özlərinin və əmlaklarının toxunulmazlığına söz verir, müqavimət göstərəcəkləri halda isə onlara aman verilməyəcəyi ilə hədələyirdi. Qraf Qudoviç lovğalanaraq yazırdı: «İrəvan əhalisi! Siz İrəvan qalasının əvvəlki müvəffəqiyyətsiz mühasirəsindən ibrət götürməyin. Onda vəziyyət başqa idi, indi isə tamamilə başqadır. Onda qoşuna hərbi sahədə təcrübəsi olmayan gənc generallardan knyaz Sisianov başçılıq edirdi. İndi xoşbəxtəm ki, 30 ildən çox güclü rus qoşununu idarə edən mən, böyük imperatorun məğlubedilməz qoşununa burada komandanlıq edirəm. Bundan əlavə, əvvəlki İrəvan mühasirəsində olunmayacaq dərəcədə çox az qoşun vardı, indi isə mənim o qədər qoşunum var ki, nəinki qalanı məhv edərəm, həm də bütün İranı tapdalayaram» (399, 237-238). Belə bir məktub oktyabrın 17-də qalanın komendantı Həsən xana da göndərilmişdi. Məktub həm hədələyici, həm də şirnikləndirici xarakter daşıyırdı. Qraf Qudoviç məktubda qala müdafiəçilərinin çıxılmaz vəziyyətdə olduğunu, rus qoşununun Hüseynqulu xanı məğlub etdiyini, onlara kömək gəlməyəcəyini bildirərək, Həsən xandan qalanı təslim olunmasını tələb edirdi. O, qalanın könüllü təslim olacağı təqdirdə qarnizonun maneəsiz Arazın o tayına geri çəkilməsinə razı olacağına, əhalinin əmlak və mülkiyyətinə toxunulmayacağına söz verir və eyni zamanda xanı inandırmağa çalışırdı ki, guya qaçıb gizlənmiş bütün İrəvan əhalisi Rusiya imperiyasının təbəəliyinə keçmək istəyir. Daha sonra o, xanı şirnikləndirmək üçün yazırdı: «…Lakin siz hörmətli komendant, əgər qala qarnizonu ilə birlikdə İrana çəkilmək arzusunda olsanız sizə sərbəstlik veriləcək. Əgər qalmaq istəsəniz mən böyük imperatorun adından sizi hörmətlə bütün hüquq və əmlakınızla İrəvan qalası və şəhərindən başqa bütün xanlığın hakimi təyin olunacağınıza söz verirəm» (341, 240).

Lakin Həsən xanın noyabrın 21-də Qudoviçə göndərdiyi məktubunda onun yazdıqlarının yalan olduğunu bildirərək istehzalı tərzdə bildirirdi: «Tələb edirsiniz ki, İrəvan qalasını könüllü təslim etsəm, əvəzində İrəvan xanlığını mənə verəcəksiniz. Əgər bu cür əməl yaxşıdırsa onda siz böyük İran hökmdarına qulluq etməyə razı

olsanız əvəzində İrəvan, Təbriz və başqa çox şey alarsınız. … Siz yazırsınız ki, işi əhalinin qırılmasına gətirib çatdırmayım. Bütün aləmə məlumdur ki, bunun səbəbkarı siz olacaqsınız… Sonra yazırsınız ki, bütün İrəvan əhalisi və Hüseyn ağa başda olmaqla kürdlər sizin yanınıza gəlib, çox yaxşı və çox əcəb. Onda bütün İrəvan əhalisi sizə təslim olmağa razıdır. Əhalini idarə etmək üçün ona sahib olmaq lazımdır. Sonra yazırsınız ki, çoxlu qoşununuz var, kim hökmranlıq bacarırsa onun qoşunu çox olmalıdır və başqalarının da belə çox qoşunu var». Daha sonra xan məktubda qalanın güclü qarnizona və üçillik ərzaq ehtiyatına malik olduğunu yazaraq onu təslim etməyəcəyini bildirmişdi (398, 473).

Hüseynqulu xan geri çəkilərkən onun qoşununun sayı 2 min nəfərdən ibarət olmuşdu. O, İrəvandan 30 verst aralıda yerləşən Kiçik Vedi qalasında düşərgə salmışdı. Həmin vaxt gürcü şahzadəsi Aleksandr Mirzə də burada idi (398, 463). İrəvan hakiminin məqsədi kənardan qəfl hücumlarla rus qoşununu çaşbaş salmaq, onların məqsədini qalanın mühasirəsindən yayındırmaq idi. Belə bir planın rus qoşunu üçün çox qorxulu olduğunu dərk edən Qudoviç general mayor Portnyagini bir dəstə qoşunla Hüseynqulu xanı təqib etməyə göndərdi. Lakin Hüseynqulu xan döyüşdən yayınaraq Arazda cənuba çəkildi. (375, 244).

İrəvanlıların təslim olmayacağını anlayan rus komandanlığı qalaətrafı strateji əhəmiyyətli nöqtələri tutmaq üçün qoşunu bir neçə dəstəyə böldü. Qraf Qudoviçin göstərişinə əsasən, oktyabrın 7-si gecə polkovnik Simonoviçin başçılığı ilə qoşunun bir hissəsi qaladan şimal tərəfdə yerləşən Topbaşını, Borşovun dəstəsi Zəngi çayını keçərək qaladan cənub-qərbdə yerləşən Maxtəpə kurqanını, mayor Buxvostovun dəstəsi isə qaladan cənub-şərqdə yerləşən, ətrafı bağlarla əhatə olunmuş Müxənnət kurqanını ələ keçirməli idi. Yerli əhalinin müqavimətinə baxmayaraq oktyabrın 9-u günortaya yaxın rus qoşun dəstələri bu əmri yerinə yetirə bildi. Qalanı mühasirəyə alan rus qoşunu onu bombardman etməyə başladı (129, 244-245; 375, 296-297).

Araz çayının cənubuna çəkilən Hüseynqulu xan heç də sakit dayanmaq fikirində deyildi. O, dəstəsi ilə rus qoşununun diqqətini

qaladan yayındırmaq məqsədilə onlara qəflətən hücumlar təşkil etmək üçün hətta qalanın 10 vertliyinə qədər gəlib çıxmışdı. Onun qoşunu rusları ərzaq "tədarük" edən dəstələrinin üzərinə tez-tez hücumlar edirdi. Hüseynqulu xanın qəfil və düşünülmüş hücumları rusları təngə gətirmişdi. Qraf Qudoviçin əmrinə əsasən 15-ci yeger alayından 200 nəfər, dörd Narva draqun eskadronu və 200 nəfərlik kazak dəstəsi podpolkovnik Podlutskinin başçılığı ilə Hüseynqulu xanın qoşununu təqib etməyə göndərildi. Onlara general-mayor knyaz Orbelianinin başçılığı ilə Qazax, Şəmşəddil və Pəmbəkdən olan Azərbaycan türklərindən ibarət dəstə də qoşulmuşdu. Oktyabrın 16-da səhər tezdən rus qoşunu qəflətən Gərni çayı sahilində yerləşən Avşar kəndində mövqe tutmuş Hüseynqulu xanın dəstəsinə və onunla birlikdə olan gürcü şahzadəsi Aleksandr Mirzənin başçılıq etdiyi 2 min nəfərlik şah qoşununa hücum etdi. Qəflətən yaxalanmış Hüseynqulu xan qoşunu ilə vaxtında aradan çıxaraq Arazdan cənuba çəkildi. Podpolkovnik Podlutski qraf Qudoviçə göndərdiyi məlumatda bildirirdi ki, bu döyüşdə xanın bütün düşərgəsi, özünün mindiyi at və yüklə dolu 50-dən çox qatır rus qoşunun əlinə keçmişdi. Döyüşdə xanın qoşunundan 30 nəfər ölmüş, 5 nəfər adamı isə əsir düşmüşdü (438, 496). Lakin qraf Qudoviç Həsən xana göndərdiyi məktubda bu döyüşdə xanın qoşunundan çoxlu ölən olduğunu bildirərək, 60 qatır və 600 qiymətli yükdən ibarət qənimət ələ keçirildiyini yazırdı (341, 239).

Hüseynqulu xanın məğlub olduqunu eşidən Fətəli şah Fərəculla xanın başçılığı ilə 5 min nəfərlik qoşunu irəvanlıların köməyinə göndərdi. Vəziyyət rus qoşunu üçün qorxulu xarakter aldı. Qraf Qudoviç bu təhlükənin qarşısını almaq üçün general mayor Portnyagini əlavə qoşunla Podlutskinin dəstəsinə köməyə göndərdi. Qoşuna ümumi rəhbərlik etməyi Portnyaginə tapşırıldı. Lakin rus qoşunu İrəvan hakimini açıq döyüşə cəlb edə bilmədi. Hüseynqulu xan hər dəfə açıq döyüşdən yayınmaqla rusların əsəbləri ilə oynayırdı. Heç bir yerdə müqavimətə rast gəlməyən general-mayor Portnyagin Arazın sol sahilinə keçərək Şadlı kəndində düşərgə saldı (129, 245).

Burada general-mayor Portnyaginə xəbər gəldi ki, general-mayor Nebolsinin komandanlığı altında olan rus qoşunu artıq Naxçıvan xanlığının ərazisinə hücuma başlamışdı. Bu xəbəri eşidən Abbas Mirzə 12 top, 60 falkonetə malik 3 min nəfərlik piyada və 10 min nəfərlik süvari dəstədən ibarət qoşunla oraya tələsdi. 1808-ci ilin oktyabrın 28-də Naxçıvandan 18 verst aralıda yerləşən Qarababa kəndində polkovniklər Lisaneviçin və Kotlyarevskinin komandanlığı altında olan rus qoşununun ön dəstəsi ilə şahzadənin qoşunu arasında döyüş baş verdi. Bu döyüşdə şah qoşunu məğlubiyyətə uğrayaraq geri çəkildi. Noyabrın 1-də Naxçıvan hakiminin oğlu Şıxəli bəyin köməkliyi ilə rus qoşunu Naxçıvanı döyüşsüz işğal etdi. Beləliklə, qraf Qudoviçin planının birinci hissəsi həyata keçdi (129, 253; 198, 216; 375, 299-300).

İrəvan qalasının mühasirəsi isə davam edirdi. Hər tərəfdən mühasirəyə alınmış qala güclü top atəşinə məruz qalmışdı. Top atəşi nəticəsində iki qüllə sıradan çıxmış, qalanın divarlarına zərər toxunmuş və qalada yanğın baş vermişdi. Lakin buna baxmayaraq, irəvanlılar təslim olmaq niyyətində deyildilər. Belə olduqda rus komandanlığı qala sakinlərini susuz qoymaq üçün son tədbirə əl atdı. Belə ki, ruslar İrəvan yaxınlığında yerləşən Teymur bulaqdan qalaya çəkilmiş suyun qarşısını kəsməklə, irəvanlıları susuzluqla təslim olmağa məcbur etmək istədi. Lakin irəvanlılar rusların bu niyyətini vaxtında başa düşərək güclü top atəşi altında itki vermələrinə baxmayaraq, gecə ikən suyu Zəngi çayından götürməyə nail oldular (129, 246; 375, 300).

İrəvanlıların inadkarlığını görən Qudoviç qala komendantı Həsən xanla yenidən danışıqlara başladı. Qraf məktubunda yenə də əvvəlki şərtləri irəli sürür və qalanın təslim olunmasını tələb edirdi (345, 249). Lakin onun bu cəhdi də heç bir nəticə vermədi.

Birinci İrəvan yürüşündə olduğu kimi, güclü müqavimətə rast gələn və ərzaq çatışmazlığından əziyyət çəkən rus komandanlığı yerli əhalini yalan vədlərlə öz tərəfinə çəkməyə cəhd göstərirdi. Qraf Qudoviç ilk əvvəl Vedi dərəsinin Şadılı əhalisinə müraciət etdi. Hüseynqulu xanın sığındığı həmin dərənin sakinləri xan məğlub olduqdan sonra bütün əmlakı ilə birlikdə Araz çayının

cənubuna çəkilmişdi. Baş komandan oktyabrın 8 və 10-da yazdığı məktublarında rus qoşunlarının tezliklə İrəvan qalasını işğal edəcəyi ilə öyünərək, Vedi sakinlərinə onların əmlakları ilə birlikdə geri qayıdaraq Rusiya dövlətinin himayəsinə keçmələri üçün müraciət etmişdi. Hətta o, tələsərək rus qoşununun ərzaq ehtiyatını təmin etmək üçün vedililərdən 500 xırda və 100 iribuynuzlu mal-qara tələb etmişdi (400, 238; 342, 239). Lakin vedililər onun bu məktublarına məhəl qoymadılar.

Vedililəri öz tərəfinə çəkmək cəhdinin boşa çıxdığını görən qraf Qudoviç kürdlərin başçıları Hüseyn bəy və Abdulla bəylə danışıqlara başladı. Xanlığın ərazisində yaylaq-qışlaq həyatı keçirən kürdlər rus qoşununun hücumu nəticəsində özlərinin təhlükəsizliyi üçün Arazdan cənuba çəkilmişdilər. Kürd başçılarına yazdığı məktublarda qraf Qudoviç rus qoşununun acınacaqlı vəziyyətini gizlədərək qələbələri ilə öyünür və onları Rusiya dövlətinin himayəsinə sığınmağa çağırırdı. Lakin bu cəhd də boşa çıxdı (341, 247; 343, 247-248; 344, 248; 347, 252).

Mühasirənin uzanması qala sakinlərinin vəziyyətini də günü-gündən çətinləşdirmişdi. Digər tərəfdən, Hüseynqulu xanın rus qoşunu tərəfindən Arazın cənubuna sıxışdırılması onların xaricdən kömək almaq ümidini boşa çıxartmışdı. İrəvan qalasını bu çətin vəziyyətdən çıxarmaq üçün şah hökuməti fransız Lejarı qraf Qudoviçin yanına göndərdi. Lejar hücumu dayandırmaq və rus qoşununu İrəvan xanlığı ərazisindən çıxarmaq üçün baş komandanla danışıqlara başladı. Lakin rus komandanlığı şah hökumətinin bu təklifini rədd etdi. Beləliklə, fransız Lrjarın bu missiyası baş tutmadı (130, 253).

İrəvan qalasını mühasirəyə alan rus qoşununun vəziyyəti də acınacaqlı idi. Havaların soyuması, ərzaq ehtiyatının tükənməsi və irəvanlıların güclü müqaviməti qraf Qudoviçi son dəfə qalaya irimiqyaslı qəti hücuma keçməyə məcbur etdi. Bu hücum noyabrın 17–si səhər saat 5-ə planlaşdırılmışdı. Baş komandanlıq qoşunu beş dəstəyə bölmüşdü. Dörd dəstə müxtəlif istiqamətlərdən qalaya qəflətən hücum etməli, Qudoviçin özünün rəhbərlik etdiyi beşinci dəstə isə ehtiyatda dayanmalı idi. Bu hücuma 4645 nəfərlik rus

qoşunu cəlb olunmuşdu (130, 253-256). Lakin qala müdafiəçiləri rus qoşununun bu planının qarşısını vaxtında ala bildilər. Hücuma keçən rus qoşununu güclü top atəşi ilə qarşılayan irəvanlılar onlara xeyli itki verməyə və rusları geri çəkilməyə məcbur etdi. Rusların qalaya daxil olmaq üçün düzəltdikləri nərdivanlar da onların işinə yaramadı. Rus qoşununun güclü itki verdiyini görən qraf Qudoviç hücumu dayandırdı. Bu əməliyyat rus qoşunu üçün biabırçılıqla sona çatdı. Təkcə bu hücum zamanı rus qoşunundan 17 zabit və 269 əsgər məhv edilmiş, 64 zabit və 829 əsgər isə yaralanmışdı (130, 256). P.Butkov isə bu əməliyyat zamanı rus qoşununun 1000 nəfərə yaxın hərbçi itirildiyini qeyd etmişdi (107, c.3, səh.390).

Hücumun boşa çıxması rusları bərk ruhdan salmışdı. Çıxılmaz vəziyyətdə qalan Qudoviç İrəvandan geri çəkilməyə məcbur oldu. Noyabrın 30-da səhər tezdən rus qoşunu İrəvanın mühasirəsindən əl çəkərək geri qayıtdı. Qraf Qudoviç geri çəkilərkən general mayor Nebolsinə Naxçıvandan Gəncəyə geri çəkilməsi haqqında göstəriş verdi. Naxçıvanda möhkəmlənmiş rus qoşunu da dekabrın 1-də oranı tərk etdi (375, 304-305).

Beləliklə, ikinci İrəvan yürüşü də rus qoşunları üçün müvəffəqiyyətsizliklə başa çatdı. İrəvan hakimi Hüseynqulu xanın və qardaşı Həsən xanın başçılığı ilə irəvanlıların güclü müqavimət nəticəsində çoxlu itki verərən rus qoşunları xanlığı tərk etməyə məcbur oldu.

## 3.6. İkinci İrəvan yürüşündən sonra baş verən hadisələr və Gülüstan müqaviləsi

İkinci İrəvan yürüşündə rus qoşunlarının biabırçı məğlubiyyəti qraf Qudoviçin baş komandan vəzifəsindən istefa verməsinə səbəb oldu. 1809-cu ilin fevralın 14-də çarın fərmanına əsasən, general A.P.Tormosov Qafqazda rus qoşunlarının baş komandanı təyin olundu (95, 191; 376, 1-2). Yeni baş komandan bu vəzifəyə başlayan kimi, vəziyyəti düzgün qiymətləndirərək sələfinin hücum

taktikasından imtina etdi. Eyni zamanda iki dövlətlə – həm Osmanlı, həm də Qacar dövlətləri ilə müharibənin rus qoşunu üçün ağır olacağını dərk edərək, şah hökumətilə danışıqlara başladı. Bu məqsədlə, 1809-cu il iyunun 27-də danışıqlar aparmaq üçün podpolkovnik baron Vrede xüsusi məktubla Təbrizə göndərildi. Məktubda Rusiya tərəfi yenə də sərhəddin Kür, Araz və Arpaçay çayları boyunca keçməsi şərtilə sülh bağlamağa hazır olduğunu bildirirdi. Lakin Qacar dövləti nəinki bu təkliflə razılaşmadı, eyni zamanda Kartli-Kaxetiyanın da ona məxsus olduğunu bir daha bəyan etdi (352, 686-687).

Məğlub durumda olmasına baxmayaraq, şah hökuməti müharibəni davam etdirmək əzmində idi. 1809-cu ilin martında İngiltərə ilə Qacar dövləti arasında bağlanan müqavilə nəticəsində şah hökuməti maliyyə dəstəyi aldı (201, 133). Bu da Qacar hökumətinin Cənubi Qafqaza əlavə qüvvələrin göndərməsinə şərait yaratdı. 1809-cu ilin iyul ayında şahın əmrinə əsasən, Qacar qoşunu rus qoşunlarına müxtəlif istiqamətlərdən hücum etmək üçün üç dəstəyə bölündü. Birinci dəstə Abbas Mirzənin komandanlığı altında Qarabağ istiqamətində hücum etməli idi. İkinci dəstəyə şahın böyük oğlu Məhəmmədəli xan komandanlıq edirdi. Onun dəstəsi İrəvan xanlığı ərazisindən keçməklə Pəmbək və Şörəyeldə yerləşən rus qarnizonlarına hücum etməli idi. Şahın özünün başçılıq etdiyi üçüncü dəstə isə Göycə gölü ətrafından keçərək Gəncə xanlığı istiqamətindən Şəmşəddil və Qazaxa yürüşə başlamalı idi. Hərbi əməliyyatlarda Osmanlı paşalarının da öz qoşunları ilə birlikdə ruslara qarşı iştirakı nəzərdə tutulmuşdu. Bu məqsədlə Bəyazid və Ərzurum ətrafında on min nəfərədək silahlı qüvvə toplanmışdı. İki tərəfdən rus qoşununa hücum planı ingilis diplomatı Harfort Consa məxsus idi (387, 689-690; 376, 4-5).

1809-cu il iyunun axırlarında şahın böyük oğlu Məhəmmədəli xanın başçılığı ilə 15.000 nəfərlik Qacar qoşunu İrəvana gəldi. Bu qoşunun məqsədi irəvanlılarla birləşərək Pəmbək və Şörəyeldə yerləşən rus sərhəd məntəqələrinə hücum etmək idi. İrəvanda bu qoşun üçün 1000 xalvar, digər xanlıqlardan isə 7000 xalvar ərzaq

tədarük edilmişdi. Bundan əlavə Hüseynqulu xan xanlığın taxıl ehtiyatını qorumaq üçün onun qonşu dövlətlərə satışını qadağan etmişdi. O, əhali arasında yayılan xəstəliyi bəhanə gətirərək rusların nəzarəti altında olan Şörəyel əyalətinə taxıl ixracını dayandırmışdı (439, 779).

1809-cu il iyulun 16-da İsmayıl bəy Damqanlının başçılığı ilə şah qoşununun üç min nəfərlik ön dəstəsi Hamamlı və Bəykəndi yaşayış məntəqəsində yerləşən rus qarnizonlarına qarşı hücuma keçdi. Lakin bu hücum rus dəstəsi tərəfindən dəf edildi və məğlub olan şah qoşunu geri çəkilməyə məcbur oldu. İyulun 21-də şah qoşunu Nağı bəyin başçılıq etdiyi İrəvan qoşunu ilə birləşərək yenidən Pəmbək və Şörəyel ərazilərinə hücuma keçdi. Lakin bu hücum da baş tutmadı (95, 191-192).

Ön dəstənin məğlubiyyətini görən şahzadə İrəvan süvarilərinin də iştirak etdiyi əsas qüvvələrlə iyulun 22 və 23-də üç istiqamətdə Pəmbək və Şörəyeldə yerləşən rus məntəqələrinə irimiqyaslı hücum təşkil etdi. Lakin rus komandanlığı müdafiəyə vaxtında hazırlaşa bilmişdi. Şah qoşununa qarşı general-mayor Portnyaginin rəhbərliyi altında güclü qoşun çıxarılmışdı. Görülmüş tədbirlər nəticəsində rus qoşunu hücumun qarşısını ala bildi və hətta əks-hücuma keçdi. Lakin general-mayor Portnyagin bir neçə dəfə şah qoşununa hücum təşkil etsə də, şah qoşunu açıq döyüşə girməkdən çəkindi. Rus qoşununun təzyiqi ilə geri çəkilən şah qoşunu Abaran düzündə düşərgə saldı. Ruslar isə İrəvan xanlığına yaxın sərhəddə güclü dəstələr yerləşdirməklə kifayətlənməli oldular (274, 693; 376, 8).

Şahzadə Abbas Mirzənin Gəncə xanlığı ərazisinə hucumu da baş tutmadı və o, İrəvana çəkilməyə məcbur oldu (376, 10). Beləliklə, 1809-cu il hərbi kompaniyası şah hökuməti üçün uğursuzluqla nəticələndi.

Məğlubiyyətə baxmayaraq, Hüseynqulu xanın dəstələri yenə də tez-tez rus qoşununun işğalı altında olan ərazilərə hücumlarını davam etdirirdi. Onun göstərişinə əsasən, 1810-cu il iyunun əvvəllərində Nağı bəyin başçılığı altında iki minlik İrəvan qoşunu Qazax

sultanlığına göndərildi. Bu yürüşdə İrəvan qoşunu çoxlu xırda və iribuynuzlu mal-qara və at qənimət ələ keçirməyə nail oldu. Lakin irəvanlılar bu qələbədən faydalana bilmədilər. Belə ki, Qazax süvarilərinin köməyi ilə mayor Corayevin başçılığı altında bir dəstə rus qoşunu yolda ikən irəvanlılara hücum edərək, qənimətin böyük əksəriyyətini geri qaytara bildi. Qəflətən hücuma məruz qalan irəvanlılar bu toqquşmada Nağı bəyin qardaşı Həsən ağa ilə birlikdə 40 nəfərə qədər itki vermiş, 1 nəfər isə əsir düşmüşdü (390, 478; 440, 496).

Qazax yürüşündən geri qayıdan Nağı bəy tezliklə Hüseynqulu xandan Pəmbək və Şörəyelə hücum etmək üçün yeni göstəriş aldı. Lakin İrəvanda naməlum səbəbdən ərzaq ambarı və artilleriyanın yerləşdiyi saray yandığına görə bu hücum baş tutmamışdı (440, 496).

Hərbi əməliyyatlar isə davam edirdi. Abaranda toplaşmış üç minlik İrəvan qoşunu Həsən xanın və Nağı bəyin başçılığı ilə Şörəyelin Qarakilsə kəndində yerləşən rus qarnizonuna hücum etdi. Bu əməliyyatda çoxlu mal-qara qənimət ələ keçirən irəvanlılar geri dönərək, Qara bəyə və Hüseyn ağaya məxsus Mağizberd kəndində düşərgə saldı. Bundan xəbər tutan rus komandanlığı 1 topa malik 200 nəfərlik piyada Tiflis alayını, podpolkovnik Boqaçevin başçılığı ilə 100 nəfərlik kazak alayını, Budaq sultanın və oğlu Hamonun başçılığı altında olan Şörəyel dəstələri ilə birlikdə onlara qarşı göndərdi. Qəflətən yaxalanmış İrəvan qoşunu əldə etdikləri qəniməti ataraq geri çəkildi. Onların şörəyellilərdən ələ keçirdiyi 1000 baş qoyun, 500 davar geri qaytarıldı. Bu mal-qaranın bir hissəsi rus qoşununa paylandı, 250 baş Budaq Sultana, 250 baş isə əhaliyə qaytarıldı (440, 496; 441, 496-497).

İrəvan xanlığı ərazisindən bir başa hücumun boşa çıxdığını görən Qacar dövləti hücumun istiqamətini dəyişərək, Osmanlı Türkiyəsi ərazisindən keçməklə Pəmbək və Şörəyelə hücum etməyi planlaşdırdı. Bu yürüşdə şah hökuməti iki məqsəd güdürdü: **birincisi,** Qars, Bəyazid və Ahalsıq paşalıqlarından hərbi kömək

almaq; **ikincisi,** rus qoşununa qarşı üsyan qaldırmış İmeretiya hakimi Solomona kömək etmək (444, 725; 376, 171).

İrəvan istiqamətində rus qoşununa qarşı vuruşan bütün qüvvələr Abaran düzündə düşərgə salmışdı. Qoşun iki dəstəyə ayrılmışdı. Səkkiz minlik süvaridən ibarət olan birinci dəstəyə İrəvan hakimi Hüseynqulu xan rəhbərlik edirdi. Şahın böyük oğlu Məhəmmədəli xanın rəhbərlik etdiyi ikinci dəstə isə 10 min nəfərdən ibarət idi. Lakin şah hökumətinin planlarından ermənilər vasitəsilə xəbərdar olan rus komandanlığı bu yürüşü qabaqlamağı qərara aldı. Həmin vaxt Pəmbək və Şörəyeldə yerləşən rus qoşunlarının sayı isə 18 topu olan 3889 nəfərə çatırdı (442, 724; 439, 192). Bütün qoşuna general-mayor Portnyagin rəhbərlik edirdi. Baş komandan A.P.Tormasov şah qoşununun irimiqyaslı hücumunun qarşısını almaq üçün general-mayor Portnyaginə birbaşa Abarana hücum etməyi əmr etdi. Lakin general qüvvələrin qeyri-bərabərliyini nəzərə alaraq buna cəsarət etmədi (376, 192-193).

Əvvəlcə Hüseynqulu xan hərəkətə keçdi. O, 1810-cu il avqustun əvvəllərində 5 minlik qoşunla Osmanlı sərhəddinə doğru hərəkət etdi. Gürcü şahzadəsi Aleksandr Mirzə də onunla birlikdə idi. Bu əməliyyatda İrəvan hakimi Osmanlı paşalarından hərbi kömək almaq niyyətində idi. Mağziberd kəndində iki minlik kürd və Qara bəyin başçılığı ilə iki yüz qarapapaq dəstəsi ona qoşuldu. Birləşmiş qüvvələr avqustun 11-də Qarsdan 20 verst aralı, Zərişad deyilən yerdə düşərgə saldı. Vədləşdikləri kimi, burada Hüseynqulu xanın dəstəsinə Qars, Bəyazid və Ahalsıx paşalıqlarının qoşunları qoşulmalı idi. Lakin xan gözlənilən köməyi ala bilmədi. Burada bir neçə gün qalan Hüseynqulu xan öz dəstəsi ilə avqustun ortalarında Ahalsıx qalasına doğru hərəkət edərək, onun yaxınlığında düşərgə saldı. Bu xəbəri eşidən general-mayor Portnyagin Şörəyeli hücumdan qorumaq üçün tədbirlər görməyə başladı. O, 4 topa malik 140 nəfərlik draqun dəstəsi, 400 nəfərdən ibarət Saratov atıcı alayı, 100 kazak və qazaxlılardan ibarət azarbaycanlı süvari dəstəsi ilə Hamamlıdan hərəkət edərək Pəmbəklə Gümrü arasında mövqe tutdu. Lakin onun dəstəsi burada çox qalmadı. Hüseynqulu xanın

İmeretiya çarı Solomona kömək üçün qoşun göndərəcəyini eşidən general-mayor Portnyagin Pəmbəyi qorumağı polkovnik knyaz Urakova tapşıraraq öz dəstəsilə Arpaçay çayını keçərək yenidən Hamamlıya qayıtdı (444, 725; 445, 736; 376, 194-195).

Qacar komandanlığı bu yerdəyişmədən istifadə etmək fikrinə düşdü. 1810-cu il avqustun axırlarında Abbas Mirzə 15 topa malik 15 minlik qoşunla Naxçıvandan İrəvana gəldi (445, 736). Osmanlı paşalarını ruhlandırmaq və rusların diqqətini Hüseynqulu xanın qoşunundan yayındırmaq üçün şahzadənin əmrinə əsasən Abaranda dayanmış Məhəmmədəli xanın dəstəsi Pəmbəyə hücum etdi. Lakin knyaz Urakovun dəstəsi bu hücumun qarşısını ala bildi. Məğlub edilmiş şah qoşunu bir neçə taxıl zəmisini məhv edib, çoxlu mal-qara qənimət ələ keçirərək yenidən Abaran düzünə qayıtdı. General-mayor Portnyagin öz dəstəsilə köməyə gələndə, artıq şah qoşunu bu yerləri tərk etmişdi (449, 738; 376, 202).

Lakin Hüseynqulu xan rus komandanlığını narahat edirdi və onun hər bir hərəkəti daim izlənilirdi. İrəvan hakimi Osmanlı paşalarından kömək ala bilməsə də, ruslar onun şah qoşunundan əlavə kömək almaqla daha da güclənəyəcəyindən ehtiyat edirdi. Rus komandanlığı bunun qarşısını almaq üçün oraya qoşun göndərməyi qərara aldı. Markiz Pauluççinin rəhbərliyi altında 9 və 15-ci yeger alaylarından ibarət 5 topu olan iki batalyon, 200 nəfərlik piyada kazak dəstəsi, 100 kazak və 50 azərbaycanlı süvarisi Ahalsıxa göndərildi (446, 737; 376, 195-196).

Sentyabrın 1-də markiz Pauluççu dəstəsi ilə Dmanisidən hərəkət edərək sentyabrın 3-də Ahalsıx qalasından 26 verst aralı Qansu deyilən yerdə düşərgə saldı. O, tezliklə məlumat aldı ki, Hüseynqulu xan buranı tərk etmək niyyətindədir. Buna imkan verməmək üçün rus qoşunu sentyabrın 5-i gündüz saat 5-də Qansudan Ahalsıxa doğru hərəkət etdi. Sentyabrın 6-sı gecə saat 3-də polkovniklər Lisaneviç və Peçerskinin başçılığı ilə iki dəstəyə bölünmüş rus qoşunu qəflətən Hüseynqulu xanın qoşununun yerləşdiyi düşərgəyə hücuma keçdi. Yuxuda ikən yaxalanmış birləşmiş qoşunlar bu hücumdan özünü itirdi. Hüseynqulu xan və gürcü

şahzadəsi Aleksandr Mirzə qaranlıqdan istifadə edərək aradan çıxa bildilər. Özünü itirmiş qoşunun bir hissəsi öldürüldü, bir hissəsi isə güclə qaçaraq canlarını qurtardı. Lakin səhər açılanda məlum oldu ki, rus qoşununun özünün vəziyyəti daha qorxuludur. Çünki gecə hücumundan qaçan qoşun bir yerə toplaşmağa başlamışdı. Onların niyyəti geri qayıdıb rus qoşununa hücum etmək idi. Digər tərəfdən, Ahalsıx qalasından atılan top atəşləri də rus qoşununa tələfat verirdi. Buna görə də markiz Pauliççi dəstəsi ilə Ahalsıx qalasından 10 verst aralıda olan Qurma körpüyə doğru geri çəkilməli oldu. Bu döyüşdə Hüseynqulu xanın dəstəsindən 700 nəfər öldürülmüş, minə qədər at və saysız-hesabsız silah, 4 bayraq ruslar tərəfindən qənimət kimi ələ keçirilmişdi. Rus qoşunundan isə 4 nəfər məhv edilmiş, 17 nəfər isə yaralanmışdı (446, 736-737; 376, 197-199).

Osmanlı ərazisindən keçməklə Pəmbək və Şörəyelə hücum planı boşa çıxdıqdan sonra Hüseynqulu xan Abbas Mirzədən ehtiyat edərək İrəvana qayıtmadı. O, dəstəsi ilə Arpaçayın Araza töküldüyü bölgədə yerləşən Hacıbayramlı kəndində düşərgə saldı. Hüseynqulu xan buradan Koroğlu qalasına getmək niyyətində idi (448, 743-744; 51, 76).

Bu vaxt Hamamlı döyüşündə məğlub olmuş şah qoşunu Abbas Mirzənin komandanlığı altında İrəvanda mövqe tutmuşdu. Şahzadə qardaşı Məmmədəli xana qışı burada gözləməyi təklif etsə də, o, bununla razılaşmır və qoşunu ilə Arazdan cənuba çəkildi. Abbas Mirzə isə rus qoşununun başsız qalmış İrəvana hücumundan ehtiyat edərək bir müddət burada qalmalı oldu. O, burada mövqe tutmasından istifadə edərək müdafiə tədbirlərinə başladı. Şahzadə ingilis mühəndislərinin köməyi ilə İrəvan qalasının müdafiəsini möhkəmlədirdi. O, qalanın müdafiəsi üçün burada 5 min nəfərlik qoşun saxladı. Abbas Mirzə bu qoşunun ərzaq təhcizatı ilə də məşğul oldu (449, 744).

Bundan əlavə, Abbas Mirzə ehtiyat tədbirlərinə də əl atdı. O, ingilis mühəndislərinin təhriki ilə İrəvana hücum edərkən qus qoşunlarının sığındıqları Üçmüəzzin kilsəsinin ətraf hasarlarının sökülməsini əmr etdi. Hasarın böyük hissəsi şah qoşunu tərəfindən

dağıdıldı. Lakin qışın yaxılaşması, rus qoşunlarının İrəvana hücum etməyəcəyinə əmin olması səbəblərindən şahzadə burada qalmağı məsləhət bilmədi (448, 743-744). O, İrəvanı tərk etməmişdən əvvəl Hacıbayramlı kəndində dayanmış Hüseynqulu xana geri qayıtmağa icazə verdi. Xan isə ancaq ona üç dəfə xəbər yollandıqdan sonra İrəvana qayıtmışdı (448, 744).

Şah qoşunları cənub istiqamətində geri çəkilsə də, İrəvan xanı rus qoşununa qarşı mübarizəni davam etdirirdi. Hüseynqulu xan İrəvana qayıtdıqdan sonra da Osmanlı paşaları ilə birlikdə Şörəyelə və Pəmbəyə hücum planından əl çəkmədi. O, tezliklə Ərzurum hakimi Emin paşa ilə əlaqə yarada bildi. Hücum planını müzakirə etmək üçün onlar arasında görüş təyin edildi. Bu görüş 1811-ci il avqustun 30-da Arpaçayın sağ sahilində yerləşən Mağizberd qalasının yaxınlığında olmalı idi. Lakin Emin paşa buraya yaxınlaşarkən sui-qəsd nəticəsində öldürüldüyündən görüş baş tutmadı. Nəticədə Hüseynqulu xan İrəvana əliboş qayıtdı (376, 289).

Şah qoşunlarının Gəncə, Qarabağ və Şirvana hücumları da heç bir nəticə verməmişdi. Qacar qoşunları ilk dövrdə ayrı-ayrı cəbhələrdə müvəffəqiyyət qazansa da, sonradan rus qoşunun təzyiqləri nəticəsində geri çəkilməyə məcbur olmuşdu. Məğlubiyyətə məruz qalan şah hökuməti artıq nüfuz dairəsində olan əraziləri əldə saxlamağa cəhd edirdi. Belə ərazilərdən biri İrəvan xanlığı idi. Hüseynqulu xan başda olmaqla İrəvan qoşunlarının və eyni zamanda İrəvan xanlığının ərazisindən istifadə edən şah qoşunlarının tez-tez rus dəstələrinin yerləşdiyi sərhəd məntəqələrinə hücumu rus komandanlığının əks tədbirlər görməsinə səbəb oldu. Nəticədə, rus qoşunlarının İrəvan xanlığı istiqamətində **üçüncü dəfə yürüşü** başladı. Rus qoşunları bu yürüşü iki cəhddə-1811 və 1813-cü illərdə həyata keçirmişdi. Belə ki, 1811-ci ilin payızında rus komandanlığı İrəvana gizlicə ekspedisiya korpusu göndərməyi qərara aldı. Ekspedisiyanın göndərilməsinin bir neçə səbəbi var idi: b**irincisi,** şah qoşunlarının Qarabağ, Şəki, Şirvana olan hücumlardan yayındırmaq və onların bütün diqqətini İrəvan qalasının müdafiəsinə

yönəltmək; **ikincisi,** İrəvan əhalisini qarətçi və dağıdıcı yürüşlə qorxutmaqla müqavimətini zəiflətmək.

Rus komandanlığının verdiyi əmrə görə, rus qoşunu İrəvan kəndlərini dağıtmalı, əhalinin bir hissəsini qıraraq onların əmlakı, xüsusən də mal-qarasını qarət etməli, əhalinin digər hissəsini isə Kartli-Kaxetiya ərazisinə köçürməli idi. Rus qoşunlarının bu yürüşdə başçısı general-mayor Lisaneviç təyin olundu. O, Qafqazdakı rus qoşunlarının baş komandanı markiz Pauliççidən yürüş haqqında gizli təlimat almışdı. 1811-ci il oktyabrın 27-də baş komandan markiz Pauliççi (1811-ci ilin sentyabrı-1812-ci il fevralı) yürüşün məqsədi haqda general-mayor Lisaneviçə yazırdı: «… Xüsusən bu ekspedisiyanı ona görə sizə həvalə edirəm ki, imkan daxilində dağıntı törətməklə əhali arasında dəhşətli qorxu yaratmağa cəhd edəsiniz və bu irəvanlıların yaddaşında uzun müddət qalsın. Ən çox da nə qədər mümkündürsə daha çox ailə əsir götürəsiniz və mənim fikirimcə, səyyar ərzaq anbarı yaratmaq üçün lazım olan heç olmasa 4 min mal-qara ələ keçirməyə cəhd edəsiniz. Bundan başqa, irəvanlılardan pul təzminatı almağı yaddan çıxarmayın» (391, 120).

Qafqazdakı rus qoşunlarının baş komandanlığı bu yürüşdə İrəvan hakimi Hüseynqulu xanı Rusiya tərəfinə çəkəcəyinə ümid edirdi. Çünki təlimatda Lisaneviçə İrəvan hakimi ilə gizli sülh danışıqları aparmaq üçün səlahiyyət də verilmişdi. Ona tapşırılmışdı ki, əgər xan Rusiya dövlətinin təbəəliyini qəbul edərsə və İrəvan qalasında rus qoşununu yerləşdirilməsinə razılaşarsa onunla gizli əlaqə yaratsın (391, 120; 392, 121).

1811-ci il noyabrın əvvəllərində general-mayor Lisaneviçin başçılığı altında 4 batalyon və 200 nəfərlik süvaridən ibarət rus qoşunu yürüşə başladı. Yürüşün gizli hazırlanmasına baxmayaraq, irəvanlılar bundan vaxtında xəbər tuta bilmişdilər. Bu xəbər əhali arasında bərk vahimə yaratdı. Yerli əhalinin bir hissəsi kəndlərini buraxaraq əlçatmaz dağlara sığındı, bir hissəsi isə Arazdan cənuba çəkildi. Rus qoşunu heç bir maneəyə rast gəlmədən 10 gündən sonra Abarana gəlib çatdı. Yerli İrəvan qoşunu Qarasu çayı sahilində rus qoşunu ilə kiçik toqquşmadan sonra qalaya çəkildi. Lakin

general-mayor Lisaneviç yürüşü davam etdirə bilmədi. Belə ki, şah qoşununun və eyni zamanda Hüseynqulu xanın dəstəsinin açıq döyüşdən çəkinməsi general-mayor Lisaneviçi ehtiyatlı olmağa məcbur etdi. Digər tərəfdən, Hüseynqulu xan vaxt qazanmaq və xanlığı rus qoşunlarının qarətindən qurtarmaq üçün general-mayor Lisaneviçin yanına sülh xahişi ilə adam göndərdi. Qışın yaxınlaşması, yolların qarla örtülməsi, digər tərəfdən də irəvanlıların güclü müqaviməti rus qoşununu geri qayıtmağa məcbur etdi. Bu yürüşdə İrəvan qoşunundan xeyli adam həlak olmuş və 17 nəfər əsir götürülmüşdü. Əhalinin 2 min başadək iri və xırda buynuzlu mal-qarası rusların əlinə keçmişdi. Bundan əlavə, rus qoşunu tərəfindən çoxlu pambıq parça, duz, düyü və digər məmulatlar qənimət kimi götürülmüşdü. Rus qoşunundan da məhv edilənlər var idı (275, 121-122; 391, 120).

Rus qoşunlarının İrəvan xanlığına hücum etməklə əhali arasında vahimə yaratmaq istəyi elə bir nəticə vermədi. Bu hücumun boşa çıxmasından istifadə edən İrəvan xanı onların nüfuz dairəsində olan ərazilərə hücumlar təşkil etməyə başladı. 1812-ci il oktyabrın 6-8-də İrəvan qoşunları Şörəyel-Pəmbək istiqamətində Bəykəndi, Hamamlı kəndlərinə, Dilican dərəsindən keçərək Borçalı ərazisində Mərsi kəndinə yürüş etdi. Lakin bu yürüşlər rus qoşunu tərəfindən dəf olundu (451, 676; 453, 678; 452, 677).

İrəvanlıların tez-tez rus sərhəd məntəqələrinə hücumu rus komandanlığını yenidən əks tədbirlər görməsinə səbəb oldu. 1813-cü ilin martında Qafqazdakı rus qoşunlarının baş komandanlığı belə məlumat alır ki, İrəvan sərdarının qardaşı Həsən xan güclü qoşunla Talına gələrək burada qala tikdirmək istəyir. Talın rus qoşunlarının işğalı altında olan Şörəyel və Pəmbəklə sərhəd olduğundan bu planın həyata keçməsi Rusiyanı bərk narahat etdi. Rus komandanlığı irəvanlıların bu planını nəyin bahasına olur olsun pozmaq qərarına gəldi. Qafqazdakı rus qoşunlarının başçısı general Rtişşev (1812-ci ilin fevralı-1816) 1813-cü ilin martında Tiflis piyada alayının başçısı polkovnik Pestelə Talına yürüş etmək əmri verdi. Martın 28-də polkovnik Pestel 6 topa malik Tiflis alayına məxsus

600, 9-cu yeger alayına məxsus 200 nəfər, 200 don kazakının və Şörəyel və Pəmbəkdən topladığı atlı dəstəsinin başında Gümrüdən İrəvan xanlığına yürüşə başladı. Rus qoşunu martın 29-da səhər tezdən Həsən xanın qoşununa hücum etdi. Qəflətən yaxalanmış irəvanlılar müqavimət göstərsələr də, 20 nəfər itki verərək geri çəkilməyə məcbur oldular. Geri çəkilən irəvanlılar iki dəstəyə bölündü. Bir dəstə süvarı ətraf kəndlərə yayılaraq əhalini Arazın cənubuna köçürməklə məşğul oldu. Digər piyada dəstəsi isə martın 30-a keçən gecə Arazdan keçidin əlverişli olduğu ən dayaz yerində dayandı. İrəvanlılara əlavə olaraq 2 topa malik 500 piyada dəstə kömək gəldi. Rus qoşunu Araz çayına yaxınlaşanda irəvanlılar toplardan və tüfənglərdən onları atəşə tutdular. Lakin daha müasir toplara malik rus qoşununun atəşindən sonra irəvanlılar daha 30 nəfər itki verərək Arazın əks tərəfinə geri çəkildilər. Polkovnik Pestel isə öz dəstəsilə Arazın əks tərəfində dayandı. O, irəvanlıların güclü müqavimət göstərdiyini görərək irəli getməyə cəsarət etmədi. Əvəzində rus qoşunu 16 kəndi yandıraraq yerlə-yeksan etdi. Əhalinin evi və geri çəkilərkən apara bilmədiyi əmlakı məhv edildi (398, 615-616).

Hadisə baş verərkən İrəvan hakimi Hüseynqulu xan Təbrizdə idi. O, geri qayıdarkən eşitdi ki, rus qoşunu Araz çayının kənarında dayanıb və geri çəkilmək niyyətindədir. Sərdar polkovnik Pestelin qoşununu təqib etmək fikrinə düşdü. O, gizli olaraq rus qoşunlarının keçəcəyi Qaraböyük kəndində yolun kənarında 4 topa malik 1000 sərbaz və 4 minlik süvari dəstələrini yerləşdirdi. Bu qoşuna Həsən xanın süvariləri də qoşuldu. Aprelin 3-də səhər saat 5-də polkovnik Pestelin qoşunu buradan keçərkən irəvanlılar onları top və tüfəng atəşləri ilə qarşıladı. Döyüş 6 saat davam etdi. Əlverişli mövqedən istifadə edən Hüseynqulu xanın qoşunu rusları sıxışdırmağa başladı. Lakin daha yaxşı silahlanmış rus qoşunu bu dəfə də irəvanlıları məğlub etdi. Nəticədə, 4 zabit, 300-ə qədər əsgər və xeyli at itirən İrəvan qoşunu döyüş meydanını tərk etdi. Ölənlər arasında sərbaz alayının başçısı, Həsən xanın oğlu Məhəmməd bəy və İrəvan qoşununun müfəttişi Heydərəli xan da var idi. İrəvanlılardan 6 nəfər

əsir düşdü. Rus qoşunu yüzə qədər at ələ keçirdi (398, 616-617). Yürüş başlanandan rus qoşunundan isə 1 zabit, 17 əsgər, 6 artilleriya daşıyan at məhv edilmiş, 7 zabit, 94 əsgər və 13 at yaralanmışdı (398, 617).

Döyüş nəticəsində əsir düşən irəvanlılar tezliklə geri qaytarıldı. Belə ki, rus komandanlığı tərəfindən İrəvana gizli göndərilmiş casus dəstəsi Hüseynqulu xanın adamları tərəfindən ələ keçirilmişdi. Həmin casus dəstəsi döyüş nəticəsində əsir düşən irəvanlılarla dəyişdirildi (398, 617).

Beləliklə, Qacar dövlətinin yerli xanlarla birləşərək rus qoşunlarını Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq planı boşa çıxdı. Rusiya 1812-ci il mayın 16-da Buxarestdə Osmanlı Türkiyəsi ilə sülh müqaviləsi bağladıqdan sonra əsas diqqətini Cənubi Qafqaza yönəltdi (199, 137-138). Bölgədə üstünlüyü ələ keçirən rus qoşununun zərbələri altında Qacar qoşunu cənuba doğru sıxışdırıldı. 1812-ci il oktyabrın 19-dan 20-ə keçən gecə baş vermiş Aslandüz döyüşü rus qoşunlarının cənuba doğru yolunu açdı (376, 465-467).

Məğlubiyyətə baxmayaraq, Qacar dövləti itirilmiş torpaqların geri qaytarılmasına hələ də ümid edirdi. Vaxt qazanmaq üçün şah hökuməti rus komandanlığı ilə sülh danışıqlarına hazır olduğunu bildirdi. Bu danışıqlarda İrəvan xanı xüsusilə fəal idi. Şahın göstərişi ilə Hüseynqulu xan rus qoşunlarının baş komandanı Rtişşevə sülh xahişi ilə müraciət etmişdi. O, bu işə hətta erməni katolikosu Yefremi də qoşmuşdu. 1812-ci ilin noyabrında Hüseynqulu xan baş komandana yazdığı məktubda əsirlərin dəyişdirilməsi və ticarət karvanlarının maneəsiz gediş-gəlişi şərtilə sülh danışıqlarının başlanmasını təklif etdi. Lakin rus komandanlığı Hüseynqulu xanın şah hökuməti tərəfindən sülh danışıqlarında səlahiyyətli nümayəndə təyin edilməsinə şübhə ilə yanaşırdı. Ona görə də, İrəvan hökmdarı general Rtişşevi inandırmaq üçün ona bir neçə dəfə məktubla müraciət etmişdi. Hüseynqulu xan eyni zamanda şah sarayı ilə də əlaqə saxlayırdı. Şahın səfiri Məhəmmədvəli bəy bu məqsədlə həm İrəvanda, həm də Tiflisdə olmuşdu (354, 546; 345, 547; 356, 548; 357, 548; 358, 548-549). Lakin bu danışıqlar heç bir nəticə vermədi.

1813-cü il yanvarın 1-də Lənkəranın işğalından (376, 487-491; 199, 148) sonra rus qoşunlarının cənuba doğru irəliləməsindən qorxan ingilis diplomatları şahı sülh danışıqlarına başlamağa məcbur etdilər. 1813-cü il yanvarın axırlarında şahın nümayəndəsi Mirzə Şəfi Qacar dövlətinin sülh danışıqlarına hazır olduğunu bəyan etdi. Uzun danışıqlardan sonra 1813-cü il sentyabrın 27-də Qarabağ xanlığı ərazisində, Zeyvə çayı sahilində yerləşən Gülüstan kəndində Qacar dövləti ilə Rusiya arasında sülh danışıqları başladı. Şah hökuməti bu danışıqlarda Mirzə Əbülhəsən xan Şirazlı başda olmaqla 354 nəfərlə təmsil olunmuşdu. Rusiya hökuməti tərəfindən isə bu danışıqlarda baş komandan Rtişşev bir qrup nümayəndə ilə iştirak edirdi. İki həftədən bir qədər çox davam edən danışıqlardan sonra oktyabrın 12-də Gülüstanda müqavilə bağlandı (504, 208-214; 132, 736; 177, 739-747; 376, 506-508; 201, 135). Müqaviləyə görə, İrəvan və Naxçıvan xanlıqlarından başqa bütün Şimali Azərbaycan xanlıqları Rusiya imperiyasının ərazisinə daxil edilirdi. Lakin İrəvan xanlığı müstəqil olsa da, onun bəzi əraziləri-Pəmbək, Şörəyel və vaxtilə Qarabağ xanlığı tərəfindən işğal edilmiş Göyçə gölünün şimal-şərq sahilləri Rusiyaya qatılırdı (376, 507).

## 3.7. Gülüstan müqaviləsindən sonra sərhəd xəttinin müəyyən olunmasında Rusiya ilə Qacar dövləti arasında baş verən mübahisədə İrəvan xanlığının yeri və rolu

Beləliklə, XIX yüzilliyin əvvəllərində Rusiya və Qacar dövləti arasında başlamış müharibə 1813-cü il oktyabrın 12-də Gülüstan müqaviləsi ilə başa çatdı. Belə düşünmək olardı ki, Gülüstan müqaviləsi hər iki dövlət arasında olan düşmən münasibətlərə son qoydu. Lakin tezliklə tərəflər arasında bəzi mübahisəli məsələlərə görə gərginlik xeyli artdı. V.Potto haqlı olaraq yazırdı ki, "…1813-cü il oktyabrın 12-də bağlanan Gülüstan müqaviləsi Rusiya və İran (Qacar dövləti – E. Q.) arasında on il davam edən

müharibəyə son qoydu. Lakin on üç il davam edən sülh müvvəqqəti barışığın ancaq davamı idi. Sakitlik, hər iki dövlət arasında bərpa olunmuş zahiri dostluq əlamətləri aldadıcı və ancaq yeni hərbi əməliyata başlamaq üçün fürsət idi" (374, 1).

Narazılığın əsas səbəblərindən biri tərəflər arasında sərhəd xəttinin dəqiq və qəti müəyyən olunmaması idi. Gülüstan müqaviləsində nəzərdə tutulmuş sərhəd problemi ikinci Rusiya-Qacar müharibəsinə qədər davam etmiş, müharibənin başlanmasının bilavasitə bəhanələrindən biri olmuşdu. Bu problem İrəvan xanlığına məxsus bəzi torpaq sahələrini də əhatə etdiyindən, bu məsələyə bir az ətraflı aydınlıq gətirmək istərdik.

Gülüstan müqaviləsi imzalandıqdan sonra məlum oldu ki, bəzi ərazi məsələlərində hər iki dövlət fərqli mövqe nümayiş etdirir. Tarixi ədəbiyyatda mübahisənin bu iki dövlət arasında olduğu qeyd edilsə də, mənbələrin bir az dərindən təhlili göstərir ki, bu məsələdə üçüncü bir tərəf-İrəvan xanlığı da vardı. Qeyd etmək lazımdır ki, Gülüstan müqaviləsinin ikinci maddəsi Rusiya ilə Qacar dövləti arasında təyin edilmiş sərhəd məsələsinə həsr edilmişdi. Burada sərhəd xətti belə təsvir olunmuşdur: «… Ümumrusiya imperiyası ilə İran dövləti (Qacar dövləti – E. Q.) arasında sərhəd aşağıdakı xətt üzrə olacaqdır: Adnabazardan başlayaraq düz xəttlə Muğan düzündən keçərək Araz çayında Yeddibulaq bərəsinə qədər, oradan Araz boyu üzü yuxarı, Kəpənəkçayın ona töküldüyü yerə qədər, daha sonra Kəpənəkçayın sağ tərəfilə Mehri sıra dağlarına və oradan Qarabağ və Naxçıvan xanlıqları arasında xətti davam etdirərək, Alagöz sıra dağlarından Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarını və Gəncə xanlığının bir hissəsini birləşdirən Dərələyəzə qədər, sonra oradan İrəvan xanlığını Gəncə xanlığının torpaqlarından, həmçinin Şəmşəddildən və Qazaxdan ayıran yerdən Eşşəkmeydana qədər və oradan sıra dağlarla Həmzəçimən çayının axını və yolu istiqamətində Pəmbək sıra dağları ilə Şörəyelin tininə qədər; həmin tindən Alagöz dağının qarlı yüksəkliyinə, buradan sıra dağlarla Şörəyel sərhəddindən Məstərə və Artik arasından Arpaçay çayına qədər davam edir…» (504, 209).

Bu maddədən görünür ki, hər iki tərəfin razılığına görə, Göyçə gölünün şimal, şimal-şərq əraziləri, Abarana məxsus Karvansara kəndindən Şörəyelə uzanan ərazilər İrəvan xanlğının tərkibində qalmalı idi. Xüsusilə, Göyçənin ətraf yerləri İrəvan əhalisinin mal-qarasının örüş yeri olduğundan, Hüseynqulu xan bu əraziləri güzəştə getmək fikirində deyildi. Lakin bu ərazilərin İrəvan xanlığına məxsus olmasına baxmayaraq, rus qoşunları burada qeyri-qanuni gözətçi məntəqələri yaratmış və əhali məskunlaşdırmışdı. I Pyotrun dənizlərə çıxmaq siyasətini davam etdirən Rusiya Göyçə gölünə çıxış olan bu yerləri əldə saxlamaq üçün Qarabağa məxsus Qapan və Mehri mahallarını güzəştə getməyə də hazır idi (181, 41-42; 374, 12). Lakin istər Qacar dövləti, istərsə də İrəvan hökmdarı Hüseynqulu xan bu ərazilərin rus qoşunlarının işğalı altında olması ilə barışmaq istəmirdi.

Müharibədə məğlub olmasına baxmayaraq, Qacar hökuməti çox keçmədən Gülüstan müqaviləsinin bəzi maddələrinə yenidən baxılmasını tələb etdi. Bunun səbəblərindən biri də şah hökumətinin 1814-cü il noyabrın 25-də İngiltərə hökuməti ilə yeni saziş bağlaması oldu. Sazişdən sonra şah hökuməti bu ölkədən maddi və hərbi kömək alaraq, ingilis mütəxəssislərinin köməyi ilə ordusunu Avropa hərbi qaydası ilə yenidən təşkil etməyə başladı (374, 2; 209, 136). Qacar dövləti bundan sonra Rusiyadan Gülüstan müqaviləsinin şərtlərinə yenidən baxılmasını tələb etdi.

Napoleon Fransası ilə müharibəni yenicə başa vurmuş Rusiya ilk dövrlərdə bu məsələni sakit tərzdə həll etmək istəyirdi. Bu məsələ ilə əlaqədar 1816-cı il mayın 24-də A.P.Yermolov çar tərəfindən Qafqaz diyarının baş komandanı və eyni zamanda xüsusi təlimatla şah sarayına göndərilən səfirlik heyətinin fövqalədə və səlahiyyətli başçısı-səfir təyin edildi (485, 6; 198, 1). Lakin yeni baş komandan bu məsələdə barışmaz mövqe nümayiş etdirdi. Belə ki, 1816-cı il oktyabrın 10-da Tiflisə gələn A.P.Yermolov ilk növbədə hər iki dövlət arasında sərhəd xəttindəki vəziyyəti öyrənmək üçün yerlərə baxış keçirdi. O, bu baxışdan sonra çara göndərdiyi məlumatda Qacar dövlətinin tələb etdiyi əraziləri heç cür güzəştə getməyin mümkün olmadığını bildirirdi (485, 6-7).

Bunun ardınca şah hökuməti ilə danışıqlar aparmaq üçün Tehrana yola düşən baş komandan İrəvan, Naxçıvan istiqamətində hərəkət edərək, 1817-ci il iyulun 31-dən avqustun 3-ə qədər şahın qəbulunda oldu. Lakin tərəflər arasında bu məsələdə heç bir razılıq əldə olunmadı (485, 12-13, 32-35).

A.P.Yermolovun başçılığı ilə Tehrana göndərilən nümayəndə heyəti mübahisəli məsələlərin həllində şahla razılıq əldə etmədiyindən rus sərhəd qoşunları ilə İrəvan xanlığı arasında gərgin vəziyyət yarandı. Rusiya qoşunları Göyçə gölünün şimal və şimal-şərq hissəsindəki əraziləri işğal altında saxlamaqda davam edirdi. Ruslar inad göstərərək bu əraziləri boşaltmaq istəmirdilər. Rusiya komandanlığının İrəvana məxsus torpaqların geri qaytarmaması Hüseynqulu xanın onlarla münasibətlərini pisləşdirmişdi. Ümumiyyətlə, Hüseynqulu xanın rus komandanlığı ilə münasibətləri həmişə gərgin olmuşdu.

Torpaqları geri qaytarmaq üçün hər hansı bir fürsətdən istifadə edən İrəvan xanı rus sərhəd qoşunlarına təzyiqi gücləndirirdi. Belə ki, 1822-ci ilin yanvarında Üçmüəzzin katolikosu Yefrem Hüseynqulu xanın ağır vergi siyasətini bəhanə gətirərək, Qarabağda yerləşən Gülüstana gəldi. O, burada dincələn A.P.Yermolovun qəbuluna düşməklə xandan şikayət etmək qərarına gəlmişdi. Bu, ermənilərin növbəti kələyi idi. Ermənilər katolikosun vasitəsilə baş komandanın diqqətini İrəvan xanlığına yönəltmək istəyirdi. Lakin baş komandan şah hökuməti ilə münasibətləri daha da gərginləşdirməkdən ehtiyat edərək katolikosu qəbul etmədi, kilsənin pis vəziyyətə düşməsində onun özünü günahlandıraraq, geri qayıtmasını məsləhət gördü. Lakin Yefrem xanın qorxusundan Üçmüəzzinə qayıtmadı və 1822-ci il iyunun 20-də katolikosluqdan əl çəkdi. Bu xəbər Hüseynqulu xanı bərk qəzəbləndirdi və katolikosun geri qayıtmasını tələb etdi. Onun geri qayıtmadığını görən Hüseynqulu xan həm Üçmüəzzinə, həm də sərhəddə yerləşən rus qoşunlarının gözətçi məntəqələrinə hücumlar təşkil etməyə başladı. Rus komandanlığı Abbas Mirzədən bu cür halların dayandırılmasını tələb etdi. Şahzadə isə cavabında bildirir ki, əksinə bizim təbəələr rus qoşunu

tərəfindən talana məruz qalır. O, bunun səbəbini sərhədin dəqiq müəyyən olunmamasında görürdü (184, 555-557).

Hüseynqulu xanın geri çəkilməməsi və sərhəddə yerləşən rus gözətçi məntəqələrinə təzyiqlərin güclənməsi rus komandanlığını müəyyən güzəştə getməyə məcbur etdi. Nəticədə, 1821-ci ildə İrəvan əhalisinə Göyçənin onlara məxsus örüş yerində mal-qara otarmağa icazə verildi (365, 65). Bundan əlavə, A.P.Yermolov İrəvan xanlığı tərəfdən sərhəd xəttinin müəyyən olunması üçün danışıqlara başlamağa razılaşdı. Bu məqsədlə Təbriz hakimi Fətəli xan şah tərəfindən Tiflisə göndərildi. Danışıqlarda Rusiya tərəfi Arpaçay çayı tərəfdən Abarana məxsus Karvansara kəndindən Şörəyelə uzanan əraziləri tələb etməkdən əl çəkdi (362, 41-42).

1823-cü ildə hər iki dövlətin nümayəndələrindən ibarət komissiya təşkil edildi. Rusiya tərəfindən bu komissiyaya general-mayor Yermolov və polkovnik Ağabəy Sadıqov, Qacar dövləti tərəfindən isə Mirzə Məhəmmədəli Mustafa və Hüseynqulu xan daxil idi (183, 1). Sərhəd xəttinin müəyyən edilməsinə yenidən baxılmasında Hüseynqulu xan, onun qardaşı oğlu və kürəkəni Sübhanqulu xan xüsusilə fəallıq göstərmişdilər. Bu məsələni həll etmək üçün nümayəndələr Qarakilsə kəndində və Göyçə ətrafında görüşmüşdülər. Lakin beş ay-iyulun axırlarından noyabrın axırlarına qədər davam edən bu əməliyyat müvəffəqiyyətsizliklə başa çatdı (183, 7-46; 374, 14-16; 184, 557).

Qeyd etmək lazımdır ki, şah tərəfini razılığa gətirmək üçün A.P.Yermolov komissiyaların fəaliyyəti dövründə Qarabağı idarə edən knyaz Mədətovu şahzadə Abbas Mirzə ilə görüşdürə bildi. Görüşdə sərhəd xəttinin müəyyən olunması məsələsi müzakirə olunmalı idi. Hər iki tərəfin razılığı ilə görüş Xüdafərin körpüsünün yanında baş tutdu. Böyük qüvvə ilə burada düşərgə salan knyaz Mədətov Abbas Mirzəni atəşfəşanlıqla qarşıladı. Lakin onunla danışıqlar da heç bir nəticə vermədi. Beləliklə, bir tərəfdən qışın yaxınlaşması, digər tərəfdən Rusiyanın Göyçə gölünün şimal və şimal-şərq hissələrini güzəştə getməməsi üzündən sərhəd xəttinin müəyyən olunması işi yarımçıq qaldı. Heç nəyə nail olmayan komissiya üzvləri də dağılışdılar (374, 15-16).

Lakin 1825-ci ilin martında danışıqlar yenidən bərpa olundu. Fətəli xan martın əvvəllərində ikinci dəfə şahzadə tərəfindən Tiflisə göndərildi. Danışıqlar zamanı A.P.Yermolov bir daha Qarabağ xanlığına məxsus Mehri və Qapan ərazilərini güzəştə getməklə, Göyçə gölü ətrafındakı əraziləri Rusiyaya verilməsini tələb etdi. Beləliklə, tərəflər razılığa gələ bilmədilər və 1825-ci il martın 28-də Fətəli xanla general-leytenant Velyaminov arasında xüsusi akt tərtib olundu. Akta görə şah hökuməti sərhəd xəttinin çəkilməsində mübahisəyə səbəb olan əraziləri Rusiyaya güzəştə getmişdi. Belə ərazilərdən biri də İrəvan xanlığına məxsus Göyçə gölünün şimal və şərq sahilləri idi (81, 53-56).

Bu sənəd Hüseynqulu xanı bərk qəzəbləndirdi. O, bu ərazilərin İrəvan xanlığına məxsus olması haqqında baş komandana xüsusi məktub yazaraq narazılığını bildirmişdi. İrəvan hakimi narazılığını məktubda belə ifadə edirdi: «Hər şeydən əvvəl, Rusiya hökumətinin mühəndisləri göstərirlər ki, guya Göyçə gölünün şərq sahilləri Gəncə və Qarabağ xanlıqlarının sərhədindədir. Bilməlisiniz ki, Dərələyəzdən Eşşəkmeydana qədər ərazi, həmçinin İrəvan sərhəddi sülh müqaviləsində Gəncə və Qarabağ xanlıqları ilə qarışdırılıb. Lakin əldə olunan sənədlərdə (qəbalə), həmçinin əvvəlki şahların fərman və əmrlərinə görə, Göyçənin ətrafında yerləşən torpaqlar İrəvan ağaları tərəfindən alınıb-satılırdı. Vəziyyət belədir və siz göstərirsiniz ki, guya Göyçə və Abaran sərhədinə heç bir iddianız yoxdur, Mehri və Qapanı əldə etmək istəyirsiniz. Bu məqsədlə siz bəylərbəyi Fətəli xana elan etmisiniz ki, «əgər Abbas Mirzə Göyçənin şərq tərəfini bizə güzəştə gedərsə, biz də Mehri və Qapandan imtina edəcəyik». Bu məsələ həll edilməmiş qaldı. Fətəli xan ikinci dəfə sizin yanınızda olanda danışıqlarda Şeytanağacdan Gədikbarata qədər ərazini tələb etməklə, Gil ərazisinin bir hissəsini güzəşt edərək burada siz məntəqə yaratmaq istəyirsiniz” (359, 891).

Hüseynqulu xan eyni zamanda bu ərazilərin İrəvana məxsusluğu barədə şah hökumətini inandıra bilmişdi. Tezliklə şahın razılığı ilə Abbas Mirzədən fərman alan Hüseynqulu xan sərhəd xəttində əhalini məskunlaşdırmağa başladı. Sərdar Hüseynqulu xan bununla sərhəddə hərbi məskənlər yaratmaq niyyətində idi. İrəvana

məxsus torpaqların heç bir vəchlə əldən çıxmasını istəməyən Hüseynqulu xan ayrı-ayrı tayfaları sərhəddə yerləşdirməklə sərhəd xəttini onların vasitəsilə gücləndirmək niyyətində idi. Hüseynqulu xan Qars paşalığı tərəfdən Şörəyellə sərhəddə Qafar xanın başçılığı ilə ayrumları və talınları, Abaran sərhəddində İsmayıl xanın başçılığı ilə seyidli və ağsaqqallı tayfalarını, Pəmbək sultanlığı və Qazax distansiyaları ilə sərhəd xətti boyunca İsmayıl xanın və Mərdan xanın başçılığı ilə qarapapaq tayfasını, Göyçə mahalı tərəfdən, Şəmşəddil distansiyası, Yelizavetpol dairəsi (keçmiş Gəncə xanlığı – E. Q.), və Qarabağla sərhəd boyunca Nağı xanın başçılığı ilə digər qarapapaq tayfalarını yerləşdirmişdi (499, 450; 456, 51-52).

Hüseynqulu xan nəinki sərhəd məntəqələrində əhalini məskunlaşdırır, eyni zamanda hərbi dəstələr də yaradırdı. Şəxsən Göyçə ətrafına gələn İrəvan sərdarı burada hərbi dəstələr yaratmaqla məşğul olmuşdu. O, bu ərazilərdə məskunlaşanlara darbaxt (?), sultan və yüzbaşılar təyin edir, onlara hədiyyələr verir, silah və miniklərinin qayğısına qalmağı tapşırırdı. Onun səyi nəticəsində sərhəd məntəqələrində 200 nəfərlik nizami piyadadan və 800 nəfərdən çox süvari dəstədən ibarət silahlı qüvvə təşkil edildi. Bu qüvvələr hər gün yeni-yeni adamlar hesabına daha da gücləndirilirdi (181, 45-46).

Hüseynqulu xanın bu siyasəti tezliklə öz bəhrəsini verdi. Belə ki, İrəvan sərhəd mühafizəçiləri Göyçəətrafı Gildə yerləşən gözətçi rus dəstələrini oradan qovdu. Sərdara yazdığı məktubunda knyaz Sevarsamidze bu məsələyə toxunaraq öz narazılığını bildirmişdi. Lakin bu ərazilərin qanunla İrəvana məxsusluğunu bəyan edən Hüseynqulu xan haqlı olaraq onun narazılığını əsassız saymışdı (181, 52).

İrəvan sərdarının bu hərəkəti şah hökuməti tərəfindən razılıqla qarşılandı. General Velyaminov 1825-ci il sentyabrın 25-də Abbas Mirzəyə yazdığı məktubda xanın bu hərəkətlərini qeyri-qanuni sayaraq öz narazılığını bildirmiş, guya bu torpaqların Gülüstan müqaviləsinə əsasən ruslara məxsusluğunu bir daha iddia etmişdi (364, 60-61). Abbas Mirzə isə general-leytenant Velyaminova yazdığı cavabda onun iradının əsassız olduğunu, əksinə bu torpaqların

müqaviləyə əsasən şah hökumətinə məxsusluğunu bildirmişdi. O, yazırdı: «Rusiya dövlətinin sərhəd rəisləri İran (Qacar – E. Q.) hökuməti sarayında saxlanılan general Yermolovun məktubuna və rus komissarlarının tərtib etdiyi xəritələrə əsasən bəzi əraziləri istəyirlər. Əgər ali İran dövləti tərəfindən sizin dövlətə ərazi güzəşt edilsə onda gözətçi məntəqəsi yaratmalısınız. Lakin o dövlət tərəfindən sizə bu icazə verilməyib, öz-özünə gözətçi məntəqəsi yaratmaq sülh müqaviləsinə ziddir. Mən təəccüb edirəm ki, Rusiya hökumətinin məmurları sülh müqaviləsinin əksinə olaraq belə hərəkətə cəsarət edirlər…» (181, 62-63). Sənədlərdən də göründüyü kimi, hər iki tərəf yazdıqları məktublarda bir-birini günahlandıraraq mübahisəli ərazilərin onlara məxsus olduğunu sübut etməyə çalışırdı.

Lakin rus komandanlığının, sərhəd qoşunları rəislərinin məktublarında bu ərazilərin rus qoşunu tərəfindən qeyri-qanuni zəbt edilməsi, rusların münaqişəni daha da bilə-bilə qızışdırmaları və mübahisəli ərazilərdə əhalini məskunlaşdırmaları açıq bildirilmişdi. 1823-cü ilin dekabrında birinci sərhəd xəttinin müəyyən edilməsilə bağlı keçirilən danışıqlarda general-mayor Yermolov və polkovnik Ağabəy Sadıqovun baş komandan A.P.Yermolova yazdıqları hesabatda etiraf edirdilər ki, «o ki, qaldı iranlıların (əslində Hüseynqulu xanın – E. Q.) Göyçə gölünün şimal və şimal-şərq sahilləri ilə birlikdə Gil düzənliyini inadla tələb etmələri, ədalətlə yada salmaq lazımdır ki, şah hökuməti bu tələbdə haqlıdır. Kifayət qədər əhalisi olan Gil düzənliyi 70 il hələ bundan əvvəl də İrəvan xanlığına məxsus olmuşdu» (183, 15).

Baş komandan A.P.Yermolovun 1825-ci il sentyabrın 13-də general-leytenant Velyaminova göndərdiyi məktubda da həmin ərazilərin İrəvan xanlığına məxsus olması etiraf edilir. O, yazırdı: «…bizə məxsus olmayan torpaqlarda əhalinin məskunlaşmasını qadağan etməyə hüququmuz yoxdur. Bizə məlum deyil ki, bu əmri Abbas Mirzə verib. Siz zat-aliləri sərdarın hərəkətinə onun özbaşnalığı kimi yanaşsanız da, sözlərinizdə Abbas Mirzəyə hörmətlə yanaşın. Sərhəd məsələsinin həllinə qədər Göyçə gölünün ətrafında yerləşən torpaqların və bizə məxsus digər torpaqların danışıqlarının getdiyi və habelə dostluq münasibətlərinin yarandığı

bir vaxtda Böyük Seytanağac çayının mənsəbinə qədər olan ərazilərdə yaşayış məskənləri salmaq lazım deyil … Bizim iradlarımıza baxmayaraq, iranlıların (irəvanlıların – E. Q.) yaşayış məskənləri salmaqda inadkarlıq göstərmələrini gözləmək olar. Belə olan təqdirdə Qazax pristavına yazmaq olar ki, Dilican dərəsində gözətçilərin sayını artırsın, yaxınlıqda kənd salsın. O vaxta qədər polkovnik Sevarsamidze yeni salınmış İrəvan kəndlərinin hərəkətini izləmək üçün qar yağanda Balıqçay çayının ətrafında bir topa malik 200 piyada əsgərdən az olmayan gözətçi məntəqəsi yaratmalıdır. Belə olan vəziyyətdə kəndlilərin özləri burada qalmaq istəməyəcəkdir. Əgər sərdar bizə etiraz etsə ona cavab vermək olar ki, onlar gölün sahilini və Balıqçay çayının mənsəbini tutduqları üçün ondan sonrakı torpaqları tutmağa hüquqları yoxdur. Sərdar səfehliyindən, özünün qaba və həyasız hərəkətindən əl çəkməyəcək. Hətta gözləmək olar ki, bizim gözətçi məntəqələrinə silahlı hücum əmrini versin. Hər halda biz narazılığın başlanmasının səbəbkarı olmayacağıq. Belə halda ehtiyatla gözətçi məntəqəsini Tiflis piyada alayı hesabına gücləndirmək lazımdır» (181, 54-56). Sənəddən görünür ki, ruslar özləri hiyləgərcəsinə vəziyyəti gərginləşdirir, İrəvan sərdarı isə özü də bilmədən bu hiylənin qurbanı olmuşdu.

Rusiya komandanlığının Göyçəətrafı torpaqları əldən vermək istəmədiyini görən Hüseynqulu xan ruslara məxsus gözətçi məntəqələrini zor gücünə dağıtmaq fikirinə düşdü. 1825-ci il noyabrın əvvəlində irəvanlıların kiçik süvari dəstəsi Göyçə ətrafında yerləşən rus gözətçi məntəqəsinə qəflətən hücum etdi. Burada yerləşən rus dəstələri geri çəkilməyə məcbur oldu. Gözətçi məntəqəsi İrəvan qoşunu tərəfindən yandırıldı. Lakin A.P.Yermolovun əmrinə əsasən, oraya topla təhciz edilmiş piyada alayı göndərildi. Bundan sonra rus qoşunu Göyçə sahilindəki gözətçi məntəqəsini yenidən geri qaytarmağa nail oldu. Belə olduqda Hüseynqulu xan hiyləyə əl ataraq polkovnik knyaz Sevarsamidze ilə danışığa girdi və ondan ancaq Göyçə ətrafında süvarilərdən ibarət gözətçilərin saxlanılmasını xahiş etdi. Polkovnik onunla razılaşaraq piyada alayını oradan çəkib apardı. Bundan istifadə edən dörd topa malik iki batalyonluq nizami İrəvan qoşunu yenidən hücuma keçdi. Lakin bu

xəbəri eşidən polkovnik qoşunla geri qayıtdı. Nəticədə İrəvan qoşunu ruslarla döyüşmək istəməyərək geri çəkilməyə məcbur oldu (374, 18-19).

İrəvan hakiminin xanlığın müdafiə sistemini gücləndirməyə yönəldilmiş tədbirlərini özləri üçün təhlükəli olduğunu bəhanə gətirən Rusiya komandanlığı əks tədbirlər görməyə başladı. Qeyd edilən ərazilər nəinki boşaldılmadı, əksinə A.P.Yermolovun əmrinə əsasən, Qazax pristavı polkovnik Saqinov Dilican dərəsində yerləşən keşikçi məntəqəsini gücləndirərək, bu məntəqəni irəvanlıların yaşayış məntəqəsinə daha da yaxınlaşdırdı. Balıqçay çayı ətrafında isə artilleriyası olan bir alay yerləşdirildi (184, 576).

Bundan əlavə, 1826-cı ilin yazında iki piyada rus alayı Mirək kəndinə hücum edərək onu işğal etdi və burada hərbi istehkam xətti qurmağa başladı (374, 23). Bu hadisə tərəflər arasında münasibətləri daha da gərginləşdirdi. Hüseynqulu xan rus komandanlığının qanunsuz hərəkəti haqqında Abbas Mirzəyə xəbər verdi. Həmin vaxt hər iki dövlət arasında mübahisəli torpaq məsələsini həll etmək üçün Rusiya şah sarayına knyaz Menşikovun başçılığı ilə xüsusi heyət göndərmişdi. Ona verilən təlimata görə, knyaz bu məsələnin müsbət həlli üçün şahı razı salmalı idi (3, 84-85).

Hələ yolda olarkən polkovnik Bortolomey heyət haqqında xəbər vermək üçün Təbrizə gəlmişdi. Şahzadə onu yanına çağıraraq Mirək hadisəsi haqqında öz narazılığını bildirmiş və demişdi ki, «ruslar bir tərəfdən səfir göndərir, digər tərəfdən isə qoşun». Polkovnik onun bu sorğusuna cavab verə bilməmiş və geri qayıtmışdı. O, geri qayıdarkən Araz çayı sahilində knyaz Menşikovla rastlaşaraq vəziyyət haqqında məlumat vermişdi. Səfir isə Mirək hadisəsinin danışıqlara mənfi təsir göstərəcəyini yəqin edərək, general-leytenant Velyaminovdan istehkamın tikintisini dayandırmağı xahiş etmişdi. Lakin tikinti dayandırılsa da rus qoşunu Göyçə ətrafından çıxarılmadı (11, 141-142; 374, 23).

Knyaz Menşikovun Tehrana göndərilməsinə baxmayaraq müharibə təhlükəsi labüd idi. Mirəkın rus qoşunu tərəfindən işğalı vəziyyəti çox gərginləşdirmişdi. Rus qoşunlarının Göyçəətrafı ərazilərdə möhkəmlənməsi Hüseynqulu xanı bərk qəzəbləndirmişdi.

İrəvan hakimi qoşunlarını sərhəddə cəmləşdirməyə başlamışdı. Sərdar hətta səfirin xahişi ilə şahzadənin İrəvan qoşununu gölün ətrafından geri çəkmək göstərişinə də məhəl qoymamışdı. Hüseynqulu xanın Menşikov missiyasının tərkibinə daxil olan və əslən erməni Yefrem Kovalevə verdiyi cavab onun bu məsələdə qəti mövqeyinin bariz nümunəsidir. Hüseyinqulu xan demişdi: «Mən təəccüb edirəm ki, rus səfiri bir tərəfdən Nikolay Pavloviçi imperator kimi tanınmasını xahiş edərək özü ilə çoxlu hədiyyələr aparır, digər tərəfdən isə rus qoşunu bizim sərhəddi işğal edir. Mən şahzadənin göstərişini eşitmək istəmirəm. Əgər ruslar qoşunu geri çəkməsələr, … qulluqçularımdan birini Tiflis qubernatoru, ikincisini komendant, üçüncüsünü isə polismeyester təyin edərəm» (374, 23).

Beləliklə, Menşikovun missiyası da heç bir nəticə vermədi. Hər iki tərəfin güzətə getməməsi müharibənin qaçılmaz olduğunu bir daha göstərdi. Digər tərəfdən belə gərgin vəziyyətdə rus qoşununun Mirək kəndini işğal etməsi hər iki tərəf arasında olan mübahisəni daha da ağırlaşdırıb müharibə həddinə çatdırmışdı. Rusların təcavüzkar və hiyləgər hərəkətlərindən bezmiş şah sarayı hərbi əməliyyatlara başlamağı qərara aldı.

İrəvana məxsus ərazilər məsələsində sərdar Hüseynqulu xanın barışmaz mövqeyi, rus komandanlığı və rus sərhəd məntəqələrinin başçıları ilə məktublaşması, onlara təzyiq göstərmək üçün tez-tez ruslara məxsus gözətçi məntəqələrinə hücumu, şah hökumətinin bəzi hallarda Rusiyaya güzəştə getməsi ilə razılaşmaması belə deməyə əsas verir ki, Hüseynqulu xan xanlığın müstəqilliyini qorumağa çalışmış və hər hansı dövlətin ona məxsus torpaqların bölüşdürməsinə razı olmamış, əksər hallarda tam suveren hökmdar kimi çıxış etmişdir. Düşünürük ki, bu hallar İrəvan xanlığının suverenliyini şübhə altında qoyanlara qarşı çox tutarlı bir faktdır.

# IV FƏSİL

# 1826-1850-Cİ İLLƏRDƏ İRƏVAN BÖLGƏSİNİN SİYASİ VƏZİYYƏTİ

## 4.1. İkinci Rusiya-Qacar müharibəsi və İrəvan xanlığında baş verən hadisələr

Rusiya komandanlığının hiyləgər siyasətindən bezmiş Qacar hökuməti hərbi əməliyyatlara birinci başladı. 1826-cı il iyulun 19-da Abbas Mirzənin komandanlığı ilə 60 minlik şah ordusu Rusiya işğalı altında olan Azərbaycanın şimal hissəsinə girdi (199, 165-166; 23, 40). Bununla da ikinci Rusiya-Qacar müharibəsi başladı.

Qacar komandanlığının başlıca planı Qarabağa daxil olaraq, Şuşanı ələ keçirmək, bundan sonra isə yürüşü davam etdirərək, Gəncəni tutmaqla Tiflisə hücum etmək idi. Qeyd etmək istərdik ki, İrəvan xanlığı istiqamətində ruslara qarşı hərbi əməliyyatlar daha əvvəl başlamışdı. Yuxarıda göstərildiyi kimi, rus qoşunlarının Mirək kəndini işğal edərək, burada qeyri-qanuni hərbi istehkamlar tikməsi bu istiqamətdə hərbi əməliyyatların başlamasına səbəb olmuşdu. Bu hadisədən istifadə edən İrəvan sərdarı Hüseynqulu xan Şörəyel və Pəmbək ərazilərini rus qoşunlarından təmizləmək əməliyatına başlamışdı. 1826-cı il iyulun ortalarında İrəvan qoşunu dörd istiqamətdə Şörəyel və Pəmbək istiqamətində hücuma keçmişdi. Bu zaman İrəvan qoşunlarının sərhəddə düzümü belə idi: 1. Hüseynqulu xanın başçılığı ilə 6 topa malik 2 batalyon, 3 minlik süvari dəstə Mirəkdə; 2. İrəvan hakiminin qardaşı Həsən xanın başçılığı ilə 5 min nəfərlik qoşun Gümrü istiqamətində; 3. Min nəfərə yaxın digər dəstə Göyçə gölü ətrafında; daha bir min nəfərə yaxın dəstə isə Balıqçay çayının əks tərəfində cəmləşmişdi (5, 470).

İlk yürüş 1826-cı il iyulun 16-da səhər tezdən başladı. Hüseynqulu xanın başçılığı ilə 5 min nəfərlik İrəvan qoşunu Mirək kəndində yerləşən rus gözətçi məntəqəsinə hücum etdi. Həmin vaxt kənddə polkovnik knyaz Sevarsamidzenin başçılığı ilə 3 topa malik 650 nəfərdən ibarət rus dəstəsi var idi. İrəvanlıların qəfl hücumu polkovniki çıxılmaz vəziyyətə saldı. O, tabeliyində olan dəstə ilə Gümrüyə geri çəkilmək qərarına gəldi. Bu məqsədlə vaxt qazanmaq üçün bir ermənini məktubla xanın yanına göndərərək, ondan bu hücumu dayandırmağı xahiş etdi. Lakin Hüseynqulu xanın adamları Sevarsamidzenin bu niyyətini başa düşərək elçini xanın yanına buraxmadılar. Elçiyə xəbər bildirildi ki, xan knyazla danışıq aparmağa ehtiyac bilmir və onun özünü məhv etmək niyyətindədir. Hüseynqulu xan Sevarsamidzeni öldürənə 3 min çervon miqdarında mükafat da təyin etmişdi. İrəli atılan İrəvan süvariləri ilk hücumdaca 9 kazakı əsir götürdülər. Açıq döyüşdən qaçan knyaz İrəvan qoşununun təqibi altında Gümrüyə geri çəkildi (134, 355; 374, 34-37). Bu yürüşdə xeyli rus əsgəri öldürülür, rus alayına məxsus 450 at və ruslara sığınmış 200 erməni ailəsi irəvanlılar tərəfindən ələ keçirildi (5, 470).

İkinci İrəvan qoşunu Həsən xanın başçılığı ilə Şörəyel sərhəddində cəmləşmişdi. Onun süvari dəstəsi eyni vaxtda Kiçik Qarakilsə kəndində yerləşən rus gözətçi məntəqəsinə hücum etdi. Bu əməliyyatda İrəvan qoşunu kəndi ələ keçirərək onu yandırmış, 150 nəfəri əsir almış, çoxlu mal-qara və ruslara məxsus ilıxını qənimət kimi götürmüşdü. Bundan istifadə edən Hüseynqulu xan şörəyelliləri İrəvana köçürmək niyyətinə düşdü. O, yerli əhalini öz tərəfinə çəkmək üçün hiyləyə əl atdı. Xanın adamları əyalətin ruslar tərəfindən guya İrəvana güzəşt ediləcəyi şayiəsini yaymağa başladı. Şörəyel hakimi Budaq sultan bu çağrışa müsbət cavab verdi. Əhalini köçürmək üçün Həsən xan onun yanına Hamo və Qafar xanın başçılığı ilə 300 nəfərə qədər atlı dəstəsi göndərdi. Lakin İrəvan hakimi əhalini öz tərəfinə çəkə bilmədi. Yalnız Budaq sultana yaxın altı ailə İrəvana köçürüldü (276, 353-354; 134, 355).

İyulun 16-da İrəvan xanlığının min nəfərdən ibarət digər dəstəsi Böyük Qarakilsə kəndindən 18 verst aralıda, Həmzəçimən çayı kənarında yerləşən rus gözətçi məntəqəsinə hücum etdi. Burada yerləşən rus hərbi məntəqəsi tamamilə dağıdıldı, 15 rus əsgəri öldürüldü və Tiflis piyada alayına məxsus ilxı ələ keçirildi (134, 355). Gümrüdə mövqe tutmuş Sevarsamidzenin gördüyü tədbirlər də bu hücumun qarşısını ala bilmədi. O, podporuçik Çavçavadzenin başçılığı ilə 30 nəfər piyada və 50 nəfər borçalıdan ibarət süvari dəstəni köməyə göndərdi. Lakin bu dəstə də darmadağın olundu, podporuçik ancaq 19 nəfər borçalı süvarisi ilə geri qaça bildi (5, 471; 374, 50).

Dördüncü İrəvan qoşunu Sadıqlı kəndində yerləşən gözətçi məntəqəsini dağıdaraq, Balıqçayın kənarında yerləşən rus məntəqəsini hər tərəfdən mühasirəyə aldı. Balıqçay gözətçi məntəqəsi rus komandanlığına çox vacib idi. Çünki bu məntəqə İrəvan və şah qoşunlarının Qazax, Borçalı, Şəmşəddil əyalətlərinə gedən yolun üzərində mühüm bir maneə idi. Burada kapitan Pereverzyevin başçılığı ilə Tiflis alayının bir bölüyü yerləşmişdi. Bu gözətçi məntəqəni gücləndirmək üçün A.P.Yermolov iyulun 26-da Tiflis alayının 160 nəfərdən ibarət bir dəstəsini kapitan Voronkovun başçılığı ilə Balıqçaya göndərdi. Bu dəstə oraya ərzaq və artilleriya aparırdı. İyulun 27-də onlar məntəqəyə çatmamış min nəfərdən ibarət İrəvan süvarisi tərəfindən mühasirəyə alındı. Döyüş nəticəsində kapitan Voronkovun dəstəsi irəvanlılar tərəfindən məhv edildi. Onlardan 17 nəfər yaralanaraq əsir düşdü, cəmisi 38 nəfər qaça bildi, qalanları isə məhv edildi (135, 363).

Rusiya komandanlığı bu məğlubiyyətin səbəbini dəstədə olan qazaxlılardan ibarət süvarilərin xəyanətində görürdü. Belə ki, Qazax distansiyasının pristavı Snejevskinin rəhbərliyi altında olan 40 nəfərdən ibarət Qazax süvari dəstəsi rusları aldadaraq, onları birbaşa irəvanlıların üzərinə aparmış və ilk atəş açılan kimi döyüş meydanından qaçmışdılar (5, 471; 374, 50). Bu məlumatın doğruluğuna inanılarsa Azərbaycan əhalisinin hətta rus qulluğuna düşmüş hissəsinin

Kapitan Voronkovun dəstəsinin məhv edilməsi, ərzaq və sursatın irəvanlılar tərəfindən ələ keçirilməsi Balıqçayda olan rus dəstəsini çıxılmaz vəziyyətə saldı. Vəziyyətin qorxulu olduğunu başa düşən kapitan Pereverzyev buranı tərk etmək qərarına gəldi. Onun əmri ilə 2 topa malik 300 nəfər piyada dəstə iyulun 28-də gecə ikən Balıqçayı tərk edərək Böyük Qarakilsə kəndinə çəkildi. (5, 471; 374, 52).

Çox qısa vaxt ərzində Hüseynqulu xanın qoşunu Gümrü və Böyük Qarakilsəni çıxmaqla, sərhəd boyu bütün rus gözətçi məntəqələrini ələ keçirdi. Lakin Hüseynqulu xan bu qələbəni axıra çatdıra bilmədi. Belə ki, İrəvan hakimi Göyçə ətrafında dayanaraq, Abbas Mirzəni gözləməyə başladı. Şahzadə Gəncəni geri alacağı təqdirdə Hüseynqulu xan qoşunu ilə onunla birləşərək, Tiflisə yürüş etməli idi. Göyçə ətrafında şah qoşununu gözləmək xanın ciddi bir səhvi idi. Digər tərəfdən, rus gözətçi məntəqələrini mühasirəyə alan ayrı-ayrı İrəvan qoşunu arasında əlaqə yox idi. Bundan istifadə edən rus dəstələri ciddi itkilərə baxmayaraq birləşə bilmişdi.

İrəvan qoşununun bütün sərhəd boyu hücuma keçməsi sərhəddə yerləşən rus qoşununu pis vəziyyətə saldı. Odur ki, rus komandanlığı əsas qüvvələrin yerləşdiyi Böyük Qarakilsə kəndininin müdafiəsini gücləndirməyi qərara aldı. A.P.Yermolov knyaz Sevarsamidzeyə nəyin bahasına olur olsun Pəmbək və Göyçəyə gedən yol üzərində yerləşən Böyük Qarakilsə kəndini əldə saxlamasını əmr etdi. Bu əmri alan knyaz hələ iyulun 18-də Gümrüdə polkovnik baron Fridriksin başçılığı ilə 4 topa malik 700 nəfərlik dəstə, Bəykəndində, Hamamlıda, Cəlaloğlunda və Balıqçayda daha kiçik dəstələr yerləşdirərək Böyük Qarakilsə kəndinə doğru hərəkət etdi. Gümrünü geri almaq niyyətində olan irəvanlılar bu fürsətdən yararlalaraq, onu sıx mühasirəyə aldılar. Onlar hər tərəfdən rusların ərzaq ala biləcəkləri yolları bağladılar. İrəvan qoşununun güclü təzyiqi altında acınacaqlı vəziyyətə düşən rus qoşunu baron Fridriksin əmri ilə Böyük Qarakilsəyə geri çəkilməyə məcbur oldu. Geri çəkilərkən Bəykəndində və Hamamlıda yerləşən dəstələr də onlara qoşuldu (5, 471-472; 185, 620).

Beləliklə, rusların bütün qüvvəsi Böyük Qarakilsə kəndində cəmləşdi. Burada 4 batalion, 20 topa malik əlavə 3 bölük və 370 nəfərdən ibarət süvari dəstə vardı. İyulun 29-da Sevarsamidze əlavə kömək alsa da rus qoşunlarının vəziyyəti acınacaqlı olaraq qalırdı. Kənd hər tərəfdən İrəvan qoşunu tərəfindən güclü mühasirəyə alınmışdı. Bir tərəfdən irəvanlıların təzyiqi, digər tərəfdən ərzaq çatışmazlığı rus qoşununu əldən salmışdı. Vəziyyətin acınacaqlı olduğunu görən A.P.Yermolov bütün qüvvələri Cəlaloğlu qalasına çəkməyi əmr etdi. Avqustun 1-də rus qoşunu tikililəri yandıraraq geri çəkildi. Arxadan rus qoşununu təqib edən irəvanlılar onlara xeyli itgi verdi. Döyüşlərin birində İrəvan sərdarının borçalılara yazdığı məktubunu aparan bir azərbaycanlı döyüşçü ələ keçirildi. Sevarsamidzenin əmri ilə o asılmaqla cəzalandırıldı. Nəhayət, avqustun 15-də rus qoşununun qalıqları Cəlaloğlu qalasına gəlib çatdı (5, 471-472; 73, 111-112; 185, 620).

Beləliklə, İrəvan qoşunu iki həftə ərzində bütün Pəmbəyi və Şörəyeli rus qoşunundan təmizləyə bildi. İrəvanlıların bu genişmiqyaslı yürüşü nəticəsində rus qoşunu 158 nəfər əsgər və zabit itirmişdi (155, 143; 67, 162-163).

Pəmbək və Şörəyel sultanlıqları rus qoşunlarından azad edildikdən sonra İrəvan qoşunu qonşu əyalətlərə də hücumlar təşkil etməyə başladı. Bozabdalda yerləşən İrəvan gözətçi dəstəsi almanların məskən saldığı Yekaterinenfeld kəndinə hücum edərək, buranı qarət etmiş və 300 nəfəri əsir götürmüşdü. Rus dəstəsi kəndə köməyə gələndə artıq irəvanlılar buranı tərk etmişdilər (5, 472).

Hüseynqulu xanın şəxsən özünün rəhbərliyi ilə bir dəstə Göyçə gölünü dolanmaqla Şəmşəddil əyalətinə doğru hərəkət edərək, Zəyəm çayı sahilində yerləşən yüksəklikdə düşərgə salmışdı. İrəvan hakimi gürcü şahzadəsi Aleksandırın Carda yerləşən dəstəsi və Şəki hakiminin qüvvələri ilə birləşərək, Kaxetiyaya hücum etmək niyyətində idi (137, 379). O, vəziyyətdən istifadə edərək Şəmşəddil, Borçalı və Qazax əhalisinə məktub göndərərək onları rus qoşununa qarşı mübarizəyə çağırırdı (136, 375). O, Qazax əhalisinə göndərdiyi məktubda yazırdı: «Ruslarla bizim aramızda

sülh olanda xahiş edirdiniz ki, sizi və ailənizi rusların əlindən qurtaraq… Artıq bu vaxt yetişib» (185, 618-619). İrəvan hakiminin bu çağırışı əhali tərəfindən tezliklə rəğbətlə qarşılandı.

Rus komandanlığı Hüseynqulu xanın xalq arasında nüfuzunun artmasından qorxaraq və onun hərəkətlərinin çox təhlükəli olduğunu başa düşərək əks-tədbirlər görməli oldu. 1826-cı il sentyabrın 12-də A.P.Yermolov 2 bataliyon, 12 top və 400 nəfərlik kazak dəstəsi ilə Qazax və Şəmşəddilə doğru hərəkət etdi. Qeyd etmək lazımdır ki, 1826-cı il sentyabrın 13-də Abbas Mirzənin başçılığı ilə şah qoşunu və Paskeviçin başçılığı ilə rus qoşunu Gəncə ətrafında üz-üzə gəlmişdi. Bu döyüşdə şahzadə məğlub olaraq cənuba doğru çəkilmişdi (138, 380; 51, 83). Bu xəbəri və eyni zamanda A.P.Yermolovun güclü qoşunla Həsənsu çayına yaxınlaşdığını eşidən Hüseynqulu xan rus qoşunu ilə toqquşmadan ehtiyat edərək, əvvəl Göyçə ətrafına, sonra isə İrəvan qalasına çəkildi. Onun ardınca xanlığın şimal hissəsindəki kəndlərin əhalisi rus qoşununun qorxusundan dağlara çəkildi (136, 375-376; 137, 379; 500, 85-86; 185, 688). Hacımurad İbrahimbəyli əsərində guya rus qoşunu ilə irəvanlılar arasında döyüş olduğunu və bu döyüşdə İrəvan qoşununun məğlubiyyətə uğradığını qeyd edir (199, 194). Əslində Hüseynqulu xan rus qoşunu ilə qarşılaşmaqdan ehtiyat edərək döyüşsüz geri çəkilmişdi. Lakin A.P.Yermolov İrəvan hakiminin geri çəkilməsindən və əhalinin qorxmasından istifadə edə bilmədi. O, 1826-cı il sentyabrın 17-də çara yazdığı məlumatda bunun səbəbini belə izah edirdi: «Mən ərzaq və atların çatışmamasından, qışın yaxınlaşmasından, xüsusilə, düşmənin güclü qarnizona malik İrəvan və Sərdarabad kimi möhkəm qalalara sığınmasından ehtiyat edərək bu hadisədən istifadə etmədim...» (500, 86-87).

Lakin İrəvan qoşununun rusların nəzarəti altında olan kəndlərə hücumları yenə də davam edirdi. Hüseynqulu xanın qardaşı Həsən xanın başçılığı ilə üç minlik digər qoşun sentyabrın 2-də İrəvan sərhəddi tərəfdən Lori düzündə yerləşən kəndlərə hücum edərək, çoxlu mal-qara ələ keçirmişdi. Bu xəbəri eşidən Sevarsamidze onları təqib etmək üçün dəstə göndərdi. Kiçik toqquş-

madan sonra irəvanlılar geri çəkilmişdilər. Nəticədə ələ keçirilmiş mal-qaranın bir hissəsi geri qaytarıldı. Bu toqquşmada ruslardan 2 əsgər, 4 kazak öldürülmüş və İrəvan qoşunu isə hər halda 1000 ədəd iribuynuzlu mal-qara qənimət götürə bilmişdi (5, 473-474; 136, 375).

İrəvan qoşun birləşmələri Cəlaloğlu qalasına sığınan rus hərbi dəstələri üzərinə tez-tez hücumlar təşkil edirdilər. İrəvanlıların bütün sərhəd boyu müvəffəqiyyətli hücumları A.P.Yermolovu qəti tədbir görməyə vadar etdi. O, ilk növbədə sərhəd qoşunlarının başçısı knyaz Sevarsamidzeni vəzifədən götürərək, onun əvəzinə bu vəzifəyə general-mayor Denis Davudovu təyin etdi. Baş komandan ona Həsən xanın qoşununa qarşı genişmiqyaslı hücuma keçmək haqqında göstəriş verdi. General-mayor D.Davudov 1826-cı il sentyabrın 15-də 1000 nəfər gürcü süvarisinin müşayiətilə Cəlaloğlu qalasına gəldi. O, qalada 3 topa malik 4 piyada bölüyü, 400 süvari qoyaraq, 12 topa malik 3 batalyon və 900 süvari dəstəsi ilə Həsən xana qarşı hücuma keçdi (5, 474).

Yolda rus qoşununa erməni könüllüləri də qoşulmağa başladılar. Sentyabrın 19-da rus qoşunu Mirək kəndinə doğru hərəkət edir. Həsən xan öz süvari dəstəsilə döyüşdən yayınaraq geri çəkildi. Yolları üzərində olan əkin sahələrini və otlaqları yandıraraq geri çəkilən İrəvan qoşunu Mirək yaxınlığında dayandı. Sentiyabrın 21-də burada tərəflər arasında döyüş baş verdi. Rus qoşununun ciddi hücumlarına baxmayaraq, İrəvan qoşunu inadla döyüşərək müvəffəqiyyətlə müdafiə olunurdu. Döyüş qaranlıq düşənə qədər davam etdi. Axşam düşməsindən istifadə edən Həsən xan qoşununu geri çəkərək, mövqeyini dəyişməli oldu.

Sentyabrın 22-də general-mayor D.Davudov qoşunla İrəvan xanlığının ərazisinə daxil olaraq heç bir müqavimətə rast gəlmədən Üçmüəzzin kilsəsindən bir qədər aralıda yerləşən Sudakənd kəndinə gəlib çatdı. Rus qoşununun hücumundan vahiməyə düşən sərhəd kəndlərinin əhalisi evlərini tərk edərək xanlığın içərilərinə və əlçatmaz dağlara çəkilmişdi. Lakin general-mayor D.Davıdov yürüşü davam etdirə bilmədi. Tezliklə, o, baş komandan A.P.Yermolovdan

geri qayıtmaq əmri aldı. Rus qoşunu sentyabrın 23-də Gümrüyə, 29-da isə oradan Cəlaloğlu qalasına qayıtdı. Rus qoşunlarının bu yürüşü sərhəddə yerləşən kəndlərə baha başa gəlmişdi. Geri qayıdan rus qoşunu 8 kəndi qarət edərək tamamilə dağıtmışdı (138, 381; 500, 87; 185, 687).

Qısa vaxt ərzində Pəmbək və Şörəyelin İrəvan qoşunu tərəfindən azad edilməsi, rusların işğalı altında olan ərazilərə müdaxiləsi Rusiya hakim dairələrini ciddi təşvişə salmışdı. Digər tərəfdən, knyaz Menşikovun başçılığı ilə şah sarayına göndərilmiş nümayəndə heyətinin İrəvanda Hüseynqulu xan tərəfindən tutulub saxlanması Rusiya hakim dairələrini qəzəbləndirmişdi. Bu nümayəndə heyəti Rusiya ilə Qacar dövləti arasında mübahisəli sərhəd məsələlərini həll etmək üçün hələ 1826-cı ilin aprelində Tehrana göndərilmişdi. Geri qayıdarkən knyaz Menşikov İrəvandan keçməli olmuşdu. Hüseynqulu xan knyazı və onun adamlarını altı həftəyə qədər İrəvanda tutub saxlamışdı. Səfirin İrəvanda tutulub saxlanılmasının müxtəlif səbəbləri göstərilirdi. Lakin bu səbəblər arasında ən inandırıcısı Hüseynqulu xanın İrəvan qoşunları tərəfindən tutulmuş ərazilərin səfir tərəfindən tanınmasına nail olmaq istəyi idi (374, 26-27).

Səfir başda olmaqla rus diplomatik nümayəndə heyətinin İrəvanda saxlanılması Rusiya hökumətini bərk hiddətləndirmişdi. Bu hadisə Qacar dövlətində fəaliyyət göstərən ingilis nümayəndələrini də narahat etmişdi. Hüseynqulu xanın əməlindən qəzəblənmiş ingilis səlahiyyətli nümayəndəsi Makdonald şahın qəbulunda olmuş, səfirin azad edilməsinə kömək göstərməsini xahiş etmişdi. Hətta ingilis nümayəndələrindən biri məxsusi olaraq İrəvana göndərilmişdi (374, 27). Lakin bu məsələnin həllində şahın kürəkəni və vəziri Allahyar xan əsas rol oynamışdı. Məhz onun göstərişindən sonra Rusiya nümayəndə heyəti azad edilmişdi (374, 26-28).

Hüseynqulu xanın rus qoşununa qarşı mübarizədə müvəffəqiyyətli addımlarını görən çar I Nikolay İrəvan xanlığını işğal etmək üçün hələ 1826-cı il avqustun 1-də A.P.Yermolova xüsusi fərman

göndərmişdi. O, yazırdı ki, "Sizdən sərdar yoxdur və İrəvan əyalətinin (xanlığı – E. Q.) rus qoşunu tərəfindən tutulmuşdur" xəbərini tezliklə gözləyirəm (134, 356; 185, 642-643). Lakin baş komandan çarın bu fərmanını icra edə bilmədi. Bunun bir neçə səbəbi var idi. Əvvəla, hərbi kampaniya başlanandan şah qoşunları yerli əhalinin köməy ilə rusları Şimali Azərbaycan xanlıqlarından müvəqqəti sıxışdırıb çıxara bilmişdi. Baş komandan bu xanlıqları geri qaytarmadan İrəvana hücum etmək niyyətində deyildi. O, şah qoşunlarını qəti zərbə endirməklə məhv etmək istəyirdi. Qaynağın verdiyi məlumata görə, "Yermolov Abbas Mirzənin əsas qüvvələri ilə qəti döyüşə girməyərək, vəziyyətə uyğun hərəkət etmək niyyətində idi. O, şahzadənin diqqətini Şuşadan yayındıraraq onu ölkənin içərilərinə çəkməyə cəhd edirdi və əlavə kömək gəldikdən sonra düşmənə qəti zərbə vurmaq istəyirdi" (219, 25). Digər tərəfdən, A.P.Yermolov Hüseynqulu xanı özünə ciddi rəqib sayırdı. O, çox yaxşı bilirdi ki, bacarıqlı dövlət başçısı və sərkərdə olan İrəvan xanı İrəvan və Sərdarabad kimi güclü, möhkəmləndirilmiş qalalara malikdir. Onda olan məlumata görə, xan və onun adamları hər iki qalanı güclü qarnizonla, ərzaqla təmin edərək, uzunmüddətli mühasirəyə hazırlaşıblar. Vəziyyəti real qiymətləndirən baş komandan başa düşürdü ki, İrəvan xanlığını işğal etmək üçün sursat və ərzaqla təmin olunmuş güclü qoşun lazımdı. Buna görə də, A.P.Yermolov İrəvan xanlığına hücumu 1827-ci ilin yazına kimi təxirə salmağı qərara almışdı (137, 379).

Müharibənin ilk aylarında ağır məğlubiyyətə uğrayan rus qoşunu çox keçmədi ki, bölgədə hərbi təşəbbüsü ələ ala bildi. 1827-ci ilin əvvəllərində Şimali Azərbaycan xanlıqları üzərində tam nəzarət yenidən rus qoşunlarının əlinə keçdi. Lakin baş komandan A.P.Yermolov bu qələbələri davam etdirə bilmədi. Çarın fərmanı ilə o, vəzifəsindən uzaqlaşdırıldı. Hadisələrin canlı şahidi olmuş məlumatlı rus hərbçilərdən birinin yazdığına görə, "Yermolov yüksək rütbəli əyanlarla münasibətdə güzəştə getmirdi və kobud idi. Öz inamını onlara sərt yazır və deyirdi, çar sarayının baxışları ilə onun tez-tez fikir ayrılıqları olurdu" (219, 8). Çarın göstərişlərini

ləng yerinə yetirməsi, hərbi əməliyyatlar üçün mərkəzdə tərtib olunmuş layihələri qəbul etməməsi, general-adyutant Paskeviç və baş qərargah rəisi general-adyutant Dibiç kimi sərkərdələrlə yola getməməsi nəticə etibarilə onun baş komandan fəaliyyətinə son qoydu (374, 274-281).

## 4.2. İrəvan xanlığının işğalı

Artıq 1827-ci il martın 29-da general-adyutant Paskeviç rəsmi şəkildə Qafqazdakı rus qoşunlarının baş komandanı təyin olundu (374, 283; 82, 5). Onun baş komandan təyin olunması müharibənin gedişində bir qədər dəyişikliyə səbəb oldu. O, ilk zərbəni İrəvan xanlığına endirməyi qərara aldı. Yeni baş komandan İrəvan xanlığının strateji əhəmiyyətini çox gözəl dərk edirdi. Bu xanlığı işğal etməklə hərbi əməliyyatların gedişində dönüş yaratmaq və sələfinin bu müharibədə tutduğu taktikanın səhv olduğunu sübut etmək istəyirdi.

1827-ci ilin aprelin əvvəllərində Paskeviçin əmri ilə rus qoşunlarının ön dəstəsi general-adyutant K.X.Benkendorfun komandanlığı altında erməni arxiyepiskopu Nersesin müşayiəti ilə Borçalıdan İrəvana doğru hərəkət etdi (279, 547; 374, 287; 82, 10). Beləliklə, rus qoşunları İrəvan xanlığına növbəti genişmiqyaslı yürüşə başladı. Aprelin 13-də heç bir müqavimətə rast gəlməyən rus qoşunu Üçmüəzzin kilsəsinə gəlib çatdı. Onlar burada ermənilər tərəfindən təntənə ilə qarşılandılar və onların şərəflərinə ziyafət verildi (159, 113; 500, 233; 374, 287).

Lakin Üçmüəzzinə gəlib çatan general-adyutant K.X.Benkendorfun qoşunu tezliklə ağır vəziyyətə düşdü. Yürüşə başlayanda cüzi ərzaq ehtiyatına malik olan rus qoşunu bu tələbatı təmin etmək üçün ermənilərə böyük ümid bəsləyirdi. Ermənilər rus komandanlığını həm maddi, həm də hərbi cəhətdən kömək edəcəklərinə söz verməklə bu dəfə də rus komandanlığını inandıra bilmişdilər. Baş qərargah rəisi Dibiç çara yazırdı ki, "erməni arxiyepiskopu Nerses

Sizin ali məktubunuzu dərin minnətdarlıqla qəbul etmişdi. Məktub kilsədə erməni dilində oxunub və çap olunacaqdır. O, erməni xalqının sədaqət və səyinə söz verirdi. Rus qoşunlarının İrəvan xanlığına yürüşü zamanı yerli ermənilərdən lazımi qədər ərzaq ehtiyatı əldə olunacağına ümid edir və mən buna inanıram" (374, 287). Lakin bu, ermənilərin növbəti yalanı idi. Onların məqsədi bu yalanı uydurmaqla rus qoşunlarının İrəvan xanlığına yürüşünü tezləşdirmək idi. Beləliklə ermənilər tərəfindən aldadılmış rus komandanlığının ərzaq çatışmazlığı üzündən ağır vəziyyətə düşdüyünü və onlara olan ümidin boşa çıxdığını sonralar general-adyutant Paskeviç də etiraf etmişdi. Onun 1828-ci il noyabrın 16-da yazdığı məxfi məktubunda Benkendorfun dəstəsinin vəziyyətini belə təsvir edilirdi: "Onu (K.X.Benkendorfu-E.T.) müşayiət edən arxiyepiskop Nerses yürüşü tezləşdirmək üçün inandırmışdı ki, onun dəstəsi Üçmüəzzin kilsəsində iki aylıq ərzaq ehtiyatı tapacaqdı. Lakin nə orada, nə də bütün xanlıqda heç bir taxıl ehtiyatı tapılmadı. Nerses tərəfindən aldadılmış bütün qoşun o dərəcədə aclıq keçirmişdi ki, əsgərlər bitki kökləri ilə qidalanmağa başlamışdılar…" (278, 259). Daha sonra baş komandan erməni əhalisini qorxaq və yalançı adlandıraraq, onlara olan ümidin boşa çıxmasından bəhs edərək yazırdi ki, "ancaq dağlıq mahalların bir neçə kəndində ermənilər şah qoşunu əleyhinə silahlı müqavimət göstərməyə cəsarət etmişdilər. İrəvan xanlığında bir neçə erməni bizim qoşuna qoşulmuşdu. Ümumiyyətlə, bütün əhali sərdar tərəfindən dağlara köçürülmüşdü. Belə ki, mən onlardan (erməni əhalisindən – E. Q.) heç bir yardım görmədim" (278, 259). Ermənilərin yardımına bəslənən ümidin boşa çıxması Paskeviçin başçılığı ilə əsas qüvvələrin aprelin 24-ə planlaşdırdığı İrəvan xanlığına yürüşün təxirə salınmasına səbəb olmuşdu (374, 287).

Bacarıqlı, uzaqgörən sərkərdə olan Hüseynqulu xan rus qoşunlarının tezliklə İrəvan xanlığına hücum edəcəyini bildiyindən əvvəldən müvafiq müdafiə hazırlığı görmüşdü. İrəvan qalası daha da möhkəmləndirilmişdi. Bu məqsədlə ingilis mühəndislərinin məsləhətlərindən də istifadə edilmişdi (11, 173). Xanın əmri ilə

kəndlərdən qalaya taxıl ehtiyatı daşınmışdı. Qala qarnizonu daha da gücləndirilmişdi. Yalnız İrəvan qalasında olan qarnizon qüvvələrinin sayı 5000 nəfərə çatırdı. Qalada 26 top yerləşdirilmişdi (236, 28). Yerli əhalinin bir hissəsi Arazdan cənuba köçürülmüş, bir hissəsi əlçatmaz dağlara çəkilmiş, digər hissəsi isə qalalara sığınmışdı. Xüsusilə, Qırxbulaq və Göyçə mahallarının əhalisi kütləvi surətdə Arazdan cənuba köçmüşdü (11, 176). Məlumata görə, təkcə İrəvan qalasına 18 min sakin köçürülmüşdü (500, 322). Məhz bu səbəbdən rus qoşununun İrəvan kəndlərindən ərzaq toplamaq cəhdləri heç bir nəticə vermədi. Digər tərəfdən, ayrı-ayrı çevik dəstələrə bölünmüş İrəvan silahlı qüvvələri general-adyutant K.X.Benkendorfun dəstəsinə qəfil hücumlar edərək onların yürüşünə çətinlik yaradırdı (374, 300-301).

Erməni əhalisinin xəyanətini dərk edən Hüseynqulu xan Üçmüəzzin kilsəsinə də qarşı müəyyən tədbirlər görmüşdü. Rus qoşunu gələnə qədər xanın əmri ilə kilsədə 400 nəfərdən ibarət qarnizon yerləşdirilmişdi. Lakin bu qüvvələr sonradan geri çəkilmişdi. Digər tərəfdən, kilsədə cəmi bir neçə nəfər arximandr və rahib saxlanılmış, qalanları İrəvan qalasına göndərilmişdı. Erməni din xadimlərindən çox az hissəsi qaça bilmişdi. Kilsədə olan bütün ərzaq ehtiyatı qalaya daşınmış, ətrafda yerləşən erməni kəndlərinin ərzağı əllərindən alınmışdı (11, 216-217; 500, 233).

Bundan əlavə, ehtiyatı əldən verməyən Hüseynqulu xan kömək üçün şah sarayına da müraciət etmişdi. Əvvəlcə şah hökuməti İrəvan qalasını müdafiə etmək üçün hərbi qüvvə göndərməyi qərara almışdı. Lakin Qacar komandanlığının rus qoşunlarının hücum istiqaməti haqqında məlumatı olmadığından, bütün qüvvələrin bir istiqamətdə cəmləşməsinin əleyhinə olaraq kömək göndərilməmişdi (5, 616). Beləliklə, təklənmiş irəvanlılar xanlığı öz qüvvələri hesabına qorumağa qərar verdilər.

Üçmüəzzin kilsəsində düşərgə salan rus qoşunu aclıqdan əziyyət çəkirdi. Bunun qarşısını almaq üçün general-adyutant K.X.Benkendorf Sərdarabad qalasına hücum etməyi qərara aldı. O, İrəvan xanlığının qərb hissəsində yerləşən bu qalaya hücum etməklə

iki məqsəd güdürdü. Birincisi, qalanı tutmaqla burada və onun ətraf kəndlərindən qoşun üçün ərzaq toplamaq, ikincisi, hücum baş tutmadıqda, bu tələbatı Qars paşalığı hesabına ödəmək imkanı əldə etmək (374, 302).

Sərdarabad qalası xanlıqda ikinci ən böyük qala idi. General-adyutant K.X.Benkendorf Sərdarabad qalasını qəflətən ələ keçirməyi qərara almışdı. O, 1827-ci il aprelin 16-da səhər 5 alay və 4 topla Sərdarabad qalasına doğru hərəkət etdi. General-adyutant K.X.Benkendorf rus qoşununun hərəkətini izləyən irəvanlıların diqqətini əsas qüvvələrdən yayındırmaq üçün Şirvan alayının üç bölüyünü İrəvan yoluna göndərdi. Lakin qala müdafiəçiləri rus qoşununun bu niyyətindən vaxtında xəbər tuta bilmişdilər. Sərdar-abad qalasından 10 verst aralı Həsən xan 1000 nəfərlik süvari dəs-təsi ilə rusların ön dəstəsinə hücum etdi. Döyüş nəticəsində xanın dəstəsi məğlub olaraq qalaya doğru geri çəkildi. Bu döyüşdə irəvanlılardan 100 nəfər ölən və yaralanan olmuş, İsmayıl xan və kürd Hüseyn ağanın qardaşı oğlu ruslara əsir düşmüşdü (500, 243).

Onları təqib edən rus qoşunu həmin günü axşam qalaya yaxınlaşdı. Lakin qala müdafiəçiləri toplardan atəş açmaqla onlara aman vermirdilər. Planının baş tutmadığını görən general-adyutant K.X.Benkendorf könüllü təslim olmaq barəsində tələblə qala rəisinin yanına elçi göndərdi. Qala rəisi onun bu tələbini rədd edərək bildirdi ki, «qalanı təslim etməkdənsə, onun dağıntıları altında dəfn olunmasına razı olardı» (374, 304-305).

Sərdarabadlılardan rədd cavabı alan general-adyutant K.X.Benkendorf aprelin 16-dan 17-ə keçən gecə qalanı güclü top atəşinə tutmağı əmr etdi. Qala çox güclü top atəşinə məruz qaldı. Lakin qala müdafiəçiləri də ruslara əkszərbə endirməklə lazımi cavab verirdilər. Digər tərəfdən, ətraf kəndlərdən ərzaq toplamaq cəhdi də boşa çıxdı. Hətta rus qoşunu su və odun belə tapmadı. Müdafiəçilərin əzmkarlığını görən rus komandanlığı səhəri günü, aprelin 17-də Üçmüəzzinə qayıtmağa məcbur oldu (500, 244; 374, 305).

Ümid ancaq Qars paşalığına göndərilmiş rus tadarük dəstəsinə qalırdı. Belə ki, general-adyutant K.X.Benkendorf Sərdarabad qalasına yürüş qabağı knyaz Sevarsamidzenin başçılığı altında bir batalyon Şirvan alayını, 3 topa malik 2 Tiflis bölüyünü və 1 kazak alayını ərzaq almaq üçün Osmanlı sərhəddinə göndərmişdi. Arpaçay çayı sahilində dayanan Sevarsamidze Qars paşasından ərzaq və mal-qara almaq üçün icazə istəmişdi. Lakin paşa Ərzurum sərəsgəri ilə məsləhətləşdikdən sonra knyaza cavab verdi ki, o, sultanla əlaqə saxlamadan onlara bu iş üçün icazə vermək və hər hansı döyüşən tərəfə kömək etmək hüququna malik deyildir (500, 244-245). Əslində rusların bu planını Hüseynqulu xan pozmuşdu. Belə ki, knyaz Sevarsamidzenin Arpaçay çayı istiqamətində yürüşünün məqsədindən yaxşı xəbərdar olan İrəvan hakimi Qars və Bəyazid paşalarına nümayəndələr göndərərək onlara bildirmişdi ki, əgər rus qoşununu ərzaqla təmin etsələr İrəvan xanlığını təhlükədə qoyacaqlar (223, 68). Hüseynqulu xanın vaxtında gördüyü bu tədbir öz bəhrəsini vermişdi. Beləliklə, türk birliyinin birgə hərəkətləri nəticəsində Osmanlı paşalıqlarından ərzaq almaq imkanını və ümidini itirən Sevarsamidze dəstəsi ilə əliboş geri qayıtmalı oldu.

Acınacaqlı vəziyyətdə qalan dəstəsi hər halda rus komandanlığının gərgin səyi nəticəsində tezliklə ərzaq köməyi ala bildi. Aprelin 23-də Tiflisdən göndərilmiş ərzaqla dolu araba karvanı general-adyutant K.X.Benkendorfun düşərgəsinə gəlib çatdı. Lakin bu ərzaq rus qoşununu yalnız on gün təmin edə bilərdi (500, 307).

Beləliklə, aclıq problemini müvəqqəti həll edən general-adyutant K.X.Benkendorfun dəstəsi İrəvan qalasına hücum etməyi qərara aldı. Qeyd etmək lazımdır ki, qalanın mühasirəsi irəvanlıların çox güclü müqaviməti asnasında həyata keçirilirdi. Qalanı mühasirə etmək niyyətində olan rus qoşunu müxtəlif dəstələrə bölünüb aprelin 24-də Zəngi çayını keçərək cənubi-şərq istiqamətində yürüşə başladı. Bu xəbəri eşidən irəvanlılar rus qoşununun hücumunun qarşısını yolda ikən kəsməyi qərara aldılar. Aprelin 24-də qaladan çıxan 500 nəfərlik süvari dəstə rus qoşununa doğru hərəkətə başladı. Tərəflər İrəvana yaxın kəndlərdə üz-üzə gəldi. İrəvan süvarilərinin

inadla döyüşməsinə baxmayaraq, daha yaxşı silahlanmış iki gürcü qrenader alayı onları geri çəkilməyə məcbur etdi. Qalaya yaxınlaşan bu alaylar onun cənubi-şərqində yerləşən "Müxənnət təpə" adlanan kurqanı ələ keçirdi. Lakin qala müdafiəçiləri onları güclü top atəşinə tutmaqda davam edirdilər.

Hüseynqulu xan rus qoşunlarının irəlilədiyini görərək qalanın cənub və şərq qapıları tərəfində yerləşən bağları əldə saxlamaq üçün piyada və süvarilərdən ibarət iki sərbaz batalyonunu oraya göndərdi. Əhalinin mülkləri burada yerləşdiyindən bu bağları əldə saxlamaq irəvanlılara çox vacib idi. Lakin rus qoşunu irəvanlıları buradan sıxışdırıb çıxarmaq üçün hücuma keçdi. Döyüş nəticəsində İrəvan qoşunu bağlardan geri çəkilmək zorunda qaldı. Məğlub olmuş piyada qoşun yenidən İrəvan qalasına sığındı, süvarilər isə Naxçıvan yolu ilə geri çəkildilər. General Benkendorf iki karabiner alayını "Müxənnət təpə"sində, gürcü alayını isə bağlarda yerləşdirərək, özü digər dəstələrlə qalanın cənub hissəsində düşərgə saldı (500, 256; 374, 308).

1827-ci il aprelin 25-də podpolkovnik Aristovun başçılığı ilə «Şirvan batalyonu» qalanın qərb tərəfində yerləşən "İrakli təpəsi"ni (1779-cu ildə Kartli-Kaxetiya çarı II İrakli İrəvana hücum edərkən düşərgə saldığı yerlərdən biri bu təpə olmuşdu. Sonralar yerli əhali bu təpəni "İrakli təpəsi" adlandırmışdı – E. Q.) ələ keçirərək burada artilleriya quraşdırdı. Burada yerləşdirilmiş toplardan İrəvan qalası güclü atəşə tutulmağa başladı. Bombardman nəticəsində qala divarı və xanın sarayı güclü zədələndi. Lakin top mərmisindən zədələnmiş qala divarı vaxtında müdafiəçilər tərəfindən təmir və bərpa edildi (500, 256-257; 374, 309). Eyni zamanda qala müdafiəçiləri rus qoşununu qalaya yaxınlaşmağa qoymurdu. Onlar da qaladan rus dəstələrini güclü atəşə tuturdular. Günortaya yaxın atəş səngidi, "Şirvan batalyonu" düşərgəyə qayıtdı, mayor Xamutskinin başçılığı altında iki karabiner alayı isə 4 topla "İrakli təpəsi"ndə saxlanıldı (374, 309).

İrəvanlılar müdafiyə olunmaqla bərabər, imkan düşən kimi hücuma da keçirdilər. Aprelin 25-də saat 4-də qala rəisi Sübhanqulu

xanın başçılığı ilə piyada və süvarilərdən təşkil olunmuş qoşun şəhər bağlarında yerləşən gürcü alayına hücum etdi. Qəflətən yaxalanmış alay güclü təzyiq altında geri çəkildi. Lakin tezliklə, onlara əlavə kömək gəldi və döyüş yenidən qızışdı. Nəticədə, qala müdafiyəçiləri xeyli itki verərək geri çəkilməli oldular (500, 257; 374, 309).

Şərq tərəfdən İrəvanın şəhərətrafı hissəsi açıq qalırdı. Burada bazar, məscid və Zəngi çayına doğru uzanan mülklər yerləşirdi. Aprelin 27-də şəhərin bu hissəsi də rus qoşunu tərəfindən ələ keçirildi. Beləliklə, həmin gün İrəvan qalası ətrafında rusların qurduqları mühasirə dairəsi qapandı (500, 258; 374, 310).

İrəvan qalasının hər tərəfdən tam mühasirəyə alınmasına baxmayaraq, irəvanlılar əzmlə müdafiə olunurdular. Onların inadkarlığını görən general-adyutant K.X.Benkendorf Hüseynqulu xanla və qala rəisi Sübhanqulu xanla danışıqlara girməyə məcbur oldu. Həmin vaxt qalanın rəisi Hüseynqulu xanın qardaşı oğlu və kürəkəni Sübhanqulu xan idi (18, 2; 374, 309).

Qalanı könüllü təslim etmək üçün general-adyutant K.X.Benkendorf Hüseynqulu xanı pulla ələ almaq niyyətinə düşdü. Lakin çox tezliklə bunun mənasız olduğunu başa düşən general ona şirnikləndirici bir təklif etdi. O, rus komandanlığı adından söz verirdi ki, əgər Hüseynqulu xan qalanı könüllü təslim etsə, Rusiya hökuməti onu vəzifəsində saxlayacaq və onun əvvəlki bütün gəliri özündə qalacaqdır. Lakin İrəvan hökmdarı rus qoşununu ağır vəziyyətdən çıxarmaq üçün generalın danışıqlar aparmaqla vaxt qazanmaq niyyətində olduğunu başa düşürdü. O, rus qoşunlarının aclıqdan əziyyət çəkdiyindən yaxşı xəbərdar idi. Onda olan məlumata görə, qoşun ərzaqsız idi və bitki kökləri ilə dolanırdı. Belə bir vəziyyətdə Hüseynqulu xan rusların heç bir təklifini qəbul etmədi. Qala rəisi ilə danışıqlar da nəticəsiz qaldı (374, 311).

Mühasirə uzansa da, qala müdafiəçiləri rus gözətçi məntəqələrinə tez-tez hücumlar təşkil etməkdən əl çəkmirdilər. Aprelin 29-dan 30-a keçən gecə İrəvan süvari dəstəsi Zəngi çayından keçən körpünü qoruyan rus gözətçi dəstəsinə qəflətən hücum etdi. Lakin

rus toplarının atəşi nəticəsində hücum müvəffəqiyyətsizliyə uğradı və irəvanlılar yenidən qalaya qayıtdı (374, 311).

Tezliklə, Sərdarabad qalasından Həsən xanın başçılığı ilə süvari dəstəsinin İrəvan qalasına yaxınlaşması xəbəri gəldi. Qala müdafiəçilərinə xaricdən hər hansı bir köməyin rus qoşunu üçün pis nəticə verəcəyini başa düşən general-adyutant K.X.Benkendorf Həsən xanı ciddi cəzalandırmağı qərara aldı. Mayın 4-də baron Frideriksin başçılığı ilə 2 gürcü qrenader alayı, 1 topa malik Qara dəniz alayına məxsus 200 nəfərlik dəstə Həsən xanın süvarilərinin qarşısını almaq üçün Gərni çayı tərəfə göndərildi. Lakin Naxçıvana gedən yolda rus dəstəsi qəflətən irəvanlıların hücumuna məruz qaldı. Baş verən döyüşdə ruslar qalib gəldi. Məğlub olan Həsən xan dəstəsi ilə Sərdarabad qalasına geri çəkildi (374, 313).

Məğlubiyyətə baxmayaraq Həsən xan mayın 7-də 4 minlik qoşunla yenidən yürüşə başlayaraq, Zəngi çayının Araz çayına tökülən yerdə düşərgə saldı. Bu xəbəri eşidən general-adyutant K.X.Benkendorf qəfil hücumla Həsən xanın dəstəsini darmadağın etməyi qərara aldı. İlk növbədə poruçik Kotsebu İrəvan qoşunu haqqında məlumat toplamaq üçün kəşfiyyata göndərildi. General isə mayın 8-də axşam 1200 nəfərlik kazak süvarisi, 1 topa malik iki bölüklə gizli olaraq irəvanlıların düşərgəsinə doğru hərəkətə başladı. Rus qoşunu səhər tezdən Zəngi çayının mənsəbinə gəlib çataraq İrəvan qoşununa hücum etdi. Qəflətən yaxalanmış Həsən xan dəstəsi ilə Abaran çayının əks tərəfinə keçməyə çalışdı. Lakin rus dəstələri onları qabaqlayaraq irəvanlılara böyük itki verdi. Vəziyyətin çıxılmaz olduğunu başa düşən Həsən xan Sərdarabad istiqamətində geri çəkilməyə məcbur oldu. Rus qoşunu onları qalanın 25 verstliyinə qədər təqib etdi (500, 261).

Bu döyüş İrəvan qoşunları üçün acınacaqlı qurtardı. Həmin döyüşdə Həsən xanın dəstəsindən 600 nəfər həlak olmuşdu. Ölənlərin arasında Qaradağ və Xoydan olan əyanlar da vardı. Kürd tayfa başçısı Hüseyn ağa və qarapapaqların rəisi Mürsəl xan itkin düşmüşdülər. İrəvan süvarilərindən 53 nəfər əsir götürülmüşdü. Onların arasında Hüseynqulu xanın qaynatası da vardı (374, 314-

315). Lakin Şerbatov əsərində İrəvan qoşunundan 300 nəfərin həlak olduğunu və yaralandığını, 54 nəfərin isə əsir düşdüyünü qeyd edir (500, 261). Rus qoşunundan isə 2 nəfər məhv edilmiş, 2-si isə yaralanmışdı (374, 314-315).

Zəngi çayı ətrafında məğlubiyyətə düçar olan Həsən xan Araz çayından cənubda yerləşən Bəybulaq kəndində düşərgə saldı. O, yerli tayfalardan süvari dəstələr toplayaraq silahlı qüvvələrin sayını 5000 nəfərə çatdırdı (500, 262). Məğlubiyyətdən nəticə çıxaran Həsən xan ehtiyatlı hərəkət edirdi. Onun göstərişinə əsasən, ayrumlar İbrahim ağanın başçılığı ilə İrəvandan Hamamlıya və Bəykəndinə gedən yolu nəzarətə götürmüşdülər. Ayrum dəstələri rus qoşunlarını ərzaqdan məhrum etmək üçün taxıl zəmilərini məhv edir və onlara kömək edən erməni kəndlərini soyub talayırdılar. Eyni zamanda Həsən xan hər bir rus əsgərinin başına 10 tümən, xəyanətkar erməni başı üçün 5 tümən mükafat təyin etmişdi. Həsən xan qala ilə də əlaqə saxlayırdı. O, qala sakinlərini rus qoşunlarının vəziyyəti ilə məlumatlandırmaq üçün adamlarını gizli surətdə oraya göndərirdi. V.Pottonun yazdığına görə, 2-3 gün ərzində rus əsgərləri qalaya daxil olmaq istəyən 7 xəfiyyə yaxalamışdılar (374, 315).

General-adyutant K.X.Benkendorf Həsən xanın cəsarətli fəaliyyətini rus qoşunu üçün qorxulu hesab edirdi. Onun əmrinə əsasən, bütün süvari dəstəsi irəvanlıların düşərgəsinə hücum etdi. Həsən xanın qoşununu məcburiyyət qarşısında geri cəkilməli oldu (374, 318).

Həsən xanın məğlubiyyəti ilə kənardan hər cür köməkdən məhrum olan qala müdafiəçilərinin vəziyyəti də ürəkaçan deyildi. Əhali ruhdan düşməyə başlamışdı. Digər tərəfdən, ermənilər xəyanətkar əməllərindən əl çəkmirdilər. Onlar imkan düşdükcə rus qoşunlarına köməklik göstərirdilər. Hətta qala sakinlərinin çətin vəziyyətdə olmasından istifadə edən 150 nəfər erməni qaçaraq rus qoşununa qoşulmuşdu (5, 617).

Lakin Hüseynqulu xanın cəsarətli hərəkətləri qala müdafiəçilərini ruhdan düşməyə qoymurdu. Xan tez-tez onları hücuma həvəsləndirməklə, bu çaşqınlığın qarşısını almağa və onları

ruhlandırmağa çalışırdı. Onun göstərişi ilə bir dəstə İrəvan qoşunu iyunun 6-da qaladan çıxaraq "İrakli təpəsi"ndə mövqe tutmuş rus dəstəsinə hücum etmişdi. Lakin bu cəhd də uğursuzluğa düçar olmuşdu (374, 319).

Rus qoşunlarının vəziyyəti daha acınacaqlı idi. Mühasirənin uzanması, irəvanlıların güclü müqaviməti, ərzaq çatışmazlığı və havaların isti keçməsi general-adyutant K.X.Benkendorfun dəstəsini əldən salmışdı. Ayrı-ayrı çevik dəstələrə bölünmüş irəvanlıların qəfil hücumları nəticəsində rus qoşunları çoxlu itkilər verirdi. Bu cür vəziyyət general-adyutant Paskeviçin başçılığı ilə əsas qüvvələrin İrəvana gəlişinə qədər davam etmişdi.

Rus qoşunlarının ön dəstəsinin acınacaqlı vəziyyətə düşdüyü belə bir anda baş komandan general-adyutant Paskeviçin başçılığı ilə əsas qüvvələrin cənub istiqamətində yürüşü başladı. 1827-ci il mayın 12-də 500 nəfər gürcü və erməni əyanının müşayiəti ilə general-adyutant güclü qoşunla İrəvana doğru hərəkət edərək, iyunun 8-də Üçmüəzzinə gəlib çatdı (5, 618; 374, 323-327). Rus qoşunun sayı 15.000 nəfərə çatırdı (97, 218). Bu qoşunun ardınca general-leytenant Krasovskinin başçılığı ilə 20-ci piyada alayı da İrəvan ətrafına gəldi (374, 332-333). Rus qoşunlarının tərkibində çarın razılığı ilə Tiflisdə ermənilərdən təşkil olunmuş iki alay da fəaliyyət göstərirdi. Mayın 17-də Tiflisdən hərəkət edən bu alaya yolda ikən çoxlu erməni qoşulmuşdu. Onların sayı təxminən 1000 nəfərə çatırdı (5, 618; 374, 324; 82, 12).

İrəvan ətrafına gələn baş komandan Paskeviç qalanı ələ keçirmək üçün fəaliyyətə başladı. O, bütün artilleriyanı İrəvan qalası ətrafına göndərdi. Sonra qala rəisi ilə danışıqlara cəhd etdi. Lakin bundan xəbər tutan Hüseynqulu xan qala rəisi ilə danışıqların mənasız olduğunu bildirərək Paskeviçə yazırdı: "Əgər Paskeviç rəislə qalanı təslim etmək məqsədi ilə danışıq aparırsa, bu, mənasızdır, buranın hakimi olan mən qərara almışam ki, (qalanı – E. Q.) təslim etməyim" (374, 332).

İrəvan hökmdarından mənfi cavab alan Paskeviç qalanın mühasirəsini gücləndirməyi qərara aldı. Onun əmri ilə hərbi mühəndis,

general-mayor Truzson İrəvan qalasını güclü bombardman etmək üçün onun şimal hissəsində, Zəngi çayının sahilində artilleriya üçün yer düzəltməyə başladı. Lakin qala ətrafını nəzərdən keçirən baş komandan tezliklə onu bu yolla ələ keçirməyin qeyri-mümkün olduğunu dərk edərək bu işi dayandırdı (500, 266; 97, 218; 374, 332). Digər tərəfdən, qala müdafiəçilərinin müqaviməti, havaların isti keçməsi nəticəsində rus qoşunlarının itkisi günü-gündən çoxalırdı. Paskeviç çara yazdığı məktubda etiraf edirdi ki, "mən təəccüblənirəm ki, qalanın mühasirəyə alınması günü-gündən çətinləşir, çünki beş gündür buradayam, 400 nəfər xəstə Üçmüəzzinə göndərilib. Moldaviya kampaniyasının təcrübəsindən bilirəm ki, xəstəlikdən alayların sayı azalır, qorxuram qoşunun vəziyyəti o dərəcəyə çata ki, mühasirədə heç kim tapılmasın" (374, 332).

İrəvan qalasını tezliklə işğal edə bilməyəcəyinə əmin olan Paskeviç Naxçıvana yürüş etməyi qərara aldı. Baş komandan uzun müddət İrəvan ətrafında ləngiməklə, sələfləri Sisianov və Qudoviçin səhvlərini təkrarlamaq istəmirdi. O, mühasirənin uzanmasını rus qoşunu üçün acınacaqlı nəticə verəcəyini yaxşı anlayırdı. Digər tərəfdən, Paskeviç qala müdafiəçilərinin Naxçıvandan və Arazın cənubundan kömək alacağından ehtiyat edirdi. O, bu haqda çara yazırdı: «Beləliklə, məni Arazın cənubuna getmək və hər şeydən əvvəl Naxçıvanı işğal etməyə məcbur edən səbəb İrəvan qarnizonunu o tərəfdən hər hansı kömək almaq imkanından məhrum etmək istəyi idi…» (374, 332).

Baş komandan cənuba yürüşdən əvvəl mühasirəni gücləndirmək məqsədilə göstərişlərini verdi. Mühasirə başçısı general-adyutant K.X.Benkendorf general-leytenant Krasovski ilə əvəz olundu. Onun başçılıq etdiyi 20-ci piyada diviziyası, Sevastapol, Krım piyada alayları, 39 və 40-cı yeger alayları, 6-cı batalyon 38 topla qalanın mühasirəsində saxlanıldı (374, 332-333).

Qalan bütün qoşun hissələri İrəvandan 50 verst aralıda axan Gərni çayının sahilində toplandı. Bir neçə gün hazırlıqdan sonra iyunun 19-da rusların Naxçıvan xanlığı istiqamətində yürüşü

başlandı. 1827-ci il iyunun 26-da Naxçıvan döyüşsüz ələ keçirildi (97, 219-220; 374, 342; 34, 97).

Naxçıvanda yerləşdirilən rus qoşunu tezliklə Abbas Mirzənin başçılığı ilə şah qoşunları ilə üz-üzə gəldi. Belə ki, ruslar iyulun 1-də Naxçıvanın ən güclü qalası olan Abbasabad qalasını mühasirəyə aldılar. Bu qala xanlığın ən güclü qalalarından biri idi. Qalaya şahın kürəkəni Məhəmmədəmin xan başçılıq edirdi. Onun köməkçiləri naxçıvanlı Əmin xan və təbrizli Rza xan idi. Qalada 3-4 min nəfərlik qarnizon vardı (500, 279). Qala müdafiəçiləri rus toplarının bombardmanına baxmayaraq, möhkəm dayanmışdılar. Onlar şahzadə Abbas Mirzədən kömək almaq ümidində idilər. Lakin Abbas Mirzənin başçılığı ilə şah qoşunlarının Cavanbulaq döyüşündə məğlubiyyəti iyulun 7-də qalanın təslim olmasına gətirib çıxardı (97, 221-223; 500, 284; 374, 349-357; 34, 98-99).

Bir müddət burada qaldıqdan sonra general-adyutant Paskeviç qoşuna dinclik vermək, ərzaq ehtiyatını gücləndirmək və Rusiyadan göndərilən qala dağıdan topları gözləmək üçün dağ kəndi Qarababaya çəkilərək burada düşərgə saldı. O, yürüşü davam etdirərək Təbrizə hücum etmək niyyətində idi. Lakin İrəvanda baş verən hadisələr onun bu planını pozdu (257, 561; 222, 112; 97, 220-225; 500, 287; 374, 359-360, 424; 211, 28; 34, 99-100).

Naxçıvanda müvəffəqiyyət qazanmasına baxmayaraq, İrəvan qalasını mühasirədə saxlayan rus qoşununun vəziyyəti günü-gündən ağırlaşırdı. Havaların həddən artıq isti keçməsi, irəvanlıların güclü müqaviməti rus qoşununda itkilərin sayını çoxaltmışdı. Digər tərəfdən, rus qoşununu xəstəlik də bürümüşdü. General-leytenant Krasovski gündəliyində həmin günlərdə Üçmüəzzin kilsəsində yaradılan hərbi hospitalda 700-dən çox xəstənin olduğunu qeyd edirdi (169, 6). Xəstəlik tək əsgərlər arasında deyil, həm də zabitlər arasında da yayılmışdı. Qaladağıdan topların olmaması da rus qoşununun vəziyyətini çətinləşdirirdi. Rusiyadan göndərilən bu cür toplar hələ avqust ayında gəlib çatmalı idi.

Güclü müqavimət göstərən alınmaz İrəvan qalası qarşısında aciz qalan general-leytenant Krasovski mühasirəni götürməyə

qərara aldı. Bu iş gizli surətdə həyata keçirildi. İrəvan qalasını mühasirəyə alan dəstələr 1827-ci il iyunun 21-də gecə yarısı Üçmüəzzinə geri çəkildi. Üçmüəzzin kilsəsində cəmləşən rus qoşunu iyulun 1-ə qədər onun müdafiəsini gücləndirməklə məşğul oldu. Bu qısa vaxt ərzində kilsə əlavə ərzaqla, odunla və mal-qaranın yemlənməsi üçün otla təmin olundu. General-leytenant Krasovski polkovnik Lindenfeldin başçılığı ilə 1 alay, 5 top və 100 nəfərdən ibarət erməni atlı dəstəsini kilsədə qoyaraq, qalan qoşunla Üçmüəzzindən 35 verst aralı, Abaran çayı sahilində yerləşən dağ kəndi Cəngiyə çəkilərək, iyulun 1-də burada düşərgə saldı. Lakin rus qoşunu geri çəkilərkən irəvanlılar tərəfindən təqibə məruz qalırdı. İki min İrəvan süvarisi Məhəmməd xanın başçılığı ilə rus qoşununa arxadan hücumlar edirdi. Təqibə və cüzi itkilərə baxmayaraq, general-leytenant öz dəstəsilə Cəngi kəndinə gəlib çatdı. Bu düşərgədən 10 verst aralıda Alagöz dağının ətəyində isə İrəvan süvariləri dayanaraq onları nəzarətə götürdülər (169, 6; 97, 225; 374, 452-453).

İkiaylıq mühasirədən sonra rus qoşununun geri çəkilməsi irəvanlılar üçün gözlənilməz və tam zamanında olmuşdu. Mühasirənin uzanması, havaların isti keçməsi, ərzaq ehtiyatının tükənməsi və rus qoşununun qalanı bombardman etməsi müdafiəçilər arasında ölüm hallarını çoxaltmışdı. Belə ağır vaxtda mühasirənin götürülməsi əsl toy-bayram idi. Sərdar bu münasibətlə şəhər nümayəndələrini və kənd başçılarını qəbul edərək şənlik keçirmişdi (374, 454). Lakin bacarıqlı sərkərdə olan Hüseynqulu xan rus qoşununun müvəqqəti geri çəkildiyinə əmin olaraq sayıqlığını itirmirdi. O, qalanın müdafiəsini möhkəmləndirməkdə davam edirdi.

**Üçmüəzzin uğrunda döyüş**. Hüseynqulu xan rus qoşununun əsas qüvvələrinin geri çəkilməsindən istifadə edərək, kiçik qarnizonla müdafiə olunan Üçmüəzzin kilsəsini ələ keçirmək niyyətinə düşdü. İyulun 2-də xan 4 min süvari, 2 piyada sərbaz batalyonu, 6 topla Üçmüəzzinə doğru hərəkət edərək onu mühasirəyə aldı (169, 7). İrəvan hökmdarı əvvəlcə kilsənin könüllü şəkildə təslim edilməsinə nail olmaq üçün hiyləyə əl atdı. O, qarnizon rəisi

Lindenfeldə məktub göndərərək bildirdi ki, rus qoşunu artıq Gürcüstana geri qayıdıb və qarnizon heç bir yerdən kömək gözləməsin, arxiyepiskop Nersesə inanmasınlar. Çünki o, yalançıdır. Xan onların təhlükəsizliyinə zəmanət verir, qarnizonun sərbəst şəkildə istənilən tərəfə geri çəkilməsini təklif edirdi. O, bildirdi ki, müqavimət göstəriləcəyi halda kilsə güclə tutulacaq, onda heç kimə aman verilməyəcəkdi. Lakin qarnizon rəisi xanın könüllü təslim olmaq tələbini rədd etdi (374, 454; 169, 7).

Mənfi cavab alan Hüseynqulu xan kilsənin ətraf aləmlə əlaqəsini kəsmək üçün bütün yol və cığırları nəzarətə götürdü. Bu xəbəri eşidən general-leytenant Krasovski iyulun 3-də 1200 nəfərdən ibarət Krım batalyonu, 40-cı yeger alayı, 300 nəfərlik kazak dəstəsi və 4 topla Üçmüəzzinə doğru hərəkət etdi. Rus qoşununun yaxınlaşdığını eşidən Hyseynqulu xan mühasirəni götürərək yenidən İrəvan qalasına çəkildi. General Krasovski bir gün burada qaldıqdan sonra yenidən Cəngi kəndinə qayıtdı (169, 7).

Hüseynqulu xan mühasirəni götürüb İrəvan qalasına çəkilsə də sakit dayanmadı. Avqustun 1-də onun başçılığı ilə süvarilər və piyadalardan ibarət 4 min nəfərlik qoşun, habelə 6 topla Uşaqan kəndi yaxınlığında Üçmüəzzindən Cəngi kəndinə hərəkət edən, xəstələrlə dolu rusların yük arabalarına hücum edərək, onlara xeyli itki verdi. Lakin o, general-leytenant Krasovskinin əlavə qoşunla köməyə gəldiyini eşidərək yenidən İrəvan qalasına qayıtdı (169, 8).

Təkcə öz qüvvəsinə arxayın olmayan Hüseynqulu xan Abbas Mirzə ilə əlaqə yaratmaq qərarına gəldi. O, şahzadənin diqqətini İrəvana yönəltmək üçün ona şirnikləndirici məktub yazdı. Məktubun məzmunu belə idi: «İrəvan mühasirədən azad edilib, rus qoşunu dağlara sıxışdırılıb. Onların dəstəsi çox az və dağınıqdır. İndi Üçmüəzzini tutmaqdan, Bozabdal dağları ilə hərəkət edən mühasirə toplarını əldə etməkdən, Krasovskini məhv edərək Gürcüstana yol açmaqdan asan heç nə yoxdur» (374, 456). Hüseynqulu xanın məktubu Abbas Mirzəyə böyük təsir göstərdi. O, Krasovskinin dəstəsini məğlub edərək Tiflisə yol açmaqla Paskeviçin başçılığı ilə rus qoşunlarının Təbrizə hücum planını pozmaq

niyyətinə düşdü. Abbas Mirzə 10 min nəfərlik piyada, 15 min nəfərlik süvari və 24 topla qəflətən İrəvan xanlığına doğru hərəkət edərək avqustun 4-də Üçmüəzzin kilsəsindən 15 verst aralıda gecələmək üçün dayandı. Bir neçə gün burada qaldıqdan sonra şah qoşunu Qarasu çayını keçərək Alagöz dağının ətəyində yerləşən Əştərək kəndindən 5 verst aralıda yerləşən Əkərək kəndində düşərgə saldı (169, 8-9; 97, 225; 374, 457).

Qacar qoşunlarının bu yürüşü gizli həyata keçirilsə də, ermənilərin casusluğu və xəbərçiliyi nəticəsində Krasovski şahzadənin hücumundan vaxtında xəbər tuta bildi. Bu xəbər Krasovskiyə avqustun 6-da arxiyepiskop Nersesin qohumu əştərəkli Bedros Markaros vasitəsilə çatdırılmışdı. Sonuncu isə bu məlumatı şah qoşunu ilə birlikdə İrəvana gələn gürcü şahzadəsi Aleksandrın qaynatası İshak Məlikovdan eşitmişdi. İshak Məlikov şahzadənin düşərgəsində olmuş və kürəkəni Aleksandrla görüşmüşdü. Bu məlumatı şah qoşununun hərəkətini izləmək üçün göndərilmiş casuslar da təsdiq etmişdi (169, 8-9).

Abbas Mirzə güclü qoşunla İrəvan xanlığına gəlsə də, bu qüvvələrdən lazımınca istifadə edə bilmədi. Şahzadə qoşunu cəmləşdirib hücum etməkdənsə, bu qüvvələri ayrı-ayrı dəstələrə bölməklə ciddi səhvə yol verdi. Bu da sayca az olan rus qoşununa imkan verirdi ki, rəqibinin hücumuna davam gətirsin. Həmin vaxt general Krasovskinin başçılığı altında 6 min nəfərlik rus qoşunu Abaran çayının hər iki sahilində düşərgə salmışdı (500, 302).

İrəvanlıların köməyi ilə Abbas Mirzənin qoşununun Üçmüəzzini mühasirəyə alması general-leytenant Krasovskini təşvişə salmışdı. O, Üçmüəzzin kilsəsində mövqe tutmuş rus dəstəsinə kömək etməyə tələsdi. Lakin onun qüvvəsi az olduğundan çətinliklə üzləşmişdi. Şah və İrəvan qoşunlarının birləşmiş qüvvələri kilsəni günü-gündən daha sıx mühasirəyə alırdı. Digər tərəfdən general-leytenant Krasovskinin Cəngi kəndində yerləşən dəstəsi də hücuma məruz qalmışdı. Avqustun 10-da səhər saat 10-da 2 minlik süvari dəstəsi Abaran çayının sahilində mövqe tutmuş rus düşərgəsinə yaxınlaşdı. Gözətçilər bu hücumu dəf edənə qədər Krasovski 2

piyada batalyonu, 1 kazak alayı və 2 topla köməyə tələsdi. Onun yaxınlaşdığını görən şah süvariləri geri çəkilməyə başladılar. Rus qoşunu onları Əkərək kəndində yerləşən düşərgəyə qədər təqib etdi (169, 10).

Lakin rus qoşunu şah və İrəvan qoşunlarının yeni-yeni hücumlarına məruz qalırdı. Avqustun 13-də süvari dəstəsi gecə gizli surətdə müxtəlif istiqamətlərdən dərəyə dirərək, səhər tezdən rusların gözətci məntəqələrinə qəflətən hücum etdi. Rus qoşunları üçün əsl təhlükə yaranmışdı. Qəflətən hücuma məruz qalan iki gözətçi dəstəsi geri çəkildi. Lakin digər rus dəstələri möhkəm dayanaraq, şah süvarilərini irəliləməyə imkan vermədilər. Bu döyüşdə general-leytenant Krasovski az qalmışdı ki, əsir düşsün. O, general Turuzsonla birlikdə Üçmüəzzinə gedən yolda kəşfiyyat işi həyata keçirərkən, onun keçəcəyi yolda qurulmuş pusquya rast dəlmişdi. İrəlidə gedən zabit və 5 kazak pusqudan vaxtında duyuq düşərək geri qayıtmışdılar. General-leytenant Krasovskinin geri qayıtdığını görən 500 süvari dəstəsi onu təqibə başlamışdı. Bir piyada batalyonu vaxtında köməyə gəldiyindən Krasovski təhlükədən qurtarmışdı. Yerli süvari dəstəsi isə irəli getməyə risk etməyərək 5 verst aralıda dayanmalı olmuşdu (169, 6; 374, 459-460).

Lakin buna baxmayaraq irəvanlılar şah qoşununun köməyi ilə ruslara yeni-yeni hücumlar təşkil edirdilər. Bir neçə min nəfərlik şah qoşunu Alagöz dağından Sudakəndə hərəkətə başlamışdı. General-leytenant Krasovski həmin istiqamətdə Paskeviç tərəfindən general-adyutant Sipyaginin başçılığı ilə göndərilən əlavə köməyi gözləyirdi. Güclü süvari dəstəsinin o istiqamətdə hərəkətini görən general 2 batalyon və 4 topla onların ardınca hərəkət etdi. Lakin Sipyaginin dəstəsi yolda şah qoşununu məğlub edərək geri qayıtmağa məcbur etmişdi. Düşərgəyə gəlib çatan Sipyagin müdafiə toplarının hələ beş gündən sonra buraya gəlib çatacağını bildirmişdi (169, 11; 374, 460-461).

Bu vaxt Alagöz dağı ilə rus düşərgəsi arasında 4 nəfərlik min süvari dəstəsi dayanmışdı. Onlar rus düşərgəsini güclü atəşə tuturdular. General-leytenant Krasovski 2 batalyon, 1 kazak alayı və

50 nəfərə qədər borçalılıdan ibarət dəstə ilə onlara hücum etdi (169, 11-12). H. İbrahimbəyli bu döyüşdə guya 5000 nəfərə qədər Borçalı süvarisinin iştirak etdiyini yazırdı (199, 203). Lakin hadisənin canlı şahidi olan general-leytenant Krasovski döyüşdə cəmi 50 nəfərə qədər Borçalı süvarisinin olduğunu bildirmişdi (169, 12).

Rus qoşununun dağlara sığınaraq əlverişli müdafiə mövqeyini tutduğunu görən Abbas Mirzə zərbəni birbaşa Üçmüəzzin kilsəsinə vurmağa qərara aldı. O, bununla rus qoşununu açıq döyüşə cəlb etmək istəyirdi. Abbas Mirzə kilsəyə yaxın olmaq üçün oraya gedən yoldan yarım verst aralıda yerləşən Uşaqan kəndində düşərgə salmışdı. Onun göstərişi ilə sərkərdə Yusif xanın başçılığı ilə böyük bir dəstə Üçmüəzzinə göndərildi. Kilsə ətrafında 4 min nəfərdən ibarət mühasirə zolağı yaradıldı və burada artilleriya quraşdırıldı. Kilsə ilə əlaqəsi olan yollar nəzarətə götürüldü. Şah qoşunu və İrəvan sərdarının dəstələri bütün şübhəli adamları tutaraq, rus qoşunun kilsə ilə əlaqəsini tamam kəsmişdi (169, 12; 374, 463-464). Bu hadisədə Hüseynqulu xan və ona yaxın olan adamlar daha fəal iştirak edirdilər. Xan Abbas Mirzəyə Üçmüəzzin kilsəsinin açarlarını iki gündən sonra təqdim edəcəyini, Abbas Mirzə isə əvəzində ona ruslardan alınacaq müdafiə toplarını bağışlayacağını söz vermişdilər (169, 13; 374, 464).

**Uşaqan döyüşü**. Vəziyyətin qorxulu olduğunu görən ermənilər yenə də yalan məlumatla general-leytenant Krasovskini qeyri-bərabər döyüşə cəlb edə bildilər. Şah qoşununun sayıqlığına baxmayaraq, arxiyepiskop Nerses bir neçə ermənini general-leytenant Krasovskinin yanına göndərməyə nail olmuşdu. Onlar adyutantı ələ almış, o isə generala ərzaq cədvəlini göstərərək, çoxsaylı müxtəlif ərzaq anbarlarının qeyd edildiyi səhifədə Üçmüəzzin anbarında avqustun 1-ə qədər cəmi 40 çertvert ərzaq olduğunu və bu ərzağın artıq tükəndiyini bildirmişdi (212, 29). Hətta Nerses generalı qorxudaraq, xəbər göndərmişdi ki, guya Abbas Mirzənin məqsədi üç gün ərzində Üçmüəzzini ələ keçirərək onu tamamilə dağıtmaq və sonra əsas qüvvələrlə Gümrü tərəfdən Tiflisə hərəkət etməkdir (169, 13; 220, 3).

Bu xəbəri eşidən general-leytenant Üçmüəzzinə hərəkət etməyi qərara aldı. Lakin bu addım onun ətrafı tərəfindən birmənalı qarşılanmadı. Onlar əks tərəfin qüvvəsinin çoxluğunu, rus qoşununun vəziyyətinin acınacaqlı olduğunu, digər tərəfdən ərzaq çatışmazlığını dəlil gətirərək onu bu qorxulu addımdan çəkindirməyə çalışdılar. Lakin general-leyteant Krasovski inadından dönmədi və bununla da qoşunu təhlükəyə saldı (374, 466). Sonralar Paskeviç rus qoşununun biabırçı məğlubiyyətində arxiyepiskop Nersesi günahlandırmışdı. Baş komandan yazdığı məktubda Nersesi yalan məlumat verməkdə, kilsədə lazımi qədər ərzağın olduğu halda, ərzaq çatışmazlığını bəhanə gətirərək Krasovskini qeyri-bərabər döyüşə cəlb etdiyini bildirmişdi (278, 259).

İnadından dönməyən general-leytenant Krasovski 3 min nəfərdən ibarət qoşunla Üçmüəzzinə doğru hərəkət etdi. O, özü ilə 10 günlük ərzaq ehtiyatı götürmüşdü. Qoşunun 230 çetvert buğdası, bir qədər un və qurudulmuş çörəyi vardı (169, 14-15). Bəzi əsərlərdə general-leytenant Krasovskinin dəstəsində 12 top və 2500 nəfər olduğu göstərilmişdi (97, 226; 374, 456). Digər məlumata görə isə general-leytenant Krasovskinin dəstəsində 2500-3000 nəfər arasında (223, 30), başqa məlumata görə isə 12 topa malik 2 min əsgər olduğu birdirilirdi (500, 303). H. İbrahimbəyli isə əsərində rus qoşununun daha çox olduğunu qeyd edir. Onun yazdığına görə, Krasovskinin dəstəsinin ümumi sayı 3 min piyada, 6 min süvaridən ibarət idi və dəstənin həm də 12 topu var idi (199, 203).

Cəngi kəndindən hərəkət edən rus qoşunu Uşaqandan 2 verst aralıda yerləşən yüksəkliyə gəlib çatdı. Avqustun 17-də burada tərəflər arasında qaynaqlarda "Uşaqan döyüşü" adlandırılan döyüş baş verdi. General-leytenant Krasovski şah qoşununa qəflətən hücum etməyi qərara almışdı. Lakin rus qoşunu özü qəfil hücuma məruz qaldı. Belə ki, Uşaqana yaxınlaşan rus qoşunu top atəşi ilə üzləşdi. General-leytenant Krasovskinin məqsədini bilən Abbas Mirzə qoşunu ilə onu hər tərəfdən mühasirəyə alaraq hücuma keçdi. Döyüş 5 saata qədər davam etdi. Hadisələrin canlı şahidinin verdiyi məlumata görə, rus qoşunu dağ yolu ilə hərəkət edərkən daşların

arxasında sığınacaq tapmış şah və İrəvan qoşunlarının hücumuna məruz qalmışdı. İlk hücumda rusların ərzaq arabaları və topları sıradan çıxmışdı. Döyüşdə şah qoşunları düşmənə itkilər verən qəfil zərbələrdən geniş istifadə etmişdi. Onlar açıq döyüşdən yayınaraq, geri çəkilir və yenidən hücum edərək rus qoşununa atəş yağdırırdılar. Belə hücum taktikası öz bəhrəsini vermişdi. Rus qoşunundan xeyli zabit və əsgər öldürülmüşdü. Hətta general-leytenant Krasovski özü belə çiynindən yaralanmışdı. Lakin şah qoşunlarının hərbi işdə səriştəsizliyi general-leytenant Krasovskiyə sağ qalanlarla Üçmüəzzinə daxil olmaq imkanı vermişdi (223, 29-31; 169, 23-24; 374, 480).

Məğlub olmasına baxmayaraq, rus hərb tarixçiləri bu döyüşü Krasovskinin qələbəsi kimi qiymətləndirməyə çalışırdılar. Lakin hadisələrin canlı şahidinin verdiyi məlumata görə, rus qoşunu Uşaqan döyüşündə biabırçı məğlubiyyətə uğramışdı. Hadisələrin şahidi bu uğursuzluğu gizlətməyərək yazırdı: «İran müharibəsindən yazan hərb tarixçiləri bizim üçün uğursuz olan Krasovskinin Əştərək (Uşaqan – E. Q.) ətrafındakı döyüşünü qələbə elan edirlər. Lakin İran döyüşü bizim üçün elə uğurla aparılmışdı ki, müvəffəqiyyətsiz hadisələri gizlətmək lazım deyil. Belə hadisə yalnız iki dəfə – Gorus və Əştərəkdə olmuşdu» (223, 28-29).

Uşaqan döyüşündə rus qoşunu 1166 əsgər və zabit itirmişdi. Onlardan 685 nəfəri öldürülmüş, 347 nəfəri yaralanmış, 134 nəfəri isə əsir düşmüşdü (489, 145). Başqa bir məlumata görə isə, bu döyüşdə rus qoşunu bütün ərzaq arabaları ilə yanaşı 24 zabit və 1130 əsgər itirmişdi (374, 478). Şerbatov isə qeyd edirdi ki, bu döyüşdə rus qoşunundan 700 əsgər ölmüş, 300-ü isə yaralanmışdı (500, 303). General-leytenant Krasovski isə öz gündəliyində rus qoşunundan 1131 nəfərin öldüyünü, yaralandığını və itkin düşdüyünü yazırdı (169, 25).

Rus qoşunu Üçmüəzzinə sığınsa da, onun vəziyyəti çox ağır idi. Buna bazmayaraq, Abbas Mirzə yenə də səhvə yol verdi. Əgər o, rus qoşununa hücumu davam etdirsəydi onu tamamilə məğlub edə bilərdi. Krasovski bunu etiraf edərək yazırdı ki, "…hücum

etsəydi məni dəhşətli məğlubiyyətə uğradardı" (169, 27). Lakin şahzadə kifayət qədər gücə malik olsa da, bunu etmədi. Avqustun 19-da gecə Abbas Mirzə qoşunu ilə Uşaqanı tərk edərək İrəvandan 20 verst aralı, Zəngi çayının sağ sahilində düşərgə saldı. Həmin vaxt rusların gözlədiyi mühasirə topları Cəngiyə gəlib çatmışdı. Avqustun 19-u axşamı general-mayor Laptev general-leytenant Krasovskinin dəstəsi ilə birləşmək üçün 4 topa malik Kabardin alayı ilə Uşaqana gəldi. Artıq Abbas Mirzə qoşunu ilə buranı tərk etmişdi. Avqustun 20-si səhər general-leytenant Krasovski Üçmüəzzindən çıxaraq mayorun dəstəsilə birləşdi (169, 26-28).

Abbas Mirzənin mühasirəni götürüb geri çəkilməsinin səbəbi Paskeviçin başçılığı ilə əsas qüvvələrin general-leytenant Krasovskinin dəstəsinə köməyə gəlməsi ilə bağlı idi. Çünki Üçmüəzzin kilsəsi mühasirədə olarkən avqustun 18-də general-leytenant Krasovski Uşaqan döyüşü haqqında rəsmi məktubunda vəziyyətin çox qorxulu olduğunu, sursat və ərzaq çatışmazlığını, qat-qat üstün olan şah qoşunlarının onun dəstəsini sıxışdırdığını, kömək olmadan düşərgəyə qayıda bilməyəcəyini ermənilər vasitəsilə Paskeviçə çatdıra bilmişdi (5, 645; 169, 48-49). Digər tərəfdən, yerli əhalidən xəyanət edənlar də olmuşdu. Bu xəyanətin İrəvanda olan rus qoşununun vəziyyətinin Paskeviçə çatdırılmasında böyük rol oynamışdı. Belə ki, şah qoşunu geri çəkildikdən sonra İsmayıl xan Ayrumlının qardaşı oğlu və kürəkəni olan Səlim xan Ayrumlı bir dəstə ilə Əştərək kəndində saxlanılmışdı. Xanın rus qoşununa rəğbət bəslədiyini arxiyepiskop Nersesdən öyrənən general-leytenant Krasovski onunla əlaqə yaratmaq qərarına gəldi. O, gizli surətdə Səlim xana məktub göndərərək şirnikləndirici vədlər vermiş və kömək etməsini, şah qoşununun vəziyyəti haqqında məlumatlandırmasını xahiş etmişdi. Generalın məktubunu alan Səlim xan öz yaxın adamı ilə rus düşərgəsinə gəlmiş və onunla danışıqlar aparmışdı. Danışıqlar nəticəsində xan generalın bütün göstərişlərini yerinə yetirməyə söz vermişdi. Bundan sonra o, Paskeviçə məktub göndərərək vəziyyət haqqında ona məlumat vermişdi. Hətta Səlim xan sentyabrın 2-si gecə rus düşərgəsinə gələrək Paskeviçin gizli

məktubunu özü ilə gətirmişdi. Məktubda Qarababada yerləşən rus qoşuşunun köməyə tələsdiyi bildirilirdi (3, 52).

General-leytenant Krasovskinin başçılığı ilə rus qoşununun məğlubiyyət xəbərini eşidən general-adyutant Paskeviç Qarababada knyaz Eristovun başçılığı ilə bir dəstə qoyaraq, 1827-ci il avqustun 20-də İrəvana doğru hərəkət etdi. Sentyabrın 3-də rus qoşunu Gərni çaya gəlib çatarkən, Abbas Mirzə Sərdarabaddan 15 verst aralıda yerləşən Qaraqala qalasına, sonra isə Makuya çəkildi. Rus qoşununun əsas qüvvələri sentyabrın 5-də Üçmüəzzinə gəlib çatdı (5, 645; 257, 561; 97, 227; 374, 491-494; 500, 309).

**Sərdarabad qalasının işğalı.** General-adyutant Paskeviç əsas qüvvələri ilə Üçmüəzzinə gələn günü çoxdan gözlənilən mühasirə topları da gəlib çıxdı. O, eyni zamanda məlumat almışdır ki, Sərdarabad qalasında çoxlu ərzaq ehtiyatı toplanmışdı. Baş komandan gələcək yürüşünü təmin etmək üçün ilk zərbəni bu qalaya vurmağa qərara aldı (223, 138). Onun bu planı çox gizli saxlanılırdı. General-adyutant Paskeviç hətta Abbas Mirzənin sülh danışıqları üçün göndərdiyi çaparına inanmamış və onu cavabsız qoymuşdu (374, 493).

1827-ci il sentyabrın 11-də general-adyutant Paskeviç əsas qüvvələri ilə Sərdərabad qalasına doğru hərəkət edərək, səhəri günü buraya gəlib çatdı. Bu xəbəri eşidən Abbas Mirzə, artıq qeyd etdiyimiz kimi, Makuya çəkilmişdi. Hüseynqulu xan və qardaşı Həsən xan öz qüvvələri ilə yenə də rus qoşunu ilə təkbətək qalmışdılar (5, 645-646; 257, 561).

Sərdarabad qalası rus qoşunu tərəfindən sentyabrın 14-də güclü mühasirəyə alındı. General-leytenant Krasovski mühasirə qoşunlarının başçısı təyin edildi (169, 31). Rus komandanlığı qalanı tezliklə ələ keçirmək üçün xüsusi hücum planını hazırlamışdı. Plana görə, hücumu müvəffəqiyyətlə həyata keçirmək üçün qala güclü top atəşinə tutulmalı idi. Bombardman qalanın cənub hissəsində yerləşən sərdar bağları tərəfindən nəzərdə tutulmuşdu (223, 115-139).

Sərdarabad qalasına hücumdan əvvəl Paskeviç qraf Suxtelenin başçılığı ilə bir dəstə əsgəri Osmanlı sərhəddi yaxınlığında

yerləşən Qulp duz mədənini tutmağa göndərmişdi. Rus komandanlığı burada kifayət qədər ərzaq ehtiyatının olması haqqında məlumat almışdı. Qraf Suxtelenin dəstəsi tapşırığın öhdəsindən gələ bildi. Sentyabrın 12-də bu dəstə qarət etdiyi 400 çetvert taxıl və 500 baş iribuynuzlu mal-qara ilə geri qayıtdı (5, 646: 500, 312-313).

Sərdarabad qalasının güclü və ərzaqla bol olması yuxarıda qeyd edilmişdi. Bu dövrdə qalanın qarnizonu 14 topa malik 1500 nəfərlik dəstədən ibarət idi (223, 112). Həmin vaxt qalaya Həsən xanın nəvəsi Fətəli xan başçılıq edirdi. Lakin qalanın mühasirəyə alındığını eşidən Həsən xan gecə qalaya daxil ola bildi. Həsən xan qala müdafiəçilərinə 1808-ci ildə İrəvanda rus qoşununa qarşı mübarizədən danışaraq onları döyüşə ruhlandırırdı (257, 561). Onun səyi nəticəsində qala müdafiəçiləri güclü şəkildə müdafiə olunurdu. Sentyabrın 15-də müdafiəçilər qala ətrafında topları yerləşdirmək üçün iş görən rusları atəşə tutdular. Bu atəş nəticəsində bir nəfər rus məhv edildi. Lakin sentyabrın 16-da dövrün güclü silahlarından olan mühasirə topları Sərdarabada gətirildikdən sonra vəziyyət kəskin şəkildə dəyişdi. Qalanın cənub qərb hissəsində 300 sajen aralıda 6 belə top quraşdırıldı. Sentyabrın 18-də toplar qalanı bombardman etməyə başladı. Həmin gün qalaya 500 mərmi atıldı. Bombardman nəticəsində qalanın dördkünc qülləsi dağıdıldı. Səhərisi gün davam edən bombardman nəticəsində qalanın divarlarına və evlərə böyük ziyan vuruldu. Qalanın aramsız atəşə məruz qaldığını görən müdafiəçilər sentyabrın 19-u saat 5-də ağ bayraq qaldırmağa məcbur oldular. Həsən xan tərəfindən göndərilmiş elçi Paskeviçin yanına gələrək xanın məktubunu ona təqdim etdi. Məktubda xan 3 gün müvəqqəti barışıq xahiş edərək, qarnizonun geri çəkilməsinə icazə istəyirdi. Lakin Paskeviç xanın bu xahişinə qəti etiraz edərək, ona təslim olmaq üçün 24 saat vaxt verdi. Eyni zamanda qalanın bombardmanı daha da gücləndirildi. Vəziyyətin çıxılmaz olduğunu görən Həsən xan sentyabrın 19-u axşam qaranlıqdan istifadə edərək iki yaxın adamı ilə qaladan çıxa bildi. Onun ardınca 1.500 nəfərdən ibarət olan qarnizon qaladan çıxaraq müxtəlif istiqamətlərə-İrəvan, Alagöz və Osmanlı sərhəddinə çəkilməyə başladı. Rus süvari dəs-

tələri qaçanları təqib edərək xeyli irəvanlı qırdı. Təqibin gedişində 500 nəfər irəvanlı öldürülmüş və 200 nəfər isə əsir götürülmüşdü (5, 646-647; 257, 561; 139, 563-564; 223, 138-140; 374, 498).

Altı günlük mühasirədən sonra sentyabrın 20-də rus qoşunu Sərdarabad qalasına daxil oldu. Qalanı işğal edən rus qoşunu 13 top, 14 min çetvert buğdası olan anbar, çoxlu pambıq parça, barıt və digər sursat ələ keçirdi (5, 647; 257, 561-562; 139, 563-564; 223, 138-140). Qalanı qorumaq üçün Paskeviç polkovnik Xamutovun başçılığı ilə bir piyada batalyonu, ermənilər və kazaklardan ibarət böyük bir dəstə qoyaraq Üçmüəzzinə qayıtdı (139, 564). Sərdarabad qalasının mühasirəsi zamanı cəmisi 8 rus əsgəri həlak olmuş, 3 zabit və 15 əsgər isə yaralanmışdı (223, 132; 153, 146).

Sərdarabad kimi güclü qalanın alınması şahı dəhşətə gətirmişdi. O, İrəvan və Naxçıvan xanlıqlarının güzəştə getmək şərti ilə sülh danışıqlarına başlamağı tələb etdi. Lakin şahzadə atasının bu haqda göndərdiyi fərmanı icra etməyərək, onu bir müddət özündə saxladı. Abbas Mirzə İrəvan qalasının rus qoşununa güclü müqavimət göstərməsinə ümid edərək, rus komandanlığı ilə daha sərfəli şərtlərlə danışıq aparmaq istəyirdi. Lakin İrəvan qalasının süqutu onun bütün ümidlərini puç etdi (141, 569). Başqa bir məlumata görə, şah Sərdarabadın işğalından sonra özünə yaxın olan xanlardan birini ingilis məmurları ilə birlikdə Paskeviçin yanına göndərmişdi. Lakin onlar gələnə qədər artıq İrəvan qalası da süqut etmişdi. General Paskeviç onlarla sərt danışmış və qeyd etmişdi ki, İrəvandan birbaşa Təbrizə yürüş edəcəkdir (5, 649).

**İrəvan qalasının süqutu**. Sərdarabad qalasında qarnizon yerləşdirən general-adyutant Paskeviç əsas qüvvələrlə geri qayıdaraq, sentyabrın 22-də Üçmüəzzinə gəlib çatdı. Sentyabrın 23-də isə bütün qoşun İrəvana doğru hərəkət etdi. Rus qoşunu qaladan 2 verst aralı Zəngi çayının sahilində mövqe tutaraq, qalanın mühasirəsinə başladı (140, 565; 374, 505). Rus komandanlığı İrəvan qalasının işğalını tez bir zamanda başa çatdırmaq niyyətində idi. Çar da Paskeviçdən Təbrizə yürüşdən qabaq İrəvanın işğalını tələb etmişdi. Digər tərəfdən, həmin vaxt Rusiyanın beynəlxalq vəziyyəti mürək-

kəbləşmiş, Osmanlı dövləti ilə münasibətlər müharibə həddinə çatmışdı. Müharibə olacağı təqdirdə İrəvan qalası rus qoşunu üçün hərbi və ərzaq bazası rolunu oynamalı idi. V. Potto yazırdı ki, "bu zaman İrəvanı mühasirədə saxlayaraq Təbrizə hərəkət etməklə əməliyyat meydanının böyük məsafədə uzanması və Təbrizdə əsas qüvvələrin müvəffəqiyyətsizliyə uğrayacağı təqdirdə mühasirə dəstəsinin vəziyyəti çətinə düşə, yaxud qorxulu ola bilərdi. Düşmən Təbrizlə İrəvan arasında dolaşmaqla əlaqəni kəsə bilərdi, bu da rus qoşununu əməliyyat xətti ilə deyil, Qarabağ tərəfdən – Mehri, Aslandüz, yaxud Xüdafərin körpüsündən geri çəkilməyə məcbur edərdi. Onda Naxçıvan asanlıqla düşmənin əlinə keçə bilərdi və bütün əməliyyatın nəticəsi itirilərdi" (374, 504).

Məhz bu səbəblərdən rus komandanlığı qalanın tez bir zamanda işğalı üçün gərgin işə başladı. Qala ətrafında möhkəm mühasirə xətti yaradıldı. Mühasirə qoşunlarının başçısı general-leytenant Krasovski təyin olunmuşdu (169, 31). Hücumdan qabaq qalanın ətrafını gözdən keçirən general-adyutant Paskeviç sentyabrın 24-də şura çağırdı. Şurada qalaya hücum planı müzakirə olundu (374, 506).

Qeyd etmək lazımdır ki, hələ iyunun 22-də rus qoşununun mühasirəni götürməsindən sonra qalada xeyli dəyişiklik baş vermişdi. İrəvanlılar qalanı möhkəmləndirmək və rus qoşununu asanlıqla qalaya yaxınlaşmaq imkanından məhrum etmək üçün bir neçə tədbirə əl atmışdılar. Hər şeydən əvvəl, qalanın şərq hissəsinin əks tərəfində yerləşən xəndəyin ətrafı hündürləşdirilmiş, Qırxbulaq çayına qədər qalaya bitişik şəhərətrafı mülklər dağıdılmışdı. Qalaya paralel daş divar və hətta evlər sökülmüş, bağlarda olan bütün ağaclar qırılmışdı. Qalanın şimal hissəsində yerləşən gözəl karvansara və bir çox evlər də sökülmüş, yalnız şəhər ətrafında yerləşən məscid qalmışdı. Bundan əlavə qala qarnizonu 2.000 nəfərdən 4.000 nəfərə çatdırılmış, Həsən xan başda olmaqla Sərdarabad qala qarnizonunun sağ qalan hissəsi də İrəvan qalasının müdafiəçilərinə qoşulmuşdu. Sərdarabad qalasından çıxaraq İrəvana gələ bilmiş Həsən xan bu qalanın müdafiəsinə rəhbərliyi öz üzərinə götürmüşdü (223, 143).

İrəvan hakimi Hüseynqulu xan isə şah qoşunu geri çəkildikdən sonar ailəsi ilə birlikdə bir dəstə atlı qoşunla Araz çayını keçərək Maku qalasına sığınmışdı. O ancaq İrəvan qalasının işğalı xəbərini eşitdikdən sonra Təbrizə getməyə məcbur olmuşdu (5, 649; 223, 68; 473, 35).

Sərdarabad kimi qalanın süqutu İrəvan qalası müdafiəçilərinə böyük təsir göstərmiş və onları ruhdan salmışdı. Lakin xanın qardaşı Həsən xanın qalaya daxil olması onları müəyyən qədər ruhlandırmışdı. Hətta onun göstərişi ilə sentyabrın 24-də qala müdafiəçiləri toplardan rus qoşununa atəş açmağa başladı. Lakin bu atəşlər rus qoşununa heç bir zərər vura bilməmişdi (140, 565; 374, 505).

Qalanın ətrafında mühasirə işləri görən rus qoşunu müxtəlif yerlərdə toplar yerləşdirməyə başlamışdı. Sentyabrın 25-i şəhərin şərq tərəfində yerləşən «Müxənnət təpəsi»ndə top yerləşdirən rus qoşunu qalaya bir neçə mərmi atdı. Beləliklə, qalanın rus artilleriyası tərəfindən bombardman edilməsi başladı. Səhərisi gün qalanın şərq hissəsində yerləşən şəhər ətrafında qala divarlarından 300 sajen aralıda yerləşən təpədə yeni 6 top və 4 mortir (qısalüləli top – E. Q.) quraşdırıldı (140, 565). Sentyabrın 26-sı səhər qala həmin toplardan güclü atəşə tutuldu. Qala müdafiəçiləri də toplardan rus qoşununa cavab verirdilər. Lakin təcrübəli topçuların olmaması üzündən onların atdığı mərmilər rus qoşununu bir o qədər də narahat etmirdi. Digər tərəfdən, topçuların bəziləri ermənilər olduğundan, onlar xəyanət edərək mərmiləri rus qoşununa tərəf deyil, boş yerlərə atırdılar. Qalaya sığınmış ermənilərin xəyanəti bununla bitmirdi. Ermənilər gizli surətdə qalada baş verən hadisələri, qala müdafiəçilərinin sıx yerləşdiyi yerləri rus komandanlığına çatdırırdılar (473, 36). Buna görə də rusların atdığı mərmilər hədəfə dəqiq dəyirdi. Həmin gün atılan mərmilər qala daxilində baş məscidi, sərdarın sarayını zədələmişdi. Bombardman da bütün gecə davam etdirildi (374, 506-507).

Qala müdafiəçilərinin inadkarlığını görən rus qoşunu hər gün qalanın müxtəlif yerlərində mühasirə toplarının sayını artırırdı.

Sentyabrın 27-si gecə birinci batareyaya paralel sağ tərəfdə yeni 12, sol tərəfdə isə 6 top yerləşdirildi. Həmin gün qala 18 topdan güclü atəşə tutuldu. Atılan top mərmiləri qala divarlarını zədələdi. Lakin irəvanlılar dağılmış yeri vaxtında hörə bildilər. Səhəri günü həmin toplardan qalanın bombardmanı davam etdirildi. Top mərmiləri qala daxilində böyük dağıntı törətmişdi. Bombardman nəticəsində qalanın divarına, qüllə və tikililərə böyük ziyan dəymiş, mazğallar dağıdılmış, ruslara əks-cavab verən bir neçə top sıradan çıxmışdı (140, 565; 223, 152).

Bombardman qalaya sığınmış dinc əhaliyə elə təsir göstərdi ki, onlar Həsən xanı və qarnizonu məzəmmət edərək təslim olmağa tələb etməyə başladılar. Lakin Həsən xan bir bəhanə ilə rus qoşununun geriyə çəkiləcəyi və Abbas Mirzədən əlavə kömək gələcəyini bildirərək onları sakitləşdirməyə çalışırdı (140, 565; 374, 508). Xanın adamları eyni zamanda sentyabrın 28-də gecə və gündüz rus qoşununu tüfənglərdən güclü atəşə tutmaqda davam edirdi (223, 152-153).

Lakin sentyabrın 29-da rus qoşunu qalanın qarşısında yeni toplar quraşdırdı. Onlardan atılan mərmilər qalanın cənub şərq hissəsindəki qülləni, ona bitişik səddi və bir neçə mazğalı dağıtdı. Həmin gün Paskeviç qalanı könüllü təslim etmək tələbi ilə Həsən xanın yanına xüsusi elçi göndərdi. O, qalanın könüllü təslim olunacağı təqdirdə, qarnizona azad surətdə istədiyi yerə geri çəkilməsinə şərait yaradacağına söz verirdi. Düşünmək üçün Həsən xana cəmisi 6 saat vaxt verilmişdi. Lakin bu igid xan həyasız tələbə heç bir cavab vermədi (140, 565; 374, 509).

Sentyabrın 30-da qalanın bombardmanı davam etdirildi. Əhalinin təzyiqinə məruz qalan Həsən xan vaxt qazanmaq üçün rus komandanlığı ilə danışıqlara başlamağa məcbur olaraq, həmin günü günorta Paskeviçin yanına elçi göndərdi. O, baş komandana xanın adından yazılmış məktub gətirmişdi. Məktubda Həsən xan Abbas Mirzənin fikirini öyrəndikdən sonra qalanı təslim edə biləcəyini bildirmişdi. Lakin Paskeviç şahzadənin vasitəçiliyi olmadan onun qeyd-şərtsiz tabe olunmasını tələb etdi. Əks təqdirdə o, xanı rus

qoşununun gücü ilə qorxudurdu. Elçi bu cavabla da geri qayıtdı (140, 566; 223, 159).

Lakin Həsən xan təslim olmaq fikirində deyildi. Onun inadkarlığını görən bir qrup dəstə qiyam qaldırdı. Qiyam vaxtında yatırıldı və onun bir neçə təşkilatçısı şəxsən Həsən xanın əli ilə məhv edildi (223, 165).

Xandan heç bir cavab almayan rus qoşunu bombardmanı davam etdirirdi. Oktyabrın 1-i bütün gecə 40 topdan qala fasiləsiz olaraq atəşə tutuldu. Qalaya mindən çox mərmi atıldı. Qala daxilində çoxlu tikinti dağıntıya məruz qalmışdı (223, 566; 374, 511).

Güclü bombardman axır ki, öz bəhrəsini verdi. Oktyabrın 1-də səhər saat 8-də qalanın şərq tərəfində yerləşən qüllədən bir neçə nəfər ağ bayraq qaldıraraq, təslim olmaq istədiklərini bildirdilər. Lakin təslim məsələsinə münasibətdə qalada iki qruplaşma var idi. Qala müdafiəçilərinin bir hissəsi təslim olmaq istəsə də, digər hissəsi Həsən xanın başçılığı ilə müqavimət göstərmək fikirində idi. Ağ bayraq qaldırılsa da qalanın bir sıra yerlərində müqavimət davam edirdi. Xüsusilə qalanın cənub tərəfində irəvanlılar silahlardan rus qoşununu güclü atəşə tutmuşdular (140, 566). Hətta Həsən xan qarnizonu düzərək şəxsən özü onu ruslara qarşı döyüşə aparmaq istəyirdi. Lakin yaxın adamları onu bu fikrindən döndərə bildilər (473, 36).

Vəziyyətin çıxılmaz olduğunu görən piyada və süvarilərdən ibarət bir dəstə qalanın şimal tərəfindən çıxaraq Zəngi çayını keçməyə cəhd etdi. Lakin rus qoşunu onları geri qaytarmağa müəffəq oldu. Şəhər ağsaqqallarının təslim tələbi ilə təzyiqə məruz qalan Həsən xan da yüksək rütbəli 60 nəfər məmurla birlikdə qaladan qaçmaq istəsə də, kazakların atəşi nəticəsində geri qayıtmağa məcbur oldu (169, 32).

İrəvan qalasından hər cür qaçışın qarşısını almaq üçün rus komandanlığı bütün çıxışları nəzarətə götürməyi qərara almışdı. Qalanın şimal qapısı tərəfdə Zəngi çayı üzərində bir ulan (nizəli süvari əsgər – E. Q.) diviziyası və 100 kazak dəstəsi yerləşdiril-

mişdi. İki bölük yeger dəstəsi isə qərb tərəfdə qaladan çıxışı nəzarətə götürmüşdü. Bundan əlavə, rus qoşunu qalanın çöl qapısının qarşısında olan xəndəyi təmizləyərək içəridə olan qapıya yaxınlaşmışdı. Azərbaycan türkcəsində irəvanlıları təslim olmağa çağıran Belov buradaca şəxsən Həsən xanın açdığı tüfəng gülləsindən öldü (3, 23; 221, 32-33; 374, 513).

İrəvanlıların təslim olmayacaqlarını yəqin edən rus qoşunu qalanın bombardmanını daha da gücləndirdi. Bombardman nəticəsində qalanın qapısı sıradan çıxdı və rus qoşunu qalaya daxil ola bildi. İrəvan qalasının alınması ilə bağlı general-adyutant Paskeviçin oktyabrın 3-də general-adyutant Sipyaginə yazdığı məktubda həmin hadisəni belə təsvir edirdi: «Mühasirə işləri zamanı divarın altına qədər lağım atılmışdı, artilleriya isə son dərəcə gözəl müvəffəqiyyətlə dağıdıcı hərəkət edirdi. İrəvanı işğal etməkdən əvvəl axırıncı gecə düşmən qalanın tutulacağından qorxaraq güclü top atəşi açırdı. Lakin bizim artilleriyanın müvəffəqiyyətli atəşi qalanın divarını dağıdır, qarnizon xeyli itki verirdi. O biri günü şəhərdə qarışıqlıq başladı, səhər çağı divarın üstündə təslim olmaq üçün papaqla əl edən adamlar göründülər. Bunu görən bizim qoşun dağılmış divardan qalaya daxil oldu. Xilas olmaq yolunu görməyən qarnizonun bir hissəsi silahlarını ataraq aman istəyir, digər hissəsi isə müdafiə olunmaq istəyirdi. Lakin bir neçə dəqiqədən sonra darvaza dağıdılaraq qala müqavimətsiz ələ keçirildi» (18, 1).

Qalaya daxil olan rus qoşunu dərhal qırğına və talana başladı. Azğınlaşmış rus qoşunu hətta xanın hərəmlərinə belə aman vermədi. Hərəmxananın pəncərəsindən saraya daxil olan ruslar xanın hərəmlərini süngülərin ucunda bir neçə sajen hündürlükdən Zəngi çayının daşlı sahilinə ataraq öldürdülər. Bu qırğında onlara qoşulan ermənilər daha fəal idi. Ermənilər xan sarayına daxil olaraq burada olan qiymətli əşyaları çapıb talamışdılar (473, 37).

Lakin Paskeviçin səyi nəticəsində qarət dayandırıldı. Qalanın lazımi yerlərində keşikçi dəstələri yerləşdirildi. Üç min nəfərlik qala qarnizonu təslim oldu. Lakin xan sarayının yaxınlığında yerləşən

məsciddə 200 nəfərlə gizlənmiş Həsən xan müqavimət göstərmək qərarına gəlmişdi. Qraf Suxtelenin başçılığı ilə məscidi mühasirəyə almış bir dəstə onun qapısını sındırmağa müəffəq oldu. Məcburiyyət qarşısında qalan xan təslim olmağı qərara aldı. Həsən xanla bərabər digər 6 nəfər xan da əsir götürüldü. Bunlar qala rəisi, xanın kürəkəni Sübhanqulu xan, Abbas Mirzənin ən yaxşı qvardiyasının başçısı Qasım xan, mərəndli Cəfərqulu xan, Əlimərdan xan Təbrizli, Aslan xan və Fətəli xan idi. Rus qoşunu İrəvan qalasında 4 bayraq, 37 top, 2 qaubitsa, 9 mortir, 50-ə qədər falkonet, çoxlu top mərmisi, 14.000 çetvert buğda və beş aylıq digər ərzaq ehtiyatı ələ keçimiş, 3000 nəfərdən çox adamı əsir götürmüşdü (18, 2; 140, 564-567; 97, 231; 155, 33-34; 374, 514-517). İrəvanın mühasirəsi zamanı rus qoşunlarından cəmisi 1 zabit və 8 əsgər ölmüş, 2 zabit və 44 əsgər isə yaralanmışdı (221, 165-166; 153, 146).

İrəvan müdafiəsinin qəhrəmanı sərdar Hüseynqulu xanın qardaşı Həsən xan (1787-?) haqqında bir neçə kəlmə məlumat vermək istərdik. Qeyd etmək lazımdır ki, XIX yüzilliyin 20-ci illərin əvvəllərində Qacar-Osmanlı müharibəsində qəhrəmanlıq göstərdiyinə görə, o, şah tərəfindən "Sarı Aslan" adına və bir zamanlar Əmir Teymura məxsus olmuş qılınca layiq görülmüşdü. Qılıncın dəstəyi qiymətli daş-qaşla və yazılarla bəzədilmişdi (221, 62-63; 374, 515). Yuxarıda göstərildiyi kimi, Həsən xan qardaşı Hüseynqulu xanla birlikdə İrəvan xanlığının müdafiəsində böyük rol oynamışdı. Onun qəhrəmanlığı, İrəvanın müdafiəsində gördüyü işlər düşmənləri tərəfindən etiraf edilirdi. Həsən xan İrəvan qalasının süqutundan sonra təslim olsa da, rus komandanlığı onunla fəxri əsir kimi rəftar etmişdi. Əsir düşərkən cəmi qırx yaşı olan bu şəxsin rus zabitləri yanında böyük hörməti olmuş, onun hər istəyi general-leytenant Krasovski tərəfindən hörmətlə yerinə yetirilmişdi. Məsələn, mühasirə zamanı qaladan çıxmağa cəhd edən Həsən xan məşhur qılıncını itirmişdi. Onun xahişi ilə qılınc axtarılmış, nəhayət, bu silah əsir düşmüş bir Azərbaycan türkündən tapılmışdı. Həmin şəxs qılıncı qaytardığına görə xüsusi mükafata layiq

görülmüşdü. Bu qılınc Həsən xanın "xahişi" ilə çar I Nikolaya hədiyyə göndərildi (221, 62-63; 374, 515).

Həsən xanın qeri-adi igidliyi haqqında xəbərlər çar sarayına da çatdırılmışdı. Çar I Nikolay fəxri dustağı Sankt-Peteburqa gətirilməsini tələb etmişdi. Həsən xan bu xəbəri sakit qəbul etmişdi. O, ümid edirdi ki, öz dövlətinə sədaqətlə qulluq etdiyinə görə, çar tərəfindən qiymətləndirilərək bağışlanılacaqdır. Həsən xan general-leytenant Krasovskiyə demişdi: "Mən bilirdim ki, böyük rus imperatoru türklərin qorxaraq adını çəkdiyi layiqli qoca hərbiçini görmək istəyəcəkdir. Mən böyük hökmdarın qarşısında durmaqdan qorxmuram. O, genişürəklidir, öz padşahıma sədaqətlə qulluq etdiyimə görə məni bağışlayacaqdır" (374, 515-516). Lakin Həsən xana Rusiya paytaxtına getməyə qismət olmadı. Belə ki, Rusiya komandanlığı 1827-ci il oktyabrın 11-də əsir edilmiş digər xanlarla birlikdə Tiflisə aparılan Həsən xanı Sankt-Peterburqa göndərməyi qərara almışdı. Lakin siyasi vəziyyətin gərginliyi ilə əlaqədar olaraq xan yolda Terek çayı sahilində yerləşən Yekaterinoqrad şəhərində dustaq saxlanıldı (223, 170; 374, 516).

Türkmənçay sülh müqaviləsindən (1828-ci il, fevralın 10-u – E. Q.) sonra əsirlərin dəyişdirilməsi nəticəsində Həsən xan da sağ-salamat Qacar dövlətinə qayıtmışdı. A.Qriboyedov 1828-ci il avqustun 10-da A.Q.Çavçavadzeyə yazdığı məktubda bildirirdi ki, Həsən xan azadlığa buraxıldıqdan sonra İrəvanda olmuş, ona quluq edənləri ailəsi ilə birlikdə özü ilə götürmüşdü (160, 588).

Həsən xan Qacar dövlətinə qayıtdıqdan sonra da şah hökumətinin inanılmış sərkərdələrindən biri olmuşdu. Belə ki, 1828-ci il oktyabrın 23-də A.Qriboyedov qraf K.V.Nesselrodeyə yazdığı məktublarının birində göstərirdi ki, Xorasanda şah hökumətinə qarşı qaldırılmış qiyamı yatırmaq üçün keçmiş İrəvan sərdarı Hüseynqulu xan ora göndərilmişdi. Onun yanında qardaşı Həsən xan da olmuşdu (160, 619).

İrəvan qalasının süqutunun siyasi cəhətdən Rusiya üçün böyük əhəmiyyəti vardı. Paskeviç oktyabrın 3-də çara yazdığı məlumatda İrəvan qalasının bölgə üçün əhəmiyyətini belə qiymətlən-

dirmişdi: «İndi ləzgilər, dağıstanlılar və Qafqaz dağlarının bütün qiyamçılarının daimi sığındıqları, pulla, silahla və bütün məkrlikləri ilə İran siyasətinə kömək etdikləri bu şəhərin (qalanın – E. Q.) süqutuna dözməlidirlər. Onun şöhrəti Türkiyə və İranda hədsiz idi…» (140, 567). Möhtəşəm İrəvan qalasının işğalının Rusiya üçün əhəmiyyətini sübut edən hadisələrdən biri də çar I Nikolayın bu hadisə ilə bağlı Sankt-Peterburqda xüsusi təntənəli mərasim keçirməsi idi. Çar bu münasibətlə Qış sarayının kilsəsində ibadət etmiş, İrəvan qalasının açarları və qənimət götürülmüş 4 bayraq təntənəli surətdə xalqın alqışları altında paytaxt küçələrində gəzdirilmişdi (374, 518). Bu qələbə münasibətilə bir çox zabit çar tərəfindən medallarla təltif edilmişdi. Baş komandan general-adyutant Paskeviç oktyabrın 29-da 1 mln. rubl pul mükafatına, qraf titulu və 2-ci dərəcəli Müqəddəs Yenilməz Georgi xaçına layiq görülmüşdü (97, 231; 374, 519).

İrəvanın işğalı Rusiyanın bölgədə nüfuzunu daha da gücləndirdi. Noyabrın 23-də Paskeviç yazdığı məlumatda işğaldan sonrakı vəziyyəti belə təsvir edirdi: «iranlılara qarşı bizim silahımızın müvəffəqiyyəti türklərə böyük təsir göstərmişdi, İrəvanın alınmasını eşidən Ərzurum hakimi tez bir zamanda Konstantinopola (İstanbula – E. Q.) məlumat üçün çapar göndəribdi. Bundan sonra onlar bizimlə münasibətdə çox nəzakətlidirlər» (199, 206).

İrəvanın işğalından sonra rus qoşunu cənub istiqamətində yürüşə başlayaraq, Xoy, Mərənd, Səlmas, Marağa və digər yerlər də daxil olmaqla Təbrizə qədər əraziləri işğal etdi. Rus qoşununu paytaxta yürüş edəcəyindən qorxan Qacar hökuməti danışıqlara başlamağa məcbur oldu. Uzun danışıqlardan sonra 1828-ci il fevralın 10-da Təbriz yaxınlığında Türkmənçay kəndində Rusiya ilə Qacar dövləti arasında 16 maddədən ibarət müqavilə imzalandı. Bu müqavilənin üçüncü bəndinə əsasən, Azərbaycanın İrəvan və Naxçıvan xanlıqları Rusiyanın ixtiyarına keçdi (504, 252; 155, 44-45; 24, 277-283).

Beləliklə, Azərbaycanın ən uzunömürlü xanlıqlarından biri olan İrəvan xanlığı Rusiya imperiyası tərəfindən işğal olundu.

Rusiya bu xanlığı işğal etmək üçün 23 ildən çox çalışıb vuruşmalı olmuşdu. Azərbaycanın ayrı-ayrı kiçik feodal qrumlarına parçalanması, onların bir-birinə qarşı olan torpaq iddiaları, baş verən ara müharibələri, xarici müdaxilələr xanlıqların, o cümlədən, İrəvan xanlığının zəifləməsinə gətirib çıxarmışdı. İrəvan xanlığı uzun müddət müstəqilliyini xarici müdaxilədən qoruyub saxlaya bilmişdi. Lakin hərbi cəhətdən daha güclü olan və dövrün müasir silahlarına malik Rusiya çətinliklə də olsa bu xanlığı işğal edə bildi. İrəvan xanlığı ləğv olundu, onun və qonşu sabiq Naxçıvan xanlığının ərazisində Rusiya imperiyasının tərkibinə daxil olan «Erməni vilayəti» yaradıldı. Nəticədə, Osmanlı imperiyası və Qacar dövləti ilə sərhəddə bufer zona yaradan Rusiya Azərbaycanın bu qədim ərazisini «xristianlaşdırmağa»-erməniləşdirməyə başladı. Beləliklə, ermənilər çoxdan arzu etdikləri məqsədə-Rusiyanın köməyi ilə Azərbaycan ərazisində dövlət yaratmaq istəyinin birinci mərhələsinə nail oldular.

## 4.3. Hüseynqulu xanın şəxsiyyət və fəaliyyəti haqqında

Hüseynqulu xan (1806-1827) 21 il İrəvan xanlığını idarə etmişdi. Hakimiyyəti dövründə o, yorulmadan və inadla İrəvanı zəif xanlıqdan siyasi və iqtisadi cəhətdən güclü bir dövlətə çevirmişdi. D.Bornotyanın yazdığına görə, Hüseynqulu xan Qəzvini 1740-cı ildə anadan olmuşdu. O, vaxtilə İrəvanda hakimiyyətdə olmuş Məhəmməd xan Qacarın oğlu idi. Onun harada anadan olması haqqında məlumat olmasa da, coyadındakı Qəzvini onun Qəzvin şəhərindən olmasına dəlalət edir (505, 165; 151, 61). (Qeyd etmək lazımdır ki, heç bir sitata söykənməyən müəllifin xanın anadan olması ilə bağlı gətirdiyi bu rəqəm də inandırıcı görünmür. Onun məlumatına görə, Hüseynqulu xan İrəvanda hakimiyyətə gələrkən 67 yaşında olmuşdu. Lakin İrəvan istiqamətində, Arazdan şimalda rus qoşunlarına qarşı vuruşan qoşunların baş komandanı olan və ona

görə də sərdar adı alan bu şəxs hərbi döyüşlərdə fəal iştirak etmiş, şəxsən vuruşmuşdu. Yaslı adamın döyüşlərdə fəal iştirakı inandırıcı görünmür – E. Q.).

Hüseynqulu xanın gəncliyi haqqında heç bir dəqiq məlumat yoxdur. Lakin o, Fətəli şah Qacarın yaxın adamı olmuş və onun hakimiyyətə gəlməcində böyük rol oynamışdı. Ağa Məhəmməd şah Qacarın sui-qəsdində iştirak etmiş əsas simalardan biri Sadıq xan Şəqaqiyə qarı mübarizədə Fətəli şahın yanında olan Hüseynqulu xan, onun (sabiq xan Şəqaqinin – E. Q.) məğlubiyyətində fəal iştirak etmişdi. Bu fəaliyyətinə görə, sahın yanında böyük hörməti olmuş və hətta sah onun bacısı ilə evlənmisdi (505, 17; 151, 62).

Hüseynqulu xanın sonrakı fəaliyyəti Xorasanla bağlı olmuşdu. D.Bornatyanın yazdığına görə, o, 1800-1802-ci illərdə Qəzvini idarə etmiş, habelə Tehrana gedən ticarət yolunu qorumuşdu (505, 17; 151, 62). Lakin həmin illərdə Hüseyinqulu xan Xorasanda qulluq etmişdi. Belə ki, Xorasan uzun illər Qacar xənadanına qarşı mübarizənin mərkəzi olduğundan, Fətəli şah hakimiyyətə gələn kimi, nizam-intizam yaratmaq üçün Hüseynqulu xanı burada qoşun başçısı təyin etmişdi. Xan rus komandanlığına yazdığı məktub-larında Xorasanda 10 ilə qədər sərhəd qoşunlarının başçısı kimi xidmət etdiyini bildirmişdi (358, 548; 499, 167).

1804-1813 və 1826-1828-ci illərdə Rusiya və Qacar dövlətləri arasında baş verən müharibələrin Hüseynqulu xanin bacarıqlı sərkərdə və dövlət xadimi kimi keyfiyyətlərinin üzə çıxmasında əhəmiyyətli rolu olmuşdu. İrəvan hökmdarı olduqdan sonra bu gör-kəmli şəxsiyyət rus mənbələrinin dairəsinə düşmüş, bu qaynaqlarda onun şəxsiyyəti haqqında maraqlı məlumatlar öz əksini tapmışdı. 1816-1817-ci illər A.P.Yermolovun başçılığı ilə Tehrana göndərilən rus nümayəndə heyətinin tərkibində katib olan A.Y.Sokolov yazırdı ki, "İrəvan xanlığının hökmdarı Hüseynqulu xan lovğalığı və kobudluğu ilə tanınmışdı (hətta oxumağı və yazmağı bacarmırdı). O, Qacar tayfasından olan şahla qohum idi. Rusiya və Türkiyə ilə həmsərhəd olan böyük ərazini idarə etdiyindən təkəbbürlüyünün ölçüsü yox idi. Vəzifəcə şahdan aşağı heç kimin qarşısında ayağa

durmurdu, ancaq salam verməklə, yaxud baş əyməklə kifayətlənirdi” (484, 37; 159, 42). Lakin rus mənbələri xanı savadsız adlandırsalar da, onun dövlət xadimi kimi bacarığını etiraf etmişdilər. Hüseynqulu xan savadsız olmasına baxmayaraq, ağıllı, idarəçilik bacarığı olan, hiyləgər, işgüzar bir şəxs olmuşdu (499, 450; 220, 448). Bu keyfiyyətlərinə görə, o, nəinki şahın rəğbətini qazanmış, eyni zamanda İrəvan xanlığına hakim təyin olunmuşdu. İ.Şopen yazır ki, “nəhayət şah sarayı İrəvana sərhəd qoşun başçılarlndan biri Hüseynqulu xan Qacarı ildə 600 tümən, eyni zamanda xərcləri üçün xanlığın vergisindən 6000 tümən məvacib verərək onu sərdar təyin etdi. Hüseynqulu xan özünün bacarığı və cəsurluğu ilə aşağı rütbədən bu vəzifəyə yüksəlmişdi. Oxuya və yaza bilməyən bu şəxs şahın ona olan inamını qazana bilmiş və az bir vaxtda ona həvalə edilmiş vilayəti (xanlığı – E. Q.) çiçəkləndirmişdi” (499, 167).

Hüseynqulu xan Fətəli şah tərəfindən bu vəzifəyə təyin olunmasına baxmayaraq, özünün bacarıqlı siyasəti ilə xanlığın faktiki müstəqilliyinə nail ola bilmişdi. Digər tərəfdən, Hüseynqulu xanın müstəqil siyasət yeritməsində İrəvan xanlığının geosiyasi əhəmiyyəti də böyük rol oynamışdı. Şah hökuməti İrəvana Qacar dövlətini Rusiyadan ayıran həmsərhəd əyalət kimi baxdığına və müharibə olacağı təqdirdə ilk hücumun qarşısını almağı özünə borclu bildiyinə görə, Hüseynqulu xana tamamilə inanırdı və onun heç bir işinə qarışmırdı (499, 449).

İrəvan xanı dövlət idarəçiliyində mütləq hakim idi. Bütün feodal dövlətlərində olduğu kimi, müstəqil qanun-qərarlar verirdi və bütün hakimiyyət onun iradəsindən asılı idi. Hüseynqulu xan istər dünyəvi, istərsə də dini hakimiyyətə nəzarət edir və bütün hakimləri özü təyin edirdi. “Sərdar Hüseynqulu xan (indi şahlıq edən Qacarlar nəslindəndir) bu xanlıqda birinci, (Qacar dövlətində – E. Q.) isə üçüncü adamdır. Onun hakimiyyəti türk paşasının hakimiyyətindən daha möhkəmdi. O, çoxdan hakimiyyətdədir. Hər il bir neçə min çervon təşkil edən dövlət gəlirindən deyil, müxtəlif miqdarda hədiyyə formasında (şah xəzinəsinə – E. Q.) bayramlıq verirdi.

Torpağın yetişdirdiyi hər şeyin 1/3-ni, zarafat etsə hər üçünü almaq ixtiyarına malik idi... Nəinki daxili, eyni zamanda xarici ticarət də onun əlində idi... Məhkəmə işində əgər iddiyaçı və cavabdehin şikayəti peyğənbərin hədisləri ilə əlaqələndirilmirdisə onun şifahi əmrləri qanun idi" (155, 42). O, siyasətində imtiyazlı təbəqənin mənafeyini qorusa da, xanlığın vəziyyətini nəzərə alaraq, onlarla aşağı təbəqənin arasında tarazlıq yarada bilmişdi. Sərdar hesabat vermədən vergi toplayır, pul kəsir, öz qərarı ilə cinayətkarları müxtəlif cəza ilə cəzalandırır, bir sözlə mütləq hakim kimi hərəkət edirdi (499, 449).

Hakimiyyətdə olduğu müddətdə İrəvan xanlığı tez-tez hərbi müdaxiləyə məruz qaldığından Hüseynqulu xan xanlığın müdafiə sistemini gücləndirmək üçün daimi güclü qoşun saxlayırdı. Bunun üçün çoxlu xərc tələb olunurdu. Bu xərcin bir hissəsi daxili imkanlar hesabına ödənilsə də, hərbi əməliyyatlar zamanı xərcin digər hissəsini şah sarayından alırdı. Bu məqama toxunan A.S.Qriboyedov yazırdı ki, "o, öz hesabina qoşun saxlayır, lakin müharibə dövründə sah sarayından pul tələb edirdi" (159, 403). Eyni fikiri İ.Şopen də təsdiq edərək yazırdı: "şah sarayı nəinki sərdardan vergi tələb etmirdi, sərhəd qoşunlarını, artilleriyanı, qalanı, azuqə və hərbi sursat saxlamaq üçün ona tez-tez pul buraxırdı" (499, 449).

Müharibə dövründə Hüseynqulu xan sərkərdəlik qabiliyyətinə görə xüsusilə fərqlənirdi. O, İrəvan istiqamətində rus qoşunlarına qarşı vuruşan silahlı qüvvələrin baş komandanı olduğundan mənbələrdə daha çox sərdar kimi adlandırılırdı. İrəvan sərdarı fəaliyyətinə möhtəşəm İrəvan qalasının möhkəmləndirilməsindən başlamışdı. Fransız və ingilis mühəndislərinin köməyi ilə qala Avropa qaydası ilə daha da gücləndirilmişdi. Bu işdə rus qoşunundan fərarilik etmiş zabitlər də iştirak etmişdilər (358, 548-549). 1808-ci ildə qraf Qudoviçin başçılığı ilə rus qoşunlarının bu qalaya hücumu biabırçı məğlubiyyətlə qurtarmışdı. Hüseynqulu xan və sonradan ona qoşulmuş qardaşı, "Sarı Aslan" ləqəbini qazanmış

Həsən xan rus qosunlarının bir sıra məğlubiyyətlərində böyük rol oynamışdı.

Hüseynqulu xanın uzaqgörənliyi və tədbirliyi uzun müddət İrəvan xanlığını rus qoşunlarının işğalından qoruya bilmişdi. Onun hərbi əməliyyatlar zamanı “yandırılmış torpaq” taktikasından istifadə etməsi, ayrı-ayrı çevik hərbi dəstələr təşkil etməsi, bu dəstələrin müxtəlif istiqamətlərdən qəflətən döyüsə atılması və meydanı tərk etməsi rus qoşununda həmişə qarşıqlığa səbəb olmuşdu. Hüseynqulu xanın İrəvan xanlığının hərbi xarakterli müdafiəsində gördüyü tədbirlərin ən əsaslarından biri də Sərdarabad qalasını tikdirməsi olmusdu. Hərbi məqsədlər üçün salınmış bu qalanın tikintisi 1810-cu ildə başlamış 1815-ci ildə tam başa çatmışdı (499, 255).

İrəvan xanlığının müdafiə tədbirlərinin həyata keçirilməsində Hüseynqulu xanın fəaliyyətinin həddi-hüdudu yox idi. O, nəinki müharibə, eyni zamanda dinclik dövründə də İrəvan sərhədlərinin təhlükəsizliyi üçün mühüm tədbirlər görmüşdü. İrəvan hakimi bu məqsədlə ayrı-ayrı tayfaları sərhədə yaxın ərazilərə köçürərək, burada hərbi məskənlər yaratmışdı (499, 449-450; 220, 52). Bu tədbirləri ilə Hüseynqulu xan sərhəd xəttində hərbi məskənlər yaratmış və bu məskənlərin də rus qoşununa qarşı mübarizədə böyük köməyi olmusdu.

Gülüstan müqaviləsindən sonra mübahisəli ərazilər məsələsində də Hüseynqulu xan prinsipiallığı və barışmaz mövqeyi ilə fərqlənmişdi. Bu görkəmli şəxsiyyətin İrəvana məxsus olan Göyçə gölünün şimal-şərq hissəsindəki torpaqların Rusiyanın qeyri-qanuni isğal altında saxlamasına qarşı ardıcıl mübarizəsi də onun necə bir vətənpərvər şəxs, sadiq dövlət xadimi olmasını bir daha sübut edir. Hər iki dövlət arasında sərhəd xəttinin müəyyən olunması üçün yaradılan komissiyanın əsas simalarından biri olan Hüseynqulu xan İrəvan torpaqlarının bir qarışını da güzəştə getmək fikirində olmamısdı. Bunu 1825-ci il martın 28-də rus nümayəndəsi general-leytenant Velyaminovla Qacar nümayəndəsi Fətəli xan arasında sərhəd məsələlərinə dair bağladıqları akta (221, 53-56) olan

münasibətdə aydın görmək olar. İrəvan hökmdarı bu akta qarşı çıxmıs və rus komandanlığına məktub göndərərək bu ərazilərin İrəvan torpaqları olduğunu kəskin şəkildə bildirmişdi (499, 891).

Ümumiyyətlə, Hüseynqulu xan rus komandanlığına yazdığı məktublarında İrəvan xanlığının işğal olunmuş torpaqlarını həmişə tələb etmiş və bu əraziləri güzəştə getməyəcəyini bildirmişdi. Xan nəinki məktublar göndərmiş və hətta bu əraziləri rus qoşunlarından təmizləmək üçün müəyyən əməli tədbirlərə də əl atmışdı.

Hüseynqulu xan, demək olar ki, hakimiyyəti dövründə Rusiyaya qarşı barışmaz mövqe tutmuşdu. Xan şah sarayında fəaliyyət göstərən məclislərdə də kəsərli səsə malik idi. O, qardaşı Həsən xanla birlikdə həmişə işğalçılarla sülh müqaviləsinin bağlanmasının əleyhinə çıxmış, ruslara qarşı ardıcıl mübarizənin tərəfdarı olmuşdu (160, 561).

Hüseynqulu xanın İrəvan xanlığının iqtisadiyyatının inkişafında da böyük xidmətləri olmuşdu. Rusiyanin Qacar dövləti ilə müharibələri dövründə hərbi əməliyyatların qızışdığı bir ərazi olduğundan İrəvan xanlığının təsərrüfat həyatı güclü dağıntılara məruz qalmışdı. Döyüşlər nəticəsində kəndlər viran edilmiş, əhalinin bir hissəsinin başqa yerlərə qaçdığından, digər hissəsinin isə döyüşlərə cəlb edildiyindən əkin sahələri boş qalmışdı. Lakin dinclik dövründə Hüseynqulu xanın gördüyü tədbirlər xanlığın iqtisadi həyatının dirçəlməsinə səbəb olmuşdu. O, kənd təsərrüfatının inkişafı üçün boş yerlərə əhali köçürmüs, bağlar və meşələr saldırmış, süni suvarma arxları çəkdirmişdi. Bundan əlavə, xan torpağı müstəqil əmək qabiliyyətinə malik olmayan yerli əhalini, kəndləri dağıdılmış qaçqın və köçkünləri, tüfeyli adamları əkinçiliyə cəlb edərək, onlara torpaq sahəsi paylamış, bu adamları iş heyvanları, əmək aləti və toxumla təchiz etmişdi (499, 450).

Hüseynqulu xan kənd təsərrüfatının əsas sahələrindən olan meyvəçiliyin inkişafına da diqqət yetirmişdi. Meyvə bağlarının inkişafına xüsusi fikir verən İrəvan hökmdarı bağ sahələrinin artırılmasına çalışmış və bu sahələri müxtəlif ölkələrdən-İrandan və

Hindistandan gətirilmiş meyvə ağacları ilə daha da zənginləşdirmişdi (499, 950).

Hüseynqulu xanın hakimiyyəti dövründə vergilər də ədalətlə toplanırdı. O, ilk növbədə torpağın əkilməsinə böyük diqqət yetirərək, vergini əkin sahəsinə, əkinçinin kotanının sayına görə deyil, əldə edilmiş məhsulun keyfiyyətinə və vergi verənin vəziyyətinə uyğun tələb edirdi (461, 501). Hüseynqulu xanın maliyyə vəziri olmuş İsmayıl xanın rus hakimiyyət orqanlarına təqdim etdiyi və İ.Şopenin əsərində öz əksini tapan İrəvan xanlığının iqtisadiyyatı və vergi ilə bağlı məlumatları nəzərdən keçirdikdə, bu şəxsiyyətin çətin dövrdə mükəmməl iqtisadi sistemin yaratdığının şahidi oluruq (499, 967-1230).

İrəvan şəhərinin ticarət və sənətkarlıq mərkəzi kimi məşhurlaşmasında da onun rolu əvəzedilməzdi. Məhz onun hakimiyyəti dövründə İrəvan şəhəri əsl beynəlxalq ticarət mərkəzinə şevrilmişdi. Bu şəhər müxtəlif xarici dövlətlərdən və habelə Azərbaycan xanlıqlarından gələn ticarət adamları ilə dolu olurdu. Şəhər anbarlarında çoxsaylı və müxtəlif çeşidli mallar toplanırdı (499, 872-873, 883-884).

Hüseynqulu xanın İrəvan şəhəri üçün gördüyü işlərdən biri də şəhəri su kəməri ilə təchiz etməsi idi. Bir məlumatda qeyd edilirdi ki, "keçmiş İrəvan xanlığının bütün ən vacib suvarma qurğuları sonuncu sərdar Hüseynqulu xanın dövründə tikilmisdi. Savadsızlığına baxmayaraq, onu görkəmli hakimlər sırasına qoymaq olar. İrəvan özünün su kəməri qurğularına görə ona borcludur" (217, 457). Memarlıq baxımından İrəvan şəhərinin məşhurlaşmasında da onun böyük xidmətləri vardı. Digər tərəfdən, Zəngi çayının sağ sahilində Hüseynqulu xan tərəfindən salınmış gözəl istirahət yeri, müasir dillə desək, geniş park olan "Sərdar bağı" səhərə xüsusi gözəllik vermiş və lar ötən əsrədək İrəvanın səfalı və gözəl guşələrindən biri olmuşdur (217, 444-445).

Beləliklə, Hüseynqulu xan idarəetmə bacarığı ilə İrəvan xanlığının ümumi durumunu kifayət qədər yüksək səviyyəyə qaldırmış və onu çiçəkləndirmişdi. Bu keyfiyyətinə görə Hüseynqulu xan

uzun illər xalqın dilindən düşməmişdi. Onun şəxsiyyət və fəaliyyətinə ən dəyərli qiyməti müxtəlif illərdə İrəvan şəhərində olmuş alman səyyahı A.Qaksthauzen və gürcü əsilli Rusiya zabiti, knyaz Amilaxvari vermişdilər. 1843-cü ildə İrəvana gəlmiş A.Qaksthauzen öz gündəliyində Hüseynqulu xanı ləyaqətli, ədalətli, mərdliyi ilə seçilən xan adlandırmış, əhalinin rifahını düşünən, xalqın maariflənməsinə çalışan bir şəxs kimi ona yüksək qiymət vermişdi. O, yazırdı: "Ümumiyyətlə, adətən İrəvan xanları qəddar olublar. Lakin axırıncı xan (Hüseynqulu xan – E.Q.) özündə yüksək əxlaqi keyfiyyətləri birləşdirən..., ədalətli, güzəştə gedən mərd kişi olub. O, indi də bütün azərbaycanlıların və ermənilərin dilində və yaddaşında yaşayır. O, hədsiz güc sərf edirdi ki, təhsili genişləndirsin və dövlətin rifahını yüksəltsin. Dağıdılmış və məhv edilmiş köhnə arxların yerində müqayisəyəgəlməz təmtaraqlı halda yenisini çəkdirirdi, onun köməyi ilə İrəvan şəhəri yaxınlığında yerləşən çoxsaylı bağlar su ilə təmin edilərək daha da gözəlləşmişdi. Bu bağlar sonradan əhaliyə paylanılmışdı. Bundan əlavə, onun Avropa iqtisadiyyatına böyük marağı vardı, əhalinin sayını çoxaltmaqla dövlətin rifahının yüksəldiləcəyini güman edirdi və buna çatmaq üçün qeyri-adi vasitələrə əl atırdı" (148, 232). Daha sonra bu müəllif öz gündəliyində Hüseynqulu xanın əxlaqi keyfiyyətlərinə qadınlara olan münasibətinə görə də qiymət vermişdi. Səyyah yazırdı ki, "əvvəlki İrəvan xanları və yüksək rütbəli şəxslər yerli gözəl qız və qadınları görəndə o saat onları zorla ələ keçirərək öz hərəmxanalarına qatırdılar. O, (Hüseynqulu xan – E. Q.) belələrindən ibrət götürmürdü. Başqaları belə hərəkət edəndə dözmürdü, qorxudaraq... kəbin kəsməyə məcbur edirdi" (148, 232).

Onun qadınlara hörmət etməsi haqqında məlumatlar bununla bitmirdi. Başqa bir məlumata görə, Hüseynqulu xan yerli nişanlı qızlardan birini öz hərəmxanasına daxil etmişdi. Lakin onun nişanlı olmasından xəbəri olmamışdı. Bir gün oğlan nişanlısını görmək üçün xan sarayının yerləşdiyi Zəngi çayının kənarına gəlir. Bunu görən qız özünü pəncərədən çaya atır. Lakin söyüd ağacı onu ölümdən qurtarır. Qızın bu sədaqəti Hüseynqulu xana bərk təsir

edir. O, alicənablıqla “bir-birinə bu qədər ayrılmaz tellərlə bağlı ürəkləri heç kim ayıra bilməz” deyərək qızı azad etmişdi (241, 283-284).

İşğaldan 50 il conra-1876-cı ildə İrəvanda olan Rusiya zabiti knyaz Amilaxvari isə Hüseynqulu xanın şəxsi keyfiyyətindən əlavə, onun idarəçilik məharətini xanlığın işğalından sonra Rusiyanın burada tətbiq etdiyi idarə üsulu ilə tutuşdurmuş və çox qəribə görünsə də, üstünlüyü birinciyə vermişdi. O, yazırdı: “Məsələn, onlar (rus məmurları – E.Q.) qəbul etmək istəmirdilər ki, bu möhtəşəm sarayın və bağın axırıncı sahibi İrəvan hakimlərindən olan Hüseynqulu xan ağıllı, istedadlı və məşhur olmuşdu. Onun müdrik rəhbərliyi altında qeyri-adi inkişaf nəticəsində firavan həyatlarına borclu olduğuna görə, onun haqqında xatirələr bu illər ərzində xalqın hafizəsində yaşayır. Bizim indiki məmurlar Hüseynqulu xanın idarəçilik fəaliyyətindən heç nə öyrənmək istəmirlər və bütün keçmişi laqeyd surətdə vəhşilik dövrü adlandırırlar. (Rusiya idarə orqanları – E. Q.) İran (İrəvan xanının – E. Q.) idarəçilik sisteminə nifrət etməyi öyrədir, 50 il keçməsinə baxmayaraq bu sistemlə tanış olmamış, həmçinin xalqın ehtiyacı üçün öz xüsusi proqramlarını yaratmamışlar” (223, 448). Düşünürük ki, Hüseynqulu xanın şəxsiyyətinə və fəaliyyətinə ən dəyərli qiyməti məhz bu müəlliflər vermişdilər.

İrəvan xanlığı işğal olunduqdan sonra Qacar şah sarayına getmiş Hüseynqulu xanın sonrakı taleyi indiyədək naməlum müəmmalı qalır. İ.Şopen bu böyük şəxsiyyətin 1834-cü ildə İranda yoxsulluq içərisində vəfat etdiyini qeyd edir (499, 170). Lakin A.Qriboyedovun 1828-ci il sentyabrın 23-də qraf Paskeviçə yazdığı məktubu bunun heç də belə olmadığını qeyd etməyə əsas verir. “Ağıldan bəla” müəllifinin bu məktubunun məzmunundan görünür ki, həmin ildə Xorasanda hakimlik edən şahın oğlu Həsənəli Mirzəyə qarşı Rzaqulu xanın başçılığı ilə üsyan baş vermişdi. Bu üsyanın qarşısını almaq üşün keçmiş İrəvan hakimi Hüseynqulu xan Xorasana hakım təyin olunmuşdu. Məktubda göstərilirdi ki, “İrəvanın keçmiş sərdarı Xorasanın hakimi təyin olunub, bu zərərli

adamın bizim sərhəddən uzaqlaşmasına yetərincə sevinməmək mümkün deyil. Ümumiyyətlə, yazırlar ki, üsyan şahın oğlu Həsənəli Mirzənin zülmünə qarşı olmuşdu. Ümid edirlər ki, sərdarın gəlməsilə tezliklə sakitlik bərqərar olunacaqdır" (160, 609; 224, 88). Məktubdan görünür ki, İrəvandan getdikdən sonra da Hüseynqulu xan yüksək vəzifələrdə işləmişdi. Digər tərəfdən, onu da qeyd etmək yerinə düşərdi ki, İrəvandan əlavə, Qəzvin şəhəri ətrafında da Hüseynqulu xana məxsus kəndlər olmuşdu (159, 50). Bu faktlara görə, onun yoxsulluq içərisində vəfat etməsi fikri ilə razılaşmaq qeyri-mümkündür.

Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, sonuncu İrəvan hakimi olan Hüseynqulu xan bacarıqlı və tədbirli sərkərdə olmaqla yanaşı, uzaqgörən görkəmli dövlət xadimi olmuşdu. O, çox mürəkkəb və müharibələrlə zəngin bir dövrdə hakimiyyətə gəlməsinə baxmayaraq, bütün fəaliyyəti boyu İrəvan xanlığının müstəqilliyinə və onun çiçəklənməsinə çalışmışdı.

## 4.4. 1827-1850-ci ilin ortalarında Rusiyanın İrəvan bölgəsində həyata keçirdiyi müstəmləkəçilik siyasəti və kəndli hərəkatları

Rusiya Azərbaycanın şimal hissəsini, o cümlədən İrəvan xanlığını işğal etməklə özünün Güney Qafqazdakı müstəmləkəçilik siyasətinin daha bir mərhələsini başa çatdırdı. İşğaldan sonra bu siyasətin növbəti mərhələsinin həyata keçirilməsinə başlanıldı. İşğal olunmuş Azərbaycan torpaqlarını mərkəzi idarəçilik sisteminə bağlamaq istəyən çar hökuməti ilk dövrlərdən iqtisadi, inzibati və məhkəmə islahatları keçirməyə çalışırdı. Çar nümayəndələri açıq-açığına bildirirdilər ki, Azərbaycan, o cümlədən İrəvan bölgəsi özünün bol məhsulları ilə Rusiya sənayesi üçün xammal bazası rolunu oynamalıdır (257, 12, 88-89). Lakin keçirilən islahatlar yerli şəraitə uyğun gəlmir, çox vaxt əsrlər boyu kök salmış adət-ənənələr

nəzərə alınmırdı. Bu baxımdan verilən qanunlar yerlərdə narazılıqlar yaratdığına görə, onlar çox tez-tez yeniləri ilə əvəz olunurdu.

İşğaldan sonra Azərbaycanda həyata keçirilmiş yeniliklər bütün bölgələrdə eyni idi. Lakin çarizmin İrəvanda həyata keçirdiyi dəyişikliklər bir qədər özgə özəlliklərlə fərqlənirdi. Belə ki, Rusiya İrəvanı işğal etdiyi ilk günlərdən burada Qacar və Osmanlı dövlətləri arasında bufer zona yaratmaq, onun əhalisinin etnik tərkibini dəyişmək siyasəti yürütməyə başladı. Demoqrafik duruma təsir edən bu siyasət hər vasitə ilə yerli Azərbaycan türklərini sıxışdırmaq məqsədi güdürdü. Çarizmin köçürmə siyasəti haqqında aşağıda ətraflı danışılacağına görə biz burada onun ancaq bölgə üçün törətdiyi mənfi nəticələrindən bəhs edəcəyik. N.N.Şavrov etiraf edirdi ki, "biz müstəmləkəçilik fəaliyyətinə Zaqafqaziyada (Cənubi Qafqaz – E. Q.) rus əhalisinin deyil, bizə yad olan xalqların (ermənilərin – E. Q.) yerləşdirilməsindən başladıq..." (495, 63-64). Köçürülən ermənilər və digər xalqlar Azərbaycan türklərinin yaşadığı ərazilərdə məskunlaşdırılırdı. Ermənilərin köçürülməsinin fəal təşkilatçılarından olan A.S.Qriboyedov yazırdı ki, "ermənilərin əksəriyyəti müsəlman mülkədarlarının torpaqlarında yerləşdirilirdi. Yayda buna yol vermək mümkün idi. Çünki müsəlman sahiblərinin böyük hissəsi yaylaqda olurdu və onların yad gəlmələr haqqında xəbərləri olmurdu. Köçkünlərin özləri ağır vəziyyətdə idilər və müsəlmanları sıxışdırırdılar" (159, 132). Haqsız sıxışdırılan yerli Azərbaycan türkləri narazılıqlarını bildirir, çar hakimiyyət orqanlarına şikayət edirdilər. Onları sakitləşdirmək üçün çar icra orqanları xeyli çalışmalı olmuşdu. Bu məsələdən danışan A.S.Qriboyedov yazırdı ki, "ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından hiddətlənmiş müsəlmanlar (Azərbaycan türkləri – E. Q.) içərisində yaranan təşvişi aradan qaldırmaq və düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini dəfələrlə götür-qoy etmişdik" (159, 134).

Çar hakimiyyət orqanları ermənilərə həddindən çox sərbəstlik vermişdi. Onların Azərbaycan türklərinə qarşı törətdikləri haqsız hərəkətlərinə ilk gündən göz yumulurdu. 1827-ci il oktyabrın 6-da

İrəvanda ruslar tərəfindən yaradılmış Müvəqqəti İdarənin tərkibinə daxil edilmiş ermənilər bu baxımdan xüsusi ilə fərqlənirdilər. Azərbaycanlı türklərin qatı düşməni olan arxiyepiskop Nerses səlahiyyətindən sui-istifadə edərək hər bir hərəkətində türkləri sıxışdırırdı. Baş komandan Paskeviç belə etiraf edirdi ki, yalnız ermənilər bizim hakimiyyət orqanlarının himayəsində idi və onlara maddi yardım olunurdu. Bölgə əhalinin 2/3 hissəsindən çoxunu təşkil edən Azərbaycan türkləri isə hakimiyyət orqanlarından saymazlıq görür, onların maddi kömək istəyi rədd edilirdi. Bundan cana doymuş Azərbaycan türkləri baş komandana şikayət edirdilər. Onlar arxiyepiskop Nersesin özbaşnalığından bezərək Qacar dövlətinin nəzarətində olan ərazilərə köçmək istədiklərini açıq-açığına bildirirdilər (284, 259). Narazılıq o həddə çatmışdı ki, yerli Azərbaycan türkləri təəssüflə və qorxmadan əvvəlki hakimiyyəti arzu edirdilər (281, 488). Hələ müharibənin davam etdiyi bir dövrdə yerlərdə silahlı çıxışlardan ehtiyat edən baş komandan arxiyepiskop Nersesi bölgədən uzaqlaşdırmağa, Azərbaycan türklərinin narazılığı ilə hesablaşmağa məcbur oldu.

Çar hakimiyyət orqanlarının ermənilərlə Azərbaycan türkləri arasında açıqdan-açığa fərq qoyması müəyyən məsələlərdə xüsusilə özünü büruzə verirdi. Məsələn, 1827-ci il dekabrın 15-də İrəvan bölgəsinin idarəsi haqqında qəbul olunmuş layihənin 6-cı maddəsinə görə müharibə dövründə yerlərini tərk etmiş erməni və Azərbaycan türklərinin geri qayıtmasına icazə verilməsi nəzərdə tutulurdu. Ancaq ermənilərin geri qayıtması üçün 5 il, Azərbaycan türklərinə isə cəmi 2 il vaxt verilirdi (280, 483). Layihədən də görünür ki, çar hökuməti açıqdan-açığa İrəvan bölgəsini xristianlaşdırmaq siyasəti yeridir, yerli Azərbaycan türklərinin geri qayıtmasını bir o qədər də istəmirdi.

İşğaldan sonra yaradılmış komendant üsul-idarəsi, çarizmin reallaşdırdığı qayda-qanunlar yerli şəraitə uyğun gəlmirdi. 1830-40-cı illərdə verilmiş Rusiya qanunları Azərbaycanın iqtisadi həyatına uyğun gəlmirdi. Bundan əlavə, bu qanun-qaydalar bölgələrdə bir

növ sınaq kimi tətbiq edilir, özünü doğrultmadıqda tələm-tələsik yenisi ilə əvəz olunurdu.

Azərbaycanın digər bölgələrində olduğu kimi İrəvanda da bütün hakimiyyət rus hərbçiləri tərəfindən idarə olunurdu. Komendantlar ölüm hökmü çıxarmaq hüququndan başqa, xanlara məxsus bütün hüquqlardan istifadə edirdilər. Komendant əyalət məhkəməsinə sədrlik edir, qaziləri, mahal naiblərini və əyalətin digər inzibati vəzifəlilərini təyin edirdi. O, hətta xan tərəfindən ayrı-ayrı bəylərə verilmiş mülkləri, rəiyyətlər haqqında fərmanları təsdiq edir və özü ayrı-ayrı bəylərə torpaq sahələri və rəncbərlər paylayır, çarizmin iqtisadi siyasətini həyata keçirir, yerlərdə vəziyyətə tam nəzarət edirdi (233, 9).

Komendant idarə-üsulu keçmiş xanlıq ərazisində cüzi dəyişiklik etsə də, əslində köhnə quruluş qalmaqda davam edirdi. Mahallarda yerli bəylərdən ibarət mahal naibləri öz səlahiyyətlərini saxlayır və onlara nəzarət etmək üçün rus nümayəndələri təhkim edilirdilər (462, 497-502; 233, 262). Tezliklə bu rejim özünü doğrultmadı. Rus hərbçilərinin vəzifəsindən sui-istifadə etməsi, özbaşnalıqlar, yeni yaradılmış hakimiyyət orqanlarında ancaq rus dilindən istifadə edilməsi xalq arasında narazılıq törədirdi. Şəhər məhkəmələri öz səlahiyyətlərini yerinə yetirə bilmirdi. Məhkəmələrdə iclaslar rus dilində aparıldığından yerli əhalinin hüquqları kobud şəkildə pozulurdu. Yerli əhali bir qayda olaraq nəinki rus dilini bilmir, hətta məhkəmə qaydalarından tam bixəbər olurdular (462, 497-498).

Komendantların özbaşnalıqlarını, səlahiyyətlərindən sui-istifadə etdiklərini görən mahal naibləri də xalqı soyub talayırdılar. Mahallarda oğurluq, ölüm halları baş alıb gedirdi. Özbaşnalıq o dərəcəyə çatmışdı ki, yerli hakimlər xalq arasında inamlarını itirmişdilər. Əhali onlardan tez-tez şikayət edirdi (462, 499).

XIX yüzilliyin 30-40-cı illərində çarizmin İrəvan bölgəsində həyata keçirdiyi islahatlar imtiyazlı təbəqə ilə kəndlilər arasında narazılıqları daha da artırırdı. Verilmiş qanunlar Azərbaycan, o cümlədən də İrəvan bölgəsi üçün yad olan idarəçiliyin gətirilməsinə

köklənmişdi. Digər tərəfdən, çar hökuməti yerlərdə özünə dayaq yaratmaq üçün yerli imtiyazlı təbəqəyə müəyyən güzəştlərə getməyə məcbur oldu. Verilən qanun və qərarlarla onların mövqeyi daha da güclənirdi. Məsələn, tiyulların və işğal dövründə müsadirə edilmiş torpaqların sahiblərinə qaytarılması belə məsələlərdən biri idi. İşğalın dərhal sonrakı dövrlərdə çar hakimiyyət orqanları tərəfindən müsadirə edilmiş torpaqların geri qaytarılması barədə İrəvanın xanları, bəyləri və digər imtiyazlı təbəqələri baş komandan qraf Paskeviçə dəfələrlə müraciətlər etmişdişdilər (460, 491). Bu məsələ ilə bağlı narazılıqlar və çəkişmələr davam edirdi. Müsadirə olunmuş torpaqlar məsələsinin həllinə 1830-cu il 13 iyulda çar I Nikolayın verdiyi "Əlahəzrət buyruğu" ilə cəhd edildi. Qanuna görə, günah işlətmiş, qaçqın düşmüş bəy və xanlar bağışlanılır, onların torpaqları özlərinə qaytarılırdı. Əgər torpaq sahibləri artıq sağ deyildisə, bu torpaq sahələri onların ailələrinə və yaxud varislərinə bağışlanırdı. Lakin belə sahibkarlar hər cür siyasi idarəetmə hüququndan məhrum edilirdi (24, 300-301).

Bundan əlavə, çar hökuməti ilk dövrlərdə xanların, bəylərin, ağaların və məliklərin mülkiyyət hüququnu tanımaq istəmirdi. Onlardan mülkiyyət hüququ haqqında sənəd tələb edilirdi. Mülkiyyət hüququ yeni rus hakimiyyət orqanları tərəfindən təsdiq etməli idi (393, 492). Səlahiyyətlərindən istifadə edən hakimiyyət orqanları imtiyazlı təbəqələrin mülkiyyət hüququnu təsdiq etmək üçün qanunsuz yollara əl atır, rüşvət alaraq saxta sənədlər də düzəldirdilər. Onların belə addımları imtiyazlı təbəqə ilə aşağı təbəqə arasında da narazılıq yaradırdı. Beləki, həmin sənədlərə əsasən, qanunsuz olaraq kəndlər, torpaq sahələri və otlaqlar imtiyazlılar tərəfindən zəbt edilirdi (395, 492).

Artıq yuxarıda qeyd edildiyi kimi, mülkiyyətləri özlərinə qaytarılsa da, yerli torpaq sahibkarları siyasi idarəetmə hüququndan məhrum edilmişdilər. Lakin onların kəndlilər üzərində hakimiyyəti qeyri-rəsmi olaraq qalırdı. Onlar imkanlarından sui-istifadə edərək vergiləri artırır, hər cür məhsuldan vergi alır, müxtəlif cərimələrlə kəndliləri soyurdular. Əmrlərdən boyun qaçırdığına görə, kəndlilər

ağır cəzalara məruz qalırdılar. Bunun müqabilində kəndlilərin şikayət etməyə əməlli imkanları da yox idi (233, 364).

Lakin hər halda cana gələn kəndlilər narazılıq edir, öz narazılıqlarını müxtəlif formalarda bildirirdilər. Narazılıqların bir forması çar hakimiyyət orqanlarının, yerli mülkədarların zülmündən bezən kəndlilərin öz yerlərini tərk edərək, Osmanlı və Qacar dövlətlərinin hakimiyyəti altında olan ərazilərə üz tutmaları idi. Narazılıqların digər forması İrəvan əhalisinin yerli hakimiyyət orqanlarından və mülkədarlardan şikayət etmələri idi. Məsələn, Şərur dairəsinin kəndliləri 1834-cü ildə dairə rəisinə tiyul sahiblərindən şikayət etmişdilər. Tiyul sahiblərinin qədərindən çox vergi tələb etdiklərini bildirən sadə kəndlilər yazırdı ki, onlar bəhrə vergisindən əlavə kəndlilərdən-toyuq, yağ və ərzaq yığır, özlərini və yaxın adamlarını qonaq çağırmağı tələb edirdilər (472, 69-70). Hətta 1837-ci ildə çar I Nikolay İrəvana səfər edəndə kəndlilər yerlərdə olan özbaşnalıqlardan onu xəbərdar etmək üçün məklubla ona müraciət etmişdilər. Zəngəzur mahalının kəndliləri yazdıqları şikayət məktubunda yerli naiblərin onları artıq vergilərlə soyduqlarını yazırdılar (233, 368). Cənubi Qafqazda vəziyyəti öyrənmək üçün yaradılmış komissiyanın üzvü yazırdı ki, "Zəngəzur mahalının əhalisi nəinki şikayət məktubu yazır, ağır töycüyə görə dəstə ilə şikayət edir, hərdən naib və onun adamlarına qarşı çıxırdılar. Bu da təhlükəli olurdu" (233, 351-352).

Yerli hakimiyyət orqanları hər vasitə ilə belə şikayətlərin qarşısını almağa çalışırdı. Şikayətçilər təqib edilir, hər cür cəzaya məruz qalırdılar. Bir arxiv sənədinə görə, "...əhali artıq söz deməkdən qorxurdu. İmperatora müraciətə görə çoxları zərəri görmüşdülər" (470, 90).

Yerlərdə narazılıqlara baxmayaraq yerli hakimiyyət orqanları naibləri, mülkədar və bəyləri himayə etməkdə davam edirdi. Yerlərdə çox şey naib və bəylərin iradəsindən asılı idi. "Naib nə istəyirdi, onu da edirdi. Narazılıq edənlər hərdən əyalət rəisinə şikayət edirdilər. Rəis bu ədalətli şikayəti yoxlamaq üçün polis

idarəsinin öhdəsinə buraxırdı. O isə şikayətçinin əksinə olan məlumat toplayırdı" (233, 344).

1837-1838-ci illərdə İrəvan bölgəsində narazılıqlar daha da artdı və hakimiyyətə qarşı silahlı çıxışlarla nəticələndi. 1837-ci ilin sonlarında Göyçə mahalının 30 kəndinin əhalisi yerli bəylərin, məliklərin özbaşnalıqlarından və vergilərin ağırlığından cana doyub üsyan qaldırmışdı. Onlar hələ aprel ayında "Erməni vilayəti"nin rəisi knyaz Bebutova (Behbudova – E. Q.) şikayət edərək, vergilərin azaldılmasını xahiş etmişdilər. Lakin onların müraciətinə rədd cavabı verilmişdi. Belə olduqda ilin axırında məhsul yığıldıqdan sonra əhali vergi verməkdən imtina etmiş, açıq çıxışlara başlamışdı. Onlar nəinki vergini ödəməkdən imtina edir, hətta vilayət rəisinin göstərişlərinə qulaq asmır, göndərilən məmurlar silah gücünə yerlərdən qovulurdular. Kəndlilər açıq-açığına bildirirdilər ki, biz naibləri, məlikləri və dairə rəislərini istəmirik (237, 27; 79, 143). Bu haqda Qafqazın baş komandanı baron Rozen hərbi nazir Çernışevə xəbər verirdi ki, "Göyçə kəndliləri vergiləri azaltmayana qədər, dairə rəisinə tabe olmamağı və vergi verməməyi öz aralarında qərara almışdılar" (470, 90-91; 79, 142).

Kəndlilərin inadkarlığını görən çar khakimiyyətorqanları üsyanı silah gücünə yatırmağı qərara aldı. Tezliklə, Minqreliya yeger alayının iki topa malik iki bölüyü Göyçə sahillərinə göndərildi. Hətta general Bebutova "lazım olarsa atlı polis dəstələri toplamaq" səlahiyyəti verilmişdi (237, 32; 79, 143). Göyçə kəndlilərinin çıxışları bölgədə o qədər səs-küy yaratmışdı ki, çar I Nikolay bu işə müdaxilə etməli olmuşdu. O, Göyçə kəndlilərinin çıxışlarını "lazımdır ki, hər hansı güzəştsiz və zəiflik göstərmədən yatırılsın" əmrini vermişdi (237, 32; 79, 143). Nəticədə, görülən tədbirlər sayəsində üsyan yatırıldı. Üsyan rəhbərləri həbs edildilər, onlardan bir çoxu cismani cəzaya məruz qaldı, bir hissəsi isə hərbi məhkəməyə verildi. Qeyd etmək lazımdır ki, bu çıxışların yatırılmasında yerli məliklər çar orqanlarına böyük yardım göstərmişdilər. Odur ki, onlardan bəziləri çar hökuməti tərəfindən mükafatlaraa layiq görülmüşdülər (237, 35-36; 79, 143).

Kəndli çıxışları və narazılıqları Şimali Azərbaycanın bütün bölgələrini əhatə etmişdi. Bu çıxışlar yatırılsa da, çar hökuməti vəziyyəti sakitləşdirmək üçün müəyyən tədbirlərə əl atdı. İlk növbədə bir çox məmurlar və naiblər vəzifədən uzaqlaşdırıldı. Hətta onların bəzisinə qarşı cinayət işi qaldırıldı. Lakin kəndlilərin müstəntiqlərə, rəislərə inamı yox idi. Onlar narazılıqla bildirirdilər ki, "rəislər cinayətkarları təqib etmək fikrində deyil; sadə camaat dinməməli və yaxud şikayətə görə cəzadan qorxmalıdır" (233, 352).

Məlumdur ki, XIX əsrin 30-cu illərində Quzey Azərbaycanda baş vermiş antirus və antimüstəmləkə üsyanlarında (Car-Balakən, Lənkəran, Quba, Şəki və s.) yerli imtiyazlı təbəqənin bir sıra qeyrətli nümayəndələri yaxından iştirak etmişdilər. Üsyanların hamısına məhz onlar rəhbərlik etmişdilər. Məhz onları cəzalandırmaq üçün çar hökuməti yeni islahatla yerli imtiyazlı təbəqələri hər cür siyasi və iqtisadi hüquqlardan məhrum etmək istəyirdi. 10 aprel 1840-cı il tarixli inzibati-məhkəmə islahatı ilə müxtəlif vəzifələr tutan yerli bəylər və ruhani dairələrinin nüfuzlu şəxsləri idarə işlərindən uzaqlaşdırıldı. Bu da yerli imtiyazlı təbəqələrin narazılığına səbəb oldu, indi onlar hökumətə daha ciddi müxalif qüvvəyə çevrildilər. Belə bir vəziyyətdə çar hökuməti Azərbaycan ağalarını hüququndan məhrum edən, həm torpaqlarını, həm də kəndlərini əllərindən almasını nəzərdə tutan yeni qanun verdi. 1841-ci ildə verilmiş bu qanunlara görə feodallar (ağalar və bəylər – E. Q.) tiyul hüquqlarından məhrum olunurdular (23, 115).

Bu qanun bir qədər gec olsa da-1843-cü ildə İrəvan qəzasına da şamil edildi. Arxiv materialları içərisində İrəvan qəzasının ağalarının kəndlilər üzərində bütün hüquqlardan və vergi yığmaqdan məhrum edilməsi haqqında məlumatlara rast gəlmək olar. Məsələn, 1843-cü ildə Göyçə mahalının Zod, Böyük Məzrə, Çaxırlı, Qoşabulaq, Toxluca, Kəvər və digər kəndlərinin ağaları şikayətlənərək bildirirdilər ki, "bir ay bundan qabaq məlum olmayan səbəblərə görə, onlardan əvvəlki əsaslarla kəndlilər üzərində bir daha əmr verməyə cürət etməmələri və heç bir qulluq tələb etməmələri haqqında iltizamnamə almışdılar" (237, 39).

Beləliklə, İrəvan qəzası rəisinin sərəncamına görə, Tiflis xəzinə əmlakı palatasının tələbi ilə qeyd edilən Göyçə kəndlərinin ağaları kənd idarəçiliyindən kənar edilirdilər. Lakin tezliklə bu qərar da dəyişdirildi. Belə ki, Qafqaz canişini M.S.Voronsov ondan əvvəl verilmiş 1841-ci il qanununun Yelizavetpol və Tiflis qəzalarının ağalarına şamil edildiyini əsas gətirərək, bu qanunun Göyçə ağalarına aid olmadığını bildirmişdi (470, 99). Canişinin bu göstərişinə əsasən, Göyçə ağalarının hüquqları özünə qaytarılmışdı (237, 43).

1840-1841-ci illərdə keçirilən bu islahatlar bölgələrdə iğtişaşları daha da artırırdı. Tezliklə, keçirilən islahatların siyasi yanlışlığı da üzə çıxdı. Çarizm yerli imtiyazlı təbəqələrin köməyi olmadan Quzey Azərbaycanda möhkəmlənməyin qeyri-mümkün olduğunu dərk etdi. Bununla da, 6 dekabr 1846-cı il reskriptə görə, xanların, bəylərin, ağaların və ali müsəlman silkindən olan digər şəxslərin və habelə erməni məliklərinin tyuldar hüquqları yenidən özlərinə qaytarıldı, tyul mülklə eyniləşdirildi (234, 190).

Lakin bu qanun kəndlilərlə mülkədarlar arasında narazılığı aradan qaldıra bilmədi. Belə ki, hüquqları özünə qaytarılmış bəylər, ağalar və məliklər özbaşınalıq edərək, əvvəlki vergiləri tələb edir və onları öz xeyrinə işlətməyə çalışırdılar. Kəndlilər isə sahibkarların geriyə qaytarılmış hüquqlarını tanımaq istəmir, onlara tabe olmaqdansa, dövlət torpaqlarına keçməyi, vergini dövlətə verməyi üstün tuturdular. Bu isə onlar arasında ziddiyyəti daha da dərinləşdirirdi. Nəticədə sahibkarların zülmündən bezən kəndlilər hakimiyyət orqanlarına şikayət edir və yaxud açıq-açığına onlara qarşı çıxırdılar. 1847-1848-ci illərdə İrəvan qəzasında Göyçə mahalının Azərbaycan türklərinin yaşadığı Zod və Böyük Məzrə kəndlərinin zəhmətkeş əhalisi başçıları olan Vəli ağanın və Qulu ağa Mustafa oğlunun zülmündən bezərək, onlara vergi verməkdən və hər hansı mükəlləfiyyət yerinə yetirməkdən imtina etmişdilər. Bu kəndlilərlə ağalar arasında mübarizə illərlə davam etmişdi. Hər iki tərəf öz hüquqlarını bərpa etmək üçün hakimiyyət orqanlarına şikayət edir, onlardan kömək istəyirdi. Yazılan şikayət məktublarında kəndlilər bəylərin zülmündən, artıq vergi tələb etmələrindən bezərək vergi

vermək və mükəlləfiyyətləri yerinə yetirmək niyyətində olmadıqlarını, ağalar isə hüquqlarının əvvəlki qaydada bərpa edildiyini bildirirdilər (237, 44-45).

Narazılıq o qədər ciddi idi ki, bu işə Qafqaz canişini M.S.Voronsov qarışmalı olmuşdu. Onun göstərişi ilə kəndlilər əvvəlki qaydada bəylərə vergi verməli və mükəlləfiyyətləri yerinə yetirməli idi. Bəylər də öz növbəsində qanunsuz artıq tələblərlə kəndliləri sıxışdırmamalı, İrəvan qəzasının rəisi isə bu sərəncamın yerinə yetirilməsinə ciddi nəzarət etməli idi (237, 44).

Canişinin bu göstərişi də vəziyyəti sabitləşdirmədi. Böyük Məzrə kəndində mübarizə daha ciddi idi. Kənd əhalisi 1850-ci il mayın 5-də yazdığı məktubda Qulu ağanın əvvəlki illərdə onlardan imtina etməsi haqqında dilindən kağız verdiyini, onları sıxışdırmasını, talan etməsini əsas gətirərək, bir daha ona vergi vermək və mükəlləfiyyət daşımaq fikrində olmadığını bildirmişdi. Onlar bəyə qulluq etməkdənsə, dövlət kəndliləri olmağa və vergini dövlətə ödəməyə üstünlük verirdilər. Məktubda 12 kəndlinin Azərbaycan türk dilində imzası vardı (237, 45-46).

İrəvan qəzasının digər kəndlərində də narazılıqlar davam edirdi. 1850-ci ildə Göyçəətrafı kəndlərdən olan Bicni kəndinin əhalisi yerli sahibkar Arsen sultanın zülmündən bezərək ona qarşı uzunmüddətli inadlı mübarizəyə qalxmışdı. Mənbədən görünür ki, kəndlilərin mülkədara qarşı sərt mübarizəsi hələ 1849-cu ildən başlamışdı (237, 46). Qeyd etmək lazımdır ki, Bicni kəndinin əhalisi həm Azərbaycan türklərindən, həm də ermənilərdən ibarət idi. Kəndin ağası Arsen sultan isə İrəvan şəhər sakini olmasına baxmayaraq, 1840-cı ildən bu kənddən müxtəlif növ vergi alır və kəndliləri özünə işləməyə məcbur edirdi. Hər dəfə də bu vergilər artırılırdı. Onun zülmündən bezən kənd sakinləri 1849-cu ildə iki dəfə İrəvan qəza rəisinə şikayət məktubu göndərmişdilər. Qırx nəfərin imzası olan məktubun birində kəndlilər ağır mükəlləfiyyətlərdən, qədərindən çox vergi vermələrindən bəhs edirdilər. Arsen sultan əvvəllər hər ailədən 30 xalvar müxtəlif taxıl növündən 4 xalvar vergi alırdısa, sonradan onu 7 xalvara qaldırmışdı. Bundan

əlavə, hər ailə İrəvan şəhərində yaşayan sahibkara 8 yük odun aparmalı, 2 rubl 50 qəpik nəğd gümüş pul ödəməli, bütünlükdə isə bu kənd ona 50 araba ot, 50 araba saman, 50 batman pendir, poçt və iş üçün 400 at verməli, hər ailə 1 batman yağ və s. ödəməli idi (237, 46-47).

Məktubdan məlum olur ki, kənd Arsen sultanın hər il yayda buraya dincəlməyə gələn qohumlarından 4 ailəni də saxlamağa borclu idi. Bunun üçün kəndlilər hər gün bişmiş çörək, toyuq, yağ, yumurta, qoyun, 2 nəfər qulluqçu, 4 yük odun, hər ev 30 topa yonca və s. verməli idi. Bütün bu əlavə vergi və mükəlləfiyyət Arsen sultana verilən illik vergi və mükəlləfiyyətə daxil deyildi (237, 47).

Bicni əhalisinin dərdi təkcə bununla bitmirdi. Eyni zamanda onlar hər il dövlət xəzinəsinə də 153 gümüş rubl ödəyirdilər (237, 47).

Arsen sultanın zülmündən bezən kənd sakinləri vergi və mükəlləfiyyətləri yerinə yetirməyəcəklərini qəti surətdə bildirirdilər. Bu məqsədlə 1850-ci il aprelin 17-də İrəvan qubernatoruna 47 nəfərin imzası ilə məktub göndərildi. Məktubda onlar sahibkara tabe olmaqdansa, dövlət torpaqlarına keçməyi və vergini dövlətə vermək istədiklərini təkrar-təkrar bildirirdilər (237, 58-59).

Mübarizə kəskin xarakter almışdı. Bunun qarşısını almaq üçün qəza rəisi kəndin üç fəal üzvünü həbs edərək İrəvan şəhər həbsxanasına göndərdi (237, 59). Lakin hökumət nümayəndələri Bicni hadisəsinin genişlənməsindən ehtiyat edərək, kəndlilərin şikayətinə baxmaq məcburiyyətində qaldılar. Nəticədə, həbs edilənlər azad olundular. Hakimiyyət orqanlarının səyi nəticəsində Arsen sultanın tiyul hüquqları bərpa edilsə də, kəndlilərin vergi və mükəlləfiyyəti yüngülləşdirildi (237, 71, 76).

İrəvan quberniyasının digər kəndlərində də kəndlilərlə mülkədarlar arasında mübarizə davam edirdi. Zəngibasar dairəsinin kəndlərində mübarizə daha kəskin xarakter almışdı. Şorlu Mehmandar kəndinin sakinləri İrəvan qubernatoruna şikayətlənirdilər ki, yerli sahibkar Süleyman xan qanunsuz olaraq, zorla iki axça xəzinə torpağını zəbt edərək, onları vergi verməyə məcbur edir. Kəndlilər

bu qanunsuz hərəkətin qarşısının alınmasını xahiş edirdilər (237, 77).

Zəngibasar dairəsinin Böyük Vedi kəndinin sakinləri də ağaların zülmündən əziyyət çəkirdilər. 1851-ci il fevralın 24-də 50 nəfər Azərbaycan türkünün imza atdığı məktubda qeyd edilirdi ki, bu kəndin vaxtı ilə vergi verən 19 ailəsi Şərur dairəsinin əvvəlki rəisinin köməkliyi ilə saxta bəy adı alaraq, hər cür vergilərdən azad olublar, onlar qanunsuz olaraq kəndliləri incidir, sıxışdırır və qeyri-qanuni vergi tələb edirlər (237, 78).

Kəndlilərlə mülkədarlar arasında belə durum İrəvan quberniyasının Yeni Bəyazid qəzasının Öylər kəndində, Pqni, Möhüb, İrəvan qəzasının Zöhrablı, Yuva, Bicni kəndlərində uzun illər davam etmişdi. Şikayətlərə baxmayaraq, çar hakimiyyət orqanları öz qərarlarında, bir qayda olaraq, mülkədarların tərəfini saxlamışdı (237, 78-107).

Beləliklə, çarizmin Quzey Azərbaycanda, o cümlədən onun bir parçası olan İrəvan bölgəsində həyata keçirdiyi siyasət kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı. Keçirilən islahatlarda yerli adət-ənənələr nəzərə alınmır, müstəmləkəçi rejim yerlərdə özünə dayaq yaratmaq üçün bəylərə, ağalara və məliklərə geniş səlahiyyət verirdi. Həm dövlətə, həm də sahibkara vergi verən kəndlilərin hüquqları kobudcasına pozulurdu. Bu qanunsuz hərəkətlərdən bezən kəndlilər öz narazılıqlarını müxtəlif formalarda-şikayət etməklə, vergi və mükəlləfiyyətdən boyun qaçırmaqla, açıq siyasi çıxışlarla bildirirdilər.

# V FƏSİL

# İRƏVAN BÖLGƏSİNİN İDARƏÇİLİK SİSTEMİ (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında)

Bəhs etdiyimiz tarixi mərhələ ərzində Rusiya və Osmanlı ağalıqları dövrü istisna olmaqla Azərbaycanın digər bölgələrində olduğu kimi İrəvan bölgəsində də idarəçilik sistemi Səfəvilər dövlətinin idarəçilik sistemi əsasında qurulmuşdu. Qeyd etmək lazımdır ki, İrəvan sərhəd bölgəsi olduğundan mərkəzi hakimiyyət bura böyük diqqət yetirirdi. Dövlət başçıları özünə yaxın, sevimli adamlarını bu bölgəyə hakim təyin edirdi. Müstəqil xanlıq dövrü istisna olunmaqla XVII yüzilliyin sonu-XIX yüzilliyin əvvəllərində İrəvan Səfəvilər, Osmanlı, Əfşar və Qacar dövlətlərinin nüfuzlu hakimləri tərəfindən idarə edilmişdi. Mərkəzi hakimiyyət tərəfindən təyin edilən bu hakimlər bölgənin həm inzibati, həm də hərbi hakimiyyətini öz əllərində cəmləşdirmişdilər. Onlar qayda-qanunun, sakitliyin təmin olunmasına, vergilərin vaxtında yığılıb mərkəzə göndərilməsinə və mərkəzdən gələn fərmanların icra olunmasına cavabdeh idilər (298, 118).

Mərkəzdən təyin olunmalarına baxmayaraq, bu hakimlər böyük nüfuz sahibi idilər. Onlar şah sarayı nümunəsində çoxsaylı xidmətçilərə və nökərlərə malik idi. Onların nüfuzundan, müstəqilliyindən ehtiyat edən mərkəzi hakimiyyət hakimləri daim nəzarətdə saxlayırdı. Səfəvilər dövlətinin bəylərbəyliklərindən bəhs edən İ.Petruşevski yazırdı: “şahlar bəylərbəylərin güclü hakimiyyətini məhdudlaşdırmaq üçün onları birbaşa mərkəzi hakimiyyətə tabe olan müxtəlif mülki məmurlarla əhatə etmişdilər” (298, 118). Belə ki, bəylərbəyilərdən sonra bölgədə ikinci şəxs olan canişin birbaşa mərkəzə tabe idi. O, bəylərbəyinin hərəkətlərinə göz qoyur və mərkəzə məlumat verirdi. Bundan başqa, vəqf mülklərini idarə

edən sədr, əyalətin maliyyə, vergi işinə baxan və baş vəzirə tabe olan əyalət vəziri, şah tərəfindən şəhər idarəsinə başçı təyin olunan kələntər və s. birbaşa mərkəzə tabe idilər (298, 118-119). Məhz bu baxımdan bölgə hakimlərinin hakimiyyəti bəzən irsi olmur, lazım olduqda onlar mərkəzi hakimiyyət tərəfindən başqası ilə əvəz edilirdilər.

Müstəqil xanlıq yaradıldıqdan sonra hakimiyyəti müstəqil hökmdarlar idarə etməyə başladılar. Ali hakimiyyət xana, yaxud sərdara məxsus idi. Xan, yaxud sərdar mütləq hakim hesab olunurdu. Hakimiyyət irsi idi və atadan-oğula və s. keçirdi. Bütün qanunvericilik, icra hakimiyyəti və məhkəmə sistemi bilavasitə sərdarın əlində cəmləşmişdi, dövlətin daxili və xarici məsələləri ilə bağlı bütün işlər onun razılığı əsasında həyata keçirilirdi. Ümumiyyətlə, xanlıqda bütün işlərin icrası onun iradəsindən asılı idi. İ.Berezin qeyd edirdi ki, "xan tam müstəqil şəxs idi... O, heç kimdən soruşmadan, heç kimə hesabat vermədən, dərəcəsindən asılı olmayaraq, kimi istəsə edam edə, bağışlaya, qova və cəzalandıra bilərdi. Xan bütün icra və məhkəmə hakimiyyətini, hətta şəriət-dini qanun işlərini də öz əllərində cəmləşdirmişdi (100, 45). Bu faktı təsdiqləyən İ.Şopenin fikirincə, "xan hesabat vermədən vergi yığır, pul zərb edir, özünün xüsusi əmrinə görə, cinayətkarları ölümlə, gözlərini çıxarmaqla və bədən üzvlərini kəsməklə edam edirdi. Bir sözlə xan mütləq hakim idi" (499, 450). İ.Dubrovin isə xan hakimiyyətini dinlə, xalqın adət-ənənəsi ilə hesablaşmayan qatı despotik rejim kimi dəyərləndirərək yazırdı ki, "müsəlman əyalətinin bütün silkləri xanın vahid iradəsinə tabe idi. Zorakarlıq və özbaşnalıq xan hakimiyyətinin əsasını təşkil edirdi. Xan bütün qanunları, qul vəziyyətində olan əhalinin bütün hüquqlarını öz əlində cəmləşdirən nadir şəxs idi. Xan üçün təbəələri arasında silk fərqi yox idi. Xanın arzusundan asılı olaraq, bu günkü qul sabah bəy ola bilərdi və yaxud əksinə. Hətta xana ən yaxın adam günahı üzündən ölənəcən döyülürdü... Heç bir xan hakim kimi xalqın yaxşı yaşayışı üçün vəzifə borcunu yerinə yetirmirdi. Heç bir xan bütün vasitələrlə xalqdan var-dövlət yığmaqdan yüksək heç nə tanımırdı (181, 398). Daha

sonra o, qeyd edir ki, "hamı üzərində bütün hakimiyyəti ələ alan xan dinə əsaslanmır və dinlə hesablaşmırdı" (181, 399). Lakin orta əsrlərdə dinin güclü olduğu zamanda xanların dinlə hesablaşmaması fikri tam yanlışdır. Digər tərəfdən, əhali arasında nüfuz sahibi olan din xadimləri hakimiyyətin əsas dayaqlarından biri idi. Xanlar nəiki dinlə, yeri gədikcə adət-ənənə ilə də hesablaşırdılar. Ona görə də, A.Bakıxanov haqlı olaraq yazırdı ki, "xanlar şəriətin əsas qanunlarını və xalqın adət-ənənəsini pozmaq hüququna malik deyildi" (94, 142-143).

Hakimi-mütləq olmalarına baxmayaraq, xanlar lazım gəldikcə adət-ənənəyə tabe olmalı idilər. "Əgər xan sonsuz səlahiyyət sahibi kimi birinə cəza verirdisə, bu hal bəd əməl kimi qiymətləndirilirdi və əgər o, adət-ənənənin əleyhinə olaraq öz hökmünü bu şəkildə göstərməkdə davam edərdisə, həmin yerdə Məhəmməd şəriəti qanunlarından başqa bir qanun qüvvədə deyildisə, bu hərəkət xan üçün faciə ilə nəticələnə bilərdi" (91, 52-53). Bundan əlavə, xan mütləq hakim olsa da, hakimiyyətini möhkəmləndirmək və var-dövlətinin qayğısına qaldığı üçün yeri gəldikcə xalqla hesablaşmalı olurdu. Bunu biz İrəvan xanlarının xəzinəni doldurmaq üçün kəndlilərə torpaq paylamalarında, boş torpaqlarda yerləşdirmələrində, onları kotanla, toxumla təchiz etmələrində, ticarətə sərmayə qoymalarında görürük. Xüsusilə, sonuncu sərdar Hüseynqulu xanın idarəçiliyi nəticəsində İrəvan xanlığında kənd təsərrüfatı, sənətkarlıq və ticarət güclü inkişaf etmişdi. Məhz bu baxımdan rus qafqazşünaslarından fərqli olaraq İ.P.Petruşevski xan hakimiyyətini belə təsvir edirdi: "Azərbaycanda hökm sürən siyasi pərakəndəlik və xanların bir-biri ilə arasıkəsilməyən müharibələri şəraitində onlar kəndli kütlələrini hədsiz dərəcədə qıcıqlandırmamaq üçün feodal istismarını müəyyən həddə saxlamağa çalışır, hətta ona bəzi hallarda patriarxal adət-ənənə donu geydirməyə cəhd göstərirdilər. Onlar kənd icmalarının hüquqları, adət-ənənəsi ilə... hesablaşmalı olurdular" (233, 12). .

Qeyri-məhdud hakimiyyətə baxmayaraq, xanın yanında xüsusi məsləhətçi şura-«Divan» da fəaliyyət göstərirdi. Divan xan

başda olmaqla yüksək vəzifəli şəxslərdən ibarət idi. Divanda mühüm, dövlət əhəmiyyətli məsələlər müzakirə olunurdu. Burada müharibə, sülh, vergi yığılması və qatı cinayətlər kimi bu və ya digər məsələlər həll edilirdi (101, 52). İrəvan hakiminin yanında fəaliyyət göstərən divanda ən yüksək vəzifələri vəzir, xanın yaxın adamları və hər birinin müəyyən fəaliyyət sahəsi olan bir neçə mirzə və din xadimlərindən şeyx-ül-islam tuturdu (499, 451). Divanın başçısı divanbəyi hesab olunurdu. O, xanın ən yaxın adamlarından və yaxud nüfuzlu ruhanilərdən təyin olunurdu. Divanbəyilərin müəyyən məsələlərin həllində böyük rolu olurdu (499, 451).

Xanlıqda xandan sonra ikinci ən mühüm şəxs vəzir sayılırdı. Vəzir mülki aparatın başçısı və xanın ən yaxın məsləhətçisi idi. "Təzkirət-əl-mülk" də qeyd edilir ki, "... Divanın vəziri... dövlətin yüksək dərgahının ixtiyarında olan sərhədlər daxilində bütün əmirlərin ən böyük əmiridir. Bütün divan maliyyatının alınması, dövlət xəzinəsi və sairə pulların hesabatı... vəzirin əmri və yazısı olmadan icra edilməzdi" (61, 22). Bu vəzifəyə xana sədaqətli, savadlı, bacarıqlı və dövlət işlərindən başı çıxan şəxslər təyin edilirdilər. Vəzir yüksək məvacib alırdı və bu məvacib xəzinədən ödənilirdi. Məsələn, Hüseynəli xanın (1759-1783) elm adamlarından olan Mirzə Məhəmmədəliyə vəzirlik vəzifəsinə təyin edərkən ona vermiş olduğu təliqədə deyilirdi: «…həmin təriflər ali şöhrətli, böyük mərtəbəli, alimlərin fəxri, yüksək nəslə mənsub, iş bilməkdə, ağılda, rütbədə, nöqsanları görməkdə başqalarından fərqlənən Mirzə Məhəmmədəliyə də aiddir. Həmin üstün cəhətləri nəzərə alaraq Divanın əzəmətli vəzirlik vəzifəsini ona tapşırırıq. Mirzə Məhəmmədəliyə ildə Təbriz pulu ilə qırx tümən məbləğində məvacib təyin olunur. Həmin məvacib ona İrəvan ölkəsinin maliyyəsindən ödənilməlidir» (48, 49). Bundan əlavə, xanlıqda bu vəzifəni tutan daha iki məşhur vəzirin adı bizə məlumdur. Bunlardan Məhəmməd xanın vəziri Məhəmməd Müslümü (Qüdsi) və Hüseynqulu xanın maliyyə işlərinə baxan vəziri Mirzə İsmayılı qeyd etmək olar. Mirzə İsmayıl Rusiya işğalından sonra xanlığın maliyyə sistemi haqqında

İ.Şopenə çox qiymətli məlumatlar vermişdi (48, 1-3, 49; 499, 991-992).

İrəvan xanlığında dövlət idarəçiliyi bir neçə sahəyə bölünürdü və bu sahələrə xanın rəhbərliyi altında ayrı-ayrı şəxslər başçılıq edirdilər. Birinci sahə sərdarın saray təsərrüfatı, xüsusilə şəxsi hərəmxanası idi (499, 452). Bu sahəyə adətən xanın özü və yaxud ən sevimli adamlarından biri olan eşikağası başçılıq edirdi (253, 41). Eşikağası türk sözü olub sarayın ağası deməkdir. O, bütün saray qulluqçularının ümumi başçısı idi. Hakimlərin məclisində qayda-qanun yaratmaq onun işi idi. Əgər məclislərdə bir hadisə baş verərdisə başlıca məsuliyyəti eşikağası daşıyırdı (61, 27; 94, 140). Eşikağası vəzifəsi irsi idi. Bu vəzifəni icra edən ailə xüsusi imtiyazlara malik idi. Hüseynəli xanın dövründə eşikağası vəzifəsini Hacı Məcnun bəy Qacar icra edirdi. O, öldükdən sonra eşikağası vəzifəsinə oğlu Hacı İbrahim bəy təyin olunmuşdu (48, 100-101; 499, 451; 253, 41).

İkincisi hərbi sahə idi. Bu haqda aşağıda bəhs ediləcəkdir.

Üçüncü sahə maliyyə bölməsi idi. İrəvan xanları maliyyə işinə böyük diqqət yetirirdilər. Onların zərbxanaları vardı və burada pul kəsilirdi. Bu sahə həm də vergilərin təyin olunması və yığılması ilə məşğul olurdu. Maliyyə işinə vəzir başda olmaqla xan tərəfindən təyin olunmuş sərkəri-ali baxırdı. Sərkərlər əkin sahələrini nizama salır, bağları, icarəyə verilən yerləri, dəyirmanları, su arxlarını abad edir, hər yerdə taxıl pulu onun xəbərdarlığı və möhürü ilə rəiyyətlərdən və icarədarlardan alınırdı. Əkilməmiş yerlərə kəndliləri cəlb etmək, onları pulla, toxumla və s. lazımı şeylərlə təchiz etmək və məhsul yığımı zamanı vaxtilə avans olaraq verilmiş pulu və ərzağı geri almaq onun işi idi (61, 99-101; 499, 452; 476, 2; 253, 41).

Nəhayət, dördüncü sahə icraedici və yaxud polis idi. Bu sahə maliyyə ilə sıx bağlı idi. Əsasən, vergilərin yığılması, asayişin qorunması polisə həvalə olunmuşdu. Bu orqan şəriət məhkəmələrinin çıxardığı hökmü də icra edirdi (499, 452).

Bundan əlavə, sarayda müxtəlif vəzifələri yerinə yetirən böyük məmurlar ordusu da fəaliyyət göstərirdi. Bunlardan vəzirdən

sonra əsas vəzifə sayılan, xəzinəyə başçılıq edən xəzinədarı, pul paylayan, xəzinənin mədaxil və məxaricinə nəzarət edən sandıqdar-ağasını, yığılmış məhsul, un toplandığı ambarlara nəzarət edən ambardar-ağasını, saray mühafizəçilərinin başçısı qoruqbaşını, xanın baş mehtəri əmiraxuru və b. qeyd etmək olar (258, 353; 239, 48-49; 253, 41). Mülki işlərdə dəftərxanalardan tutmuş divana qədər kargüzarlıq, əmlakın siyahıya alınması, dəftər tərtib edilməsi məsələlrinə mirzələr ordusu cavabdeh idilər (499, 458).

İrəvan bölgəsi inzibati cəhətdən şəhər və mahallara bölündüyündən, onların idarəçiliyində xana tabe olan, müxtəlif funksiyaları yerinə yetirən idarə orqanları da fəaliyyət göstərirdi. İlk növbədə şəhər idarəçiliyində böyük rol oynayan naib, qalabəyi, darğa, yüzbaşı, onbaşı və s. məmurlardan bəhs edəcəyik. Şəhər idarəçiliyində naib böyük səlahiyyətlərə malik idi. «Naib əsas etibarilə təsərrüfat və inzibati məsələlərlə məşğul olurdu, vergilərin vaxtlı-vaxtında toplanması işi də həmçinin ona tapşırılırdı. Habelə, sənətkarların üzərinə vergi qoyulması, vergilərin qaydaya salınması da naibin öhdəsinə düşürdü. Lakin onun fəaliyyəti təkcə bununla məhdudlaşmırdı. Xan müvəqqti olaraq şəhərdən çıxdıqda (müharibəyə, səyahətə, ova və s. getdikdə) bütün şəhər idarəsi naibin əlində cəmləşirdi» (31, 56).

İrəvan şəhər–qala olduğundan, qalaya qalabəyi başçılıq edirdi. Qalabəyinin əsas vəzifəsi qala daxilində əmin-amanlığı təmin etmək, qalanın müdafiəsinə cavabdeh olmaqdan ibarət idi. Onun tabeçiliyində silahlı dəstələr olurdu (194, 476). Xanlar bu vəzifəni yaxın adamlarına və nüfuzlu bəylərə tapşırırdılar. Lakin bu vəzifə irsən keçmirdi (94, 138). Hüseynqulu xanın (1806-1827) dövründə İrəvan qalasının qalabəyisi onun qardaşı oğlu və kürəkəni Sübhanqulu xan olmuşdu (18, 2).

Şəhər idarəsində ən mühüm vəzifələrdən biri də darğa idi. Darğa fars dilində qayda-qanun nəzarətçisi deməkdir (94, 139). Onun vəzifəsi şəhər və bazarlarda qayda-qanuna nəzarət etmək idi. XVIII yüzilliyin birinci yarısına aid mənbələrdən olan “Təzkirət-əl-mülk” əsərində darğanın vəzifəsi belə şərh edilmişdi: “Darğa əsasən

şəhəri içəridən və bayırdan qoruyur ki, heç kəs qanundan kənar iş görüb, dava-dalaş salmasın, şərə (şəriətə – E. Q.) xilaf olan işləri (şərab içmək, qumarbazlıq və s.) qadağan etsin ki, heç kəs xilaf işlər görməsin, şəriət qaydalarına zidd iş görənləri cəzalandırsın, müqəssirlərdən törətdikləri cinayət işlərinə müvafiq cərimə alsın, …" (61, 103-104). Darğa şəhərin polisi sayılırdı. Onun tabeçiliyində yüzbaşı və çavuş (onbaşı) kimi asayiş qoruyucuları vardı. Darğa şəhər asayişinin, təhlükəsizliyinin qoruyucusu idi və şəxsən xana tabe idi (499, 457-458). "Bazar darğasının hüququ geniş idi. Onlar, "bazar darğası" adlanmalarına baxmayaraq, bazar meydanından kənarda da fəaliyyət göstərirdilər. Şəriət qanunlarını müdafiə etmək üçün darğaya böyük ixtiyar verilmişdi" (31, 58). İrəvan hakimləri onların xeyrinə "darğalıq" adı ilə əhalidən xüsusi vergi alırdılar (499, 985-986). Darğanın səlahiyyəti təkcə şəhərlə məhdudlaşmırdı. O, kəndin təsərrüfat hissəsini də idarə edir, məhsul oğurluğunun qarşısını alırdı (94, 139).

Şəhər asayişinin qorunmasında gecə keşikçilərinin də böyük rolu vardı. İrəvan əhalisi qədimdən gecələr şəhər və bazarlarda asayişi qorumaq üçün özlərindən keşikçilər tuturdular. Sərdar isə bu vəzifəni öz adamlarına tapşıraraq əhalidən pul vergisi alırdı (499, 978). Gecə keşikçiləri – «əsəs», keşik başçıları isə «əsəsbaşı» adlanırdı. Əsəsbaşının darğadan da artıq səlahiyyəti vardı. Gecə keşikçiləri müxtəlif dəstələrə bölünərək onlara həvalə olunmuş məhəllənin keşiyini çəkirdilər. Həmin dəstələr bilavasitə əsəsbaşının qarşısında məsuliyyət daşıyırdı. Bazar və sənətkar dükanlarının öz əsəsləri var idi. Həmin əsəslər üçün məvacib sənətkar və tacirlərdən toplanırdı (186, 257, 267; 31, 59-60).

Şəhərdə dini işlərin qoruyucusu əmir-maruf adlanırdı. Ərəb sözü olan "maruf" "dinə məxsus iş" deməkdir. Əmir–maruf xalq arasında din və ədəb qaydalarına nəzarət edən polis rolunu oynayırdı (94, 140).

Mahalların idarəçiliyində də xüsusi idarə aparatı fəaliyyət göstərirdi. İrəvan bölgəsində mahalları mirbölük idarə edirdi (499, 457; 476, 2; 502, 616). Mirbölük iki sözdən – "mir" ərəb dilində

"əmr edən", "bölük" isə türk dilində "torpaq sahəsi" deməkdir (92, 140). Mahallarda bütün idarə aparatı – polis, məhkəmə və maliyyə sahələri mirbölüyün tam nəzarətində idi (194, 471).

Kəndlərdə hakimiyyət isə ağsaqqal funksiyasını yerinə yetirən kəndxuda və məlikin əlində idi. "Kəndxuda" fars sözü olub "yerin sahibi" deməkdir (94, 140). Kəndxuda Azərbaycan türklərinin olduğu kəndlərə, məlik isə erməni kəndlərinə başçılıq edirdi. Kəndxuda və məliklər xanlıqda ən aşağı idarə orqanı sayılsa da, onun xanın yanında böyük nüfuzu vardı. Kənd ağsaqqalları bir tərəfdən kənd icması, digər tərəfdən xan idarə mexanizmi arasında vasitəçi rolunu oynayırdılar. Onlar xanın əmr və tələblərinə tabe olurdular (476, 2).

Ümumiyyətlə, mövqe fərqinə baxmayaraq mahal naiblərindən tutmuş sərkərə qədər bu vəzifələrin hamısı sırf qulluq xarakteri daşıdığından atadan oğula keçə bilməzdi. Onların vəzifədə qalması xanın iradəsindən asılı idi. Bu vəzifə sahibləri xana sədaqətlə və namusla qulluq etdikləri təqdirdə vəzifədə qalırdılar (476, 2).

Elatlar arasında hakimiyyət elbəyilərin əlində idi. Elbəyilər xan tərəfindən təyin edildiklərindən, elatlar arasında sərdarın əmrlərinin icraçıları idilər. Onlar hərbi xidmətdən başqa bütün mükəlləfiyyət və vergilərdən azad idilər (48, 55, 111-112; 499, 457).

Xanlığın idarə olunmasında məhkəmələr mühüm yer tuturdu. İrəvan xanlığında məhkəmə sistemi iki qismə bölünürdü: şəriət və mülki məhkəmələr. Mülki məhkəmə özü də məhkəmeyi-ali və əsnaf məhkəmələrindən ibarət idi. Bu məhkəmələr içərisində şəriət məhkəmələri əsas yeri tuturdu. Şəriət məhkəmələrində müxtəlif mübahisəli məsələlərə – evlənmə və boşanma, qəyyumluq, vərəsələr arasında mülkiyyəti bölmək, müqavilə bağlanması, pozulması və s. işlərə baxılırdı. Bu məhkəmələr şəriət qaydaları əsasında həyata keçirildiyindən bu bölməyə qazı nəzarət edirdi. Məhkəmələrdə din xadimlərinin nüfuzu böyük idi. Ona görə də məhkəmələr dünyəvi əyanların idarə etdiyi hökuməti-cəbri və din xadimlərinin nəzarətində olan hökuməti-ədliyyə olmaqla iki hissəyə bölünürdü (499, 454-455).

Şəriət məhkəmələrində baxılan işlərin icrası Quran və tarixdə baş vermiş hadisələr toplusu əsasında həll edilirdi. İ.Şopen yazırdı: «Hakimiyyətin xəlifənin əlində cəmləşdiyi islamın ilk dövrlərində Quranın mətninin saysız şərhi çətin deyildi. Bu ibtidai dövrün patriarxal həyatında mülki hissəyə aid bütün azsaylı iddialar rahat və asanlıqla Quranın qaydaları əsasında həll edilirdi. Lakin əhalinin artması, insanlar arasında münasibətlərin tədricən mürəkkəbləşməsi nəticəsində Quran baş verən hadisələrin həlli üçün kifayət etmirdi. Onda hörmətli imamlar, müctəhidlər və b. tərəfindən təfsir, şərh və söylənilmiş hadisələrin toplanmış çoxcildli müsəlman qaydalarının ikinci hissəsi yarandı. Belə olduqda Roma qaydaları kimi müsəlmanların elmi cəhətdən toplanmış, xüsusi öyrənilməsi tələb olunan hüquqi hissəsi hazırlanırdı, icraedici idarə qayğısı ilə yüklənmiş dünyəvi hakimiyyət ədliyyənin, ədalət məhkəməsinin bir hissəsini bütünlüklə həyatlarını bu işə həsr etmiş ruhanilərə verməyə məcbur idilər» (499, 453). Şəriət məhkəmələrinə şeyx-ül-islam, qazi və bir neçə axund və molla başçılıq edirdilər. Məhkəmələrdə müxtəlif mübahisələrə – ağır cinayət işlərinə, oğurluq, mülki iddialara, kəbin kəsmə və boşanmaya, mübahisə edən qohumları barışdırmaq, qəyyumlluq işinə, hər hansı əmlakı varislər arasında bölüşdürmək, müqavilələrin bağlanılması, icra edilməsi və pozulması və s. məsələlərə baxılırdı (499, 454; 259, 24).

Şəriət məhkəmələrinin əhəmiyyətini başa düşən xanlar qazılık vəzifəsinə savadlı və qayda-qanunları yaxşı bilən şəxsləri təyin edirdilər. 1783-cü ildə Hüseynəli xan xalq arasında alim kimi tanınmış Seyid Məhəmmədi baş qazı təyin etmişdi. Sənəddə qeyd edilir ki, «o, müstəqil əzəmətli qazılık taxtına oturaraq münaqişələri mübarək şəriət qanunları əsasında həll etsin» (48, 75-76).

Məhkəmə işinin özünəməxsus icra qaydası vardı. O, mübahisə edən tərəflərin dindirilməsi əsasında başlayırdı. Məhkəmə üzvləri əvvəlcə iddiaçının, sonra cavabdehin və sonra isə hər iki tərəfin qarşılıqlı mübahisələri dinlənilirdi. Bunun ardınca əvvəlcə cavabdehin, sonra isə iddiaçının şahidləri dindirilirdi. Gətirilən dəlillər lazımi səviyyədə olmadıqda, hər iki tərəfin şahidlərinə and

içdirirdilər. İş aydınlaşdıqda mübahisə edənlər buradan kənar edilir, məhkəmə üzvləri isə qanun əsasında öz aralarında məsləhətləşmə keçirirdi (499, 454). Məhkəmədə bəzi məsələlərin həllinin müxtəlif yolları vardı. Əgər işin araşdırılması Quranla aydınlaşırdısa, onda məsələ çətinlik çəkmədən həll olunurdu. Yox əgər bu məsələ Quranla həll edilə bilmirdisə, onda məhkəmə üzvləri toplanmış tarixi rəvayətlər-hədislər toplusuna müraciət edirdilər. Bunlardan «Cəmi Abbasi», «Ağıl Yəqin» və s. qeyd etmək olar. Lakin bunlar da mübahisəli məsələnin həllinə kömək etmirdisə, onda cəza yerli adət-ənənə və məhkəmənin müdrik və ədalətli qərarı əsasında icra edilirdi (499, 454-455).

Mübahisəli əmlak məsələlərinin həlli isə məhkəmədə başqa cür icra edilirdi. Məhkəmədə iddiaçıların iştirakı vacib deyildi. Burada əsasən, mülkün sahiblik kağızı, müxtəlif növ istiqraz məktubu, qarşılıqlı öhdəçilik və s. sənədləri nəzərə alırdılar. Qərar xüsusi yarlıqda bildirilirdi və bu sənədə məhkəmənin bütün üzvləri öz möhürlərini vururdular. Yarlıqda bəraət verilmiş şəxsin mülkün əsl sahibi olması göstərilirdi. Əgər əks tərəf bu qərarla razılaşmayaraq müqavimət göstərirdisə, onda polis bu işə qarışırdı (499, 455). Bəzi hallarda məhkəmələrdə qərarların çıxarılmasında ciddi nöqsanlara yol verilirdi. Belə ki, tərəflərin iddiaları göstərilən yarlıqların qeydiyyatının aparılmaması səbəbindən eyni məsələ ilə bağlı bir-birinə tamamilə zidd qərarlar verilməsi hallarının artmasına gətirib çıxarırdı (499, 455).

Məhkəmələrdə insanların hüquqları tez-tez pozulurdu. İrəvan sərdarı, onun yaxın adamları və nüfuzlu şəxslər lazım gəldikdə şəriət məhkəmələrinin işinə müdaxilə edirdilər. Onlar məhkəmənin çıxardığı qərara məhəl qoymayaraq açıq şəkildə özlərinə yaxın və günahı olan şəxsin tərəfində olduqlarını bildirirdilər. Belə olduqda şikayət edən tərəf qeyri-şərtsiz günahkar elan olunurdu (499, 455). Digər tərəfdən, məhkəmələrdə rüşvətxorluq geniş yayılmışdı. Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsində də ədalət məhkəmələri bəzən pulla ələ alınırdı. XVIII yüzilliyin 70-ci illərində Azərbaycanda olmuş S.Qmelin yazırdı ki, «hakimlər pulu

çox sevdikləri üçün heç zaman ədalətli hərəkət etmirdilər» (156, 24).

Şəriət məhkəmələrindən əlavə, sərdarın özü də lazım gəldikdə məhkəmələr qururdu. Bu, məhkəmeyi-ali adlanırdı. Xanın səlahiyyəti altında olan ali məhkəmə fövqəladə hadisələr zamanı çağırılırdı və bunlarda əsasən dövlət əhəmiyyətli cinayət işlərinə baxılırdı. Bu iş çox sadə icra olunurdu və heç bir yazışma aparılmırdı. Sərdar çıxış və şikayətlərə qulaq asaraq vəziyyətlə tanış olduqdan sonra, həmin dəqiqə qərar çıxarırdı. Əgər cəza verilirdisə işin icrası fərraşlara tapşırılırdı. Sərdarın əmri ilə cinayətkar müxtəlif işgəncələrə məruz qalırdı. Məsələn, fərraşlar günahkarın ayağını fələqqəyə bağlamaqla dabanını şallaqlayır, bəziləri sərdarın əmri ilə sarayın pəncərəsindən Zəngi çayına atılır, digərlərinin isə əli, ayağı, qulağı, dili kəsilir və gözləri çıxarılırdı (499, 456-457).

Əsnaf məhkəmələrinə gəldikdə isə, burada yalnız sex təşkilatlarına daxil olan sənətkarların məsələlərinə baxılırdı. Əsnaf məhkəmələrinin başında ustabaşı dururdu. Burada sənətkarlar arasında baş verən mübahisələr, əsnaf qayda-qanunlarının pozulması, yerli əhalinin ustalardan olan şikayətlərinə baxılırdı (31, 60-61).

Azərbaycanın digər xanlıqlarında olduğu kimi, İrəvan xanlığında da istər hərbi, istər mülki və istərsə də dini xidmətdə müəyyən olunmuş fərq yox idi. Bütün bu idarə orqanları xandan asılı idi. Sərdar hakimiyyəti əldə möhkəm saxlamaq üçün tez-tez qayda-qanunları dəyişirdi. Xan məmurların özbaşnalığına barmaqarası baxırdı. O, özünün təyin etdiyi məmurlarını çox yaxşı tanıyırdı. Əgər hər hansı bir məmur xəzinəyə çatacaq vergini mənimsəməkdə həddini aşardısa, xan onun bütün əmlakını müsadirə edib xəzinəyə verirdi (499, 458).

Azərbaycan xanlıqlarından olan İrəvan xanlığında dövlət dili Azərbaycan türkcəsində idi. Lakin rəsmi yazışmalarda fars dilindən də istifadə olunurdu (499, 458).

XVIII yüzilliyin 20-ci illərin ortalarında İrəvan bölgəsi də Osmanlı dövləti tərəfindən işğal olunmuşdur. Osmanlılar bölgəni mərkəzləşdirilmiş qaydada idarə etmək məqsədi ilə ölkənin ictimai-

siyasi və sosial-iqtisadi sisteminə uyğunlaşması ilə ciddi məşğul olmağa başlamışdı. İrəvan bölgəsində osmanlıların yerli idarə aparatı formalaşdırılmış, rəhbərlər təyin edilmişdi. Təəssüf ki, mənbələrdə bu idarə orqanları haqqında az məlumat vardır. Lakin qeyd etmək lazımdır ki, yaradılan Osmanlı idarə orqanları Səfəvi idarəçiliyindən bir o qədər də fərqlənməmişdi. Belə ki, Osmanlı mənbələrində İrəvan əyaləti adlanan bu bölgənin hakimləri paşa adlandırılırdı. Sultan tərəfindən təyin edilmiş paşalar da bölgənin həm hərbi, həm də inzibati hakimiyyətini əllərində cəmləşdirmişdilər. Onların da hakimiyyəti irsi deyildi (238, 8). Paşadan sonra ikinci şəxs vəzir sayılırdı. O, mülki və maliyyə işlərinin başçısı idi. Vəzirlərin yanında katib və dəftərxanalar fəaliyyət göstərirdi (38, 43; 238, 8). Dəftərxana işçiləri çox mühüm fəaliyyətlə məşğul olurdular. " İrəvan əyalətinin icmal dəftər"ində qeyd edilir ki, "İlk növbədə dəftərxana işçiləri yerli əhalidən olan kəndxudaların bələdçiliyi və onların bilavasitə iştirakı ilə əyalət əhalisinin sosial vəziyyətini təftiş edir, Səfəvi dövründəki vergi sistemini müəyyənləşdirir, vergilərin toplanması zamanı edilən haqsızlıqları üzə çıxararaq, bəylərbəyi ilə qazıya bildirir, əhalinin məşğuliyyəti, ailə vəziyyəti (evli, subay, dul), fiziki sağlamlığı (kor, lal, kar, topal), mənsub olduğu zümrə (şeyx, seyid və s.) haqqında ərtaflı məlumat toplayır, gəlir obyektlərini müəyyən edir, onlardan alınacaq vergilərin həcmini dəqiqləşdirir, ticarət qaydalarını qoruyurdular (38, 6). Xəzinəni qoruyanları isə mühafiz adlandırırdılar (238, 8).

Osmanlı dövlətinin inzibati-ərazi bölgüsünə uyğunlaşdırılan İrəvanın nahiyə və sancaqbəyliyinin idarəçiliyində Səfəvi dövlətində olduğu kimi qayda yaradılmışdı. Nahiyə və sancaqbəyliyini bəylərbəyi və sancaqbəyi, kəndləri isə əvvəllər olduğu kimi kəndxudalar idarə edirdilər (38, 6). Dini işlərdə və vəqflərin idarə edilməsində din xadimlərinin hüquqları saxlanılmışdı (38, 20-22).

1827-ci ildə İrəvan xanlığı işğal olunduqdan sonra burada Rusiya idarə orqanları yaradıldı. İrəvan xanlığı Rusiya-Qacar müharibəsinin gedişində işğal olduğundan, bölgəni idarə etmək üçün 1827-ci il oktyabrın 6-da baş komandan Paskeviçin əmri ilə

burada Müvəqqəti İdarəçilik yaradıldı. Onun tərkibi üç nəfərdən ibarət idi. Müvəqqəti İdarəçiliyin sədri general Krasovski, İrəvan qalasının komendantı isə podpolkovnik Borodin təyin edildi. Erməni katolikosu Nerses də Müvəqqəti İdarəçiliyin üzvü təyin olundu. Bu "hökumət"in fəaliyyəti kollegial xarakter daşıyırdı. General Paskeviç tərəfindən verilən 19 maddədən ibarət təlimat isə Müvəqqəti İdarəçiliyin fəaliyyət üçün başlıca baza rolunu oynamalı idi (261, 480-481).

Rusiya generalının əlində olan bu "hökumət" xanlıq idarə orqanlarına bir o qədər də təsir göstərmədi. Lakin Rusiya çarının 1828-ci il martın 21-də verdiyi fərmana görə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yeni bir süni qurum-"Erməni vilayəti" yaradıldı. Ona uyğun idarə quruluşu təsis edildi. Qraf Paskeviçin 1828-ci il aprelin 2-də baş qərargah rəisinə ünvanladığı rəsmi məktubunda yeni yaradılan idarə orqanları haqqında məlumat verirdi. Belə ki, bu vilayəti hərbçlərdən təyin olunan rəisdən, onun yanında 2 rus zabitindən və məşvərətçi səsə malik 1 Azərbaycan türkündən və 1 ermənidən ibarət köməkçi heyət idarə edirdi. Erməni vilayət idarəsinə Naxçıvan və Ordubad əyalətləri də tabe edilmişdi. İrəvan şəhərində polis və məhkəmədən ibarət yeni idarə strukturları yaradılmışdı. Bundan əlavə, vergiləri vaxtında yığmaq üçün şəhər xəzinədarlığı da təsis edildi (282, 489).

Qeyd etmək yerinə düşərdi ki, mahallarda və kəndlərdə idarə strukturu xanlıq dövründə olduğu kimi saxlanıldı. Rusiya hakimiyyət orqanlarına sədaqətli olan yerli bəylər və məliklər mahalları, kənd ağsaqqalları isə kəndləri idarə edirdilər (282, 489).

Yalnız vergi sistemində yenilik edildi. Vergilərin yığılması, xəzinə mülklərinin qeydiyyata alınması üçün bir qərargah-zabitindən və iki yerli məmurdan ibarət xüsusi komissiya yaradıldı. Hökumət onun üzərinə xanlıqlar dövrünün vergi sistemini yoxlamaq kimi ciddi bir öhdəçilik qoydu (282, 489).

Rusiya hakimiyyət orqanlarının İrəvan bölgəsində yaratdığı bu idarə strukturu 1833-cü ilə qədər mıvcud olmuşdu. Həmin il iyunun 23-də bölgədə keçirilmiş islahtla əlaqədar olaraq idarə

orqanlarında köklü dəyişiklik aparıldı. Belə ki, vilayətin idarəçiliyi icraedici və məhkəmə olmaqla iki hissəyə bölündü. Əvvəllər olduğu kimi vilayəti hərbi general idarə etməli idi. Onun yanında üç nəfərdən ibarət şura yaradıldı. Bundan əlavə, vilayət rəisinin yanında dəftərxana fəaliyyət göstərirdi (370, 137; 499, 459-460).

Verilmiş yeni qanuna əsasən şəhər məhkəmələri əvəzinə İrəvanda "Mülki vətəndaşlar və mübahisəli işlər üçün əyalət məhkəməsi" yaradıldı. Məhkəmə mülki, hərbi və şəriət olmaqla üç hissəyə bölünürdü. Mülki işlərə İrəvan şəhərində yaradılmış əyalət məhkəməsində baxılırdı. Məhkəmədə sədr, bir rus və iki yerli məmurdan ibarət iclasçılar iştirak edirdi. Məhkəmə üç mərhələdən keçirdi. Birinci mərhələdə mübahisəli məsələlər nəzərdən keçirilirdı, ikinci mərhələdə iddia əyalət rəisinin 500 rubldan yuxarı olmayan cəriməsi ilə əvəzlənirdi, üçüncü apellasiya mərhələsində Qafqazdakı rus qoşunlarının baş komandanına müraciət edilirdi. Hərbi məhkəmə (və yaxud səhra məhkəməsi) isə İrəvan komendantının sədrliyi ilə keçirilirdi (370, 138; 499, 460).

Yerli əhalinin adət-ənənələrinə qarşı çıxmaq istəməyən Rusiya icra orqanları şəriət məhkəmələrini saxlamaq məcburiyyətində qaldı. Bu məhkəmələr əsasən dairə və kəndlərdə fəaliyyət göstərirdi. Məhkəmə hakimi hesab edilən qazılər mübahisəli məsələləri hər iki tərəfin razılığı ilə həll edirdilər. Şəriət məhkəmələrinin üzvlərinə hökumət məvacib verirdi. Əyalətlərdə onların məvacibi ildə 704 gümüş rubl, məhsulla 72 xalvar buğda, 5 xalvar çəltik və 4 xalvar arpa təşkil edirdi (499, 461).

Vilayətin maliyyə bölməsi əvvəllər birbaşa vilayət xəzinə idarəsinə tabe idi. Lakin sonradan bu bölmə gəlir və xəzinə əmlakına nəzarət idarəsi kimi ayrıca bölmə kimi fəaliyyət göstərməyə başladı. Onun tərkibi idarə rəisindən, məsləhətçidən və vilayət xəzinədarından ibarət idi. Burada xüsusi dəftərxana da fəaliyyət göstərirdi (370, 137; 499, 460).

Şəhər idarəçiliyi də yenidən quruldu. İrəvan şəhərində ayrıca polis idarəsi yaradıldı. Onun tərkibi polis rəisindən, xüsusi pristavdan, şəhər məhəllələrini idarə edən 4 yüzbaşıdan və 10 nəfər

onbaşıdan, 1 katibdən, Azərbaycan türkcəsində yazan 1 mirzə və 1 tərcüməçidən ibarət idi (370, 138).

Vilayətdə dairələr rus hərbçləri tərəfindən idarə edilirdi. Dairə rəisliyində yerli əhalidən biri Azərbaycan türkü, digəri isə erməni olmaqla iki köməkçisi var idi. Digər tərəfdən, onların sərəncamında vergi işlərinə baxan komissarlar fəaliyyət göstərirdilər. Komissarları mirzələr müşayət edirdilər (370, 137).

1840-cı il aprelin 10-da keçirilən inzibati-ərazi islahatı nəticəsində "Erməni vilayəti" qəza kimi Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi. Qəza idarə orqanlarının tərkibi bir qədər genişləndirildi. Belə ki, İrəvan şəhərinin idarə strukturuna daxil olan **polis idarəsinin tərkibi**-1 şəhər rəisindən, 2 pristavdan, 4 məhəllə nəzarətçisindən, 1 mirzə və 1 köməkçisindən, 3 orta və 3 aşağı məvacibli mirzədən, 22 polis qulluqçusundan; **qəza məhkəməsi** 1 iclasçıdan, 1 şəhərli, 1 kəndli, 2 katibdən, 4 şöbə müdirindən, 4 köməkçidən və 1 protokol yazandan, 1 qeydiyyatçıdan, 1 arxivçidən, 1 tərcüməçidən, 4 yüksək, 4 orta və 8 aşağı məvacibli mirzədən; **qəza xəzinadarlığı** 1 xəzinədardan, 1 mühasibatdan və 1 köməkçisindən, 2 orta və 3 aşağı məvacibli mirzədən, 3 andçıdan ibarət oldu (370, 59-62). Bundan əlavə, Qulp duz mədəninə nəzarət üçün xüsusi idarə orqanları da yaradıldı. Onun tərkibi belə idi: 1 mədən rəisi və 1 köməkçi, 1 mirzə, 1 tərcüməçi, 1 katib, 3 minadüzən, 2 dükan gözətçisi və 2 xidmətçi (371, 62).

Lakin 1849-cu il iyunun 9-da çarın fərmanı ilə İrəvan daha geniş və birbaşa mərkəzə tabe olan inzibati-ərazi forması olan quberniyaya çevrildi. Ouberniyada hər birinin öz vəzifəsi və aparatı olan müxtəlif idarə orqanları yaradıldı. Quberniyanın başında həm hərbi, həm də mülki işlərə baxan qubernator dururdu. Onun vitse-qubernator adlanan bir köməkçisi vardı. Qubernatorun yanında dəftərxana, xüsusi hərbi tapşırıqları yerinə yetirən məmurlar dəstəsi fəaliyyət göstərirdi. Qəza jandarm müfəttişi və İrəvan şəhər polis idarəsi də birbaşa qubernatora tabe idi (372, 140).

İrəvan quberniyasının özünün ayrıca məhkəməsi, prokurorluğu və tibbi sahəsi var idi. Əvvəllər məhkəməyə tabe olan polis

ondan ayrıldı. Həm mülki, həm də cinayət işinə baxan məhkəmənin əsas tərkibi müəyyənləşdirildi. Bu bir sədr, iki məsləhətçi, iki katib, zadəgan təbəqəsindən və yaxud tacirlərdən biri olmaqla dörd nəfər iclasçıdan; Onların köməkçiləri 6 nəfərdən ibarət idi. Bundan əlavə, məhkəmə işlərində bir protokolçu, bir qeydçi, bir tərcüməçi və on iki mirzə çalışırdı (372, 140).

Quberniya prokurorluğunun tərkibi isə çox sadə idi. Onun heç bir köməkçisi yox idi. Prokurorun yanında yalnız bir katib və bir mirzəsi olurdu (372, 140).

İrəvan quberniyasına daxil olan şəhərləri idarə etmək üçün ayrıca idarə orqanları təşkil olundu. Quberniyada olan beş – İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Yeni Bəyazid şəhərlərini idarə etmək polis idarəsinə tapşırılmışdı. Lakin İrəvan qalasının işlərinə baxmaq üçün əlavə bir nəzarətçi təyin olunmuşdu (372, 141).

Quberniya inzibati-ərazi cəhətdən qəzalara, sonuncular sahələrə və bunlar isə kəndlərə bölünmüşdü. Qəzaları qəza, sahələri sahə rəisləri idarə edirdi. Onların hər birinin yanında dəftərxana fəaliyyət göstərirdi. Qəza rəisləri qəzalarda polis rolunu oynamaqla bərabər, dövlət əmlakının qoruyucusu idi. Eyni zamanda kənd əhalisinə nəzarət emək, onların müxtəlif problemlərini həll etmək qəza rəislərinin səlahiyyətində idi. Sahə rəisləri də yerlərdə həm məhkəmə, həm də polis rolunu oynayırdı. Kəndləri isə kənd ağsaqqalları idarə edirdi. Əvvəlki kimi, Azərbaycan türk kəndlərinin başçısı kəndxuda, kovxa, erməni kəndlərinin başçısı isə məlik adlanırdı (372, 140-141). Bu idarə orqanları bir-biri ilə sıx bağlı idi.

İrəvan quberniyasında ayrıca tibbi sahə də yaradılmışdı. Quberniyada bir katibi olan bir baş həkim vardı. Ona biri İrəvan şəhərində və beşi isə qəzalarda fəaliyyət göstərən altı həkim dəstəsi tabe idi. Bu sahəyə bir baytar həkim də daxil idi (372, 141)

Beləliklə, Osmanlı və Rusiya dövrləri istisna olmaqla, İrəvan bölgəsinin idarəçilik sistemi Səfəvilər dövlətinin idarəçilik sistemi əsasında qurulmuşdu. Yalnız bu iki dövlətin tərkibində olan dövr-

lərdə bölgədə idarə quruluşu onların idarə strukturlarına uyğunlaşdırılmışdı.

**İrəvan bölgəsinin hərbi müdafiə işi.** Rusiya işğalına qədər Azərbaycanın digər ərazilərində olduğu kimi, İrəvan bölgəsində də silahlı qüvvələr iki qismə-nizami-daimi və qeyri-nizami qoşuna bölünmüşdü. Bu silahlı qüvvələr, Osmanlı dövrü istisna olmaqla, Səfəvilər dövlətinin qoşun sisteminə müvafiq şəkildə təşkil olunmuşdu. Belə ki, İrəvan hakimlərinin qoşunu şəxsi qvardiyadan, nizami qoşun hesab olunan sərbazlardan, maaflardan, elbəyilər və bəylərin dəstələrindən ibarət idi. Hakimlərin şəxsi qvardiyasını nökərlər təşkil edirdilər. Onlar ən mükəmməl dəstə və xanın şəxsi mühafizəçiləri idilər. Bu dəstəyə tüfəngçilər deyilirdi. Onların başçısı tüfəngçi ağası adlanırdı (61, 29) Nökərlər hər cür vergi və mükəlləfiyyətdən azad idilər, onların məvacibi, hərbi sursatı xan divanxanası tərəfindən ödənilirdi və nökərlər yaxşı qulluğa görə tez-tez hədiyyələrlə mükafatlandırılırdılar (181, 391; 253, 43).

Nizami qoşun sərbaz alayı adlanırdı. Bu alaylar piyada və süvarilərdən ibarət idi. Təəssüf ki, müstəqil xanlıq dövrü istisna olmaqla əvvəlki dövrlərdə olan bu qoşun növü haqqında heç bir məlumat əldə etmək mümkün olmadı. Yalnız "Təzkirəti əl-mülkdə" İrəvan bəylərbəyinin 2860 nəfərlik canlı qüvvəsi olan nizami hərbi qüvvəyə malik olduğu göstərilmişdi (298, 143).

Mənbədə isə İrəvanın sonuncu hakimi Hüseynqulu xanın malik olduğu bu qoşun növü haqqında ətraflı məlumat vardır (Qeyd etmək lazımdır ki, mənbədə təsvir edilən bu qoşun növü haqqında məlumatı Osmanlı və Rusiya dövrü istisna olunmaqla bəhs edilən bütün dövrə şamil etmək olar-E.Q). Onun dövründə İrəvan xanlığının hərbi qüvvələri iki nizami sərbaz batalyonundan və yerli əhalidən səfərbər edilmiş süvari qoşundan ibarət olmuşdu. Bu qoşun həmçinin bir neçə altı – funtluq topa, falkonet və qalada yerləşdirilmiş toplara malik idi (499, 451-452). Sərbazlar yalnız yerli əhalinin vergi verməyən təbəqəsindən təşkil olunurdu. Onlar da sırf hərbi qulluqda olduqlarından hər cür vergi və mükəlləfiyyətdən azad idilər. Sərbaz alayının başında hərbi rəis olan sərhəng dururdu.

O, xanın yaxın qohumlarından təyin olunurdu. Sərhəngə onun köməkçiləri hesab olunan yavər, sultan, naib və yüzbaşılar tabe idilər (181, 392). 1817-ci ildə İrəvanda sərbaz alayının başçısı Məhəmməd bəy olmuşdu (486, 12).

Sərbaz alayını saxlamaq xanlara baha başa gəlirdi. Ona görə də, dinclik dövründə xan şəxsi mühafizəçilərindən başqa digər qüvvələri evə buraxırdı. Onlar əkinçiliklə və digər kənd təsərrüfatı işləri ilə məşğul olurdular, bu müddət ərzində isə heç bir məvacib almırdılar. Lakin bu qüvvələr lazım gəldikdə hərbi təlimlər keçirmək üçün yenidən səfərbər olunurdu. Təlimlər zamanı isə sərbazlar xandan məvacib alırdılar (499, 452; 181, 392). İrəvan hakimləri nizami qoşununun xüsusi siyahısını tərtib etdirirdilər. Bu işlə xüsusi təyin olunmuş bir mirzə məşğul olurdu. Həmin mirzə divanın üzvlərindən biri olmalı idi (499, 452).

İrəvan bölgəsində maaflardan təşkil olunmuş silahlı dəstələr də fəaliyyət göstərirdi. Maaflar hər hansı vergi və mükəlləfiyyətdən azad idilər və daimi hərbi işlə məşğul olurdular. Maaflıq irsən keçirdi. Onlar qoşunun əsas hissəsini təşkil etməklə bərabər, polis rolunu da yerinə yetirirdilər (194, 470; 181, 391; 233, 85; 294, 46). Hüseynqulu xanın dövründə Azarbaycan qarapapaq türk tayfası, ayrumlar maaf rolunu oynamışdılar. Yuxarıda göstərildiyi kimi, sərdar tərəfindən İrəvan xanlığının müxtəlif sərhəd ərazilərində yerləşdirilən və sərhəddi qoruyan bu tayfalar heç bir vergi vermirdi (499, 450; 220, 51-52).

Qeyri-nizami silahlı qüvvələr isə müharibələr ərəfəsində İrəvan hakimlərinin əmri ilə mahal naibləri, elbəyilər və iri bəylərin səfərbərliyə aldıqları yerli sakinlərdən ibarət olurdu. Səfəvilər dövründə Çuxursəd bəylərbəyləri olan İrəvan hakimləri lazım olduqda 4287 nəfərdən ibarət qeyri-nizami silahlı canlı qüvvə toplaya bilirdilər (298, 144). İrəvan bölgəsində qeyri-nizami qoşunun əsas özəyini elatlardan toplanmış silahlı qüvvələr təşkil edirdi. Sonuncu İrəvan hökmdarı Hüseynqulu xanın dövründə ayrı-ayrı elatların xanlığın silahlı qüvvələri üçün verdiyi süvari dəstələrin sayı haqqında 1829-1832-ci illərdə keçirilmiş kemeral təsvirdə maraqlı

məlumat verilmişdi. Bu məlumata görə, Zilani kürdləri-1.000 atlı, Cəmadinlər-250 atlı, Böyük Çoban Qara, Saraşlı, Dəmirçili, Kərimbəyli, Qafarlı və Şeyxlər birlikdə 300 atlı, Göyçə mahalında məskunlaşmış Qarapapaqlar (Nağı xanın başçısı olduğu qarapapaqlar) 1000 atlı, Dərəçiçək mahalı qarapapaqları (Mərdan xanın başçısı olduğu qarapapaqlar) 600 atlı, Ayrumlar 200 atlı, Ağsaqqallılar 90 atlı, Seyidli və Taşanlılar 160 atlı dəstə toplayırdılar. Ümumilikdə elatların xan qoşunu üçün verdiyi süvarilərin sayı 3.600 nəfərə bərabər idi (499, 457, 1130). Əsasən süvarilərdən ibarət olan bu qüvvələr müharibələr dövründə öz cəsarəti ilə düşmənə böyük zərbələr vururdu.

İrəvan hakimlərinin müxtəlif dövrlərdə döyüş meydanına çıxardıqları silahlı qüvvələrinin sayını nəzərdən keçirək. XVIII yüzilliyin 80-ci illərin məlumatına görə, İrəvan xanı döyüş meydanına 5 minə qədər hərbi qüvvə çıxara bilirdi (105, 17). Lakin İrəvan hakimləri müharibələr dövründə lazım olduqda yerli əhalinin və köçəri elatların hesabına hərbi qüvvələrinin sayını daha da artırırdılar. Qeyd etmək lazımdır ki, İrəvan qalasında saxlanılan qarnizonun tərkibi 2, 3, bəzən də 5 min nəfərə çatırdı (495, 154; 213, 242; 236, 28). Bundan əlavə, Ağa Məhəmməd şah Qacarın qoşunlarının İrəvana hücumu zamanı Məhəmməd xan mövcud silahlı qüvvələrindən əlavə, yerli əhalidən 7 min nəfərlik canlı qüvvə toplamışdı (86, 64-65). Başqa bir məlumata görə, qraf Qudoviçin başçılığı ilə rus qoşunu İrəvan qalasına hücum edərkən Hüseynqulu xan qardaşı Həsən xanın komandanlığı altında 2 minə qədər yerli İrəvan qoşun hissələrini qalada saxlayaraq, özü 5 min nəfərə qədər canlı qüvvə ilə Gərni çayı keçərək keçilməz Vedi dərəsinə çəkilmişdi (129, 243-244). İrəvanlılar fövqəladə hallarda lazım gəldikdə döyüş meydanına 14.000 nəfərdən çox silahlı qüvvə toplaya bilirdi (428, 627).

Rusiya işğalına qədərki dövrdə İrəvan hökmdarları həm də xanlığın hərbi qüvvələrin baş komandanı hesab olunurdular. Lakin qoşuna başçılıq hakimin özü tərəfindən təyin edilmiş ailə üzvlərindən ən bacarıqlısına həvalə edilə bilərdi. Məsələn, İrəvanın

tanınmış hakimlərindən biri olan Hüseynəli xan məktublarının birində oğlunun (Qulaməli – E. Q.) İrəvan qoşunlarının sərkərdəsi təyin edilməsi haqqında yazırdı (48, 88-89). Hüseynqulu xanın dövründə isə qardaşı Həsən xan İrəvan qoşununa komandanlıq etmişdi (499, 451).

İrəvan xanlığının müdafiəsində qalalar da böyük rol oynamışdı. Xanlığın uzunömürlü olmasının bir səbəbi də onun möhkəm hərbi qalalara malik olması idi. Bu qalalardan ən möhtəşəmi İrəvan və Sərdarabad qalaları idi. Əsrlər boyu İrəvana gələn səyyahlar, diplomatlar, dövlət adamları və b. İrəvan qalası haqqında ətraflı məlumatlar vermişlər. Bu qalalar haqqında “Mədəniyyət bölməsində ətraflı məlumat veriləcəkdir.

Beləliklə, Rusiya işğalına qədərki dövrdə İrəvan bölgəsinin hərbi qüvvələri Səfəvilər dövlətinin qoşun növünə oxşar qaydada təşkil olunmuşdu. Bu qoşun növü nizami ordudan və müxtəlif dövrlərdə fövqəladə vəziyyətlə bağlı bölgədən toplanılan qeyri-nizami silahlı qüvvələrdən ibarət idi.

# VI FƏSİL

# İRƏVAN BÖLGƏSİNİN ƏRAZİSİ, SƏRHƏDLƏRİ VƏ İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında)

## 6.1. İrəvan bölgəsinin ərazisi, sərhədləri (XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında)

Əldə etdiyimiz mənbələrin verdiyi məlumata görə, XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında Azərbaycanın İrəvan bölgəsi tarixən Ağrıdağ düzənliyini, Göyçə gölü hövzəsini və Araz çayından cənuba və cənub-qərbə uzanan bəzi əraziləri əhatə etmişdi. Azərbaycanın qərbində yerləşən bu bölgə şimaldan və şimal-qərbdən Kartli-Kaxetiya çarlığı, Gəncə xanlığı, Qazax və Şəmşəddil sultanlıqları, Ahalsıx paşalığı, cənubdan Bəyazid paşalığı və Xoy xanlığı, qərbdən Qars paşalığı, şərqdən isə Qarabağ və Naxçıvan bölgələri ilə həmsərhəd idi. Lakin Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan ərazisi də bəhs etdiyimiz dövr ərzində siyasi vəziyyətlə əlaqədar olaraq, habelə şah və sultanların apardığı inzibati-ərazi islahatları nəticəsində genişlənmiş və yaxud kiçilmişdi. 1783-1787-ci illərdə Rusiya dövlətinin Kartli-Kaxetiya sarayındakı səlahiyyətli nümayəndəsi S.D.Burnaşov yazırdı ki, "xanlıqların durumu, sərhədləri, aralarındakı münasibətlər, ittifaq və müharibələr, qonşularına nisbətən yerləşməsi sabit deyildi. Sərhədlər fasiləsiz müharibələr nəticəsində daim dəyişirdi" (105, 25-26). S.D.Burnaşovun bu məlumatını bəhs etdiyimiz bütün dövrə şamil etmək olar.

Bəhs etdiyimiz dövrdə İrəvan bölgəsinin sərhədlərində baş verən dəyişikliklərə keçməzdən əvvəl, onun ərazisi, həmsərhəd

olduğu dövlət və əyalətlər haqqında bir qədər ətraflı məlumat vermək istərdik. Belə ki, XVIII yüzilliyin birinci yarısında müxtəlif illərdə aparılmış inzibati-ərazi islahatları nəticəsində İrəvan bölgəsində ərazi dəyişikliyi baş vermişdi. Bunu Osmanlı dövlətinin və Nadir şah Əfşarın (1736-1747) apardığı inzibati-ərazi islahatlarının nəticələri ilə izləmək olar. 1728-ci ildə Osmanlı dövlətinin həyata keçirdiyi inzibati-ərazi islahatı nəticəsində Naxçıvan bölgəsinin bəzi əraziləri, Maku sultanlığı İrəvan əyalətinin tərkibində olmuşdu (38, 8-9).

XVIII yüzilliyin birinci dövrünə nisbətən müstəqil İrəvan xanlığının ərazisi və sərhədləri haqqında bir qədər ətraflı məlumatlar vardır. Müstəqil olduqdan sonra xanlığın siyasi və iqtisadi həyatında nisbətən sabitlik yaranmışdı. Nadir şah Əfşarın inzibati-ərazi islahatları ilə əlaqədar olaraq İrəvan bölgəsindən qoparılmış ərazilər yenidən geri qaytarılmışdı. Lakin bu ərazilərin hansı yolla geri qaytarılması barədə mənbələrdə heç bir məlumat yoxdur. Ola bilsin ki, Nadir şahın hakimiyyətinin son illərində Azərbaycanda, eyni zamanda onun tərkib hissəsi olan İrəvan bölgəsində baş vermiş üsyan nəticəsində bu mümkün olmuş və şahın ölümündən sonra irəvanlılar öz tarixi torpaqlarına sahib olmuşdular (bu haqda əvvəlki fəsillərdə məlumat verilmişdi – E. Q.).

İrəvan xanlığının ərazisi və sərhədləri haqqında ilkin məlumatlara daha çox XVIII yüzilliyin ikinci yarısına aid mənbələrdə və xanlığın işğalından sonra tərtib edilmiş rusdilli toplularda, rus qafqazşünaslarının əsərlərində rast gəlmək olur. II Yekaterina hökuməti tərəfindən 1780-ci ilin əvvəllərində Həştərxana göndərilmiş general A.V.Suvorova, 1783-1787-ci illərdə Rusiya dövlətinin Kartli-Kaxetiya sarayındakı səlahiyyətli nümayəndəsi S.D.Burnaşova və Qafqazdakı rus qoşunlarının baş komandanı R.İ.Kovalenskiyə məxsus qeydlər məhz belə məlumatlardandır.

Məlumdur ki, 1768-1774-cü illər Osmanlı dövləti ilə müharibədə qələbə qazanan Rusiya Şimali Qafqazda mövqeyini möhkəmləndirdikdən sonra Cənubi Qafqazın işğalına hazırlaşırdı. Bu məqsədlə XVIII yüzilliyin 80-ci illərin əvvəllərində II Yekaterina hökuməti A.V.Suvorova Cənubi Qafqaza yürüş etmək tapşırığı

verdi. 1780-ci illərin əvvəllərində Həştərxana gələn sərkərdə ilk əvvəl bölgə haqqında kəşfiyyat məlumatları toplamağa başladı (227, 44). Onun İrəvan xanlığının ərazisi haqqında əldə etmiş olduğu məlumat natamam olsa da çox əhəmiyyətlidir. A.V.Suvorov qeyd edirdi ki, “ (Bu xanlıq) İrəvan şəhərindən (cənuba) Osmanlı sərhəddinə doğru 150 verst məsafədə yerləşən Bəyazid şəhəri, (qərbdən) 250 verst məsafədə yerləşən Qars şəhəri, (şimaldan) 50 verst məsafədə yerləşən, gürcü çarı İrakliyə tabe olan Pəmbək qalası vasitəsilə Gürcüstanla (Kartli-Kaxetiya – E. Q.) həmsərhəddir” (171, 139). Rusiya sərkərdəsinin verdiyi bu məlumatda İrəvan xanlığının sərhədlərinin yalnız şimal, şərq və cənubunun bir hissəsi haqqında müəyyən təsəvvür yaradır. Lakin qeyd etmək lazımdır ki, A.V.Suvorovun erməni xadimlərinin yalan məlumatları əsasında tərtib etmiş olduğu “Ermənistan” haqqındakı xəritəsi tarixi reallıqdan uzaqdır (90, 157).

Rusiyanın Kartli-Kaxetiya sarayındakı səlahiyyətli nümayəndəsi S.D.Burnaşov İrəvan xanlığının ərazisinə və onunla həmsərhəd olduğu dövlətlərə toxunaraq qeyd edirdi ki, “İrəvan adlandırılan bu xanlığın Arazın sol sahilində yerləsən geniş ərazisi vardır. Bu ərazi şimaldan və şimali-qərbdən Kartli-Kaxetiya, cənubdan yarımgünlük məsafədə yerləşən Naxçıvan xanlığı, qərbdən isə Osmanlı dövləti ilə həmsərhəddir (105, 17). Bu məlumatdan görünür ki, xanlıq şimaldan yalnız Gürcüstanla həmsərhəddir. Əslində İrəvan xanlığının bu tərəfdən böyük hissəsi Qazax, Şəmşəddil sultanlıqları və Gəncə xanlığı ilə həmsərhəd olmusdu. Görünür ki, İrəvanın şərq sərhəddi haqqında onun ümumiyyətlə heç bir dəqiq məlumatı olmamışdır.

XVIII yüzilliyin axırlarında Qafqazdakı Rusiya qoşunlarının baş komandanı olmuş P.İ.Kovalenski 1800-cü ildə yazdığı gündəliyində İrəvan xanlığının ərazisini belə təsvir edir: “Onun (Məhəmməd xanın – E. Q.) dövləti Araz çayının sahili boyunca dar sərhəddə yerləşirdi” (192, 118).

Hər üç müəllifdən gətirilmiş bu məlumatlar İrəvan xanlığının xəritəsini tam yaratmağa imkan verməsə də, onun qərb, cənub və şimalının bir hissəsi haqqında müəyyən təsəvvür yaradır.

İrəvan xanlığının sərhədləri haqqında məlumatlara digər mənbələrdə də rast gəlmək mümükündür. Məsələn, A.Araratlının verdiyi məlumatla İrəvan xanlığının cənub, şimal və qərb tərəfdən sərhədlərini müəyyən etmək olar. 1795-ci ildə Ağa Məhəmməd şah Qacarın İrəvana hücumu ilə bağlı hadisələri təsvir edən müəllif İrəvanın bəzi yaşayış məntəqələri haqqında məlumat vermişdir. Onun cənub tərəfdən Ağrıdağ dağı, qərb tərəfdən Şörəyel vasitəsilə Osmanlı dövləti ilə, şimal tərəfdən Pəmbək düzənliyi vasitəsilə Kartli-Kaxetiya ilə həmsərhəd olması haqqında məlumatı xüsusilə qiymətlidir (86, 53, 88-89).

1813-cü il oktyabrın 12-də bağlanmış Gülüstan müqaviləsindən sonra Qacar dövləti ilə Rusiya arasında sərhəd xəttinin müəyyən edilməsi ilə bağlı yaradılmış komissiyaların hesabatlarında, ayrı-ayrı rus zabitlərinin və sonuncu İrəvan hakimi Hüseynqulu xanın məktublarında İrəvan xanlığının şimal sərhədləri haqqında qiymətli məlumatlar verilmişdi. Bu məktublara görə, İrəvan Şörəyel tərəfdən Arpaçay çayı vasitəsilə Osmanlı dövləti ilə həmsərhəd idi. Şimal tərəfdən isə sərhəd xətti qərbdən şərqə Ahalsıx paşalığından başlayaraq Şörəyel dağlarından keçərək Pəmbəyi Loru düzənliyindən ayıran Daş çayının Pəmbək çayına töküldüyü yerə və Bozabdal sıra dağlarına qədər, buradan sərhəd xətti Həmzəçimən çayı və eyniadlı yaşayış məntəqəsindən, Şeytanağac yaşayış məntəqəsinin yerləşdiyi Gil düzənliyindən, Balıqçay çayından, Baratgədik yüksəkliyindən keçərək Eşşəkmeydan düzənliyi, Zod çayı, Dəlican dərəsindən keçərək Göyçə gölünün şimal şərq istiqamətində hərəkət edirdi. Cənub-qərb tərəfdən Qarabağ xanlığı ilə sərhəddi Mehri yüksəkliyi və Kəpənək çayın sol sahilindən keçirdi (220, 40-46; 221, 18-24; 222, 4-46). Bu məlumatların İrəvan xanlığının sərhədlərinin dəqiqləşdirilməsində mühüm əhəmiyyəti vardı.

İrəvan xanlığının sərhədləri haqqında məlumata A.S.Qriboyedovun 1827-ci il dekabrın 24-də yazdığı "İrəvan əyalətinə səyahət" adlı məktubunda da rast gəlmək olar. Əsasən Osmanlı dövlətini İrəvan xanlığından ayıran sərhəd xəttini təsvir edən müəllif qiymətli məlumatlar vermişdi. O, hər iki dövlət arasında

cənubdan şimala doğru təbii sərhədləri belə təsvir edir: sərhəd xətti Qulp kəndi yaxınlığında dərin və geniş olmayan Acıçay çayı boyunca şimal istiqamətində Koroğlu dağı, Qızıldağ sıra dağları boyunca hərəkət edərək Arpaçay çayının Araz çayına töküldüyü yerdə yerləşən Hacı Bayramlı kəndindən keçir, buradan sərhəd Arpaçay çayı boyunca Talın mahalından keçərək Şörəyelə qədər davam edirdi (159, 121-125).

İrəvan xanlığının ərazisi və siyasi sərhədləri haqqında bir qədər ətraflı məlumata işğaldan sonra tərtib olunmuş toplu və rus qafqazşünaslarının əsərlərində rast gəlmək mümkündür. XIX yüzilliyin 30-cu illərində tərtib edilmiş "Rusiya işğallarının icmalı" toplusunda İrəvan xanlığının sərhədləri təsvir edilmiş və hətta onun ərazisinin sahəsi göstərilmişdi. Topluda qeyd edilir ki, "İrəvan xanlığı $61^0$ və $64^0$ şərq uzunluq dairəsi ilə, $41^0$ və $39^0$ şimal en dairəsi arasında yerləşirdi. Şimaldan Yelizavetpol (keçmiş Gəncə xanlığı – E. Q.), Şəmşəddil, Qazax, Pəmbək və Şörəyel distan-siyaları, cənubdan Xoy xanlığı, Maku mahalı və Bəyazid paşalığı, qərbdən Kağızman və Qars paşalıqları ilə həmsərhəd idi. Ümumilikdə İrəvan xanlığının ərazisi 11 min kv.verstə bərabərdir (260, 253). Rus qafqazşünaslarından olan hərb tarixçisi N.Dubrovin isə İrəvan xanlığından bəhs edərkən onun "şimaldan Gəncə xanlığı, Şəmşəddil, Qazax, Pəmbək və Şörəyel distansiyaları, şərqdən Qarabağ və Naxçıvan xanlıqları, cənub və qərbdən isə İran (Qacar dövləti – E. Q.) və Osmanlı əraziləri ilə" həmsərhəd olduğunu qeyd etmişdi (181, 327).

İrəvan xanlığının sərhədləri və onun ərazisi haqqında məlumata İ.Şopenin əsərində də rast gəlmək mümkündür. İşğaldan sonra yaradılmış "Erməni vilayəti"nin sərhədlərinə toxunan müəllifin verdiyi məlumata görə, İrəvan xanlığının sərhəddi qərb tərəfdən onu Qars paşalığından və Kağızman sancağından ayıran Arpaçay, Qəbir dağ silsiləsilə və Koroğlu dağı ilə cənub istiqa-mətində uzanaraq Balıq gölə qədər, buradan sərhəd şərq istiqa-mətində dönərək Bəyazid paşalığından xanlığı ayıran Ağrıdağ silsiləsi boyunca istiqamətlənir, şərqdən Qarabağ xanlığı, şimaldan isə Pəmbək, Qazax, Şəmşəddil və keçmiş Gəncə xanlığı ilə həm-

sərhəd olduğu göstərilir. Burada qeyd edilən sərhədlərin uzunluğu haqqında da məlumat öz əksini tapmışdır (499, 350-353).

İrəvan xanlığının sərhədləri haqqında yuxarıda verilən bütün məlumatlar ümumi xarakterli məlumatlardır. Lakin XIX yüzilliyin 70-80-ci illərində və XX yüzilliyin əvvəllərində nəşr olunmuş bəzi əsərlərdə Azərbaycanın şimal xanlıqlarının və eyni zamanda onun bir hissəsi olan İrəvan xanlığının xəritəsi öz əksini tapmışdı (Bax.əlavə, şəkil 3, 4, 5, 6, 7 və 8). Xəritələrdə xanlığın sərhədləri, ərazisi və həmsərhəd olduğu dövlət və xanlıqlar haqqında tam təsəvvür yaradır. Lakin bu xəritələrin çatışmayan cəhəti İrəvana məxsus bəzi ərazilərin ondan ayrı göstərilməsidir.

İndi isə bəhs etdiyimiz dövr ərzində ayrı-ayrı illərdə İrəvan bölgəsinin ərazi itkisi ilə bağlı mənbələrdə olan məlumatlara müraciət edək. Belə ki, 1639-cu il mayın 17-də Osmanlı dövləti ilə Səfəvilər arasında bağlanmış Qəsri-Şirin müqaviləsindən sonra İrəvan ərazisi Səfəvilər dövlətinin tərkibində qalmışdı. Lakin müqaviləyə görə, bölgəyə məxsus bəzi ərazilər Osmanlı dövlətinin tərkibinə keçdi. Məşhur Osmanlı səyyahı Ö.Çələbi bu haqda ətraflı məlumat vermişdi. Səyyahın gətirdiyi məlumatın maraqlı cəhəti ondan ibarətdir ki, burada İrəvan bölgəsinin ərazisi qərb tərəfdən daha geniş olması haqqında açıq-aydın bilgilər verilir. O, yazır ki, “Muqazberd qalası Şörəyel torpağında yerləşirdi. Şörəyelin özü qızılbaşların əlində qalmış, lakin bütün nahiyə Qars hakimiyyəti altına keçmişdi. Bu iki hakimliyin arasında olan sərhəd Arpaçay çayı boyunca keçirdi. Onun şərq sahili Səfəvilərin, qərb sahili isə Qars hakimiyyəti altında idi (495, 200). Səyyahın verdiyi məlumatdan belə çıxır ki, İrəvan bölgəsinin qərb sərhədləri əvvəl Muqazberd qalasına qədər uzanmışdı. Lakin onu da qeyd etmək olar ki, Qəsri-Şirin müqaviləsindən sonra İrəvanın qərb tərəfdən təyin olunmuş sərhədləri Rusiya işğalına qədər dəyişməz qalmışdı.

Tarixi ədəbiyyatda 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Makunun müstəqil xanlıq kimi fəaliyyət göstərildiyi qeyd edilir (290, 760; 298, 86; 75, 12-14; 76, 86-112; 83, 221). Lakin bəzi mənbələrdə İrəvan bölgəsi Rusiya tərəfindən işğal olunana qədər Makunun sultanlıq kimi onun tərkibində olduğu göstərilmişdi.

XVIII yüzilliyin birinci rübünə aid mənbə hesab olunan "Təzkirəti-əl-mülk" əsərində Maku sultanlıq kimi mərkəzi İrəvan şəhəri olan Çuxursəd bəylərbəyliyinin ərazisinə daxil olduğu göstərilmişdir (61, 143). Onu da qeyd etmək yerinə düşərdi ki, Maku hakimləri vaxtilə İrəvan ərazisində də yaşamış Bayat tayfasından idilər. Belə ki, şah Sultan Hüseyn (1694-1722) Makunu Səfəvilərin düşməni olan mahmudi kürdlərinin hücumlarından qorumaq üçün 1706-cı ildə İrəvan ətrafında yaşayan 300-ə yaxın Bayat ailəsini buraya köçürmüşdü. Sonralar İbrahim bəyin başçılığı ilə bu ailə Makunun siyasi-iqtisadi həyatında böyük rol oynamışdı. Nadir şah Əfşarın ölümündən sonra isə İbrahim Mirzənin oğlu Əhməd sultan Maku xanlığının əsasını qoymuşdu (27, 25).

Maraqlıdır ki, müstəqil xanlıq kimi göstərilən Makunun hakimləri, mənbələrə görə, hələ XVIII yüzilliyin 80-ci illərin əvvəllərində İrəvan taxt-tacı uğrunda gedən mübarizələrdə fəal iştirak etmiş və burada hakim olmaq iddiasına düşmüşdülər. Sənədlərdə Maku hakimi Əhməd soltan İrəvanın nüfuzlu əyanlarından olduğu göstərilmiş və xan kimi deyil, sultan kimi qeyd olunmuşdu (3, 16-17; 6, 961-962). Bunu təsdiq edən faktlardan biri də odur ki, S.D.Burnaşovun əsərində Azərbaycanın ayrı-ayrı xanlıqları haqqında məlumat verilərkən Maku müstəqil xanlıq kimi deyil, İrəvan xanlığının tərkibinə daxil olan bir ərazi kimi göstərilmişdi. S.D.Burnaşov yazırdı ki, "Əli soltanın (Əhməd soltan – E. Q.) rəhbərliyi altında olan Maku qalası 600 həyətə malik kiçik ərazisi ilə İrəvan xanlığına məxsus idi (105, 17-18). XIX yüzilliyin əvvəllərinə aid mənbələr Makunun İrəvan xanlığına məxsusluğunu qəti şəkildə təsdiqləməyə xeyli faktlar verir. 1801-ci ilə aid arxiv sənədində "Baba xana tabe olmaqdan boyun qaçıran xoylu Cəfərqulu xanın İrəvan hakiminə məxsus olan Maku adlı yerdə yaşadığı" göstərilmisdi (3, 28). İrəvan xanlığının sonuncu hakimi Hüseynqulu xanın (1806-1827) dövründə də Makunun İrəvandan asılı olmasını arxiv sənədləri təsdiq edir. General Krasovskinin 1827-ci il dekabrın 24-də Paskeviçə yazdığı məktubunda göstərilirdi: "İrandan (Qacar dövlətindən – E. Q.) alınan məlumata görə, Maku mahalı İrəvan xanlığına məxsusdur... Sərtib Məhəmməd

xan və sərhəng Əhməd xan mənə deyirlər ki, Maku hakimi Əli xanın inadlı cəhdinə baxmayaraq, bu ərazi sülh müqaviləsindən sonra iranlılara güzəşt edilmişdi. Mən bu xəbəri təsdiq etməyə səbəb tapmasam da, Maku dairəsinin İrəvan xanlığının bir hissəsi olmasını sizə bildirməyə özümə borc bilirəm. Bu ölkə 31 kənddən ibarətdir... Maku ölkəsi həqiqətən də həmişə İrəvan hakiminin təsiri altında olmuşdu. İrəvan xanı onun hakimi ilə iltifatla davranmışdı. Çünki bilirdi ki, heç bir qüvvə onların arasını vura bilməz ... 1824-cü ildə Abbas Mirzə qoşunla Maku dairəsini ələ keçirmək üçün hərəkət edəndə, onun hakimi şahzadəyə müqavimət göstərərək onu yaxın buraxmamışdı. Yalnız Abbas Mirzənin hüzuruna gələn İrəvan sərdarının qardaşı Həsən xanın inandırmasından və ondan qiymətli hədiyyələr aldıqdan sonra Makunu tərk etmişdi. Əgər bu ərazi İranda qalarsa, İrəvan xanlığının Arazın hər iki sahilində yerləşən torpaqlarının bir hissəsini hədələyən bədxah adamların təhlükəli yuvası olacaqdır. Əgər əvvəlki kimi bu ərazi İrəvan hakimiyyətinə tabe olarsa, onda İran və türklərin hərəkətlərinin qarşısını almaq üçün maneə olacaqdır” (169, 49-51). Makunun İrəvanla sıx bağlılığı və ondan asılı olmasını İ.Şopen də qeyd edirdi. O, Maku hakimi Əli soltanın Hüseynqulu xandan aldığı tiyul müqabilində İrəvan xəzinəsinə vergi ödədiyini göstərmişdi (499, 968-974). Bu haqda aşağıda daha ətraflı şəkildə bəhs ediləcəkdir.

Maku İrəvanı taxılla və müxtəlif kənd təsərrüfatı məhsulları ilə təchiz edirdi (9, 57-58). Makunun İrəvanla sıx bağlılığını sübut edən dəlillərdən birində göstərilir ki, rus qoşunları tərəfindən İrəvan qalasının sonuncu mühasirəsi zamanı Hüseynqulu xan bütün var-dövləti və ailəsi ilə birlikdə Maku qalasına sığınmışdı (223, 68). Bundan əlavə, heç də təsadüfü deyil ki, yuxarıda İrəvan xanlığının sərhədlərindən bəhs edilən topluda Maku mahal kimi göstərilmişdi (260, 252).

İstifadə etdiyimiz mənbələrə əsasən belə qənaətə gəlmək olar ki, Maku Nadir şah Əfşarın hakimiyyəti dövründə İrəvandan qoparılmış, yalnız Hüseynəli xanın dövründə (1759-1783) yenidən İrəvana tabe edilmiş və İrəvan xanlığının Rusiya tərəfindən işğalına qədər sultanlıq şəkilində onun tərkibində olmuşdu.

İrəvan bölgəsinə məxsus mübahisəli ərazilərdən biri Pəmbək sultanlığıdır. Mənbə və tarixi ədəbiyyatda Pəmbək sultanlığı XVI-XVIII yüzilliyin birinci dövründə Qarabağ bəylərbəyliyinə tabe olan ərazi kimi qeyd edilmişdi (61, 143; 207, 114). Lakin XVIII yüzilliyin ikinci yarısında Pəmbək sultanlığı müstəqil İrəvan xanlığına tabe olmuşdu. XVIII yüzilliyin 80-ci illərin ortalarında və XIX yüzilliyin əvvəllərində baş verən bir sıra siyasi hadisələr bunu deməyə əsas verir. Bu hadisələrdə pəmbəklilər öz xilasını İrəvan hakimində görmüşdülər (182, 145; 304, 219; 398, 56; 409, 599; 179, 218-219). Pəmbək sultanlığı Məhəmməd xanın dövründə İrəvana tabe olmuş, 1802-ci ildə isə Kartlı-Kaxetiya çarlığı tərkibində Rusiyaya birləşdirilmişdi. Onun sahəsi 2.150 kv.verstə bərabər idi (260, 294).

Rusiya işğalından sonra İrəvan bölgəsinin sərhədləri bir müddət xanlıq dövründə olduğu kimi dəyişilməz qalmışdı. Yalnız 1849-cu ildə İrəvan quberniyası yarandıqdan sonra XIX yüzilliyin əvvəllərində ondan qoparılmış Şörəyel və Pəmbək əraziləri yenidən onun tərkibinə qaytarılmışdı.

Beləliklə, mənbələrə əsasən bəhs etdiyimiz dövr ərzində konkret İrəvan bölgəsinin tarixi sərhədlərini belə təsvir etmək olar: bölgə qərb və cənub tərəfdən Osmanlı dövləti ilə həmsərhəd idi. Onun qərb tərəfdən sərhəddi Şörəyel və Talın mahallarını Qars paşalığından ayıran Arpaçay çayı olmuşdur. Bütün dövrə aid mənbələrdə qərb tərəfdən hər iki dövləti ayıran sərhəddin Arpaçay çayı boyunca keçdiyi göstərilmişdi. Arpaçay çayının Araz çayına töküldüyü yerə qədər İrəvanın Qars paşalığı ilə sərhəddi 50 verstə bərabər olmuşdu. Buradan sərhəd xətti cənub istiqamətində Araz çayını keçməklə, Dərəkənd-Parçenis mahalını Kağızman və Diadin sancaqlarından ayıran Qəbirdağ, Ağdağ və yaxud Pirili sildirım dağları boyunca cənub – qərb istiqamətində 30 verstlik uzunluqda Koroğlu dağına qədər uzanırdı, sonra sərhəd xətti cənub-şərqə dönərək Dərəkənd-Parçenis və Sürməli mahallarını Bəyazid paşalığından ayıran Ağrıdağ dağının yüksəklikləri istiqamətində uzananaraq, cənuba doğru Bəyazid və Muş sərhəddi boyunca Makuya, Makudan isə onu Xoy xanlığından ayıran Qotur çayından

keçərək, cənub – şərq istiqamətində Araz çayına doğru seyrələn daşlıq qayalardan onu ayıran Naxçıvan xanlığının Xok mahalı ilə həmsərhəd idi. İrəvan bölgəsinin şimal-şərq tərəfdən sərhəddi Tərtər çayı olmuşdu. Şimal-qərb tərəfdən sərhəd xətti Şörəyel mahalını Ahalsıx mahalından ayıran, Arpaçay çayından başlayaraq şərq istiqamətində Loru düzənliyindən onu ayıran Pəmbək düzənliyi boyunca uzanaraq, İrəvan xanlığını Ağzıböyük, Borçalı, Qazax, Şəmşəddil sultanlıqlarından və Gəncə xanlığından ayıran Həmzəçimən çayının sağ sahili ilə, Eşşəkmeydan düzənliyindən (Eşşəkmeydan Dərəçiçək mahalını Qazax sultanlığından ayıran dağlarla əhatə olunan təpəli düzənlikdir – E. Q.) kecərək Gil düzənliyi, Şeytanağac yaşayış məntəqəsi və Gədikbarat yüksəkliyi boyunca Göyçə gölünün şimal istiqmətində Qarabağ xanlığına doğru uzanmışdı (Bax, şəkil 8).

Beləliklə, mənbələrin təhlili göstərir ki, bəhs etdiyimiz dövr ərzində İrəvan bölgəsinin sərhədləri siyasi vəziyyətlə əlaqədar olaraq müəyyən dövrlərdə ciddi dəyişikliklərə uğramışdı. Bu, əsasən mərkəzi hakimiyyətin apardığı inzibati-ərazi dəyişikliyi və qonşu dövlətlərin işğalçı siyasətinin nəticəsində baş vermişdi.

## 6.2. İrəvan bölgəsinin inzibati-ərazi bölgüsü (XVII yüzilliyin sonu-XIX yüzilliyin birinci rübü)

Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsi də inzibati-ərazi quruluşu baxımından bir-birindən təbii sərhədlər olan çaylar və arxlarla ayrılan mahallara (yalnız Osmanlı dövründə nahiyəyə – E. Q.), mahallar isə kəndlərə bölünmüşdü (38, 9; 253, 44; 239, 48). Bu inzibati-ərazi quruluşu Səfəvilər dövlətindən miras qalmış, Rusiya işğalına qədər və bundan da bir qədər sonrayadək davam etmişdi. İstifadə olunmuş mənbələrin məlumatına görə, İrəvan bölgəsi siyasi vəziyyətdən asılı olaraq ərazi dəyişikliyinə uğrasa da, mahalların adları, adətən, dəyişilməz qalmışdı (165, 54-71; 223, 47; 38, 9; 238, 78; 187, 183-200; 86, 53, 88-89). Mahalları

adətən İrəvan hakimləri tərəfindən iri feodallar arasından seçilmiş mahal rəisləri idarə edirdi. Azərbaycanın digər bölgələrindən fərqli olaraq, İrəvan bölgəsində mahal rəisləri mirbölük adlanırdılar (499, 448; 200, 137). Kəndləri isə naib, kəndxuda, habelə məliklər idarə edirdilər. Azərbaycan kəndlərini idarə edən başçıya naib, kəndxuda, erməni kəndlərini idarə edənlərə isə məlik deyilirdi (470, 2).

XVII yüzilliyin sonu-XVIII yüzilliyin birinci yarısında İrəvan bölgəsinin inzibati-ərazi quruluşunu göstərən ilk mənbə "İrəvan əyalətinin icmal dəftəri"dir. Qeyd edildiyi kimi, XVIII yüzilliyin 20-ci illərin ortalarında İrəvan bölgəsi Osmanlı dövləti tərəfindən işğal edilmiş və burada 1735-ci ilin sentyabrına qədər burada Osmanlı üsul-idarəsi hökmran olmuşdu. Osmanlı hakim dairələrinin 1728-ci ildə apardığı siyahıyaalma nəticəsində tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nə görə, İrəvan əyalətinin aşağıdakı inzibati-ərazi vahidləri olmuşdu: İrəvan şəhəri, Qırxbulaq, Körpü, Maku, Xinzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri və Şörəyel livası (38, 9). Göründüyü kimi, həmin illərdə İrəvan əyalətinin ərazisi xeyli genişlənmiş, bölgənin cənub-şərq tərəfdən sərhədləri Naxçıvana aid olan Zərzəmin və Sədərək nahiyələrini özündə birləşdirmişdi. "İcmal dəftəri"in araşdırıcılarından bəziləri qeyd edirlər ki, "... Şərur nahiyəsi Naxçıvan sancağının tərkibindən çıxarılaraq İrəvan əyalətinə birləşdirilmişdi. Bundan əlavə, Maku, İğdır, Sürməli nahiyələrinin İrəvan əyalətinə birləşdirilməsi ilə bərabər, bu əyalətin ərazisində Göyçə, Məzrə, Xinzirək, Qırxbulaq, Dərəçiçək... və Şörəyel livası yaradılmışdı" (38, 9). Lakin onların gəldiyi nəticə tarixi faktlarla uyğun gəlmir. Yuxarıda göstərildiyi kimi, Şərur nayihəsi, Maku həmişə İrəvana məxsus olmuşdu. Göyçə, Qırxbulaq, Dərəçiçək, Şörəyel mahalları tarix boyu İrəvan bölgəsinin inzibati ərazisi olmuşdu. Bundan əlavə, Məzrə Göyçə mahalının bir hissəsini, Xinzirək Zəngibasar mahalını, İğdır isə Sürməli mahalının bir hissəsini əhatə etmişdi.

"İcmal dəftər"də İrəvan bölgəsinin nahiyələrinə və livasına daxil olan kəndlərin sayı da göstərilmişdi. Bu siyahıyaalmaya görə,

İrəvan bölgəsində 1512 kənd qeydə alınmışdı. Bu kəndlərdən 1423-ü əhali yaşayan abad, 89-u isə boş kənd idi. Bundan əlavə, 9 yaylaq, 1 otlaq və 120 məzrə (kəndlərin sakinləri yaşamayan sərhəd-mərz-E.Q) qeydə alınmışdı (38, 22).

XVIII yüzilliyin birinci yarısında İrəvan bölgəsinin mahallarına aid son məlumat A.Kretatsiyə aiddir. Onun yazdığına görə, Nadir şahın apardığı inzibati-ərazi islahatları nəticəsində İrəvan bölgəsi Körpü, Qırxbulaq, Şörəyel, İğdır, Gərni, Dərəçiçək, Göyçə, Abaran, Şirək mahallarından ibarət olmuşdu (238, 78). Mənbədən göründüyü kimi, bu islahatlar nəticəsində bölgənin bəzi tarixi əraziləri ondan qoparılmışdı. Belə vəziyyət müstəqil İrəvan xanlığının yaranmasına qədər davam etmişdi.

İrəvan müstəqil xanlığa çevrildikdən sonra öz tarixi torpaqlarına yiyələnə bilmişdi. Belə ki, o, mahalların sayı baxımından xeyli geniş əraziləri əhatə etmişdi. Bir məlumata görə, XVIII yüzilliyin ikinci yarısı-XIX yüzilliyin əvvəllərində xanlıqda 12 mahal olmuş, digər bir məlumata görə isə mahalların sayının 20-ə çatmışdı (80, 58; 494, 126). Qafqazdakı Rusya qoşunlarının baş komandanı general Paskeviçin 1827-ci il iyunun 27-də imperiyanın xarici işlər naziri qraf Nesselrodeyə ünvanladığı məktubunda İrəvan xanlığında 16 mahalın olmasını bildirirdi (279, 547).

Fikrimizcə, İrəvan xanlığının mahalları haqqında İ.Şopenin əsəri bizə daha dolğun məlumat verir. O, yazırdı ki, «xanlıq böyük hissəsi axar çaylarla sərhədlənən, inzibati bölgü təşkil edən bir şəhər, 15 mahal və dairəyə bölünürdü» (499, 441). Bu mahallar Araz çayının hər iki sahilində qərarlaşmışdı. Bir şəhər və 13 mahal Arazın sol sahilində, 2-i isə sağ sahilində yerləşmişdi. Mahallar çaylar və bu çaylardan çəkilmiş arxlar vasitəsilə bir-birindən ayrılırdı. Beləliklə, İ.Şopenin qeyd etdiyi İrəvan xanlığının mahalları aşağıdakılardır: 1) Qırxbulaq; 2) Zəngibasar; 3) Gərnibasar; 4) Vedibasar; 5) Şərur; 6) Sürməli; 7) Dərəkənd-Parçenis; 8) Göyçə; 9) Səədli; 10) Talın; 11) Seyidli–Ağsaqqallı; 12) Sərdarabad; 13) Körpübasar; 14) Abaran; 15) Dərəçiçək. Qeyd edilən bu mahallarda 831kənd qeydə alınmışdı (499, 441-448)

Rusiya işğalına qədər İrəvan xanlığının inzibati-ərazi vahidlərini, onların ərazisini, kəndlərinin sayını nəzərdən keçirək. İrəvan bölgəsinin ən böyük mahalı olan Göyçə mahalı Göyçə gölünün bütün ətraf ərazilərini, Göyçə vadisini əhatə edirdi. Bu mahal şimaldan Şəmşəddil sultanlığı, Gəncə xanlığı, şimal-qərbdən Dərəçiçək mahalı, cənubdan Naxçivan xanlığı, şərqdən Qarabağ xanlığı, qərbdən isə Qırxbulaq, Gərnibasar və Vedibasar mahalları ilə həmsərhəd idi. Göyçə mahalı 126 kənddən ibarət olmuşdu. Lakin sonuncu Rusiya-Qacar müharibəsi nəticəsində 67 kənd dağıdılmış, hətta bu kəndlərdən 37-in adı belə tamamilə unudulmuşdu. Mahalın yalnız 59 kəndində əhali qeydə alınmışdı (499, 515-517, 596-600). Qeyd etmək lazımdır ki, müharibələr dövründə ən çox zərbələrdən biri Göyçə mahalına dəymişdi. İ.Şopen yazırdı ki, keçən yüzillik ərzində hərbi əməliyyatlar nəticəsində mahal tamamilə boş qalmışdı. Dağıdılan kəndlərin adı bir neçə dəfə unudulmuş, sonradan yeni adlarla əvəzlənmişdi. Boş qalmış kəndləri doldurmaq üçün 1814-cü ildə Hüseynqulu xan qarapapaqları buraya köçürmüşdü (499, 446).

Mənbələrin verdiyi məlumata görə, ərazicə daha geniş olan Göyçə mahalının Göyçə gölündən şimalda və şərqdə yerləşən torpaqlarının bir hissəsi siyasi vəziyyətlə əlaqədar olaraq kiçilmışdı. Bu ərazilər XVIII yüzilliyin 50-ci illərin birinci yarısında qarabağlı Pənahəli xan (1748-1763) tərəfindən işğal olunaraq, Qarabağ xanlığına birləşdirilmişdi. “Qarabağnamə” müəllifləri qeyd edirlər ki, “o (Pənahəli xan – E. Q.), kolanıların məskəni olan, Uşacıq kəndindən Göyçə kəndinə qədər uzanan Tərtər çayı sahilindəki yerləri İrəvan hakimindən aldı” (50, 36; 43, 17; 37, 116). A. Bakıxanov da Qarabağ xanı Pənahəli xanın İrəvana aid Tərtər Kolanısını işğal etdiyini yazırdı (97, 155). Bu ərazilərin İrəvan xanlığına məxsusluğunu Rusiya nümayəndələri də etiraf edirdilər. Belə ki, Gülüstan müqaviləsində nəzərdə tutulan sərhəd məsələləri ilə əlaqədar yaradılan komissiyanın tərkibinə daxil olan Rusiya nümayəndələri 1823-cü ildə A.P.Yermolova göndərdikləri məlumatlarında 70 il əvvəl bu ərazilərin həqiqətən də İrəvan xanlığına

məxsus olduğunu yazırdılar (222, 15). İrəvana məxsus olmuş bu ərazilərin itirilməsi Xəlil xan Özbəyin (1752-1755) dövrünə təsadüf etmişdi.

Lakin bu ərazilər Qarabağ xanlığına birləşdirilsə də, İrəvan hakimləri bununla heç də barışmamışdılar. Heç də təsadüfü deyildir ki, Qarabağ xanlığı işğal edildikdən sonra bu ərazilər Rusiyanın əlinə keçdiyindən, İrəvan sərdarı Hüseynqulu xan Göyçə gölünün şimal və şərqində yerləşən torpaqların İrəvana məxsus olması haqqında Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanlığına məlumat vermişdi (358, 891). Qeyd etmək lazımdır ki, Hüseynqulu xanın cəhdlərinə baxmayaraq, Göyçə gölünün işğal olunmuş bu əraziləri bir daha İrəvan xanlığına qaytarılmamışdı.

Qırxbulaq mahalı Dərəçiçəklə Zəngibasar mahalları arasında yerləsirdi. Mahalın adı ayrı-ayrı qırx bulağın birləşməsindən əmələ gələn çayın adından götürülmüşdü. Bu mahalın ərazisi şərq tərəfdən onu Göyçə mahalından ayıran dağlarla, şimaldan Dərəçiçək mahalı ilə, cənubdan İrəvan şəhəri, cənub-qərbdən Gərnibasar, qərbdən isə Körpübasar mahalları ilə həmsərhəd idi. Qırxbulaq mahalının 48 kəndindən 26-sı müharibələr nəticəsində dağıdılmışdı (499, 509-510, 544). Onun ərazisindən axan Qırxbulaq çayı yerli əhalinin su mənbəyi hesab olunurdu. Buranın havası səfalı və sərin olduğundan bölgənin hakimləri və əhalinin çox böyük hissəsi yayın istisindən qurtarmaq üçün Qırxbulağa dincəlməyə gəlirdilər (225, 174, 176-177; 493, 107).

Zəngibasar mahalı İrəvan qalasının aşağı hissəsindən cənuba doğru uzanırdı. Mahal şimal və şimal-qərbdən Körpübasar və Qırxbulaq mahalları, cənubdan Araz çayı, şərqdən Gərnibasar, qərbdən isə Sərdarabad mahalları ilə həmsərhəd idi. Mahalın 33 kəndindən 7 kəndi müharibələr nəticəsində dağıntılara məruz qalmışdı (499, 510, 547).

Gərnibasar mahalı da əsasən Araz çayının sol sahilində yerləşirdi. O, şimaldan Qırxbulaq mahalı, cənubdan Vedibasar mahalı, şərqdən Göyçə mahalını ondan ayıran yüksək dağlarla, qərbdən Zəngibasar mahalı və Araz çayı ilə həmsərhəd idi. Araz

çayının sağ sahili ilə Ağrıdağ dağı arasında yerləşən bəzi kəndlər də bu mahala daxil idi. Mahalın inzibati mərkəzi Qəmərli kəndi hesab olunurdu. Onun əsas su mənbəyi Gərni çayı idi. Gərnibasar mahalı 95 kənddən ibarət olmuş və bu kəndlərdən 43-ü müharibələr nəticəsində dağıdılmışdı (499, 510-511, 547-555).

Vedibasar mahalı da Araz çayının sol sahilində yerləşirdi. Mahal şimaldan Gərnibasar mahalı, cənub və cənub-şərqdən Şərur mahalı və Naxçıvan xanlığı, şərqdən Göyçə mahalı, qərbdən Araz çayı ilə həmsərhəd idi. Bu mahal mənbəyini Vedi və Qafan çaylarının su mənbələrinin yerləşdiyi dağlar və habelə düzənlikdən ibarət idi. Vedibasar mahalının 54 kəndi olmuş və müharibə nəticəsində bu kəndlərdən 33-ü tamamilə dağıdılmışdı (499, 511-512, 555-556).

Şərur mahalı İrəvan xanlığının cənub-şərq hissəsində yerləşən ərazini tuturdu. O, şimal-qərbdən Vedibasar mahalı, şimal-şərqdən və şərqdən Naxçıvan xanlığı, cənubdan Araz çayına doğru seyrələn daşlıq qayalardan onu ayıran Naxçıvan xanlığının Xok mahalı, qərbdən Araz çayı ilə həmsərhəd idi. Onun cənub tərəfdə Araz çayına doğru eninə görünüşü yarımdairə, Qaratəpə və Qaraqum dağları arasında amfiteatr formasında idi. Şərqi Arpaçay çayı mahalı iki hissəyə bölmüşdü. Şərur mahalının 61 kəndi olmuş və bu kəndlərdən 11-i müharibə nəticəsində tamamilə dağıdılmışdı (499, 512, 555-563).

Sürməli mahalı İrəvan xanlığının cənub qurtaracağında, Araz çayının sağ sahili boyunca uzanırdı. Bu mahal şimal, şimali-şərq və şərqdən Araz çayı, cənubdan onu Bəyazid paşalığından ayıran Ağrıdağ dağ silsiləsi və Maku ilə, qərbdən isə Dərəkənd-Parçenis mahalı ilə həmsərhəd idi. Mahala Bəyazid şəhərindən başlayan Ağrıdağ dağ silsiləsinin bütün şimal yamacları da daxil olmuşdu. Mahalın kəndləri Araz çayından çəkilən arxlar vasitəsilə suvarılırdı. Bütün mahal 78 kənddən ibarət idi. Bunlardan 28-i müharibələr nəticəsində dağıdılmışdı (499, 512-513, 563-567). Onun inzibati mərkəzi İğdır kəndi hesab olunurdu. Lakin bəhs etdiyimiz dövr

çərçivəsində İğdır və Sürməli bəzi hallarda ayrıca mahallar kimi göstərilmişdi (38, 9; 238, 249)

Dərəkənd-Parçenis mahalı isə xanlığın cənub-qərb qurtaracağında, Araz çayının sağ sahilində yerləşirdi. Bu mahal şimaldan Səədli mahalı, cənub və qərbdən Osmanlı dövləti, şərqdən isə Sürməli mahalı ilə həmsərhəd idi. Dərəkənd-Parçenis mahalı Bəyazid şərhəddindən Araz çayına doğru uzanan üç dərədən ibarət olmuşdu. Onlardan şərq tərəfdə olan Parçenis dərəsi Zor dağının aşağı yamacından, ikinci Dərəkənd dərəsi Pirili və Təkaltı dağlarının aşağı yamaclarından başlayırdı. Hər iki dərənin bütün bulaqlarının töküldüyü Hacıçay çayının Araz çayına birləşdiyi aşağı hissələri Cancavad dərəsi adlanırdı. Üçüncü dərə isə Parnaut dərəsi hesab olunurdu. Bu dərə Koroğlu dağının aşağı hissəsindən başlayaraq Kagızman sancağının və Qars paşalığının yaxınlığında Araz çayına birləşirdi. Parçenis dərəsinin 26, Dərəkənd dərəsinin isə 54 yaşayış üçün yararlı kəndi vardı. Müharibə dövründə 8 dağıdılmış kəndləri də əlavə etsək, ümumiyyətlə bu mahalın 88 kəndi olmuşdu (499, 513, 567-571). Məşhur İrəvan duzunun hasil olunduğu Qulp kəndi bu mahalın inzibati mərkəzi hesab olunurdu.

Sərdarabad mahalı Araz çayının şimal tərəfində, Sürməli mahalının qarşı tərəfində yerləşirdi. Bu mahal şimaldan Talın mahalı ilə, cənub tərəfdən onu Sürməli mahalından ayıran Araz çayı, qərbdən Səədli mahalı, şərqdən isə Körpübasar və Zəngibasar mahalları ilə həmsərhəd idi. Mahalın adı 1810-cu ildə Hüseynqulu xanın göstərişi ilə tikilməyə başlamış, 1815–ci ildə başa çatdırılmış Sərdarabad qalasının adından götürülmüşdü (499, 255; 216, 106). İnzibati mərkəzi Sərdarabad qalası olan bu mahal 30 kənddən ibarət olmuşdu. Bunun 8-i müharibələr nəticəsində dağıdılmışdı (499, 514, 579-583).

Səədli mahalı İrəvan xanlığının ərazicə kiçik olan mahallarından biri idi. O, xanlığın qərb qurtaracağında yerləşirdi. Bu mahal da Hüseynqulu xan tərəfindən Sərdarabad mahalı ilə eyni vaxtda yaradılmışdı. O, Arpaçayın Araz çayına töküldüyü yerdə və bu iki çayın sahilində, Arazdan Dərəkənd-Parçenis mahalına doğru uzanan

ətraf əraziləri özündə birləşdirirdi. Səədli mahalı şimaldan Talın, şərqdən Sərdarabad, cənubdan Dərəkənd – Parçenis mahalları, qərbdən isə Osmanlı dövləti ilə həmsərhəd idi. Bu mahala məxsus bütün kəndlər çay boyunca yerləşirdi. Burada Araz çayının şərq sahilindən Talın və Sərdarabad mahallarına, qərb sahilindən Qars şəhərinə qədər iri daşların ucaldığı yüksəklikdən başlayan düzənlik vardı. Rusiya işğalından sonra tərtib edilmiş statistik məlumata görə, mahal cəmisi 14 kənddən ibarət olmuşdu. Onun 5 kəndi müharibələr nəticəsində dağıdılmışdı (499, 513, 575).

Talın mahalı da İrəvan xanlığının qərb qurtaracağında yerləşirdi. O, şimal tərəfdən Şörəyel mahalı, cənubdan Sərdarabad və Səədli mahalları, şərqdən Seyidli-Ağsaqqallı mahalı, qərbdən isə onu Qars paşalığından ayıran Arpaçay çayı ilə həmsərhəd idi. Səədli mahalından onu sahəsi 900 kv.verst olan susuz və quru düzənlik ayırırdı. Mərkəzi Talın kəndi hesab olunan mahalın 47 kəndi vardı. Onun 27-i müharibələr nəticəsində dağıdılmışdı (499, 513-514, 575).

İrəvan xanlığının mahallarından biri də Seyidli-Ağsaqqallı mahalı idi. Mahal şimaldan Abaran, cənubdan və şərqdən Körpübasar, cənubi-qərbdən isə Sərdarabad mahalları ilə həmsərhəd idi. Mahalın əhalisi Məhəmməd peyğəmbərin nəslindən hesab olunan seyidlərdən ibarət olmuşdu. Seyidlı-Ağsaqqallı mahalı 20 kəndə malik idi. Onlardan 11 kənd Seyidli tayfasına, 9-u isə Ağsaqqallı tayfasına məxsus idi (499, 575-579). Müharibə nəticəsində bu mahalın kəndlərinə demək olar ki, ziyan dəyməmişdi.

Körpübasar mahalı xanlığın ən zəngin mahallarından biri hesab olunurdu. O, şimaldan Seyidli-Ağsaqqllı, cənubdan Zəngibasar, qərbdən Sərdarabad mahalları, şərqdən onu Qırxbulaq mahalından ayıran Zəngi çayı, şimal-şərqdən isə Dərəçiçək mahalı ilə həmsərhəd idi. Bu mahalın kəndləri Gərni çayı ilə suvarılırdı. Mahalın kəndlərinin sayı 49-a çatırdı. Onlardan 9-u müharibələr nəticəsində dağıdılmışdı (499, 514, 583-587).

İrəvan xanlığının mahallarından biri də Abaran mahalı idi. O, Alagöz dağının şimal və şimal-şərq hissəsi ilə Pəmbək sıldırım

dağları boyunca uzanırdı. Abaran mahalı şimaldan Pəmbək, qərbdən Şörəyel mahalı, cənubdan Seyidli-Ağsaqqallı, cənub-şərqdən Körpübasar mahalı, şərqdən isə Dərəçiçək mahalı ilə həmsərhəd idi. Mahal üç dərədən ibarət olmuşdu. Onlardan birincisi Cəngi idi ki, bura Şörəyel mahalına yaxın yerdə yerləşirdi. Cəngi dərəsinə Gərni çayının yuxarı mənsəbi daxil idi. İkinci dərə Mirək kəndindən başlayaraq Gülabad kəndinə qədər uzanırdı. Bu mahala Gərni çayı boyunca uzanan, həmçinin bu çayın sol sahilindəki Gülabad kəndinə qədər bütün kəndlər məxsus idi. Üçüncü dərə Abaran adlanırdı. Bu dərə Gərni çayının sağ sahilində yerləşən, Gərnəvit çayının suyu ilə təchiz olunan bütün kəndləri özündə birləşdirirdi. Bundan başqa mahal Seyidli-Ağsaqqallı mahalına məxsus bir neçə kəndi də özündə birləşdirirdi. İnzibati mərkəzi Baş Abaran olan bu mahalın 61 kəndi vardı. Bu kəndlərdən 22-i müharibələr nəticəsində dağıdılmışdı (499, 514-515, 587-592).

Dərəçiçək mahalı havasına görə xanlıqda ən səfalı mahal hesab olunurdu. Mahalın ərazisi Göyçə gölündən, Zəngi və Misxana çaylarının mənsəbindən Alapars kəndinə qədər uzanan dərədən ibarət idi. Dərəçiçək mahalı şimaldan Pəmbək mahalı və Qazax sultanlığı, cənubdan Qırxbulaq və Körpübasar mahalları, qərbdən Abaran mahalı və şərqdən Göyçə mahalı və Göyçə gölü arasında yerləşirdi. Mahal 37 kənddən ibarət idi. Bu kəndlərdən 16-sı müharibələr nəticəsində dağıdılmışdı (499, 515, 591-596).

Şörəyel mahalı İrəvan xanlığının qərbində yerləşirdi. Onun ərazisi seyrək təpəlikləri olan düzənlikdən ibarət idi. Mahal şimaldan Kartli-Kaxetiya çarlığı, şimal–qərbdən Ahalsıx paşalığı, qərbdən Arpaçay çayı vasitəsilə ayrılan Qars pasalığı ilə, şərqdən Pəmbək və Abaran mahallarını ayıran dağlarla, cənub tərəfdən isə Talın və Seyidli-Ağsaqqallı mahalları ilə həmsərhəd idi (258, 294).

Qeyd etmək lazımdır ki, vaxtilə Hüseyn Bayqara tərəfindən tikdirilmiş Şörəyel qalası əmur Teymur tərəfindən dağıdılmışdı. Qala sonradan bərpa edilmişdi. Lakin 1554-cü ildə Osmanlı qoşunu Naxçıvana hücum edərkən sultan Süleymanın əmri ilə yenidən dağıdılmışdı. Səyyah Ö.Çələbi burada olarkən qalanın dağıntılarına

rast gəlmişdi. O, dağıdılmış gümbəzin üzərində 48 sözdən ibarət yazıya rast gəlmiş, bu yazı əsasında Şörəyel adının mənasını göstərmişdi. O, bu adı fars sözü olan "şura gər", yəni "məsləhətçi, məşvərətçi" sözü ilə əlaqələndirmişdi. Bu adı da məsləhət, məşvərət olunan yer kimi izah etmək olar (495, 203-204). Sonradan bu ad dəyişikliyə uğrayaraq Şörəyel formasında işlənmişdir.

Şörəyelin mərkəzi Gümrü idi. Nadir şah Əfşarın dövründə İrəvan mahalı kimi göstərilən Şörəyeldə də keçirilən siyahıyaalmaya görə, onun 109 kəndi olmuşdu (487, 42-43). P.Butkova görə isə, XVIII yüzilliyin sonlarında Şörəyel 1000 evdən ibarət olmuş və burada yaşayanlar əsasən Azərbaycan türkləri olmuşdu (107, c.2, səh.448). Şörəyel mahalının sahəsi 1.290 kv. verst idi (258, 294).

Pəmbək sultanlığı isə Şörəyelin şərqində çox da hündür olmayan dağlar arasındakı vadidə yerləşirdi. Vadi sıra dağlarla iki yerə bölünmüşdü. Onun şərq hissəsi çox ensiz idi, qərb hissəsi isə 7 verstə çatırdı (258, 293). Pəmbək şimaldan Kartli-Kaxetiya çarlığı, cənubdan Abaran və Dərəçiçək mahalları, şərqdən Şörəyel, qərbdən isə Qazax sultanlığı ilə həmsərhəd idi. Onun sahəsi 2.150 kv. verstə bərabər olmuşdu (258, 294).

Maku sultanlığı şimaldan Sürməli mahalı, cənubdan Xoy xanlığı, qərbdən Bəyazid paşalığı və şərqdən Şərur mahalı ilə həmsərhəd idi. Bu mahal Araz çayının sağ sahilində, Ağrı dağının cənub-şərq yamacında yerləşirdi. Onun inzibati mərkəzi şəhər-qala olan Maku idi. Qala yüksək dağın dərəsində yerləşirdi. Qalanın bir tərəfi qayaya söykənmişdi. Onun istehkamını təşkil edən təbii qaya oyuğu ona yarımdairə forması vermişdi. Qala digər tərəfdən qüllə və qarşısında dayaz xəndək yerləşən çiy kərpic divarla əhatə olunmuşdu. Şəhər tikililəri qayanın enişində amfiteatr formasında yerləşirdi. Ən yüksək tikili qarnizondan 45 sajen (1 sajen-2, 134 metr – E. Q.) aralı tikilmiş böyük xan sarayı idi. Bütün yarımdairəvi qayada bir neçə lağım qazılmışdı. Buradan şəhəri müdafiə etmək olardı. Qalada 2 min nəfərlik qarnizon saxlanılırdı (459, 610-611).

İrəvan xanlığının mahalları coğrafi mövqeyinə görə də bir-birindən fərqlənirdi. Mahallar dağlıq, düzənlik və orta olmaqla üç

zolağa bölünürdü. Bunlardan Abaran, Dərəçiçək və Göyçə mahalları, Maku sultanlığı dağlıq, Zəngibasar, Şərur, Saatlı və Sərdarabad mahalları düzənlik, Qirxbulaq, Talın və Seyidli – Ağsaqqallı mahalları isə orta zolağa daxil idi. Lakin hər üç zolağı özündə birləşdirən mahallar da vardı. Bu mahallara Gərnibasar, Vedibasar, Sürməli, Dərəkənd-Parçenis mahalları, Şörəyel və Pəmbək sultanlıqları daxil idi. Körpübasar mahalı isə aran və bəzi yerlərdə orta zolağı əhatə edirdi (499, 346-347).

Qaynaqların araşdırılmasından belə bir nəticəyə gəlmək olar ki, XVIII yüzilliyin 30-cu illərin ortalarına qədər İrəvan əyaləti bir şəhər, 17 mahaldan, xanlıq yaranan ərəfədə isə 9 mahaldan, XVIII əsrin 60-cı illərdən 1802-ci ilə qədər 16, 1802-1805-ci illərdə 15, 1805-1810-cu illər arasında 14, 1810-1827-ci illər arasında 16 mahaldan ibarət olmuşdu.

**İrəvan şəhəri.** İrəvan bölgəsinin inzibati-ərazi bölgüsünə İrəvan şəhəri də daxil idi. Bütün əyalətin yeganə mərkəzi şəhəri hesab olunan İrəvan heç bir mahala tabe deyildi. O, müstəqil inzibati ərazi vahidi sayılırdı. İrəvan şəhəri Osmanlı imperiyasına, İrana, Kartli-Kaxetiya çarlığına və Azərbaycanın müxtəlif bölgələrinə gedən beynəlxalq ticarət yolları qovşağında yerləşdiyindən böyük ticarət, sənətkarlıq və mədəniyyət mərkəzinə çevrilmişdi. XVI yüzilliyin Osmanlı səlnaməçisi İbrahim Rəhimzadə İrəvan şəhərini "İran (Səfəvilər dövlətinin – E. Q.) və Turanın gözəl şəhəri, Naxçıvan və Şirvanın qapısı, Azərbaycanın gözü" adlandırmışdı (59, 169; 158, 75). Digər Osmanlı tarixçiləri İ.Peçevi və M.Solakzadə isə bu şəhəri Səfəvilər dövlətinin qəlbi adlandırmışdılar (300, 26; 59, 50).

İrəvan şəhəri Azərbaycanın qədim şəhərlərindən biridir. XVI yüzilliyin 80-ci illərindən başlayaraq İrəvanın qala-şəhər kimi əhəmiyyəti xeyli artmışdı. Bu şəhəri məşhur edən həm də onun iri və möhkəm qalaya malik olması idi. Müxtəlif illərdə İrəvanda olmuş səyyahlar, dövlət xadimləri, diplomatlar, kəşfiyyatçılar, hərbiçilər öz xatirələrində İrəvan şəhərindən daha çox bu qalanın təsvirinə böyük diqqət yetirmişdilər.

Uzun illər erməni müəllifləri İrəvan şəhərini erməni şəhəri adlandırsalar da, faktlar bunun tam əksini sübut edir. XIX yüzilliyin 20-ci illərində İrəvanda olmuş Azərbaycan səyyah və coğrafiyaşünası H.Z.Şirvanlı səyahətnaməsində yazır ki, "O, (İrəvan – E. Q.) Arran mülkündədir. Azərbaycana məxsusdur. Oraya həm də Çuxursəd deyirlər..." (65, 124). Rus müəlliflərindən biri İrəvan şəhərini "görünüşünə görə tatar (Azərbaycan-türk – E. Q.) şəhəri" adlandırmışdı (188, 42).

İrəvan şəhəri bir neçə əsr Azərbaycan Səfəvilər dövlətinin bəylərbəyliklərindən birinin-Çuxursəd bəylərbəyliyinin mərkəzi olmuşdu. Burada Səfəvi şahları tərəfindən təyin olunan xanların-hakimlərin iqamətgahı yerləşirdi (495, 101; 214, 256; 298, 117; 467, 88). Bu şəhər dəfələrlə hərbi əməliyyatlar və təbii fəlakətlər zamanı dağıntıya məruz qalmışdı. Bunu İrəvan şəhərinin uzun illər Səfəvi-Osmanlı müharibələrinin meydanı olması bir daha sübut edir (300, 26, 58-59, 79-80; 165, 53-60; 87, 8-17; 493, 107-109; 492, 12). Bundan əlavə, 1679-cu il iyunun 4-də baş vermiş zəlzələ nəticəsində İrəvan şəhəri tamamilə xarabalığa çevrilmişdi (225, 196-197; 167, 116-117). Bütün bunlara baxmayaraq, strateji mövqeyinə görə, İrəvan şəhəri yenidən bərpa olundu, Azərbaycanın mühüm siyasi, iqtisadi və mədəni mərkəzlərindən birinə çevrildi.

Bu şəhər haqqında ayrı-ayrı illərdə burada olan səyyahlar və müxtəlif iş adamları maraqlı məlumatlar vermişdilər. Bu məlumatlar şəhərin salınması, coğrafi mövqeyi, onun daxili quruluşu, evləri, əhalisi və s. haqqındadır. XVII yüzilliyin 40-cı illərində İrəvan şəhərində olmuş Osmanli səyyahı Ö.Çələbi İərvan şəhərinin salınması və onun daxili quruluşundan bəhs edərək yazırdı ki, "bu şəhərin əsasını 1407-ci ildə Əmir Teymurun tacirlərindən olan Xacə xan Lahıclı qoymusdu. O, İrəvan torpağına qədəm qoyarkən münbit və məhsuldar torpaq görərək ailəsi ilə burada məskən salmışdı. Düyü əkini hesabına varlanaraq bu şəhərin əsasını qoymuşdu. Şah I İsmayıl buranın strateji əhəmiyyətini başa düşərək, 1509-cu ildə vəziri Rəvanqulu xana onun ətrafında qala tikilməsi barədə göstəriş vermişdi" (495, 150). Bundan sonra İrəvan şəhərinin əhəmiyyəti

daha da artmış və tezliklə burada Səfəvi şahına, onun oğluna, görkəmli xanlara və sultanlara məxsus gözəl saraylar və evlər tikilmiş, parklar və bağlar salınmışdı. Şəhərdə "Sultan bağı" adlanan park xüsusilə məşhur idi (300, 26; 60, 50).

İrəvan şəhəri şimaldan Qırxbulaq mahalı, cənubdan və qərbdən Zəngibasar mahalı, şərqdən isə onu Gərnibasar mahalından ayıran Oxçaberd dağının daşlı "pillələri" ilə həmsərhəd idi. Şəhər bağları ilə birlikdə kifayət qədər geniş ərazini tuturdu. Onun sahəsi 28 kv.verstə bərabər olmuşdu (499, 464). Lakin XIX yüzilliyin ortalarına yaxın ayrıca kənd olan Çölməkçinin İrəvan şəhərinə birləşməsi nəticəsində onun sahəsi daha da genişlənərək 30 kv.verstə çatmışdı (217, 436). Bu şəhər Zəngi çayının sol tərəfində, hərdən təpəliklərlə müşayət olunan, hər tərəfdən dağlarla əhatə edilmiş düzənlikdə yerləşmişdi. Bir məlumata görə, şəhər coğrafi cəhətdən $41^0$ $15^{/}$ en, $78^0$ $20^{/}$ uzunluq dairəsində, digər məlumata görə isə $40^0$ en və $63^0$ uzunluq dairəində, başqa bir məlumata görə isə baş merdiandan $40^0 9^{/} 41^{//} 9^{///}$ şimal en, $62^0 24^{/} 25^{//}$ uzunluq dairəsində yerləşirdi. İrəvan şəhəri başdan-başa bağlardan və üzümlüklərlə örtülü idi (214, 241, 243; 144, 1; 493, 107; 499, 463-464; 256, 25-26; 217, 436).

XVIII yüzilliyin birinci yarısında İrəvan şəhəri daxili quruluşuna görə dörd məhəllədən – "Köhnə şəhər", "Dəmirbulaq", "Dərəkənd" və "Təpəbaşı" adlanan məhəllələrdən ibarət olmuşdu (38, 20). Lakin müstəqil xanlığın mərkəzi olduqdan sonra İrəvan şəhərinin quruluşunda dəyişiklik baş vermişdi. O, "Şəhər", "Təpəbaşı" və "Dəmirbulaq" olmaqla üç məhəlləyə bölünmüşdü. Bunun səbəbi o idi ki, "Köhnə şəhər" məhəlləsi "Şəhər" məhəlləsi adlandırılmış, "Dərəkənd" isə "Təpəbaşı" məhəlləsinə birləşdirilmişdi. Məhəllələrdən ən böyüyü olan "Şəhər" məhəlləsi (köhnə şəhər) İrəvanın şimal-şərq, "Təpəbaşı" məhəlləsi qərb, "Dəmirbulaq" məhələsi isə cənub-şərq hissələrini təmsil edirdi (499, 464-465).

Təəssüf ki, Rusiya işğalına qədər İrəvan şəhərində nə qədər evin olması haqqında məlumata rast gəlmədik. Yalnız 1829-1832-ci

illərdə aparılmış kameral siyahıyaalmaya görə, İrəvan şəhərində xanlıq dövründə 2.400 evin olduğu, işğaldan sonra isə 1736 evin qaldığı göstərilmişdi. Bu evlərdən 792-si "Şəhər" , 622-si "Təpəbaşı", 322-si isə "Dəmirbulaq" məhəllələrində yerləşirdi (499, 468, 540; 260, 291). Evlərin azalması ilk növbədə sonuncu müharibənin nəticəsi idi. Müharibə nəticəsində İrəvan şəhəri böyük dağıntılara məruz qalmış, məhəllələrdə çoxsaylı boş qalmış yerlər qeydə alınmışdı. Belə ki, "Şəhər" məhəlləsində Abbas dərə və Köşəli, "Təpəbaşı" məhəlləsində Abuhəyat, Qızılqala, Dərəbağ, Dərəkənd, Dəlmə, Yenikənd, "Dəmirbulaq"da isə Xosrovabad və Səbziyeri yaşayış yerləri əhalisiz qalmışdı (499, 464-465). Lakin 1849-cu ildə İrəvan şəhəri quberniya mərkəzi olduqdan sonra burada 3 min ev qeydə alınmışdı (217, 442).

Strateji mövqeyinə görə, İrəvan uzun əsrlər boyu fasiləsiz olaraq paytaxt şəhəri və buraya mərkəzdən təyin olunmuş nüfuzlu hakimlərin iqamətgahı olmuşdu. Şəhərdə nüfüzlu kübar ailələr-xanlar, bəylər, tacirlər, nüfuzlu din xadimləri və s. cəmləşmişdilər. Hakimlərin əsas silahlı qüvvələri də burada yerləşirdi.

İrəvan sırf Azərbaycan şəhəri idi. Əvvəla, əsrlər boyu Azərbaycan hakimlərinin iqamətgahı burada yerləşmişdi. İkincisi bütün yer, çay və məhəllə adları sırf Azərbaycan türkcəsində olmaqla bərabər, əhalinin əksəriyyətini etnik baxımdan onlar təşkil etmişdi. Hətta Rusiya işğalından sonra da bu şəhər Azərbaycan şəhəri olaraq qalırdı.

Beləliklə, Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsi də inzibati-ərazi bölgüsü baxımından mahallara, mahallar isə kəndlərə bölünmüşdü. Lakin bəhs etdiyimiz dövr ərzində siyasi vəziyyətlə əlaqədar olaraq bölgənin bəzi mahalları ondan qoparılmışdı. Mahallar coğrafi və təsərrüfat xüsusiyyətlərinə görə bir-birindən fərqlənirdi. Bölgənin inzibati idarəçiliyi tədqiqatın əhatə etdiyi dövrdə Səfəvilər dövlətində mövcud olmuş inzibati idarəçiliyin tərkib hissəsi idi.

# 6.3. 1827–1850-ci illərdə İrəvan bölgəsinin inzibati-ərazi quruluşu

İrəvan xanlığı işğal olunduqdan sonra çar Rusiyası ilk növbədə köhnə inzibati-ərazi bölgünü ləğv edərək, özünə uyğun qanun-qayda yaratmağa və ən əsası isə bölgəni Azərbaycandan ayırmaq üçün inzibati-ərazi islahatları keçirməyə başladı. Rusiya hakim dairələrinin keçirdiyi islahatlar müstəmləkə siyasətinin həyata keçirilməsinə yönəlmişdi. Bu dəyişikliklər Cənubi Qafqazda baş verən genişmiqyaslı hadisələrin tərkib hissəsi idi. Belə ki, hərbi cəhətdən bölgəni işğal etmiş Rusiya hakim dairələrinə tezliklə bəlli oldu ki, həm insan, həm də dini cəhətdən rəngarəng olan Cənubi Qafqazı tamamilə özünə tabe etmək heç də asan deyildi. Məhz bu səbəblərdən bəhs etdiyimiz dövr ərzində bir neçə dəfə inzibati-ərazi islahatları keçirilmiş və bu islahatlar hakim dairələri qane edənə qədər davam etdirilmişdi.

İrəvan bölgəsi Osmanlı və Qacar dövlətləri ilə həmsərhəd olduğundan çar Rusiyası buraya daha çox diqqət yetirirdi. Çarizm apardığı müxtəlif inzibati-ərazi islahatlarla bölgəni hər vasitə ilə Azərbaycandan ayırır, onun tarixi keçmişini, etnik mənzərəsini, coğrafi ərazisini dəyişməyə çalışırdı. İşğalın ilk illərindən burada müvəqqəti hakimiyyət orqanları yaradılır, bu orqanların başçısı hərbiçilər təyin olunurdular.

Lakin İrəvan xanlığının inzibati-ərazi quruluşu birdən-birə dəyişmədi. Xanlıq dövründəki quruluş 1833-cü ilə qədər davam etdi. Belə ki, 1827-ci il oktyabrın 6-da baş komandan Paskeviçin əmri ilə burada yaradılan Müvəqqəti İdarəçilik dövründə də İrəvan xanlığının inzibati-ərazi quruluşu saxlandı. Bölgə mahallara, mahallar isə kəndlərə bölünürdü. Mahalları rus hakim dairələrinə yaxın olan yerli bəylər, xanlar və məliklər idarə edirdi (261, 480-481).

Müharibənin gedişində yaradılan Müvəqqəti İdarəçilik özünü doğrultmadı. Çox keçmədi ki, 1827-ci ilin dekabrında çar tərəfindən İrəvan bölgəsini idarə etmək üçün yeni layihə verildi (280, 482-

484). Bunun ardınca, 1828-ci il martın 21-də çarın fərmanı ilə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" adlı inzibati qurum yaradıldı. Yaradılan yeni iri inzibati vahidə keçmiş İrəvan və Naxçıvan xanlıqları, o cümlədən Ordubad dairəsi daxil idi. "Erməni vilayəti"nin mərkəzi İrəvan şəhəri oldu (481, 178-179; 145, 487; 282, 487-491).

Lakin yaradılan bu yeni inzibati quruluş da çar hökumətini qane etmədi. Belə ki, idarəetmədə müəyyən dəyişiklik həyata keçirilsə də, köhnə inzibati-ərazi quruluşu əslində qalmaqda davam edirdi. Yerli bəylər, xanlar yenə də xalq arasında böyük nüfuza malik idi. Yeni qanun-qaydalar isə yerli xalqa tamamilə yad idi. Yaradılan yeni idarə strukturları yerli əhali arasında güclü narazılıq yaradırdı (462, 497-502).

Cənubi Qafqazda, o cümlədən İrəvan bölgəsində keçirdiyi inzibati-ərazi dəyişikliklərlə xanlıq dövrü qanunlarından heç cür yaxa qurtara bilməyən çar hakimiyyət orqanları vəziyyətdən çıxmaq üçün yeni-yeni yollar axtarırdı. Rusiya idarəçiliyini və qanunlarını işğal olunmuş ərazilərə gətirmək üçün yeni-yeni layihələr irəli sürülürdü. Cənubi Qafqazda dəyişikliyin zəruriliyi haqqında hələ qraf Paskeviç 1830 – cu ilin aprelində yazdığı layihədə bildirmişdi. Bunun ardınca 1831-ci il aprelin 28-də qraf Paskeviç, senatorlar qraf Kutaysov və qraf Meçnikovla birlikdə çara yazdıqları hesabatda konkret təkliflərini irəli sürmüşdülər. Onların irəli sürdüyü təkliflər 1833-cü il mayın 11 və 13-də Dövlət Şurasında baxılmışdı. Sonuncu orqan həmin təklifləri yenidən işlənilməsi qərarına gəlmişdi (233, 260).

Nəhayət, uzun sürən müzakirələrdən sonra 1833-cü il iyunun 23-də verilmiş qanun əsasında "Erməni vilayəti"ndə yeni inzibati-ərazi dəyişikliyi keçirildi. Bu qanuna əsasən, onun adı olduğu kimi saxlanılır, lakin əyalətin kollegial idarə sistemi ləğv edilirdi. Onun başçısına böyük səlahiyyətlər verilirdi. İyunun 23-də verilmiş qanuna əsasən, İrəvan bölgəsi dörd-İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Hər bir dairəni hərbçi zabit və yaxud mülki məmur idarə etməli, onların köməkçiləri Rusiya hakimiyyət

orqanlarına sədaqətlə qulluq edən 4 Azərbaycan türkü və 4 erməni olmalı idilər. Yeni qanuna əsasən mahallar olduğu kimi qalır, onlar da öz növbəsində kəndlərə bölünürdü. Hər bir dairəyə bir neçə mahal düşürdü. İrəvan dairəsi Göyçə, Dərəçiçək və Qırxbulaq mahallarını; Şərur dairəsi Şərur, Vedibasar, Gərnibasar və Zəngibasar mahallarını; Sürməli dairəsi Sürməli mahalını, Dərəkənd-Parçenis dərəsini və Araz çayının sağ tərəfində yerləşən Gərnibasar və Vedibasar mahallarının qalan hissəsini; Sərdarabad mahalı isə Saatlı, Talın, Seyidli-Ağsaqqallı, Abaran, Gərni və Sərdarabad mahallarını əhatə edirdi (370, 138; 499, 448; 260, 270; 113, 615; 200, 250-251).

Qeyd etmək lazımdır ki, bu dövrdə İrəvan əyalətinin cəmi 10 mahalı qalmışdı. Rusiya hakim dairələrinin səyi nəticəsində bəzi mahallar birləşdirilmiş, onların sayı azaldılmışdı. Saxlanılmış mahallar bunlar idi: Qırxbulaq, Dərəçiçək, Göyçə, Şərur, Dərəkənd-Parçenis, Sərdarabad (Talın mahalının bir hissəsi ona birləşdirilmişdi), Sürməli, Zəngibasar, Vedibasar (Gərnibasar mahalı ona birləşdirilmişdi), Abaran (Körpübasar mahalı ona birləşdirilmişdi) (260, 270; 463, 508).

Lakin Cənubi Qafqazın inzibati-ərazi bölgüsü Rusiya hakim dairələrini heç də qane etmirdi. Bu sahədə keçirilən islahatlar işğaldan əvvəlki qayda-qanunlara zərbə vursa da, onları tamamilə sıxışdırıb aradan çıxara bilmədi. Rusiya hakim dairələri isə birmənalı olaraq bölgəni öz qayda-qanunları ilə idarə etmək istəyirdi. Buna görə də, keçirilən inzibati-ərazi dəyişiklikləri onları qane etmirdi. Cənubi Qafqazda yeni islahatlar hazırlamaq üçün 1837-ci il martın 17-də çarın fərmanı ilə baron Qanın sədrliyi ilə xüsusi komissiya yaradıldı. Komissiya həmin ilin iyulun axırlarında Tiflisə gələrək fəaliyyətə başladı. Tezliklə baron Qan Cənubi Qafqazda yeni inzibati-ərazi dəyişikliyi keçirmək üçün layihə hazırlayır. Onun bu layihəsi Qafqazın baş komandanı baron Rozenin kəskin etirazına səbəb oldu. Lakin çar I Nikolayın dəstəyi ilə baron Qan 1838-ci ilin fevralın əvvəllərində Cənubi Qafqazda yeni inzibati-ərazi dəyişikliyi haqqında qanun layihəsini təqdim etdi. Qanun layihəsi yenidən

işlənilmək üçün general Qolovinə təqdim edildi. Uzun müzakirələrdən və bəzi dəyişikliklərdən sonra baron Qanın layihəsi 1840-cı il aprelin 10-da çar tərəfindən təsdiq olundu (502, 69-73; 149, 62-65).

Yeni qanun layihəsi təsdiq olunduqdan sonra onun icrası üçün 1840-cı il aprelin 24-də general Qolovinə çar tərəfindən məktub göndərildi (146, 24-25). Bu qanuna görə, Cənubi Qafqazın əvvəlki inzibati-ərazi bölgüsü ləğv edilirdi. Bölgə iki quberniyaya – mərkəzi Tiflis şəhəri olan Gürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı şəhəri olan Xəzər vilayətinə bölündü. Bu islahatla "Erməni vilayəti" də ləğv edilir, onun tərkibinə daxil olan İrəvan və Naxçıvan əraziləri qəza kimi Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edilirdi. İrəvan şəhəri vilayət mərkəzindən qəza mərkəzinə çevrilirdi (371, 51-73).

Tezliklə, çar Rusiyası Cənubi Qafqazda öz mövqeyini daha da sərtləşdirdi: çar I Nikolay 1843-cü ildə Qafqazda canişinlik sisteminin yaradılması haqqında fərman verdi. 1844-cü ildə M.S.Voronsov bu diyara canişin təyin olundu. Onun dövründə bir daha yeni inzibati-ərazi bölgüsü keçirildi. 1846-cı il dekabrın 14-də keçirilən islahata görə, Cənubi Qafqazda dörd – Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyaları yaradıldı. Bu inzibati-ərazi dəyişikliyi İrəvan vilayətinə toxunmadı. İrəvan yenə də bir qəza kimi Tiflis quberniyasının tərkibində qaldı (372, 312).

Lakin bu bölgü də Cənubi Qafqazda sonuncu inzibati-ərazi bölgüsü olmadı. 1849-cu il iyunun 9-da İrəvan quberniyasının yaradılması haqqında qanun verildi. Bu qanuna görə, İrəvan, Naxçıvan və Aleksandropol (Gümrü – E. Q.) qəzaları Tiflis quberniyasından ayrılaraq İrəvan quberniyasına qatıldı. Qeyd etmək lazımdır ki, XIX yüzilliyin əvvəllərində rus qoşunları tərəfindən işğal olunan Şörəyel və Pəmbək sultanlıqları Kartli-Kaxetiya çarlığına birləşdirilmişdi. Çar Rusiyasının İrəvan quberniyası yaradılana qədər keçirdiyi inzibati-ərazi dəyişikliyində bu ərazilər Aleksandropol qəzası adı ilə Tiflis quberniyasının tərkibində qalmışdı. İrəvan quberniyasının yaradılması ilə həmin mahallar İrəvana qaytarıldı. Yeni quber-

niyanın mərkəzi İrəvan şəhəri oldu. İnzibati cəhətdən İrəvan quberniyası beş – İrəvan, Yenibəyazid, Naxçıvan, Ordubad, Aleksandropol (Gümrü – E. Q.) qəzalarına bölünmüşdü. Naxçıvan və Ordubad qəzalarından başqa bütün qəzalar keçmiş İrəvan xanlığının ərazisi idi. Hər bir qəzaya müəyyən dairələr daxil idi. İrəvan qəzasına (mərkəzi İrəvan şəhəri) Göyçə mahalını çıxmaqla yuxarıda göstərilən ərazilər; Yenibəyazid qəzasına (mərkəzi Yenibəyazid şəhəri) keçmiş Göyçə mahalı və Göyçə gölü ətrafında olan ərazilər; Aleksandropol qəzasına (mərkəzi işğaldan sonra adı dəyişdirilmiş keçmiş Gümrü şəhəri) Şörəyel və Pəmbək dairələri daxil idi (372, 312).

Beləliklə, XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarına qədər İrəvan bölgəsi siyasi vəziyyətlə və mərkəzi hakimiyyətin keçirdiyi inzibati-ərazi islahatları ilə əlaqədar olaraq dəfələrlə inzibati-ərazi dəyişikliklərinə məruz qalmışdı. Bu dəyişikliklər zamanı onun ərazisi gah genişlənmis, gah da kiçilmişdi.

# VII FƏSİL

# İRƏVAN BÖLGƏSİNİN İQTİSADİ VƏZİYYƏTİ
## (XVII yüzilliyin sonu – XIX yüzilliyin birinci yarısında)

## 7.1. Kənd təsərrüfatı

Yuxarıda göstərildiyi kimi, tədqiq etdiyimiz dövr ərzində İrəvan bölgəsi müxtəlif dövlətlərin-Azərbaycan Səfəvilər dövlətinin, Osmanlı dövlətinin, Nadir şah Əfşarın yaratdığı dövlətin, Qacar dövlətinin inzibati-ərazi bölgüsünə daxil olmuş, XVIII yüzilliyin ikinci yarısından 1827-ci ilə qədər isə müstəqil xanlıq kimi fəaliyyət göstərmişdi. Qeyd etmək lazımdır ki, bu tarixi dövr ərzində bölgə müstəqil xanlıq kimi fəaliyyət göstərməsinə, müxtəlif dövlətlərin tərkibində olmasına baxmayaraq, aqrar münasibətlərin xarakterində, onun iqtisadi həyatında, torpaq sahibliyində, torpaqdan istifadədə, müxtəlif vergi sistemində elə bir ciddi və köklü dəyişikliklər olmamışdı. Hətta Osmanlı dövləti belə burada olan qayda-qanunlara toxunmamışdı.

Əvvəlki fəsillərdə göstərildiyi kimi, XVII yüzilliyin sonu-XVIII yüzilliyin əvvəllərində Səfəvilər dövlətində başlayan sosial-iqtisadi və siyasi böhran, sonrakı dövrlərdə baş vermiş müdaxilələr, müharibələr, münaqişələr, xalq azadlıq hərəkatı və s. Azərbaycanın digər bölgələrinə təsir göstərdiyi kimi, İrəvan bölgəsinin vəziyyətinə də mənfi təsir göstərməyə bilməzdi. Bunlara baxmayaraq İrəvan bölgəsi Azərbaycanın ən varlı bölgələrindən biri olaraq qalırdı. Əlverişli təbii-coğrafi, müxtəlif iqlim şəraitin, məhsuldar torpaqları suvarmaq üçün bol sulu çayların, geniş yaylaqların olması İrəvan bölgəsində iqtisadiyyatın təməlini təşkil edən əkinçilik və maldarlığın inkişafına çox əlverişli zəmin yaradırdı.

İrəvan bölgəsinin kənd təsərrüfatının ayrı-ayrı sahələrininin tarixini araşdırmazdan əvvəl, bu bölgənin Azərbaycanın ən varlı bölgələrindən biri olması haqqında qaynaqlarda olan bəzi məlumatları nəzərdən keçirək. XVII yüzilliyin 70-ci illərin əvvəllərində İrəvanda olmuş məşhur fransız səyyahı J.Şardən İrəvan bölgəsini Səfəvilər dövlətinin ən varlı əyalətlərindən biri hesab edərək yazırdı ki, "əyalət ümumiyyətlə kifayət qədər yaxşı və çox məhsuldardır. Torpağı zəngin məhsul verir... Torpaqda ucuz qiymətə satılan hər cür ərzaq yetişdirilirdi" (214, 243). Rus casus-elçisi və səyyahı A.P.Volınski isə gündəliyində İrəvanı bütün Səfəvilər dövlətində ən varlı bölgələrdən biri olduğunu qeyd etmişdi (113, 11). Yerli mənbələr də İrəvanı ən varlı bölgələrdən biri kimi təqdim edirdi. İrəvanı bərəkətli əyalət adlandıran Z.Kənəkirli yazırdı ki, "İrəvan torpağı özünün ağacları, əkinçiliyi, məhsul və toxumu, gülləri və otları, dağları və vadiləri, çayları və bulaqları, bağları və bağçaları, quşları və mal-qarası, vəşhi və ov quşları və hər cür nemətlə zəngindir" (225, 159).

İrəvan bölgəsinin iqtisadi həyatında kənd təsərrüfatı əsas yeri tuturdu. Əkinçilik və maldarlıq kənd təsərrüfatının başlıca sahələri idi. Əkinçilikdə dənli bitkilərdən-buğda, arpa, çəltik və darı əkilirdi. Fransız səyyahı J.Şardən səyahətnaməsində İrəvanda bol taxıl məhsulu yetişdirildiyini bildirmişdi (214, 243). İrəvan ətrafı kəndlərdə, Qırxbulaq, Sərdarabad, Şörəyel və Pəmbəkdə daha çox taxıl yetişdirilirdi (499, 739; 221, 19-21).

İrəvan bölgəsində həm yazlıq, həm də payızlıq buğda və arpa becərilirdi. Belə ki, dağlıq yerlərdə taxıl əsasən payızda, aran yerlərində isə yazda əkilirdi (499, 739; 260, 278). Aran yerlərinə nisbətən dağətəyi ərazilərdə məhsul daha bol olurdu. Qaynaqlarda müxtəlif dövrlərdə bölgədə yetişdirilən taxıl məhsullarının miqdarı haqqında məlumatlara rast gəlmək olar. Əvvəlki dövrlər haqqında məlumat olmasa da, müstəqil xanlıq dövründə yerli əhalinin hər il 34.185 xalvar buğda, 11.500 xalvar arpa əldə etdiyi barədə məlumat vardır (260, 280). Rusiya işğalından sonra 1832-ci ildə "Erməni vilayəti"ndə hər il orta hesabla 75.000 xalvar buğda, 10.000 xalvar

arpa yığılmışdı (499, 738-739). Əgər "Erməni vilayəti"nə daxil olan Naxçıvan və Ordubad ərazilərini çıxsaq, görərik ki, xanlıq dövründə burada daha çox buğda və arpa yığılmışdı.

Əkinçilikdə çəltik becərilməsi də əsas yerlərdən birini tuturdu. Yeməklərində düyüdən çox istifadə etdiklərindən irəvanlılar onun becərilməsinə xüsusi fikir verirdilər. XVII yüzilliyin 40-cı illərində İrəvan bölgəsində səyahətdə olmuş Ö.Çələbi xatirələrində ayrı-ayrı kəndlərdə geniş çəltik sahələrinə rast gəldiyini yazmışdı (495, 150-155). 1783-cü ildə Rusiya dövlətinin nümayəndəsi doktor Reyneks də İrəvanda olarkən burada bol çəltiyin yetişdirildiyini bildirmişdi (90, 215-216).

Çəltiyin əkilməsi aprel ayının ortalarından başlayıb mayın ortalarına qədər davam edirdi. Məhsul isə sentyabrın ortalarında yığılırdı (499, 740-741; 260, 278). Bu bitkinin becərilməsi üçün çox su tələb olunduğundan onun əkilməsi çətin başa gəlirdi. Ona görə də, çəltik suyu bol olan yerlərdə daha çox məhsul verirdi. Bu bitkinin əkilməsini ətraflı təsvir edən İ.Şopen yazırdı: "Əhali bataqlığa (əslində bu, bataqlıq yox, çəltik əkilən sahələr idi – E. Q.) onlarla camış və kəl qovaraq, oranı tapdalamağa məcbur edirdilər. Heyvanlar oranı o qədər tapdalayırdı ki, bataqlıq duru palçığa çevrilirdi. Sonra ona toxum səpirdilər" (499, 741). Səədlı, Körpübasar, Zəngibasar, Gərnibasar mahallarının aran yerləri bu bitkinin istehsalında xüsusilə seçilirdi. Digər aran yerlərində bu bitkinin əkilməsinə qadağa qoyulmuşdu (499, 740). Çünki çəltiyin əkildiyi yer daim sulu olduğundan torpaqin keyfiyyətini aşağı salırdı. Bu da digər taxıl məhsullarının becərilməsinə ziyan vururdu.

İrəvanlılar düyünü özləri istifadə etməklə bərabər, artığını qonşu bölgələrə və dövlətlərə də ixrac edirdilər (225, 153). Ən keyfiyyətli çəltik Zəngibasar və Körpübasar mahallarında becərilirdi (499, 741; 260, 278). Müstəqil xanlıq dövründə İrəvanda orta hesabla 18.400 xalvar çəltik yığılmışdı (260, 280).

İrəvanlılar kənd təsərrüfatı bitkilərindən darı da becərirdi. Bu bitki növü digər taxıl bitkilərindən fərqli olaraq nisbətən az əkilirdi. İl ərzində əkilmiş 1000 xalvara yaxın torpaq sahəsindən 10.000

xalvar darı yığılmışdı (499, 740). Darıdan yalnız aşağı təbəqənin adamları istifadə edirdi. Məhsulun yarısından əkənlər adətən özləri istifadə edir, bir hissəsi elatlara satılır, yalnız 1/5 hissəsi xəzinəyə təhvil verilirdi. Sonuncu İrəvan sərdarı Hüseynqulu xan taxıl bitkilərinin məhsuldar olduğu mahallarda darının əkilməsini qadağan etmişdi (499, 740).

Yerli əhali küncüt və kətan əkini ilə də məşğul olurdu. Küncüt aran yerlərdə, kətan isə həm aran, həm də dağlıq yerlərdə əkilirdi. Küncüt və kətandan əsasən yağ əldə edilirdi. Bu yağlardan yeməklərin bişirilməsində və çıraqların yandırılmasında istifadə olunurdu (499, 741-742). Hələ Səfəvilər dövründə İrəvan bölgəsinin ixracatında bitki yağları da böyük rol oynamışdı (225, 153). Müstəqil xanlıq dövründə hər il orta hesabla 24 xalvar küncüt, 12 xalvar kətan yığılırdı (260, 280).

İrəvan bölgəsinin kənd təsərrüfatında digər texniki bitkilərə də geniş yer verilirdi. Bunlardan pambığın becərilməsi daha geniş yayılmışdı. Pambıq aran yerlərində aprel-may aylarında əkilir, oktyabrın axırı – noyabrın əvvəllərində yığılırdı. Zəngibasar, Sərdarabad və Sürməli mahalları pambıq becərilməsində əsas yeri tuturdu (499, 743; 260, 278-279).

Pambıq qiymətli bitki hesab olunurdu və İrəvan hakimləri onun əkilməsinə ciddi nəzarət edirdi. Məsələn, 1769-cu ildə İrəvan hakimi Hüseynəli xanın göstərişi ilə İmamarx, Kültəpə kəndlərinin və b. kəndlərin ətrafındaki əkin sahələri şumlanaraq, pambıq əkilmişdi (187, 185). Müstəqil xanlıq dövründən fərqli olaraq, mənbələrdə İrəvanda nə qədər pambıq yığılması haqqında məlumata rast gəlmədik. Lakin bölgənin ticarətində bu texniki bitkinin əsas yerlərdən birini tutması haqqında məlumat vardır (225, 153). İrəvan hakimləri onun satışından küllü miqdarda gəlir əldə edirdilər. 1783-cü ildə doktor Reyneksin yazdığına görə, İrəvanda bol pambıq, ipək, çəltik və üzüm yetişdirilirdi. Pambığın 7/10 hissəsi, yəni 13.600 pudu xana çatırdı. Hüseynəli xan pambığın hər pudunu 0, 5 tümən satdırırdı. Nəticədə İrəvan hakiminin təkcə bu bitkidən gələn gəliri 47600 tümən çatırdı (90, 215-216).

Sonuncu İrəvan hakimi Hüseynqulu xan isə pambığı tamamilə öz inhisarına almışdı. Onun fərmanına əsasən, pambıqçılıqla məşğul olan sadə kəndlilər, bəylər və mülkədarlar bu məhsulu yalnız xana satmalı idilər. Xan pambığı onlardan hər xalvarını 0, 1 tümənə alırdı. O, əhalidən ucuz qiymətə aldığı pambığın bir xalvarını 12 tümənə sataraq küllü miqdarda gəlir əldə edirdi. Bu dövrdə əhali hər il orta hesabla 2100 xalvar pambıq yığırdı (258, 51; 260, 280; 499, 744).

Rusiya işğalından sonra bu bitkinin becərilməsində xeyli geriləmə baş verdi. Belə ki, "Erməni vilayəti"ndə 1836-ci ildə 3.000 xalvar pambıq əkildiyi məlumdur (499, 743; 258, 51). Əgər bu vilayətin tərkibinə daxil olan Naxçıvan və Ordubadı çıxsaq, müqayisədə göstərmək olar ki, pambığın istehsalı xeyli aşağı düşmüşdü. Lakin çarizm Rusiya sənayesinin inkişafı üçün bu bitkiyə böyük maraq göstərirdi. Belə ki, yığılan məhsulun 1/3-i xəzinəyə çatmalı idi (288, 516).

İrəvanlılar tütün yetişdirilməsi və tənbəki istehsalı ilə də məşğul olurdular. Yerli əhali adətən tənbəkidən özləri istifadə edirdi, məhsulun çox az qismi isə satışa çıxarılırdı. Bu bitkinin becərilməsi ilə Sürməli mahalının Arhacı kəndinin əhalisi daha çox məşğul olurdu. Müstəqil xanlıq dövründə təkcə bu kənd 40 xalvardan daha çox məhsul əldə etmişdi (499, 745). Məlumata görə, bütün xanlıqda hər il orta hesabla 60 xalvar tənbəki istehsal edilmişdi (259, 280). Rusiya işğalından sonra da bu bitkiyə maraq artmışdı. Bu texniki bitkidən gələn gəlirin 1/3 hissəsi xəzinəyə çatmalı idi (288, 516).

Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvanın iqtisadiyyatında ipəkçilik tarixən inkişaf etmiş sahələrdən biri idi. Z.Əylisli bölgənin ticarətində bu sahənin böyük rol oynadığını bildirmişdi (167, 129). XVIII yüzilliyin 80-ci illərin əvvəllərində İrəvanda bol xam ipək istehsal olunmuşdu (90, 215). İstehsal edilən xam ipəyin miqdarı haqqında konkret rəqəmə rast gəlməsək də, «əyaləti əhatə edən bütün bağlarda tut ağaclarının çoxluğuna görə ehtimal etmək olar ki, ipəkçilik vaxtilə İrəvan xanlığının kənd təsərrüfatında böyük rol oynamışdı» (499, 753). Lakin işğaldan

sonra bu sahəyə maraq azalmışdı. Belə ki, 1829-1832-ci illər kameral siyahıyaalınma həyata keçirilən zaman yalnız İrəvan şəhərində 10 funt xam ipək istehsal olunmuşdu (499, 753).

Yerli əhali müxtəlif kənd təsərrüfatı alətlərindən istifadə edirdi. Qaynaqlarda əkinçilik alətləri haqqında ətraflı məlumat verilmişdi. İrəvan bölgəsində torpaq kotan və xışla şumlanırdı. Şumlama əsasən payızda və yazda həyata keçirilirdi. Kotan çox ağır olduğundan onunla torpağı şumlamaq çətinliklə başa gəlirdi. Bu işdə beş adamın iştirakı vacib idi. Dördü qoşqu heyvanlarını, beşincisi isə kotanı idarə edirdi. Maraqlıdır ki, ağır kotanı dartmaq üçün on dörd cüt kəl və camış lazım gəlirdi. Xışla torpağı şumlamaq isə nisbətən asan idi. İrəvanda xış yazlıq əkin zamanı daha çox istifadə edilirdi. Xışı bir və ya iki kəl dartırdı. Şumlanmış torpaq qollu-budaqlı ağacla malalanırdı. Aran yerlərində isə malalamaq əsasən, səliqə ilə sarınmış çubuqlarla həyata keçirilirdi (499, 737-738).

Məhsul yığılarkən müxtəlif alətlərdən istifadə edilirdi. Taxıl biçinində oraq, ot biçinində isə dəryaz əsas alətlər idi (499, 738).

Məhsul yığıldıqdan sonra onu xüsusi qayda ilə döyür, sovurur və xəlbirləyirdilər. Belə ki, «xırmanda dərzləri açıb dağıdaraq döymək üçün hazırlayırdılar. Aşağı hissəsinə böyük olmayan qırıq çay daşları yerləşdirilmiş ağır taxtaya (vəl – E. Q.) bir neçə (? – E. Q.) cüt öküz bağlayırdılar. Sonra taxtanın üstünə uşaqları oturdurdular, onlar öküzləri dairəvi şəkildə dərzlərin üstü ilə o vaxta qədər qovurdular ki, nəhayət, iti daş dərzi samana çevirirdi. Sonra küləkli gündə samanı havaya atırdılar, külək yüngül, doğranmış samanı bir neçə addım kənara sovurur, bununla bərabər ağır olduğundan buğda toplu halında ayaq altına düşürdü» (499, 739-740).

Kənd təsərrüfatının daha inkişaf etmiş sahələrindən biri də bağçılıq və bostançılıq idi. Əlverişli iqlim şəraiti burada meyvəçi-liyin inkişafına lazımi şərait yaratmışdı. Mənbələr bölgənin başdan-başa meyvə bağları ilə zəngin olduğunu xəbər verirdi (300, 26; 61, 50; 214, 242; 225, 158; 144, 1; 493, 107).

Bağlar üç qrupa bölünürdü. **Birincisi,** həyətyanı bağ, yaxud bağça adlanırdı. Adətən sahəsi az olan, meyvə bağı adlandırılan bağçalar hər bir evin ətrafında yerləşirdi. **İkincisi,** şəhərətrafı iri bağlar idi ki, əhalinin məskunlaşmadığı ərazidə yerləşirdi (472, 24; 499, 749). Bu meyvə bağlarında alma, şaftalı, ərik, gavalı, alça, gilas, gilənar (albalı), xurma, heyva, əncir, qoz, nar, tut və digər yerli meyvələr yetişdirilirdi. (239, 281; 499, 749). Bəzi meyvələrin müxtəlif növləri vardı. Məsələn, şaftalının kərdi və yarma, almanın kərbəlayı, cəfər, vahab, cənnət, hacıhüseynəli, ahıska və il, armudun hacımehdi, malaça, qışarmudu və sini növləri el arasında daha məşhur olmuşdu (472, 26-27). **Nəhayət, üçüncü** bağlar üzümlüklərdən ibarət idi. Bölgə başdan-başa üzümlüklərlə bol idi. İrəvanda müxtəlif növ üzüm yetişdirilirdi. Bunlara qaraşanı, ağsabi, əsgəri, kişmiş-badana, qırmızı-qulami, xallı, misqali, qırmızı kişmiş, zeyni, kişmiş, təbrizi, xərci, ət xərci, top xərci və s. cürbəcür üzüm növləri daxil idi (499, 750-751). Üzümdən yüksək keyfiyyətli şərab doşab (bəhməz) və sirkə hazırlanırdı. Doşab və sirkəni əsasən Azərbaycan türkləri emal edirdilər (214, 243; 426, 751-752).

Yerli əhali meyvə ticarətindən hər il çoxlu gəlir əldə edirdi. İşğaldan qabaq meyvələrin hansı qiymətə satılması haqqında konkret məlumata rast gəlməsək də, ondan dərhal sonrakı dövrlərin məlumatlarına görə, bir batman meyvə və üzüm 20 gümüş qəpiyə, bir küp, yəni 50 batman (40 vedrə) şərab keyfiyyətinə görə 25-40 gümüş rubl arasında satılırdı. Sirkənin bir batmanının qiyməti isə 60-80 gümüş qəpiyə bərabər idi (499, 752).

Müharibələr dövründə hərbi əməliyyatların getdiyi ərazilərdə meyvə bağlarına güclü ziyan dəysə də, İrəvan hakimləri bu sahənin inkişafına xüsusi fikir verirdilər. Onlar bağ sahələrini genişləndirir və bu sahələri müxtəlif ölkələrdən gətirilmiş meyvə ağacları ilə zənginləşdirirdilər. Sonuncu İrəvan hakimi Hüseynqulu xan İrandan və Hindistandan meyvə ağacları gətizdirmişdi (499, 950).

Xana və xəzinəyə məxsus bağlara **bağbanbaşı** nəzarət edirdi. O, həmişə bu bağların abadlığına diqqət edər, müəyyən fəsillərdə ağaclar və güllər əkərdi. Yetişmiş meyvələri və rəngbərəng gülləri

tədarük etməklə hakimə yaxşı qulluğunu göstərərdi. Bağbanbaşının sərəncamında bağbanlar dəstəsi fəaliyyət göstərərdi (61, 110).

Meyvə bağları icarəyə də verilirdi. Xəzinəyə məxsus bütün meyvə bağları mart ayından başlayaraq icarədarlara paylanırdı. İcarədarlar bağların alağını təmizləyir, becərmə işləri ilə məşğul olur və meyvələrini yığırdılar. Lakin bununla belə, meyvə dərilərkən oğurluğun qarşısını almaq üçün xanın bağbanları icarədarların işinə nəzarət edirdilər. Payızda yığım qurtardıqdan sonra bütün bağlar bağbanbaşına təhvil verilirdi. Bağlar təhvil verildikdən sonra yerli kəndlilər bağları qaydaya salmaq işinə cəlb edilirdi. Bu, adətən oktyabr ayında icra olunurdu (499, 959-960).

Təəssüf ki, XVII yüzilliyin sonundan Rusiya işğalına qədər İrəvan bölgəsində bağ sahələri və onların sayı haqqında heç bir dəqiq statistik məlumat əldə etmək mümkün olmadı. Əldə olunan məlumatlar yalnız işğaldan sonrakı dövrə aiddir. 1829-1832-ci illərdə Rusiyanın xanlıq ərazisində həyata keçirdiyi kameral siyahıyaalınmada İrəvan şəhərində və bölgənin 12 mahalında yerləşən bağların sayı, onların tutduğu sahə və gəlirləri haqqında xeyli dəyərli məlumat qeydə alınmışdir (499, 747). Bu barədə 1-ci cədvəldə xeyli məlumat öz əksini tapıb.

Bu məlumatda təəssüf ki, Göyçə, Dərəçiçək və Abaran mahallarında meyvə və üzüm bağlarının sayı göstərilməmişdi. Bu hal onunla bağlıdır ki, həmin mahallar müharibələr dövründə ən çox dağıntıya məruz qaldığından burada meyvə bağları demək olar ki, tam yararsız hala düşmüşdür. Lakin xanlıq ərazisində dağıdılmış meyvə bağlarına da rast gəlinirdi. Bununla əlaqədar olaraq İ.Şopen yazırdı ki, «Dağılmış kəndlərin yaxınlığında, xüsusilə də dərələrin orta hissəsində baxımsız vəziyyətdə qalan çoxlu meyvə bağları var idi» (498, 746). Onu da qeyd etmək yerinə düşərdi ki, İrəvan xanlığı işğal olunduqdan sonra otuz beş meyvə bağı rus xəzinəsinin ixtiyarına keçmişdi (499, 951-958).

Rusiya hakimiyyəti dövründə də İrəvanda xəzinə bağlarının xüsusi şəxslərə icarə verilməsi haqqında qaynaqlarda ətraflı məlumatlar vardır. İrəvanda olan xəzinə bağlarının satılması və

icarəyə verilməsinin səbəbkarı Rusiya çarı olmuşdu. 1837-ci ildə İrəvanda olan çar I Nikolay Zəngi çayının ətrafında, sərdar sarayı ilə üz-bəüz olan bağdan başqa "Erməni əyaləti"ndə olan xəzinə bağlarının satılması və icarəyə verilməsi haqqında göstəriş vermişdi (403, 107). Bundan sonra yerli idarə orqanları bu məsələ ilə məşğul olmuşdular. Ermənistan Mərkəzi Tarix Arxivindən götürülən bir məlumatda göstərilir ki, İrəvan sakinləri Kərbalayı Abbas Əbdülhüseyn oğlu və Məşədi Ələkbər Kərbalayı Şıxməhəmməd oğlu xəzinəyə məxsus bostan yeri olan Səbziyeri adlı xəzinə torpağını icarəyə götürmələri haqqında "Gəlir və Əmlak Xəzinəsi İdarəsi" ilə 1840-cı il yanvarın 2-də 8 maddədən ibarət müqavilə bağlamışdılar. Səbziyeri dörd sahədən ibarət idi: birinci sahənin eni və uzunu 40 sajen, ikincisinin uzunu 93 sajen, eni 28 sajen, üçüncüsünün uzunu 40, eni 25 sajen, dördüncüsünün isə eni və uzunu 40 sajen. İlk üç sahə yuxarıda adı çəkilən İrəvan sakinlərinə verilmişdi. Həmin şəxslər bunun üçün xəzinəyə 15 gümüş rubl girov qoymuşdular (403, 107-109).

Digər məlumatda İrəvan şəhərində olan daha doqquz-Əlican, Kələntər ($^1/_4$ hissəsi), Tağı bəy ($^2/_5$ hissəsi), Məhəmmədşəfi bəy, Qasım Bayram oğlu, Yeniköydə Mirzə Qasım, Darabağda Mirzə Qasım, Abuhəyatda Məhəmmədcəfər bağının icarə verilməsi və icarə pulu haqqında ətraflı təsvir edilmişdir. Bu bağlar 1943-cü ilin yayından oktyabrın sonuna qədər icarəyə verilmişdi. Birinci bağı 5 gümüş rubl müqavilində Vəli bəy Zeynalabdin oğlu, ikinci bağı 20 gümüş rubla Əlibaba məşhədi Məhəmmədrza oğlu, üçüncü bağı 24 gümüş rubla Əsəd bəy Əlican bəy oğlu, dördüncü bağı 32 gümüş rubla, beşinci bağı 10 gümüş rubla, altıncı bağı 45 gümüş rubla, yeddinci bağı 15 gümüş rubla Məhəmmədəli məşhədi Məhəmmədhüseyn oğlu, səkkizinci bağı 3 gümüş rubla Abbas bəy Tağı bəy oğlu və doqquzuncu bağı isə 3 gümüş rubla Məmiş Fətəli oğlu və Malik Məhəmmədbağır oğlu icarəyə götürmüşdülər (403, 109).

Bostançılıq da İrəvan əhalisinin əsas kənd təsərrüfatı məşğuliyyəti sahələrindən biri idi. Burada müxtəlif növ tərəvəz yetişdirilirdi. Bostanlarda müxtəlif göyərtilər, çuğundur, lobya,

xiyar, kələm, noxud, yer kökü, xardal, badımcan, qarğıdalı, qarpız, yemiş və s. əkilirdi (499, 745-746; 472, 28). İrəvan qarpızı və yemişi daha məşhur idi. Qarpız yazda və yayda əkilirdi. Bu bostan bitkisinin xunu, ağabəy, qurbanağası, həsənbəy və digər növləri vardı. Yemiş isə dörd – şallax, dostucan, carcar və tutma növü ilə tanınmışdı (472, 28).

Bostan bitkilərindən kartof yerli əhaliyə yalnız işğaldan sonra məlum olmuşdu. İ.Şopen yazırdı ki, ilk dövrlərdə kartof ancaq rus hərbi hissələrinə məxsus bostanlarda əkilirdi, yerli əhali hələ bu bitkidən istifadə etmirdi (499, 746).

Azərbaycanın digər bölgələrində olduğu kimi İrəvan bölgəsinin kənd təsərrüfatında **süni suvarmadan** geniş istifadə edilirdi. Burada bolsulu çayların olması kənd təsərrüfatının inkişafına təkan verən əsas amillərdən biri idi. Dağlıq ərazilərdə əsasən dəmyə üsulundan istifadə edilsə də, aran yerlərində süni suvarma geniş yayılmışdı. İrəvanlıların əkin sahələrini və mal-qara üçün yonca sahələrini suvarmaq üçün çəkdikləri əziyyətlərə toxunan İ.Şopen yazırdı: «Belə ki, tələbat hünər yaradırdı. Yerli əhali həm geodeziya, həm də hidravlikadan (suyun müvazinət və hərəkəti şəraiti və qanunlarından və onların əməli tətbiqindən bəhs edən elm – E. Q.) nəzəri məlumat olmadan, bəzən vaterpasın (yer səthinin üfqi vəziyyətini yoxlamaq üçün cihaz – E. Q.), bəzən də gözəyarı çox çətinliklə, lakin sadə üsulla müvəffəqiyyətlə süni arxlar çəkirdilər» (499, 388).

İrəvan bölgəsində əhalinin tələbatını ödəmək üçün çəkilmiş arxların əksəriyyəti Səfəvilər dövründən qalmışdır. S.İrəvanlı da iri çaylardan ayrı-ayrı kəndlərə çəkilən bəzi arx və kanallar haqqında məlumat vermişdi (187, 192-193, 230-231, 271-273). Araz, Zəngi, Qırxbulaq, Arpaçay və digər iri çaylardan çəkilən arx və kanallar İrəvan bölgəsində kənd təsərrüfatının inkişafında böyük rol oynamışdı. Rusiya tərəfindən işğal edildikdən sonra burada həyata keçirilən kameral siyahıyaalınmada iri çaylardan ayrı-ayrı mahallarda çəkilmiş müxtəlif arx və kanalların adları qeyd olunmuşdu. Bu

arxların adları vaxtı ilə onu çəkdirən hər hansı nüfuzlu şəxslərin adı və yaxud ayrı-ayrı kəndlərin adları ilə əlaqədardı.

Araz çayı İrəvan bölgəsinin kənd təsərrüfatının inkişafında böyük rol oynayan əsas su mənbəyi idi. İrəvanlılar Araz çayından Sürməli və Sərdarabad mahallarını başdan başa su ilə təmin edən onlarla arx çəkmişdilər. Bu arxlar mənbəyini bəziləri birbaşa Arazdan, digərləri isə ondan çəkilmiş kanallardən götürürdü. Qeyd etmək lazımdır ki, Araz sahilləri daşlı və hündür olduğundan arxların çəkilişi çətinliklə başa gəlirdi. İrəvan bölgəsində çaylardan çəkilmiş arx və kanallar bunlar idi: 1. Araz çayından Sürməli mahalına çəkilən arxlar: Qul Yusif, Sərbaz arxı, Zülfüqar arxı, Evçilər arxı, Ağ arx, Məmiş-gön arxı, Molla Məhəmməd arxı, Yayçı arxı, Əli Qəmərli arxı, Xan xəbər arxı, Xəlfəli arxı, İğdır arxı, Anac arxı, Qızıl arx, Daş arxı, Bəhərli arxı, Arhacı arxı, Dilənçi arxı, Ağçalı arxı. Bu arxlar içində ən böyüyü Qul Yusif arxı idi; Sərdarabad mahalına çəkilən arxlar isə bunlar idi: Zor arxı, Molla Bəyazid arxı, Şitli arxı, Mənzərə arxı, Çaş arxı, Kərim arxı; Araz çayı həmçinin Saatlı mahalının Söyüdlü, Hüseynkənd və Çıraxlı kəndlərini də su ilə təchiz edirdi. 2.Qərbi Arpaçay çayı isə Səədli mahalının kəndlərini su ilə təchiz edirdi. Onun Araz çayına töküldüyü mənsəbindən üç arx çəkilmişdi. Onlardan Hacı Bayramlı və Ərmən arxları bir qədər böyük idi. 3.Hacıçay çayından çəkilən suvarma arxları Dərəkənd-Parçenis mahalının əkinlərini suvarırdı. Bu çaydan Parçenis mahalına Yal, Əkərək, Yüzbaşı, Dərə, Kyəqin və b. arxlar çəkilmişdi. Bundan əlavə bu mahalda süni göl olan Abbasgöldən çəkilmiş Gödək arxından da istifadə olunurdu. Dərəkəndə isə Pirli çayından Kobak, Pyütkan arxları çəkilmişdi. 4.Şimali Qarasu çayından çəkilən Üç-türkmənli, Qarxun və Şərifabad arxları Sərdarabad mahalını suvarma suyu ilə təchiz edirdi. 5.Körpü çayından çəkilən arxlar eyni adlı mahalı suvarırdı. Bunlardan ən böyüyü Əştərək, Uşağan, Xatun və Qəmərli arxları idi. Əştərək və Uşağan arxlarından Zeyvə arxı, Şah arxı, İnci arxı və Kalderun adlanan əlavə qollar ayrılırdı. 6. Abaran mahalını Qartan çayından çəkilmiş arxlar suvarırdı. 7. Seyidli mahalını Anberd (?)

çayından çəkilən arxlar su ilə təmin edirdi. Onlar bunlar idi: Ayarlı arxı, Aramlı arxı, Pirağa arxı, Avanlı arxı, Koytul arxı və Qaracalar arxı. 8. Parpi çayından Ayarlı və Uşağan arxları çəkilmişdi. 9. Zəngi çayı isə İrəvan şəhərini, Zəngibasar və Qırxbulaq mahallarını su ilə təmin edirdi. Bu çayın sahili daşlı-kəsəkli olduğundan suvarma arxlarının çəkilməsi böyük çətinliklə başa gəlirdi. Buna baxma-yaraq, Zəngi çayından bir neçə arx çəkilmişdi. Birinci arx İrəvan şəhərindən 8 verst aralıdan axaraq onun Qızılqala bağlarını suvarırdı. İkinci arx-Dəlmə arxı İrəvan şəhəri yaxınlığında olan Dərəbağ qəsəbəsinin əks istiqamətində, çayın sağ sahilindən götürülmüşdü. O, yeraltı yolla axaraq yer üzünə böyük bulaq kimi çıxırdı. Bu arxla Dəlmə və Yeniköy bağları, habelə Üçmüəzzin kilsəsinə məxsus torpaqlar suvarılırdı. Üçüncü arx-Abuhəyat arxı xeyli şəhər bağlarını suvararaq Qırxbulaq çayına tökülürdü. Dördüncü arx-Mamırlı arxı isə bütün «Təpəbaşı» məhəlləsini, «Şəhər» məhəlləsində olan bağların bir hissəsini və İrəvan qalasının bir hissəsini su ilə təmin edirdi. Bundan əlavə Zəngi çayından götürülən arxlar Zəngibasar mahalının kənd təsərrüfatının inkişafında da böyük rol oynamışdı. Bu mahalı suvaran arxlar bunlar idi: Noraqovit, Uluxanlı, Həsənavar, Yeniköy, Orta və Şirabad. Zəngi çayından Qırxbulaq mahalına da bəzi arxlar çəkilmişdi. 10. İrəvan şəhərinin su ilə təchiz edilməsində Qırxbulaq çayının da öz yeri vardı. Bu çaydan Dəlikdaş, Dərə, Şahab, Kənəkir, Paşalıq, Ağakavar və Çölməkçi arxları çəkilmişdi. Paşalıq və Ağakavar arxları İrəvanın "Şəhər" və "Dəmirbulaq" məhəllələrində yerləşən əkin sahələrini, Çölməkçi arxı isə şəhərə bitişik Çölməkçi kəndinin bağ və əkin sahələrini suvarırdı. 11. Gərni çayından Gərnibasar mahalının bütün kəndləri su götürürdü. Hər bir kəndin öz arxı vardı. 12.Vedi çayı Vedibasar mahalını su ilə təmin edirdi (499, 387-393). Məlumata görə, İrəvanın son sərdarı Hüseynqulu xan xanlığın süni suvarma sisteminin inkişafına əvəzsiz xidmətlər göstərmişdir. Xüsusilə, İrəvan şəhərində təkmilləşdirilmiş su kəmərlərinin və ayrı-ayrı məhəllələrə arxların çəkilməsi onun adı ilə bağlı idi (216, 457). Bundan əlavə, Hüseynqulu xan XIX yüzilliyin

20-ci illərin ortalarında Vedi çayından və Göyçə gölünə tökülən Arxaşan çaylarından suvarma arxları çəkdirmək işinə girişmişdi. Lakin sonuncu İrəvan döyüşünün başlaması bu işi yarımçıq qoymuşdu (478, 6)

Əhalinin su tələbatını ödəmək üçün kəhrizlərin də böyük rolu vardı. Bu su mənbələri xüsusilə, irəvanlıların içməli su tələbatının ödənilməsində əvəzsiz qaynaq rolunu oynamışdı. XIX yüzilliyin ortalarında yalnız İrəvan şəhərində həm də 196 su quyusu qeydə alınmışdı (217, 437).

Azərbaycanın digər bölgələrində olduğu kimi, tarixən İrəvan bölgəsində də sudan istifadə etmək üçün dövlət nəzarəti yaradılmışdı. Əhali arasında suyun bölüşdürülməsinə dövlət tərəfindən təyin olunmuş **mirab** rəhbərlik edirdi. Fars dilində mirab iki sözün – mir – idarə etmək, ab-su sözlərinin birləşməsindən əmələ gəlmişdi. Bu vəzifəyə hər hansı bir şəxs təyin oluna bilərdi (94, 139). O, bütün mahalların suvarma təsərrüfatının başçısı idi. Mirablar müxtəlif kəndlər arasında həm xüsusi, həm də ümumi arx və kanallardan istifadə qaydalarını müəyyən edərək bu qaydaların pozulmasına imkan vermirdi. Sudan istifadə qaydalarına görə bir sıra kəndlər arasında baş verən mübahisələr, su növbəsinin pozulması və özbaşnalıq kimi məsələləri mirablar həll edirdilər. Eyni zamanda arx və kanalların işlək qaydada olmasına da mirab cavabdeh idi. Əhali sudan istifadəyə görə, vergi verməli olurdu (499, 941-942; 472, 22; 61, 143; 148, 168; 256, 14).

Lakin İrəvan hakimləri tərəfindən təyin olunmasına baxmayaraq mirabları əhali saxlamalı idi. Onların məvacibi yerli əhali tərəfindən nəğd pulla və yaxud natura (buğda, arpa, çəltik və s.) ilə ödənilirdi. Məlumata görə sonuncu sərdar Hüseynqulu xanın dövründə mirablar əsasən əhalinin daha sıx olduğu altı mahalda fəaliyyət göstərmişdilər. Çünki bu mahallarda daha çox və mürəkkəb suvarma arxları mövcud olmuşdu (478, 5-6).

Ayrı-ayrı kəndlərdə su sisteminə rəhbərlik edən **cuvarlar** miraba tabe idi. Suvarma sistemində polis vəzifəsini yerinə yetirən cuvarlar da mirab kimi dövlət tərəfindən təyin olunurdular. Bu

vəzifə birillik idi (499, 941-942; 472, 22, 148, 168). XIX yüzilliyin 40-cı illərində İrəvan bölgəsində suya nəzarət edən 11 cuvar qeydə alınmışdı. Onların illik gəliri 30 gümüş rubla qədər idi (148, 168).

Əhali hər il sudan istifadəyə görə vergi versə də, suvarma sistemində heç də həmişə qayda-qanun gözlənilmirdi. Suya nəzarət edənlər tez-tez vəzifələrindən sui-istifadə edirdilər; bu sahədə rüşvətxorluq və özbaşnalıq geniş yayılmışdı. Mirab və cuvarların günahı üzündən su üstündə əhali arasında tez-tez mübahisələr olurdu. Daha çox rüşvət verənlər sudan bol istifadə edirdilər. Varlı bağ və mülk sahibləri suya nəzarət edənləri rüşvətlə ələ alırdılar. Məhz onların günahı üzündən sadə xalq su çatışmazlığından daim əziyyət çəkirdi (499, 941-942; 472, 23).

Rusiya işğalından sonra Azərbaycanda, o cümlədən keçmiş İrəvan xanlığında süni-suvarma təsərrüfat sistemində uzun müddət tənəzzül baş verdi. Belə ki, Rusiya hakimiyyət orqanları kənd təsərrüfatının inkişafı üçün vacib amillərdən biri olan suvarma sistemlərini, suya nəzarət edən mirabların seçilməsini yerli əhalinin öz öhdəsinə buraxdı. Belə ki, Qafqaz canişini M.S.Voronsovun dövründə İrəvanda suvarma məsələsinin öyrənilməsi daha da genişləndi. İlk növbədə su işinə nəzarət edən mirabların vəziyyətinə aydınlıq gətirmək üçün layihə hazırlandı. İşğala qədər İrəvan bölgəsində mirab dövlər tərəfindən təyin edilirdi. Lakin çarizm 1847-ci ildə suvarma idarə sistemini "yaxşılaşdırmaq" məqdədi ilə "mirablar haqqında" qanun layihəsi tərtib edilmişdi. Qanun layihəsi 1847-ci il 12 apreldə Qafqaz canişini Vorontsov tərəfindən bəyənildikdən sonra qüvvəyə minmişdi. Bu qanun İrəvana da şamil edildi. Qanuna görə Tiflis quberniyasına daxil olan İrəvan və Naxçıvan qəzalarında hakimiyyət orqanlarının müdaxiləsi olmadan yerli camaat su işinə baxan mirabları özləri seçməli və məvaciblə təmin etməli idilər. Qəza rəislərinin mirabların işinə müdaxilə etməyə ixtiyarları yox idi. Yalnız mirablara yığılan məvacib məsələsində şikayət olduqda rəislər işə qarışa bilərdilər (Bax, Rusiya imperiyasının tam qanunlar külliyyatı, 1847, bölmə 2, iş.21104,

səh.314-315). Bu qanundan görünür ki, su işinə rəhbərlik edən mirablar müstəqil fəaliyyət göstərməli idilər.

Qafqaz Canişini sudan istifadə qaydasında möhkəm nizam-intizam yaratmaq üçün əlavə ştat da yaratmağa məcbur oldu. Hökumət 1848-ci ildə quberniyalar üzrə suvarma təsərrüfatına rəhbərlik etmək üçün yeni inzibati orqan yaratdı. Bu, Qafqaz Canişinliyi yanında Dövlət Əmlakı idarəsi nəzdində yaranan su mühəndisliyi vəzifəsi idi. Bu orqan 1874-cü ilə qədər cəmi 3 nəfər üzvi olan heyətlə fəaliyyət göstərmişdi. Onlar öz fəaliyyətlərində heç bir rəhbərliyə tabe deyildilər. Su mühəndisləri dövlət tərədindən maliyələşdirilirdi, çayların və arxların işlək qaydada da olmasına və mirabların fəaliyyətinə nəzarət edirdilər. Su mühəndislərinin ən önəmli vəzifələrindən biri də su üstündə olan mübahisəli vəziyyət haqqında yüksək distansiyalara məlumatlar vermək idi (478, 20-21).

Qanun və sərəncamlar verilməklə bərabər arxların təmir olunmasına da cəhd edilirdi. 1846-cı ilin baharında İrəvan və Üçmüəzzin qəzalarında suvarma arxlarının yenidən təmir olunmasına başlandı. İrəvan qəza rəisinin və mühəndis Çerniyavskinin rəhbərliyi ilə həyata keçirilən təmir işi 1848-ci ilə kimi davam etdi. Təmir işində yerli əhalidən dəstəylə 19 min adam və 1000-dən çox at-araba iştirak etmiş və dövlət tərəfindən buraxılmış 7 min rubl xərclənmişdi (478, 10). (**Haşiyə-**1843-cü ilin avqustun axırlarında İrəvan şəhərində olan baron A.Qaksthauzen qeyd edirdi ki, yalnız şəhərdə olan arxların təmirinə ildə 300 rubla qədər pul xərclənirdi (148, 168)). İki il ərzində təmir olunan arxlar bunlar idi: İrəvan qəzasında Qırxbuzovant, Horavit, Çorbax; Üçmüəzzin qəzasında Sərdarabad, Mollabəyazid, Cəfərabad; Şərur dairəsində Xarabataşar. Xeyli güc və pul sərf olunmasına baxmayaraq arxların təmiri gözlənilən nəticəni vermədi. Məsələn, Qırxbuzovant, Noravit, Sərdarabad, Cəfərabad və Xarabataşar arxları istifadəyə verilməsinin elə birinci ili tamamilə yarasız hala düşdü. 1849-cu ildə yalnız iki arx salamat qalmışdı. 1857-ci ildə Sərdarabad arxı yenidən təmir olunmağa başladı. Lakin 1858-ci ildə Araz çayında

baş verən daşqınla əlaqədar olaraq görülən işlər tamamilə məhv oldu (478, 10).

Dövlət Əmlak Nazirliyinin mühəndisi Yanuşevski 1849-cu ildə İrəvan qəzasında görülən təmir işlərinin boşa çıxmasının səbəbini lazımı vəsaitin və daimi texniki nəzarətin olmamasında görürdü. O, İrəvan quberniyasında süni suvarma arxlarının diqqətlə öyrənilməsini su işinə baxan mühəndisə tapşırılmasını bildirmişdi (478, 10).

Beləliklə, Rusiya işğalından sonra XIX yüzilliyin 50-ci illərinə qədər İrəvan bölgəsində suvarma sistemlərinin vəziyyəti acınacaqlı olaraq qalırdı. Bunun səbəbi Rusiya hakimiyyət orqanlarının yerli şəraiti, adət-ənənəni bilməməsində idi.

İrəvan bölgəsinin kənd təsərrüfatında **maldarlığın** əvəzolunmaz yeri vardı. Geniş otlaq sahələrinin olması burada maldarlığın inkişafı üçün əlverişli şərait yaratmışdı. Hətta qonşu bölgələrdən də buraya mal-qarasını otarmaq üçün elatlar gəlirdi (493, 107). Maldarlıq üçün Qırxbulaq, Göyçə, Abaran, Dərəçiçək, Gərnibasar, Vedibasar, Talın, Sürməli, Dərəkənd-Parçenis mahallarında daha əlverişli otlaqlar yerləşirdi (499, 523-525). Maldarlar daha çox xırda və iribuynuzlu mal-qara saxlayırdı. **İrəvan xanlığında maldarlıq ev şəraitində saxlanılan və köçmə olmaqla iki qrupa bölünürdü.** Bütün əhali ev şəraitində mal-qara saxlayırdı. Hər bir ailənin qoyunu, inəyi və s. şəxsi ev heyvanları var idi. Köçmə maldarlıqda isə vəziyyət bir qədər başqa cür idi. Bu sahə ilə məşğul olanların bir hissəsi yaylaq-qışlaq həyatı keçirir, digər hissəsi isə kəndlərdə qalaraq əkinçiliklə məşğul olurdular. Köçmə maldarlıq ilə əsasən Azərbaycan türkləri və kürdlər məşğul olurdular (499, 519-523).

Maldarlıqda iri-xırdabuynuzlu heyvanların habelə atın, ulağın, qatırın və dəvənin öz yeri vardı. Əhali onlardan müxtəlif məqsədlərlə istifadə edirdi. Torpağın şumlanmasında, yığılmış məhsulların döyülməsi və üyüdülməsində, habelə ağır yüklərin daşınmasında camış və kəllərin əvəzsiz xidməti vardı. Belə ki, kəllərin qoşulduğu arabalarda çox çətin yollarla gündə 30-40 verst yol qət edərək, 6-10 pud ağırlığında yük daşınırdı (499, 784).

İnək, qoyun və keçilər isə əhalinin süd, ət məhsullarına və yağa olan tələbatını ödəyirdi. Bundan əlavə, qoyun və keçi yunu toxuculuqda böyük əhəmiyyətə malik idi. Qoyun yunundan xalça, kisə, palaz, çul, keçə və s. toxunmasında istifadə edilirdi. Keçi yunundan isə əhali iplik, qara çadra və çadır toxuyurdu (499, 784; 260, 282-283). İri-xırdabuynuzlu heyvanların dərisi də əhalinin müxtəlif tələbatını ödəyirdi. Bu dərilərdən isti paltarların, ayaqqabıların tikilməsində istifadə olunurdu.

Atçılıq da irəvanlıların gündəlik həyatında böyük rol oynayırdı. Yerli əhali atlardan nəqliyyat vasitəsi kimi və təsərrüfat işlərində istifadə edirdi. Eyni zamanda bayram və şənliklərdə keçirilən yarışlarda at əyləncə vasitəsi idi. Atlar müxtəlif qiymətə satılırdı. Yerli cinsdən olan at 15-40 gümüş rubla, xüsusi məziyyətlərə malik atlar isə bir qədər baha-60 gümüş rubla qiymətləndirilirdi. İrəvanda Qarabağ, Ərəb və İran cinsindən olan atlara daha çox üstünlük verilirdi. Belə atlar 100 gümüş rubldan 300 gümüş rubla və daha baha qiymətə satılırdı (499, 795; 217, 449).

Ulaq və qatırın da təsərrüfat işlərində əvəzsiz xidməti vardı. Bu heyvanların saxlanması ucuz başa gəldiyindən onlar fasiləsiz ağır işlərdə böyük xeyir verirdilər. Ulaq və qatırlardan su, odun, ot və ağır yük daşınmasında istifadə edilirdi. «Hərdən bir ulaq elə ağır yükü daşıyırdı ki, bununla bütün ailəni yedizdirmək olardı» (499, 784). Ulağın qiyməti 4 gümüş rubldan 6 gümüş rubla qədər idi. Lakin Anadoludan gətirilmiş bu növ heyvanlar 12 gümüş rubldan 20 gümüş rubla qədər satılırdı (499, 795). XIX yüzilliyin ortalarında yerli ulağın qiyməti 6 gümüş rubldan 10 gümüş rubla qalxmışdı. Bu heyvanın gündəlik iş gününün qiyməti isə 20-25 gümüş qəpik idi (217, 449). Nəqliyyat vasitəsi kimi qatırın əhəmiyyəti daha böyük idi. Yaxşı qatırın qiyməti 300 rubldan baha idi. Bu heyvanın ən ucuzu isə 50 rubl gümüşə satılırdı (499, 795).

Yerli əhali həmçinin dəvə və donuz da bəsləyirdi. Donuzu xristian olan ermənilər və ruslar saxlayırdılar (499, 784). Əhali arasında dəvə yüksək qiymətləndirilirdi. Məlumata görə, XIX yüz-

illiyin ortalarında dəvə 30 rubldan 100 rubl arasında satılırdı (217, 449).

Təəssüf ki, xanlıq dövrünə aid mənbələrdə İrəvan ərazisində əhalinin saxladığı mal-qaranın sayı haqqında məlumata rast gəlinmir. Lakin işğaldan sonra, 1829-1832-ci illərdə rusların burada apardığı siyahıyaalınmada keçmiş xanlıq ərazisində 20.356 camış, 90.616 inək, kəl və buzov, 307 dəvə, 14.146 at, 57 qatır, 3.999 ulaq, 164.077 qoyun və keçi, 320 donuz qeydə alınmışdı (499, 786-790). 1836-ci ildə keçirilən siyahıyaalınmada isə İrəvan əyalətində 100 min iribuynuzlu, 290 min xırdabuynuzlu, 20 min at, 5 min ulaq, 4 yüzə qədər dəvə qeydə alınmışdı (258, 282). XIX yüzilliyin ortalarında yalnız İrəvan şəhərində həm Azərbaycan türklərinə, həm də ermənilərə məxsus mal-qaranın sayı haqqında müəyyən məlumatlar vardı. Bu dövrə aid stastistik məlumatda bu şəhərdə Azərbaycan türklərinə məxsus 240 inək, 110 qoyun və keçi, 120 buzov, 500 at, 48 qatır, 180 ulaq və 45 dəvə, ermənilərə məxsus 100 inək, 80 buzov, 190 qoyun və keçi, 300 at, 11 qatır, 285 ulaq, 5 camış və 10 öküz qeydə alınmışdı (217, 446-447).

Quşçuluq da İrəvan bölgəsinin təsərrüfatında xeyli rol oynayırdı. Burada müxtəlif quş növləri olan toyuq, ördək, qaz və hind toyuğu geniş yayılmışdı (499, 801-802).

İrəvan bölgəsinin iqtisadiyyatında balıqçılıq da böyük rol oynamışdı. Burada yerləşən göl və çaylardan bol balıq tutulurdu. Göyçə gölü tarixən bu sahədə məşhur olmuşdu. Onun suyu şirin, balıq təsərrüfatı üçün çox əlverişli idi. Göldə doqquz müxtəlif balıq növü vardı. Burada ovlanılan balıq növlərindən qızıl alabalıq (forel) və çəki Şərqdə xüsusilə məşhurlaşmışdı (214, 243-244; 260, 255-256). Bu gölün ətrafı balıq tutmaq üçün müxtəlif yerlərdən gələn karvanlarla dolu olurdu. İrəvan hakimləri balıqçılardan balıq ovuna görə töycü alırdı. Məlumata görə, balıq ovundan hər il xəzinə 100 tümən gəlir götürürdü. Gürcüstandan və Azərbaycanın digər yerlərindən buraya 200 və yaxud 300 yüklük karvanlar gələrdi. Müstəqil xanlıq dövründə vergi məsələsində yerli əhali ilə gəlmələr arasında fərq qoyulmuşdu. Belə ki, yerli əhalidən yazda və payızda

hər yük balıqdan 12 şahı, gəlmələrdən 60 gümüş qəpik, payız və qışda isə yerli əhalidən 40 qəpik, gəlmələrdən isə 1 gümüş rubl vergi alınırdı (499, 806).

Göyçə gölündən əlavə bölgənin Araz, Zəngi, Toxluca, Ağrıca, Adıyaman, Çubuxlu və digər çaylarından da balıq ovlanırdı. Araz çayında naqqa, çəki, nərə, Zəngi çayında isə alabalıq və şirbit balıqları daha çox olardı. Alabalıq ətinə görə keyfiyyətli və dadlı sayılırdı. Onun uzunluğu 10 verşoka (1verşok-4, 4 sm-ə bərabər uzunluq ölçüsüdür – E. Q.) bərabər idi. Bu balıqdan yerlərdə istifadə olunmaqla yanaşı, eyni zamanda Gürcüstana və Azərbaycanın digər bölgələrinə aparılırdı (499, 805-806; 260, 283).

## 7.2. Torpaq mülkiyyəti formaları. Vergi və mükəlləfiyyətlər

İrəvan bölgəsində torpaq üzərində müxtəlif mülkiyyət formaları mövcud olmuşdu. Azərbaycanda Səfəvilər dövründən miras qalmış torpaq mülkiyyət formaları bunlar idi: 1. Divani; 2. Xass; 3. Mülk; 4. Vəqf; 5. Tyul; 6. Camaat torpaqları. Onlar haqqında İ.Petruşevskinin, O.Əfəndiyevin əsərlərində ətraflı məlumat verilmişdi (298, 78; 29, 185-191; 244, 89).

Tədqiq olunan xronoloji dövrün Osmanlı hakimiyyəti illərinə təsadüf etmiş qısa tarixi dövr ərzində İrəvan bölgəsinin torpaq mülkiyyət formalarının yalnız bəzisinin adında formal olaraq dəyişiklik edilmişdi. Belə ki, Osmanlı hakimiyyəti dövründə divani, xass torpaqları və osmanlılara müqavimət göstərən feodalların torpaqları müsadirə edilərək xəzinənin ixtiyarına keçirilmişdi. Xəzinənin ixtiyarına keçmiş torpaqlar isə xüsusi xidmət müqabilində ayrı-ayrı şəxslərə paylanmışdı. Bunlar da müxtəlif adla adlanırdı. Məsələn, yüksək vəzifəli dövlət adamlarına verilən torpaqlar xass, onlardan rütbəcə aşağı olanlara verilənlər ziyamət, süvarilərə (sipahi) verilənlər isə timar adlanırdı. Onlar gəlir qaynağı olduğundan dövlət tərəfindən “dirlik” adlanırdı (38, 23). Xasslar və

ziyamətlər sahiblərinin vəzifədə olduğu müddətə verilirdi. Tutduqları vəzifədən çıxarıldıqda və öldükdən sonra bu torpaqlar onların yerinə təyin edilənlərə verilirdi. Timar isə ömürlük verilir, öldükdən sonra bu torpaq müəyyən edilmiş şərtlərlə rəhmətliyin oğluna keçirdi. Lakin varis övlad timarın tam gəliri deyil, yalnız "qılınc" adı verilən və 3 min axçadan artıq olmayan əsas hissəsi verilirdi. Timar sahibinin sağlığında göstərdiyi xidmətlərə görə "tərəqqi" adı ilə verilən əlavə gəlirlər isə timar sahibinin oğluna bu dirlik üçün müəyyən edilmiş şərtləri üzərinə götürdüyü halda verilirdi. Bundan əlavə, timar sistemində vergi ödəyənlərin ailə vəziyyətindən asılı olaraq, himayəsində olan adamların sayı nəzərə alınıb "dönüm" ilə ölçülən torpaq sahəsi ("çift") verilirdi. Əkin üçün ayrılan torpaq sahəsi məhsuldarlığına görə 70-150 dönüm (dönüm-1, 2, 4, 8 hektar) arasında dəyişirdi (38, 23-24, 26).

Hər üç torpaq mülkiyyətinin sahibləri təsərrüfat və digər məsələlər üçün məsuliyyət daşıdıqlarına görə, Osmanlı qanunnamələrində onlara "sahibi-ərz" deyilirdi. Lakin onlar sözün əsl mənasında şəxsən təsərrüfatla məşğul olmamış, təsərrüfat həyatına nəzarət etmiş, vergiləri toplamış və müharibə olduğu dövrdə gəlirlərinə uyğun yaraqlı süvari dəstələri çıxarmalı olmuşdular (38, 24).

Osmanlı hakimiyyətinə rəğbət bəsləyən feodalların mülkləri, vəqf və camaata məxsus icma torpaqları saxlanılmışdı. Lakin kəndlilərə məxsus icma torpaqlarında Osmanlı hakimiyyəti xüsusi qayda yaratmışdı. Belə ki, əkib-becərmə üçün yararlı olan ərazi kəndliyə ömürlük verilir və bu ərazi üçün kəndli tapu (torpağın vəsiqəsi) alırdı. Kəndli öldüyü halda ona məxsus torpaq sahəsi mirasa çevrilirdi. Lakin kəndlinin qarşısında ciddi şərt qoyulurdu. O, özünə məxsus torpaq sahəsini səbəbsiz tərk etməməli, əkilib-becərilməmiş qoymamalı və vergiləri lazım olan həcmdə və qaydada verməli idi. Əks təqdirdə kəndliyə qarşı xüsusi ölçü götürülürdü. Məsələn, kəndli ona məxsus torpağı üç il əkib-becərmirdisə, torpaq sahəsi ondan alınıb, tapu ilə başqa birisinə verilirdi. Bundan əlavə, əgər heç bir səbəb olmadan kəndli torpaq sahəsini atıb, kənddən çıxıb gedərdisə, on beş il ərzində onu axtarıb

tapıb geri qaytarırdılar. Kəndli torpaq sahəsini o halda tərk edə bilərdi ki, dövlətə dəyə biləcək ziyanı "ciftbozan" vergisi ilə əvvəlcədən ödəsin, ya da kənddə qalıb sənətkarlığın hər hansı bir sahəsi ilə və yaxud ticarətlə və s. məşğul olsun (38, 24-25).

Müstəqil xanlıq dövründə torpaq mülkiyyət formasında baş verən yeganə dəyişiklik şah ailəsinə məxsus olan torpaqların İrəvan hökmdarlarının mülkiyyətinə keçməsi idi. Xanlıq dövründə mövcud olan torpaq mülkiyyət formaları haqqında ətraflı məlumat vermək istərdik. Bu torpaq mülkiyyət formaları aşağıdakılar idi:

1. Xass və yaxud İrəvan hakimlərinə məxsus torpaqlar**.** Bu torpaqlar İrəvan hökmdarlarının və onların ailə üzvlərinin şəxsi mülkiyyəti hesab olunurdu. İrəvan hökmdarları ən böyük torpaq sahibləri idilər. Torpaq böyük gəlir gətirdiyindən onlar torpaqdan istifadə edilməsinə böyük diqqət yetirirdilər. Hələ Səfəvilər dövründə bu bölgədə İrəvan hakimlərinə məxsus xeyli torpaq sahələri olmuşdu. Osmanlı səyyahı Ö.Çələbi İrəvanda olarkən hakim Səfiqulu xana məxsus Seyfəddini və Xocabağı kəndlərinin adını çəkmişdi (495, 149, 155). Hətta İrəvanda şahlara məxsus mülklər də olmuşdu (300, 26).

Müstəqil xanlıq dövründə də İrəvan hökmdarları öz təsərrüfatlarını daim genişləndirməyə çalışırdılar. Belə ki, 1769-cu ildə Hüseynəli xan İmamarx, Qultəpə və ətraf kəndlərin torpaq sahələrini öz torpaqlarına qataraq, həmin torpaqlarda pambıq əkdirmişdi. Buradan gələn gəlir ona çatırdı (187, 185). Sonuncu İrəvan hökmdarı Hüseynqulu xan da öz şəxsi mülklərini genişləndirmişdi. O, mülkədarlara məxsus əkinə yararlı torpaq sahələrini icarəyə götürərək ondan xeyli gəlir əldə edirdi (499, 989-990). Xanlar şəxsi torpaqlarından gələn gəlirin bir hissəsini öz ailələrinə və yaxın qohumlarına xərcləyir və digər hissəsi isə xəzinəyə daxil olurdu (233, 102).

2.Divani – dövlət torpaqları. Bunlar xəzinənin ixtiyarında olan torpaqlar idi. Dövlət torpaqlarından gələn gəlir xəzinəyə daxil olurdu. Bu gəlirin bir hissəsi idarəçilik aparatının, ordunun saxlanmasına xərclənirdi. Lakin müstəqil xanlıq dövründə dövlət torpaqları xan ailə üzvlərinin torpaqları ilə qarışdırılmışdı. Bütün bu

torpaqlar xanın mülkiyyəti idi və onlardan gələn gəlir xəzinəyə daxil olurdu. İrəvan hakimləri yaxın adamlarına torpağı adətən divan torpaqları hesabına paylayırdılar (294, 34).

3.Tiyul torpaqları**.** «Tiyul»un hərfi mənası türkcə «kimsəyə verilmiş bir şey», «gəlir verən şey», «gəlir götürmək üçün bağışlanılmış şey», yaxud «gəlir» deməkdir. Tiyul – dövlətə göstərdikləri xidmət müqabilində hər hansı şəxsə ömürlük verilən şərti torpaq mülkiyyəti idi. Tiyul sahibi öldükdə və yaxud xidmətini başa vurduqda bağışlanmış tiyul kəndləri yenidən xəzinəyə qaytarılırdı (94, 139; 298, 184; 499, 929; 233, 124; 294, 454). Tiyul xanın verdiyi xüsusi sənəd əsasında bağışlanılırdı. Belə ki, xan yaxın adamlarına tiyul paylayarkən təliqə adlanan xüsusi sənəd, vəsiqə verirdi. Təliqədə göstərilirdi ki, belə torpaqları idarə edən şəxslər onu sata, dəyişə, hədiyyə edə bilməzdi və bu torpaqların atadan oğula keçməsinə də ixtiyar verilmirdi. Təliqə adətən fars dilində yazılırdı və onun axırına xanın möhürü vurulurdu (239, 29; 162, 27).

Tiyul xəzinə, mülk, habelə şəxsən xana məxsus torpaqlar hesabına paylanırdı. Tiyuldara tiyul torpaqlarında sakin olan kəndlilərdən vergi almaq səlahiyyəti verilirdi. Tiyul hüququ onun sahibinə bilavasitə vergi siyahısından silinmiş, bağışlanılmış kəndlərdə yerləşmək hüququ verirdi. Tiyul torpaqlarında yaşayan kəndlilərdən yığılan bütün vergi və kəndlilərin icra etdikləri mükəlləfiyyət tiyuldarın xeyrinə sərf edilirdi. Lakin vergilər müəyyən olunmuş miqdardan yuxarı olmamalı idi. Əks halda əhali xəsis sahibkarı tərk edərək, digər ərazilərə köçüb gedə bilərdi (499, 928-929).

İrəvan xanlığında tiyulun **mükafatlandırma, bəxşiş və arpalıq** kimi 3 növü vardı (499, 929). M**ükafatlandırma tiyulu** adətən xana yaxın hərbçilərə, dövlət aparatında işləyən mülki şəxslərə, elm adamlarına və hətta din xadimlərinə hədiyyə kimi verilirdi. Məsələn, Hüseynqulu xan hərbçilərdən sərtib Məhəmməd xana, sərhəng Əhməd xana, topçubaşı Cəlil bəyə və digər hərbçilərə mükafat olaraq tiyul paylamışdı (499, 929). Elm və fəzilət adamları da bu cür mükafatlar alırdılar. XVIII yüzilliyin 80-ci illərin

əvvəllərində Hüseynəli xan elm adamlarının birinə Şərur mahalının Muğancıq kəndi ərazisində iki dəng əkin sahəsi bağışlanması haqqında təliqə vermişdi. Təliqədə göstərilirdi ki, «…Bununla əlaqədar olaraq… həyatını layiqincə təmin etmək məqsədilə böyük, qüdrətli ali vəkilin xassə (dövlət – E. Q.) torpaqları hesabına Şərur mahalının Muğancıq kəndi ərazisində iki dəng əkin sahəsini ona bağışladıq. O, hörmətli şəxs bizim təliqəmiz əsasında bundan bir az əvvəl ona bağışlanan rəncbərlər vasitəsilə əkib-biçmək işi ilə məşğul olub, əldə edilən gəliri özünün gündəlik xərcinə sərf etsin. Bayram Sultan və həmin mahalın yüksək rütbəli kəndxudalarına göstərilən iki dəng əkin sahəsinin qeyd olunan adamın rəncbərlərinin ixtiyarına verilməsi əmr edilir" (48, 107-108). Tiyulun mükafatlandırma forması istisna halda atadan oğula keçə bilərdi. Bunun üçün oğul atanın vəzifəsini tutmalı və sərdarın xidmətində olmalı idi (499, 930).

Tiyulun **bəxşiş** forması əvvəlki tiyul sahibinin xidməti başa çatdıqda və öldükdə geri alınan torpaqların digər şəxsə verilməsi ilə yaranırdı. İrəvan hakimləri tiyulun bu növünü mülk torpaqları hesabına da paylayırdı. Belə ki, hakimlər iri mülkədarların nüfuzunu zəiflətmək üçün onlara məxsus kəndlərin bəzisini özünə yaxın şəxslərə bəxşiş olaraq verirdi. Bəxşiş sahibləri öldükdə onlara məxsus torpaqlar onlardan alınaraq yeni tiyul sahibinə verilirdi (499, 929).

Tiyulun **«arpalıq»** adlanan daha bir forması da vardı. Bu siyasi vəziyyətlə əlaqədar olaraq qonşu xanlıqlardan İrəvana pənah gətirmiş nüfuzlu şəxslərə müvəqqəti verilmiş torpaq sahəsi idi. Məsələn, bütün Dərələyəz mahalı gürcü şahzadəsi Aleksandra, Sürməli mahalının beş kəndi isə Hüseyn ağa Zilanlıya, bir kənd Süleyman ağa Zilanlıya tiyul-arpalıq verilmişdi (499, 930, 936).

Xanlıq işğal olunduqdan sonar-1829-1832-ci illərdə keçirilmiş kameral siyahıyaalınmada tiyul kəndlərinin sayı haqqında ikili məlumat verilmişdir. Bu, həm Hüseynqulu xanın vəziri Mirzə İsmayıl tərəfindən rus məmurlarına təqdim edimiş, həm də yerli əhalinin verdiyi məlumatdır. Bu məlumatlara görə, işğal ərəfəsində İrəvan xanlığında 42 tiyul kəndi olmuşdu (499, 931-941).

Lakin bu statistik məlumat sonuncu deyildi. Belə ki, 1839-cu ilin məlumatına görə, "Erməni vilayəti"ndə 57 tiyul kəndi qeydə alınmışdı (233, 101). Bunun da əsas hissəsi İrəvan bölgəsinə aid idi.

4.Mülk. Mülk-ərəbcə "əl-mülk" – "sahib olmaq", "malik olmaq" deməkdir. Mülk xüsusi mülkiyyətə məxsus torpaq sahibliyi idi. Bu torpaqları satmaq, almaq, bağışlamaq və girov qoymaq olardı. Mülk irsi olaraq nəsildən-nəsilə keçirdi (499, 926-927; 94, 139; 233, 125; 298, 228). İrəvan bölgəsində mülk torpaq forması iki qismə bölünürdü: bunlardan birincisi **irsi** keçən, ikinisi isə bağışlanmış mülk olan **mülki xalisə** idi. İrsi keçən mülklər Səfəvi şahları tərəfindən bağışlanmış mülklər hesab olunurdu. Mülki xalisə isə bağışlamaq və satılmaq yolu ilə yaranırdı. Digər əyalətlərdən köçüb İrəvanda məskunlaşmış nüfuzlu adamlar da mülki xalisəyə malik ola bilərdi. Hər iki mülk növü nəsildən-nəsilə keçirdi və mülk sahibləri onu satmaq, irsən verməк və bağışlamaq hüququna malik idilər, yəni ondan öz mulkü kimi istifadə edirdilər (233, 122). Belə mülkləri olan mülk sahibləri hər vasitə ilə onu genişləndirməyə çalışırdılar. Onlar başqa əyalət və xanlıqlardan əhalini müxtəlif vasitələrlə bu yerlərə cəlb edərək, müəyyən şərtlərlə həmin torpaqlarda yerləşdirirdilər.

Lakin mülk sahibləri tam sərbəst deyildilər və onlara müəyyən qadağalar qoyulmuşdu. Belə ki, bəzi mülklər xalisə hüququna malik deyildi, yəni sadəcə mülk adlandırılsalar da, onların sahibləri olan mülkədarlar xəzinəyə vergi ödəyirdilər. Buna görə də belə mülkədar hər hansı kənd, torpaq və yaxud rəiyyət üzərində özünü sahib saya bilməzdi. Mülk ona sadəcə gəlirindən istifadə etmək, xəzinənin gəlirindən məvacib almaq əsasında verilirdi. Sakinlərə təsir göstərməsi ona bilavasitə ciddi qadağan edilirdi. Onun hüququ yalnız məhsul yığıldıqdan sonra anbara toplanan vergidən özünün payına çatan hissəni tələb etməsi ilə məhdudlaşırdı. Əgər sahibkar özü təsərrüfatla məşğul olmaq istəsə sərdardan icazə almalı və onun razılığı ilə işləmək üçün rəiyyət tutmalı idi. Sahibkarın istifadə etdiyi mülk onun yaşadığı kəndin ərazisində olduqda və torpaqlar icma üzvləri arasında bölüşdürüldükdə, o da mülk sahibi hüququnda deyil, o da başqa kəndlilər kimi pay alırdı. Bu mülkdən gələn gəlirin

müəyyən hissəsi xəzinəyə ödənilirdi (499, 926-928; 233, 125; 239, 25).

5.Vəqf torpaqları. İrəvan bölgəsində dini idarələrə məxsus torpaq sahibliyi də mövcud olmuşdu. Bu torpaqlara “vəqf” deyilirdi. “Vəqf” ərəb sözü olub Allah yolunda məscidlərə və yaxud kilsəyə hədiyyə edilmiş var-dövlət, torpaq payı və yaxud mülk idi. Mülkiyyət sahibi vəqfnamə əsasında öz mülkündən istifadə etmək hüququnu məscidin, kilsənin və yaxud hər hansı şəxsin xeyrinə verirdi (294, 439-440; 298, 184-221). Bu mülkiyyət forması bağışlanmalar yoli ilə formalaşırdı. Vəqf mülkiyyəti torpaq sahələri, kəndlər, bağlar, dəyirmanlar, arxlar, mal-qara və s. ola bilərdi (499, 679-681). İstər Səfəvilər dövründə, istər Osmanlı hakimiyyəti dövründə, istərsə də müstəqil xanlıq dövründə vəqf mülkiyyəti toxunulmaz və müqəddəs sayılırdı. Məscidlər və Üçmüəzzin kilsəsi dövlətin güzəşti sayəsində və ayrı-ayrı şəxslərin bağışlaması nəticəsində xeyli torpaq mülkiyyətinə malik idi. Lakin Nadir şah Əfşarın (1736-1747) hakimiyyəti dövründə dini ocaqlara məxsus torpaq mülkiyyəti xeyli məhdudlaşdırılmışdı. Onun əmri ilə vəqf torpaqlarının xeyli hissəsi müsadirə olunub dövlət torpaqlarına qatılmışdı. Bunun nəticəsində xəzinəyə 1milyon tümən vəsait daxil olmuşdu (91, 69).

Vəqf təsərrüfatının idarə edilməsi İrəvan hakimlərinin nəzarətində idi. Onların sərəncamı ilə xalq arasında nüfuzu olan din xadimlərindən biri vəqf idarəsinin başçısı təyin edilirdi. Məsələn, İrəvan hakimi Məhəmməd xan (1784-1805) Molla Əli adlı bir din xadimini vəqf torpaqlarının başçısı təyin edərək, onun vəzifələrini göstərmişdi. Onun adına verilən təliqədə yazılmışdı ki, «Molla Əli bütün vəqf mülklərini şəxsən, müstəqil idarə etməli, onlara aid bütün məsələlərin həllinə çalışmalı, bu barədə mövcud olan dəftər və kitablara rəhbərlik etməlidir. O, öz şəninə, cəsarətinə, bacarığına uyğun vəqf mülklərinin bərpasına çalışmalıdır. Vəqf mülklərinin bütün gəlirlərini topladıqdan sonra ona verilən təliqədə, tədris haqqındakı təliqədə qeyd etdiyimiz kimi, xərc edib, gəlir və məxaricə dair ayrılan siyahını bizim nəzərimizə çatdırsın. Vəqf torpaqları

əkənlərə, həmin torpaqlarda vergi yığan məmurlara Molla Əliyə və onun mülazimlərinə tabe olunmalarını əmr edirik (48, 52-53).

Həm məscidlərə, həm də Üçmüəzzin kilsəsinə aid vəqf torpaqlarından gələn gəlir dini idarələrə, təhsilə və ruhanilərin özlərinə xərclənirdi. Molla Əliyə verilən təliqədə vəqf gəlirlərinin xərclənməsi belə müəyyən olunurdu: "Molla Əliyə vəqf torpaqlarından toplanılan gəlirin aşağıda göstərilən kimi üç hissəyə ayırıb xərcləməyi tapşırdıq: 1.Mədrəsə əhalisinin gündəlik işlərinə; 2.Mədrəsənin qulluqçularının və mədrəsənin sair xərclərinə; 3.Özünün illik məvacibinə, dərs ləvazimatına, dini məclislərin təşkilinə və mədrəsənin mühüm lazımi işlərinə" (48, 54).

6.Camaat torpaqları. Bu, kənd icmalarının ixtiyarında olan torpaq sahələri idi. Buraya, adətən, yerli əhalinin istifadə etdiyi əkin sahələri, otlaqlar, örüşlər, meşələr, boş sahələr, qəbristanlıq və s. ərazilər daxil idi (239, 25-26; 31, 17).

Rusiya işğalından sonra İrəvan bölgəsində torpaq mülkiyyəti münasibətlərində elə bir kəskin dəyişiklik baş vermədi. Xanlar, bəylər və onların övladları, tiyul sahibləri keçmişdəki kimi özlərinə məxsus torpaq sahələrini idarə etməkdə davam edirdilər. Lakin İrəvan hakiminə məxsus mülklər, rus qoşununa müqavimət göstərən və işğaldan sonra bölgəni tərk etmiş sahibkarların bütün torpaq sahələri Rusiya hakim dairələri tərəfindən müsadirə edilərək çar xəzinəsinin ixtiyarına verildi. Beləliklə, torpaq mülkiyyətinin – xəzinəyə məxsus, mülk, tiyul, vəqf və camaat torpaqları kimi növləri qalmaqda davam edirdi (459, 491; 395, 494; 233, 50, 100).

Lakin Rusiya hakim dairələri şəxsi və tiyul torpaq sahibliyini birdən-birə tanımaq istəmirdi. Bu məsələ qeyri-müəyyən vəziyyətdə qalmışdı. "Erməni vilayət" hakiminin qraf Paskeviçə yazdığı məlumatda qeyd edilirdi ki, xanlar, bəylər, axund və mollalar rəsmi surətdə Hüseynqulu xanın onlar üçün xəzinə torpaqlarından ayırdığı tiyuldan istifadə etməyə icazə verilməsini xahiş edirlər (460, 491). Bu məsələni aydınlaşdırmaq məqsədilə qraf Paskeviçin əmrinə əsasən "bu yeni birləşdirilmiş vilayətin bütün gəlirlərini müəyyən etmək" üçün mayor Medoksun başçılığı ilə xüsusi komissiya yaradıldı. Komissiyanın məlumatından görünür ki, komissiya tiyul

torpaq sahibliyinə də aydınlıq gətirmiş, tyuldarların sərəncamında olan kəndlərin və gəlirlərinin siyahısını tutmuşdu (477, 73-74; 394, 492).

Lakin şəxsi mülk məsələsinə tam aydınlıq gətirilmədi. Məhz bu məsələyə aydınlıq gətirmək üçün qraf Paskeviç 1828-ci il mayın 15-də "Erməni vilayət"inin hakiminə göndərdiyi sərəncamda əhalinin şəxsi və əmlak hüquqlarını təsdiq edən sənədlərini yoxlamaq göstərişi verdi. Sənədlərin yoxlanılmasına dörd ay vaxt ayrıldı. Lakin qraf Paskeviçin 1829-cu il yanvarın 25-də verdiyi yeni sərəncamı ilə bu vaxt daha yarım il artırıldı. Buna baxmayaraq, bir çoxları şəxsi mülkünü təsdiq edən sənədi vaxtında çatdıra bilmədi. Nəticədə onların torpaq mülkiyyəti xəzinənin ixtiyarına keçdi (477, 74)

Çar icra orqanları müəyyən yoxlamalardan sonra İrəvan bölgəsində tiyul torpaqlarının istifadə qaydasına dair bir neçə qərar çıxardı. Belə ki, baş komandan qraf Paskeviçin 1829-cu il martın 29-da verdiyi sərəncama əsasən, tiyul torpağı onun sahibinə ömürlük verilirdi. Lakin tiyuldar vəfat etdikdən sonra bu torpaqlar xəzinənin ixtiyarına keçməli, ondan xəzinəyə gələn gəlir yeni qaydada hesablanmalı idi (396, 494-495). Bu sərəncam da tiyul məsələsini həll etmədi. Belə ki, İrəvanda 1836-cı il iyulun 5-də tətbiq edilmiş yeni qanuna ("Vergi və mükəlləfiyyət" bölməsində ətraflı bəhs edilmişdi – E.Q.) görə, tiyul mülklərindən xəzinənin xeyrinə alınan vergi dayandırıldı. Məhsuldan gələn gəlir tiyul sahibinin istifadəsinə verildi. Əvəzində bu qanuna görə də, tiyul sahibi vəfat etdikdən sonra onun mülkü xəzinənin ixtiyarına keçirdi (477, 74). 1851-ci il iyunun 8-də verilmiş qanunda isə tiyuldarların bəzisi öz mülkünü varislik əsasında, bəzisi isə ömürlük idarə etməli idi. Varislik əsasında idarə olunan tiyul torpaq sahibliyi atadan oğula keçirdi. Ondan gələn gəlirin bir hissəsi isə xəzinəyə daxil olurdu. Ömürlük verilmiş tiyul torpaq sahibliyində varislik hüququ yox idi. Tiyuldar vəfat etdikdən sonra onun mülkü xəzinəyə qaytarılırdı. Lakin bu növ tiyuldar şəxsən xəzinəyə vergi ödəmirdi (170, 202-203).

Qeyd etmək lazımdır ki, tiyul torpaq sahibliyi Rusiya işğalından sonra uzun illər çar icra orqanlarının mübahisə obyekinə çevrildi. Yeni hakimiyyət orqanlarının bu məsələ ilə bağlı verdiyi qanun-qərarlara baxmayaraq, tiyul əvvəlki vəziyyətində saxlanılır və tədricən mülkə çevrilirdi.

**Vergi və mükəlləfiyyətlər.** XVII yüzilliyin sonu-XIX yüzilliyin birinci qərinəsində Azərbaycanda, o cümlədən İrəvan bölgəsində mövcud olmuş vergi və mükəlləfiyyətlər haqqında müəyyən məlumatlar İ.Petruşevski və O.Əfəndiyevin, M.R.Arunova və K.Z.Əşrəfyanın, S.Aşurbəyli və F.Əliyevin, habelə bir çox başqalarının əsərlərində öz əksini tapmışdır (298, 265-301; 239, 32-37; 74, 27-28; 29, 200-204; 91, 67-103; 25, 237-249; 31, 18-22; 244, 92-125). Bu vergi və mükəlləfiyyətlərin sayı 35-ə çatırdı. Bunlardan torpaq vergilərini (malcəhət, üşr, çobanbəyi), adambaşına alınan vergiləri (sər-şomari, cizyə), qoşunları saxlamaq üçün vergiləri (üləfa, sursat, əsb-e çapar), hərbi qulluq mükəlləfiyyəti (çərik), şah və dövlət məmurlarının xeyrinə toplanan vergiləri (rusum, təhcizat, peşkəş, xərace-təyin-mütərəddin), dövlət və feodallar üçün görüləcək işləri (biyar və əvrəz), gömrük vergisini (rahdar) və s. qeyd etmək olar.

Lakin Osmanlı hakimiyyəti və müstəqil xanlıq dövrü istisna olmaqla qeyd edilən ayrı-ayrı vergi və mükəlləfiyyətlərin miqdarı haqqında mənbələrdə konkret məlumatlar yoxdur. Yalnız bəzi mənbələrdə İrəvan bölgəsinin ümumi gəliri haqqında rəqəmlərə rast gəlmək olar. Məsələn, fransız səyyahı J.Şardən yazırdı ki, "İrəvan Səfəvilər dövlətində ən gəlirli və ən əhəmiyyətli əyalətdir. Bu əyalətin bizim pulla 500.000 eküyə bərabər olan, otuz iki min tümən gəliri olur. Varlanmaq məqsədilə aldatma, hədiyyə, qadağan olunmuş yollarla bu gəliri iki yüz min tümənə çatdırırdılar (214, 256). 1725-ci ildə tərtib olunmuş "Təzkirət əl-mülk" əsərində də İrəvan bölgəsinin ümumi gəliri haqqında məlumat vardır. Mənbədə göstərilir ki, İrəvan bölgəsinin illik mədaxili 20.539 tümən təşkil edirdi (61, 142). Bu iki mənbəni müqayisə etdikdə görmək olar ki, XVIII yüzilliyin əvvəllərində Azərbaycanda baş verən siyasi – iqtisadi böhran, qonşu dövlətlərin müdaxiləleri vergi və mükəlləfiy-

yətlərə mənfi təsir göstərmişdi. Bu səbəbdən İrəvan bölgəsində vergilərin miqdarı xeyli aşağı düşmüşdü.

Müdaxilədən sonra İrəvan bölgəsini öz tərkibinə daxil edən Osmanlı dövləti burada siyahıyaalınma keçirmişdi. Tərtib olunmuş "İcmal dəftər"də bölgədə Osmanlı vergi sisteminə uyğunlaşdırılan, xəzinəyə daxil olan ayrı-ayrı vergilərin növü və miqdarı haqqında məlumatlar öz əksini tapmışdı. Qeyd etmək lazımdır ki, Osmanlı dövləti tərəfindən müəyyən edilmiş gəlir qaynağının ümumi adı "dirlik" adlanırdı. Dirliyin əsas gəliri xass, ziyamət və timardan idi. Bu dirliklər gəlirləri həcminə görə bir-birindən fərqlənirdi. Xasların illik gəliri 100 min axçadan yuxarı, ziyamətlərin illik gəliri 20 min axça ilə 99.999 axça arasında dəyişmiş, timarların illik gəliri isə 20 min axçadan aşağı müəyyən edilmişdi (38, 23).

"İcmal dəftər"inə görə, illik gəliri müəyyən edilmiş dirliklər dövlət tərəfindən iltizama verilirdi. Vergi yığanlara mültəzim deyilirdi. Mültəzim öz xeyrini də nəzərə almaqla vergiləri yığıb xəzinəyə təhvil verirdi (38, 27). İltizama verilmiş sahələrə gömrükxana, sənətkarlıq emalatxanaları, zərbxana, mizan-tərəzi və s. sahələr daxil idi. İndi isə dirliklərdən xəzinəyə gələn vergilərin miqdarı haqqında məlumat verək. İlk növbədə İrəvan üzrə sultan xasları və mirmiran xaslarından gələn gəliri qeyd edək. "İcmal dəftər"inə görə, sultan xaslarından İrəvan şəhəri üzrə xəzinəyə 2.130.000 axça, Qirxbulaq nahiyəsi üzrə 417.840 axça, Körpü nahiyəsi üzrə 660.856 axça, Maku nahiyəsi üzrə 283.165 axça, Xınzirək nahiyəsi üzrə 608.324 axça, Gərni nahiyəsi üzrə 248.000 axça, Vedi nahiyəsi üzrə 166.512 axça, Dərəçiçək nahiyəsi üzrə 64.100 axça, Abaran nahiyəsi üzrə 29.000 axça, Göyçə nahiyəsi üzrə 578.770 axça, Dərələyəz nahiyəsi üzrə 380.947 axça, Məzrə nahiyəsi üzrə 219.792 axça, Sürməli nahiyəsi üzrə 725.680 axça, İğdır nahiyəai üzrə 351.982 axça, Aralıq nahiyəsi üzrə 189.680 axça, Şərur nahiyəsi üzrə 68.848 axça, mirmiran xaslarından isə İrəvan şəhəri üzrə 112.225 axça, Qırxbulaq nahiyəsi üzrə 250.580 axça, Körpübasar nahiyəsi üzrə 57.000 axça, Gərni və Körpü nahiyələri üzrə 41.000 axça və Qırxbulaq nahiyəsi üzrə isə 26.500 axça gəlir daxil olmuşdu. Ümumiyyətlə, İrəvan üzrə hər iki xassdan

xəzinəyə gələn gəlirin ümumi miqdarı 7.788.153 axça məbləğində idi (38, 35-76).

Xaslardan əlavə, İrəvan bölgəsində xəzinəyə daxil olan gəlirlərin digər hissəsini ziyamət və timarlardan gələn gəlirlər təşkil edirdi. İrəvan bölgəsinin Körpü nahiyəsində 9 ziyamət, Qırxbulaq, Gərni, Vedi, Abaran, Dərəçiçək nahiyələrində və Şörəyel livasında isə hərəsində bir ziyamət qeydə alınmışdı. Bu inzibati-vahidlərin 28 kəndini, 12 məzrəsini və 6 qışlağını təşkil edən ziyamətlərin illik gəliri 335.300 axçaya bərabər olmuşdu (38, 77-138).

"İcmal dəftər"inə görə, İrəvan bölgəsinin Şörəyel livasında 122, Körpü nahiyəsində 104, Gərni və Vedi nahiyələrində 84, Qırxbulaq nahiyəsində 78, Abaran nahiyəsində 52 və Dərəçiçək nahiyəsində isə 31 timar qeydə alınmışdı. Ümumilikdə, bölgədə 471 timar olmuşdu. Bu timarlardan hər il xəzinəyə 1.785.395 axça gəlir toplanırdı (38, 77-138).

"İcmal dəftər"inə əsasən söyləmək olar ki, iqtisadiyyatın ayrı-ayrı sahələrini əhatə edən gəlirlərin əsas hissəsini sultan xasları təşkil edirdi. Sultan xaslarına nəinki kənd təsərrüfatı sahələri, həmçinin ticarət və sənətkarlıq sahələri də daxil idi. Məsələn, İrəvan şəhər gömrüyü, sabunxana, boyaqxana, şamxana, dabbaqxana, qəssabxana, zərbxana, mizan müqatiələri, Göyçə gölünün müqatiəsi, Məzrə, Göyçə nahiyələrinin və Dərələyəz nahiyəsinin Şahyurdu məzrəsinin rəhdarlıq gəlirləri sultan xaslarına aid edilmişdi. Adı çəkilən sultan xasları bütün bölgə gəlirlərinin 21, 3%-ni özündə birləşdirmişdi. Ümumiyyətlə, İrəvan bölgəsi üzrə gəlirin 80%-ə yaxınını sultan xasları təşkil etmişdi.

Yuxarıda qeyd olunan dövrlərdən fərqli olaraq, müstəqil İrəvan xanlığının vergi və mükəlləfiyyətləri haqqında daha ətraflı məlumat vardır. Əslində bu vergi sistemi Səfəvilər dövründən qalma vergi sisteminin eyni idi. Lakin mənbələrdə xəzinəyə daxil olan vergilərin miqdarı, onların yığılma üsulu haqqında ətraflı məlumat verildiyindən, bu dövr üzərində daha geniş dayanmaq istərdik.

Qeyd etmək lazımdır ki, dövlət gəlirlərini və şəxsi maraqlarını təmin etmək üçün İrəvan hakimləri vergilərə daim və ciddi diqqət

yetirirdilər. Bəzən bu sistem güclü xanların və yaxud sərdarın iradəsindən asılı olurdu. Məhz onların fərmanlarına əsasən kənd təsərrüfatı və sənayenin bütün sahələrini əhatə edən vergilər hər il həcm və sayca dəyişirdi. Lakin sonuncu İrəvan hakimi Hüseynqulu xanın dövrü istisna olmaqla, digər xanların dövründə yığılan vergilər haqqında məlumata rast gəmədik. Mənbələrdə yalnız onların dövründə alınan bəzi vergi növlərinin miqdarı göstərilmişdi.

Azərbaycanın digər xanlıqlarında olduğu kimi, İrəvan xanlığında da vergilər əhalidən həm pulla, həm də məhsulla alınırdı (288, 516; 499, 967). Pulla alınan vergi də öz növbəsində iki qrupa bölünürdü: **bilavasitə (birbaşa xəzinəyə ödənilən vergilər – E. Q.) və bilvasitə (dolayı yolla ödənilən vergilər – E. Q.)**. Bu vergilər həm şəhər, həm də kənd əhalisinə aid idi. Bilavasitə vergilər ildə bir dəfə taxılçılardan, şəhər əhalisindən, elatlardan və Üçmüəzzin kilsəsindən yığılırdı. Bu vergilər cəmiyyətlər (sosial qruplar – E. Q.) üzrə alınırdı. Bu vergini verən yerli əhali müxtəlif sosial təbəqələri əhatə edir və **səkkiz icmada** birləşirdi:

**Birinci icmaya** İrəvan şəhər əhalisinin ödədiyi vergi daxil idi. Bu icma da özlüyündə beş müxtəlif qola ayrılırdı: a) Müsəlman icması-1200 tümən; Qızılqala əhalisi-54 tümən 5 minaltun; b) Erməni icması – Məlik Saakın tabeçiliyində olan icma-400 tümən; yüzbaşı Parseq Keğamovun tabeçiliyində olan icma isə 40 tümən; c) Qaraçılar (boş – E. Q.) – 30 tümən. Bu icmaya daxil olanlar xəzinəyə ildə 1.724 tümən 5 minaltun vergi ödəyirdilər. İldə dörd dəfə yığılan bu vergi pulu əhalinin özü tərəfindən ümumi yığıncaqda toplanırdı.

**İkinci icmaya Ü**çmüəzzin kilsəsinin ödədiyi vergi aid idi. İrəvan hakimləri müəyyən vaxtlarda bu kilsəyə güzəştə gedərək, erməni din xadimlərindən vergi almırdılar. Lakin xanlıqda böhran yarandıqda və ya erməni keşişləri xanlara xəyanət etdikdə bu vergi yenidən bərpa olunurdu. Məlumata görə, Hüseynqulu xanın dövründə kilsə xəzinəyə ildə 400 tümən pul verirdi**.**

**Üçüncü icmaya** makulu Əli xandan alınan vergi daxil idi. O, Şərur mahalının Ərəbli, Qarahəsən və Diadin kəndlərini Hüseynqulu xan tərəfindən verilmiş tiyul hüququ əsasında idarə etdiyindən

hər il xəzinəyə 300 tümən ödəyirdi (499, 967-968). Onu da qeyd etmək yerinə düşərdi ki, «İrəvan xanlığı» əsərində bu vergi səhvən Maku xanlığından toplanılan vergi kimi göstərilmişdi (35, 34).

**Dördüncü icmaya** elatlardan alınan vergi aid idi. Elatların birinci qoluna daxil olan **Azərbaycan türkləri** – Böyük Çobanqara elatı 350 tümən, Saricalılar 150 tümən, Dəmirçili 50 tümən, Kərimbəyli 150 tümən, Qafarlı 200 tümən, Şıxlar 100 tümən, Milli, Qaraçarlı və Əlikəndlilər birlikdə 300 tümən, Seyidli 200 tümən, Ağsaqqallı 240 tümən, Dərəkənd-Parçenis ayrumları 800 tümən, Talın ayrumları isə 240 tümən ödəyirdilər. İkinci qola **kürd elatları** daxil idi. Onlardan zilanilər 4000 tümən, Çal Əli ailəsi 267 tümən 7 minaltun və 5 şahı, Sakenlilər 219 tümən 6 minaltun, Tuşmal ağanın idarəçiliyində olan 102 ailədən ibarət Bilxixanlılar 210 tümən, İsa ağanın tabeliyində olan 82 ailə 174 tümən, 5 minaltun, Xali xanlı ailəsi 280 tümən, Qızılbaş uşağı 127 tümən, Misir kəndli kürdləri 151 tümən ödəyirdilər; **Üçüncü qola** daxil olan Şərur qaraçıları 10 tümən məbləğində vergi ödəyirdilər. Ümumilikdə elatlar hər il xəzinəyə 8.219 tümən 8 minaltun və 5 şahı pul ödəyirdilər (499, 969).

**Beşinci icmaya** əhalinin binəçi vergisi ödəyən hissəsi daxil idi (binəçi-binə sözündən olub bünövrəsi olan deməkdir – E. Q.). Bu vergi yalnız hərtərəfli imkanı olan əhalinin müəyyən hissəsindən alınırdı. Binəçi vergisini təyin etmək üçün xan ilk növbədə təbəələrinin işlərinə və gəlirinə diqqət yetirirdi. Belə ki, xan şəxsən hər bir kəndin vəziyyətini, gəlirlərinin fərqini, torpağın keyfiyyətini, suya olan tələbatını, otlaqların məhsuldarlığı ilə maraqlanaraq binəçi vergisi vermək iqtidarında olan həyətləri müəyyən edirdi. Binəçi vergisi xana yaxın olan iki köməkçisi tərəfindən toplanırdı.

Binəçi vergisi icbari olsa da, quraqlıq düşdükdə, dolu yağdıqda, əkin sahələrinə çəyirtkə ziyan vurduqda və daşqın olduqda bu vergi alınmırdı. Lakin vəziyyət düzəldikdən sonra binəçi vergisi bərpa olunurdu. Yalnız Şərur mahalının əhalisi məhsulu xanla yarıbayarı böldüyünə görə binəçi vergisindən azad edilmişdi. Hətta siyasi vəziyyətlə əlaqədar olaraq xanlığa pənah gətirmiş qaçqınlar da bu növ vergini verməli olurdular. Xan onları torpaq, istehsal

alətləri və qoşqu heyvanları ilə təmin edərək, müəyyən müddətə vergidən azad edirdi. Sonradan onlar binəçi vergisi verməyə məcbur edilirdilər.

İrəvan xanlığında binəçi vergisi verən kəndlilər iki növə bölünürdülər: bəhrəkərlər və yarıkərlər. Bəhrəkərlər xanın xəzinəsinə ildə 10 tümən, yarıkərlər isə 3 tümən məbləğində binəçi vergisi verməli idilər. Hüseynqulu xanın dövründə bəhrəkər kəndlərində yaşayan 539 ailə, yarıkərlərdə isə 300 ailə bu vergini ödəyirdi. Ermənilər də bu cür vergi verirdilər. Onların sayı 253 ailədən ibarət idi. Bu ailələr ildə xanın xəzinəsinə 1.539 tümən 6 minaltun və 16, 5 şahı binəçi vergisi ödəyirdilər. Ümumiyyətlə, bütün xanlıqda binəçi vergisi verən ailələrin sayı 1093 nəfər təşkil edirdi. Onlardan da hər il xəzinəyə 7.836 tümən 1 minaltun və 16, 5 şahı binaçı vergisi daxil olurdu (499, 969-973).

**Altıncı icmaya** pulla ödənilən hədiyyələr daxil idi. Belə hədiyyələr İrəvan xanlığında «peşkəş» adlanırdı. Peşkəş hörmət naminə xana və yaxud onun yaxın adamlarına verilirdi. İ.Şopen bu vergiyə rüşvəti də əlavə etmişdi. O, yazır ki, rüşvət hər hansı məqsədə çatmaq üçün vəzifəli şəxslərə «hədiyyə» adı altında verilirdi. Lakin bu səhv bölgüdür və rüşvəti «peşkəş»lə bir sıraya qatmaq düzgün deyil.

Peşkəş adətən Novruz bayramı zamanı verilirdi. Sərdara hər il Maku hakimi Əli xan 200 tümən, Üçmüəzzin kilsəsi 150 tümən, İrəvan şəhərinin Azərbaycan türkləri 70 tümən, erməni əhalisi 30 tümən, Zəngibasar və Qırxbulaq mahallarının Azərbaycan türkləri 70 tümən, erməni əhalisi 18 tümən, Gərnibasar və Vedibasar mahalları 70 tümən, Şərur mahalı 70 tümən, Sürməli mahalının Azərbaycan türkləri 70 tümən, ermənilər 30 tümən, Sərdərabad mahalı 42 tümən, Körpübasar mahalı 70 tümən peşkəş vermişdi. Peşkəşdən əlavə, İrəvan şəhər əhalisi xana ildə 60 ədəd kəllə qənd, Şərur əhalisi isə bəzi hallarda pul vergisi əvəzinə dəyəri 460 tümən 6 minaltun olan 1000 taçkir buğda və 1428 taçkir çəltik verməli idi. Dərəkənd-Parçenis və Saatlı mahallarının ağsaqqalları ayrı-ayrılıqda ildə xana dəyəri 40 tümən olan dayça peşkəş verirdilər. Peşkəş verənlər siyahısına kürd ağaları, ağsaqqalları və məmurları da daxil

idi. Beləliklə, xan hər il yerli əhalidən 1.320 tümən 6 minaltun dəyərində peşkəş alırdı (499, 973-975).

Qeyd etmək lazımdır ki, Üçmüəzzin kilsə xadimlərinin yuxarıda dəyəri göstərilən peşkəşinin miqdarı Hüseynqulu xanın dövrünə aiddir. Əvvəllər də erməni kilsə xadimlərinin xana və onun yaxın adamlarına peşkəş verməsi haqqında mənbələrdə məlumata rast gəlmək mümkündür. S.İrəvanlı «Cambr» əsərində yazır ki, «Növruz bayramı günü biz xana, bütün əyanlara və saray xidmətçilərinə pul və digər şeylər hədiyyə verməli idik. Bütün bu hədiyyələrin dəyəri 20 tümən idi» (187, 221). Daha sonra əsərin müəllifi qeyd edirdi ki, «Hər il xan oktyabr ayında əyanları ilə birlikdə Eçmiədzinə (Üçmüəzzin – E. Q.) gəlirdi. Xan qiymətli hədiyyə alardı və bizə siyahı verərdi. Siyahıda hansı ağaya nə qədər hədiyyə veriləcəyi göstərilərdi. Bütün bu hədiyyələr bizə 50 tümənə başa gələrdi» (187, 222). Qeyd olunan bu məlumat XVIII yüzilliyin 60-cı illərinə, Hüseynəli xanın dövrünə aiddir.

**Yeddinci icmaya** ermənilərin üzüm bağları daxil edilmişdi. Şəriət qanunlarına görə müsəlmanlara spirtli içkilər hazırlamaq və içmək qadağan olunurdu. Lakin dini qadağaya baxmayaraq, sərdar və onun yaxın adamları məclislərdə şərabdan istifadə edirdilər. Bu tək saray adamlarına deyil, eyni zamanda əhalinin müəyyən hissəsinə də aid idi. Şərab həm xarici, həm də daxili bazarda böyük gəlir gətirdiyindən xan ermənilərdən buna görə vergi alırdı. Beləliklə, Qırxbulaq mahalının Çölməkçi kəndinin üzüm bağlarından 150, Kənəkir kəndindən 100, Qızılqala kəndindən 90, Zəngibasar mahalının Şirabad kəndindən 100, Körpübasar mahalının Əştərək kəndindən isə 240 tümən vergi toplanırdı (499, 975).

**Səkkizinci icmaya** xanın məmurlarının xeyrinə toplanan vergilər daxil idi. Bu vergilər aşağıdakılar idi: a) M**ahal naiblərinin xeyrinə toplanılan vergilər;** Naiblər xəzinədən məvacib alsalar da əhalidən də bu məmurların xeyrinə vergi toplanırdı. Sürməli mahalında mirbölüyün xeyrinə Azərbaycan türklərindən 40 tümən, erməni məliklərinin xeyrinə isə ermənilərdən 30 tümən alınırdı; b) Mahal naibləri **mirzələrinin xeyrinə toplanan verginin** miqdarı ildə 50 tümən idi; v) Su işinə baxan **mirabların xeyrinə ildə**

**yığılan vergilər**: İrəvan şəhər əhalisindən 145 tümən, Gərnibasar mahalından 58 tümən, Vedibasardan 29 tümən 7 minaltun 10 şahı, Körpübasardan 30 tümən, Şərurdan 30 tümən və Sürməlidən 30 tümən toplanırdı. Bundan əlavə, mirabın xeyrinə Gərnibasar və Vedibasar mahallarının kəndliləri ümumi dəyəri 200 tümən olan 730 taçkir buğda, 158 taçkir arpa, 144 taçkir çəltik, Şərur mahalı kəndliləri isə ümumi dəyəri 64 tümən olan 40 batman çəltik, 120 taçkir buğda, 240 taçkir arpa və 10 batman inək yağı ödəyirdilər. Bütövlükdə hər il mirabların xeyrinə 584 tümən 7 minaltun 10 şahı vergi toplanırdı. c) **Qulluq pulu** qulluğa görə məmurların xeyrinə əhalidən toplanan vergi idi. Hər il əhalidən pulla yığılan 6 şahıdan əlavə xəzinəyə natural şəkildə vergi də daxil olurdu. Həmçinin xəzinəyə ödənilən hər xalvar pambıq və tütünün bir hissəsindən əlavə əhalidən 2 tümən alınırdı. Hüseynqulu xanın dövründə meyvə bağlarından, darı, arpa və çəltikdən alınan məbləğin mahallar üzrə miqdarı aşağıdakı qayda üzrə idi: Zəngibasar və Qırxbulaq mahallarından 113 tümən 7 minaltun, Gərnibasar və Vedibasarda 158 tümən 9 minaltun, Sürməlidən 120 tümən, Səədlidən 2 tümən, Sərdarabaddan 67 tümən 5 minaltun, Körpübasardan 85 tümən 4 minaltun 5 şahı. Bu vergi cəmi 547 tümən 5 minaltun 5 şahı olurdu. Pambıqdan toplanan məbləğin miqdarı Zəngibasar və Qırxbulaq mahalları üzrə 200 tümən 9 minaltun, 12 şahı, Gərnibasar və Vedibasar mahalları üzrə 113 tümən, 3 minaltun, 5 şahı, Sürməlidə 226 tümən 4 minaltun, Saatlıda 28 tümən 4 minaltun, Sərdarabad üzrə 186 tümən 4 minaltun, 4 şahı, Körpübasar üzrə isə 56 tümən olmaqla ümumi məbləği 811 tümən 5 minaltun 1 şahı idi. Tütündən təkcə Sürməli mahalı üzrə 24 tümən vergi alınırdı; d) kənd əhalisindən fərqli olaraq İrəvan şəhər əhalisindən **«keşikçi pulu»** adlanan xüsusi vergi yığılırdı. Bu vergi gecə vaxtı həm bazarda, həm də şəhərdə asayişi qoruyan keşikçi dəstələri üçün toplanırdı. Onun miqdarı ildə 72 tümən hesablanırdı; e) İrəvan xanlığında **biçinçilərdən** də xüsusi vergi yığılırdı. Hər bir biçinçi xəzinəyə 34 şahı ödəməli idi. Mahallar üzrə bu verginin miqdarı belə idi: Gərnibasar və Vedibasar mahalları 50 tümən, Şərur mahalı 65 tümən, Sürməli mahalı 131 tümən 6 minaltun 14 şahı, Sərdarabad

mahalı 37 tümən, Zəngibasar, Qırxbulaq və Körpübasar mahalları birlikdə 116 tümən 3 minaltun 6 şahı xəzinəyə pul ödəyirdi. Biçinçilərdən alınan verginin miqdarı ildə 400 tümən edirdi. Hüseynqulu xanın dövründə xəzinəyə ödənilən vasitəsiz verginin miqdarı 23.076 tümən 7 minaltun 12, 5 şahı və yaxud 92.307 gümüş rubl, 5 qəpik idi (499, 976-979).

İrəvan xanlığında dövlət xəzinəsinə bilavasitə vergilərdən əlavə bilvasitə vergilər də daxil olurdu. Bilavasitə vergilərdən fərqli olaraq, bilvasitə vergilərin yığılması xan tərəfindən icarəyə verilirdi. Hər il xəzinəyə aşağıdakı miqdarda bilvasitə vergilər ödənilirdi: 1) Qulp duz mədənindən alınan vergi. Məhəmməd xanın dövründə bu mədənlərdən xəzinəyə 300 tümən, Hüseynqulu xanın döründə isə 3500 tümən; 2) Dükanlardan alınan vergi 1.300 tümən; 3) Boyaqxanalardan alınan vergi 1245 tümən; 4) Sabun bişirənlərdən və qəssabxanalardan alınan vergi 1.208 tümən 5 minaltun; 5) Dövlət bağlarından 835 tümən və sərdar üçün müəyyən miqdarda meyvələr; 6) Dövlətə məxsus dəyirmanlardan və çəltik həvəngdəstəsindən 766 tümən; 7) Mizan-çəki pulu 715 tümən; 8) Karvansaralardan 700 tümən; 9) Hamamlardan 390 tümən; 10) Bazar meydanından 348 tümən; 11) Pul kəsənlərdən 300 tümən; 12) Ayaqqabıya nal vuran dəmirçilərdən 225 tümən; 13) Aksizdən 110 tümən; 14) Göyçə gölündən balıq ovuna görə 100 tümən; 15) Tütündən 72 tümən; 16) Dəri aşılamasından 50 tümən; 17) Bostan sahələrindən 20 tümən; 18) Kəndlərin icarəyə verilməsindən 525 tümən; 19) Darğa vəzifəsinin xeyrinə 819 tümən vergi alınırdı (499, 979-986).

İrəvan xanlığında əsas bilvasitə pul vergilərindən biri də **«rəhdar»** vergisi idi. Bu gömrük vergisi xanlığa gətirilən və aparılan mallardan alınırdı, o, xəzinənin gəlirinin əsas qaynaqlarından biri hesab olunurdu. İrəvan hakimi Qulaməli xanın II İrakliyə yazdığı bir məktubda «rəhdar» vergisinə belə qiymət verilmişdi: «İrəvan ölkəsinin (xanlığının-E.Q) əsas gəliri rəhdarxanaların icarəyə verilməsindən, yollardan ticarət məhsulu keçərkən tacirlərdən toplanılan rəhdarlıq vergiləridir» (48, 76-77). Xanlığın hər bir bucağında-qala qapısından tutmuş çayların keçidlərinə

qədər, hətta dini ocaqlara gedən yolların hamısında xanın adamları, rəhdarları və bacdarları durub, gedib-gələnlərdən vergilər alırdılar (35, 47). Rəhdar vergisinin yığılması xüsusi adamlara icarəyə verilirdi. Xanlığın ayrı-ayrı yerlərində bu vergini toplamaq üçün rəhdar məntəqələri yerləşdirilmişdi. Belə məntəqələr İrəvan şəhərində, Körpübasar, Sürməli, Şərur, Sərdarabad və Gərnibasar mahallarında fəaliyyət göstərirdi. Hətta qaçaqmalçılığın qarşısını almaq üçün sərdarın əmri ilə Abaran mahalının Sudakənd kəndində və digər yerlərdə xüsusi gözətçi qüvvələri yerləşdirilmişdi. Onlar gətirilən mallardan xüsusi haqq alırdılar. Hər dəvə və yaxud at yükündən 20 gümüş qəpik, eşşək yükünün isə yarı qiymətini alırdılar. Şərurda isə gözətçilər gətirilən və aparılan hər at yükündən özbaşına olaraq 2 şahı alırdılar (499, 882-883).

Azərbaycanın ayrı-ayrı xanlıqlarından, Kartli-Kaxetiyadan, İran və Osmanlı dövlətlərindən gətirilən mallardan müxtəlif miqdarda rəhdar vergisi alınırdı. Hətta yerli tacirlər də vergi ödəyirdi. Lakin əcnəbi tacirlərə nisbətən yerli tacirlərə güzəşt edilirdi. İrəvanın yerli tacirlərinin gətirdikləri hər növ parçanın bir arşınına 50 qəpik, əcnəbi tacirlərdən isə bundan iki dəfə çox vergi alınırdı. Azərbaycanın digər xanlıqlarından və İrandan gətirilən müxtəlif yük mallardan – xalça, şal və s.-dən, eyni zamanda şəkər, qəhvə, nabat, şəkər tozu, xına, müxtəlif mis əşyalar, badam, al-buxarı, mismar, yağ, bal, xurmadan 1 rubl 60 qəpik, hər yük ipək və dəridən 4 rubl, tünd boyaqdan 3 rubl 20 qəpik, pambıq parçadan 60 qəpik, kişmiş, noxud, nar və üzüm şirəsindən isə 54 qəpik vergi alınırdı (499, 883).

Kartli-Kaxetiyadan gətirilən mallardan-alma, armud, xurma, əncir, kişmiş, qoz, zoğal, badam və s. meyvələrdən olan yükdən 54 qəpik, taxta yükündən isə 20 qəpik vergi alınırdı (499, 883).

Osmanlı dövlətindən gətirilən mallardan-müxtəlif növ parça, yağ, yun, zəy, marena, araq, çaxır, bal, mum və s. malların yükündən 1 rubl 60 qəpik, qoz və digər meyvə yükündən 80 qəpik, tir, taxta və taxta piyalə yükündən 20 qəpik, qalın tir yükündən isə 2 qəpik vergi alınırdı (499, 883-884).

İrəvan xanığına gətirilən mallardan əlavə, aparılan mallardan da vergi alınırdı. Aparılan hər cür növ parça, yun, zəy, qızıl boya yükündən 1 rubl 60 qəpik və gözətçilərin xeyrinə isə 1 rubl 12 qəpik, çəltik yükündən 40 qəpik, gözətçilərin xeyrinə 40 qəpik, İrəvan şəhərindən Kartli-Kaxetiyaya aparılan duz yükündən 32 qəpik, kişmiş yükündən 80 qəpik, gözətçilərin xeyrinə isə 1 rubl 20 qəpik, boyaq bitkisinin hər yükündən 3 rubl 20 qəpik, gözətçilərin xeyrinə 1 rubl 12 qəpik, ipək yükündən 4 rubl, gözətçilər üçün 1 rubl 12 qəpik, pambıq yükündən 80 qəpik və gözətçilərin xeyrinə isə 1 rubl 92 qəpik, mahallardan xaricə aparılan bütün malların yükündən isə 2 qəpik vergi alınırdı (499, 884).

İrəvan xanlığında şəhər və mahallar üzrə rəhdar vergisindən gələn gəlir müxtəlif idi. Məsələn, rəhdar vergisi İrəvan şəhərində ildə 2.500 tümən, Gərnibasar və Vedibasar mahallarında 90 tümən, Şərur mahalında 110 tümən, Sürməli mahalında 300 tümən, Sərdarabad mahalında 20 tümən və Körpübasar mahalında isə 374 tümən təşkil edirdi. Rəhdar vergisi xəzinəyə ildə təxminən 3.394 tümən gəlir verirdi (499, 980).

Beləliklə, İrəvan xanlığında bilavasitə və bilvasitə pul vergilərindən xəzinəyə ildə 39.709 tümən 2 minaltun 12, 5 şahı və yaxud 158.837 gümüş rubl 5 qəpik ümumi gəlir daxil olurdu (499, 967-986).

Pul vergisi ildə iki dəfə – payızda məhsul yığımından sonra və fevralda pambıq çiyiddən təmizləndikdən sonra yığılırdı. Verginin toplanmasının öz qaydaları vardı. Belə ki, vaxt çatanda xanın yasovulları mahal naiblərinin mirzələri ilə birlikdə kəndləri gəzərək vergi toplamaq üçün ağsaqqallardan iltizamnamə alırdılar. Bundan sonra kəndin böyükləri yarımillik vergini yığaraq onu xəzinəyə təhvil verir və əvəzində xüsusi qəbz alırdılar. Mahal naibləri isə əhalidən toplanan qəbzləri xəzinəyə təhvil verərək, ümumi qəbz alırdılar. Elatlardan da bu qayda ilə pul vergisi toplanırdı (499, 986-987).

İrəvan xanlığında əhalidən pulla alınan vergidən başqa natural şəkildə də vergi alınırdı. Bu vergi yığılan məhsullardan, müxtəlif

növ mal-qaradan, yundan, yağdan, odundan, kömürdən, toyuq və yumurtadan ibarət idi.

Xanlıqda məhsulla alınan əsas vergi malcəhət vergisi idi. İrəvan xanlığında bu vergi növü «bəhrə» adlanırdı. Bəhrə məhsulun $^{1}/_{5}$-dən $^{1}/_{3}$-i qədərində idi. Bəhrə iki qismə – «bəhrəçeyi-divani» və «bəhrəçeyi-malikanəyə» bölünürdü. Kəndlilərin dövlət xəzinəsinə ödədiyi bəhrə «bəhrəçeyi-divani», mülkədarlara ödənilən isə «bəhrəçeyi-malikanə» adlanırdı. (298, 266-267; 297, 10-11; 294, 439). Taxılçılıqla məşğul olan bütün kəndlilər bu vergini məcburi verməli idilər. Bəhrə vergisini yarıkər və bəhrəkər torpaqlarından alınırdı. Bu torpaqlar həm xəzinəyə, həm də mülkədarlara məxsus idi. Xəzinəyə məxsus yarıkər torpaqlarında işləyən kəndlilər xan tərəfindən toxumla, kotanla və digər lazımi vasitələrlə təmin olunurdular. Ona görə də, məhsulun yalnız $^{1}/_{2}$ hissəsi onlara çatırdı. Ümumilikdə, İrəvan xanlığında xəzinə və mülkədara məxsus kəndlər dörd qrupa – bəhrəkər, yarıkər, rəncbər və icarəyə götürülmüş kəndlərə bölünürdü. Hər kəndin özünəməxsus vergi məbləği vardı (499, 988-990). Bəhrəkər kəndlərindən toplanmış məhsulun $^{1}/_{3}$ hissəsi sərdara çatmalı idi. Mülkədarlara məxsus yarıkər kəndlərindən yığılan məhsulun $^{1}/_{2}$ hissəsi mülkədara, bəhrəkər torpaqlarından yığılan məhsul isə sərdarla mülkədar arasında bölünürdü. Bu məhsulun $^{6}/_{30}$-sı sərdara, $^{4}/_{30}$ hissəsi isə mülkədara çatırdı (288, 516; 499, 987-990).

Rəncbərlər isə yığılan məhsulun $^{2}/_{3}$ hissəsini vergi verirdilər. Lakin rəncbər kəndlərindən alınan vergilərin miqdarı ayrı-ayrı mahallar üzrə müxtəlif idi. Məsələn, Zəngibasar mahalının Çarbağ kəndinin əhalisi çəltik və pambığın $^{2}/_{3}$ hissəsini, digər kənd təsərrüfatı məhsullarının isə $^{1}/_{3}$ hissəsini, Şərur mahalının Çamaxtir kəndinin əhalisi çəltiyin $^{2}/_{3}$ hissəsini, digər kənd təsərrüfatı məhsullarının yarısını, Körpübasar mahalının Muğancıq kəndinin əhalisi isə bütün məhsulun $^{4}/_{5}$ hissəsini vergi kimi ödəyirdilər (499, 988-989).

Xanlıqda icarəyə verilmiş kəndlər də mövcud idi. Adətən sərdarın özü mülkədarlardan icarəyə kəndlər götürür və əvəzində mülkədarın icarə haqqını ödəyirdi. Məsələn, Hüseynqulu xan icarə

götürdüyü Uluxanlı, Behbudabad, Əbülkənd və Seyidkənd kəndlərinin gəlirindən istifadə edir və əvəzində hər il mülkədarlara 7, 5 xalvar buğda, bir o qədər arpa, 12 batman pambıq və 30 batman soğan, Vedibasar mahalının dağılmış Qarabağlar kəndinə görə 10 xalvar buğda, Gərnibasar mahalında Sirboğan, Abbasabad, Köşəkli və Purço kəndlərinə görə 10 xalvar buğda, Yeqvard kəndi üçün isə Üçmüəzzin kilsəsinə 3 xalvar buğda icarə haqqı ödəyirdi (499, 988-989).

Bununla bərabər, İrəvan hakimi coğrafi vəziyyətinə, torpağın keyfiyyətinə görə bəzi bəhrəkər kəndlərinə və elatlara güzəştə gedərək ancaq xəzinə torpaqlarından yığılan məhsulun $^{7}/_{30}$–ni almaqla kifayətlənirdi. Abaranda və Alagöz dağının yüksək yerlərində yerləşən Axsaqqallılara güzəştə gedərək vergiyığanların xeyrinə vergi alınmırdı və əvəzində onlar məhsulun $^{6}/_{30}$ hissəsini vergi ödəyirdilər. Belə vəziyyətdə olan mülkədar kəndlərinə də güzəşt edilirdi. Onlardan ümumi məhsulun $^{4}/_{30}$ və $^{3}/_{30}$ hissəsi miqdarında vergi alınırdı. Bəzi kəndlər vergi ilə bərabər hərbi dəstə də verirdi. Məsələn, Dərəkənd-Parçenis mahalının əhalisi ildə 800 tümən vergi ödəməklə bərabər, ordu üçün 200 süvaridən ibarət dəstəsi də toplayırdı. Sərhəd yaxınlığında, dağlıq yerlərdə yaşayan ayrumlardan heç bir vergi alınmırdı. Lakin onlar başçıları üçün müəyyən vergi – hər evdən 1 batman yağ, 1 yük saman və 1 yük odun – verməli idilər (499, 990-991).

İrəvan xanlığı dövründə müxtəlif kənd təsərrüfatı məhsullarından dövlət xəzinəsinə gələn gəlirin miqdarı Hüseynqulu xanın vəziri Mirzə İsmayılın rus məmurlarına verdiyi vergi siyahısı üzrə müəyyən edilmişdi. Lakin bu məlumatın dəqiqliyinə şübhə edildiyindən, 1829-cu ildə yenidən ümumi gəlir haqqında yoxlama keçirilmiş və çox az fərqli nəticə əldə olunmuşdu. Belə ki, vəzir Mirzə İsmayılın vergi cədvəlinə əsasən, Hüseynqulu xanın dövründə dövlət xəzinəsinə hər il vergi kimi gələn kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 305.218 rubl, 51 qəpik, 1829-cu ildə keçirilən kameral təsvirə görə isə bu növ verginin məbləği 314.027 rubl 4 qəpik olmuşdu (499, 1119-1120).

İrəvan xanlığında qeyd olunan vergilərdən əlavə, parakər adlanan mükəlləfiyyətdən də gəlir əldə edilirdi. Belə ki, məhsuldar torpağı və suyu bol olan kəndlərin əhalisi sərdar üçün müəyyən miqdarda müxtəlif növ məhsul əkməyə borclu idilər və yığımdan sonra məhsulun müəyyən hissəsini ona ödəyirdilər. Belə ki, məhsul yığımından sonra əkin üçün borc götürülən buğda və arpanın beş dəfə, çəltiyin isə yeddi dəfə artığı sərdara qaytarılmalı idi. Pambığın isə hər xalvar toxumdan əmələ gələn məhsulun çiyiddən təmizlənmiş 60 batmanı sərdara çatırdı. Parakər mükəlləfiyyətindən xanın xeyrinə gələn verginin ümumi dəyəri 84.435 tümən 4 minaltun 12 şahı və yaxud 337.745 rubl 84 qəpik təşkil edirdi. Bu verginin ödənilməsində ayrı-ayrı mahalların bəzi kəndləri iştirak edirdi. Mahallar üz hrə belə kəndlərin və evlərin sayı aşağıdakılardır: Qırxbulaq mahalı-11 kənd – (343 həyət); Zəngibasar mahalı-21 kənd – (1.043 həyət); Qarnibasar mahalı-38 kənd – (787 həyət); Vedibasar mahalı-12 kənd – (576 həyət); Şərur mahalı – 41 kənd – (1.035 həyət); Sürməli mahalı – 44 kənd – (1.644 həyət); Səədli mahalı-5 kənd – (160 həyət); Seyidli-Axsaqqallı-14 kənd – (311 həyət); Sərdarabad mahalı – 19 kənd – (745 həyət); Körpübasar mahalı – 28 kənd – (1.297 həyət). Umumiyyətlə, xanlıqda parakər mükəlləfiyyətini yerinə yetirməklə vergi verən 10 mahalın 233 kəndində 8.211 həyət qeydə alınmışdı (499, 1120-1125).

Adları çəkilən vergilərdən əlavə ildə xəzinəyə müxtəlif adda digər vergilər də daxil olurdu. Bu, əsasən elatlardan alınan vergilər idi. İ.Şopenin məlumatına əsaslanan İ.P.Petruşevski elatların yerinə yetirdiyi vergi və mükəlləfiyyətləri beş qismə bölürdü: 1) Xana və tayfa rəislərinə məxsus örüş yerlərindən istifadəyə görə mal-qaradan, yağdan, pendirdən və yundan alınan vergi; 2) bir hissəsi natural, digər hissəsi pul şəklində sürüdən alınan vergi; 3) Müxtəlif şərtlərlə xana məxsus sürünün qorunması və otarılması; 4) Köçmə zamanı ağır yükləri daşımaq üçün xana və tayfa rəislərinə yük heyvanlarının verilməsi; 5) feodal yığma qoşununda hərbi xidmət (çərik) (298, 315).

1829-1832-ci illərdə tərtib edilmiş kameral təsvirdə göstərilir ki, sərdar adətən vəziyyətə görə bütün elatlardan hər yüz qoyun və

keçidən bir böyük və bir xırda olmaqla heyvan alırdı. Zilani kürdləri 100 minlik sürüdən 500 tümən dəyərində qoyun verirdilər (499, 1126-1127). Hər 1000 qoyundan 5 $^{1}/_{2}$ tümən hesab etməklə digər kürd cəmiyyətlərinin ödədikləri vergilər isə bunlardır: Sakentlilər – 8500 baş qoyun və keçidən 48 tümən 1 minaltun 5 şahı; Bilxi-xanlılar və Tuşmal ağanın heyvanlarının bir hissəsi – 11000 baş qoyundan 60 tümən 5 minaltun; İsa ağaya məxsus 5750 ədəd qoyuna görə 31 tümən 3 minaltun, 10 şahı; Xəlilxanlılar 15250 qoyuna 83 tümən 3 minaltun; Qızılbaşuşağı 3500 qoyuna 19 tümən 2 minaltun 10 şahı; Misirkəndlilər 7700 qoyuna 40 tümən 1 minaltun 10 şahı. Ümumilikdə bu kürd cəmiyyətləri 51700 baş qoyuna görə xəzinəyə 282 tümən 6 minaltun 15 şahı dəyərində vergi ödəyirdilər (499, 1127).

Kürd elatlarından əlavə Azərbaycan türk elatları da vergi verirdilər. Həmin elatlara məxsus 100 minlik sürüdən xəzinəyə 500 tümən dəyərində vergi ödənilirdi. Beləliklə, bütün elatlara məxsus 251700 başlıq xırdabuynuzlu mal-qaradan xəzinəyə ildə 1.282 tümən 6 minaltun 15 şahı vergi daxil olurdu (499, 1127).

İ.Şopenin bəzi elatların yerinə yetirdiyi yeni mükəlləfiyyət növü ilə bizi tanış edir. Bu mükəlləfiyyət – **dişbədiş və amani (amanat)** adlanırdı. Dişbədiş o mükəlləfiyyətə deyilirdi ki, sərdar müəyyən miqdarda xırdabuynuzlu mal-qarasını elatlara otarmaq üçün verirdi. Elatlar isə xanın tələbi nəticəsində verilmiş miqdarda mal-qaranı geri qaytarmalı və eyni zamanda hər sağılan qoyundan xana ildə yarım batman yağ, bir stil yun ödəməli idilər. Yeni doğulmuş bala isə saxlanılmağa verilirdi. Hətta kameral təsvirdə xana məxsus ayrı-ayrı elatlara verilmiş xırdabuynuzlu mal-qaranın sayı da qeyd olunmuşdu. Göstərilən xırdabuynuzlu mal-qaranın sayı bunlardır: Böyük Çobanqaralarda 2.484; Kərimbəylərdə 519; Şeyxlərdə 500; Saraşlılarda 1.000; Biryükilərdə 5.000; Əli Şərurluda 200; Qafarlıda 1.138. Sərdar bu mal-qaradan ildə 5420, 5 batman yağ və 504 batman yun alırdı (499, 1127).

Amani mükəlləfiyyətinə görə, iribuynuzlu heyvanların balası və xırdabuynuzlu heyvanların yunu sərdara məxsus idi. Bundan əlavə, xan hər sağılan qoyundan ildə 7, 5 stil, hər camışdan 6

batman və hər inəkdən isə 4 batman yağ vergisi alırdı. Elatlarda amani mükəlləfiyyətində olan xırdabuynuzlu heyvanların sayı Çobanqaralarda 4.219 baş, Qafarlılarda isə 4.206 baş olmaqla 8.425 başdan ibarət idi (499, 1128).

Xanın mal-qarasına əsasən məvacib alan çobanlar da baxırdılar. Məvacib natural və yaxud xüsusi qaydada verilirdi. Belə ki, 500 baş naxırı otaran iki çoban ildə 20 quzu və 120 batman buğda alırdı. Çobanbaşıya isə min və yaxud beş min baş sürüyə görə xüsusi məvacib təyin edilmişdi (499, 1128).

Elatlar vergilərdən əlavə xana yük heyvanları da verməli idilər. Zilani kürdləri hər il xana 1000 baş öküz və 50 baş dəvə, digər elatlar isə 6000 baş yük heyvanı verirdilər. Xan Qarsa, Bəyazidə, Xoya, Naxçıvana və Tiflisə pambıq, çəltik, və digər yüklər göndərmək üçün bu yük heyvanlarından istifadə edirdi. İrəvan hakimi hər il yük heyvanlarından 4.782 tümən 6 minaltun və 10 şahı gəlir əldə edirdi (499, 1128).

Elatlar yun və yun məmulatından da İrəvan hakiminə vergi ödəyirdilər. Onlar hər il xana 925 tümən 2 minaltun 10 şahı dəyərində 3.701 batman yun, 62 tümən 5 minaltun dəyərində isə yundan toxunmuş 250 cüt kisə verirdilər (499, 1129).

Mal-qaradan hər il sərdara Zilani kürdləri 500 batman, Sakenlilər 102 batman, Bilxanlılar 192 batman, Xəlilxanlı 183 batman, Qızılbaşuşağı 42 batman, Misir kəndli 87 batman, Ayrumlar 200 batman yağ verirdilər. Bundan əlavə, sərdarın özünə məxsus mal-qaradan da yağ əldə olunurdu. Dişbədiş mükəlləfiyyətində olan qoyunlardan xana ildə 5420, 5 batman, amanidən isə 3.154 batman yağ çatırdı. Bu yağın ümumi dəyəri 2.985 tümən 1 minaltun 5 şahı idi.

Yuxarıda qeyd edildiyi kimi, İrəvan hakimləri elatlardan lazım gəldikdə silahlı süvari dəstələri də tələb edirdi. Hər bir atlını saxlamaq təxminən 24 gümüş rubla başa gəlirdi. Ümumilikdə elatların verdiyi süvariləri saxlamaq üçün 86, 400 gümüş rubl pul tələb olunurdu (499, 1130). Bu verginin bütün ağırlığı sadə elatların üzərinə düşürdü. Elat əyanları (sultan, bəy, ağa və s.) isə hərbi

xidmət istisna olmaqla bütün vergi və mükəlləfiyyətlərdən azad edilmişdilər (298, 315).

Qeyd edilən vergilərdən əlavə, irəvanlılar odun və kömür vergisi də ödəyirdilər. Kəndlilərin vəziyyətinə görə bu vergilərin miqdarı müxtəlif cür olurdu. Belə ki, binəçi vergisi ödəyən hər bir bəhrəkər sərdara ildə 3, yarıkərlər isə 1, 5 yük odun verməli idilər. Beləliklə, 539 bəhrəkərdən 1.617 yük, 300 yarıkərdən 450 yük, ağsaqqallılardan 200 yük, 125 nəfər binəçi vergisi verən seyidlilərdən 375 yük, Misxanlı cəmiyyətindən 150 yük odun, bundan əlavə, ağsaqqallılardan ildə 200 yük, misxanlılardan isə 100 yük kömür alınırdı. Ümumilikdə vergi kimi yığılan odun və kömürün dəyəri 639 tümən 8 minaltun 12, 5 şahıya bərabər idi;

İrəvan hakimi ayrı-ayrı mahallardan vergi kimi 9.822 toyuq, 19.644 yumurta alırdı. Bu verginin ümumi dəyəri 147 tümən 2 minaltun idi. Lakin Şərur mahalında bu vergi çəltik həvəngi vergisi ilə əvəz edilmişdi. Bu mahalın əhalisi hər çəltik həvənginə görə ildə 55 tümən vergi ödəyirdi. Nəticədə, toyuq, yumurta və çəltik həvəngindən alınan verginin ümumi dəyəri 202 tümən 2 minaltun edirdi (499, 1129-1130).

Natural şəkildə alınan vergi kəndlilərin və rəiyyətlərin güzaranından asılı olaraq toplanılırdı. Mənbənin verdiyi məlumata görə, «… sərdar vergini əkin sahəsinə, kotanlarının sayına görə deyil, əldə edilmiş məhsulun keyfiyyətinə və vergi verənin vəziyyətinə uyğun tələb edirdi. İrəvan xanlığında belə sistemin (vergi – E. Q.) əsas qaydaları aşağıdakılardır:

a) Zəngin və əlverişli ərazidə yerləşən kəndlər, əhalinin yaşayışına görə, həyətlərə bölünürdü. Bu həyətlər 1-dən 6-ya qədər olurdu. Bunlar binəçi adlanırdı və ildə 10 tümən və yığılan məhsulun $^{1}/_{3}$ hissəsini verməli idilər. Belə kəndlilər bəhrəkərlər adlanırdı.

b) Bir qədər əlverişsiz ərazidə yerləşən kəndlərin əhalisi, toxumu borc verdiyinə görə sərdara yığdıqları məhsulun yarısını ödəyirdi. Bunlara yarıkərlər deyirdilər. Lakin Zəngibasar mahalında bu cür kəndlər 3 tümən binəçi vergisi ödəyirdilər.

c) Sərdar sahəsi daşlı və tamamilə əlverişsiz ərazidə yerləşən kəndlərin əhalisindən və köçmə maldarlıqla məşğul olan elatların əkinçiliklə məşğul olan hissəsindən məhsulun $^{7}/_{30}$ hissəsini vergi alırdı. Məhsulun qalan $^{23}/_{30}$ hissəsini isə əkinçiyə güzəştə gedirdi (462, 501).

Məhsul vergisi xan nökərləri olan sərkərlər tərəfindən toplanırdı. İrəvan xanlığında 150 vergiyığan sərkər vardı (499, 1136). Lakin xanın vergiyığanlarından əlavə, hər bir mahalın öz vergiyığanı da olurdu. Xanın sərkərləri hər il məhsul yığımı zamanı kəndlərə göndərilərək yerli sərkərlərlə məhsulun miqdarını müəyyənləşdirir və yığılan məhsulun oğurlanmasının qarşısını alırdılar. Kəndlərə göndərilmiş nökərlər əhalinin hesabına yaşamalı idilər.

Hər bir mahalın payına düşən vergiyə mirbölük cavabdeh idi. Belə ki, məhsul yığıldıqdan sonra hər bir mirbölük mahalın vergi hesabatını xana təqdim edirdi. Xan hesabatı keçənilki hesabatla müqayisə edirdi. Əgər gəlir çox idisə, xan mirbölüyə təşəkkür elan edirdi. Əks halda gəlir azlığının səbəblərini müəyyən etmək üçün istintaq qurulurdu. İstintaq gizli aparılır və vergi az verən kəndlərin sərkərləri dəyişdirilirdi. İrəvan hakimləri vergiyə ciddi yanaşdıqlarından bir-biri ilə yola getməyən mirbölük və sərkərləri tez-tez başqası ilə əvəzləyirdilər. Lakin vergiyığanlar xanın onlara olan etimadından bəzən sui-istifadə edirdilər. Onlar əhalini ələ alaraq məhsulun oğurlanmasında özləri iştirak edirdilər. Məsələn, xanın yaxın adamlarından olan Cəfər xan üç mahaldan 5.000 tümən gəliri mənimsəmişdi. Xan öz vergiyığanlarını yaxşı tanıdığından buna ciddi əhəmiyyət vermirdi, yalnız özünə məxsus mülkiyyətə toxunulduqda adamlarını cəzalandırırdı. Gəlir itkisinin əvəzi həmin vergiyığanların mülkiyyətini müsadirə etməklə və onları ciddi cərimələməklə doldurulurdu (462, 501; 288, 516).

Vergi yığılarkən kəndlilər həmişə yalanla və özbaşnalıqla üzləşirdilər. Həm xanın, həm də mirbölüyün adamlarının soyğunçuluğu ilə rastlaşan əhali onlara müxtəlif vasitələrlə müqavimət göstərirdi. Onlar varlı düşmənlərinə qarşı ölçü götürərək hiyləgərliyə hiylə ilə, yalana yalanla, tamaha tamahla, xəsisliyə xəsisliklə cavab verirdilər (462, 501).

Kəndlilər vergidən əlavə sahibkar üçün əvrəz və biyar adlanan mükəlləfiyyətləri də yerinə yetirməli idilər. Əvrəz bütün kənd camaatının birlikdə sahibkarın təsərrüfat və ev işlərində icra etdikləri mükəlləfiyyətə deyilirdi. Əhali bu mükəlləfiyyəti yerinə yetirməyə məcbur idi. Əvrəz zamanı kənd caamatı elliliklə bu mükəlləfiyyəti yerinə yetirir və sahibkarın xeyrinə ev, dəyirman tikir və s. işlər görərdilər. Bəzi sahibkarlar bu mükəlləfiyyəti pulla əvəz edirdilər. Biyar isə məcburi günlərdən əlavə əhalinin sahibkarın təsərrüfat işlərində icra etdikləri mükəlləfiyyət idi. Digər xanlıqlarda olduğu kimi, İrəvan xanlığında da biyar ildə 3 gündən 6 günə, əvrəz isə 2 günə bərabər idi (298, 278-279; 297, 12).

Beləliklə, İrəvan xanlığında istər nəqd pulla, istərsə də natural şəkildə xəzinəyə gələn ümumi gəlirin miqdarı 653.150 rubl təşkil etmişdi (499, 1136). Lakin Hüseynqulu xanın dövründə vergilərdən xəzinəyə gələn gəlirin ümumi miqdarı haqqında olan bu məlumat son məlumat deyildi. Hələ 1813-cü ildə İrəvanda olan ingilis səfirliyinin katibi Moryer də ildə xəzinəyə daxil olan verginin ümumi miqdarı haqqında məlumat vermişdi. O, verginin miqdarını belə göstərmişdi: hər iki növ pul vergisi 150.000 tümən, rəhdar vergisi 12.000 tümən, duzdan 6.000 tümən, şahın fövqəladə vəziyyətlə əlaqədar verdiyi xərc 6.000 tümən və sərdarın özünün məvacibi 600 tümən. Yekunda bütün xanlığın ümumi gəliri 174.000 tümən və yaxud 696.000 gümüş rubl təşkil etmişdi (499, 1136).

**Çar Rusiyası dövründə alınan vergilər.** Rusiya işğalından sonra yaradılan komendant üsul-idarəsi dövründə Azərbaycanın digər bölgələrində olduğu kimi, keçmiş İrəvan xanlığında da vergi sistemində bir o qədər də ciddi dəyişiklik olmadı. Kəndlilər əvvəlki kimi, dövlətə və bəylərə vergi verir və mükəlləfiyyətləri yerinə yetirirdilər. Fərq onda idi ki, gələn gəlirlər çar dövlətinin xəzinəsinə daxil olurdu. General Paskeviçin işğal rejiminin ilk dövründə İrəvanda yaranmış Müvəqqəti İdarəçiliyə göndərdiyi 19 bənddən ibarət təlimatında göstərilirdi ki, əvvəlki hökumətin xəzinə gəlirlərini bizim hökumətin xeyrinə xərcləməli, qoşun ərzaqla təmin edilməli idi (261, 480-481).

İrəvan bölgəsində xanlıq dövrünün vergi sistemi müəyyən dəyişikliklərlə 1836-cı ilə qədər davam etdi. Bölgənin müharibələr nəticəsində dağıdılması ilə əlaqədar olaraq vergi sistemində ilk cüzi dəyişiklik 1829-cu ilin əvvəllərində edildi. Rusiya hakim dairələri həm xəzinə, həm də mülkədar torpaqlarında yaşayan və çalışan kəndlilərin taxıl məhsullarından alınan vergini bir qədər azaltdı. Belə ki, xəzinə torpaqlarında çalışan bəhrəkərlər əvvəlki kimi məhsulun $^{1}/_{3}$-i deyil, $^{1}/_{6}$-ni, yarıkərlər isə məhsulun yarısını deyil $^{1}/_{4}$-ni xəzinəyə ödəməli idi. Mülkədar torpaqlarından gələn gəlirdə də dəyişiklik edildi. Mülkədar torpaqlarında çalışan bəhrəkərlər məhsulun $^{8}/_{30}$ (xan dövründə məhsulun $^{10}/_{30}$ hisəsini ödəyirdi – E.Q.) hissəsini vergi verməli idi. Bunlardan $^{3}/_{30}$-ü xəzinəyə, $^{5}/_{30}$-i mülkədara çatmalı idi. Yarıkərlərdən isə yığılan məhsulun $^{10}/_{30}$-u tələb olunurdu. Onun $^{5}/_{30}$-i xəzinəyə, $^{5}/_{30}$-i isə mülkədara çatmalı idi. Texniki bitkilərdən-pambıq və tütündən alınan vergi bərabərləşdirildi. Belə ki, bəhrəkər və yarıkərlər həm xəziəyə, həm də sahibkara yığdıqları bu məhsulların $^{1}/_{3}$-ni verməli idilər (288, 516; 476, 74-75).

Lakin işğaldan sonra yaradılmış “Erməni vilayəti”ndə uzun illər vergi yığımında geriləmə baş verdi. Qafqazda rus qoşunlarının baş komandanı baron Rozenin (1832-1837) hərbi nazir Çernışevə yazdığı məktubda bu bölgədən xəzinəyə gələn gəlirin çox az olduğunu qeyd edərək yazır ki, “mən Zaqafqaziyanı (Cənubi Qafqazı – E. Q.) idarə etməyə başlayana qədər “Erməni vilayəti”ndən gələn gəlir 100 mindən 120 min gümüş rubla çatırdı” (288, 515-516).

Bu gəlir Rusiya hakim dairələrini qane etmədiyindən bölgənin vergi sisteminə nəzarət daha da gücləndirildi. 1833-cü il iyunun 23-də “Erməni vilayəti”ndə keçirilən inzibati-ərazi dəyişikliyi vergi sisteminə də təsir göstərdi. 1834-cü ildə vergi idarəsi məmurlarının sayı artırıldı. Əlavə olaraq bu idarə 10 komissar, 20 yasavul və lazımi qədər də sərkərlə möhkəmləndirildi. Bütün bu şəxslər idarə rəisi tərəfindən evlərin sayından asılı olaraq 1, 2 və yaxud 3 nəfərlə kəndlərə təhkim edilirdilər. Kəndlərə təhkim olunmuş sərkərlərin əsas vəzifəsi məhsul yığılarkən hər hansı bir itkinin, oğurluğun qarşısını almaq və verginin vaxtında ödənilməsinə nəzarət etmək

idi. Onlar yerli əhalinin hesabına dolanırdılar. Sərkərlər 6 ay ərzində ərzaqla, hər ay 5 rubldan 8 rubla qədər nəqd pulla təmin olunurdular. Xəzinə komissarlarının işi sərkərlərə nəzarət etmək və öz rəislərinə hesabat vermək idi (476, 74-75).

Nəticədə, 1834-cü ildə "Erməni vilayəti"ndən xəzinəyə gələn gəlirin miqdarı 157 min gümüş rubla çatdırıldı. Bu ümumi məbləğin 83min gümüş rublu yalnız məhsuldan gələn gəlirin payına düşürdü (288, 515-516). Lakin bu məbləğ də kifayət etmədi. Vergi yığılarkən sərkərlərin özbaşınalığı, gəlirlərin müəyyən hissəsini məmimsənilməsi hakim dairələri qəti tədbirlər görməyə məcbur etdi. 1835-ci ilin fevralında baron Rozenin göstərişi ilə xalqdan vergi yığan sərkər vəzifəsi ləğv olundu. Bu da verginin miqdarına müəyyən qədər təsir etdi. Belə ki, 1835-ci ildə İrəvan bölgəsindən xəzinəyə gələn gəlirin miqdarı 215 min gümüş rubla çatdırıldı. Bu ümumi gəlirin 141, 021 min gümüş rublunu məhsuldan gələn gəlir təşkil edirdi (288, 515-516).

Bir müddət keçdikdən sonra "Erməni vilayəti"nin rəisi vergi sistemində dəyişiklik üçün yeni layihə irəli sürdü. Bu layihə 1836-ci il iyunun 5-də çar tərəfindən təsdiq olundu. Vilayətin yeni vergi sistemi altı illik (1842-ci ilə qədər – E. Q.) bir dövrü əhatə edirdi. Qanunda həm kənd, hən də şəhər əhalisinin ödəyəcəyi verginin miqdarı göstərilmişdi. Yeni qaydaya görə, xəzinəyə, mülkədar və tiyul sahiblərinə çatacaq illik verginin faizi, miqdarı müəyyən edilmişdir. Belə ki, 1836-cı il 5 iyun qanununa görə, mülkədar torpaqlarında pambıqdan alınan verginin $^{6}/_{30}$ hissəsi xəzinəyə, $^{4}/_{30}$ hissəsi mülkədara, digər kənd təsərrüfatı məhsullarından isə $^{8}/_{30}$ hissəsi xəzinəyə, $^{4}/_{30}$ hissəsi isə mülkədara çatmalı idi (233, 100-101, 125; 465, 13).

Tiyul sahibləri bu vergiyə daxil edilmədilər. Yeni qanuna görə, çar icra orqanları tərəfindən tiyul sahiblərinə ömürlük verilmiş torpaqlardan xəzinəyə heç bir vergi çatmırdı. Lakin bu qanunda kənd təsərrüfatı məhsullarından onlara çatacaq verginin miqdarı müəyyənləşdirilmişdi. Belə ki, pambıqdan gələn gəlirin $^{10}/_{30}$ hissəsi, digər məhsulların isə $^{7}/_{30}$ hissəsi tiyul sahibinə çatmalı idi (233, 101).

Xəzinəyə çatacaq vergilər əsasən natural və nəqd pulla ödənilməli idi. Belə ki, bölgənin 16879 ailəsini özündə birləşdirən 462 kəndin əhalisi hər il xəzinəyə ümumi qiyməti 124028 rubl olan natural şəkildə vergi, yalnız İrəvan və Ordubad dairələrinin 1499 ailəsi olan 41 kəndi isə 7505 rubl nəqd pul ödəməli idi (288, 517; 476, 76).

5 iyun qanununda elatlardan da alınacaq vergilər müəyyən edilmişdi. Elatlar da vergini həm məhsulla, həm də nəqd pulla ödəməli idilər. Vilayətdə 42 elat icmasına daxil olan 1813 ailənin hər biri 5 publ olmaqla ümumi məbləği 9065 rubl nəqd pul, taxılçılıqla məşğul olan 1393 ailə isə məhsulun ¼ hissəsini-ümumi dəyəri 2786 publ xəzinəyə ödəməli idi (288, 517; 476, 76).

Yeni qanunda İrəvan bölgəsinin Dərəkənd mahalının 597 ailədən ibarət 62 kəndinin xəzinəyə ödəyəcəyi natural verginin miqdarı da göstərilmişdi. Çünki bu mahal xanlıq dövründə xəzinəyə heç bir məhsul vergisi ödəmirdi. Onlar yalnız sərdarın özünə ildə 800 tümən nəqd pul ödəyirdilər. Lakin yeni qanuna görə, mahalın sakinlərinə 2490 gümüş rubl nəqd pul vergisi təyin edilmişdi (288, 517; 476, 76).

"Erməni vilayəti" üçün nəzərdə tutulmuş bu qanunda müəyyən güzəştlər də nəzərdə tutulmuşdu. Bu güzəştlər buraya köçürülmüş erməni ailələrinə şamil edilirdi. Belə ki, bölgədə məskunlaşmış 4000 köçkün erməni ailəsi 1837-ci ildən başlayaraq vergidən azad olunmuşdu (288, 517; 476, 76).

Şəhərlərdə də vergi qaydası dəyişdirildi. Belə ki, İrəvan, Naxçıvan və Ordubad şəhərlərində hər ailə ildə 3 gümüş rubl miqdarında vergi ödəməli idi. Lakın buraya dükanlardan, karvansaralardan, hamamlardan və digər yerlərdən alınan vergilər daxil deyildi (476, 77).

Vergilərin toplanmasında da yeni qaydalar tətbiq olundu. Komissar və sərkər vəzifələri ləğv olundu. Yeni qaydalara görə, vergilər kəndlər üzrə ödənilməli idi. Hər bir kənd hər il məhsulla və nəqd pulla ödəyəcəyi verginin miqdarı haqqında vilayət rəisindən rus, Azərbaycan türkcəsində və erməni dillərində yazılmış vəsiqə almalı idi. Kəndlilərin ödəyəcəyi vergiyə kənd ağsaqqalları

cavabdeh idi. Vergini ödədikdən sonra kəndliyə qəbz verilirdi ki, bu da onun sənədi sayılırdı. Vergilərin toplanmasına nəzarət edənlər və bu işə cavabdehlər dairə rəislərinə tabe olurdular. Bundan əlavə, sahələrdən məhsullar elə yığılmalı idi ki, ilin axırında yığılan vergilər (yığılması gec başlayan pambıqdan başqa) artıq təyin olunmuş yerlərə vaxtında çatdırıla bilsin (288, 517; 476, 77).

Hakim dairələrin hesablamalarına görə, yeni vergi qanunu ilə yalnız məhsul vergisindən xəzinəyə 145870 gümüş rubl daxil olmalı idi. Erməni köçkünlərinə tətbiq edilmiş güzəştin vaxtı tamamlandıqdan sonra bu rəqəm 165 min gümüş rubla çatmalı idi. Ümumiyyətlə, "Erməni vilayəti" üzrə həm nəqd pulla, həm də məhsulla yığılan vergilərdən xəzinəyə gələn gəlir 289 min gümüş rubl məbləğində hesablanmışdı. Lakin gömrükdən, sənədlərdən alınan dövlət rüsumları və digər bilvasitə vergilər buraya daxil deyildi (289, 517).

Tezliklə, "Erməni vilayəti" üçün nəzərdə tutulmuş yeni vergi sistemimin nəticələri bəlli oldu. XIX yüzilliyin 40-cı illərin əvvəllərində yalnız İrəvan qəzasının illik vergisini nəzərdən keçirək: qeyd etmək lazımdır ki, bu məlumatda nəqd pulla, natural şəkildə verilən verginin miqdarı göstərilmişdi. Statistik məlumata görə, 1) evbaşına verilən verginin miqdarı – 11386 ailədən hər biri 2 rubl 50 qəpik ödənilməklə 28465 rubl, 3776 ailədən 2 rubldan 7552 rubl, xəzinə-mülkədar torpaqlarında yaşayan 8 ailədən 10 rubl, 3286 ailədən 5 rubldan 16445 rubl nəqd pul xəzinəyə daxil olunmuşdu. Ümumiyyətlə, evbaşına alınan verginin miqdarı 52472 rubl olmuşdu; 2) Məhsul əvəzinə verilən nəqd pul – xəzinə kəndlərindən 7368 rubl 50 qəpik; mülkədar kəndlərindən 968 rubl 50 qəpik; Osmanlı ərazisindən köçürülənlərdən 13705 rubl 75 qəpik. Bu növ verginin ümumi məbləği 22036 rubl 75 qəpiyə bərabər olmuşdu; 3) Dəyəri pulla göstərilən natural vergilərdən 90017 rubl 29 qəpik; taxılçılıqla məşğul olan elatlardan alınan 2582 rubl 82 qəpik; müxtəlif xırda istehsaldan alınan 2340 rubl 32 qəpik və s. idi. Beləliklə, statistik məlumatda İrəvan qəzası üzrə illik vergi gəliri 169449 rubl 18 qəpik olmuşdu (476, 90).

Cənubi Qafqazın müxtəlif bölgələrində, o cümlədən İrəvan bölgəsində keçirilən vergi islahatı heç də narazılıqları aradan qaldırmadı. Vergi və mükəlləfiyyətlərin ağırlığı xalq arasında böyük gərginlik yaratmışdı. Bölgələrdə vəziyyəti yoxlamaq üçün çar icra orqanları yerlərə öz nümayəndələrini göndərməyə başladı. Bu dövrdə inzibati cəhətdən Gürcüstan-İmeretiya quberniyasına daxil olmuş İrəvan və Naxçıvan qəzalarına təhkim olunmuş çar məmuru general-mayor Skalon 1840-cı il dekabrın 29-da general Qolovinə yazdığı məktubda məhsuldan, mal-qaradan alınan vergilərin ağırlığı, onun lazımi yerlərə daşınması, hökumət nümayəndələrinin vəziyyətdən sui-istifadə etmələri, şəxsi bostan və həyətyanı bağlardan qeyri-qanuni vergilərin (hər torpaq sahəsindən 10 gümüş rubl) alınması, təbii fəlakətlərlə əlaqədar olaraq kənd sakinlərinin sayının azalması ilə bağlı narazılıqların bölgədə böyük gərginlik yaratdığını həyəcanla bildirmişdi (195, 152-155).

Bu gərginliyi aradan qaldırmaq üçün çarizm 1844-cü ildə Gürcüstan-İmeretiya quberniyasında natural vergilərin pul vergisi ilə əvəz edilməsi haqqında yeni vergi qanunu həyata keçirdi. İslahat həmin quberniyaya daxil edilmiş İrəvan, Naxçıvan, Yelizavetpol qəzaları, Borçalı, Şəmşəddil və Qazax distansiyalarına da şamil edilmişdi (143, 892; 85, 391-431). Yeni qəbul olunmuş vergi sisteminin həyata keçirilməsi üçün verilmiş xüsusi təlimata görə, qəza rəislərinə dövlət əmlakı idarələrinin müdirlərinin iştirakı ilə kənd ağsaqqallarına vergi vərəqələrinin paylanması həvalə edilirdi. Həmin sənəddə 1844-cü ildən başlayaraq dövlət vergilərinin ildə bir, sonrakı illərdə isə ildə iki dəfə (yanvarın 1-dən martın 15-nə və sentyabrın 15-dən dekabrın 1-nə qədər olan müddətdə) toplanılması müəyyənləşdirilirdi (85, 418).

Lakin tətbiq olunan bu yeni vergi qanunları mülkədar-kəndli münasibətlərini nəinki nizama salmadı, əksinə onlar arasındakı ziddiyyətləri daha da kəskinləşdirdi. Bu narazılığın qarşısını almaq üçün çar hökuməti vergi sistemini yumuşaltmaq, mülkədar-kəndli münasibətlərini tənzimləmək üçün bir-birinin ardınca Cənubi Qafqazda islahatlar keçirməyə məcbur oldu. Bu məqsədlə 1847-ci il aprelin 20-də Şamaxı və Dərbənd quberniyalarında, dekabrın 28-də

isə Borçalı, Qazax və Şəmşəddil distansiyalarında mülkədar-kəndli münasibətlərini nizamlamalı olan "Kəndli əsasnamələri" verildi (170, 200-204; 476, 72-80).

Lakin bu "Əsasnamələr" İrəvan quberniyasına şamil edilmədi. Burada torpaq sahibləri ilə kəndli münasibətləri qeyri-müəyyən vəziyyətdə qalırdı. Bu məqsədlə Qafqaz canişinliyi yeni yaradılmış İrəvan quberniyasında da islahatlar keçirməyə məcbur oldu. 1850-ci ildə Qafqaz canişinliyi İrəvan quberniyasına və Kutaisi quberniyasının Ahalsıx qəzasına aid edilən və Qafqaz komitəsi tərəfindən tərtib edilmiş yeni layihə irəli sürdü. Nəticədə İrəvan quberniyasında torpaq sahibkarları ilə kəndlilər arasında qarşılıqlı münasibətləri tənzimləyən 8 iyun 1851-ci il tarixli fərman verildi. Bu fərman cüzi dəyişikliklərlə yuxarıda göstərilən fərmanlarla eyni idi (170, 203; 476, 80-83). Bu fərmanda göstərilən vergi və mükəlləfiyyətlərə diqqət yetirək: qeyd etmək lazımdır ki, vergilər həm məhsulla, həm də nəqd pulla ödənilməli idi. Əsasnaməyə görə, mülk sahibi yığılan bütün növ kənd təsərrüfatı məhsullarının $^{4}/_{30}$ hissəsini tələb etmək hüququna malik idi. Həmin məhsul kəndlilər tərəfindən sahibkarın anbarına daşınmalı idi. Əgər sahibkar özündən kəndliyə iş heyvanı, kənd təsərrüfatı aləti və əkin üçün toxum verirdisə hər iki tərəfin razılığı ilə yığılan məhsulun $^{1}/_{5}$-dən çox olmamaq şərti ilə vergi müəyyənləşdirilirdi. Kəndli sahibkara çatacaq vergini 3 gün ərzində 10 verstə qədər məsafədə yerləşən lazımi yerə çatdırmalı idi. Əgər daşınacaq məsafə 10 verstdən çox olardısa bunun qayğısına sahibkar özü qalmalı idi. Bu əsasnamədə natural vergidən əlavə, nəqd pul vergisi də müəyyən edilmişdi. Belə ki, kəndli dirrik və bostanlardan ildə 80 qəpik, bağlardan 1 rubl 20 qəpik, hər əkin sahəsinə görə isə 10 batman və yaxud 3 pud buğda vergisi ödəməli idi. Pul vergisi elatlardan da alınırdı. Hər bir elat başçısı hər bir ailədən 4 gümüş rubl yığmalı idi. Əsasnamədə rul vergisinin hər iki tərəfin razılığı ilə mal-qara və yaxud məhsulla əvəz edilməsi haqqında əlavə də vardı.

Vergilərdən əlavə, kəndlilər müxtəlif mükəlləfiyyətlər də yerinə yetirirdilər. Biyar və əvrəz əvvəlki kimi saxlanılmışdı. Qanuna görə, kəndli torpaq sahibi üçün biyar yerinə yetirməli idi.

Məsələn, hər ailə ildə 18 gün öz heyvanları ilə bərabər bir işçi verməyə məcbur idi. Biyar əvəzsiz olmalı idi. Kəndli yeri şumlayıb əkməli, odun, məhsul və mülkədarın köçünü daşımalı, ev tikməli, biçin biçməli və s. işləri yerinə yetirməli idi. Mülkədar biyarı pulla da əvəz edə bilərdi. Onun ixtiyarı vardı ki, hər işçi qüvvəsi yerinə hər iş günündən ötrü 20 qəpik alsın.

Kəndlilər sahibkar üçün ildə iki gün əvrəz adlanan mükəlləfiyyət yerinə yetirməli idi. Onlar arxların çəkilməsi, körpü və yolların təmir edilməsi işləri ilə məşğul olmalı idi. Qeyd edilən mükəlləfiyyətlərdən əlavə digərləri də mövcud idi. Məsələn, hər 10 ailə sahibkara bir kişi, hər 15 ailə bir qadın xidmətçisi verməli idi. Bu qanunun mənfi cəhəti ondan ibarət idi ki, əvvəllər kəndlilər heç vaxt qadın nökərlər vermirdilər. Çar hökumətinin yerli adət-ənənəni nəzərə almadan verdiyi bu qanun Azərbaycan türklərinin hiddətinə səbəb olurdu. Ona görə də tezliklə, bu qayda ləğv olundu. Qanunun qalan maddələri 1847-ci il 20 aprel əsasnaməsinin müddəaları ilə təxminən eyni idi (170, 200-202; 476, 72-76; 98, 454). Krım müharibəsi ilə əlaqədar olaraq Qafqazda da hərbi əməliyyatlar aparıldığından bu əsasnamə əsasən həyata keçirilməmiş qaldı. Doğrudur, bu məsələyə 1859-cu ildə yenidən baxılsa da, lakin o yenə də qeyri-müəyyən müddətə təxirə salındı. Beləliklə, İrəvan quberniyası və Tiflis quberniyasının Ahalsıx qəzasında kəndlilərlə sahibkarlar arasındakı münasibətlər faktiki olaraq işğala qədərki dövrdə olduğu kimi saxlanılmışdı (103, 220-226).

Çar hakimiyyət opqanları sahibkar kəndlilərinin ardınca dövlət kəndlilərindən vergi yığılması üçün də yeni vergi qanunu hazırlayırdı. 1849-cu ildə bu iş sürətləndirildi və Y.A.Qaqemeysterin başçılıq etdiyi Şamaxı quberniya vergi komissiyası layihənin qəti tərtibinə başladı. 1850-ci il aprelin 20-də Cənubi Qafqazda torpaq vergi komitələri ləğv edilir və bu işin aparılması yeni qanun verilənədək canişinin səlahiyyətinə şamil olundu (373, 399). Dövlət kəndlilərinin xəzinəyə ödəyəcəkləri vergilər haqqında yeni qanun layihəsi bir sıra müzakirələrdən sonra 1851-ci il oktyabrın 23-də Qafqaz komitəsi tərəfindən təsdiq olundu. Yeni vergi qanunu İrəvan quberniyasına da şamil edilirdi (476, 149).

Beləliklə, çar Rusiyası işğal etdiyi Azərbaycan ərazisində, o cümlədən İrəvan bölgəsində inzibati-ərazi, hüquqi dəyişikliklərlə yanaşı vergi və mükəlləfiyyətlərə də ciddi müdaxilələr etmişdir. Lakin çarizmin sahibkar və dövlət kəndlərində həyata keçirdiyi yeni vergi siyasətinin yeganə və başlıca məqsədi hansı yolla olursa-olsun çar xəzinəsinin gəlirlərini artırmaq olduğundan bu müstəmləkə ucqarında sosial-iqtisadi vəziyyətin getdikcə daha çox ağırlaşmasına gətirib çıxarırdı.

## 7.3. Duz hasilatı

İrəvan bölgəsinin iqtisadi həyatında tarixən böyük rol oynayan sahələrdən biri də duz hasilatı idi. Bölgənin ticarətində və ixracatında bu sahə xüsusilə fərqlənirdi (260, 268-269; 181, 327). İrəvan duzunun hasilat tarixi çox qədim dövrlərə gedib çıxır. İrəvan duzu əsasən, Sərdarabad qalasının 30 verst, İrəvan qalasının isə 50 verstliyində, Araz çayının sağ sahilində yerləşən Qulp kəndinin yaxınlığındakı dağdan çıxarılırdı. İrəvanın sonuncu hakimi Hüseynqulu xanın dövrünə qədər duz hasilatı haqqında məlumat çox azdır. Osmanlı səyyahı Ö.Çələbi Araz çayının sahilində dərə kənarında yerləşən 300 evdən ibarət olan Barutxana adlanan kənddə duz hasil edilməsi haqqında məlumat vermişdi (495, 230). Ola bilsin ki, səyyahın qeyd etdiyi yer Qulp kəndidir. Bu da məlumdur ki, Məhəmməd xanın (1784-1805) hakimiyyəti dövründə duzun qiymətinin ucuz olması və onun cüzi gəlir gətirməsi üzündən duzun hasilatına az fikir verilmişdi. Bu hakimin dövründə duz hasilatından ildə 3.000 gümüş rubl (300 tümən – E. Q.) gəlir əldə olunmuşdu (499, 824). Ümumiyyətlə, Hüseynqulu xana qədər duz hasilatında güclü pərakəndəlik hökm sürmüş, onun hakimiyyətə gəlişindən sonra bu sahədə qayda-qanun yaradılmışdı. Duza tələbat artdığından, duz oğurluğunun qarşısını almaq məqsədilə sərdar bu sahəyə ciddi fikir verməyə başlamışdı. Onun fərmanına əsasən, duz yalnız Qulp kəndindən 200 sajen aralı, dağın cənub ətəyində

əlverişli yerdən hasil edilməli idi. Burada bir-birindən 50 sajen aralıda iki mədən (tunel) yaradılmışdı. Birinci mədənin uzunluğu 45 sajen, hündürlüyü isə 1 $^1/_2$-dən 2 sajenə qədər idi. İkinci mədən birincidən bir qədər sonra-1815-ci ildə açılmışdı. Onun uzunluğu 55 sajen, eni 10-dan 13 sajenə qədər, hündürlüyü isə 1 $^1/_2$ – dən 2 sajenə qədər idi (499, 824).

Hüseynqulu xan duz mədənlərinə nəzarət etmək üçün öz yaxın adamlarından sultan və onun köməkçiləri olan üç nəfər mirzə təyin etmişdi. Bu şəxslər yaxşı məvacib alırdılar. Sultan ildə 320 gümüş rubl məbləğində məvacib, yaxud 8 $^1/_2$ xalvar arpa, 1 xalvar 20 batman çəltik, 24 batman yağ, 60 qoyun alırdı. Bundan əlavə, satılmış hər bir araba duzdan 5 gümüş qəpik ona çatırdı. Sultanın köməkçisi olan birinci mirzə ildə 200 gümüş rubl və sultanın natura şəklində aldığı ərzağın yarısını, digər iki mirzə isə hər satılmış duz yükündən 2 gümüş qəpik məvacib alırdı (499, 827).

Hüseynqulu xan duz hasilatına xüsusi fikir verdiyi kimi, onun satışını da nəzarətdə saxlayırdı. O, hətta Osmanlı duzu ilə rəqabətə davam gətirmək, qonşu dövlətlərin İrəvan duzuna marağını artırmaq üçün hər araba və hər tay duza yerli əhalinin ödədiyi məbləğdən də az qiymət təyin etmişdi (499, 929).

İrəvan duzu iri parçalar halında hasil olunurdu və emal nəticəsində xırdalanırdı. Duz hasilatında tutacağı elastik və nazik olan külüngə bənzər alətdən istifadə olunurdu. Bu alət kiçik və ya iri ölçülərə malik olurdu. Kiçik külüng 4, 5 funt ağırlığında idi və onunla duz parçasının kənarları qazılırdı. İkincinin çəkisi isə 6 funtdan çox idi. Bu alətdən duz kütləsini ayırmaq üçün istifadə edilirdi. Hər bir duz layı yastı kəsik piramidaya oxşayırdı. Layın uzunu 2 fut, eni 10 düym və qalınlığı isə 5 düymə yaxın idi. Bu layların orta çəkisi 6 İrəvan batmanına bərabər idi (499, 824). Duzun tərkibində həmçinin gips, gil, qum və s. qarışıqlar da olurdu. Duzun rəngi əsasən, boz olsa da, bəzən ağ rəngli duza da rast gəlinirdi (499, 821-823; 260, 268).

İrəvan əhalisi duzdan həm özü istifadə edir, həm də onun böyük hissəsi qonşu dövlətlərə ixrac edilirdi. Duz mədənləri

Qarabağdan, Kartli-Kaxetiyadan, Osmanlı paşalıqlarından gələn karvanlarla dolu olurdı. Xanlıq dövründə duzun qiyməti müxtəlif idi. Duz araba və yaxud tayla aparılırdı. Hər bir tay hərəsinin çəkisi 6 batman olan 4 daşdan ibarət idi. Hər taydan müxtəlif şəxslərin xeyrinə vergi ödənilirdi. Bu vergidən xanın xeyrinə 80, keşikçilərə 4, mirzələrə 2, duz hasilatçılarına isə 16 qəpik düşürdü. Bir araba yükü isə 25-32 daşdan ibarət idi. Onun çəkisi 60 puda yaxın olurdu. Araba yükündən xanın xeyrinə 3 rubl 20 qəpik, keşikçilərə 20, duz mədəninin başçısı sultan üçün 5, duz hasilatçısı üçün isə 1rubl vergi alınırdı. Ümumiyyətlə, aparılan hər bir yük duz daşı mədənə 26 $^1/_2$, arabaya yüklənmiş daş isə 14 gümüş qəpiyə başa gəlirdi (499, 828-829). Bundan əlavə, duz mədənində işləyən Qulp kəndinin əhalisinə də qanunla təyin olunmuş müəyyən haqq çatırdı. Onlar hər arabaya görə 1 gümüş rubl, hər taya görə isə 4 gümüş qəpik məvacib alırdılar (499, 828). Hüseynqulu xanın dövründə duz hasilatından külli miqdarda gəlir əldə olunurdu. Məhz onun xidməti nəticəsində duz hasilatından xəzinənin gəlirləri xeyli artaraq hər il 14.000 gümüş rubla (1400 tümən – E. Q.) çatmışdır (499, 827).

İşğaldan sonra da Rusiya hakim dairələri İrəvan duzuna böyük maraq göstərmişdir. Qraf Paskeviçin 1827-ci il oktyabrın 6-da İrəvan vilayətinin Müvəqqəti İdarəçiliyin başçısı general-leytenant Krasovskiyə verdiyi 19 maddədən ibarət təlimatın bir maddəsi də İrəvan duzuna aid idi. O, Qulp duz mədənini nəzarətə götürməyi, əhalini bu işə həvəsləndirməyi, ondan xəzinəyə vaxtlı-vaxtında gəlir daxil olmasına nəzarət etməyi və Gürcüstanla duz ticarətini genişləndirməyi yeni "hökumət"dən tələb etmişdi (261, 481). Hətta bu duzun tərkibini yoxlamaq üçün xüsusi mütəxəssislər də cəlb edilmişdi. Onlar tərəfindən aparılan yoxlamada Naxçıvan duzuna nisbətən İrəvan duzu daha keyfiyyətli hesab olunmuşdu. Onun bir arabası Gürcüstanda 7, 25, bir yük duz isə 14, 25 gümüş qəpiyə satılırdı (193, 96; 260, 269). Qeyd etmək lazımdır ki, Qulp duz mədəni işğalın ilk günündən xəzinənin ixtiyarına keçmişdi. Yalnız 1832-1836-cı illərdə (4 il – E. Q.) duz hasilatı 24.600 gümüş rubla icarəyə verilmişdi. Sonra xəzinəyə qaytarılan duz mədəni

1840-1850-ci illər arasında müxtəlif miqdarda gəlir gətirmişdi. On il ərzində onun ümumi gəliri 24-50 min gümüş rubl arasında, bir il isə 72 min gümüş rubl, təmiz gəliri isə 14-28 min, iki il isə 53-54 min gümüş rubl olmuşdu. Son üç ildə isə duzun gəliri aşağı düşərək 20-19 min gümüş rubla çatmışdı (217, 497).

1840-cı il aprelin 10-da Cənubi Qafqazda keçirilən inzibati-ərazi islahatına görə, Qulp duz mədəni zavod statusu almış, onun müdir başda olmaqla idarə heyəti yaradılmışdı (371, 62).

Materialların təhlili göstərir ki, çarizm bu mühüm sahəyə də ilk növbədə xəzinənin mühüm gəlir mənbəyi kimi baxır, sahənin inkişafına xərc çəkilməsi haqqında heç düşünmürdü də.

## 7.4. Sənətkarlıq və ticarət. Pul, çəki və ölçü vahidləri

İrəvan bölgəsinin iqtisadi həyatında böyük rol oynayan sahələrdən biri də sənətkarlıq idi. Burada müxtəlif sənət sahələri – toxuculuq, boyaqçılıq, gön-dəri emalı, şüşə istehsalı, dulusçuluq, dəmirçilik, sabunbişirən, daşyonanlıq, bənnalıq, dülgərlik, rəngsaz və digər sahələr tarixən inkişaf etmişdi. İ.Şopen işğaldan sonra İrəvan şəhərində və mahallarda 96 sənətkarlıq və ticarət sahəsi qeydə almışdı (499, 843-850). Sənətkarlıq sahələri əsasən İrəvan şəhərində cəmləşmişdi. Bu sahədə əl əməyi əsas rol oynamış, onun istehsalında primitiv alətlərdən istifadə olunmuşdu.

Bu sənət sahələri içərisində toxuculuq xüsusilə seçilirdi. Maldarlığın, xüsusilə qoyunçuluğun, pambıqçılığın və baramaçılığın geniş yayılması bu sahənin inkişafına əlverişlı zəmin yaratmış, onu xammalla təmin etmişdi. İrəvan bölgəsində toxuculuq əsasən ev şəraitində inkişaf etmişdi. Bu dövrdə «hər bir ailənin toxuculuq dəzgahı vardı… İrəvan xanı hər bir dəzgahdan bir parça bez vergisi alırdı» (499, 851-853). Qadınlar dəzgahlarda pambıq parça əyirir və bez üçün iplik düzəldirdilər. Bundan əlavə, irəvanlılar toxuculuqda yundan geniş istifadə edirdilər. Ondan iplik əyirərək onu rəngləyir,

özləri üçün paltar, xalça, palaz, kisə, çul və bez toxuyurdular. Maldarlıqla məşğul olanlar isə qaba yunun düzəmindən özləri üçün çadır və keçə hazırlayırdılar (499, 853). Hərbi əməliyyatlar nəticəsində iqtisadiyyatın digər sahələri kimi bu sənət sahəsinə də ciddi zərbə dəymişdi. 1829-1832-ci illərdə aparılan siyahıyaalmaya görə, İrəvan şəhərində 3-ü Azərbaycan türkü, 12-si yerli erməni, 105-i isə gəlmə erməni olmaqla 120 toxuculuqla məşğul olan, mahallarda isə 26-ı Azərbaycan türkü, 652 yerli və 2076 gəlmə erməni olmaqla 2.754 toxucu qeydə alınmışdı (499, 847). 1850-ci illərin əvvəllərində isə İrəvan şəhərində cəmi 19 toxucu yaşamışdı (217, 450).

Toxuculuqla bağlı olan sənət sahələrdən biri də **boyaqçılıq idi**. Toxucu məmulatı üçün lazım olan iplərin, pambıq və yun parçaların rənglənməsində bu sahənin mühüm əhəmiyyəti vardı. Boyaqçılıqda qırmız böcəyindən (koşenil boyağı verən böcək – E. Q.) alınan qırmızı rəngdən və müxtəlif boyaq bitkilərindən əldə edilən təbii rənglərdən istifadə olunurdu (260, 259-266).

İrəvan əyalətində boyaqçılar **boyaqçı və şiləçi** olmaqla iki qrupa bölünürdülər. İstənilən hər hansı məmulatı göy rənglə rəngləyən boyaqçı icarədardan icazə almalı idi. Şiləçi isə azad surətdə qırmızı və digər rənglərdən istifadə edirdi (499, 851). Boyaqxanalar icarəyə verilir və eyni zamanda onlar xəzinəyə vergi ödəyirdilər. 1828-ci ildə Osmanlı dövlətinin İrəvan bölgəsi ilə bağlı tərtib etdiyi "İcmal dəftəri"ndə boyaqxanalardan xəzinəyə ildə 84.000 axça gəlir daxil olmuşdu (38, 35). 1829-1832-ci illər siyahıyaalınmasına görə, İrəvan şəhərində 2-si Azərbaycan türkü, 1-i yerli, 1-si isə gəlmə erməni olmaqla 4, mahallarda isə 2-si Azərbaycan türkü, 7-si yerli erməni, 27-si gəlmə erməni olmaqla 36 boyaqçı, İrəvan şəhərində 4-ü Azərbaycan türkü, 2-si yerli erməni, 16-sı gəlmə erməni olmaqla 22 şiləçi, mahallarda 1-i yerli erməni, 26-sı gəlmə erməni olmaqla 27 şiləçi qeydə alınmışdı (499, 843, 847). XIX yüzilliyin 50-ci illərin əvvəllərində isə yalnız İrəvan şəhərində 33 boyaqçı, 22 şiləçi yaşamışdı (217, 450).

Boyaqxanalarda məmulatlar əsasən, göy rənglə rənglənirdi. Boyaqçı emalatxanaları çox primitiv idi. Bu emalatxanalar daxmadan, iki gil səhəngdən və məmulatı rəngləmək üçün iki çubuqdan ibarət olmuşdu (499, 859). İrəvan bölgəsinin əksər mahallarında boyaqxanalar fəaliyyət göstərirdi. Belə boyaqxanalar İrəvan şəhərində, Dərəçiçək, Göyçə mahallarında, Zəngibasar mahalının Uluxanlı kəndində, Gərnibasar və Vedibasar mahallarının İmanşahlı, Çikdamlı, Yuva, Qəmərli, Arıxlı, Vedidərə, Dəvəli, Aralıx kəndlərində, Şərur mahalının Ərəb Yengicə və Muğanlı kəndlərində, Sürməli mahalının Qırmızı və Panik kəndlərində, Dərəkənd-Parçenis mahalının Qulp və Mollaqəmər kəndlərində, Talın mahalının Məsdərə kəndində, Sərdarabad mahalının Kürdqulu kəndində, Körpübasar mahalının isə Üçmüəzzin və Əkərək kəndlərində yerləşirdi (499, 859).

Boyaqxanaların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş qaydalara tabe idi. Belə ki, sahibkar və yaxud icarədar özü üçün o halda yeni emalatxana aça bilərdi ki, qonşu mahalda fəaliyyət göstərən boyaqxanaya ziyan verməsin. Bununla yanaşı məhsulların satışında da qaydalara riayət olunmalı idi. Sahibkar məhsulunu əvvəlcədən müəyyən olunmuş qiymətlə sata bilərdi. Məsələn, rənglənmiş, əyrilmiş yun və yun parçanın 1 arşını 4 şahıya (8 gümüş qəpik), əyrilmiş pambıq və pambıq parçanın arşını isə 2 şahıya (4 gümüş qəpik) satılmalı idi (499, 860).

Əhalinin məşğuliyyət sahələrindən biri də s**abun istehsalı** idi. Sabun bişirənlər sabunçu adlanırdılar. Azad şəkildə sabun istehsalına qadağalar qoyulsa da, bu sahədə müəyyən irəliləyiş gözə çarpmışdı. Bu sahə də iltizama verilirdi. İrəvanda sabun istehsalı baha başa gəlirdi. Xanlıqda sabunun bişirilməsində əsasən, İrəvan şəhəri və Gərnibasar mahalının Şeyxzadəli kəndinin əhalisi məşğul olurdu. Şeyxzadəli kəndinin kişi və qadınlardan ibarət 474 nəfərinin demək olar ki, hamısı sabun bişirirdi. Onlar bişirdikləri sabunu özləri satırdılar. Sabun istehsalında Şeyxzadəli kəndi ilə İrəvan şəhəri arasında xüsusi rəqabət gedirdi. Belə ki, şəhərdə sabun istehsal edənlərin hüququnu qorumaq üçün sabun istehsalını

iltizama götürmüş müqatiəçinin icazəsi olmadan kənddə bişirilən sabun məhsulları burada satıla bilməzdi. Digər tərəfdən, istehsal edilən sabun keyfiyyət cəhətdən aşağı idi. Xanlıqda bişirilən sabun qara olurdu və çox pis qoxu verirdi (499, 856). "İcmal dəftər"inə görə, İrəvan bölgəsində bu sahədən xəzinəyə gələn gəlirin ümumi məbləği 84.000 axçaya bərabər olmuşdu (38, 35). 1829-1832-ci illərin kameral təsvirinə görə, İrəvan şəhərində yalnız Azərbaycan türklərinin məşğul olduğu 3 sabunbişirən emalatxana qeydə alınmışdı (499, 843). XIX yüzilliyin ortalarında isə İrəvan şəhərində 15 sabunbişirən vardı (217, 450).

**Gön-dəri istehsalı** irəvanlıların ən qədim sənətkarlıq sahələrindən biri idi. İrəvanda maldarlığın geniş yayılması bu sahənin inkişafına müsbət təsir göstərmişdi. Bu sahə ilə məşğul olanlar Dərəkənd mahalının bir sıra kəndlərində və İrəvan şəhərində Zəngi çayının sahilində yerləşən 32 emalatxanada cəmləşmişdi (499, 858). Xanlıqda yüksək keyfiyyətli dəri emal edilirdi. Bacarıqlı ustalar dərini aşılayaraq onu lazımi şəklə salırdılar. Bundan əlavə, onlar xüsusi bitki toxumunun köməyi ilə dərini yumşaldaraq onu qara, qırmızı və sarı rəngə boyayırdılar. Burada ustalar yerli dəridən əlavə, Bəyazid və Makudan gətirilmiş dərilərdən xammal kimi istifadə edirdilər. İrəvan ustaları bir il ərzində 4000 iribuynuzlu, 25.000 xırdabuynuzlu, cəmisi 29 min baş mal-qaranın dərisini emal etmək imkanına malik idilər. Böyük dəri 3 rubla, kiçiyi isə 80 qəpiyə satılırdı (498, 857). İşğaldan sonra keçirilmiş kameral təsvirə görə, "Erməni vilayəti"ndə 45 dabbaqxana, 112 dabbaq və 274 çust tikən qeydə alınmışdı. Bunlardan İrəvan bölgəsi üzrə İrəvan şəhərində dabbaqların 26-ı Azərbaycan türkü, 12-i yerli erməni, mahallarda isə 1-i Azərbaycan türkü, 9-u yerli, 17-si gəlmə erməni olmaqla 27 dabbaq olmuşdu (499, 843-844). XIX əsrin ortalarında isə İrəvan şəhərində 20 dabbaq yaşamışdı (217, 450)

Digər sənət sahələrində olduğu kimi dabbaqxanalardan da xəzinə külli miqdarda gəlir götürürdü. Məsələn, "İcmal dəftəri"nə görə, İrəvan şəhərində fəaliyyət göstərən dabbaqxanalardan xəzinəyə 36.000 axça gəlir daxil olmuşdu (38, 35). İrəvan şəhərində dəri

emal edən emalatxanalar iltizama verilirdi. Burada emal edilmiş dərilər xüsusi damğalanırdı. İltizam sahibi belə dəridən töycü pulu alırdı. Məsələn, üç damğalanmış qoyun və keçi dərisinin hər birindən iltizam sahibi 1 şahı (2 gümüş qəpik), camış və kəl dərisindən isə 2 şahı (4 gümüş qəpik) alırdı (499, 827). Emal edilmiş dərinin əsas satış yeri bazarlar idi. Lakin onu satmaq üçün sərt qaydalar mövcud olmuşdu. Belə ki, damğalanmamış dəri satışa çıxarıla bilməzdi (499, 827).

İrəvan bölgəsində qədim sənətkarlıq sahələrindən biri də **şüşə istehsalı** idi. Burada şüşə çox primitiv şəkildə hazırlanırdı. İ.Şopen şüşə istehsal edən emalatxanalar, orada tətbiq edilən texnologiya və əldə edilmiş məhsul haqqında çox dəyərli məlumat vermişdi. Onun yazdığına görə, «soba yandırılmış sümük ovuntusu, xüsusilə, at dırnaqları ilə qarışdırılmış gil boru ilə birləşdirilmiş təknə şəklindədir. Məhlul təknədə əridilirdi. Od yuxarıdan, məhlul ilə tavan arasından keçirdi. Hər qaynama adətən dörd gün davam edirdi. Bu vaxt ərzində 25 pud şüşə məhlul əldə olunurdu. Qaynamaya isə 2, 5 kub sajen odun işlədilirdi» (499, 858). Beşinci gün ustalar şüşənin istehsalına başlayırdı. Hazır olmuş məhluldan 100, 150 və 200 ədəd şüşə alınırdı (499, 858).

Şüşə üçün lazım olan xammal kvarslı qum, soda və bir qədər marqansdan ibarət olurdu. Bacarıqlı ustalar şüşəyə yeddi cür rəng – tünd qırmızı, qırmızı, çəhrayı, göy, mavi, yaşıl və narıncı əlavə edə bilirdilər. Daha şəffaf şüşə əldə etmək üçün potaşdan istifadə olunurdu. Soda isə şüşəni göy rəngə boyayırdı. Pəncərə və butulka şüşəsi hazırlamaq üçün sodaya üstünlük verilirdi (499, 858). Lakin işğaldan sonra bu sahə ilə məşğul olan emalatxanalar məhv edilmişdi.

İrəvan bölgəsində **xarratlıq** daha məşhur olmuşdu. İrəvan xarratlarının iş üslubu İ.Şopeni valeh etmişdi. O, yazırdı ki, "buradakı sənətkarlardan xarrat xüsusilə çox yaxşı idi. Onun ayağı əlləri kimi işləməyə öyrənmişdi. Ona baxanda görürsən ki, yerdə oturaraq əllərində düzəltdiyini ayaqları ilə tutur və demək olar ki, onu dördəlli adam adlandırnaq olardı" (499, 847). Onların iş

qabliyyəti böyük Asiya tipli pəncərələrin düzəldilməsində üzə çixirdı. Bu pəncərələr kənarları müxtəlif cür gözəl naxışlarla bəzədilmiş, çoxlu kiçik və nazik ağacdan düzəldilirdi. Bundan əlavə, pəncərələr müxtəlif rəngli şüşələrlə bəzədilirdi (499, 848-850). 1829-1832-ci illər kameral təsvirinə görə, İrəvan şəhərində və mahallarda 235 xarrat fəaliyyət göstərmişdi. Bunlardan 78-i İrəvan şəhərində, 235-i isə mahallarda yaşamışdı (499, 847).

İrəvan bölgəsində sənətkarlıq növlərindən biri də **dulusçuluq** idi. İşğaldan qabaqkı dövrlərdə saxsı qablar istehsalı ilə daha çox kəndlərdə məşğul olurdular. Demək olar ki, «hər bir mahalda dulusçuluq emalatxanaları fəaliyyət göstərirdi» (499, 862). Emalatxanalarda məişətdə istifadə olunan qabları hazırlamaq üçün sobalar quraşdırılmışdı. Bu sobalarda su və şərab saxlamaq üçün küplər, məişətdə istifadə olunan müxtəlif gil qablar, lazım gəldikdə kərpic də bişirilirdi. Bişirilmiş kərpic baha qiymətə satılırdı. Bir ildə kərpicdən gələn gəlir 12-14 min gümüş rubla bərabər olurdu (499, 862). Təəssüf ki, İrəvan bölgəsində «sənətkarlıq istehsalının ən qədim sahələrindən olan» dulusçuluq emalatxanalarının sayı haqqında məlumata rast gəlmədik. Yalnız 1829-1832-ci illərdə tərtib edilmiş kameral təsvirə görə, bölgə üzrə İrəvan şəhərində 1-i Azərbaycan türkü, 1-i gəlmə erməni, mahallarda isə 1-i Azərbaycan türkü, 19-u yerli, 35-i isə gəlmə erməni olmaqla 57 dulusçu qeydə alınmışdı (499, 843).

Bölgədə yağ hazırlayan xüsusi sənətkarlar dəstəsi də vardı. İşğaldan əvvəl bütün mahalların əksəriyyətində yağ istehsal edən müəssisələr fəaliyyət göstərmişdi. 1829-1832-ci il siyahıyaalınmasında 12 mahalda 30 təmir edilmiş, 189 təmir edilməmiş daxil olmaqla 219 yağ hazırlayan müəssisə qeydə alınmışdı (499, 860-861).

Yağı əldə etmək üçün xüsusi qurğudan istifadə edilirdi. Bu qurğunun quruluşu çox sadə idi. Bazalt və yaxud qumdan olan dəyirman daşı bir cüt kəl və camış vasitəsilə şaquli vəziyyətdə hərəkətə gətirilərək məhsul üyüdülür, ağac pərin köməyi ilə yağ sıxılmış halda çıxarılırdı (499, 861). Yağ müəssisələrində həm

kətan, həm də küncüt yağları istehsal olunurdu. Burada kətan yağına daha çox üstünlük verilirdi. Ona görə də, kətan bitkisi əsasən yağ əldə etmək üçün əkilirdi. Küncüt ancaq bəzi kəndlərdə əkilirdi. Küncüt yağının istehsalı az olsa da, bu yağın zeytun yağından heç də geri qalmayan xoş ətirli iyi var idi (499, 861). Bir batman yağ 4 batman kətan dənindən alınırdı. Yağ hazırlayan müəssisələr ildə 1.500 batman yağ istehsal edirdi. Müsəlmanlar kətan yağından çıraqların yandırılmasında, ermənilər isə yeməklərin bişirilməsində istifadə edirdilər. Küncüt yağının bir batmanı 8-12 abbasıya, kətan yağınınkı isə 4-6 abbasıya satılırdı (499, 861-862).

Adı çəkilən yağlardan başqa yerli əhali gənəgərçək yağından da istifadə edirdi. Gənəgərçək yağı ev şəraitində hazırlanırdı. Bu yağ qatı, rəngi isə qara olurdu və çox pis qoxusu vardı. Gənəgərçək yağından evləri işıqlandırmaq üçün çıraqlarda istifadə edilirdi. Onun bir batmanı 4 – 6 abbasıya satılırdı (499, 862).

Sənətkarlar dəstəsinə dəyirmançıları da aid etmək olar. Dənli bitkilərin üyüdülməsində xüsusi rol oynayan dəyirmançı peşəsinin tarixi qədim dövrlərə gedir. Azərbaycanın digər bölgələrində olduğu kimi İrəvan bölgəsində də dəyirmanlar sadə quruluşa malik idi. Belə ki, dəyirman daşı şaquli, dik vəziyyətdə duran ağaca yerləşdirilmişdi. Onun aşağı hissəsində bərkidilmiş pər çevrəsiz araba çarxı şəkilidə idi. Su ağac navalçadan tökülərək bu pərə zərbə vuraraq dəyirman daşını hərəkətə gətirirdi. Suyun gücündən asılı olaraq dəyirman daşları kiçik və böyük olurdu. Böyük dəyirman daşı gün ərzində bir xalvar (1 xalvar-100 batman), kiçiklər isə 15-20 batman (1 İrəvan batmanı-450 kq) dən üyüdürdü (499, 862-864).

Yuxarıda qeyd edilən sənətkarlıq sahələrindən başqa, bölgədə dəmirçilər, silahsazlar, dərzilər, bənnalar, çəkməçilər və digər sənətkarlar fəaliyyət göstərmişdilər. Ümumuyyətlə, 1829-1832-ci illərin kameral təsvirində "Erməni vilayəti"ndə sənətkarlıqla məşğul olan 10.124 şəxs qeydə alınmışdı. Bunlardan 2349-u İrəvan şəhərində, 4743-ü isə sabiq İrəvan xanlığının mahallarında yaşamışdı (499, 842-850).

Qeyd etmək lazımdır ki, Azərbaycanın digər şəhərlərində olduğu kimi, İrəvan şəhərində də peşəsindən asılı olmayaraq sənətkarlar öz hüquqlarını qorumaq, vergi, satış və digər məsələlərdə nizam-intizam yaratmaq üçün xüsusi təşkilatda birləşirdilər. Buna əsnaf təşkilatları deyilirdi. Əsnaf təşkilatları haqqında görkəmli tədqiqatçı F.M.Əliyev öz əsəində ətraflı bəhs etmişdi (31, 66-83). Qısaca qeyd etmək olar ki, əsnaf təşkilatlarının dövlət orqanları ilə, onun maliyyə bölməsi, polis idarəsi ilə əlaqə yaratmaq və təşkilata daxil olan üzvlərinin hüquqlarını qorumaq üçün xüsusi nizamnaməsi vardı. Bu nizamnaməyə əməl olunmasına nəzarət etmək üçün, hər əsnaf təşkilatının başında seçilmiş əsnafbaşı dururdu. Sonuncuların böyük nüfuzu vardı (186, 23-26).

İrəvan bölgəsinin inkişaf etmiş əsas iqtisadiyyat sahələrindən biri də **ticarət** idi. Bəhs etdiyimiz dövrlərdə bölgənin hərbi əməliyyatlar zamanı dəfələrlə dağıntıya məruz qalmasına baxmayaraq, əlverişli karvan yollarının qovuşduğu yerdə yerləşməsi ticarətin inkişafına öz təsirini göstərmişdi. Ticarətdən bəhs etməzdən əvvəl bu ticarət yolları haqqında məlumat vermək yerinə düşərdi. Belə ki, İrəvan bölgəsində müxtəlif istiqamətlərə gedən və gələn karvan yolları mövcud olmuşdu. Z.Əylisli, J.Şardən öz əsərlərində belə ticarət yollarından bəhs etmişdilər (167, 26-27; 213, 226-231). Digər mənbələr də, bu yollar haqqında maraqlı məlumatlar verir. Əsas karvan yolları bunlar idi: 1. Tiflisdən İrəvan şəhərinə gələn yol idi ki, bu yol iki hissədən ibarətdir: a) Tiflis-Şulaver-Cəlaloğlu-Hamamlı-Abaran-Üçmüəzzin-İrəvan; b) Hamamlı-Gümrü-Talın-Üçmüəzzin-İrəvan. Talına qədər gələn yol düz və açıq, Talından Üçmüəzzinə uzanan yol isə daşlı və susuz idi. Ona görə də, may ayında İrəvana qədər gələn bu yolda otlar artıq yanmış olurdu; 2.Tiflis-Qalagir-Başkeçid-Cəlaloğlu-Gümrü-Abaran-Mirək-Sudakənd-Üçmüəzzin-İrəvan. Bu yol Mələkə kəndinə qədər hərəkəti çətinləşdirməyən xırda açıq təpəliklərlə əhatə olunmuşdu. Lakin bu yol yaşıl otluqlarla və su ilə bol idi. 3. Tiflis – Bozqala – Böyük Qarakilsə – Hamamlı – Pəmbək – Abaran – Mirək – Sudakənd-Çaləli – İrəvan – Üçmüəzzin. Bu yolun iki çətinliyi vardı. Birincisi,

Əştərək kəndinə 10 verst qalmış bu yol daşlıqlardan ibarət idi. Çünki üç verst uzunluğunda olan Pəmbək dağını keçmək lazım idi. Buradan İrəvana qədər yollar susuz və boş çöllərlə əhatə olunmuşdu. Əvəzində Hamamlıdan Eqvard kəndinə qədər yol yaşıl otluq və su ilə bol idi. 4. Böyük Qarakilsə-Həmzəçimən-Eşşəkmeydan-İrəvan. Bu yol əsasən Gəncə yolundan başlayaraq Ağstafa çayının sahili ilə uzanaraq Dəlican dərəsindən keçərək Eşşəkmeydana, buradan Göyçə gölünün yaxınlığından, Zəngi çayının mənbələrindən dönərək İrəvana doğru yönəlirdi. Yol uca aşırımlardan və sıx meşəlikdən keçirdi; 5. İrəvan-Naxçıvan-Təbriz-Tehran; 6. İrəvan-Sərdarabad-Maku-Xoy-Təbriz (236, 23-24, 57-58). Qeyd edilən karvan yollarından başqa xanlıqda müxtəlif istiqamətlərə uzanan yollar da mövcud olmuşdu. Məsələn, təkcə Şörəyeldən beş əsas yol keçirdi ki, bu yollar Gümrüdə birləşirdi. Buradan isə Talın-Baş Abaran-Mirək, Pəmbəyə doğru Bəykənd-Hamamlı-Böyük Qarakilsə, Osmanlı sərhəddi boyunca Arpa çayını keçərək Qars-Ərzurum yolları və s. (236, 20). P.Zubov da əsərində Kartli-Kaxetiyadan İrəvan xanlığına gələn və buradan da Naxçıvan xanlığına gedən bəzi yollar, onların vəziyyəti və uzunluğu haqqında maraqlı məlumat vermişdi. Onun verdiyi məlumata görə, rusların əlində olan Cəlaloğlu qalasından İrəvana üç yol vardı. Onlardan biri Gümrüdən, ikincisi Dəlican dərəsindən, üçüncüsü isə Abaran çayının sahili boyunca keçərək İrəvan şəhərinə istiqamət götürürdü. Birinci yol daha rahat idi və onun uzunluğu 200 verstə bərabər idi. İkinci yol yay fəslində istifadəyə daha yararlı idi. Üçüncü yol isə nisbətən qısa idi və ondan ilin əksəriyyət dövrlərində istifadə etmək olardı; sonuncu yolun uzunluğu 110 verstə bərabər idi. Bütün bu yollar birləşmiş halda vadi boyunca istiqamət götürərək enişi düz və yoxuşu çətin olan iri Bozabdal dağından keçməklə davam edirdi. Axırıncı yol Qışlaq kəndindən Pəmbək dərəsinə dönərək dağlar arası ilə, böyük hissəsi Abaran çayı boyunca keçirdi. Əştərək kəndindən daşlı, düz vadi ilə istiqamət götürərək Üçmüəzzindən keçməklə İrəvan şəhərinə gedirdi. İrəvana giriş isə Zəngi çayı üzərindəki körpüdən keçirdi (197, 135-136). Daha sonra müəllif

İrəvan-Naxçıvan yolu haqqında məlumat vermişdi. Onun yazdığına görə, İrəvan şəhərindən Naxçıvana məsafə 132 verstdir. Bu yol İrəvan şəhərindən Arazın şimal sahili böyunca istiqamət götürərək Naxçıvana gedir. Dəvəli kəndinə qədər yol vadi boyunca uzanır, sol sahildən Araza tökülən çoxlu xırda çaylardan keçirdi. Dəvəli kəndindən Naxçıvana qədər yol Qafqaz sıra dağlarının cənub ətəklərini təşkil edən dağlardan, Naxçıvan xanlığının sərhəddində isə Arpaçay çayı və ona tökülən xırda çaylardan keçirdi (197, 136).

İrəvan xanlığından Osmanlı dövlətinə və Azərbaycanın şimal xanlıqlarına istiqamətlənmiş karvan yolları haqqında 1829-1832-ci illərdə tərtib olunmuş kameral təsvirdə ətraflı məlumat verilmişdi. Kameral təsvirdə göstərilən yollar aşağıdakılardır: 1.Gümrü – Məsdərə – Sərdarabad – Üçmüəzzin – İrəvan – Naxçıvan-Ordubad; 2. Sərdarabad-Cəfərağa kəndi-Bəyazid paşalığı; 3. Sərdarabad-Qulp – Kağızman–Ərzurum; 3. İrəvan – keçmiş Qarabağ xanlığının sərhəddi. Bu yolun uzunluğu 161 verstdir; 4.İrəvan-Üçmüəzzin-Qars. Bu yol Qızılkilsə və Qoşavəng kəndlərindən keçirdi (499, 718-721).

İrəvan bölgəsində ticarətin inkişafının göstəricilərindən biri də burada çoxlu karvansaraların mövcud olması idi. Onların əksəriyyəti İrəvan şəhərində, qalada, bəziləri isə mahallarda yerləşirdi. Karvansaralar tikilərkən burada yük heyvanları üçün otlaq, su quyuları, bulaq və çayların olması nəzərdə tutulurdu. Elə bir karvansara tapılmazdı ki, onda heç olmasa su quyusu olmasın (107, c.1, səh.40; 31, 91).

Məşhur fransız səyyahı J.Şardən 1673-cü ildə İrəvanda olarkən «şəhər və qalada çoxlu karvansaraların» olduğunu göstərmişdi. Səyyah hətta İrəvanda fəaliyyət göstərən karvansaraların təsvirini də vermişdi (213, 234-235). Onların tikilməsi və memarlıq baxımından görünüşü haqqında “Mədəniyyət“ bölməsində ətraflı məlumat veriləcəkdir.

İrəvan bölgəsində şəhər və yol karvansaraları olmaqla iki növ karvansara mövcud olmuşdu. Qeyd etmək lazımdır ki, şəhər ilə yol karvansaraları bir-birindən fərqlənirdi. Şəhərin özündə də

karvansaralar iki cür idi. Karvansaraların bir hissəsi səyyah və zəvvarlar, digərləri isə sırf tacirlər üçün nəzərdə tutulmuşdu. Tacirlərin qaldığı karvansaralar daha gözəl və rahat idi. Onlar bir gün üçün otaqları 1 və ya 2 suya (fransız pul vahidi – E. Q.) kirayələyirdilər (213, 235). Şəhərdə bazar ətrafında cəmləşmiş karvansaralar tacirlər üçün həm mehmanxana, həm də mallarını satmaq üçün həm pərakəndə, həm də topdansatış bazar hesab olunurdu. Belə ki, kavansaraların ətrafında çoxlu dükanlar vardı. İrəvana gələn istənilən tacir ilk növbədə karvansara ətrafında yerləşən boş dükan tutaraq mallarını buraya yığırdı (213, 234; 499, 880-881).

Yol karvansaraları isə iri karvan yollarının üzərində inşa edilirdi. Onlar tacirlərin, səyyahların və digər yolçuların gecələmək və istirahət yeri idi (499, 880-881).

Karvansaraların bir hissəsi xüsusi adamlara, bir hissəsi isə xəzinəyə məxsus idi (213, 235). Xəzinə karvansaraları iltizama verilirdi. İltizamçı tacirlərdən iki adda vergi alırdı. Birincisi, daxildə və xaricdə istehsal edilən mallardan alınırdı ki, bu verginin özü də iki qismə bölünürdü: a) əgər tacir karvansarada malını topdan satırdısa, hər tümənə 1 şahı olmaqla «havayı» adlanan vergi, yox əgər tacir malını satmadan aparırdısa, hər yükünə 4 şahı olmaqla «saxlama» vergisi adlanan vergi ödəyirdi. İkincisi, yolçu tacirdən alınan vergi idi. İltizamçı yolçu tacirlərdən gününə 4 şahı, karvansaranın tövləsində saxlanılan hər dəvə, at, kəl və ulağa görə 1 şahı, hər çəltik və duz yükünə görə isə 2 şahı məbləğində pul alırdı (499, 880).

İrəvan bölgəsi bəhs etdiyimiz dövrdə hərbi əməliyyatlar zamanı dağıntılara məruz qaldığından karvansaralara da böyük zərər dəymişdi. Əvvəlki dövrlərdə bölgədə olan karvansaralar haqqında məlumat olmasa da, Rusiya işğalından sonra İrəvan şəhərində və yerlərdə olan karvansaralar qeydə alınmışdı. Kameral təsvirə görə, şəhərdə 7 karvansara salamat qalmışdı. Bu karvansaralar bişmiş kərpicdən, yonulmuş bazalt və mərmərdən inşa olunmuş və görünüşləri yaxşı idi. Hər bir karvansaranın ətrafında dükanlar

cəmləşmişdi. Şəhər karvansaraları və onların ətrafında olan dükanlar bunlar idi: 1.Gürcü karvansarası-78 dükan. Bunlardan 24-ü şəxsi dükan idi; 2.Culfa karvansarası-38; 3.Zöhrab xan karvansarası-38; 4.Tahir karvansarası; 5.Sulu karvansara; 6.Susuz karvansara. Sonuncu hər üç karvansaranın ətrafında 74 dükan vardı; 7.Hacı Əli karvansarası – 40 dükan.

Yol karvansaraları isə bunlar idi: 1.Gümrü və Sərdarabadı birləşdirən yolun üzərindəki Talın karvansarası; 2.Dərəçiçək mahalında Tiflis-İrəvan yolu üzərində yerləşən Gərniköy kəndindəki karvansara; 3.Göyçə mahalında iki karvansara vardı. Hündür yerdə tikilmiş Qarahasar karvansarası və Çil kəndi yaxınlığındakı karvansara; 4.Göyçə mahalı ilə Dərələyəz arasındakı Səlim karvansarası (499, 468-469, 878-880).

Qeyd etmək lazımdır ki, bəhs etditimiz dövr ərzində İrəvan bölgəsində tacirlər dörd növə bölünmüşdü. Birinci növ tacir **sövdakar** adlanırdı. O, heç bir dükanı olmadan mallarını topdan satırdı; ikinci növ tacir **binahtar** adlanırdı. Binahtar mallarını dükanda topdan satırdı; üçüncü növə **bəzzas** daxil idi. O, dükanda xırda-para mallarla alver edirdi; dördüncü növə isə ev-ev, kənd-kənd gəzib mallarını satan **dəllallar** daxil idi (499, 876)

Ticarət dövlətin xəzinəsinə böyük gəlir gətirdiyindən İrəvan hakimləri bu sahəni əllərində cəmləşdirmişdilər. Ticarətdən gələn gəlir hesabına hərəmxana, saray xidmətçiləri və qoşun saxlanıldığından, İrəvan hakimləri ticarətə böyük sərmayə yatırırdılar. Onlar daha varlı tacirlərin şərikləri idilər (499, 873; 259, 284). XVIII yüzilliyin 80-ci illərin əvvəllərində İrəvan hakimi Hüseynəli xanın (1759-1783) Xoy hakimi Əhməd xan Dünbülüyə göndərdiyi məktub bunu bir daha sübut edir. Xan məktubunda şəriki tacir Hacı Hadinin Bağdad şəhərindən mal gətirdiyini, malın xeyli hissəsinin satıldığını, qalan hissəsinin – hil və qəhvənin isə Xoya göndərildiyini və onun satılmasında Hacı Hadinin adamlarına köməklik göstərilməsini Əhməd xandan xahiş edirdi (48, 33). Həmçinin xanlığın xan titulu daşıyan nüfuzlu digər adamları da ticarətlə maraqlanırdılar. Onlar «sərdardan ibrət götürərək tacirləri pulla

təmin edir, onları himayəyə alırdılar» (49, 873). İrəvanda ona qədər belə adam yaşayırdı və onlar hər il ticarətə 3 min tümən pul sərf edirdilər. Mirzə, bəy və digər məmurlar da gəlirlərini artırmaq məqsədilə İrəvan bazarında pul xərcləyir və xeyli qazanc götürürdülər (499, 873).

İrəvan bölgəsində başlıca ticarət mərkəzi İrəvan şəhəri idi. Burada həm daxili, həm də xarici ticarət inkişaf etmişdi. Şəhərin əlverişli mövqedə yerləşməsi ticarətin inkişafına lazımi şərait yaratmışdı. 1827-ci il oktyabrın 3-də general Paskeviç knyaz Mixail Pavloviçə ünvanladığı məktubunda İrəvan şəhərinin bölgənin ticarət münasibətlərində böyük rolundan bəhs edərək yazırdı: «İrəvan alındıqdan sonra şəhər tamamilə dağıdılmışdı. Lakin evlərin dağılması vacib deyil. İmperatorumuzun idarəçiliyi sayəsində əhali tezliklə varlanacaq və yeni binalar tikiləcəkdir. İrəvanın ən böyük əhəmiyyəti onun üç dövlətin əhatəsində yerləşməsidir. Onun İran (Qacar dövləti – E. Q.) və Osmanlı dövlətləri ilə çevik ticarəti bizə görünməmiş qazanc gətirəcəkdir» (361, 567).

İrəvan şəhəri müxtəlif dövlət və xanlıqlardan gəlmiş tacirlərlə dolu olardı. Z.Kənəkirli yazırdı ki, "İrəvan əyaləti çox məhsuldardır və hər cür məhsulla boldur. Ona görə də, hər yerdən ticarət üçün İrəvana gəlirlər, istədiklərini alır və öz yerlərinə qayıdırdılar. Eyni ilə həmçinin Təbrizdən çoxlu karvanlar gəlirdi. Onlar düyü, pambıq, əridilmiş yağ, pendir, donuz piyi, birki yağı, xəz, ayaqqabı, dəri və digər mallar almışlar" (225, 153). Mənbələrdə müstəqil xanlıq dövründə İrəvana müxtəlif dövlət və xanlıqlardan gələn və ixrac edilən mallar haqqında ətraflı məlumat vardı. Şəhər anbarlarında müxtəlif dövlətlərdən gətirilmiş çoxlu ticarət malları toplanırdı. Burada Qacar dövlətindən və qonşu xanlıqlardan İrəvana gətirilmiş xalça, şal, şəkər, qəhvə, nabat, şəkər tozu, xına, müxtəlif mis əşyalar, badam, albuxarı, mismar, yağ, bal, xurma, ipək, dəri, tünd boyaq, pambıq parça, kişmiş, noxud, nar və üzüm şirəsi, Kartli-Kaxetiyadan alma, armud, xurma, əncir, kişmiş, qoz, zoğal, badam və başqa meyvələr, Osmanlı dövlətindən isə müxtəlif növ parça, yağ, yun, zəy, qızıl boya, xarici çaxır, araq, yerli çaxır, bal, mum,

qoz və müxtəlif meyvələr, tir, taxta və taxta piyalə və s. mallar var idi (499, 883-884).

İrəvan bölgəsindən də bir sıra dövlətlərə müxtəlif çeşiddə ticarət malları ixrac edilirdi. Məsələn, İrəvandan Osmanlı dövlətinə duz, qənd, ipək, yun, pambıq parçalar, düyü, tütün, xam pambıq, koşenil, cürbəcür meyvələr, Kartli-Kaxetiyaya duz, kişmiş, koşenil, ipək, pambıq ixrac edilirdi (219, 184; 499, 884).

Bölgənin Kartli-Kaxetiya çarlığı ilə ticarət dövriyyəsi daha geniş idi. İrəvan tacirləri böyük kapitala malik olduqlarından, onlar İstanbuldan, İran və Azərbaycan şəhərlərindən mallar alaraq Tiflis bazarlarında nəqd pula satır və əvəzində alman və rus mallarını alırdılar. İrəvan şəhəri İran və Azərbaycandan Tiflisə və əksinə göndərilən ticarət mallarının anbarı hesab olunurdu (499, 872-873; 260, 285). Hətta, müharibələr belə ticarətə mane ola bilməmişdi. Birinci Rusiya-Qacar müharibəsi dövründə dövlətlər arasında ticarət əlaqələrinin davam etdirilməsi haqqındakı sənədlərdə bir sıra faktlara rast gəlmək mümkündür. 1808-ci il fevralın 8-də rus qoşunlarının baş komandanı qraf Qudoviç çara yazdığı məlumatında göstərirdi ki, «hətta İrəvan tacirlərinin Tiflislə ticarət əlaqələri əvvəlki illərə nisbətən daha da artmış və irəvanlılar mallarla dolu karvanlarını inamla buraya yola salırdılar» (128, 447). General Tormasov və general Rtişşev də məktub və məlumatlarında müharibə olmasına baxmayaraq, İrəvanla Tiflis arasında ticarət əlaqələrinin davam etdiyini göstərirdilər (353, 498; 354, 546).

İrəvan xanlığı işğal edildikdən sonra da İrəvanda ticarət dayanmamışdı. 1836-cı ildə İrəvan şəhərinin ticarət anbarlarında müxtəlif dövlətlərdən gətirilmiş zəngin ticarət mallarının olması və onların dəyəri haqqında ətraflı məlumat vardır. Məlumata görə, İrəvan şəhərinə Rusiya və alman istehsalı olan çit parça, alman mahudu, qənd, meyvə, indiqo (tünd sürməyi rəng), pambıq parça, mahud və s. gətirilirdi. Bütün bu malların ümumi dəyəri 168.200 rus gümüş rubluna bərabər idi. Qacar dövlətindən və Azərbaycanın ayrı-ayrı xanlıqlarından isə maya dəyəri 80 min rus gümüş rubluna bərabər parça, kəşmir yaylığı, müxtəlif ipək parçalar, çadra, qadın

geyimləri, rəngli keçə, Ost-hind kiseyi (nəzik şəffaf parça), ingilis çiti, ağ kolenkor (pambıq parça növü), Xorasan quzu dərisi, qənd, qəlyan tütünü, çubuq qəlyan və digər mallar gətirilirdi. Osmanlı dövlətindən mahud, kolenkor, atlas, Avropa ipək parçası və çiti, koşenil, rəngli şüşə, kətan, bal, güzgü, polad əşyalar idxal edilirdi. Bu mallar 10 min gümüş rubl qiymətində dəyərlənirdi (260, 285).

İrəvan şəhərində xarici ticarətlə bərabər daxili ticarət də inkişaf etmişdi. Daxili ticarət əsasən, çoxu sənətkar emalatxanaları kimi fəaliyyət göstərdiyi dükanlarda aparılırdı. Bununla yanaşı sırf ticarət dükanları da var idi. Onlar böyük sahələri əhatə edən şəhər bazarlarında, karvansaraların ətrafında, qalada və şəhərin müxtəlif hissələrində cəmləşmişdi. İrəvan şəhərində karvansaraların ətrafında 252, ayrı-ayrı cərgələrdə 543, qalada 32, şəhərin Təpəbaşı məhəlləsində 4, "Şəhər" hissəsindəki məscid ətrafında 18, Dəmirbulaq məhəlləsində isə 2 dükan vardı. Bu dükanların ümumi sayı 851-ə çatırdı. Dükanlar müəyyən olunmuş muzdla şəhər əhalisinə icarəyə verilirdi (499, 469, 881-882).

İrəvan bölgəsində kənd ticarəti də mövcud olmuşdu. Lakin bu sahə zəif inkişaf etmişdi. Bunun əsas səbəbi xanın bir sıra kənd təsərrüfatı mallarını inhisara alması ilə bağlı idi. Xanın fərmanına görə, kəndlilərin bazara çıxardıqları pambıq və çəltiyin artıq hissəsi ona satılmalı idi. Əgər kimsə cəsarət edib bu məhsulları başqasına satardısa amansızcasına təqib olunurdu (499, 874). Xan tərəfindən bu məhsullara qiymət də təyin edilmişdi. Belə ki, pambığın bir xalvarı 80 gümüş rubla, çəltiyin xalvarı isə 6 gümüş rubla alınırdı. Ucuz satın alınmış mallar tacirlər vasitəsilə Kartli-Kaxetiya, İran və Osmanlı dövlətlərində satdırılaraq külli miqdarda qazanc əldə edilirdi (499, 874).

Xarici və daxili ticarətin cəmləşdiyi əsas yer bazarlar idi. İrəvan şəhərində ən iri bazar Təpəbaşı məhəlləsi ilə Şəhər məhəlləsi arasında yerləşirdi. Bazar bişmiş kərpicdən tikilmiş daş tavanın altında yerləşirdi. İ.Şopenin yazdığına görə, "əgər bazarın divarları suvansa və rənglənsə Avropa bazarlarından heç də geri qalmazdı" (499, 881).

İrəvan şəhərində bazarlardan əlavə, meydanlar da vardı. Bu meydanlar, adətən, əhalinin istirahət, söhbət etmək üçün toplaşdığı yerlər idi. Lakin əhalinin burada cəmləşməsindən istifadə edilərək, meydanlar ticarət məqsədilə də istifadə olunurdu. Bazar meydanları da icarəyə verilirdi. İcarədar ticarət edənlərdən həm pul, həm də natural şəkildə vergi alırdı (499, 877-878).

Ticarət mallarının daşınmasında müxtəlif nəqliyyat vasitələrindən istifadə edilirdi. Belə nəqliyyat vasitələrindən dəvə, at, ulaq və kəl arabasını qeyd etmək olar. Bu nəqliyyat vasitələrində daşınan yükün miqdarı bir-birindən fərqlənirdi. Məsələn, bir dəvə yükü 60 batmana, at yükü 40 batmana, kəl yükü 37, 5 batmana, ulaq yükü isə 25 batmana bərabər hesab olunurdu (260, 285-286).

**Pul, çəki və ölçü vahidləri.** İrəvan bölgəsində ticarət əməliyyatlarının gedişində müxtəlif pul, çəki və ölçü vahidlərindən istifadə olunurdu. Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvanda da pul kəsilməsi haqqında mənbələrdə məlumata rast gəlmək olur. Məşhur Osmanlı səyyahı Övliya Çələbi İrəvanda olarkən xan sarayının sol tərəfində pul kəsmək üçün xüsusi tikilinin olması haqqında məlumat vermişdi. Burada abbasi, bisti və tümən kəsilirdi (495, 155; 167, 51). İrəvan tüməni xanlıq dövründə ən çox işlədilən pullardan hesab olunurdu (27, 97). Digər məlumatda isə İrəvanda qarapul adlanan mis pulların kəsilməsi qeyd olunur. Dörd qarapul 7 rus mis qəpiyinə bərabər idi (260, 288).

İrəvan hakimləri pul kəsən zərbxanaları icarəyə verirdilər. İcarədarlar elə keyfiyyətli pul kəsirdilər ki, bu pullar xarici pullardan üstün idi (167, 51; 499, 888-889). Şəhərdə ticarət tədavülündə istifadə olunan pulları dəyişdirən 20 pulxırdalayan (mübadilə) məntəqə fəaliyyət göstərirdi (499, 851). Bazarlarda yerli pul vahidləri ilə yanaşı İran, Osmanlı, Rusiya dövlətlərində və Azərbaycan xanlıqlarında kəsilmiş pullara da rast gəlinirdi. Bu pul vahidləri qızıl, gümüş və misdən ibarət idi. İrəvan bazarında ticarət əməliyyatlarında tümən, sahibqran və yaxud minaltun, pənabad, qarapul, şahı, bisti, real, Rusiya imperialı, Hollandiya çervonu, Osmanlı darülxliafı və mahmudi; **gümüş pullardan** rus rublu, gürcü abba-

sısı, üç növdə Osmanlı kuruşu, para və rus qroşu işlədilirdi (499, 888-890; 260, 287-288). Lakin sonralar alqı-satqının aparılmasında işlədilən əski pul vahıdləri aradan qalxdı. Məlumata görə, artıq XIX yüzilliyin 50-ci illərin əvvəllərində işğal olunmuş digər Azərbaycan ərazilərində olduğu kimi, irəvanlılar da alqı-satqını yalnız rus qızıl və gümüş pullarla aparırdılar (217, 451). (bax, səh.430).

İrəvan bölgəsində müxtəlif pul vahidi işlədildiyi kimi, müxtəlif çəki və uzunluq vahidlərindən də istifadə edilirdi. Rusiya işğalından qabaq işlədilən çəki vahidlərindən xalvar, batman, stil, pud, misqal, litr, lider, somar, taçkir, kod və s. qeyd etmək olar (499, 886; 260, 286-287).

Bazarlarda hər hansı bir ticarət malını çəkmək üçün «ə**ttar» və «mizan»** adlandırılan tərəzilərdən istifadə olunurdu. Əttarın hərfi mənası müxtəlif kiçik baqqal malları, ətriyyat və dava-dərmanlarla ticarət edən şəxs deməkdir. Amma İrəvanda həm də kiçik əl tərəziləri əttar adlandırılırdı (94, 140). Mizan ərəb dilində çəki, ağırlıq deməkdir. Onlar ağır tərəzilər idi. Mizan tərəzilərini xan tərəfindən təyin olunmuş mizandar idarə edirdi. Bu tərəzilərdə ipək və xaricdən gətirilmiş mallar çəkilirdi (499, 886; 31, 123-124). Tərəzi daşları da icarəyə verilirdi. Bundan xəzinəyə xeyli miqdarda gəlir gəlirdi. Məsələn, Osmanlı hakimiyyəti dövründə İrəvan bölgəsində mizandan xəzinəyə 420.000 axça gəlir götürülmüşdü (38, 35).

Bütün bölgədə eyni çəki ölçüsünü saxlamaq üçün İrəvan bazarında xüsusi tərəzilər yerləşdirilmişdi. İ.Şopen yazır ki, yerli əhali ərzaq alarkən, aldanmamaq üçün, onun çəkisini yoxlamaq məqsədilə aldıqlarını mizan-əttar tərəzisində çəkdirirdilər. Lakin bu, havayı başa gəlmirdi. Malın növündən asılı olaraq buna görə icarədara müxtəlif pul ödənilirdi. Bu haqq belə müəyyənləşdirilmişdi: 1 batman ipəyə görə-45 gümüş qəpik; 1 batman indiqoya (tünd sürməyi rəng) görə-45 gümüş qəpik; çəkmək üçün gətirilən hər hansı maldan-2 gümüş qəpik; 1 batman pambıq, yağ, bal, mum, tütündən-1gümüş qəpik; ölçüsünə baxmayaraq qabdan-1 gümüş

qəpik; 1 batman yun, noxud, mərci, paxla, meyvə, badam, qozdan-1 gümüş qəpik alınırdı (499, 886-887).

Rusiya işğalından sonar bu sahədə də bəzi çəki vahidləri aradan qalxdı. XIX yüzilliyin 50-ci illərin məlumatına görə irəvanlılar yalnız rus çəki daşları ilə bərabər batman və stildən istifadə edirdilər (217, 451) (bax, səh.441).

İrəvanda xan arşını, xalvar, somar, taçkir, batman və ağac kimi uzunluq vahidləri olmuşdu (499, 887-888; 260, 286-287). Xalvar, somar və batman əsasən əkin sahələrinin, arşın müxtəlif parçaların, ağac isə uzaq məsafələrin ölçüsündə istifadə edilirdi (499, 888). XIX yüzilliyin 50-ci illərin əvvəllərində müxtəlif parçaların ölmülməsində rus arşını ilə bərabər xan arşını adlanan ədlidən də istifadə edilirdi. Yeddi ədli on rus arşınına bərabər idi. Torpaq sahəsinin ölçülməsində isə xalvar uzunluq vahidi əvvəlki kimi öz əhəmiyyətini saxlayırdı (217, 451).

Beləliklə, XVII yüzilliyin sonu – XIX yüzilliyin ortalarında Azərbaycanın ayrılmaz tərkib hissəsi olan İrəvan bölgəsinin iqtisadi həyatında köklü dəyişikliklər olmamışdı. Bəhs etdiyimiz dövr çərçivəsində siyasi vəziyyətlə əlaqədar olaraq iqtisadiyyatında müəyyən geriləmələr olsa da, İrəvan bölgəsi əlverişli coğrafi şəraitdə yerləşməsi, rəngarəng iqlimə, heyvanat aləminə, məhsuldar torpaqlara və zəngin təbii sərvətlərə malik olması ilə Azərbaycanın iqtisadi cəhətdən inkişaf etmiş bölgələrindən biri olaraq qalmışdı.

# VIII FƏSİL

# İRƏVAN BÖLGƏSİNİN ƏHALİSİ (XVII YÜZİLLİYİN SONU-XIX YÜZİLLİYİN ORTALARINDA)

## 8.1. Əhalinin say və etnik tərkibi

Haqqında danışdığımız tarixi dövrdə İrəvan bölgəsinin əhalisi etnik baxımdan yekcins deyildi, burada Azərbaycan türkləri, ermənilər, maldarlıqla məşğul olan kürdlər və qaraçılar yaşayırdı. Bölgə əhalisinin böyük əksəriyyətini, əvvəllər də olduğu kimi, Azərbaycan türkləri təşkil edirdilər. Lakin bəhs etdiyimiz dövr ərzində siyasi vəziyyətlə bağlı olaraq İrəvan bölgəsinin əhalisinin say dinamikası və etnik tərkibi haqqında məlumatların kasadlığı məsələnin obyektiv araşdırılmasında müəyyən çətinliklər yaradır. Buna baxmayaraq, əldə etdiyimiz qaynaqlar əsasında bölgə əhalisinin say və etnik tərkibini müəyyən etməyə çalışacayıq. Qeyd etmək lazımdır ki, İrəvan bölgə əhalisinin say və etnik tərkibinin təkamülünü bəhs etdiyimiz dövr çərçivəsində üç ayrı-ayrı mərhələyə bölməklə öyrənmək olar: 1. XVII yüzilliyin sonu – XVIII yüzilliyin birinci yarısı əhalinin say və etnik tərkibi; 2. Müstəqil xanlıq dövrü əhalisinin say və etnik tərkibi; 3. 1830-1850-ci illər əhalinin say və etnik tərkibi.

İlk növbədə İrəvan bölgəsinin əhali ilə bağlı XVII yüzilliyin sonu-XVIII yüzilliyin birinci dövrünə aid məlumatları nəzərdən keçirək. Bu dövrə aid əlimizdə olan yeganə mənbə 1728-ci ildə Osmanlı dövləti tərəfindən tərtib edilmiş “İrəvan əyalətinin icmal dəftəri”dir. Lakin istər əhalini vergiyə cəlb etmək üçün Səfəvi şahı şah I Sultan Hüseynin (1694-1722) fərmanı ilə 1699-1702-ci illərdə

həyata keçirilmiş siyahıyaalma, istərsə də Nadir şahın göstərişi ilə həyata keçirilmiş siyahıyaalma məlum olsa da, bu sənədlər indiyədək üzə çıxmamışdır. Səfəvilər dövlətinə aid mənbə hesab olunan “Təzkirət-əl-mülk” əsərində isə əhalinin sayı və etnik tərkibi haqqında məlumatlara rast gəlmədik. Bu səbəbdən, 1828-ci ildə tərtib edilmiş “İrəvan əyalətinin icmal dəftəri”ni XVIII yüzilliyin birinci qərinəsinə aid ilkin mənbə kimi qəbul etmək olar. Həmin qaynaqda, məskunlaşmış şəhər və kəndlərin əhalisinin say və etnik tərkibi göstərilmişdi. Statistik məlumata görə, İrəvan əyalətinə daxil olan 17 nahiyə və livasda əhalinin 43.784 nəfərini (61, 2 %) Azərbaycan türkləri, 27.799 nəfərini (38, 8%) isə xristianlar təşkil etmişdi. Şəhər əhalisi isə bütün əyalət əhalisinin 4, 7%-i təşkil etmişdi. Onlardan 428-i Azərbaycan türkü, 224-ü xristian ailəsi, 9 nəfər isə subay xristian olmuşdu. (38, 18-19). Hər ailə 5 nəfərdən hesablansa, İrəvan şəhər əhalisi 3269 nəfər edir. Beləliklə, şəhər əhalisini ümumi hesaba daxil etsək bu diyarda-bütün əyalətdə təxminən 74.852 nəfər qeydə alınmışdı.

Lakin “İrəvan əyalətinin icmal dəftəri” də əhalinin say və etnik tərkibinin gerçək mənzərəsini əks etdirmir. Çünki XVIII yüzilliyin əvvəllərindən İrəvan əhalisi, əsasən də Azərbaycan türkləri böyük itkilərə məruz qalmışdı. Belə ki, I şah Sultan Hüseyn (1694-1722) Mahmudi kürdlərinin vaxtaşırı hücumlarına son qoymaq və yerli hakimin mövqeyini möhkəmləndirmək məqsədilə İrəvan ətrafında yaşayan Azərbaycan türklərindən ibarət 300 Bayat ailəsini 1706-cı ildə Makuya köçürmüşdü (27, 25). Tarixi ədəbiyyatda qəbul olunmuş ənənəyə əsasən hər ailəni beş nəfərdən hesablasaq, İrəvan əyaləti təxminən 1500 nəfərdən ibarət əhalisini itirmişdi.

1724-cü ilin yayında Osmanlı dövləti Azərbaycana müdaxilə edərkən İrəvan şəhəri və onun ətraf kəndləri güclü dağıntılara məruz qalmış, çoxlu insan tələfatı olmuşdu. Bundan əlavə, Osmanlı üsul-idarəsi ilə barışmayan əhalinin xeyli hissəsi vətənlərini tərk edərək Səfəvi dövlətinin hakimiyyəti altında olan digər ərazilərə köçmüşdülər (493, 106-109; 492, 12; 87, 8-17). Bu yürüşdən ən çox əziyyət çəkənlər məhz Azərbaycan türkləri olmuşdu. “İcmal

dəftəri”inə istinadən İrəvan əhalisindən bəhs edən H.Məmmədov haqlı olaraq yazırdı ki, “...osmanlılar İrəvan şəhərinə hərəkət edərkən seçdikləri əsas hədəf şiələr olduğu üçün qətlə yetirilənlərin çoxunun müsəlman olması şübhə doğurmur” (38, 18). Əyalətdə yaşayan erməni əhalisi isə bu yürüşdən daha az əziyyət çəkmişdi. Belə ki, Osmanlı qoşunu İrəvan əyalətinə daxil olarkən erməni nümayəndələri katolikosun başçılığı ilə baş komandanla görüşmüş və nəticədə onlara aman verilmişdi. Buna görə də, İrəvan şəhəri işğal olunarkən sultan III Əhmədin fərmanına əsasən, ermənilərin dini mərkəzi “Üçmüəzzin kilsəsinə və onun ətraf kəndlərində yaşayan erməni əhalisinə toxunulmamışdı (83, 7; 492, 12).

XVIII yüzilliyin 30-cu illərində baş verən siyasi hadisələr Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsi əhalisinin say tərkibinə də mənfi təsir göstərmişdi. Məsələn, məşhur sərkərdə Nadir xan 1735-ci ilin sentyabrında İrəvanı Osmanlı hakimiyyətindən geri alarkən, bölgə xeyli insan itkisinə məruz qalmışdı. Bundan əlavə, Nadir şah seçildikdən sonra onun göstərişi ilə bölgədən 300 ailə Xorasana köçürülmüşdü (472, 7; 492, 146). Əgər İrəvan bölgəsinin strateji mövqeyini və əhalinin əksəriyyətinin Nadir şaha müxalif Qacar tayfasına məxsus olmasını nəzərə alsaq, onda köçürülənlərin bu soya məxsus olmasını ehtimal etmək olar. Lakin bu hadisələrdə də, bölgədə yaşayan erməni əhalisi itkilərdən qaça bilmişdi. Katolikos A.Kretasinin Nadir şahla mehriban münasibət yaratması onları xilas etmişdi. Köçürmə siyasəti yeritməklə Nadir şah bölgələrdə özünə müxalif qüvvələri nəzarət altında saxlamaq məqsədi güdürdü. Digər tərəfdən, Nadir şahın ölkədə apardığı inzibati-ərazi islahatı da ərazi itkisi ilə bərabər, əhali itkisinə də səbəb olmuşdu (238, 249). XVIII yüzilliyin 40-cı illərində bölgədə baş verən hadisələr də Azərbaycan əhalisinə, eyni zamanda İrəvan əhalisinin sayına da mənfi təsir göstərmişdi (8, 45-46; 35, 25).

XVIII yüzilliyin birinci yarsına nisbətən İrəvan xanlığının əhalisinin say və etnik tərkibi haqqında qaynaqlarda və tarixi ədəbiyyatlarda bir sıra statistik məlumatlara rast gəlmək olar. Həmin statistik məlumatlara görə, xanlıq əhalisinin etnik cəhətdən

əksəriyyətini Azərbaycan türkləri təşkil etmişdi. Lakin bəhs etdiyimiz dövrdə əhalinin say və etnik məsələlərinə toxunan erməni müəllifləri məqsədli və birmənalı olaraq qərəzli mövqe nümayiş etdirmişdilər və etdirməkdədirlər. Məsələn, İrəvan xanlığının tarixini araşdırmağa cəhd göstərən V.R.Qriqoryan yazırdı ki, "xanlıq əhalisinin əksəriyyətini ermənilər təşkil etmişdilər. Onlardan başqa azərbaycanlılar, kürdlər, türklər və farslar da yaşamışdılar" (161, 37). Digər erməni tədqiqatçısı T.X.Akopyan bu fikri təsdiqləyərək qeyd edirdi ki, "İrəvan əhalisinin əksəriyyətini ermənilər təşkil etmiş və burada yaşayan farslar və türklərin isə başqa ərazilərdən köçürülmə nəticəsində sayı artırılmışdı" (80, 79-80).

Lakin qaynaq və tarixi ədəbiyyatda erməni müəlliflərinin fikrini alt-üst edən qiymətli məlumatlar çoxdur. Bu məlumatları iki yerə bölmək olar. Bəzi məlumatlarda İrəvan bölgəsinin əhalisi haqqında konkret rəqəmlər göstərilməsə də, etnik baxımdan hansı xalqın üstünlük təşkil etməsini sübut edən faktlara rast gəlmək mümkündür. Məsələn, 1770-1773-cü illərdə Qafqazda səyahətdə olmuş İ.A.Güldenşteyn özünün səyahətnaməsində yazırdı ki, "Qazax, Borçalı, Baydar dairələrində Gəncə, İrəvan, Ərzurum, Qars və həmçinin Şirvan və Şamaxıda olduğu kimi Osmanlı türkcəsində və yaxud Azərbaycan türkcəsində danışırlar" (154, 171). Səyyah daha sonra İrəvan bölgəsinin əhalisinə toxunaraq qeyd edir ki, onun əhalisi Azərbaycan türklərindən ibarətdir (154, 171). 1784-cü il iyulun 10-da Ahalsıx hakimi Süleyman paşa İrəvan başçılarına göndərdiyi məktubda İrəvan əhalisini yerli türklər adlandırmışdı (250, 198). İrəvan xanlığını erməni dövləti kimi qələmə vermək istəyən erməni din xadimləri də burada ermənilərin azlıq təşkil etdiyini gizlədə bilməmişdilər. Arxiyepiskop Arqutinski P.S.Potyomkinə yazdığı məktubunda İrəvan bölgəsində çox az erməninin yaşadığını etiraf etməli olmuşdu (204, 44). İngiltərənin məşhur siyasi xadimi və tarixçisi Malkholm öz əsərində XVIII yüzilliyin sonu-XIX yüzilliyin əvvəllərində bütün keçmiş Səfəvilər dövlətində (yalnız İrəvan xanlığında deyil – E. Q.) cəmi 12.383 nəfər erməni əhalisinin yaşadığını göstərmişdi (499, 539). Məşhur Azərbaycan səyyahı H.Z.Şirvanlı "Bustan-üs-səyahə" əsərində

yazırdı ki, "o (İrəvan – E. Q.), Arran mülkündədir. Azərbaycana məxsusdur... Əhalisi türkdilli və şiə məzhəbindədir. Azacıq isəvi (xristian – E. Q.) də vardır..." (65, 124).

İrəvanın işğalında böyük rol oynamış rus hərbiçiləri də bölgə əhalisinin etnik tərkibi baxımdan Azərbaycan türklərinin çoxluq təşkil etdiyini etiraf etmişdilər. 1828-ci il aprelin 2-də qraf Paskeviç baş qərargah rəisi qraf Dibiçə ünvanladığı məlumatda xanlıq əhalisinin 3/4 hissəsinin müsəlmanlar təşkil etdiyini bildirmişdi (282, 488-491). Daha sonra o, 1828-ci il noyabrın 16-da Rusiya xarici dinlər idarəsinin rəisi Bludova yazdığı başqa bir gizli məlumatda İrəvan xanlığı əhalisinin 2/3 hissəsinin Azərbaycan türklərinin olduğunu qeyd etmişdi (278, 259-260). Rus hərb tarixçisi N.Dubrovin də "bütün İrəvan xanlığında əhali arasında Azərbaycan türklərinin çoxluq təşkil etdiyini" təsdiq edirdi (181, 326). M.Vladıkin ermənilərin İrəvan bölgəsində yalnız köçürülmə nəticəsində çoxaldığını etiraf edərək yazırdı ki, "İrəvan quberniyasında məskunlaşan ermənilərin əksər hissəsi buranın qədim sakinləri deyildir. Onlar 1828-1829-cu illər müharibəsindən sonra bura köşürülmüşdü" (111, 17). Daha sonra müəllif fikirini "Erməni vilayəti"nin əhalisi 1827-1829-cu illər müharibəsindən sonra İran və Türkiyədən çıxmış ermənilərlə artırılmışdı" cümləsi ilə təsdiq edir (111, 333).

İşğaldan sonra ermənilərin kütləvi surətdə İrəvana və Azərbaycanın digər ərazilərinə köçürülməsi və yerləşdirilməsi İrəvanın demoqrafik durumuna güclü təsir göstərmişdi. Düzdür, köçürmə məsələsinin tədqiqi bizim monaqrafiyamızın məqsədinə aid olmasa da, bu məsələ ilə bağlı bəzi müəlliflərin fikirlərinə nəzər salmaqla bölgədə say və etnik baxımdan ermənilərin azlıq təşkil etdiyini təsəvvür etmək yerinə düşərdi. S.Qlinka yazırdı: "Müharibə qurtardıqdan sonra İrandan (Qacar dövlətindən – E. Q.) ermənilərin kütləvi köçürülməsinə başlandı" (155, 45). V.L.Veliçko "Qafqaz" əsərində Rusiyanın hər dəfə şərq dövlətləri ilə müharibələri zamanı ermənilərin sayının daha da çoxaldığını etiraf etmişdi (109, 84). N.N.Şavrov isə köçürmə məsələsinin Cənubi Qafqazda demoqrafik vəziyyətə təsirini təsvir etməklə yanaşı, konkret rəqəmlər göstərir.

O, yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətinə Cənubi Qafqazda rus əhalisinin deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... Sonra 1826-1828-ci illər müharibəsindən keçən iki il ərzində, 1828-ci ildən 1830-cu ilə kimi biz Cənubi Qafqaza İrandan 40 mindən çox, Türkiyədən isə 84 min erməni köçürmüş və onları erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında... yerləşdirmişik. Bu məqsədlə onlara 200000 desyatindən çox xəzinə torpağı ayrılmış, müsəlmanlardan 2000000 rubldan çox xüsusi sahibkar torpağı satın alınmışdı. Yelzavetpol quberniyasının dağlıq hissəsi (Qarabağ – E. Q.) və Göyçə gölünün sahili həmin ermənilər tərəfindən məskunlaşdırıldı. Qeyd etmək lazımdır ki, köçürülən ermənilərin sayı rəsmən 124000 nəfər olsa da, qeyri-rəsmi köçənlərlə birlikdə köçüb gələnlərin ümumi sayı 200000-i ötüb keçmişdi... Beləliklə, indi (XX yüzilliyin başlanğıcında – E. Q.) cənubi Qafqazda yaşayan 1300000 erməninin 1000000-dan çoxu diyarın köklü sakinləri olmayıb, bizim tərəfimizdən (burada) məskunlaşdırılmışdı" (496, 63-64). Əslən erməni olan ABŞ alimi D.Bornotyan da İrəvan ərazisində çox az erməninin yaşadığını etiraf edir. O, qeyd edirdi ki, "İrəvan xanlığında ermənilər nəinki əhalinin əksəriyyətini təşkil etmirdi, hətta müsəlmanlarla eyni sayda deyildi" (505, 125). Qeyd edilən bütün bu məlumatlar konkret statistik rəqəmlərə söykənməsə də, açıq-aydın görmək olar ki, İrəvan bölgə əhalisinin çox böyük əksəriyyəti Azərbaycan türklərindən ibarət olmuş, əhalinin çox cüzi hissəsini təşkil edən ermənilərin sayı isə köçürülmə nəticəsində çoxaldılmışdı.

İndi isə konkret statistik rəqəmləri nəzərdən keçirək: XVIII yüzilliyin 80-ci illərində Rusiya dövlətinin Kartli-Kaxetiya sarayındakı səlahiyyətli nümayəndəsi S.D.Burnaşov İrəvan xanlığında 3.000 xristian ailəsinin yaşadığını qeyd etmişdi (105, 19). Təəssüf olsun ki, müəllif Azərbaycan türklərinin sayı haqqında heç nə yazmır. Lakin bu məlumata əsasən, müəyyən təhlil aparmaq olar. Əvvala, göstərilən rəqəm əhalinin say tətkibinin cüzi hissəsini təşkil edir. Qafqazşünas S.Bronevski XIX yüzilliyin əvvəllərində İrəvan xanlığında 18.000 ailənin yaşaması haqqında məlumat vermişdi

(104, 60). Əgər hər bir ailə beş nəfərdən hesablansa, xanlıq əhalisinin təxminən 90 min nəfərdən ibarət olduğunu qeyd etmək olar. Digər qafqazşünas P.Butkovun verdiyi məlumat isə daha çox maraq doğurur. O, Azərbaycanda yaşayan erməni əhalisinin sayına toxunarkən təkcə İrəvan xanlığında 3000 nəfər ermənininin yaşadığını göstərmişdi (107, c.2, səh, 143). 1813-cü ildə İrəvanda olmuş Qacar dövlətindəki ingilis səfirliyinin katibi Moryerin yazdıgına görə, İrəvan xanlığı 100 minlik əhalidən ibarət olmuş, onun 18.700 nəfərini 15 yaşından 50 yaşına qədər olan kişilər təşkil etmişdi (499, 542). İkinci Rusiya-Qacar müharibəsinin iştirakçısı M.E.Kotsebuya görə, 1826-cı ildə İrəvan xanlığında 15.800 ailə yaşamışdı. Bunlardan 12.000 ailə Azərbaycan türklərinə, 3.800 ailə isə ermənilərə məxsus idi (236, 26). Baş komandan, İrəvanın işğalını başa çatdırmış Paskeviç mərkəzə göndərdiyi məlumatda İrəvan xanlığında 10.000 Azərbaycan türk ailəsinin, 3.000 erməni ailəsinin yaşadığını qeyd etmişdi (197, 205). Digər məlumata görə, işğaldan qabaq İrəvan xanlığında 16.384 ailə və yaxud 81920 nəfər əhali yaşamışdı (499, 540-541).

Azərbaycan tarixçisi M.Vəlili (Baharlı) də öz əsərlərindən birində İrəvan xanlığında yaşamış əhalinin sayına toxunmuşdı. Onun hesablamalarına görə, işğaldan əvvəl İrəvan xanlığında əhalinin sayı 115.000 nəfər olmuşdu (69, 23). Erməni tarixçisi V.A.Parsamyan etiraf edir ki, "Rusiyaya birləşdiriləndə qədər Ermənistanın şərq hissəsində (İrəvan və Naxçıvan xanlıqlarında – E. Q.) əhalinin sayı 169.000 nəfər olmuş, bunlardan 34%-ni erməni, 50%-i Azərbaycan türkləri, 16%-i isə kürdlər təşkil etmişdi" (292, 12).

Rusiya işğalından sonra XIX yüzilliyin ortalarına qədər İrəvan bölgəsində bir neçə dəfə siyahıyaalınma keçirilmişdi. Qeyd etmək lazımdır ki, Türkmənçay müqaviləsindən az sonra-1828-ci il martın 21-də çarın verdiyi fərmanla Naxçıvan və İrəvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradılmışdı. Bundan azacıq sonra Rusiya hakimiyyət orqanları bölgədə siyahıyaalınma keçirilməsini qərara almışdı. 1829-1832-ci illərdə həyata keçirilən kameral siyahıyaalınmaya görə, keçmiş İrəvan xanlığında 14205 ailə yaşayırdı. Bunlardan etnik tərkibinə görə 9746-sı Azərbaycan türk

ailəsi (və yaxud 53409 nəfər), 3452-i erməni ailəsi (və yaxud 19878 nəfər), 847-i kürd ailəsi (və yaxud 4217 nəfər), 60-ı qaraçı ailəsi (və yaxud 257 nəfər) idi. Ümumiyyətlə, bütün xanlığın əhalisi 77761 nəfərdən ibarət olmuşdu (499, 631-634).

İrəvan xanlığının əhalisinin say və etnik tərkibi haqqında olan bu məlumatlar heç də tarixi gerçəkliyi tam əks etdirmir. Bunun bir neçə səbəbi vardı. Əvvəla, bu statistik rəqəmlərə vaxtı ilə xanlıqdan qoparılmış Şörəyel və Pəmbək mahallarının əhalisi daxil edilməmişdi. Hər iki mahal 1779-cu ildən sonra Kartli-Kaxetiya çarlığının nüfuz dairəsinə düşmüş, XIX yüzilliyin əvvəllərində isə Rusiyaya ilhaq edilmişdi. Sərhəddə yerləşən hər iki mahalda Rusiyanın mühüm hərbi bazaları yerləşdirilmişdi. Bu ərazilər hərbi əməliyyatların getdiyi əsas yerlərdən idi. Ona görə də rus komandanlığı hər vasitə ilə burada onlara casusluq edən erməni əhalisinin sayını çoxaltmağa çalışmışdı. Bu səbəblərdən Şörəyel və Pəmbək əhalisinin sayı tez-tez dəyişirdi. Statistik məlumata görə, 1804-cü ildə Pəmbəkdə 2832 kişi cinsindən olan əhali qeydə alınmışdı. Bunlardan 1529-u Azərbaycan türkü, 926-sı yerli erməni, 377-i isə gəlmə erməni idi (272, 228; 398, 422). 1826-cı il hesablanmasına görə isə mahalın 22 kəndində 208 Azərbaycan türkü, 547 erməni həyəti qalmışdı (221, 21). Şörəyel mahalında da vəziyyət eyni cür idi. XVIII yüzilliyin birinci yarısında Nadir şahın hakimiyyəti dövrünə aid qaynaqlara görə, Şörəyel mahalında 109 kənd qeydə alınmışdı. Bu kəndlərin hamısında Azərbaycan türkləri yaşamışdı (220, 43). 1805-ci il məlumatına görə, Budaq sultanın hakimiyyəti altında 524 ailə, yaxud 2773 nəfərin yaşadığı göstərilir (397, 274). Müharibələrlə əlaqədar olaraq, 1809-cu ildə burada 250 ev qalmışdı (388, 484). Gülüstan müqaviləsi bağlandıqdan sonra Şörəyeldə ailələrin sayı yenidən çoxalaraq 1000-ə çatmışdı. 1826-cı ildə Şörəyelin 16 kəndində 176 Azərbaycan türk, 529 erməni ailəsi yaşamışdı. Lakin bu rəqəm də sonuncu deyildi. 1826-1828-ci illərdə baş vermiş müharibə dövründə burada ailələrin sayı kəskin surətdə aşağı düşərək 200-ə qədər azalmışdı. Göstərilən rəqəmlərdən də görmək olar ki, vaxtilə Azərbaycan türklərindən ibarət olan mahal Rusiya nəzarətinə keçdikdən sonra ermənilərlə doldurulmuşdu. Artıq 1830-

cu ildə Şörəyeldə erməni kəndlərinin sayı 10-a çatmışdı. 1829-cu il sentyabrın 2-də Ədirnədə bağlanmış müqavilədən sonra buraya Osmanlı ərazisindən də çoxlu erməni köçürülmüşdü (248, 4).

Əgər Şörəyel və Pəmbək mahallarında XIX yüzilliyin əvvəllərinə aid əhalinin say tərkibini götürsək, ümumilikdə xanlıq əhalisi ən azı 5605 nəfər azalmışdı. Digər tərəfdən, siyahıyaalma keçirilərkən İrəvan bölgəsində kütləvi xəstəlik olan taun və vəba xəstəlikləri də xeyli insan məhv etmişdi. Bütünlüklə dağılan bir sıra kəndlər bu kütləvi epidemiyaların qurbanı olmuşdu. Hətta siyahıyaalmanı aparan heyət "səhər yuxudan durarkən düşərgənin ətrafında çoxlu meyidlərin olduğunu" qeydə almışdır (499, 1-2). Ümumiyyətlə, İrəvan bölgəsində bəhs etdiyimiz dövr ərzində bir neçə dəfə epidemiyalar baş vermişdi. Məsələn, 1833-cü ildə vəba, 1840-1841-ci illərdə taun, 1847-ci ildə yenə vəba xəstəliyi xeyli insan öldürmüşdü (204, 94).

Bütün bunlara baxmayaraq, 1829-1832-ci illər siyahıyaalınmasına görə, İrəvan xanlığında nə qədər əhalinin yaşadığını təqribi hesablamaq olar. Qeyd etmək lazımdır ki, əgər XIX yüzilliyin əvvəllərindən başlayan Rusiya-Qacar müharibələri zamanı əhalinin xanlıqdan didərgin düşməsini nəzərə alsaq, onda siyahıyaalmada yerli əhalinin say dinamikası və etnik mənzərəsinin düzgün əks etdirilmədiyi qənaitinə gəlmək olar. Hərbi əməliyyatlar və xəstəliklər nəticəsində əhalinin bir hissəsi qırılmış, bir hissəsi isə yaşayış yerlərini tərk edərək qonşu dövlətlərə və xanlıqlara köçmüşdü. Müharibələrdən müsəlman əhalisi, xüsusilə, Azərbaycan türkləri xeyli əziyyət çəkmişdi. Erməni əsilli ABŞ tarixçisi D.Bornotyan əsərində göstərir ki, Rusiya işğalından sonra 25000 müsəlman İrəvan xanlığını tərk edərək qonşu dövlətlərə qaçmışdı (150, 125). Onun verdiyi bu məlumat əhəmiyyətli olsa da, bizə elə gəlir ki, xanlığın müsəlman əhalisinin itkisi daha çox olmuşdu. 1829-1832-ci illərdə tərtib edilmiş kameral təsviri nəzərdən keçirsək bunun şahidi oluruq. Məsələn, siyahıyaalınmada tamamilə dağıdılmış 310 və yerli əhalinin tərk etdiyi 142 boş kənd göstərilmişdi. Kameral siyahıyaalınmada diqqəti cəlb edən kəndlərin böyük əksəriyyətində 1, 2, 3 və s. ailə qeydə alınmışdı. Nəticədə, İrəvan

xanlığına məxsus 831 kənddən Azərbaycan türklərinin yaşadığı 462 kənd qeydə alınmamışdı. Əgər orta hesabla hər kənddə 20 ailənin və yaxud 100 nəfərin yaşadığını nəzərə alsaq, bu 46200 nəfər oturaq əhali edir (bunlar, ən aşağı, ən az rəqəmlər hesab olunmalıdır – E. Q.). Bundan əlavə, maldarlıqla məşğul olaraq yaylaq-qışlaq həyatı keçirən 2132 elat ailəsi və yaxud 10685 nəfər İrəvan xanlığını tərk etmişdi. Kameral siyahıyaalınmada göstərilən bu itkiləri nəzərə alsaq, müharibələrlə və kütləvi xəstəliklərlə əlaqədar olaraq ölən və qonşu dövlətlərə emiqrasiya edən İrəvan bölgəsinin əhalisinin sayı təxminən 57 min nəfərdən ibarət olmuşdu.

Beləliklə, 1829-1832-ci illərdə həyata keçirilmiş kameral siyahıyaalınmanın təhlilindən belə nəticəyə gəlmək olar ki, Rusiya-Qacar müharibələrindən əvvəl İrəvan xanlığının əhalisi təxminən 22964 ailə və yaxud 134646 nəfərdən ibarət olmuşdu. Bunlardan 16438 Azərbaycan türk ailəsi (99.609 nəfər), 3452 erməni ailəsi (19878 nəfər), 2984 kürd ailəsi (14902 nəfər), 60 qaraçı ailəsi (257 nəfər) idi. Lakin bu hesablamaya Şörəyel və Pəmbək əhalisi daxil deyildi.

Qeyd etmək lazımdır ki, tərtib edilmiş siyahıyaalınmada xanlıqda əhalinin böyük əksəriyyətini təşkil edən Azərbaycan türkləri "müsəlman" adı altında göstərilmişdi. Müsəlmanlar əsasən Azərbaycan türklərindən və kürdlərdən ibarət olmuşdu. Qaynaqda müsəlmanlar müxtəlif tayfa və cəmiyyətlər adı şəklində öz əksini tapmışdı. Azərbaycan türkləri qacar, bayat, qazax, qarapapaq, ayrum və başqaları olmaqla 18, kürdlər isə 14 ayrı-ayrı tayfa adında qeyd olunmuşdu (499, 526-536). İrəvan əhalisinin əksəriyyəti əsasən qacarlar təşkil etmişdi. A.Bakıxanov yazırdı: "İrəvan... əhalisi və əmirlərin çoxu qacar nəslindən olduğu üçün... dağıstanlılar bu ərazinin sakinlərinə indi də qacar deyirlər" (97, 173). R.İsmayılov "Azərbaycan tarixi" əsərində bu faktı təsdiqləyərək qeyd edir ki, "Dağıstan ləzgiləri... İrəvan... əhalisini indiyədək "Qacar" deyə adlandırırlar (41, 73). Kürdlərin hamısı, Azərbaycan türklərinin bir hissəsi yaylaq-qışlaq xarakterli maldarlıqla məşğul olurdu.

İrəvan bölgəsinin əhalisinin say və etnik tərkibi ilə bağlı qaynaqlarda göstərilən rəqəmləri gərgin siyasi vəziyyətlə və təbii fəlakətlə bağlı olaraq obyektiv təhlil etmək qeyri – mümkündür. Ona görə ki, İrəvan bölgəsi ya ərazi itkisinə məruz qalmış, əhalisi müharibələrlə və təbii fəlakətlə əlaqədar olaraq qırılmış, yaxud məcburən qonşu dövlətlərə köçmüşdü.

Rusiya işğalından sonra İrəvan bölgəsində əhalinin siyahıyaalınması sonralar da davam etdirilmişdi. 1834-cü il siyahıyaalınmasına görə, bütün bölgədə 22336 həyət və 65.300 nəfər qeydə alınmışdı. Bunlardan etnik tərkibinə görə, 29.690 nəfərini Azərbaycan türkləri, 10.350 nəfər yerli, 24.255 nəfər köçürülmə erməni, 1000 nəfərdən ibarət Bəyazid paşalığından gəlmiş kürdlər və cüzi hissəsini isə qaraçılar təşkil etmişdi (260, 365).

Lakin işğaldan sonra Rusiya hakim dairələri hər vasitə ilə digər xalqları buraya köçürməklə İrəvan bölgəsinin etnik mənzərəsini dəyişməyə çalışırdı. XIX yüzilliyin 40-cı illərində Urmiya bölgəsindən 100 aysor ailəsi İrəvan bölgəsinin vaxtilə Azərbaycan türklərinin yaşadığı Qalahasar kəndinə köçürülmüşdü (473, 284-302). Məlumata görə, 1832-ci ildən 1873-cü ilədək İrəvan bölgəsinə ermənilərdən əlavə 6710 nəfər yad əhali (bunlardan 4339 nəfər rus, 1250 nəfər aysor, 1090 nəfər yunan və 39 nəfər digər xalqların nümayəndələri) köçürülmüşdü (202, 93-94).

Göstərilən bu siyahıyaalınma da sonuncu deyildi. Belə ki, 1849-cu ilin məlumatına görə, İrəvan bölgəsində 11.594 Azərbaycan türk ailəsi (və yaxud 57970 nəfər) qeydə alınmışdı (234, 375).

Beləliklə, işğala qədər İrəvan bölgəsinin əhalisinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil etmişdi. Əhalinin cüzi hissəsini təşkil edən ermənilər isə yalnız çar Rusiyasının vasitəçiliyi ilə Qacar və Osmanlı dövlətlərindən köçürülməsi nəticəsində sonralar İrəvan bölgəsində çoxluğa nail olmuşdular.

**Şəhər və kənd əhalisi.** İrəvan bölgəsi əhalisinin böyük əksəriyyətini kənd əhalisi təşkil edirdi, əhalinin bir qismi isə şəhərdə məskunlaşmışdı. Azərbaycanın ən iri şəhərlərindən biri olan İrəvan şəhəri bölgədə ticarət mərkəzi olmaqla yanaşı, həm də əhalinin

sayına görə böyük şəhər hesab olunurdu. Oeyd etmək lazımdır ki, İrəvan şəhər əhalisinin say və etnik tərkibi müharibələrlə və təbii fəlakətlə əlaqədar olaraq bir neçə dəfə kəskin surətdə azalmışdı. Lakin əlverişli cografi mövqedə yerləşdiyinə görə onun əhalisi sonradan sürətlə artmışdı. Qaynaqların qənaətbəxş olmaması üzündən bütün bölgədə olduğu kimi, şəhər əhalisinin say və etnik tərkibini tam təsvir etmək mümkün deyil. XVIII yüzilliyin əvvəllərinə aid – 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"nə görə, İrəvan şəhərində 428 Azərbaycan türkü, 224 xristian ailəsi və 9 subay xristian qeydə alınmışdı. Şəhər əhalisi bütün əyalət əhalisinin 4, 7 % – ni təşkil edirdi (38, 18-19). Hər ailə 5 nəfərdən hesablanarsa, İrəvan şəhər əhalisi təxminən 3269 nəfərə bərabər idi. Şəhərdə yaşayan əhalinin 63, 5 %-ini Azərbaycan türkləri, 36, 5 %-ini isə xristianlar təşkil edirdi. H.Məmmədov erməni mənbələrinə əsaslanaraq qeyd edir ki, İrəvan şəhərində yaşamış xristian əhalisinin 14, 9%-i qaraçıların, 21, 6%-i isə ermənilərin payına düşürdü (38, 18). Lakin həmin erməni mənbələrinə diqqətlə baxsaq görmək olar ki, İrəvan şəhərində erməni əhalisi daha az olmuşdu. "Anonim erməni xronikası"nda İrəvan şəhərinin "Təpəbaşı məhəlləsi"ndə 100 xristian qaraçı ailəsinin yaşadığı göstərilmişdi (87, 12). Daha sonra həmin xronikada Osmanlı qoşununun İrəvanın "Dərəköy" (Dərəkənd – E. Q.) məhəlləsinə hücuma keçən zaman digər məhəllələrdə yaşayan qaraçılardan 300 nəfərin köməyə gəldiyini qeyd etmişdi (87, 13). Bu məlumatlardan İrəvan şəhər sakinlərindən olan xristianların cüzi hissəsinin erməni olması qənaitinə gəlmək olar. Bunu sübut edən mənbə də mövcuddur. Belə ki, İ.Ori 1701-ci il iyulun 25-də yazdığı məktubda İrəvan şəhərində yaşayan 300 ermənінin yalnız ticarətlə məşğul olduğunu göstərmişdi (88, 213). Beləliklə, erməni müəlliflərinin İrəvan şəhərində erməni əhalisinin üstünlük təşkil etməsi haqqında məlumatının heç bir elmi əsası yoxdur.

Kameral siyahıyaalınmanın keçirildiyi dövrü analiz etdikdə görmək olar ki, "İcmal dəftər"ində şəhər əhalinin sayı və etnik tərkibi gerçəkliyi əks etdirməmişdi. Qeyd etmək lazımdır ki, işğaldan sonrakı dövründə İrəvan şəhərinin əhalisi daha çox olmuşdu. Həmin

dövr üçün bu haqda qaynaqlarda məlumata rast gəlinmədiyi üçün XVII yüzillikdə burada olmuş səyyahların verdiyi məlumatı "İcmal dəftər"inin göstəriciləri ilə müqayisə etsək bunun şahidi olarıq. Məsələn, 1647-ci ildə Osmanlı səyyahı Övliya Çələbi səyahətnaməsində İrəvan şəhərində 2.060 evin olduğunu qeydə almışdı (495, 155). Hər evi təxmini beş nəfərdən hesablasaq, İrəvan şəhərində təxminən 10-11 min nəfərin yaşadığını görərik. Lakin bu hesaba İrəvan qalası daxil deyildi. 1673-cü ildə İrəvan şəhərində olmuş fransız səyyahı J.Şardən İrəvan qalasında 800 evin olmasını və burada yalnız Azərbaycan türklərinin yaşadığını yazırdı (214, 242). Hər evi beş nəfərdən hesablasaq elə təkcə İrəvan qalasında 4000 adam yaşamışdı. Beləliklə, dinclik dövründə qala ilə birlikdə İrəvan şəhərində təxminən 15.000-16000 nəfərədək adam yaşamışdı.

İrəvan şəhəri müstəqil İrəvan xanlığının mərkəzi olduqdan sonra əhalinin sayı daha da artmışdı. İngilis tarixçisi J.Peri yazır ki, Kərim xan Zəndin dövründə (1759-1779) İrəvan şəhərində əhalinin sayı 20.000 nəfərə çatırdı (146, 124). Sonrakı dövrlərdə İrəvan şəhəri tez-tez müdaxilələrə məruz qaldığından burada əhalinin sayı kəskin surətdə aşağı düşmüşdü. İ.Şopen yazır ki, işğaldan əvvəl şəhər əhalisinin sayı 2.400 ailədən və yaxud 12.000 nəfərdən ibarət olmuşdu (498, 540). Lakin işğal nəticəsində şəhər güclü dağıntıya məruz qaldığından burada 2374 ailə və yaxud 9700 adam qeydə alınmışdı. Bunlardan 1807-si Azərbaycan türkü, 521-i erməni və 46-sı isə qaraçı ailəsi idi. Bu ailələrdən 802-si İrəvan şəhərinin "Şəhər", 594-ü "Təpəbaşı", 411-i isə "Dəmirbulaq" məhəllələrində yaşayırdılar. Azərbaycan türklərinin sayı 7331 nəfərdən ibarət olmuşdu. Bunlardan 3749-u kişi, 3582-si qadın cinsinə məxsus olmuşdu. Erməni ailələrindən 244-ü "Şəhər", 277-i isə "Təpəbaşı" məhəllələrində qeydə alınmışdı. Bu ailələrin tərkibi 1119 kişidən, 1055-i isə qadından ibarət idi. İrəvan şəhərində sayı 195 nəfərdən ibarət olan 46-ı qaraçı ailəsi yalnız "Təpəbaşı" məhəlləsində yaşamışdı (499, 543-546). (bax. cədvəl 1.səh.458).

Rusiya hakimiyyət orqanlarının həyata keçirdiyi kameral siyahıyaalmanın şəhər əhalisinin sayına dair nəticəsi bir qədər şübhə

doğurur. Bu, xüsusilə, siyahıyaalmada qeyd edilən Azərbaycan türk və köklü erməni ailələrinin sayı ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, İrəvan şəhərində heç vaxt bu qədər erməni ailəsi ola bilməzdi. Əvvala, yuxarıda qeyd edilən qaynaqlarda İrəvan şəhərində çox az erməninin yaşadıgını görmək olar. İkincisi, ermənilərin satqınlığı, casusluq fəaliyyəti İrəvan hakimlərinə məlum idi. İrəvan kimi strateji əhəmiyyətli bir şəhərdə bu qədər erməni ailəsinin yaşamasına xanlıq dövründə imkan verilməzdi. Üçüncüsü, İrəvan şəhəri işğal olunarkən dağıntiya məruz qalmaqla bərabər, etnik tərkibinə görə Azərbaycan türkləri böyük itkiyə məruz qalmışdı. Çünki, rus qoşunlarına qarşı Azərbaycan türkləri mübarizə aparmışdı. Digər tərəfdən, İrəvan xanlığı işğal olunduqdan sonra Rusiya dövləti tərəfindən burada yaradılan hakimiyyət orqanları (**onun tərkibində erməni nümayəndələri xüsusilə fəal idi – E. Q.)** etibar etmədikləri Azərbaycan türklərini sıxışdırmaq siyasəti yeritmişdi. Məhs bu siyasi vəziyyəti nəzərə alaraq belə qənaətə gəlmək olar ki, çar orqanları özlərinə daha etibarlı dayaq yaratmaq üçün siyahıyaalma keçirilməmişdən qabaq Üçmüəzzin kilsəsi ətrafında yerləşən kəndlərdə yaşayan erməni ailələrinin bir hissəsini şəhərə köçürmüşdülər.

Bu fikrimizə aydınlıq gətirmək üçün işğaldan bir qədər sonra buraya köçürülmüş erməni ailələrini göstərmək olar. Belə ki, işğaldan sonra xanlığın digər ərazilərində olduğu kimi, İrəvan şəhərində də Cənubi Azərbaycandan və Osmanlı ərazisindən xeyli erməni əhalisi gətirilib yerləşdirilmişdi. Kameral siyahıyaalmaya görə, bu şəhərdə Cənubi Azərbaycandan 366, Osmanlı ərazisindən isə 11 köçkün erməni ailəsi yaşayırdı. Onlar əsasən şəhərin mərkəzi hissəsində yerləşdirilmişdi. Cənubi Azərbaycandan köçürülmüş 231 erməni ailəsi İrəvan şəhərinin "Şəhər", 87-si "Təpəbaşı", 48-i isə həmin vaxta qədər heç bir erməni ailəsinin yaşamadığı "Dəmirbulaq" məhəllələrində, Osmanlı ərazisindən köçürülmüş 8 ailə "Şəhər", 3-ü isə "Təpəbaşı" məhəllələrində yaşayırdılar (499, 545-546).

Beləliklə, 1829-1832-ci illərdə həyata keçirilən kameral siyahıyaalmanın nəticələrinə əsasən dövrün mənzərəsini təhlil

etdikdə görmək olar ki, İrəvan şəhərinin Azərbaycan türk əhalisi böyük itkilərə məruz qalmışdı. Bunu əhalinin yüksək təqəbələrindən tutmuş sadə insanlara şamil etmək olar.

XIX yüzilliyin ortalarına qədər İrəvan şəhər əhalisinin say dinamikası haqqında bir neçə statistik məlumat əldə edə bilmişik. 1834-cü ilin məlumatına görə, İrəvan şəhərində 2751 ailə qeydə alınmışdı. Bunlardan 1807-si Azərbaycan türkü, 898-i erməni, 40-ı qaraçı ailəsindən ibarət olmuşdu. Ümumi sayı 11463 nəfərdən ibarət olan əhalinin 5897 nəfəri kişi, 5566 nəfəri isə qadın idi (217, 439; 260, 291). Başqa bir məlumata görə, şəhərin kişi əhalisinin sayı 5900 nəfər olmuş, onlardan 3752-ni Azərbaycan türkləri, 2148-ni isə ermənilər təşkil etmişdi (260, 291, 365).

1851-cu ilin statistik məlumatına görə isə, İrəvan şəhərində 2.606 ailə və yaxud 12603 nəfər qeydə alınmışdı. Qeydə alınan ailələrin tərkibinin 6259 nəfərini kişi, 6344 nəfərini isə qadın təşkil etmişdi. Etnik tərkibinə görə isə İrəvanda yaşayan ailələrdən 6488-i Azərbaycan türklərinə, 6115-i isə ermənilərə məxsus idi. Bu ailələrdən 2.276-ı vergi ödəyən, 91 nəfəri xan, bəy, molla və seyid, 239 nəfəri isə xidmətə görə vergi ödəmirdi (217, 439-441).

Göstərilən sonuncu hər iki siyahıyaalmanı müqayisə etdikdə görmək olar ki, 16 il ərzində şəhər əhalisinin artımı çox cüzi olmuşdu. Bu dövr ərzində şəhər əhalisi cəmisi 1140 nəfər artmışdı. Həmin dövrü nəzərdən keçirdikdə bu artım inandırıcı görünmür. Əldə olunan məlumatlardan görmək olar ki, çar orqanları Azərbaycan türklərinin siyahıyaalınmasında obyektivliyi qorumurdu. Əvvəla, onlar kütləvi xəstəlikdən ölən Azərbaycan türklərinin sayını gizlədirdilər. İkinci məsələ onların artımına aid idi. Belə ki, yalnız ermənilərin doğum sayını bildirən yaş kağızı verilirdi. Azərbaycan türklərinin nəinki belə vəsiqəsi yox idi, hətta onların artımını bildirən doğum halları heç bir yerdə qeydə alınmırdı (217, 439).

İrəvan quberniyası üzrə 1857-ci ilin statistik məlumatına görə, İrəvan şəhərində 5220 nəfər kişi, 4151 nəfər qadın olmaqla 9371 nəfər qeydə alınmışdı (479, 662). Yuxarıda göstərilən sonuncu statistik məlumatla müqayisə etdikdə görmək olar ki, şəhər əhalisinin sayı kəskin surətdə aşağı düşmüşdü. Buna səbəb şəhərdə

doğuma nisbətən ölüm hallarının çoxalması idi. Məsələn, siyahıyaalmaya görə, il ərzində doğum üzrə 268 oğlan, 293 qız doğulmuşdu. Ölüm halları isə daha çox olmuşdu. Belə ki, il ərzində 695 nəfər kişi, 596 nəfər qadın vəfat etmişdi (479, 662).

Göstərilən bu faktlardan görünür ki, aparılan bu statistik məlumatlar heç biri gerçəkliyi olduğu kimi əks etdirmir. Lakin çar orqanlarının Azərbaycan türklərinə qarşı haqsız siyasət yeritməsinə baxmayaraq, qaynaqlarda göstərilən bütün statistik məlumatlara görə, Azərbaycan türkləri bəhs etdiyimiz dövrdə İrəvan şəhərində daima üstünlük təşkil etmişdilər.

**Kənd əhalisi.** İrəvan bölgəsi əhalisinin əksəriyyəti təbii ki, kəndlərdə yaşayırdı. Mənbələrin kasadlığı bəhs etdiyimiz dövr ərzində İrəvan bölgəsinin kəndlərində yaşamış əhalinin say və etnik tərkibini dəqiq müəyyən etməyə imkan vermir. XVIII yüzilliyin birinci dövrünə aid İrəvan bölgəsinin kəndlərini və burada yaşayan əhalinin say dinamikasını izləmək üçün əlimizdə olan yeganə mənbə 1728-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"dir. "İcmal dəftər"inin məlumatına görə, 74852 nəfərdən ibarət bölgə əhalisinin 71583 nəfəri kənddə yaşamışdı (38, 18). Lakin bu siyahıyaalmanı təhlil etdikdə, əhali haqqında məlumatın gerçək olmadığını görmək olar. Mənbədən göründüyü kimi, İrəvan əyalətində əhali yaşamayan 89 boş qalmış kənd göstərilmişdi. Bu kəndlərin əhalisi hərbi-siyasi proseslərlə əlaqədar olaraq öz yurdlarını tərk edərək qonşu bölgələrə köşmüşdü. Əgər hər kənd əhalisinin təxminən 100 nəfərdən ibarət olduğunu nəzərə alsaq, bu kəndlərdə təxminən 8900 nəfər yaşadığını qeyd etmək olar. Beləliklə, qeyd etmək lazımdır ki, Osmanlı dövləti İrəvan bölgəsinə müdaxilə etməmişdən əvvəl burada yaşayan kənd əhalisinin sayı təxminən 80483 nəfərə bərabər olmuşdu.

Mənbələrdə müstəqil xanlıq dövründə İrəvan əhalisinin ümumi say və etnik tərkibi haqqında statistik rəqəmlər göstərilsə də, Rusiya işğalına qədər kənddə yaşayan əhalinin sayı haqqında dəqiq məlumata rast gəlmədik. Kənd əhalisinin sayı haqqında yalnız işğaldan sonra 1829-1832-ci illərdə həyata keçirilmiş kameral siyahıyaalma əsasında konkret rəqəmlər göstərmək mümkündür.

Kameral təsvirə görə, İrəvan bölgəsinin 15 mahalının kəndlərində 7389 Azərbaycan türk ailəsi və yaxud 42544 nəfər (22876-sı kişi, 19668-i qadın), 2931 erməni ailəsi və yaxud 18899 nəfər (10349-u kişi, 9529-u qadın) qeydə alınmışdı (499, 635-636) (bax.cədvəl 2, səh 459).

1829-1832-ci illərdə keçirilmiş siyahıyaalmada kənd əhalisinin sayı haqqında "konkret" rəqəmlər göstərilsə də, bu, reallığı düzgün əks etdirmir. Yuxarıda göstərildiyi kimi, bunun əsas səbəblərindən biri siyasi vəziyyətlə əlaqədar İrəvan bölgəsinə məxsus boş və dağıdılmış kəndlərdə əhalinin sayının göstərilməməsidir. Digər tərəfdən, kənd əhalisi sayılan, maldarlıqla məşğul olan elatların sayı haqqında düzgün məlumat yoxdur. Yaylaq-qışlaq həyatı keçirən bu elatlar yerlərini tez-tez dəyişdiyindən onlar haqqında məlumat toplamaq çətin olurdu. Azərbaycan tarixçisi Məhəmmədhəsən Vəlili (Baharlı) yazır ki, "köçəri əhalinin miqdarı düz deyildi. Çünki siyahı tutulan vaxt bunların (elatların – E. Q.) çoxu oturaq məskənlərdən uzaq qışlaqlarda bulunurdular, o səbəbə siyahıya düşməmişdilər" (69, 17). Həqiqətən də, bu elatların hamısı siyahıyaalmaya düşməmişdi. İ.Şopenin yazdığına görə, xanlıq dövründə 2984 kürd elat ailəsi köçmə maldarlıqla məşğul olmuşdu. Kürdlər əsasən Göyçə, Sürməli mahallarında və Ağrıdağ vadisində yaylaq-qışlaq həyatı keçirirdilər. Lakin işğaldan sonra onların cəmi 847 ailəsi qalmışdı. Onların qalan hissəsi Cənubi Azərbaycana və Osmanlı dövlətinə qaçmışdı (499, 528-529, 541). Köçmə maldarlıqla məşğul olan Azərbaycan türk elatları da xanlıq ərazisində qeydə alınmışdı. Lakin siyahıyaalmada onlar köçəri xalq kimi verilmişdi. (bax. cədvəl 3, səh.472)

Cədvəldən göründüyü kimi, burada 13 Azərbaycan türk, 10 kürd və 1 qaraçı elatı vardı. Bu elatlar 1411 ailə və yaxud 7813 nəfərdən (4.765 nəfər kişi, 3.043 nəfər qadın) ibarət idi (499, 631-634).

Beləliklə, 1829-1832-ci illərdə həyata keçirilmiş kameral təsvirdə İrəvan bölgəsində oturaq və elatlarla birlikdə kənd əhalisinin sayı 11731 ailədən ibarət olduğu göstərilmişdi. Lakin

yuxarıda aparılmış hesablamalara görə, İrəvan xanlığında daha çox əhalinin yaşadığını görürük.

Kənd əhalisinin siyahıyaalması sonralar da davam etdirilmişdi. Belə ki, 1834-ci il il məlumatına görə, İrəvan bölgəsində 508 kənd qeydə alınmışdı. Bu kəndlərdə 19.586 ailə və yaxud 59.398 nəfər yaşamışdı. Bunlardan 26.941 nəfərini Azərbaycan türkləri, 32.457 nəfərini isə ermənilər təşkil etmişdilər (260, 365). Bu məlumatdan görünür ki, Rusiyanın köçürmə siyasəti nəticəsində şəhər əhalisinə nisbətən kənd əhalisinin tərkibində ermənilər üstünlük təşkil etmişdi.

## 8.2. Əhalinin sosial-silki tərkibi

Bəhs etdiyimiz dövr ərzində Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsinin əhalisi də sosial tərkibinə görə üç qrupa bölünürdü: 1) imtiyazlı – ali təqəbə; 2) din xadimləri və 3) vergiödəyənlər. Birinci təbəqəyə xan və yaxud sərdar, bəylər, sultanlar, məliklər və ağalar daxil idi. Azərbaycanın digər bölgələrindən fərqli olaraq İrəvan bölgəsində xan adı daşıyanlar iki qismə bölünürdü. Birinci qismə xan və yaxud sərdar adı daşıyan və Səfəvilər, Nadir şah Əfşarın (1736-1747) və Qacarlar dövründə bölgəni idarə etmək üçün mərkəzdən təyin olunan bəylərbəyilər və hakimlər daxil idi. Onlar böyük imtiyaz sahibləri olsalar da, hakimiyyətləri irsi deyildi. Onlar vəfat etdikdə və yaxud onların idarəçilik qabiliyyəti mərkəzi qane etmədikdə digərləri ilə əvəz olunurdular. Müstəqil xanlıq dövründə isə bu adı daşıyanlar mütləq hakim idi və hakimiyyət atadan oğula keçirdi. Xan mütləq hakim olmaqla bərabər, iri torpaq sahələrinə malik olduğuna görə, həm də iri mülkədar hesab olunurdu.

İkinci qismə isə Səfəvi şahları tərəfindən "xan" fəxri adı verilmiş xüsusi şəxslər daxil idi. Lakin bu qismə daxil olan xanlar varislik hüququna malik deyildilər. Bu xanlar mütləq hakim

olmasalar da, onların da böyük nüfuzları vardı. Onlar həm vəzifə, həm də geniş torpaq sahibləri idilər (94, 136; 233, 137).

Xandan sonra ali silkin növbəti pilləsində bəylər dururdu. A.Bakıxanov yazırdı ki, "bəy əmr edən, hökm edən deməkdir..., bəy əmr edən hər hansı şəxsə verilən ümumi addır" (94, 137). Bəy rütbəsini ali silk nümayəndələrindən olan xanın övladları, qohumları, onların varisləri, həmçinin xidmətinə və ləyaqətinə görə bu adla təltif olunmuş şəxslər daşıyırdı. Bəylər bir neçə qrupa bölünürdü. Bəzi mənbələrə görə, bəylər irsi bəy rütbəsi alan və müvəqqəti bəy rütbəsi verilənlərdən ibarətdi (94, 137; 194, 389; 233, 102-103). Lakin İrəvan xanlığından bəhs edən bir mənbədə bəylərin üç qrupa bölündüyünü görürük. Birinci qrupa Səfəvi şahlarının xüsusi fərmanı əsasında bəy rütbəsi alanlar və onların nəslindən olan irsi bəylər daxil idi. Onlar xüsusi mülkiyyət sahibi idilər və bəylik onlar üçün irsi xarakter daşıyırdı. İrsi bəylər xana qulluq etməyə borclu deyildilər, lakin bəzi hallarda gəlirlərinin bir hissəsini xəzinəyə verməli idilər. Bu bəylər xalq arasında böyük hörmət sahibi olduqlarından, xanlar onlara ehtiyatla yanaşırdılar. İrsi bəylərə məxsus kəndlərin inzibati və hüquqi hakimiyyəti də onların əlində cəmləşmişdi (233, 102; 476, 2-3). Lakin İrəvan hakimləri hər vasitə ilə irsi bəylərin nüfuzunu sarsıtmağa çalışırdılar. Bu, xüsusilə sonuncu sərdar Hüseyqulu xanın dövrünə aid idi. O, bəylərə məxsus kəndləri və onlardan gələn gəlirləri hesaba alaraq, bu kəndlərin bəzilərini ayrı-ayrı şəxslərə tiyul kimi paylayırdı. Məsələn, Hüseyqulu xan irsi bəylərdən Hümmət bəyə, Rəsul bəyə, Kərim bəyə və Mehdi bəyə məxsus kəndlərin bir və ya ikisini tiyul şəkilində başqasına vermişdi (499, 929; 233, 103).

İkinci qrupa sərdara göstərdikləri xidmət-qulluq müqabilində və onun mərhəməti ilə bəy rütbəsi alanlar daxil idi. Bu bəylərin başlıca vəzifəsi həmişə xanın xidmətində dayanmaq idi. Xan xüsusi xidmət müqabilində xəzinəyə məxsus və yaxud müsadirə edilmiş kəndləri onlara hədiyyə olaraq verirdi. Mükafatlandırılmış bəylər həmin kəndlərin gəlirləri ilə dolanırdılar (233, 103, 122). Lakin

onların bu rütbəsi müvəqqəti səciyyə daşıyırdı və qulluq başa çatdıqdan sonra geri alınırdı.

Üçüncü qrupa isə müvəqqəti bəy adı alanlar – kənd ağsaqqalları olan kəndxudalar, rəislər və erməni icma başçıları daxil idi. Onlar təyin olunduqları vəzifəni müvəqqəti icra etdiklərinə görə, hər hansı sənəd, yaxud fərman almırdılar. İstər Azərbaycan türklərinə məxsus kənd ağsaqqalları, istərsə də erməni kənd ağsaqqalları bu vəzifə üçün heç bir məvacib almırdılar. Onlar əhalidən alınan vergilər hesabına dolanırdılar (461, 3; 20, 375).

Sosial nərdivanın sonrakı pilləsində sultanlar dururdu. Sultan ərəbcə "hökmdar" deməkdir. Bu rütbə irsi və yaxud yüksək vəzifə tutan bəylərə verilidi. Sultan çox qədim rütbə kimi mövcud olmuşdur. Onlar böyük hüquq və imtiyazlara malik olmaqla yanaşı xanın yanında yüksək mövqe tuturdular (94, 136-137; 233, 103). İrəvan bölgəsində daha yüksək idarəçilik hüququna malik sultanlar da mövcud olmuşdu. Bu sultanlar İrəvana məxsus üç sultanlığı-Maku, Şörəyel və Pəmbək sultanlıqlarını idarə edirdilər.

Əhalinin silki tərkibində ağaların da xüsusi yeri vardı. Ağa xan ailəsinə daxil olan şəxslərə deyilirdi. Məhz bu baxımdan onlar böyük imtiyazlara malik idi və irsi bəylərə məxsus hüquqlardan istifadə edirdilər (94, 137-138; 196, 470). Lakin onların mülkiyyət üzərində hüququ bəylərdən fərqlənirdi. Belə ki, ağalar xan tərəfindən kəndləri idarə etmək üçün də təyin oluna bilərdilər. Bu vəzifə irsi və yaxud müvəqqəti ola bilərdi. Ağalar təyin olunduqları kəndlərin gəlirinin bir hissəsindən istifadə edir və kəndlər onların gəlir mənbəyi idi. Ağalar və onların yaxınları hər cür vergi və mükəlləfiyyətlərdən azad edilmişdi (233, 123-124).

İmtiyazlılar silkinə maldarlıqla məşğul olan elat başçıları-elbəyilər də daxil idi. Çoxlu var-dövlət sahibi olan elbəyilər silahlanmış çevik hərbi qüvvəyə malik olduqlarından onlar müharibələr dövründə xanlara çox lazım olurdular. Elbəyilər vergi və mükəlləfiyyətlərdən azad olmaqla yanaşı xandan müxtəlif hədiyyələr və geniş otlaq sahələri alırdılar. Lakin xanlar elbəyiləri daim nəzarətdə saxlamağa çalışır, istədikləri şəxsi elat başçısı təyin edir və onlar

arasında baş verən mübahisələrə də qarışırdılar. Məsələn, Hüseynəli xan (1759-1783) Mirzə ağanı xüsusi təliqə ilə köçmə maldarlıq həyatı keçirən kürd tayfalarından birinin başçısı təyin etmişdi. Təliqədə göstərilirdi: "Mirzə ağa bütün bacarıq və istedadı ilə həmin köçərilərin işlərini nizama salmalı, onların idarə işlərinə qarışmalı və bir dəqiqə olsa da bu işdə səhlənkarlıq etməməlidir" (48, 55). Başqa bir sənəddə Hüseynəli xanın elat başçıları arasında baş verən münaqişəyə müdaxilə etməsindən bəhs edilir. O, elatların başçılarından Şəmsəddin ağa ilə digər iki tayfa başçısı arasında olan anlaşılmazlığı sülhlə həll etmişdi (48, 78).

Rusiya işğalından sonra Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsində də mütləq hakim olan xandan və rus qoşunlarına qarşı mübarizə aparmış xan, bəy, ağalardan başqa bütün imtiyazlı təbəqənin hüquqları təxminən əvvəlki kimi qalmaqda idi. Onlar nəinki öz rütbələrini daşıyırdı, eyni zamanda mülk və kəndlərinin sahibləri olaraq qalırdılar (181, 391; 233, 100-101). Lakin 25 aprel 1841-ci il tarixli fərmanına görə, Qazax, Şəmşəddil və Borşalı ağaları, bəyləri kəndləri idarə etməkdən və tiyul torpaqlarından məhrum edildi. Bu qanun 1843-cü ildə Tiflis dövlət əmlakı palatası rəisinin tələbinə əsasən İrəvan qəza rəisinin sərəncamı ilə Göyçə mahalının Zod, Çaxırlı (başqa adı Qızılbulaq) və Böyük Məzrə kəndlərinə də şamil edildi. Onların bəylərinin kəndlilər üzərində hüquqları ləğv edildi və onlar vergi yığmaqdan kənarlaşdırıldılar. Lakin 1845-ci ildə Qafqaz canişinin əmri ilə Göyçə ağalarının hüquqları yenidən bərpa olundu. Səbəb kimi, bu qanunun İrəvan qəzasına aid olmadığı göstərilmişdi (470, 98-99). Çox keçmədi ki, 6 dekabr 1846-ci il reskripti ilə bütün Cənubi Qafqazda imtiyazlı təbəqələrin bütün imtiyazları özlərinə qaytarıldı. Onlara məxsus tiyul torpaqları onların xüsusi mülkiyyəti təsdiq edildi. Mülk, tiyul torpaqları ağaların və bəylərin xüsusi mülkiyyəti elan edildi. Torpaq sahiblərinə kəndlilər üzərində polis idarəçiliyi hüququ verildi. Bütün imtiyazlı təbəqələrə mülkədar adı verildi. Rəiyyət, rəncbər, nökər və b. isə ümumi bir ad-mülkədar tabesi adını aldılar (234, 105-107).

Qeyd etmək lazımdır ki, Rusiya-Qacar müharibələri dövründə zadəganlar təbəqəsi, xüsusilə müsəlman ali silki böyük itkilərə məruz qalmışdı. Onların bir hissəsi öldürülmüş, bir hissəsi isə qonşu dövlətlərə qaçmışdı. Ermənilərin isə həm köçürmələr, həm də Rusiya hökumətinin ayrı-ayrı şəxsləri zadəgan titulu ilə təltif etməsi nəticəsində sayı çoxalmışdı. 1829-1832-ci illərdə çar orqanlarının apardığı siyahıyaalmada xanlıq ərazisində yaşayan istər Azərbaycan türk, istərsə də erməni ali silkin nümayəndələrinin sayı öz əksini tapmışdı (499, 689-690). (bax.cədvəl 4, səh.473).

Cədvəldən göründüyü kimi, İrəvan xanlığının Rusiya tərəfindən işğalı Azərbaycan türklərinin ali silkinin miqdar tərkibinə güclü təsir göstərməsinə baxmayaraq, onlar ermənilərə nisbətən yenə də çoxluq təşkil etmişdi.

İrəvan bölgəsində ali silkin nümayəndələri haqqında yuxarıda göstərilən statistik məlumat son məlumat deyildi. Belə ki, 1851-ci il kameral siyahıyaalmasına görə, İrəvan şəhərində 3 xan (6 kişi, 7-si qadın), 48 bəy (60 kişi, 54 qadın) ailəsi yaşamışdı (216, 441). İrəvan quberniyası üzrə 1857-ci ilin statistik məlumatında isə İrəvan quberniyasında Azərbaycan türklərindən olan 348 nəfər xan, 1818 nəfər bəy, 57 din xadimi, 2294 nəfər ağa (9447 nəfər), ermənilərdən isə cəmi 206 məlik və digər rütbəli zadəgan qeydə alınmışdı (479, 663).

İrəvan bölgəsində xüsusi təbəqə təşkil edən din xadimləri əhali içərisində böyük nüfuza malik idilər. Qeyd etmək lazımdır ki, din xadimləri tarix boyu Azərbaycanda böyük səlahiyyətə malik şəxslər olmuşdular. İrəvan bölgəsində həm müsəlman, həm də xristian din xadimləri vardı. Burada hakim din islam dini idi. Tutduqları mövqeyə görə din xadimləri bir neçə qrupa bölünürdü. N.Dubrovin din xadimlərini ali və aşağı olmaqla iki kateqoriyaya ayırırdı. Birinciyə dini hakimiyyəti dünyəvi hakimiyyətlə birləşdirənlər, ikinciyə isə dünyəvi işlərə qarışmayan və yalnız dini işlərlə məşğul olanlar daxil idi (180, 387-388). Lakin N.Dubrovindən fərqli olaraq İ.Şopen müsəlman din xadimlərini üç qurupa bölmüşdü: 1) Ali ruhanilər-şeyx-ül-islam, müştəhid, qazı, axund, müfti

və b.; 2) Aşağı ruhani təbəqələrinin nümayəndələri-mollalar, seyidlər, dərvişlər; 3) Xalq təhsili ilə məşğul olanlar-ülamə və müdərrislər (499, 693-694).

Ali ruhanilər şəriət məhkəmələrinə rəhbərlik edir, ruhaniləri vəzifələrə təsdiq edir və yaxud onları vəzifədən kənarlaşdırırdılar. Xüms və zəkatın toplanması, bölüşdürülməsi, vəqf torpaqlarının istifadə olunması bilavasitə onların nəzarətində idi. Ali ruhanilərin başçısı şeyx-ül-islam "divan"ın üzvü olduğuna görə, hətta xanın fərmanlarını fitva ilə təsdiqləyirdi. Din xadimləri hər cür vergi və mükəlləfiyyətlərdən azad edilmişdi (499, 697; 233, 125; 259, 25; 27, 31). Din xadimlərinin əsas gəlir mənbələri vəqf və yaxud vərəsəsiz, məscidə vəsiyyət edilmiş mülklərdən gələn gəlirlər, zəkat və yaxud $^{1}/_{10}$ vergisi hesab olunurdu. Bundan əlavə, nikah, boşanma, sünnət, dəfn və s. görə, habelə hər hansı qərarın icrasında şahidlik etdiyinə, dua yazdığına dörə də müəyyən miqdarda gəlir əldə edirdilər. Toplanmış gəlirlər bir yerə yığılır və din xadimləri arasında bölünürdü (499, 697-698).

Qudrətli hakimlərin din xadimləri üzərində böyük təsiri vardı. Onlar nüfuz sahibi olan axundu, qazını, müctəhidi və müsəlman ruhanilərinin başçısı şeyx-ül-islamı vəzifəyə təyin edirdilər. Ən güclü xanlar sevimli adamlarını belə şeyx-ül-islam təyin edirdilər (259, 27). İrəvan hakimləri hətta din xadimləri arasında özbaşnalığın qarşısını almaq və dini gəlirlərdə qanun –qayda yaratmaq üçün vəqf mülkiyyətinin işlərinə də müdaxilə edə bilirdilər. Belə ki, İrəvan hakimi Təhmasibqulu xan Qacar (1625-1635) rüşvət aldığına görə şeyx-ül-islamı xalqın gözü qabağında şallaqlatmış və vəzifədən kənar etmişdi (225, 92-93). İrəvan hakimləri vəqf mülkiyyətinə nəzarət etmək üçün din xadimləri arasında daha nüfuzlu olan axundu da seçirdilər. Bu haqda xüsusi təliqə verilirdi (48, 52-53). Bundan əlavə, xanlar hər mahalın şəriət məhkəmələrinə bir və yaxud iki qazını başçı təyin edirdilər (259, 29).

Din xadimləri şəriət işlərindən əlavə mülki işlərdə də iştirak etmək səlahiyyətinə malik idilər. Dini təhsil almış mollalar kargüzarlığa və hesabdarlığa götürülürdü. Onlar mirzə adlanırdılar.

Ən nüfuzlu ruhanilər xan tərəfindən divana üzv seçilə bilərdilər. Onlar divanbəyi adlanırdılar (499, 698; 259, 28).

Müsəlman din xadimlərinə şeyx-ül-islam (dini rəhbər; bu vəzifəyə varlı, hörmətli, hakimiyyətlə dini idarə arasında əlaqə yarada bilən şəxslər təyin olunurdular), qazılar (dini hakimlər), müfti (sünnü təriqəti qanunlarına nəzarətçi), Əmr-məruflar (xalqı xeyirxah işlərə istiqamətləndirən, bəd əməllərdən çəkindirən), pişnamazlar (həyatını allaha ibadətə həsr edən və xalqla birlikdə ibadət edənlər), vaizlər (mərasimlərdə təbliğatçı), üləmalar (ilahiyyat alimləri), Quranı-Kərimi şərh edənlər, müdərrislər (dini elmlərin və ərəb dilinin müəllimləri), əfəndilər (sünnü təriqəti alimləri), axundlar (şiə təriqəti alimi), müəzzinlər (azan verənlər), imamlar (kənd cəmiyyətində dini rəhbər), müştəhidlər (şiə təriqərində din xadimi), dərvişlər, ruhani uşaqları daxil idi (499, 693-697; 181, 385-388; 259, 17-19).

Müsəlman din xadimləri dəstəsinə seyidlər də daxil idi. Seyidlər peyğəmbər, imam nəsilindən hesab olunurdu. Onlar heç bir dini vəzifə daşımırdılar və əhali arasında çox böyük nüfuz sahibi idilər. Seyidlər vergi və mükəlləfiyyətlərdən azad olurdular. Onlar yaxşı təmin olunmuşdular, əksəriyyətinin böyük torpaq sahələri var idi. Xanların özləri də seyidlərə hörmətlə yanaşır və onlara xüsusi fərmanla torpaq sahələri bağışlayırdılar. İşğaldan sonra həyata keçirilən kameral siyahıyaalmada seyidlər əhalinin vergi verən hissəsinə daxil edilmişdi. Lakin bununla belə onlar heç bir vergi ödəmirdilər. Kənd əhalisi Məhəmməd peyğəmbərə hörmət əlaməti olaraq seyidlərin payına düşən vergini özləri ödəyirdilər (499, 698-699; 233, 1264; 259, 24-25).

İrəvan xanlığında müsəlman din xadimlərinin sayı haqqında dəqiq məlumat əldə edə bilmədik. 1829-1832-ci illər kameral siyahıyaalmasındakı məlumatda işğaldan sonra erməni din xadimlərindən fərqli olaraq, müsəlman din xadimlərinin say tərkibinin azaldığı göstərilmişdi. Lakin buna baxmayaraq, siyahıyaalınma bir daha sübut edir ki, xanlığın yuxarı təbəqələri kimi, müsəlman ruhaniləri də hakim qüvvə olmuşdular. (bax. cədvəl 5, səh.474).

Müsəlman din xadimləri və əhali arasında hacı, məşədi və kərbəlayı rütbələri-adı daşıyanlar da vardı. Kameral siyahıyaalmaya görə, İrəvan bölgəsində məskunlaşmış belə şəxslərin sayı aşağıda göstərilmişdır:

İrəvan şəhərində-85 hacı, 158 məşədi, 105 kərbəlayı;

Mahallarda-25 hacı, 77 məşədi, 239 kərbəlayı;

Elatlar arasında-6 hacı, 7 məşədi, 4 kərbəlayı.

Beləliklə, İrəvan bölgəsində 111 hacı, 242 məşədi və 348 kərbəlayı qeydə alınmışdı (499, 704).

Lakin bəhs etdiyimiz dövrdə din xadimlərinin sayı haqqında statistik məlumatlar bununla tamamlanmır. 1848-ci il məlumatına görə, İrəvan qəzasında 788 din xadimi qeydə alınmışdı (234, 375). 1850-ci ildə İrəvan şəhərində 16 din xadimi (32 kişi, 23 qadın), 27 seyid (68 kişi, 49 qadın), 5 dərviş (7 kişi, 8 qadın) ailəsi yaşamışdı. Şəhər əhalisi üzrə ziyarətə gedənlərdən 105-i hacı, 155-i məşədi, 278-i isə kərbəlayı idi (217, 441).

İrəvan bölgəsində xristianlığın erməni-qriqoryan məzhəbi fəaliyyət göstərirdi. Bu məzhəbdən olan ermənilər Üçmüəzzin və ona tabe olan kəndlərlə məhdudlaşırdı. Bu dinin xidmətində duranlar **rahibliyə və ağlara** bölünürdü. Erməni-qriqoryan məzhəbinə iqamətgahı Üçmüəzzində yerləşən katolikos başçılıq edirdi. Müsəlman din xadimlərindən fərqli olaraq erməni ruhaniləri xanlıq dövründə hər il xəzinəyə vergi ödəyirdilər. Bu haqda "Vergi və mükəlləfiyyətlər" bölməsində bəhs edilmişdir. İşğaldan sonra köçürmə nəticəsində erməni əhalisinin digər təbəqələri kimi, ruhanilərin də sayı artmışdı. Ümumiyyətlə, 1829-1832-ci illər kameral siyahıyaalmaya görə, işğaldan sonra buradakı rahiblərin sayı 135 nəfərdən, ağ ruhanilər isə 193 ailə və yaxud 1454 nəfərdən ibarət olmuşdu (499, 692-693).

Qeyd etmək lazımdır ki, xalq arasında böyük nüfuz sahibi olduqlarına görə, çar Rusiyası din xadimlərinə toxunmadı. Cəmiyyət tərəfindən tanınan bütün din xadimləri vergi və mükəlləfiyyətdən azad olunmuşdular. Onlar əvvəlki gəlir mənbəyi olan xüms,

zəkat və digər nəzirlərlə dolanırdı. Hətta şəriət məhkəmələri öz fəaliyyətini davam etdirirdi (259, 12-24; 217, 452; 233, 125)

İrəvan bölgəsində üçüncü sosial qrupa vergiverən kəndlilər daxil idi. Bəhs etdiyimiz dövrdə kəndlilər üç qurupa bölünürdü. Birinci qrupa daxil olan kəndlilər xəzinə, bəy, vəqf torpaqlarında sakin olan rəiyyətlər, yəni **bəhrəkərlər** adlanırdı. Bəhrəkərlərin öz təsərrüfatı, torpaq payı, əmək aləti və qoşqu heyvanları olurdu. Onlar sahibkara becərdikləri məhsulun $^1/_3$-ni və 10 tümən binaçı vergisi ödəyirdilər.

Kəndlilərin ikinci qrupuna **yarıkərlər** daxil idi. Yarıkərlər əsasən, qaçqın və işsizlər hesabına yaranırdı. Birinci Rusiya – Qacar müharibəsi dövründə İrəvan xanlığında Şörəyel və Pəmbəkdən gəlmiş qaçqın ailələrin sayı hesabına yarıkərlər çoxalmışdı. 1818-ci ildə general-leytenant Velyaminov Abbas Mirzəyə yazdığı məktubda qeyd edirdi ki, "əlahəzrətə məlumdur ki, Rusiya-İran (Qacar – E. Q.) müharibəsi dövründə sıxışdırılmış bir neçə Azərbaycan türk ailəsi Gürcüstandan (Şörəyel və Pəmbək – E. Q.) İrəvan xanlığına qaçmışdı... O, (Hüseynqulu xan – E.Q.) sayı 400 ailədən ibarət belə qaçqınları toplayaraq, Zəngi çayının sağ sahilində sərhəddə yerləşdirərək, Mürsəli, Barat, Ərdağlı, Qarakeşiş, Karvansaray, Qara Murad, Yaycı, Təklər kəndlərini saldırmışdı" (360, 195). Sərdar qaçqınları yerləşdirərək, onlara torpaq paylayır, iş heyvanı, kotan və hər növ toxumla təmin edirdi. Təsərrüfatlarını qurana qədər o, həmin kəndlərdən vergi almırdı. Bir müddətdən sonra yarıkərlər aldıqları borcun əvəzində yığdıqları məhsulun yarısını xəzinəyə ödəməli olurdu (499, 989).

**Üçüncü qrupa isə rəncbərlər** daxil idi. Rəncbərlərin vəziyyəti daha ağır idi. Bu tipli kəndlilərin nə torpağı, nə də əmək alətləri vardı. Onlar xana, bəyə, din xadimlərinə və vəzifəli şəxslərə məxsus olurdu. Rəncbərlər sahibkar və xəzinə torpaqlarını icarə götürməklə yaşayırdılar. İcarə haqqı isə yığılan məhsulun təxminən $^2/_3$ hissəsinə bərabər idi (499, 989; 181, 395; 298, 316-319; 293). Bundan əlavə, rəncbərlər sahibkar üçün ağır mükəlləfiyyət də yerinə yetirməli idi. İ.Şopen yazır ki, "sərdar bu vəziyyətdə olan kəndliləri

sakin kimi deyil, yaşamaq üçün həyatını hər cür ehtiyacla təmin edən muzdur işçi kimi saxlayırdı" (499, 989). Lakin xanlığın bəzi mahallarında rəncbərlər bir-birindən fərqli vergi ödəyirdilər. Məsələn, Zəngibasar mahalının Çarbağ kəndinin rəncbərləri çəltik və pambığın 2/3 hissəsini, digər məhsulların üç hissəsini, Şərur mahalının Çamaxtir kəndinin rəncbərləri çəltiyin 2/3 hissəsini, digər məhsulların isə yarısını, Körpübasar mahalının Muğancıq kəndinin sakinləri isə ümumi məhsulun 4/5 hissəsini vergi verirdilər (499, 988-989).

Maldarlıqla məşğul olan köçəri elatlar da kəndli təbəqəsinə aid idi. Onlar da müxtəlif vergi və mükəlləfiyyətlər yerinə yetirirdilər. Elatlar xan və bəylərin sürüsünü otarır, sahibkarın maldarlıq təsərrüfatında müxtəlif iş görür və peşkəş adlanan vergi verirdilər. Sadə elatların vəziyyəti digər kəndli qruplarına nisbətən yüngül idi. Xanlığın hərbi qüvvəsinə əsgər verdiyindən maldar elatlara müəyyən güzəşt edilirdi. Lakin elatlardan mal-qara, yağ, pendir və yun ilə vergi alınırdı (499, 987).

İrəvan bölgəsinin silki quruluşundan danışdıqda maafları da xüsusi qeyd etmək lazımdır. Mənbələrdə maaflar bəylərlə kəndlilər arasında yer tutan orta təbəqə kimi göstərilmişdi. "Maaf" sözü hər cür vergi və mükəlləfiyyətdən azad edilmiş, xanın xüsusi tapşırıqlarını danışıqsız yerinə yetirənlərə deyilirdi (181, 391; 232, 85; 294, 43-46). Maaf sözünə İ.Petruşevski belə izah edirdi: "Öz ictimai vəziyyətinə görə bəylərdən və bəzi köçərilərdən aşağıda duran, öz əyalətlərində hərbi qulluqda (çərik) və feodal dəstələrində olmaqdan başqa, torpaq sahiblərinə heç bir vergi verməyən və mükəlləfiyyət daşımayan kiçik torpaq sahibləri maaflar adlanırdı (298, 182). Onlardan həm hərbiçi, həm də polis kimi istifadə edilirdi. Silahlı qüvvə yığılarkən onlar birinci olaraq qulluğa gəlirdilər. Bundan əlavə, maaflar vergi yığır, mühafizə işində iştirak edir, xan və bəylərin digər işlərində istifadə edilirdi (181, 391).

Maaflara Azərbaycanın müxtəlif bölgələrində-Quba, Şamaxı, Şəki, Qarabağ, Naxçıvan və Lənkəran xanlıqlarında rast gəlmək olardı (101, 13; 233, 85). Rusiya işğalından sonra çar hakimiyyət

orqanları onların fəaliyyətindən ehtiyat etdiyindən, yeni hakimiyyət maafları ləğv etmək üçün ilk dövrlərdə onları qulluğa götürür, sərhədləri mühafizə etməyə göndərirdi (181, 392). İrəvan xanlığında da maaf dəstələri fəaliyyət göstərmişdi. Xüsusilə, Azərbaycan türklərindən olan qarapapaqlar, ayrum və seyidli-ağsaqqallılar maaf dəstələrinə daxil idi. Onlar əsasən sərhəd məntəqələrində yerləşdirilmişdi (499, 449-450; 220, 42; 464, 198; 102, 236). Lakin işğaldan sonra həyata keçirilmiş ilk kameral təsvir zamanı onlar əhalinin vergi verən kəndli hissəsinə daxil edilmiş və beləliklə də onların sayı haqqında məlumat yoxa çıxmışdı (233, 87).

İrəvan bölgəsində əhalinin aşağı təbəqəsinə nökərlər də daxil idi. Xanın və iri feodalların şəxsi qoruyucuları, hərbi qulluqçular, sərhəd mühafizəçiləri nökərlər adlanırdı (234, 432-435). Maaflar kimi nökərlər də heç bir vergi vermir və mükəlləfiyyət daşımırdılar. Onların sosial bazasını rəiyyətlər təşkil edirdi (298, 101). Nökərlər bütün xanlıq ərazisinə səpələnmişdilər və lazım gəldikdə bir yerə toplanırdı. Onlar əla geyim, silah və atları ilə seçilirdi (233, 84). İrəvan bölgəsində nökərlərin sayı haqqında heç bir dəqiq məlumat yoxdur. Lakin mənbələrdə əhalidən məhsul yığılarkən xanın öz nökərlərindən istifadə etməsi haqqında məlumat vardır. Onlar yığım vaxtı xanın əmri ilə kəndləri gəzərək məhsul oğurluğunun və itkisinin qarşısını alırdılar. Bu əmri yerinə yetirən nökərlər əhalinin hesabına yaşayırdılar (194, 516).

Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsində də vergiverənlər silkinə tacirlər, kiçik ticarətlə və müxtəlif sənət növü ilə məşğul olan sənətkarlar da daxil idi. Onlar haqqında "Sənətkarlıq və ticarət" bölməsində məlumat verilmişdi. Qeyd etmək lazımdır ki, bu sənət növləri ilə məşğul olanların əksəriyyəti əsasən şəhərlərdə yaşamışdı. Lakin kəndlərdə yaşayan tacir və sənətkarlar da olmuşdu. Bəhs etdiyimiz dövrdə onların sayı haqqında məlumat yalnız Rusiya işğalından sonra məlum olmuşdu. 1829-1832-ci illərdə keçirilmiş siyahıyaalmaya görə, "Erməni vilayəti"ndə tacir və hər cür ticarətlə məşğul olanların ümumi sayı 895 nəfər, müxtəlif sənətkarlıqla məşğul olanlar isə 9.229 nəfərdən

ibarət olmuşdu. Bunlardan İrəvan şəhərində ticarət və sənətkarlıqla məşğul olan 1624-ü Azərbaycan türkü, 395-i yerli erməni, 327-i gəlmə erməni olmaqla 2349 nəfər qeydə alınmışdı. Mahallarda isə 96 nəfər Azərbaycan türkü, 1.192 yerli, 3.455 gəlmə ermənilərdən ibarət 4.743 nəfər yaşamışdı. Ümumiyyətlə, yalnız İrəvan bölgəsi üzrə qeydə alınan ticarət və sənətkarlıqla məşğul olan 7092 nəfərdən 443 nəfəri tacir olmuşdu. Onlardan İrəvan şəhərində 151 nəfər Azərbaycan türkü, 32 yerli, 36 gəlmə erməni olmaqla 219 tacir, mahallarda isə 3 Azərbaycan türkü, 16 yerli, 205 gəlmə erməni olmaqla 224 tacir qeydə alınmışdı (499, 843-847).

İrəvan bölgəsində siyahıyaalmalar sonralar da davam etmişdi. 1849-cu il siyahıyaalmaya görə, İrəvan şəhərində müxtəlif sənət növü ilə məşğul olan 1566 nəfər qeydə alınmışdı (217, 450). Təəssüf ki, kəndlərdə bu sənət növü ilə məşğul olanların sayını əldə edə bilmədik.

Beləliklə, XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarına kimi, İrəvan bölgəsində də əhalinin sosial tərkibi Azərbaycanın digər ərazilərində olduğu kimi olmuş və ciddi şəkildə dəyişməmişdi. Əhalinin əsas hissəsini kəndlilər təşkil etmişdi. İşğaldan əvvəl bölgənin etnik cəhətdən sosial tərkibində Azərbaycan türkləri üstünlük təşkil etmiş və onlar böyük nüfuz sahibi olmuşdular. Yalnız Rusiya hakim dairələrinin köçürmə siyasəti nəticəsində bölgə əhalisinin sosial tərkibində böyük dəyişiklik baş vermiş, yad xalqların sayı çoxaldılmışdı.

# IX FƏSİL

# İRƏVAN BÖLGƏSİNİN MƏDƏNİYYƏTİ

Bütün araşdırmalar aydın və təkzibolunmaz şəkildə sübut edir ki, İrəvan bölgəsinin mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Lakin bu bölgəmizin mədəniyyət tarixi indiyədək çox zəif öyrənilmişdir. Çünki Rusiya işğalından sonra bu ərazilərə sahib olan, sonralar dövlət yaradan ermənilər çar orqanlarının köməyi ilə bu bölgənin nəinki tarixini saxtalaşdırmağa cəhd göstərmiş, eyni zamanda onun maddi-mədəniyyət, memarlıq və incəsənət abidələrinin xeyli hissəsini məhv etməyə nail olmuşdular. Lakin buna baxmayaraq, bəhs etdiyimiz dövrə aid müxtəlif səpkili mənbələrdə və ədəbiyyatda İrəvan mədəniyyətinin ayrı-ayrı sahələri ilə bağlı xeyli rəngarəng məlumatlara rast gəlmək olar.

**Təhsil və elm.** Bəhs etdiyimiz dövr çərçivəsində İrəvan bölgəsində təhsil sistemi Azərbaycanın digər bölgələrində mövcud olan təhsil sistemi ilə eyni idi. Bu sistem ərəb işğalından sonra Şərqdə tarixən təşəkkül tapmış təhsil ocaqları tipində yaradılmışdı. Bu təhsil sistemi Rusiya işğalından sonra da öz fəaliyyətini davam etdirmiş, yaradılan Avropa tipli təhsil ocaqları ilə yanaşı fəaliyyət göstərmişdi. Qeyd etmək lazımdır ki, ənənəvi müsəlman məktəbləri şəhər və kəndlərdə əsasən məscidlərin nəzdində fəaliyyət göstərmişdi. Məktəblərdə zümrə məhdudiyyəti olmadan müxtəlif yaşlı oğlan və bəzən qız uşaqları da təhsil alırdılar (23, 127-128).

İrəvan bölgəsində müsəlman məktəbləri iki pilləli olmuşdu. Onlardan biri məktəb, digəri isə mədrəsə adlanırdı. Məktəb adətən aşağı, mədrəsə isə yuxarı pillə hesab olunurdu. Məktəb bə mədrəsələr məscidlərin nəzdində yaradılırdı. Uşaqların sayından asılı olmayaraq məktəblər 1 və 2 otaqdan ibarət olurdu. Hər otaqda bəzən onlarla şagird təhsil alırdı. Şagirdlər adətən yerdə, özlərinin

gətirdiyi həsir və palaz üzərində əyləşirdilər. Qışda otaqlar gildən düzəldilmiş kasalara və yaxud tənəkə qutulara tökülmüş kömürün yandırılması ilə qızdırılırdı. Hər 3 və yaxud 4 şagirdin qarşısında belə bir qızdırıcı qoyulurdu. Məktəb pəncərəsinin böyük hissəsini lövhə tuturdu. Dərslər kiçik fasilələrlə 10-12 saat davam edirdi (474, 1-2).

Müəllimlk fəaliyyəti ilə din xadimləri – molla, mirzə və axundlar məşğul olurdu (499, 902; 474, 1; 30, 42). Dərs deyən müəllimlərin cəmiyyətdə hörməti böyük idi. İnsanlar hər hansı çətinliklə üzləşdikdə belə polisdən əvvəl müəllimlərə müraciət edirdilər (474, 2).

Şagirdlərin və məllimlərin sayı adətən məscidlərin maliyyə vəziyyətindən asılı idi. Gəlirli vəqf mülkiyyəti olan məscidlər mədrəsələrə daha çox müdərris və vaiz cəlb edə bilirdi. Belə məscidlər hətta tanınmış hər hansı mücdəhidi dərs deməyə dəvət edirdi. Belə adlı-sanlı mücdəhidi dinləmək üçün diyarın hər yerindən adamlar gələrdi. Bu, mədrəsənin nüfuzunu daha da artırmaqla bərabər, tələbələrin sayına da böyük təsir göstərirdi (499, 902). Məktəblərdə müəllim üçün konkret təyin olunmuş məvacib yox idi. Onlar hər bir uşaqdan hədiyyələr qəbul edirdi. Bu hədiyyələrin böyük hissəsi Quran oxunub başa çatdırıldıqda-yəni uşaq məktəbi bitirdikdə verilirdi. Bundan əlavə, müəllim dini bayramlarda, əsasən də Qurban bayramında müəyyən-hədiyyə mükafat alırdı (474, 3).

Azərbaycanlı türkləri təhsilə ciddi fikir verirdilər. Bunun üçün valideynlər müəllim tərəfindən uşaqlarının cəzalandırılmasına razı idilər. Mirzə Haşım bəy Vəzirov qeyd edirdi ki, valideynlər yaxşı təhsil alması üçün uşaqlarının müəllim tərəfindən cəzalandırılmasına təmkinlə yanaşırdılar (474, 2-3).

Qeyd etmək lazımdır ki, İrəvan bölgəsində məktəb və mədrəsələrdən kənarda fərdi dərs deyən müəllimlər də olmuşdu. Onların, adətən, bir neçə tələbəsi olurdu. İ.Şopenin yazdığına görə, belə müəllimlər hər ay 20 gümüş qəpik məvacib alırdılar (499, 903).

Məktəb və mədrəsələrin özlərini ənənəvi dərs proqramları vardı. Müsəlman məktəblərində təhsil ərəb və fars dilində verilirdi. Mədrəsələrdə həm dini, həm də dünyəvi elmlər tədris edilirdi.

Burada bütün elmlər üç əsas sahəyə bölünürdü. Hər bir sahə, tədris qaydasına görə özlüyündə müxtəlif qollara ayrılırdı. Birinci sahə "Əl – ərəbiət" adlanırdı. Bu sahə 12 bölmədən ibarət idi ki, 10 bölməyə ərəb dili qaydalarının, 1 bölməyə tarixin öyrənilməsi, 1 bölməyə isə Quranın oxunması daxil idi; ikinci sahə "Əl-şəriə" adlanırdı. Bu sahə 6 bölmədən ibarət olmuşdu. Bütün bu bölmələrdə Quranın təfsiri, hədislər, dini hüquqların və müxtəlif təriqətlərin əsasları öyrənilirdi. Üçüncü sahə "Əl-həkimə" hesab edilirdi. Bu sahə özlüyündə 5 hissəyə ayrılırdı. Burada məntiq, riyaziyyat, coğrafiya, münəccimlik, tibb və nəzəri fəlsəfə öyrənilirdi (499, 903-904).

Müsəlman məktəblərində dərslər oxumaq və yazmaqla məhdudlaşırdı. Əvvəlcə tələbələrə ərəb, fars və türk əlifbası, sonra isə Quran öyrədilirdi. Quranın öyrənməsinə üç və ya dörd il vaxt sərf olunurdu. Qurandan sonra tələbələrə fars dilində olan "Gülüstan" öyrədilir, onun hər cümləsi Azərbaycan türkcəsinə tərcümə edilirdi. Ondan sonra uşaqlara əxlaqi keyfiyyətdən bəhs edilən "Nani-halva" ("Çörək və halva") əsəri öyrədilirdi. Şagirdlərə hətta "Leyli və Məcnun" əsəri də keçirilirdi. Bir neçə il ərzində fars dilində olan kitablar şagirdlər tərəfindən oxunub yazılırdı. Əgər şagird tez oxuya və yaza, eyni zamanda qanun və müəyyən ədəbi əsərləri əzbər bilirdisə, ən əsası isə "Quran"ı oxuyub başa çıxırdısa onun təhsili sona çatmış hesab olunurdu. İrəvanda şagird və tələbələr şerə böyük həvəs göstərirdilər. Onların əksəriyyəti Nizamini, Firdovsini, Rudəkini, Camini, Hafizi, Sədini və şərqin digər böyük şairlərinin şeirlərini əzbərdən bilirdilər. Hətta bəziləri şeir də yazırdı (499, 904; 468, 4).

İrəvanlıların dərs vəsaiti əsasən Quran, hədis və tarixi kitablardan ibarət idi. İ.Şopenin yazdığına görə, hər bir irəvanlının evində Quran və hədislərə aid kitablara rast gəlmək olurdu (499, 917).

Qeyd etmək lazımdır ki, İrəvan bölgəsində baş verən hərbi-siyasi proseslər təhsilə də böyük təsir göstərmişdi. Müxtəlif illərdə aparılmış statistik araşdırmalar məlumatları da bunu deməyə əsas verir. Belə ki, müstəqil xanlıq dövründə İrəvan şəhərinin baş məscidinin nəzdindəki mədrəsədə 200, 1836-cı il məlumatına görə, 100-

ə qədər, 1850-ci il məlumatında isə 50 tələbə təhsil almışdı. Bir məlumata görə burada dərs deyən müəllimlərin məvacibi 20 qəpikdən 1 gümüş rubla bərabər idi (499, 902-903; 260, 275; 217, 445).

İşğaldan sonra mədrəsələr fəaliyyətini davam etdirsə də, onların üzərində ciddi nəzarət qoyulmuşdu. Digər tərəfdən, onların fəaliyyəti çar orqanlarını təmin edirdi. Çünki mədrəsələr yerli əhalinin təhsil tələbatını ödəməklə bərabər, dövlət xəzinəsini tədris müəssələrinə əlavə vəsait xərcləməkdən xilas edirdi (23, 130)

Rusiya işğalından sonra Cənubi Qafqazda, o cümlədən İrəvan bölgəsində ənənəvi məktəblərlə bərabər, yeni Avropa tipli məktəblərin yaradılması qərara alındı. Yerlərdə yeni tipli-qəza məktəblərinin açılması barədə Maarif Nazirliyi qarşısında qaldırılmış məsələ ilə əlaqədar olaraq 1829-cu il avqustun 2-də çar tərəfindən Cənubi Qafqaz məktəblərinin vəziyyəti haqqında "Əsasnamə" təsdiq edildi. Bu əsasnaməyə görə, qəzalarda açılan Avropa tipli məktəbdə qəbul edilən dərs proqramında dini təhsil, rus və yerli dillər və hesab fənlərinin tədris edilməsi qərara alınmışdı (287, 97; 369, №3060).

Yerlərdə məmur kadrlarına ehtiyacı olan və onları Rusiyadan dəvət etməyin məqsədəuyğun olmadığını nəzərə alan çar orqanları belə məktəbləri açmaqla üç məqsəd güdürdü. Birincisi, zadəgan və məmur uşaqlarını dövlət qulluğuna hazırlamaq; ikincisi, yeni hakimiyyətə sədaqətlə qulluq edən şəhər və digər imtiyazlı təbəqələrin uşaqlarını savadlandırmaq; üçüncüsü isə daha yüksək təhsil sistemi hesab edilən gimnaziyaya qəbul olunmaq üçün uşaq hazırlamaq. Bu məktəblərdə təhsil pulsuz idi. Yaş həddinə görə təhsil alan uşaqlar 9 yaşından kiçik, 15 yaşından böyük olmamalı idi. Qəza məktəbində rus dili proqramda əsas fənn hesab edilirdi. Lakin yerli xalqdan rus dilini bilən sadiq məmurlara olan ehdiyacı nəzərə alan çar hakimiyyət orqanları qəza məktəblərində Azərbaycan türkcəsinin tədris edilməsinə razılıq vermək məcburiyyətində qalmışdı (190, 51-54).

Haqqında danışdığımız "Əsasnamə"yə görə, XIX yüzilliyin 30-cu illərin əvvəllərindən başlayaraq Cənubi Qafqazın bir sıra qəzalarında yeni tipli məktəblərin açılmasına başlanıldı. Bu

məktəblər ikisinifli idi. Qəza məktəbləri haqqında qəbul olunmuş "Əsasnamə"yə görə, İrəvan şəhərində ilk belə məktəb 1832-ci il yanvarın 14-də açıldı (189, 81). Burada Azərbaycan türkləri ruslarla bərabər ermənilər də təhsil alırdılar. Məktəbdə yalnız oğlanlar oxuyurdular. Təhsil alanların əksəriyyəti zadəgan təqəbələr və tacirlərin uşaqları idi. 1834-cü ilin fevral ayına olan məlumata görə, İrəvan qəza məktəbində 37 şagird, 1836-cı il məlumatına görə isə 60 şagird təhsil alırdı (287; 260, 275). 1850-ci ildə bu qəza məktəbində 6 müəllim və 109 şagird qeydə alınmışdı. Bu şagirdlərdən 48-i imtiyazlı təbəqələrin və məmurların, 61-i isə sadə vətəndaşların uşaqları idi. Məktəbin tərkibində 200 nüsxə kitabı olan kitabxana da fəaliyyət göstərmişdi (217, 445). 1852-ci ilin məlumatında isə İrəvan qəza məktəblərində oxuyan şagirdlərin milli tərkibi göstərilmişdi. Bu qəza məktəblərində oxuyan şagirdlərindən 20-i Azərbaycan türkü, 11-i rus, 115-i isə erməni olmuşdu (50, 623).

Qeyd etmək lazımdır ki, digər sahələrdə olduğu kimi, təhsil sahəsində də çar orqanları Azərbaycan türklərinə qarşı ögey münasibət bəsləyirdi. Onlar hər vasitə ilə Azərbaycan türklərinin maariflənməsinə mane olmağa çalışır, əhalini cəhalətdə saxlamaq istəyirdi. Çar orqanlarına arxalanan ermənilər də Azərbaycan türklərini sıxışdırırdılar. Səyyah X.F.B.Linç XIX yüzilliyin 90-cı illərin əvvəllərində İrəvanda olarkən qəza məktəblərinə baş çəkmiş və burada Azərbaycan türklərinin az miqdarda təhsil aldığının şahidi olmuşdu. Bunun səbəbini göstərən səyyah yazırdı ki, "əgər yada salsaq ki, tatarlar (Azərbaycan türkləri – E. Q.) İrəvan şəhərinin yarısını təşkil edir, həmçinin onların sayı bütün quberniyada daha çoxdur, bu məktəblərdə onların böyük olmayan faizi əhəmiyyətli faktdır. Bu xalq bütünlüklə qərb təhsilindən üz döndərmiş və ona görə də yeni mühütlə ayaqlaşa bilməyən tayfa kimi ermənilər tərəfindən sıxışdırılmağa məhkum edilmişdi" (241, 290).

Digər tərəfdən, qəza məktəblərində ixtisaslı müəllimlərin çatışmaması da güclü bir maneə yaradırdı. Xüsusilə yerli dilləri tədris edən müəllimlər çatışmırdı. Bu boşluğu doldurmaq üçün din xadimləri tədrisə cəlb edilirdi. Lakin XIX yüzilliyin 50-ci illərindən başlayaraq, müəllim heyəti qəza məktəblərinin ilk məzunları olan

Azərbaycan türkləri hesabına artmağa başladı. Qabaqcıl ziyalı qüvvələr xalqın maariflənməsinə çalışırdı. Bu qüvvələr öz vəsaitləri hesabına məktəb açaraq Azərbaycan türkcəsində dərs deyirdilər. İrəvan bölgəsində də vəziyyət eyni idi. Məsələn, 1836-1856-cı illərdə Molla Tağı Mahmud oğlu, 1856-1885-ci illərdə Mirzə Ələkbər Elxanov qapı-qapı gəzərək uşaqları məktəblərə cəlb edir, dərs vəsaitinin, demək olar ki, olmamasına baxmayaraq, onlara bilik verirdilər (50, 540).

Qafqazda yeni tipli məktəblərin açılmasında "maraqlı olan" çar Rusiyası təhsili daimi və ciddi nəzarətdə saxlayırdı. İlk dövrlərdə konkret və xüsusi rəhbərliyi olmayan qəza məktəbləri Tiflis gimnaziyasının direktoru vasitəsilə Xalq Maarif Nazirliyi ilə yaxın təmasda olan Gürcüstan baş hakiminə tabe idi (23, 130). 1840-cı ildən qəza məktəbləri Cənubi Qafqaz məktəbləri Baş müfəttişinin, 1846-cı il yanvarın 6-da çarın fərmanına görə isə bu diyarın təhsil sistemi Qafqaz canişinliyinin ixtiyarına verildi. 1848-ci il dekabrın 18-də "Qafqaz təhsil dairəsi" yaradılması haqqında çar I Nikolayın imzası ilə sərəncam imzalandı (190, 22-23). Maraqlı cəhət odur ki, bu sərəncama əsasən qəbul edilmiş əsasnamədə İrəvan qəza məktəbi Naxçıvan və Yelizavetpol qəza məktəbləri ilə birlikdə Cənubi Qafqazda müsəlman məktəblərinin yaradılmasının başa çatdırılmasına qədər Şamaxı-Dərbənd müdiriyyətinin tabeliyinə daxil edilmişdi (190, 25). Həmin təlimatda eyni zamanda kəndlilərin dövlət məktəblərində təhsil almasına qadağa qoyulmuşdu. Belə ki, təlimatın 5-ci fəsilinin 89-cu bölməsində xəzinə, mülkədar və vəqf torpaqlarında çalışan kəndlilər dövlət məktəblərində təhsil ala bilməzdi (190, 51).

XIX yüzilliyin ortalarında çar hakimiyyət orqanları qızlar üçün də məktəb açmaq məcburuyyətində qaldı. Belə ki, 1850-ci il yanvarın 1-də İrəvanda qızlar üçün "Müqəddəs Ripsimi" məktəbi açıldı. Məktəb əsasən xeyriyyəçilərin hesabına saxlanılırdı. Burada 21 şagird – 3 Azərbaycan türkü, 5 rus və 13 erməni təhsil alırdı (499, 445).

**Ədəbiyyat**. İrəvan bölgəsinin ədəbi həyatında mühüm yerlərdən birini poeziya tuturdu. Şairlər şeirlərində məhəbbət mövzusu ilə

bərabər dövrdən, zəmanədən şikayəti özündə əks etdirən ictimai-siyasi mövzulara da toxunurdular. İrəvan bölgəsi şairlərindən şair Məmmədsoyu (1800-1884), Alməmmədi (1800-1868), Aydını (1825-1915) göstərmək olar (58, 28-62). Bu şairlər öz şeirlərini xalqın başa düşəcəyi canlı, səlis və aydın tərzdə yazmaqla xalq şeiri üslubu ənənələrinin zənginləşdirilməsində xüsusi xidmətlər göstərmişdilər.

Azərbaycan şifahi xalq ədəbiyyatının növlərindən biri olan aşıq şeiri İrəvanda da geniş yayılmış, bu sahədə ədəbiyyatımızın böyük simaları fəaliyyət göstərmişdilər. Orta əsrlərdən İrəvan bölgəsində bir sıra aşıq məktəbləri formalaşmışdı. Bunlardan Göyçə və Gümrü aşıq məktəblərini qeyd etmək olar. Təəssüf ki, bəhs etdiyimiz dövrün ilk illərinə aid aşıqlar haqqında məlumat əldə edə bilmədik. Yalnız xanlıqlar dövründən başlayaraq bölgədə yaşayıb yaratmış bəzi aşıqlar haqqında dövrü ədəbiyyatda məlumatlara rast gəlmək olar. Qeyd etmək lazımdır ki, Göyçə aşıq məktəbinin bəzi nəhəng simaları Azərbaycan mədəniyyətində dərin və əvəzedilməz iz buraxmışdı. Zəmanənin bütün ağrı-acısını öz yaradıcılıqlarında əks etdirən bu el aşıqlarının xalq arasında böyük hörməti olmuşdu. Göyçə məktəbinin ən parlaq simalarından Ağ Aşıq adı ilə tanınan Aşıq Allahverdini (1754-1860), onun şagirdi olmuş ustad Aşıq Alını (1800-1911), onun şagirdi olmuş Astad aşıq Ələsgəri (1821-1926), Aşıq Məhərrəmi (1825-1910), Aşıq Əzizi (1825-1918) və Aşıq Musanı (1830-1912) qeyd etmək olar (62, 16-86).

Gümrü aşıq məktəbinin tanınmış simalarından biri də Aşıq Tüccar (1780-1860) idi. İstedadı ilə xalq arasında böyük hörmət qazanmış bu aşığın çoxlu şagirdləri olmuşdu. Bundan başqa, Gümrü aşıq məktəbinin tanınmış nümayəndələrindən Aşıq Beymuraz, Şirəkli Həsəni qeyd etmək olar. Hələ XIX yüzillikdə Şirəkli Həsənin Gəncədə kitabi çap olunmuşdu (39, 205).

İrəvan aşıq məktəbinin görkəmli simalarından Basarkeçərli Aşıq Musanı da (1795-1840) qeyd etmək olar. O da aşıq poeziyası ənənələri əsasında ədəbi irs yaradan aşıqlardan biri olmuşdur (23, 149).

İrəvan aşıq məktəbinin fərqli cəhətlərindən biri də o idi ki, onlar erməni aşıqlarına böyük təsir göstərə bilmişdilər. Təsir o dərəcə özünü büruzə verirdi ki, erməni aşıqları Azərbaycan türkcəsində yazıb-yaradırdılar. Deməк olar ki, Azərbaycan türkcəsində yazıb-yaradan xüsusi erməni aşıq məktəbi də vardı. İrəvanda Aşıq Şirinin və Gümrüdə Aşıq Bavenin başçılığı ilə Azərbaycan türkcəsində yazıb-yaradan erməni aşıq məktəbləri olmuşdu. XVIII yüzillikdə Azərbaycan türkcəsində nəğmələr qoşmuş aşıqlardan Miranın, Bağıroğlunun, Əmiroğlunun, Qul Yeqazın, Turab Dədənin, Şamçı Melekonun, Kiçik Novanı, Qul Hovanesi və digərlərinin adları məlumdur (39, 208).

**Musiqi və rəqs.** İrəvan bölgəsinin müsiqi və rəqs sənəti də Azərbaycanın ümumi musiqi və rəqs mədəniyyətinin üzvi tərkib hissəsi idi. İctimai-siyasi vəziyyətdən asılı olmayaraq bu incəsənət sahələri daim inkişaf etmişdi. Bəhs etdiyimiz dövr çərçivəsində fransız səyyahı J.Şardən, habelə İ.Şopen İrəvan bölgəsində mövcud olan musiqidən və rəqsdən bəhs etmişdilər. Bölgədə Azərbaycan müsiqisi əsas müsiqi olmuşdu. Bu musiqi azlıq təşkil edən ermənilərə də böyük təsir göstərmişdi. Belə ki, ermənilər mahnılarını Azərbaycan türkcəsində oxuyurdular. İ.Şopen bu sənət növlərində Azərbaycan türklərini ermənilərlə müqayisə edərək yazır ki, "...Azərbaycan türkləri hər cür əyləncəyə, xüsusən də mahnı və rəqsə meyllidirlər. Onlar bu sahədə ermənilərin müəllimi idi" (499, 896).

Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsində də musiqiçilər tarzəndən, kamançaçıdan və müğənni olan qavalçıdan ibarət xanəndə ansanblından və aşıqlardan ibarət olmuşdu. Musiqi alətlərində yalnız kişilər çalırdı. Xalq arasında böyük hörməti olan müsiqiçilər bölgəni gəzərək toylarda və digər mərasimlərdə çıxış edirdilər. Hətta müharibələr dövründə ordunun tərkibində fəaliyyət göstərərək, onları mübarizəyə ruhlandırırdılar (499, 896-897).

Bundan əlavə, müsiqiçilər İrəvan hakimlərinin təşkil etdikləri saray mərasimlərinin bəzəyi idi. Sarayda musiqiçilər və rəqqaslar hakimin qulluqçu sisteminə daxil idilər. İrəvanda saray mərasim-

lərinin birində olan J.Şardən yazırdı ki, “musiqiçilər və rəqqaslar Şərqin mimləri (mimik hərəkətlərlə tamaşa göstərən aktyor) və ya məzhəkəçiləridirlər; daha dəqiq desək bu, onların operasıdır. Ancaq onlar burada şeirləri mahnı kimi oxusalar da, nəsr qətiyyən onların mahnısına daxil olmurdu” (64, 27-28). Daha sonra müğənninin oxumağına valeh olan səyyah qeyd edir ki, “oxumağa gəldikdə ən yaxşı müğənnilər adi adamlar içərisindən çıxırdı. Onların səsi güclü olub, sanki içlərinin dərinliyindən dartılıb çıxır. Onlar mahnını bütün gücü ilə oxuyur və çoxlu zəngülə vururlar” (64, 27).

Rusiya işğalından sonra aparılmış kameral təsvirə görə, İrəvan şəhərində 5 Azərbaycan türkü, 7 erməni, mahallarda isə 5 Azərbaycan türkü, 54 erməni musiqiçisi qeydə alınmışdı. İ.Şopen yazır ki, “qəribədir ki, musiqi və mahnını tatarlardan (Azərbaycan türklərindən – E. Q.) mənimsəyən erməni musiqiçiləri vilayətin musiqiçilərinin $^{8}/_{9}$ hissəsini təşkil edirdi” (499, 897). Bu sənət növünün əsas daşıyıcıları olan Azərbaycan türklərinin bölgənin bu sahəsində azlıq təşkil etməsi inandırıcı görünmür. Bunun iki səbəbi ola bilər. Birinci səbəbi, yuxarıda göstərildiyi kimi, işğalla bağlı idi. Bu işğal əhalinin etnik tərkibinə təsir göstərdiy kimi, musiqi sənətinə də böyük təsir göstərmişdi. İkinci səbəb isə çarizmin köçürmə siyasəti ilə bağlı idi.

Rəqs də İrəvanın incəsənət növlərindən biri idi. J.Şardən, İ.Şopen və N.Dubrovin irəvanlıların rəqsetmə məharətini öz əsərlərində xüsusi vurğulamışlar. İrəvanlıların rəqs etməsinin şahidi olan J.Şardən yazırdı ki, “Şərqdə əylənmək və bir-biri ilə xoş rəftar etmək xətrinə rəqs etmək adətləri yoxdur. Onlarda rəqs bir incəsənət və ya sənət kimi mövcud olub, Avropadakı teatr sənətinə oxşardır, camaatı əyləndirmək məqsədini güdür” (64, 27). İrəvanlıların toylarını, bayram şənliklərini, saray məclislərini musiqçi və xanəndələrlə bərabər rəqqaslarsız təsəvvür etmək olmazdı. Rəqqaslar İrəvan məclislərinin bəzəyi idi. Toylarda onlar öz məharətləri ilə tamaşaçıların o qədər marağına səbəb olurdular ki, insanlar onların başlarına pul səpələyirdi. Bunun nəticəsində “o qədər pul yığılırdı ki, onun bir hissəsi musiqiçilərə, digər hissəsi isə ev sahibinə çatırdı” (181, 374).

Saray məclislərinin əsas rəqqasları qadınlar idi. Burada rəqslər öz rəngarəngliyi ilə seçilir və rəqqasların hərəkəti mahnı və tamaşalar ilə müşayət olunurdu. Bunun şahidi olan və rəqqaslarımızın hərəkətlərindən valeh olan J.Şardən qeyd edirdi ki, "rəqqaslar da mahnı oxuyurlar. Onların mahnısı kişilərinki kimi yaxşı və hətta xoşagələndir. Rəqqasların onlardan üstünlüyü bədən hərəkətlərinin müqayisəolunmaz dərəcədə çəldliyidir. Onlar fırlanaraq, yüngülcə atılıb düşür, bəzən elə hərəkətlər edirlər ki, gözlə görmək olmur, bu zaman ən yaxşı akrobatları və kəndirbazları kölgədə qoyurlar. Mən rəqqasların bədənlərini bir çox vəziyyətlərdə açdıqlarını görmüşəm. Belə hərəkətləri, rəssamların dediyi kimi, "ağacdan hazırlanmış adamlar" – manikenlər edə bilərlər. Onların arasında elələri var ki, başı dabanlarına dəyincə qatlanır və bu vəziyyətdə əllərinin köməyi olmadan yeriyir. Onlar bir əli üstündə və bir dizi üstündə ritmik hərəkətlər edir, təəccüb doğuran çəldliklə yüz dəfələrlə fırlanmaqla rəqsi zənginləşdirirlər" (64, 27).

Məclislərdə rəqqaslar qrupu rəqs edə-edə tamaşalar da göstərirdi. Tamaşalar adətən məhəbbət mövzusunda olurdu. Üç hissədən olan tamaşalar maraqla izlənilirdi. Birinci hissədə tamaşa məhəbbətin təsviri ilə başlayırdı. Ikinci hissədə truppa iki dəstəyə ayrılaraq xor oxuyurdu. Birinci dəstə təsirlənmiş aşiqin keçirdiyi hissləri ifadə edirdi. İkinci dəstə məğrur bir məşuqun birbaşa verdiyi rədd cavabını təqdim edirdi. Üçüncü hissədə sevgililərin razılığa gəlmələrini əks etdirirdi (64, 28).

**Təsviri sənət və maddi-mədəniyyət abidələri.** İrəvan bölgəsində təsviri sənət də inkişaf etmişdi**.** Yuxarıda göstərildiyi kimi, xan sarayının divarlarında əks etdirilən rəsmlərdən görünür ki, bu sahə İrəvanda hansı səviyyədə olmuşdur. İrəvan təsviri sənətinin çox görkəmli nümayəndələrindən biri Azərbaycanın böyük rəssamı Mirzə Qədim İrəvanidir (1825-1879). Bu böyük rəssam ömrünün qısa olmasına baxmayaraq, Azərbaycan təsviri sənətinə böyük tövhələr vermişdir. O, 1825-ci ildə İrəvanda dülgər ailəsində anadan olmuşdu. M.Q.İrəvani ilk təhsilini yerli məktəbdə almış və təhsilini Tiflisdə progimnaziyada davam etdirərək, oranı bitirmişdir. Təhsilini başa vuran rəssam doğma İrəvana qayıdaraq, ömrü boyu

poçtda teleqrafçı vəzifəsində çalışmışdı. O, hələ progimnaziyada oxuyarkən rus, fars və fransız dillərini öyrənmiş, musiqiyə həvəs göstərmişdi. M.Q.İrəvani rəssamlıq sənətini ağac üzərində bədii oyma ustası olan atasından öyrənmişdi. Yaradıcılığının ilk dövrlərində dekorativ sənətlə məşğul olan rəssam bir sıra portretlər çəkmişdi. Bir sıra ornament kompazisiyalar, gül-çiçək təsvirləri, divar rəsmləri, taxta üzərində oyma və bədii parçalar üçün eskizlər çəkməsinə baxmayaraq, Mirzə Qədimin yaradıcılığında portiret janrı əsas yer tuturdu. Belə portiretlərdən "Süvari", "Rəqqasə", "Dərviş" əsərlərini qeyd etmək lazımdır.

M.Q.İrəvaninin yaratdığı rəsmlərin bir hissəsini İrəvan sərdar sarayı üçün çəkdiyi rəsmlər təşkil edir. O, XIX yüzilliyin 50-ci illərində sərdar sarayındakı süjetli kompazisiyaları bərpa etmiş, sarayın güzgülü zalında bir sıra portretlər – "Fətəli şah", Abbas Mirzə", "Hüseynqulu xan", "Sərkərdə" və s. çəkmişdir.

M.Q.İrəvaninin yaradıcılığı rəngarəng idi. Onun 100-dən çox rəsm əsəri olmuşdu. Bunlardan 25-i hazırda Bakıda İncəsənət Muzeyində, Tbilisdə və Sankt-Reterburqda saxlanılır (104, 87-102; 17, 122-123; 19, 517-518; 70, 21-24; 23, 156-157).

İrəvan bölgəsində təsviri sənətin inkişafını bildirən maddi mədəniyyət abidələrindən qəbir daşlarını göstərmək olar. Qəbir üstündə düz vəziyyətdə qoyulmuş bu daşlar mərhumun anadan olmasını və ölməsini bildirən yazılarla, müxtəlif fiqur və naxışlarla bəzədilirdi. Azərbaycan türklərinin qəbir daşlarındakı təsvirlər rəmzi məna daşıyaraq, mərhumun həyatda həvəs göstərdiyi işinə bir işarə idi. İ.Şopen XIX yüzilliyin 30-cu illərin əvvəllərində Göyçə mahalında Azərbaycan türklərinə məxsus qəbirstanlıqda müxtəlif təsvirlərlə bəzədilmiş qəbir daşlarına rast gəldiyini bildirmişdi. Onun yazdığına görə, qəbir daşındakı at, qılınc, silah hərbiçiyə, qaban, maral, vəşhi keçi ovçuluğa, qoyun, keçi çobanlığa işarə idi. Bəzi qəbir daşlarında içkiyə, kefə meylli adamı bildirən üstündə yeməklər, boşqablar və digər əşyalar olan stol, digərlərində şərab olan küp və piyalə təsvir edilmişdi (499, 718). Bütün bunlar sübut edir ki, İrəvan bölgəsində belə təsviri sənətlə məşğul olan xüsusi rəssamlar dəstəsi fəaliyyət göstərmişdi.

**Memarlıq.** İrəvan bölgəsinin bəhs etdiyimiz dövrün memarlıq abidələri dövrümüzə gəlib çatmasa da, mənbələrdə bu sənət növü haqqında xeyli məlumatlara rast gəlmək mümkündür. Bu məlumatlara görə, bölgə özünün karvansaraları, qalaları, məscidləri, binaları və digər memarlıq abidələri ilə zəngin olmaqla bərabər, bu abidələr orijinallığı, memarlıq üslubu ilə seçilmişdi. İrəvan bölgəsinin memarlıq abidələri sübut edir ki, bəhs etdiyimiz dövrdə bu diyarda da bir sıra gözəl imarətlər yaradan memar-bənnalar olmuşdu.

Bölgənin yeganə şəhəri olan İrəvan şəhəri zəngin memarlıq abidələri ilə xüsusilə seçilmişdi. Şəhərdə istər yaşayış binaları, istərsə də ictimai binalar memarlıq üslubu ilə zəngin olmaqla bərabər, dövrə uyğun tikilmişdir. Bütün Azərbaycan şəhərlərində olduğu kimi, İrəvan şəhəri də tez-tez xarici müdaxiləyə və ara müharibələrinə məruz qaldığından istər küçələr, istərsə də evlər müdafiəyə uyğun, çiy kərpicdən, çay daşından tikilirdi. Küçələr dar və əyri idi. Onlar çiy kərpicdən, çaydaşından və bəzən də palçıqdan hazırlanmış iki cərgəli divarlarla əhatə olunmuşdu. Bu divarlar hərdən kip örtülmüş həyət qapıları ilə kəsilirdi (499, 466; 256, 25).

Şəhərdə evlər elə tikilmişdi ki, bayırdan nəzərə çarpmırdı və onların zahiri görünüşü o qədər də yaxşı təsir bağışlamırdı. Lakin onlar daxildən daha zəngin və səliqəli olurdu. Hər bir evin ətrafında bağ, evlərin qarşısında isə təmiz daşdan döşənmiş, qocaman tut və yaxud qoz ağacları ilə kölgələnən səliqəli həyət vardı. Həyətin ortasında isə fəvvarəsi olan daş hovuz yerləşirdi. Evlərin otaqları adətən tamamilə bayır divarı əhatə edən iri pəncərələrlə işıqlanırdı. Pəncərələr aşağı-yuxarı örtülüb bağlanırdı. Onlar gözəl və müxtəlif naxışlar və cürbəcür rənglərlə bəzədilirdi (499, 466-467).

Lakin adi şəhər sakinlərindən fərqli olaraq, imkanlı və nüfuzlu şəxslərin evləri daha geniş, təmtaraqlı və səliqəli idi. Belə evlərin həyətə açılan geniş qapısı olurdu. Bu evlərin divarları ağ suvaqla hamar şəkildə suvanılır və süni yapma naxışlarla bəzədilirdi. İ.Şopen bu bəzəkləri Avropanın mərkəzi saraylarının bəzəklərindən daha yaxşı hesab edirdi (499, 467, 893). Evlərin qızdırılması üçün onun içərisində soba yerləşdirilirdi. İ.Şopen belə sobaları otaq

qızdırıcısından çox bəzəyə oxşadırdı. Belə ki, sıravi şəhər əhalisi qızdırıcı kimi kürsü-kürəyə daha üstünlük verirdi (499, 467).

İrəvanlıların evləri bəzəməsi adəti də Azərbaycanın digər ərazilərində olduğu kimi idi. Evlərin mebeli yox idi, döşəməsi bahalı xalçalarla döşənirdi. Divarlarda bəzək əşyaları, saxsı qabları və digər lazımlı şeyləri yığmaq üçün taxçalar olurdu. Aşağı taxçaya mücrü və sandıq, yuxarıdakına isə içərisi şərabla, meyvələrlə dolu müxtəlif formalı billur və çini qablar qoyulurdu (499, 467).

İrəvan şəhərində yaşayış evlərindən başqa çoxsaylı ictimai binalar və məscidlər də vardı. Kameral siyahıyaalmaya görə, bu şəhərdə ikisi qalada, altısı isə şəhərdə olmaqla səkkiz iri məscid qeydə alınmışdı. Məscidlər memarlıq baxımından daha zəngin idi. Onların bəzisi uzun illər öz əzəmətini saxlamışdı. XIX yüzilliyin 90-cı illərin əvvəllərində İrəvanda olmuş X.F.B. Linç yazırdı ki, “qalada olan məscidlərlə yanaşı bütün digər müsəlman dini binaları da əla qaydada idi” (241, 280). Rusiya işğalından sonra İrəvanda Zalıxan məscidi, Novruzəli bəy məscidi, Sərtib xan məscidi, Hüseynəli xan məscidi, Hacı İmamverdi məscidi, Hacı Cəfər bəy məscidi salamat qalmışdı (499, 468). Məscidlərin içərisində möhtəşəmliyinə görə, Hüseynəli xan məscidi və yaxud Göy məscid daha məşhur idi. Gümbəzi göy rəngli kaşı ilə bəzədildiyi üçün Göy məscid adlanan bu məscid İrəvan şəhərinin qərb hissəsində, hər tərəfdən Azərbaycan türklərinin yaşadığı evlərin əhatəsində yerləşmişdi. Məscid memarlıq baxımından, böyüklüyünə və bəzəyinə görə insanı valeh edirdi. İrəvanın Göy məscidi Gəncədəki Şah Abbas və Təbrizdəki Göy məscid üslubunda tikilmişdi. O, bir məlumata görə, 1764-cü ildə, başqa məlumata görə isə 1770-ci ildə Hüseynəli xan tərəfindən tikdirilmişdi (258, 7; 217, 444).

Göy məscid uzunluğu 87 metr, eni 58 metr olan dördkünclu bir ərazidə yerləşmişdi. Onun böyük minarəsi və geniş həyəti olmuşdu. Həyətin ortasında çarhövuz var idi (241, 279).

Böyüklüyünə görə Göy məsciddən geri qalan, lakin memarlıq baxımından əla formada olan məscidlərdən biri də Novruzəli bəy məscidi (X.Linçdə Nəsrulla bəy məscidi – E.Q.) idi. Məscid 1687-ci

ildə inşa edilmişdi. Onun quruluşu Göy məscid formasına bənzəyirdi (241, 280).

Qala məscidlərindən biri 1725-ci ildə Osmanlı hakimi Rəcəb paşa tərəfindən tikdirilmişdi. Memarlıq cəhətdən diqqəti cəlb edən bu məscid Rusiya işğalından sonra rus pravoslav kilsəsinə çevrilmişdi. İrəvanın başqa bir məscidi Hüseynqulu xanın dövründə tikilmiş və Qacar şahzadəsinin şərəfinə Abbas Mirzə məscidi adlandırılmışdı. İşğaldan sonra həmin məscid ruslar tərəfindən silah anbarına çevrilmişdi (473, 8; 148, 230).

İrəvanda memarlıq baxımından diqqəti cəlb edən tikililərdən bir qrupu isə karvansaralar idi. Belə karvansaralardan biri zövqlü tikilişinə görə, habelə memarlıq baxımından hələ XVII yüzilliyin 70-ci illərin əvvəllərində İrəvanda olmuş fransız səyyahı J.Şardəni valeh etmişdi. Onun yazdığına görə, "ətrafında sıra ilə müxtəlif çeşidli malların satıldığı gözəl dükanların düzüldüyü bu karvansaranın uzunluğu 80 addım idi. Tövləsi və böyük dükanı olan dördkünc binanın üç böyük və 60 kiçik otağı vardı" (214, 243). Sonra fransız səyyahı J.Şardən İrəvanda olan karvansaraların Azərbaycanın digər bölgələrində olan karvansaralarla eyni üslubda tikildiyini göstərmişdi. Səyyah qeyd edirdi ki, "Səfəvilər dövlətinin şəhər və kəndlərində karvansaralar demək olar ki, eyni qaydada tikilirdi. Şəhərdə onları iki mərtəbəli tikirdilər. Uzunluğu 8 futdan (1 fut-30, 479 sm-ə bərabərdir) böyük olmayan, bina boyu eninə cərgə ilə düzülən otaqlardan ibarət olan karvansaraların hündürlüyü 20 futa bərabər idi... Otaqlar pəncərəsiz idi. Gün işığı yalnız qapıdan düşürdü. Hər bir otağın qarşısında binanın ön tərəfinə açılan, günbəzşəkilli örtüklə bəzədilmiş, eni 8 və içərisi 4-5 fut olan kiçik dəhliz vardı. Bu otaqlardan əlavə, hər iki otaqdan bir eyni hündürlükdə dəhliz uzanırdı. Azərbaycanlılar onu "Maatab" adlandırırdı. Otaqların arxasında dəhliz formasında tikilmiş, bütün binanı əhatə edən tövlə yerləşirdi. Yuxarıda hər iki tərəfdə divara geydirilmiş, tövlələrə bitişik, geniş eyvan vardı... Həyətin ortasında içməli su ilə təmin edən, diametri 20-30, hündürlüyü 6-8 fut olan olan altıkünclü hovuz yerləşirdi... Karvansaranın damı yastı idi. Buraya giriş dəhlizdəndir. Dəhlizin hər iki tərəfində adi yeməklər

satan dükanlar yerləşirdi. Bu dükanlar böyük taxta qapılarla bağlanırdı" (214, 234).

Fransız səyyahının karvansaralar haqqında verdiyi məlumatı XVIII yüzilliyin axırlarında Azərbaycanda olmuş digər səyyah M.Biberşteynin verdiyi məlumat ilə üst-üstə düşür. Şəhər karvansaralarının ümumi görünüşündən bəhs edən M.Biberşteyn qeyd edir ki, «şəhərlərdəki karvansaralar yerli qayda üzrə otaqlarla əhatə olunmuş geniş və dördkünc həyətdən ibarətdir. Burada yol boyunca bir-birindən müəyyən məsafədə yerləşən bir qədər başqa formada olan karvansaralara da rast gəlinirdi. Bu binalar böyükdür və iri yonulmuş daşlardan inşa edilmişdi. Onların damları yastı, otaqları tağlıdır. Karvansaraların dörd tərəfində qüllələr vardır ki, bunlar da onları yalnız karvanlar üçün sığınacağa deyil, həmçinin quldurlardan müdafiə olunmaq üçün bir vasitəyə çevirir» (101, 51).

İrəvan şəhərində zövqlə tikilmiş tikililərdən biri də kişi və qadın hamamlarıdır. Hamamlar həm yerli əhalinin, həm də şəhərə gələn əcnəbi qonaqların ləzzətli istirahət yeri idi. Hamamlar ortasında suölçəni olan kürəşəkilli qübbə və gümbəzlə örtülmüş bir neçə böyük zalı olan dördkünc otaqlardan ibarət idi. Buraya su xüsusi tikilmiş anbarlardan çəkilmiş su kəməri vasitəsilə verilirdi. İsti su qıraq otaqdan borularla ötürülürdü. Su odun əvəzinə xüsusi şəkildə qurudulmuş təzəklə qızdırılırdı (499, 865-866).

Həftənin iki günü hamamlardan qadınlar istifadə edirdi. Şəhər xanımları səhər tezdən təmtəraqla hamama gedirdilər, onun ardınca xalça, yastıq, yorğan, şərbət, qəlyanaltı, hər cür şirniyyat aparılırdı. Burada tanışlar bir-birini uca səslə salamlayır, yeniliklərdən danışır və bütün şəhərin dedi-qodusunu müzakirə edirdilər (499, 866).

Toyqabağı hamamlar daha çox qələbəlik olardı. Bu da Azərbaycan türklərinin toy-qabağı bəy və gəlini yaxın adamlarının müşayətilə təntənəli surətdə hamama aparması adətləri ilə bağlı idi (499, 866).

Haqqında danışdığımız dövrdə İrəvan şəhərində mövcud olmuş hamamlar bunlar idi: 1. Şəhər məhəlləsində – Şeyx-ül islama məxsus hamam; 2. Zalı xan hamamı; 3. Mehdi bəy hamamı; 4. Hacıbəyim hamamı; 5. Təpəbaşı məhəlləsində – Şeyx-ül islam ha-

mamı; 6. Hağı Əli hamamı; 7. Qafar və yaxud Hacı Fətəli hamamı; 8. Kərim bəy hamamı; 9.Dəmirbulaq məhəlləsində-Həsənəli hamamı (499, 866-867).

İ.Şopen qalada sərdarın hərəmxanasına məxsus gözəl tikilişli, lakin dağıdılmış hamam haqqında xüsusi yanğı ilə məlumat vermişdi. Sərdarın dövründə bu hamamın döşəməsi mərmərdən olmuş və naxışla bəzədilmişdi. Onun səliqə ilə kərpiclə düzəldilmiş, uzunu 15 sajen, eni 4 sajen və dərinliyi 3 arşın olan hovuzu da olmuşdu. Hövuza buraxılmış soyuq suda çimmək qala sakinlərinə yayın isti havasında ləzzət verirdi (499, 867).

İrəvan şəhərində özünün orijinal quruluşu ilə diqqəti cəlb edən meydanlar da vardı. Belə meydanlardan birini təsvir edən J.Şardən onun kvadrat formalı, sahəsi dörd yüz addım olduğunu qeyd etmişdi. İrəvanlılar burada müxtəlif idman oyunları – güləş, at yarışları keçirir, gəzişir və bir yerə yığılıb söhbət edirdilər (8, 243; 1, 469). 1829-1832-ci illər keçirilmiş kameral təsvirə görə, İrəvan şəhərində 5 meydan vardı. Bunlar aşağıdakılar idi: 1. Əsas meydan Xanbağı adlanırdı; 2. Bazarla qala arasında olan meydan; 3. Zalı xan meydanı; 4. İşçi bazarı; 5. Hüseynəli xan meydanı. Sonuncu meydan ən çox idman oyunları və digər tədbirlərin keçirildiyi meydan idi. O, ticarət köşkləri ilə əhatə olunmuşdu (499, 469; 260, 291).

Bəhs etdiyimiz dövr çərçivəsində İrəvan bölgəsinin memarlıq simasına qalalar böyük gözəllik vermişdi. İrəvan qalası bu baxımdan xüsusilə seçilmişdi. Hərbi məqsədlə tikilməsinə baxmayaraq, İrəvan qalası və qalada yerləşən xan sarayı memarlıq baxımından İrəvan şəhərinə gələn əcnəbiləri-səyyahları, diplomatları, hərbçiləri və iş adamlarını valeh etmişdi. 1813-cü ildə Qacar dövlətində fəaliyyət göstərən ingilis səfirliyinin katibi Moryer İrəvanda olarkən Hüseynqulu xan fəxrlə qala haqqında demişdi: "Əgər Avropanın üç və dörd dövləti birləşərək bu qalanı tutmaq istəsə, onlar onsuz da heç nəyə nail olmazlar və əli boş qayıdarlar" (241, 274). Deyilmiş bu sözlər İrəvan qalasına verilmiş ən gözəl qiymət idi. Haqqında danışılan bu İrəvan qalası 1583-cü ildə Osmanlı qoşunu tərəfindən tikilmişdi (140, 486). Qala cənubdan şimala doğru uzanaraq qərb

tərəfdən Zəngi çayının sahilinə söykənirdi. (300, 58-59; 495, 150-151; 235, 64). O, müharibələr və təbii fəlakətlər nəticəsində dəfələrlə dağılsa da, İrəvan hakimləri tərəfindən yenidən bərpa olunmuşdu. Fransız səyyahı İ.Şardənin yazdığına görə, "qala kiçik bir şəhərdən böyükdür. O, oval formasındadır, dairəsi dörd min addım olub, 800 evdən ibarətdir. Qalada ancaq təmizqanlı səfəvilər yaşayırdılar" (214, 242). Maraqlıdır ki, səyyahın qalanın sahəsi və evləri haqqında verdiyi bu məlumat Rusiya işğalına qədər öz əhəmiyyətini itirməmişdi. Belə ki, Rusiya işğalı dövründə də qalada cəmi 800 ev olmuşdu (260, 290).

Eni 790 m, uzunluğu 850 m olan İrəvan qalasının divarları daşdan və çiy kərpicdən ikiqat, yaxud üçqat divara malik olmuşdu. Bürclərinin sayı 17-yə çatan daxili divar daha enli və hündür idi. Bir qədər alçaq və ensiz olan bayır divar isə birincidən 15-20 sajen aralıda, ona paralel tikilmişdi. Bu divarda 60-a qədər top . Qalanın cənub, şimal, şərq hissələri dərin və enli xəndəklə əhatə olunmuşdu. Ümumiyyətlə, İrəvan qalasının 50-dən çox bürcü, 3 möhkəm dəmir darvazası vardı (403, 12; 163, 75; 495, 155; 214, 242; 144, 1; 492, 107; 130, 254; 236, 27; 256, 26; 63, 23-25).

İrəvan qalasında xanın sarayı, hərbi xidmətçilərin evləri, bir neçə dükan və iki məscid yerləşmişdi. Qala qarnizonunun sayı müxtəlif dövrlərdə 2-5 min, müharibələr dövründə isə 7 min nəfərə çatmışdı (495, 154; 214, 242; 236, 28; 403, 12). Qaladan çaya bir neçə bəndi olan gildən hörülmüş, divarlarla əhatə olunmuş eniş tikilmişdi. Zəngi çayının sol sahilindən, Qırxbulaq çayının cənub-şərq tərəfindən qalaya yeraltı su kəməri çəkilmişdi (260, 290).

Rusiya işğalından sonra İrəvan qalasının divarları uzun müddət saxlanılsa da, baxımsızlıq üzündən tədricən dağıntılara məruz qalmışdı. Nəticədə, bu möhtəşəm İrəvan qalasının divarları 1864-cü ildə tamamilə uçmuşdu (33, 176).

İrəvan xanlığında memarlıq baxımından məşhur olan tikililərdən biri də Sərdarabad qalasıdır. Qalanın əsası 1810-cu ildə Hüseynqulu xan tərəfindən qoyulmuş, 1815-ci ildə isə onun tikilməsi başa çatdırılmışdı (499, 255; 216, 106). İrəvan qalası kimi bu qala da düşmən hücumlarından qorunmaq üçün hərbi məqsədlə

tikilmişdi. Qala böyük strateji əhəmiyyətə malik idi. Bu haqda 1826-1828-ci illər Rusiya-Qacar müharibəsinin iştirakçısı M.E.Kotsebu yazırdı: "Sərdarabad qalası İrəvandan 50 verst qərbdə, Talın kəndindən Üçmüəzzinə uzanan əsas yolun bir neçə verstliyində yerləşirdi. Deyirlər ki, İrəvan sərdarı bir neçə il əvvəl ətrafda yerləşən kəndləri qorumaq üçün bu qalanı tikdirib. Lakin qala bir çox cəhətdən əhəmiyyətlidir. Təcili yardım üçün İrəvan qalası uzaqda yerləşdiyindən, o (qala-E.T.) İrəvan xanlığının bizimlə və türklərlə həmsərhəd olan hissəsini, habelə Araz çayından keçən ən yaxşı bərəni, Maku və Xoya gedən əsas yolu qoruyurdu..." (236, 28).

Sərdərabad qalası Arazın sol sahilində, dördbucaqlı formada düzən yerdə salınmışdı. Dairəsi 4 verst, üç tərəfdə qülləsi olan, çiy kərpicdən tikilmiş bu qala ikiqat divarla əhatə olunmuşdu. Çöl divarı daha qalın və hündür idi. Qüllələrdən 6-ı çöl, 4-ü isə iç divarda yerləşirdi. Qalanın cənub tərəfi birqat divara malik idi. Bu tərəfdə salınmış bağ geniş və sıx olduğundan qalaya yaxınlaşmaq çətin olurdu. Bütün hərbi qalalarda olduğu kimi, Sərdərabad qalasının ətrafı da xəndəklə əhatə olunmuşdu (260, 292; 256, 11; 223, 113; 139, 564; 502, 314-315). Qalada xan sarayı və 700 ev vardı (260, 292; 256, 12). Burada 22 top və 3 min nəfərlik qarnizon saxlanılırdı. Qalanın rəisi Həsən xan idi. Həsən xan qalada olmadıqda onu nəvəsi azyaşlı Fətəli xan əvəz edirdi (236, 28).

Qalaya Araz çayından çəkilmiş su kanalı buranı həm suvarma suyu, həm də əhalini içməli su ilə təchiz edirdi. Bundan əlavə, mühasirə dövründə bu kanalın qarşısını kəsmək və yönünü dəyişmək mümkün olduğundan, hər etimala qarşı bir neçə quyu və çarhovuz kanalın suyu ilə doldurularaq ehtiyat saxlanılırdı (223, 113-114).

Rusiya işğalından sonra Sərdarabad qalası erməni köçkünləri ilə doldurulmuşdu (26, 291-292). O, 1833-cü ildən 1849-cu ilədək dairə mərkəzi kimi məşhurlaşdı (370, 138; 499, 448).

Qeyd edilən möhtəşəm qalalarla bərabər İrəvanda kiçik qalalar da mövcud olmuşdu. Zəngi çayının sağ sahilində yerləşən bu qalanın tikilməsi haqqında A.Təbrizli maraqlı məlumat verərək yazır ki, 1603-cü ildə I Şah Abbas Təbrizi geri aldıqdan sonra os-

manlılar şah qoşununun təzyiqləri altında Naxçıvana və oradan da İrəvana geri çəkilmişdi. İrəvana gələn Osmanlı qoşunu İrəvan qalasının cənub hissəsində, ona yaxın yerdə daha bir qala tikərək ətrafına hasar çəkmişdi (165, 50). Bu qala sonradan "Keşikçi qalası" adını almışdı. "Keşikçi qalası" haqqında bir qədər ətraflı məlumat verən fransız səyyahı J.Şardən olmuşdu. O, qeyd edir ki, "İrəvan qalasının şimal tərəfində yerləşən təpədə kiçik bir qala da vardı. Hər iki qala arasındakı məsafə min addım olardı. O, ikiqat divarla və artilleriya ilə möhkəmləşdirilmişdi. Orada 200 adam yerləşə bilərdi. Onun adı "Keşikçi qala"sıdır" (214, 242).

"Xan sarayı"nı İrəvan bölgəsində dövrün memarlıq cəhətdən ən möhtəşəm tikililərdən biri hesab etmək olar. İrəvan hakimlərinin iqamətgahı olan saray burada olan əcnəbilərin daim diqqət mərkəzində olmuşdu. J.Şardən yazırdı ki, "Hakimin sarayı Zəngi çayının sahilindəki qorxulu uçurumun kənarında yerləşirdi. Bu, gözəl və çox böyük bina idi və yay aylarında çox gözəl təəssürat bağışlayırdı" (214, 242). Məlumata görə, yeni xan sarayı müstəqil İrəvan xanlığının hakimi Hüseynəli xan (1759-1783) tərəfindən tikdirilmişdi. Lakin bu fikirlə razılaşmaq olmaz. Ümumiyyətlə, İrəvan qalasında olan xan sarayı 1510-cu ildə Əmirgünə xan Qacar tərəfindən tikilmişdi (300, 58-59; 495, 155; 33, 180). Hüseynəli xan isə mövcud xan sarayını yenidən qurmuş, onu təkmilləşdirmişdi. Hətta bu məqsədlə o, xoylu Əhməd xanın baş memarı Mirzə Cəfəri İrəvana dəvət etmişdi (49, 13).

"Xan sarayı" qalanın şimal-qərb hissəsində, Zəngi çayına yaxın yerdə tikilmişdi. Onun pəncərələri bu çayın daşlı sahillərinə açılırdı. Saray dördkünclü və çoxlu otaqları olan bir bina idi. O, üç ayrı-ayrı hissədən ibarət olmuşdu. Burada hakimin arvadları üçün hərəm otaqları, qəbul otağı, qulluqçular üçün yerlər və qarnizon anbarları yerləşirdi. Üçüncü hissə hakimin yaşayış yeri idi (241, 28; 217, 444; 148, 230; 256, 27-28).

"Xan sarayı"na gözəllik verən "Şüşəbənd" adlanan güzgülü salon və "Yay köşkü" isə 1791-ci ildə Məhəmməd xan (1784-1805) tərəfindən tikdirilmişdi. "Şüşəbənd" adlanan güzgülü zal gözləmə salon və yaxud qəbul otağı hesab olunurdu. Salon sahəsinə görə

böyük olmaqla bərabər, ona bitişik otaqlar vardı. Onun döşəməsi mərmərdən, divarları, tavanı və karnizi isə işıqları əks etdirən müxtəlif rəngli, gözoxşayan şüşələrlə naxışlanmışdı. Döşəmə bahalı xalçalarla bəzədilmişdi. Güzgülü salonun iki buxarısı vardı. Buxarının biri girişin əks tərəfində, digəri isə sağ tərəfdəki divarda yerləşirdi. Bu buxarı yarımdairə oyuq formasında idi. Salonun divarları başdan-başa Fətəli şahın, onun oğlu Abbas Mirzənin, Hüseynqulu xanın, qardaşı Həsən xanın, əfsanəvi qəhrəmanlar Fərəməzin, Rüstəmin, Zöhrabın və döyüş səhnələrini əks etdirən müxtəlif şəkillərlə bəzədilmişdi (159, 43; 217, 444; 148, 230-231; 256, 28-29; 235, 65).

Sarayın çox gözəl həyəti, bağı, fəvvarəsi və süni gölü vardı. Həyətdə üç fəvvarəli çarhovuz və hərəmxananı əhatə edən bir neçə ağac ucalırdı (148, 230-231).

"Yay köşkü" sərdar bağında, Zəngi çayının sağ sahilində tikilmişdi. Köşkün binası memarlıq baxımından diqqəti cəlb etmişdi. Sərdar öz hərəmləri ilə burada dincələrdi (217, 445).

Bu möhtəşəm binanın sonrakı taleyi haqqında İrəvanda olmuş səyyah və hərbçilərdən N.Nefedyev, A.Qakstqauzen, knyaz Amilaxvari və X.F.B.Linç ətraflı məlumat vermişdilər. Belə ki, İrəvan qalası işğal olunarkən güclü bombardman edildiyindən evlərin çoxu dağıdılmış və rus idarəçiliyi altında öz əhəmiyyətini tamamilə itirmişdi. Lakin qalada olan xan sarayı uzun müddət öz əhəmiyyətini saxlamışdı. İşğaldan sonra xanın yaşadığı otaqlarda vilayət hakimləri məskən salmışdı. Hərəmxana otaqları isə hərbi xəstəxanaya çevrilmişdi (256, 27; 148, 230). Onun möhtəşəmliyi çar I Nikolayı da maraqlandırmışdı. O, 1837-ci ildə Cənubi Qafqazda olarkən bu sarayla tanış olmuş, hətta bir neçə gün sərdarın otaqlarından birində qalmışdı. 1850-ci ildə onun varisi də bir müddət bu sarayda məskunlaşmışdı (217, 444).

Lakin Rusiya orqanları bu möhtəşəm binaya qısqanclıqla yanaşmışdılar. Burada olan səyyah və hərbiçilər xan sarayının əvvəlki şan-şöhrətindən əsər – əlamət qalmadığını qeyd edmişdilər. Belə ki, Rusiya işğalından bir neçə il keçdikdən sonra İrəvanda olan səyyah A.Qakstqauzen yazırdı ki, "..mən xan sarayının yerləşdiyi

qalaya baş çəkdim. Qala güclü tənəzzülə uğramışdı. Xan sarayı dağılmış halda idi… Rus məmurlarının toxunulmaz tarixi binalara və abidələrə nadir hallarda canı yanırdı" (148, 230-231). Məmurların bu cür abidələrə düşmən münasibətini bir rus məmuru da etiraf edirdi: "Bizim hakimlər heç nəyə baxmadan belə abidələri köhnəlmiş və yararsız hesab edərək yer üzündən silməyə çalışırdılar" (223, 448). X.Linç isə burada olarkən xan sarayının hərəmxanasının, anbarların və qulluqçulara məxsus otaqların dağıdıldığını, yalnız xanın dincəldiyi pavilyonun (bağ və parklarda yüngül tikili – E.Q.) salamat qaldığını qeyd etmişdi (241, 281).

İşğaldan sonra uzun müddət baxımsız qalan "Xan sarayı", nəhayət, 1918-ci ildə erməni vəhşiləri tərəfindən tamamilə dağıdılmışdı. Onun şəkilləri isə 1913-cü ildə Tiflisə aparılmış və onlardan bir neçəsi hal-hazırda Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır (33, 180).

Beləliklə, qeyd etmək lazımdır ki, İrəvan bölgəsinin mədəniyyəti tarixən Azərbaycan mədəniyyətinin tərkib hissəsi olmuşdu. Dövrün mənbələrinə görə, bölgə mədəniyyətinin müxtəlif sahələrində – istər təhsil, istər incəsənət, memarlıq və digər sahələrdə Azərbaycan türkləri əsas rol oynamış, digər etnik qruplara böyük təsir göstərmişdi.

# NƏTİCƏ

Beləliklə, aparılmış tədqiqatlar göstərdi ki, Azərbaycanın İrəvan bölgəsi bəhs etdiyimiz dövrdə siyasi vəziyyətlə əlaqəqar olaraq müxtəlif vaxtlarda Səfəvi, Osmanlı, Əfşar, Qacar dövlətlərinin tərkibinə daxil olmuş, müəyyən tarixi dövrdə (1747-1827) isə müstəqil xanlıq kimi fəaliyyət göstərmiş və 1827-ci ilin oktyabrında Rusiya tərəfindən işğal olunmuşdu.

İrəvan XVII yüzilliyin sonu-XVIII yüzilliyin əvvəllərində Azərbaycan Səfəvilər dövlətinin inzibati-ərazi bölgüsünə daxil olan Çuxursəd bəylərbəyliyinin mərkəzi əyaləti olmuşdu. Bir tərəfdən əlverişlı strateji mövqedə yerləşdiyi, sərhəd bölgəsi olduğu, digər tərəfdən isə qərb tərəfdən Azərbaycanın mərkəzi bölgələrinə uzanan əsas yolun buradan keçdiyinə görə mərkəzi hakimiyyət buraya ciddi fikir vermiş, özlərinə sadiq və nüfuzlu əyanları bölgəyə hakim təyin etmişdilər. Bölgənin inzibati-iqtisadi və hərbi işləri tamamilə bu hakimlərin əlində cəmləşirdi. Onların rəhbərliyi altında burada çoxsaylı məmurlar ordusu fəaliyyət göstərirdi. Bölgə digər dövlətlərin tərkibində olanda da belə olmuşdu.

XVII yüzilliyin sonu-XVIII yüzilliyin əvvəllərində Səfəvilər dövləti dərin iqtisadi və siyasi böhran keçirdiyindən mərkəzi hakimiyyət zəifləmiş, ölkədə hərc-mərclik, əhali arasında narazılıqlar və şah hakimiyyətinə qarşı üsyanlar başladı. Bundan istifadə edən iki nəhəng dövlətin-Rusiya və Osmanlı imperiyalarının Azərbaycana işğalçı müdaxilələri başladı. Nəticədə Xəzərsahili ərazilər Rusiyanın, İrəvan bölgəsinin də daxil olduğu əksər Azərbaycan torpaqlari isə Osmanlı işğalı altına keçdi. Burada təxminən 11 ilə qədər davam etmiş Osmanlı üsuli-idarəsi yaradıldı.

Lakin XVIII yüzilliyin 20-ci illərin axırları-30-cu illərin əvvəllərində tarix səhnəsinə çıxan görkəmli Azərbaycan dövlət xadimi və sərkərdəsi Nadir xan Əfşar xalqı öz tərəfinə çəkərək, Rusiya

və Osmanlı dövlətləri tərəfindən Səfəvi imperiyasının işğal olunmuş ərazilərini azad etdi. 1735-ci ilin yayında İrəvan ərazisində Osmanlı qoşununu məğlub edən Nadir xan bu bölgəni yenidən Səfəvilər dövlətinə geri qaytara bildi. 1736-cı ilin martında Nadir şah elan olunduqdan sonra İrəvan bölgəsi onun yaratdığı dövlətin inzibati ərazilərindən olan Azərbaycan bəylərbəyliyinin tərkibinə qatıldı. İrəvanı şahın təyin etdiyi hakimlər idarə etməyə başladılar.

Böyük imperiya yaradan Nadir şahın apardığı fasiləsiz müharibələr, soyğunçu vergi siyasəti xalqı var-yoxdan çıxarırdı. Cana doymuş xalq şah hakimiyyətinə qarşı üsyanlar qaldırdı. Mənbələrin araşdırılması göstərir ki, şahın hakimiyyətinin son illərində müxtəlif bölgələrdə, o cümlədən İrəvanda əhali üsyan qaldırmışdı. Bu üsyanın gedişində irəvanlılar şahın təyin etdiyi hakimi İrəvandan qovmuş, hətta Nadir şahın əmisi oğlu Əmiraslan xanın başçılığı ilə göndərilmiş qoşunu məğlub edə bilmişdilər.

1747-ci ildə Nadir şah süi-qəsd nəticəsində öldürüldükdən sonra onun yaratdığı imperiya dağıldı. Mərkəzdə taxt-tac uğrunda mübarizə getdiyindən əhali üsyan edərək şahın təyin etdiyi hakimləri qovmuş və yerlərdə hakimiyyəti ələ keçirmişdilər. Beləliklə, Azərbaycanda 20-ə yaxın xanlıq yaranmışdı. Onlardan biri də İrəvan xanlığı idi.

İrəvan xanlığı Azərbaycanın qərb ucqarlarında yaranmışdı. Bu xanlıq şimaldan və şimali-şərqdən Kartli-Kaxetiya çarlığı, Qazax, Şəmşəddil sultanlıqları və Gəncə xanlığı ilə, cənubdan və cənub şərqdən Xoy və Naxçıvan xanlıqları ilə, şərqdən Qarabağ xanlığı, qərbdən isə Osmanlı imperiyası ilə həmsərhəd idi. İrəvan xanlığının sərhədləri siyasi vəziyyətlə əlaqədar olaraq vaxtaşırı müəyyən dəyişiklərə uğramışdı. Belə ki, İrəvan xanlığına məxsus müxtəlif ərazilər Kartli-Kaxetiya çarlığı və Qarabağ xanlığı tərəfindən "qopardılmışdı". Bu ərazilərlə birlikdə İrəvan xanlığının ümumi sahəsi 114.444 kv.verstə bərabər olmuşdu. Hətta uzun illər Maku xanlığı da onun tərkibinə daxil olmuşdu.

Mənbələrin təhlili göstərir ki, İrəvan taxtına sahib olan hakimlər üç qismə bölünmüşdü. Birinci qismə xanlıq yaranarkən hakimiy-

yətdə olmuş qeyri-irəvanlı hakimləri (1747-1755), ikinci qismə yerli Qacarlardan olan hakimləri (1755-1805), üçüncü qismə isə Ağa Məhəmməd şahın yaratdığı Qacar dövləti tərəfindən təyin edilmiş hakimləri daxil etmək olar. Qeyd etmək lazımdır ki, fəaliyyət göstərdikləri dövrlərdə İrəvan hakimləri bəzi istisnalar olmaqla (məsələn, Makunun İrəvana tabe edilməsi – E. Q.) heç bir işğalçı siyasəti aparmamış, müstəqilliyini qorumağa çalışmış, qonşu dövlətlər və xanlıqlarla mehriban qonşuluq münasibətləri saxlamağa cəhd göstərmişdilər. Lakin İrəvan xanlığı bəzi hallarda müdaxilələrə də məruz qalmışdı. Bu xanlığın ən qatı düşməni Kartli-Kaxetiya çarlığı olmuşdu. Rusiyaya arxalanan bu çarlığın İrəvanda böyük təsiri olmuş, bəzən də irəvanlılar siyasi vəziyyətlə əlaqədar olaraq Tiflis sarayına vergi vermək məcburiyyətində qalmışdılar. Lakin İrəvan hakimləri Hüseynəli xan (1759-1783), onun oğlanları Qulaməli xan (1783-1784) və Məhəmməd xan (1784-1805) bu nominal asılılıqdan çıxmaq üçün daima mübarizə aparmış və buna da nail olmuşdular.

Mənbələrin araşdırılması göstərir ki, müstəqil İrəvan hakimləri müdaxiləyə və hər hansı təhlükəyə məruz qaldıqda bəzən Osmanlı sarayına da müraciət etmişdilər. Osmanlı sarayı hərbi kömək göstərməsə də, onun nüfuzu və diplomatik təzyiqləri uzun illər İrəvanı rus-gürcü birliyindən qoruya bilmişdi.

İrəvan xanlığının xarici siyasətində Qacar dövlətinə qarşı mübarizə əsas yerlərdən birini tutmuşdu. Məlumdur ki, XVIII yüzilliyin 90-cı illərin əvvəllərindən İranda hakimiyyətini möhkəmləndirmiş Ağa Məhəmməd xan Qacar Azərbaycan xanlıqlarını, eyni zamanda İrəvan xanlığını özünə tabe etmək siyasəti yeridirdi. Bu dövrdən başlayaraq İrəvan hakimi Məhəmməd xan (1784-1805) Azərbaycanın digər qüvvələri ilə bu təhlükəyə qarşı mübarizə aparmışdı. Həbs olunmasına baxmayaraq, Qacar hakiminin bu siyasətinə müxtəlif yollarla müqavimət göstərən Məhəmməd xan müstəqilliyini qoruyub saxlaya bilmişdi. Lakin Ağa Məhəmməd şah Qacarın varisi Fətəli şah (1797-1834) 1805-ci ildə onun hakimiyyətinə son qoymuş və İrəvanı Qacar dövlətinə birləşdirmişdi.

Lakin sonuncu hakim Hüseynqulu xanın (1806-1827) dövründə İrəvan müstəqil xanlıq kimi fəaliyyət göstərmişdi.

İrəvan xanlığının müstəqilliyinə ən böyük təhlükə Rusiya olmuşdu. Uzun illər Azərbaycanda, o cümlədən İrəvanda kəşfiyyat işləri aparan, bu bölgəni hərtərəfli öyrənən bu dövlət gələcək müdaxilə üçün möhkəm zəmin hazırlamışdı. Əvvəlcə Osmanlı dövlətindən ehtiyat edərək Kartli-Kaxetiya vasitəsilə İrəvana təsir göstərən Rusiya, XIX yüzilliyin əvvəllərindən açıq müdaxiləyə başladı. Çarizm birinci Rusiya-Qacar müharibəsi dövründə (1804-1813) İrəvanı işğal etməyə çalışsa da, buna nail olmamışdı. Mənbələr göstərir ki, ermənilər tərəfindən xəyanətlə üzləşməsinə baxmayaraq, irəvanlılar dəfələrlə rus qoşunlarına qarşı qəhrəmanlıqla mübarizə aparmış, müstəqiliklərini qoruyub saxlaya bilmişdilər. Rusiya İrəvan xanlığını işğal etmək üçün 23 il gözləməli olmuşdu. Yalnız 1827-ci ilin oktyabrında meydanda tək qalan irəvanlılar dövrün hərbi texnikası ilə mükəmməl silahlanmış rus qoşunlarına uduzmaq məcburiyyətində qalmışdılar. Bu işğaldan sonra İrəvan bölgəsi 1917-ci ilə qədər çar Rusiyanın tərkibində qalmışdı.

İrəvan bölgəsi bəhs etdiyimiz dövr çərçivəsində Azərbaycanın digər bölgələrində olduğu kimi, inzibati-ərazi bölgüsü cəhətdən mahallara və kəndlərə bölünürdü. Mahallar mirbölük adlanan mahal naibləri, kəndlər isə kəndxudalar tərəfindən idarə olunurdu. Qeyd etmək lazımdır ki, siyasi vəziyyətlə əlaqədar olaraq bölgənin mahallar bölgüsü bir neçə dəfə dəyişikliyə uğramışdı. Araşdırmalar göstərir ki, XVIII yüzilliyin 30-cu illərin ortalarına qədər İrəvan bölgəsi 1 şəhər, 17 mahaldan, xanlıq yaranan ərəfədə 9 mahaldan, XVIII yüzilliyin 60-cı illərdən 1802-ci ilə qədər 16, 1802-1805-ci illərdə 15, 1805-1810-cu illər arasında 14, 1810-1827-ci illər arasında 16 mahaldan ibarət olmuşdu. Rusiya işğalından sonra İrəvan bölgəsi bu dövlətin inzibati-ərazi bölgüsünə uyğun dairə və qəzalara bölündü. Belə ki, ilk islahata görə, 1828-ci il martın 21-də çarın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində “Erməni vilayəti” adlı inzibati qurum yaradıldı. Yaradılan yeni inzibati quruma keçmiş İrəvan və Naxçıvan xanlıqları və Ordubad dairəsi

daxil idi. 1833-cü il iyunun 23-də verilmiş qanununa əsasən isə İrəvan əyaləti 4 – İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Lakin bu bölgü də sonuncu inzibati-ərazi dəyişikliyi olmadı. Belə ki, 1840-cı il aprelin 24-də Cənubi Qafqazda keçirilən yeni inzibati-ərazi islahatına görə "Erməni vilayəti" ləğv edilmiş, İrəvan və Naxçıvan bölgələri qəza kimi yeni yaradılmış Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil olmuşdu. 1849-cu il iyunun 9-da isə İrəvan quberniyasının yaradılması haqqında qanun verildi. Bu qanuna görə, İrəvan quberniyası beş – İrəvan, Yeni-Bəyazid, Naxçıvan, Ordubad və Aleksandropol qəzalarına bölündü.

Bəhs etdiyimiz dövrdə bu torpaqların hansı dövlətin tərkibinə daxil olmasından olmayaraq İrəvan şəhəri həmişə bölgənin mərkəzi olmuşdu. O, Osmanlı imperiyasına, Kartli-Kaxetiya çarlığına, İrana və Azərbaycanın müxtəlif bölgələrinə gedən karvan yollarının qovşağında yerləşdiyindən böyük ticarət və sənətkarlıq mərkəzlərindən birinə çevrilmişdi. XVI yüzilliyin 80-cı illərindən başlayaraq İrəvan şəhər-qala kimi məşhurlaşmışdı. İrəvan hakimlərinin iqamətgahı şəhərdə, sonra isə güclü müdafiə sisteminə malik İrəvan qalasında yerləşmişdi.

İrəvan bölgəsinin iqtisadi həyatında kənd təsərrüfatı mühüm rol oynamışdı. Əlverişli təbi-coğrafi şəraiti, rəngarəng iqlimin, bol sulu çayların olması İrəvan bölgəsində də iqtisadiyyatın təməlini təşkil edən kənd təsərrüfatının inkişafına zəmin yaratmışdı. Kənd təsərrüfatında əsas yeri əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq tuturdu. Əkinçilikdə buğda, arpa, çəltik, texniki bitkilərdən pambıq, tütün, küncüt, kətan becərilməsi, baramaçılıq aparıcı sahələrdən idi. Bölgədə meyvəçilik və üzümçülük xüsusilə güclü inkişaf etmişdi. Burada müxtəlif meyvə növləri, bostan bitkiləri yetişdirilirdi.

Torpağın şumlanmasında kotan və xışdan istifadə olunurdu. Məhsul isə oraqla biçilirdi. Xanlıqda bol sulu çayların olması süni suvarmanın inkişafına şərait yaradırdı. Su işində həmişə ciddi dövlət nəzarəti olmuşdu. Bu işin dövlət nəzarətçiləri mirab və onlara tabe olan cuvarlar idi. Dağlıq ərazilərdə isə əkinçiliyin dəmyə üsuluna üstünlük verilirdi.

İrəvan bölgəsinin kənd təsərrüfatında maldarlığın əvəzolunmaz yeri olmuşdu. Geniş otlaq sahələrinə malik olan İrəvan Azərbaycanda tarixən maldarlığın inkişaf etdiyi bölgələrdən biri idi. Qırxbulaq, Göyçə, Abaran, Dərəçiçək, Gərnibasar, Vedibasar, Talın, Sürməli və Dərəkənd-Parçenis mahallarında əlverişli və zəngin otlaq sahələri var idi. Bölgədə elatlar əsasən köçmə və köçəri maldarlıqla məşğul olurdu. Köçmə maldarlıqla Azərbaycan türkləri, köçəri maldarlıla isə kürdlər məşğul olurdular. Maldarlıqda qoyunçuluq daha çox inkişaf etmişdi. Bundan əlavə əhali iribuynuzlu malqara, at, eşşək, qatır, dəvə də saxlayırdı.

İrəvan bölgəsində torpaq üzərində müxtəlif mülkiyyət formaları mövcud olmuşdu. Torpaq sahibliyinin 6 forması vardı: 1.xass; 2.divani; 3.mülk; 4.tiyul; 5.vəqf; 6.icma torpaqları. Mənbələrdən məlum olur ki, qeyd etdiyimiz dövr ərzində bu torpaq mülkiyyətlərində heç bir dəyişiklik olmamışdı. Yalnız «divani» müstəqil xanlıq dövründə xan torpaqlarına birləşdirilərək, İrəvan hakimlərinin tam ixtiyarına keçmişdi. Rusiya işğalından sonra isə bu torpaq mülkiyyət forması xəzinənin sərəncamına verildi.

İrəvan bölgəsinin iqtisadi həyatında duz hasilatı da böyük rol oynamışdı. İrəvan duzu bölgənin qərb qurtaracağında, Qulp kəndində hasil olunmuş, keyfiyyətinə görə xüsusilə seçilmişdi. O, xəzinəyə böyük gəlir gətirirdi. Qulp kəndi Osmanlı dövlətindən, İrandan, Kartli-Kaxetiya çarlığından və Azərbaycanın müxtəlif xanlıqlarından gələn ticarət karvanları ilə dolu olardı. Rusiya işğalından sonra yeni hakimiyyət orqanları duz hasilatında "zavod" sistemi yaratdılar.

